Ülkər Hüseynova

CÜMHURİYYƏT ADAMI

Ülkər Hüseynova

134941

CÜMHURİYYƏT ADAMI

Azərbaycan milli kitabxanası

Bakı–2021

Şirməmməd Hüseynovun 100 illiyinə

Tərtib edəni və redaktoru: **Ülkər HÜSEYNOVA**

CÜMHURİYYƏT ADAMI.
Bakı: 2021,– 528 səh.

Hələ sağlığında canlı əfsanə, ləyaqət mücəssəməsi, jurnalistikamızın patriarxı, mətbuatşünaslıq elminin babası, Azərbaycan mətbuatının pərvanəsi, aydın görünən aydın, təqaüdünü millətə xərcləyən kişi, pislik etməkdən qorxmayan kişi, jurnalistikamızın sərkərdəsi, mərdlər içərisində mərdliyi ilə seçilən insan, dövrün, zamanın salnaməsi, dövrümüzün Zərdabisi, talisman, istiqlal işığı, müasir Rahmetovlardan biri və s. kimi tanınan Şirməmməd Hüseynovun vəfatı Azərbaycanda bu gün nəşr olunan mətbuat orqanlarının səhifələrində çox geniş işıqlandırıldı.

İyun ayının 25-dən başlayaraq, bir neçə gün qəzetlərimizdə, internetdə, televiziya kanallarında Şirməmməd Hüseynova məhəbbətini bildirənlər Cümhuriyyət adamı haqqında yeni sözlər yazdılar, həmkarları, tələbələri onlar üçün də çox ağır olan bu itkini qələmləri ilə xalqımızla bölüşmək üçün ürək sözlərini yazdılar, internet səhifələrində bölüşdülər. Kitabda həmin yazıların bir qismi və hələ sovet dönəmində onun haqqında yazılmış məqalələr, 2004-cü ildə BDU-da anadan olmasının 80 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirindəki çıxışlar, Şirməmməd Hüseynovun arxivindəki mətbuatımızda çap olunmamış məqalələrindən bir neçəsi toplanmışdır.

ISBN 978-9952-541-45-8

© Ü.Hüseynova, 2021

Şirməmməd Hüseynov

Şirməmməd müəllimin çıxışı mənim üçün çox böyük maraq doğurdu... Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 1970-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi – "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı, xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
24 noyabr 2013

UNİVERSİTETDƏ KEÇƏN ÖMÜR

Bakı Dövlət Universitetində 95 illik uzun ömrünün 75 ilini pedaqoji fəaliyyətə həsr etmiş ikinci bir Müəllimə yəqin ki, bir daha rast gəlinməyəcək. Bəlkə də mənim bu sözlərimə etiraz edənlər olacaq. Ancaq qətiyyətlə dediyim bu fikrimi əsaslandıra bilərəm. Əvvəla, dünyaya gələn hər insan övladına atalar demişkən, "səksən, doxsan, bir gün yoxsan" demişlər, deməli doxsan yaş son həddi kimi götürülür. İkincisi, hər uzun ömür yaşayan 95 yaşına qədər Şirməmməd müəllim qədər sağlam ömür sürmür, üçüncüsü, 95 yaşına qədər hafizəsi, yaddaşı, iş qabiliyyəti, auditoriyaya girib informasiya-kommunikasiya texnologiyaları dövrünün gənc nəslinə müasir səviyyədə mühazirə oxumaq iqtidarında olmur, dördüncüsü isə, müəllim-pedaqoqluğu hər bir peşədən üstün tutub doğma kollektivinə bu qədər bağlana bilmir.

Ona dəfələrlə yüksək vəzifələr təklif edilib, lakin yüksək vəzifələrin nə maaşı, nə də müxtəlif imtiyazları onu cəlb etməyib. O, dövrünün böyük ziyalısı olan Firidun bəy Köçərlinin vaxtı ilə dediyi "bir milləti məhv etmək üçün ikicə şərt kifayətdir: belə ki, əgər müəllimi savadsız olsa, o ruhən məhv olar, həkimi kəmsavad olsa cismən" müdrik fikrini dönə-dönə tələbələrinə bir aksioma kimi söyləyərdi. Müsahibələrindən birində deyirdi: "Belə görünə bilər ki, universitetdə çalışan 1.116 müəllimin hamısı o yerində, hər bir şey öz qaydasındadır (1988-ci il). Bəs belə isə nə üçün hazırlanan kadrların əksəriyyətinin səviyyəsi aşağı və hətta bəziləri lap zaydır. Bizdə ümumi prinsipiallıq, vahid tələbkarlıq, xalqımızın gələcək taleyini düşünmək, vətəndaşlıq və milli qeyrət hissi bəzən çatışmır. Mən böyük müəllim və maarifpərvər Firidun bəy Köçərlinin vaxtı ilə nəzərə çarpdırmaq istədiyi belə bir fikri yada salmaq istəyirəm ki, "əgər bir xalqı məhv etmək, onu adam toplusuna çevirmək istəyirsinizsə, müəllimini savadsız, həkimini isə kəmsavad eləyin. Biri onun başını, o biri isə canını zay eləsin".

Şirməmməd Hüseynov 75 illik pedaqoji fəaliyyəti dövründə, istər Şəki kəndlərində, istərsə də Bakı Dövlət Universitetində pedaqoq işləyərkən müəllim peşəsinə müqəddəs yanaşıb.

Üç qərinəyə bərabər bir müddətdə həyatının amalını xalqın gənc nəslinə tarixi düzgün dərk etmək, yaşadığı dövrün mürəkkəb, riyakar, 200 ilə yaxın öz kökündən qoparılıb, əlifbasının dəyişdirilməsinə, dinindən

uzaqlaşdırılmağa, sovetləşdirilməyə məcbur, sövq edilən Azərbaycana vətənpərvər, ayıq zehinli vətəndaşlar, jurnalistlər yetişdirmək bu müdrik pedaqoqun həyatının kredosu idi.

"Cümhuriyyət adamı" kitabında keçmiş tələbələrinin, dostlarının, həmkarlarının müxtəlif illərdə onun haqqında yazdıqları ürək sözləri bu klassik müəllim obrazını hərtərəfli, hər yönümdə tanımağa çox gur projektor kimi işıq salır: Gözlərimiz önündə ləyaqətli insan, vətəni könlünün məhbubu bilən, qarşısındakı tələbələrinin gələcək müstəqil Azərbaycanın memarları kimi görmək istəyən bir vətən oğlu canlanır.

O, tələbələrinə bir semestr dərs desə də, onların qəlbində həqiqət və ədalət etalonu kimi əbədi məskən salıq, tələbələri on illər keçsə də, onun haqqında yazmağı elə bil özlərinə borc bilirlər.

2005-ci il təzə girmişdi, yanvar ayının 5-i idi. Səhər, on radələrində telefona zəng gəldi. Dəstəyi qaldırdım. Zəng edən filologiya elmləri doktoru, professor Aqşin Babayev idi. Səsində qəribə bir həyəcan var idi. Hal-əhval tutduqdan sonra dedi: Ülkər xanım, "525-ci qəzet"də Şirməmməd müəllim haqqında məqalə çap olunub. Siz onun tələbələrindən Vəsilə Usubovanı tanımırsınız ki? Yox cavabını verdikdən sonra dəstəyi Şirməmməd müəllimə verdim.

Eyni sualı Aqşin müəllim "Şirməmməd müəllim Vəsilə adlı tələbənizi xatırlayırsınızmı?" verdi.

- Aqşin, düzü xatırlamıram. Tələbəmə nə olub ki?

- Şirməmməd müəllim, narahat olmayın, Vəsilə xanım sağ-salamatdır. "525-ci qəzet"də tələbəlik illərindən bəhs edən, sizə həsr olunmuş çox kövrək bir yazısı çıxıb: "Sizdən bir də olmayacaq".

Məqalədən əvvəl epiqraf kimi verilmiş "Dünyamızı pis kişilərin ümidinə qoymayın, Şirməmməd müəllim, yaşayın! Yazıqlar olar bizə!" sözləri, məqalədə yazılanlar, onun keçmiş tələbəsi kimi mənə də çox tanış idi.

Düz on ildən sonra, 90 yaşını qeyd etməyə hazırlaşarkən, Vəsilə xanım yeganə adam idi ki, Şirməmməd müəllim onu şəxsən yubileyinə dəvət etmişdi.

1950-54-cü illərdə Moskva Dövlət Universitetinin aspiranturasında təhsil illərində paytaxtdakı bir çox arxivlərdə işləyərkən özündən əvvəl yaşamış mütəfəkkirlərimizin – Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Ömər Faiq Nemanzadə və b. ziyalılarımızın publisistikasını, fəaliyyətini, yaradıcılığını hərtərəfli öyrənib tədqiq edib, onlardan öyrənməyi gələcək nəsillərə də "vəsiyyət" edirdi.

60 il birgə ömür yolumuzda onun bir dəfə də olsa, öz əqidəsindən, məsləkindən azacıq da olsa dönə biləcəyini görmədim. İstər sovet dövründə, istərsə də 30 ilə yaxın müstəqillik dövründə o, hadisələrə düzgün qiymət verməyi bacardı, sovet dövründə əgər həqiqəti demək mümkün olmayanda isə o, susurdu.

Şirməmməd Hüseynovun sovet dövründə yazdığı məqalələrin sayı az idi. Lakin müstəqillik qazandıqdan sonra onun aktual problemlərə həsr olunmuş yüzlərlə yazısı "Azərbaycan", "Aydınlıq", "Günay", "Bərəkət", "Ülfət", "Həyat", "Azadlıq", "Yeni Müsavat", "525-ci qəzet", "7 gün", "Dalğa", "Mədəniyyət" və s. qəzetlərdə çap olundu. Bu məqalələrin böyük bir qismi toplanaraq "Müstəqilliyin çətin yolu, Biz hara gedirik" kitabında (1996 və 2004-cü illər) çap olundu. Qəzetlərdə çap olunmuş digər məqalələri isə "Mənəvi irsimiz və gerçəklik", 2004-cü il, "Adiloğlu" nəşriyyatı, "Milli haqq və ədalət axtarışında", 2004-cü il, "Adiloğlu" nəşriyyatı, "Mətbu irsimizdən səhifələr", Bakı, 2007, "Çənlibel" nəşriyyatı, "Mənəvi irsimiz və gerçəklik" kitabı isə iki cilddə həm də rus dilində "Нравственное наследие и современность" adı ilə "Çənlibel" və "Elm" nəşriyyatlarında 2007-ci ildə çap olundu. Ömrünün son günlərinədək təxminən 18 ilədək onun "525-ci qəzet"də hər həftənin şənbə nömrəsində bir, bəzən də iki səhifə yazıları çap olunurdu (bu yazılar əsasən XX əsrin əvvəllərindən aprel çevrilişinə qədər Azərbaycanda nəşr olunan qəzetlərdə bu günümüz üçün də həm gərəkli, həm də aktual olan yazıların şərhi ilə bərabər məqalənin özünün yenidən nəşrindən ibarət olurdu). Onun axırıncı yazısı "525-ci qəzet"in 22 iyun şənbə nömrəsində çap olundu. Bu tarixdən sonra "525-ci qəzet"də onun səhifələri birdəfəlik qapandı. Ölüm xəbərini eşidən qəzetin əməkdaşlarından Şahanə Müşfiq ürəkağrısı ilə demişdi: Daha qəzetimizdə Şirməmməd müəllimin səhifələri olmayacaq.

Vəfatından sonra onun haqqında 40 gün ərzində mətbuatda çap olunmuş yazıların bir qismini toplayıb "Sizdən bir də olmayacaq. Əlvida" adı ilə kitab şəklində "AfPoliqraf" nəşriyyatında məhdud nüsxədə çap etdirdim. Övladlarıma, nəvə və nəticələrimə ata və babalarını gələcəkdə xatırlamaq və tanımaq üçün.

Lakin mətbuatımızda Şirməmməd Hüseynov haqqında onlarla yazılar dərc edilmişdir. Mən onları da toplayıb ikinci bir kitabda "Cümhuriyyət adamı" adı altında çap etməyi qərara aldım. Qarşınızdakı kitabda onun haqqında müxtəlif illərdə yazılmış məqalələr, şeirlər də yer almışdır.

Vəfatının 1 illiyi münasibətilə onu ürəkdən sevən, "525-cilər" onun keçmiş tələbələri qəzetin xüsusi bir buraxılış nömrəsini çap etdilər. "525-ci qəzet"in həmin sayı da kitabda bütünlüklə verilmişdir.

Arxivindəki çap olunmamış yazılarını, "Pravda" qəzeti və "Detskaya literatura" jurnalına göndərdiyi tənqidi məktublar və ona göndərilən cavablar, 1984-cü ildə Ermənistan Respublikasının rəhbəri Dəmirçiyana yazdığı məktub kitaba daxil edilmişdir. Keçən əsrin 80-ci illərindən ermə-

nilərin Qarabağı yenidən işğal etmək üçün hazırlaşdığını hiss edən Şirməmməd Hüseynov hələ 1984-cü ildə Ermənistan Respublikasının Birinci katibi Karen Dəmirçiyana yazdığı məktubunda ermənilərı bu məkirli iddiadan uzaqlaşdırmağı məsləhət görürdü. SSRİ-nin dağılıb, parçalanmasına 8 il qalırdı. Erməni "siyasətçiləri" həmişə olduğu kimi, cəmiyyətdə çox ciddi çaxnaşmaların, çevrilişlərin olacağını əvvəldən hiss edib, torpaq tutmaq, qondarma vətən yaratmaq üçün bütün "istedadlarını" səfərbər etməyə başlamışdılar. Dövrünün guya tanınmış iqtisadçısı sayılan A.Aqanbekyan Fransada çıxan jurnallardan birində Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi məsələsindən bəhs edən məqalə ilə çıxış etmişdi. Dalınca Z.Balayanın "Ocaq"ı nəşr olunmuşdu. Azərbaycandan növbəti torpaqların qoparılması kompaniyasına sanki start verilmişdi.

Şirməmməd müəllim müsahibələrinin birində demişdi: "Tarix heç vaxt təkrar olunmur, hadisələr təkrarlanır. Allah hər bir milləti yaradıb və millətlər torpaqlara sahib çıxıblar. Qoruya bilsən torpaq sənindir, qoruya bilməsən özgənin. "Torpaq uğrunda ölən varsa, vətəndir" .

Universitetdə Ş.Hüseynovun 80 illiyi münasibəti ilə keçirilmiş yubileydəki çıxışlar, Bəxtiyar Vahabzadənin, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik İsa Həbibbəylinin, Xalq şairi Nəriman Həsənzadənin, Dəmir Gədəbəylinin, aşıq Əhliman Şirvanlının və Cəbrayıl qaçqını, ingilis dili müəllimi Həsən Təhməzlinin, mühəndis Valeh Nəsibovun Şirməmməd Hüseynova həsr olunmuş şeirləri də kitaba salınmışdır.

Vəfatının bir illiyi münasibəti ilə qəzetlərdə çıxan yazılardan birində yazılmışdı: "Həsən bəy Zərdabinin vəfatından sonra Azərbaycan jurnalistlərindən heç kim belə böyük izdihamla yola salınmamışdır".

Həqiqətən, iyunun 25-də havanın hərarəti 38 dərəcədən yüksək idi. Buna baxmayaraq, Şirməmməd müəllimi yalnız Bakıda yaşayanlar yox, həm də Azərbaycanın müxtəlif şəhərlərindən gəlmiş keçmiş tələbələri son mənzilə yola salmağa gəlmişdilər.

Universitetdə keçirilən vida mərasimində akt salonuna girə bilməyən tələbələri BDU-nun həyətində onun heç olmasa tabutunu müşayiət etmək üçün isti yay günündə saatlarla səbrlə gözlədilər və müəllimlərini axirət dünyasına yola saldılar.

Şirməmməd müəllim o xoşbəxt azərbaycanlılardandır ki, sağlığında həm dövləti tərəfindən, həm də xalqı tərəfindən sevildiyini, qiymətləndirildiyini gördü. "Şərəf ordeni" ilə təltif olundu. Onun 90 yaşına keçmiş tələbələrindən, filologiya elmləri doktoru Cahangir Məmmədli və Yusif Hüseynov "İstiqlalın işığında", 94 yaşına isə akademik Rafael Hüseynovun 8 çap vərəqi həcmində "Millət yaddaşının keşikçisi" kitabını yazdılar. "Millət yaddaşın keşikçisi" əsərində Şirməmməd müəllimin həm keşməkeşli həyat yolu, həm də pedaqoji fəaliyyəti dövründə universitet həyatındakı bəzi maraqlı məqamlar işıqlandırılmışdır. "Şirməmməd ustadın yaşı bir əsri haqlayır və bu uzunluqda ömür boyunca daim millət eşqi ilə, yurda fayda verməklə yaşamış, Mövlana Cəlaləddinin dediyi kimi həmişə göründüyü kimi olub, olduğu kimi də görünmüş daha neçə həmvətənimiz var?" – yazan Rafael Hüseynov Şirməmməd müəllimə bağışladığı kitabında bu sözləri də qeyd etmişdi... Əziz Şirməmməd müəllim, Sizə ad günü hədiyyəsi (94 yaşına) olan bu kitab bir həftəyə – qaçhaqaçda, uçhauçda yarandı. Hələ görün 100-ünüzdə nələr yazılacaq!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının müəllimi Ramiz Orsərin "Haqqın səsi" kitabı çap olunmuşdur. "Haqqın səsi" kitabının hələ "Ədalət" qəzetində çıxan fəsillərini oxuyarkən o, bir cümlə ilə öz rəyini belə bildirmişdi, "Ay Ülkər, bu Ramiz kimdirsə, nə yaman yazıb". Təəssüf ki, o, bu əsərin kitab şəklində çapını görə bilmədi.

Universitet kollektivinin dəfn mərasiminə göndərdiyi gül çələnginin qara lenti üzərində "Əziz müəllimimiz, məkanın cənnət olsun" sözləri yazılmışdı. Şirməmməd müəllim xoşbəxt pedaqoq idi. Universitet tarixində sağlığında 4 dəfə yubileyi keçirilmiş müəllimə nadir təsadüf edilə bilər. Keçirilmiş yubiley tədbirlərindən sonra işlədiyi kollektiv yubileyi albomlaşdırıb ona təqdim edirdilər. Belə bir albomu o, keçmiş tələbəsi Maral Poladovadan almışdı. Həmin albomlar evimizdə əziz bir xatirə kimi qorunur.

Arxivində öz xətti ilə yazılmış üç səhifəlik yazı da diqqətimi cəlb etdi. Bu, Bakı Dövlət Universitetinin ilk jurnalist məzunlarının və həmin məzunlara dərs deyən müəllimlərin siyahısı idi. Jurnalist aləminə maraqlı olacağını düşündüyüm üçün onu da bu kitaba daxil etdim. Əlyazma şəklində olan, lakin heç yerdə çap olunmayan yazılarından da bir neçəsini kitabda oxuya bilərsiniz.

Doğmalarının onun II Fəxri Xiyabandakı məzarını tez-tez ziyarət etməsi təbiidir. Mən hər dəfə onun məzarını ziyarət edərkən tanımadığım yad adamların da onun məzarı qarşısında dayanıb onu yad etməsi, mənə isə onun haqqında çox qiymətli ürək sözlərini deməsini unuda bilmirəm, onun məzarı üstündən bəzən böyük bir dəstə, bəzən də iki dənə al qərənfil əskik olmur.

2021-ci il yanvarın 2-də nəvəm Toğrulla xiyabana "Yeni il görüşünə" getmişdim. Hava sərt idi, karantin dövründə üç saatlıq çölə çıxmaq icazəsi olsa da, xiyabana Vətən müharibəsi şəhidlərinin ziyarətinə gələnlərin ardı-arası kəsilmirdi. Xiyabana girərkən Şirməmməd Hüseynovun məzarı üstündə üç körpə uşaq və atanı gördüm. Bu məni həm sevindirdi, həm də kövrəltdi. Əgər tanımadığım gənc ata öz körpələrini Fəxri Xiyabanda Vətən şəhidlərini ziyarətə qışın soyuğunda – yanvar ayında gətirirsə, deməli, Azərbaycanı qoruyacaq övladları həmişə olacaq. Yumruğu dəmirdən də möhkəm olan İlham Əliyev kimi sərkərdəsi olan xalqın torpaqları bir daha qəvi düşmən tərəfindən işğal olunmayacaq. Dəmiryumruqlu sərkərdələrimiz həmişə olacaq. 200 ildən artıq əsarətə birdəfəlik son qoyulub.

Həmin ata xiyabana üç körpə övladı ilə şəhidlərin qəbrini ziyarət etməyə gəlmişdi. Şəhidlərin uyuduğu cərgəyə gedərkən heykəltəraş, xalq rəssamı, professor Arif Əliyev tərəfindən çox canlı yaradılmış Şirməmməd müəllimin abidəsi nəzərlərini cəlb etmiş və müasirlərinin yaxından tanıdığı, sevdiyi bir insanın da məzarını körpələri ilə yad etməyi, üstündə şəkil çəkdirməyi lazım bilmişdi.

Hələ keçən əsrin 90-cı illərində televiziya ilə çıxışlarından birində Vətən torpaqlarını yalnız müharibə ilə geri almaq olacaq demişdi. Bu sözlərə görə onu qınayanlar da olmuşdu. Hətta, müsahibələrindən birində qeyd etmişdi ki, universitetə gələrkən universitetin girəcəyində əllərində "Şirməmmədə ölüm" yazılmış plakat tutmuş adamlarla rastlaşıb. Onu belə hədə-qorxular heç vaxt qorxutmadı.

Sinə daşında bu sözlər yazılmışdır – **Ata-babalarımız bizə bu vətəni – cənnət məkan Azərbaycanı əmanət ediblər. Biz də bu əmanəti göz bəbəyi kimi qoruyub gələcək nəsillərə əmanət etməliyik.**

Əziz müəllimimiz vəsiyyətinə əməl edilib. Ruhun şad olsun!

Ülkər HÜSEYNOVA
"Elm və Həyat" jurnalının sabiq baş redaktoru,
2 yanvar 2021-ci il

Prezident İlham Əliyevə "Jurnalistlərin dostu" adının verilməsi mərasimindən çəkilmiş şəkillər

ŞİRMƏMMƏD HÜSEYNOV–75

LƏYAQƏT MÜCƏSSƏMƏSİ

Əzizim Şirməmməd müəllim!

75 illik ömür yolunun 50 ildən çoxunu bir yerdə çiyin-çiyinə keçdik. Bu müddət ərzində sənin də, mənim də nə qədər dostumuz, həmkarımız, həmsöhbətimiz olub, amma ömrün döngələrində müxtəlif səbəblərdən biz onları ya itirmiş, ya da ayrılmışıq. Mən sənin 75 yaşının tamam olduğu gün "525-ci qəzet"də keçmiş tələbən və bugünkü həmkarın, məqalələrini sevə-sevə oxuduğum Cahangir Məmmədlinin sənin haqqında yazdığı və sənin xarakterinin incəliklərini böyük məharətlə açan məqaləsini oxuyub öz-özümə düşündüm: Ömür yollarımızın 50 ildən çoxunu biz necə oldu ki, fasiləsiz, zədəsiz, bərabər keçə bildik? Bunun sirri nədədir? Çünki bizim ömür yolumuz adicə ömür yolu deyildi. Bu, əqidə, amal yoluydu. Bizim ömür yollarındakı birliyimiz də fikir, düşüncə və əqidə birliyi idi. Sənin lə bərabər universitetdə işlədiyim zaman müxtəlif bəhanələrlə məni müəllimlikdən uzaqlaşdırmaq üçün donoslar, imzalı-imzasız məktublar təşkil edirdilər, tez-tez mühakimə olunurdum. O zaman sən fakültə partiya təşkilatının katibi idin. Mənə verilən ittihamların əksəriyyətində auditoriyada millətçilik təbliğatı ilə məşğul olmağım göstərilirdi. Sən dəmir məntiqin və kəskin ağlınla bu ittihamları rədd edir və mənim müdafiəmə qalxırdın. Sən o zamanlar məndən çox, mənimlə ortaq olduğun əqidəni müdafiə edirdin.

Burda təxminən 20-25 il əvvəl olmuş bir əhvalatı xatırlatmaq istəyirəm:

Bir gün böyük bir vəzifə sahibinin xahişi ilə onunla görüşdüm. Məlum oldu ki, bu adamın yaxın qohumlarından biri jurnalistika fakültəsində oxuyur. Bir çox nüfuzlu adamlar dəfələrlə müraciət etsə də, sən o tələbəyə qiymət verməmisən. Buna görə də vəzifə sahibi sənin ən yaxın dostun kimi indi də mənə müraciət edir ki, mən bu işi yoluna qoyum.

Mən gülüb dedim ki, sənin bu cidd-cəhdinin heç bir əhəmiyyəti yoxdur. Bunun yalnız bircə yolu var: Düzlük! O, heç bir xahişə, minnətə baxan adam deyil.

Həqiqətən də belə oldu. Sonralar eşitdim ki, həmin tələbə oxumağa məcbur olub və bundan sonra səndən qiymət ala bilib. Bax, budur müəllimlik borcuna sədaqət, namus, mənəvi təmizlik və dəyanət!

Əziz dostum, sən vətənpərvərlik, düzgünlük, haqqsevərlik, gözütoxluq kimi bir çox mənəvi xüsusiyyətlərinlə mənə həmişə XIX əsrin sonu XX əsrin əvvəlində yaşamış böyük əqidəli ziyalılarımızı xatırlatmısan. H.Zərdabi milli mət-

buatımızın təməl daşını qoydusa, sən bu böyük işin davamçısı kimi bir neçə jurnalist nəslinin müəllimi olmusan.

Anan səni sözün həqiqi mənasında müəllim doğub. Çünki sən yalnız auditoriyada yox, həyatda da müəllimsən, öyrədənsən. Buna görə də mən burda "müəllim" sözünü yalnız lüğəti mənasında deyil, daha geniş örnək, nümunəvilik mənasında işlədirəm. Sən öz əxlaqın, ləyaqətin, dönməzliyin, təmizliyin, bütövlüyün, mərdliyin və kişiliyinlə həm öz yaşıdlarına, həm də çağdaş gəncliyə nümunəsən, örnəksən.

Əziz qardaşım, əgər məndən "Şirməmməd kimdir?" – deyə soruşsalar, mən 2 misra ilə belə cavab verərdim:

Şirməmməd – əxlaqın,
haqqın öz səsi
Ləyaqət, dəyanət
mücəssəməsi!

Bəxtiyar VAHABZADƏ,
"Açıq SÖZ" qəzeti, 30 dekabr 1999-cu il

MİLLƏT YADDAŞININ KEŞİKÇİSİ



Dəyərli "525"cilər!

Milli yaddaşımızın ən ardıcıl və dürüst qoruyucularından olan qiymətli alimimiz professor Şirməmməd Hüseynova qəzetinizdə çoxdan bəri hər həftə səxavətlə ayırdığınız yer, mahiyyəti ilə, vətənə xidmətdir. Vətənin daşını hər kəs qaldıra bilməz, amma belə bacarığı olana maneçilik deyil, dəstək göstərməyin özü də nəciblikdir, yurda və xalqa yararlı olmaq nümunəsidir. Uzun həftələr və aylar boyunca əziz Şirməmməd müəllimin qəzetinizin sütunlarından xalqa çatdırdığı qiymətli yazılar istiqlal tariximizin unudulmamalı səhifələridir.

Təqdim etdiyim bu yazıyla bu şənbə ustadın guşəsinə qonaq olmaq istəyirəm.

4 ay öncə Şirməmməd Hüseynovun "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920)" adlı kitabının III cildinin təqdimat mərasimi keçirilirdi. Həmin toplantıda mən də çıxış etmişdim. Şirməmməd müəllim ötənaykı görüşlərimizdən birində mənə həmin mərasimin videoyazısını hədiyyə etdi. Mən də qərara aldım, o gün söylədiklərimi kağıza da köçürüm ki, Şirməmməd müəllim və onun əsəri haqda düşüncələrim daha çox insana yetişsin.

Bu qədər mühüm, çətin əməklərə qatlaşan, millətəxeyir bəhrələr doğuran ustada ən azı sağolumuzu, sayğımızı, sevgimizi dilə və qələmə gətirməyi əsirgəməyək ki, şərəfli işini davam etdirmək yolunda ilhamı və eşqi bir qədər də artsın.

Hörmətlə ***Rafael Hüseynov***

Beynəlxalq Mətbuat Mərkəzində Bakı Dövlət Universitetinin professoru, görkəmli tədqiqatçı Şirməmməd Hüseynovun "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920)" adlı kitabının III cildinin 2017-ci il iyunun 8-də keçirilmiş təqdimat mərasimində Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, akademik Rafael Hüseynovun çıxışı

Əziz Şirməmməd müəllim, hörmətli dostlar, xanımlar və cənablar!

Biz bu anlarda müasir gerçəkliyimizdə, Azərbaycanın düşüncə həyatında son dərəcə əlamətdar olan, həyəcan və qürur doğuran bir hadisənin qeydetmə mərasimindəyik.

Haqlıdır Şirməmməd müəllim, Azərbaycan tarixinin elə hadisələri var ki, onları biz hər zaman anmalı, onlar barəsində daim minnətdarlıqla düşünməliyik. XX yüzilin başlanğıcındakı Azərbaycan tarixində iki oxşar məqam var ki, ikisinin də əvvəlində göz yaşı dayanır.

1918-ci il may ayının 28-də Tiflisdə sabiq Qafqaz canişinliyinin iqamətgahında Həsən bəy Ağayev Azərbaycanın İstiqlal Bəyannaməsini elan edirdi.

O, İstiqlal Bəyannaməsinin mətnini oxuyurdu, müstəqil dövlətimizin yarandığını elan edirdi və həmin yığıncağın protokolunda o qəbil sənədlər üçün çox da səciyyəvi olmayan qeydlər də əksini tapıb ki, Həsən bəy Ağayev ağlayırdı, Xəlil bəy Xasməmmədov ağlayırdı, Nəsib bəy Yusifbəyli ağlayırdı, Xudadat bəy Məlikaslanov ağlayırdı...

O insanlar ki bu istiqlalı elan edirdilər, onlar bu möhtəşəm anların fövqəladə mənasını, millət tarixindəki yerinin ali siqlətini bütövlüyü ilə anlayırdılar, bunun bir millət üçün nə qədər müstəsna bəxtiyarlıq olduğunu dərk edirdilər, ona görə kövrəlirdilər.

Və 1920-ci il aprel ayının 27-si Azərbaycan Parlamentinin – Məclis-i Məbusanın son iclası. Məhəmməd Əmin Rəsulzadə söz alaraq iclasın başlanğıcında deyir ki, biz bu yığıncağımızı qapalı keçirməyək. Qapıları açaq, millət gəlsin və görsün ki, taleyimizdə nə baş verir. Millətin müqəddəratı həll olunur və insanlarımız bundan bixəbər qalmamalıdır.

Məhəmməd Əmin Rəsulzadə qəlb ağrısı ilə belə deyirdi. Çünki Azərbaycanın müstəqilliyi əldən gedirdi, hakimiyyət, istiqlal bolşeviklərə təslim edilirdi.

Bu sənəddə də belə protokollar üçün heç də xas olmayan belə bir cümlə var. Mötərizədə yazılıb ki, "Azərbaycan" qəzetinin baş redaktoru Şəfi bəy Rüstəmbəyov ağlayır.

O əvvəlki göz yaşı – Həsən bəy Ağayevgilin 1918-ci ilin mayındakı göz yaşı – fərəhin, böyük səadətin, iftixarın gətirdiyi göz yaşı idi, ikinci göz yaşı müdhiş faciənin, millətin tarixində dərin yaralar açan bir acının doğurduğu göz yaşı.

Və Şirməmməd müəllimə bu şərəfli tarixin salnaməsi olan bir əsəri millətimizə təqdim etmək məsudluğu nəsib olub.

Əlbəttə ki, bu kitabların yaranması millət tarixinin çox önəmli bir hadisəsidir.

Hər bir istedadlı insan, hər bir güclü yaradıcı ömür möhləti boyu hansısa şah əsərini yaradır. Bu, onun gənclik illərində də baş verə bilər, ahıllığında da, ixtiyar sinnində də.

Zəka, ilham sahibinin yaradıcılıq yolu uzun da çəkə, onun şah əsərinin ortaya çıxması həyatının erkən çağına da, yolun ortasına da təsadüf edə bilər, yaxud arzulanan şah əsərin ömrün sonlarına doğru, təcrübələrin yekunu kimi meydana gəlməsi də mümkündür.

Şirməmməd müəilim şərəfli ömür yaşayıb, çox layiqli bir alim, xoşbəxt bir müəllim həyatı sürüb və onun yetirmələri, tələbələri Azərbaycan boyuncadır.

Şirməmməd müəllim örnək sayılası ailə başçısı ömrü yaşayıb, Azərbaycana çox dəyərli balalar bağışlayıb.

Və ilk gəncliyindən əli qələmli olub, usanmadan işləyib, bolluca məqalələr, dissertasiyalar, kitablar yazıb. Amma Şirməmməd müəllimin ömrünün, düşünürəm ki, şah əsəri bu üç kitabdır. Hərçənd, Şirməmməd müəllimin doğurduğu və sanbalına, çəkisinə, dəyərinə görə elə bu üçcildliyə bərabər tutulası Məhəmməd Əmin Rəsulzadənin əsərlərindən ibarət cildlər də var. Amma bu üçcildliyin

sanballı, məna yükü, mahiyyəti tamam başqadır.

Uzaq 1918-20-ci illərdə "Azərbaycan" qəzetində dərc edilmiş parlament hesabatlarını günümüzə çatdıran bu cildlər sırası qiymətəsığmaz salnamədir.

Azərbaycanın tarixində iki əvəzsiz əsər var ki, tariximizdən bəhs edərkən, salnaməçiliyimizdən söz düşəndə hər zaman onları hökmən xatırlamaq zərurəti yaranır. XIII yüzildə Fəzlullah Rəşidəddin Təbrizdə Rəşidiyyə mədrəsəsini qurdu, ilk universitet təhsilimizin təməlini qoydu və "Cami ət-təvarix" adlı elmi əsaslara dayanan ilk misilsiz salnaməmizi yaratdı.

Bu "Tarixlər toplusu"ndan sonra çoxlu oxşar salnamələr, tarixi məcmuələr yaranıb, fəqət bir örnək olaraq bütün orta əsrlər içərisində ən uca mərtəbədə qərar tutan zirvə əsər "Cami ət-təvarix"dir. Və XIX yüzildə Abbasqulu Ağa Bakıxanov "Gülüstan-i İrəm"i qələmə aldı. Bu da salnamə idi, amma artıq həm də bir peşəkar tarixçi alimin əsəri idi ki, incə təhlillər, müxtəlif mənbələri tutuşdurmaq əsasında elmi tarixçiliyin yeni dövrdə şəkillənən bir sıra ümdə xüsusiyyətləri nəzərə alınaraq ərsəyə gətirilmişdi. Bu iki əsər arasındakı altı əsrlik zaman kəsiyində, həmin iki kitabdan bir az əvvəli və bir qədər sonranı da nəzərə alsaq, 7-8 əsrlik iri tarix parçası ərzində çox salnamələr yaranıb. Amma bu iki müəllifin adı və əsəri, düşünürəm ki, hər zaman üstün tutularaq yaşayacaq və sayğılarla yad ediləcək.

Artıq bizim dövrdə – XX əsrdə və XXI yüzilin ilk onillərində Şirməmməd Hüseynov və Qulam Məmmədli salnaməçiliyin yeni tipini yaratmaq hünəri ilə ziyalı mühitimizi heyrətləndirə bildilər. Onlar salnaməçiliyin Azərbaycanda bu çağacan ortada olmayan nümunəsini yaratdılar. Qulam Məmmədli Azərbaycan teatrının salnaməsini vücuda gətirdi, "günbəgün" adlandıra biləcək janr xəlq elədi, Hüseyn Cavidin, Abbas Mirzə Şərifzadənin, Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun, Nəriman Nərimanovun, Mirzə Cəlilin, Üzeyir bəy Hacıbəylinin ömür yollarını əks etdirən tayı-bərabəri olmayan qiymətli salnamələr yaratdı və salnaməçiliyin tamam yeni çeşidi və tərzini Azərbaycan xalqına bəxş etdi. İlk Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, adı vətənimizin adı ilə eyni olan "Azərbaycan" qəzeti bəlli idi, ictimai-siyasi gerçəkliyimizdə, mətbuat tarixində izini qoyub getmişdi.

Dövlət müstəqilliyimizin bərpasından az sonra, 1998-ci ildə ilk Azərbaycan Parlamentinin iclaslarının stenoqramları çapa hazırlanaraq nəşr edildi. Sanki boşluq doldurulmuşdu, onillərcə, hətta arxivlərdə belə gizli saxlanmış, yalnız xüsusi hallarda və məxsusi icazə ilə istifadəsinə icazə verilmiş bu mətnlər hamının-kılaşmışdı.

Lakin nə yaxşı ki, müdrik alim və mətbuatşünas Şirməmməd Hüseynov həmin dövrə bir də nəzər salmağı vacib hesab etdi. Onun təqdimatındakı "Azərbaycan" qəzetində dərc edilən parlament hesabatları və bu hesabatlarla bağlı yazılar, onların qovuşmasından törəyən üç sanballı cild xüsusi hadisə – məlumdan yaranan büsbütün yeni naməlum idi. O mənada ki, bu nə "Azərbaycan" qəzetində Xalq Cümhuriyyəti dövründə buraxılmış qəzetdə çıxmış protokolların sadəcə əski əlifbadan latın qrafikasına köçürülməsi idi, nə də, 1998-ci ildəki kimi, bəlli protokolların cüzi redaktə ilə nəşri. Şirməmməd müəllim ömrü boyu topladığı təcrübə və biliklərə qəlbindəki coşqun millət və yurd sevgisini də artıraraq arxa-

da qalmış şanlı, mübarizəli, qəmli və nigaran tarixi, əslində, yenidən canlandırdı.

Bişkin alim usta qələmi ilə bəlli protokolları zəruri izah və şərhlər, yeri düşdükcə sözə söykək duran əlavə materiallarla zənginləşdirdi.

Buradaca bir-iki önəmli cəhətə diqqət yönəltməyə ehtiyac var.

Əvvələn, "Azərbaycan" qəzetinin nəşrindən 9 onillikdən də artıq böyük zaman sovuşmuşdu, yeni nəsillər o nüsxələrdən bixəbər idi. İkincisi isə, həmin nüsxələrlə indi kitabxanalarda, arxivlərdə açıq istifadə imkanı olsa da, yeni nəsillərçün əlifba maneəsi, ərəb-fars tərkiblərinin yaratdığı müşküllər bəlli idi. 1998-ci ildə buraxılmış parlament protokolları isə xeyli şəkildə tələsik hazırlanmışdı, yanlışlar, kobud xətalarla ləbələb idi və heç bir tutarlı şərh və izahla müşayiət edilmirdi.

Şirməmməd Hüseynov – bu böyük alimimiz, bu böyük müəllimimiz, bu böyük ziyalımız üçcildlik əsərini zahirən qısa bir zaman içərisində hazırlayıb. Bu yazıları kitablaşdıraraq xalqa təqdim edənəcən ard-arda mətbuatda dərc də elətdirib və bu minvalla cildlərin yaranma gedişatını müşahidə etmək hər birimizə nəsib olub. Amma bilənlər bilir ki, bu kitabları hazırlamaq üçün Şirməmməd müəllim 50 illik yol gəlib. Ömrü uzunu bu barədə düşünüb, ömrü boyu bu hadisələri və adları içərisində yaşadıb. Və bu, öz etirafıdır ki, ilk gənclik illərindən, Moskvadakı aspirantura dövründən, orada qapalı arxivlərdə işlədiyi çağlardan, bu qəbil materialları nəinki üzə çıxarmağa, hətta oxumağa belə yasaq qoyulduğu zamanlardan gizli bir ümid və inamla tariximizin bu dövrü ilə əlaqədar materialları toplayırmış, qeydlərini edirmiş, haçansa belə işlərin də vaxtı yetişəcəyi, bağlı qapısının açılacağı arzusu ilə usanmadan təhlillərini aparırmış.

134241

50 ildən artıq müddətdə qəlbdə bəslənmiş, kimsəyə görünməmiş Şirməmməd müəllimin yazı masasının gözündə qalmış həmin ilkin hazırlıq yazıları indi "Azərbaycan" qəzetindəki parlament hesabatlarına qovuşaraq bizə qayıdır, unudulmamalı şərəfli keçmişimizi bizə qaytarır.

Bunları dinlədikcə, daha doğrusu, oxuduqca heyrətə gəlməyə bilmirsən.

Bir tərəfdə heyranlıq və heyrət doğuran istiqlalçı, qurucu babalarımızın pak amal uğrunda fədakar mübarizələri, mətinliyi, mərdanəliyi, tələtümlü əyyamlarda söylədikləri köhnəlməz sözləri və çağırışlarıdırsa, digər tərəfdə ikiqat heyranlıq və ikiqat heyrət oyadan Şirməmməd müəllimin, illərcə valideynlərinə borcunu qaytarmaq üçün münasib girəvə gözləmiş fərasətli, sadiq bir övladın məhəbbəti və canıyananlığı ilə bu irsi belə ali peşəkarlıqla canlandırmasıdır. Mən yanılaraq əvvəlcə "oxuduqca" yerinə "dinlədikcə" söylədim. Əslində, elə bu, "dil çaşıb düzünü söylər" məsəlinin dürüstlüyünə əlavə sübutdur.

Şirməmməd müəllimin təqdimatındakı bu yazıları oxuduqca biixtiyar tarixə dalırıq və həmin qərib illərin axarındakı səsləri aydınlığı ilə eşidirik. Parlament iclaslarının salnaməsindən Həsən bəy Ağayevin, Əhməd bəy Ağaoğlunun, Məhəmməd Əmin Rəsulzadənin, Üzeyir bəy Hacıbəylinin, Əhməd Cavadın səsini, onlara əleyhdar olanların sədalarını eşidirik.

Əliheydər Qarayevin də səsi gəlir ordan, Məhəmməd Əmin Rəsulzadənin də.

O səsləri indi – XXI əsrdə eşidirsən və anlayırsan ki, hansı girdablardan, hansı yarğanlardan adlamışıq, ayrıntıları ilə dərk edirsən ki, millətin tarixində

Azərbaycan milli kitabxanası

millətin, yurdun taleyinə münasibətdə necə tam əks qütblərdə qərar tutmuş insanlar yaşayıb, istiqlal yolumuzda hansı toqquşmalar, çarpışmalar, hansı təzadlı baxışlar olub.

Şahid kəsilirik ki, Azərbaycanın bugünkü istiqbalının, təzədən qayıtmış bu müstəqilliyinin təməlində hansı barışmaz mübarizələr dayanır, bu səadətə gələn yolun başlanğıcında hansı dramatik aylar, günlər, saatlar, dəqiqələr yaşanıb.

Və bu kitablar silsiləsinin ortaya qoyduğu mühüm bir öyüd, vacib bir dərs var.

Bu nəsihət, bu ibrət də ondan ibarətdir ki, o pak insanlara, o qurucu babalara əbədi borcluyuq, onlara hər zaman minnətdar olmalıyıq.

Onlar olmaşaydı, bu dövlət olmazdı, onlar mürəkkəbdən-mürəkkəb tarix dönəmində Azərbaycan istiqlalını elan edib 23 ay yaşayacaq müstəqil dövlətimizi qurmasaydılar, sonra 70 il ömür sürəcək Sovet İttifaqının içərisində də Azərbaycan Respublikası olmayacaqdı və 1991-ci ilin 18 oktyabrında biz dövlət müstəqilliyimizi yenidən elan edə bilməyəcəkdik.

Sovet İttifaqı dağılanda onun içərisindən bizim müstəqil dövlət kimi çıxmaq imkanımız oldu. Ona görə ki, daha əvvəl cümhuriyyətimiz olmuşdu, cümhuriyyətimizdən sonra Sovet İttifaqı içərisində Azərbaycan Respublikası olmuşdu. Sovetin Konstitusiyası isə sözdə, yalandan da olsa, hər halda Əsas Qanununda məhz respublikalara İttifaqdan çıxmaq ixtiyarını rəsmən verirdi.

Bu gün müstəqil dövlətimiz varsa, buna görə biz o qurucu insanlara hər açılan səhərimizlə, müstəqil yaşadığımız hər yeni günümüzlə, başlanan hər yeni azad, asılılıqdan uzaq sabahımızla borcluyuq.

Bu kitabların bünövrəsində, nüvəsində dayanan ən birinci amil eşqdir. Qurucu babalarımızın öz yoluna, əqidəsinə, xəttinə sonsuz inamı, imanı və sevgisi, eləcə də Şirməmməd Hüseynovun Azərbaycan tarixinə, Azərbaycan millətinə, istiqlalımıza olan məhəbbəti, o böyük şəxsiyyətlərimizin ruhuna olan sədaqəti, ehtiramı, etibarı!

Məhəbbət yoxsa, dəryaca ağlın olsa da, bəhrəndə işıq çatmaz, rənglər solğun alınar, təqdim etdiyin məhsulla ürəklərə qığılcım ötürə bilməzsən.

Bu üçcildiik tarixi nəşr ilk növbədə nadir mətnşünaslıq abidəsidir. Nəyə görə mətnşünaslıq abidəsi? Mətnşunaslıq elmin alın təri, fəhlə zəhməti tələb edən ciddi sahəsidir. Təəssüflər olsun ki, artıq bu istiqamətin yaşamalı olan bir çox ənənələrini itirmişik, ya itirməkdəyik. Azərbaycanda 1950-60-70-ci illərdə Əbdülkərim Əlizadə, Məmmədağa Sultanov, Tahir Məhərrəmov, Əbülfəz Rəhimov, Nəsrəddin Qarayev, Əziz Mirəhmədov, Turan Həsənzadə və bir sıra başqaları çox mükəmməl mətnşünaslıq məktəbi yaratmışdılar. Təəssüf ki, o insanlar getdilər, həmin üstün mətnşünaslıq məktəbi, o məktəbin iş üsulları, vərdişləri də səngiməyə başladı.

1990-cı illərin ortalarında mən Məclis-i Məbusanımızın – ilk parlamentimizin birinci rəhbəri Həsən bəy Ağayevin ömür yolunu araşdırırdım. Əslində, milli parlamentimizin ilk sədri Əlimərdan bəy Topçubaşov idi. Lakin Əlimərdan bəy Topçubaşov əvvəlcə İstanbulda ezamiyyətdə idi, sonra isə Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getdi və iki dəfə parlament sədri seçilsə də, bir gün belə həmin kürsüdə əyləşmədi, məclisi Həsən bəy idarə etdi. Əlimərdan

bəyin parlamentin sədri olaraq xaricdəki fəaliyyətlərinin başlıca hədəfi ondan ibarət idi ki, Azərbaycan dövlətinin başçısı kimi rəsmi statusa və səlahiyyətlərə malik olsun, Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə rəsmən tanınmasını təmin etmək üçün orada danışıqlar aparsın.

Həsən bəy Ağayevin faciəli ömür yolunu araşdırarkən məsləkinə candan bağlı bu millət fədaisi haqqında "Yaxşıların yaxşısı" adlı kitabımı yazarkən əski parlament materiallarını da qaldırmalı olurdum və o zaman həmin protokollar nəşr edilməmişdi – hələ 1990-cı illərin başlanğıcı idi. Parlament iclaslarının əlyazmalarını oxuduqca qürur hissi keçirirdim.

Hər vərəqin arxasında tarix durur. Yəni hətta mətninə nüfuz etməzdən əvvəl bu kağızların, xətlərin özü belə ayrıca tarixdir axı! Təsəvvür edin, stenoqramları kimlər tərtib edir, kimlər qələmə alırmış – onlardan biri hələ xeyli gənc olan, az sonra Azərbaycanın ən parlaq ədibi kimi şöhrətlənəcək Cəfər Cabbarlı idi. Di gəl, protokollarla tanış oduqca, stenoqramların əlyazmalarını oxuduqca görürdüm ki, hətta Cəfər Cabbarlı kimi istedadlı, bilikli, dərin düşüncəli, yeri düşdükcə danışanların buraxdığı müəyyən üslubi səhvləri də əlüstü islah edən stenoqrafistin – tezyazarın da yazılarında yanlışlıqlar az deyil. Təbii, bu, ilk növbədə vaxt qıtlığı, tələskənlikdən yaranmış qüsurlar idi.

Müstəqilliyimizin bərpasından 7 il keçərkən həmin sənədlər Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyası və Baş Arxiv İdarəsi tərəfindən 5 kitabda nəşr edildi ki, onların 2 cildi parlament hesabatlarıdır. 1998-ci il nəşrinə materialları əlyazmalardan Bakı Dövlət Universitetinin müəllimi, çox dəyərli insan və cümhuriyyət tariximizə, bir vaxtlar dərs aldığı Cavidə, Müşfiqə coşqun məhəbbətlər bəsləyən Səfər İbrahimov hazırlamışdı. Onun əsas işi mətnləri ərəb əlifbasından kirilə köçürmək olmuşdu. Lakin o, sadəcə ərəb əlifbasını bilirdi, klassik ədəbiyyata və üsluba az-çox bələd idi, amma tarixçi, mətnşünas deyildi. Doğrudur, o zaman əslən Cənubdan olan və orta əsrlər tarixi üzrə yaxşı mütəxəssis sayılan professor Seyidağa Onullahi də redaktor kimi bu işə cəlb edilmişdi. Amma oxuduqca və orijinallarla tutuşdurduqca görürsən ki, həmin stenoqramlarda nə qədər kobud qüsurlar var. Ehtimal yaranır ki, hətta həmin materialların çoxunu heç Seyidağa Onullahi görməyib. Çünki nəşrdə elə səhvlərə təsadüf edilir ki, bunlar heç vəchlə Seyidağa müəllimin nəzərindən qaçа bilməzdi.

Bəs o stenoqramlarla "Azərbaycan" qəzetində dərc edilən hesabatların fərqi nədədir?

"Azərbaycan" qəzetində dərc edilən parlament hesabatlarının mənası və dəyəri büsbütün başqadır. Bunlar hamısı Məhəmməd Əmin və Üzeyir bəylərin redaktə süzgəcindən keçərək dərc olunub. Yəni onlar, məlum stenoqramlardan fərqli olaraq, ağızdan çıxan hər sözü əks etdirməyiblər, yalnız ictimai məna kəsb edənləri saxlayıblar, müəyyən ixtisarlar aparıblar, bəzi parçaların məzmununu veriblər.

Və Şirməmməd Hüseynovun məharəti, materiallara yetərincə hündürdən, gen miqyasda, panoramda baxa bilməsinin nəticəsi bundan ibarətdir ki, o, qəzetdə dərc edilən ayrı-ayrı iclaslar barədə hesabatları verir, amma bunun yanında bəzən əvvəldə, hərdən sonda həmin mətləblərə dayaq duran, elə o qəzetdəcə yer

almış başqa yazıları da gətirir. Qəfildən qarşımıza bu məsələlər və mətləblərlə həmahəng gələn, heç parlamentdə olmayan Fərhad Ağazadənin məqaləsi çıxır və sanki həqiqətlərə əlavə bir pəncərə taybatay açılır. Ya Məhəmməd Əmin Rəsulzadənin özünün, yaxud Üzeyir bəy Hacıbəylinin parlament divarları arasında səslənməmiş, müstəqil məqalə kimi işıq üzü görmüş yazıları parlament hesabatları kontekstinə qovuşur, həmin andaca mətnin ahəngi, ritmi dəyişir, yeni məna qatları ortaya çıxır, xeyli qaranlıq suallara aydınlıq gəlir.

Bunları edə bilməkçünsə, bu kompozisiyanı qura bilməkdən ötrüsə gərək o dövrün hadisələrinə, həmin dövrün ayrı-ayrı şəxsiyyətlərinin əqidəsinə, qələminə, düşüncə tərzinə dərindən vaqif olasan.

Şirməmməd Hüseynov kimi!

Bu yazılar silsiləsinin göstərdiyi parlament mənzərəsi, istiqlal uğrunda gedən mübarizəmizin gerçəkçi və dolğun fonu, ayrıca vurğulayıram ki, yalnız və yalnız Şirməmməd Hüseynov kimi həmin tarix kəsiyindən incəlikləri ilə agah olan müstəsna bələdçinin əməkləri ilə yaradıla bilərdi.

Hər halda bu gün həmin işi o cür səriştə və vurğunluqla yerinə yetirə biləcək ikinci şəxsi mən tanımıram.

Mən bayaq bu hesabatlara yanılaraq "dinləyirkən" dedim, bu dəfə isə artıq çaşaraq yox, elə qəsdən yanılaraq "oxuyuruq" əvəzinə "görürük" demək istəyirəm.

Şirməmməd müəllimin "Parlament hesabatları"nın cildlərini vərəq-vərəq çevirdikcə hadisələri yalnız oxumuruq, dinləmirik, həm də bütün əyaniliyi ilə görürük.

Hesabatları ibtidasından son səhifəsinəcən mütaliə edəndə belə qənaətə gəlirsən ki, bu, nəhəng bir film kimidir, bir epopeya timsallıdır və oxuya-oxuya olmuşları sanki ilk kadrından son kadrınacan seyr edirsən.

Bu kitab həm də bir ülgüdür. 3 cild olsa da, onları bir bütöv sayaraq "kitablar" yox, sadəcə "kitab" deyirəm.

Birincisi, bu kitab bir daha əyan edir, nəşrindən bir əsr keçəndən sonra da nümunə göstərir ki, yaxşı qəzeti necə çıxararlar.

Bu toplantıda mətbuat nümayəndələri iştirak edir. "Azərbaycan" adlı qəzet bu gün də var, digər dövlət qəzetlərimiz də çıxır, müstəqil mətbuatımız da fəaliyyətdədir. XX əsrin əvvəlindəki "Azərbaycan" qəzetinin nümunəsi işarə edir ki, millətin ola biləcək yaxşı qəzeti necə çıxarmaq lazımdır ki, üstündən zamanlar keçəndən sonra da salnamə sayılsın, tarixin bərpa olunması üçün mənbəyə çevrilsin, saralıb-solsa da, mahiyyətcə köhnəlməsin, yeni zamanla da ünsiyyətə girə bilsin. Və nəşr üçün istənilən məqaləni yazanda da düşünməlisən ki, 50 il ötəcək, mənim haqqımda bu yazıya görə nə deyəcəklər, 100 il sovuşacaq, mənə bu yazıma görə necə qiymət verəcəklər. Qələmi götürəndə, qəzet-jurnal buraxanda bir an belə vaxtı yetişincə hər suala cavab tələb edən tarix qarşısında məsuliyyətini unutmamalısan!

Kim bilir, bəlkə də o qüdrətli şəxsiyyətlər o zaman bütün bunlar barədə fikrə dalıblar. Məhəmməd Əmin Rəsulzadə də, Üzeyir bəy Hacıbəyli də, Şəfi bəy Rüstəmbəyli də, Ceyhun bəy Hacıbəyli də, ola bilsin, bu barədə ən azı təhtəlşüur düşünüblər, ona görə o təhər köhnəlməz, dəyərini itirməz qəzet yaradıblar. Həmin səbəbdəndir ki, "Azərbaycan" qəzetinin səhifələri vətən işığı ilə, millət atəşi ilə doludur.

Vətən işığı, millət atəşi elə əziz Şirməmməd müəllimin də bütün varlığında olduğundandır ki, bu cür mükəmməl bir əsəri ortaya çıxarmağa müvəffəq olub.

Bu cildləri yaratmaq əsnasında Şirməmməd Hüseynov dünənin dumanlarında əriyib-itmiş, bu günün insanlarına pünhan qalan bir sıra adları da aşkarlayıb, onlara təzədən həyat bağışlayıb. "Azərbaycan" qəzetində yazıları çıxan Əhməd Həmdi adlı şəxs diqqətini çəkib. Azərbaycanda çox soraqlaşsa, arxivlərə baş vursa da, bir məlumat əldə edə bilməyib. Amma ruhdan, həvəsdən düşməyib, ona cavanlığından xas olan inadkarlığı ilə yenə arayıb, yenə axtarıb, yenə soraqlaşıb və suallarına cavabı Türkiyə arxivlərində bulub. Və bu hərəkəti ilə də Şirməmməd müəllim növbəti dərsini, növbəti öyüdünü verib. Yəni istiqlal, müstəqillik bizim elə müqəddəs sərvətimizdir, səcdəyə layiq elə mirasdır ki, onun yolunda azacıq belə zəhməti olmuş hər insanı biz həmişə qədirbilənliklə, dualarımızla, sağollarımız, rəhmətlərimizlə anmalıyıq.

Şirməmməd müəllimin hər çıxışı, hər yazısı, hər kitabı və o sıradan bu cildlər abidələrdir.

Tanrı, tale, tarix Şirməmməd Hüseynov kimi nadir insanları millətə göndərir ki, cərəyan ötürən naqilə çevrilsinər, qoymasınlar yaddaş qırılsın, imkan verməsinlər keçmişlə rabitələr kəsilsin.

Şirməmməd Hüseynov milli yaddaş daşıyıcısı, bir mənəviyyat körpüsüdür. Azərbaycanın dünəniylə indisi, istiqlalımızın qaynaqları ilə bu gün arasındakı körpü.

Milləti tarix sınaqlarından zədəsiz çıxaran, həmişə ayaq üstə saxlayan, güclü edənsə həmişə məhz tarixi yaddaş, belə sarsılmaz körpülər olub.

Azərbaycan bayrağı bu gün yenə yüksəklərdədirsə, Azərbaycan himni səslənəndə yenə biz iftixar qəhəriylə doluruqsa, bunun ümdə səbəbi odur ki, 70 ilin sovet qadağaları boyunca ayrı-ayrı insanlar bu sevdaya dönük çıxmadı, bu eşqi ürəyində yaşatdı, ziyalılarımız, düşüncə və duyğu adamlarımız sətirlərinin altında olsa da, həmin hissləri yurddaşlarımıza çatdırdı və qoymadı ki, istiqlal yanğısı sozalsın. Qürbətlərdə, mühacirətlərdə, zillətlərdə yaşaya-yaşaya bu hissiyyatı diri saxladılar və ən qəddar maneələrə rəğmən vətənlərinə bunu çatdırmağa səy elədilər, nail də oldular ki, vətəndaşlarımızın içərisində istiqlal ruhu, müstəqillik istəyi şölələnməkdə davam etsin.

İndi Şirməmməd müəllim də yeni əsrimizin, təzə minilliyimizin başlanğıcından bu üç kitabla elə bir ocaq qalayır ki, bu ocağın istisi və işığı Azərbaycanın çox uzaq gələcəklərinə səmt götürüb və söz yox, gələcəkdəki yurddaşlarımıza böyük faydalar da verəcək.

Bu gün, bu mübarək əsərin bayramına qatıldığımız anlarda Azərbaycan istiqlalının artıq başlanmış olan və 2018-ci ilin 28 mayında təntənəsini yaşayacağımız 100-cü yaşının 10-cu günüdür. O ülvi bayrama düz 355 gün qalır. Gərək biz hamımız dövlət müstəqilliyimizin 100 illiyinə qədər olan hər günün hər saatında o şərəfli tarixə xidmət üçün hansısa yeni, əhəmiyyətli, qalıcı işlər görməyə köklənək.

Sözlərimə son verməzdən öncə müstəqilliyimiz, parlament tariximiz, istiqlal yolumuz və elə cazibə dalğasında olduğumuz, haqqında düşüncələr bölüşdüyümüz cildlərlə birbaşa bağlantısı olan bir diləyimi ifadə etmək istərdim. 1918-ci ilin 7 dekabrında yaradılmış Məclis-i Məbusan bütün tariximizçün fəxr qaynağı olan milli hadisə idi.

Mən Azərbaycanın ilk parlamentinin həyatını əks etdirən akademik nəşri görməyi çox istərdim.

Necə təsəvvür edirəm o kitabı?

Xatırlatdığım kimi, 1998-ci ildə Məclis-i Məbusanın stenoqramları həm Azərbaycan, həm rus dillərində, qüsurlu da olsa, nəşr edilib. Düşüncəmə görə, oradakı əsas nöqsan yalnız mətnin bərpası əsnasında buraxılmış ayrı-ayrı səhvlər deyil, həm də tərtib prinsiplərindəki xətalardır. Həmin nəşrdə azərbaycanca cilddə yalnız ana dilində olan çıxışlar verilib, rusca nəşrdə isə rus dilində edilən çıxışlar yer alıb. Demək, o da, bu da natamamdır. Mənsə akademik nəşrdə ana dilində olan mətnlərin arasında rusca olan mətnlərin də dilimizə çevrilərək verilməsini, amma orijinaldakının da cildlərin sonunda, şərhlərlə göstərilməsini məqbul sayıram. Eləcə də həmin akademik nəşrin şərhlər və izahlar, lüğət bölməsi Şirməmməd Hüseynovun kitablarındakı qəzet hesabatları, müxtəlif tamamlayıcı başqa "Azərbaycan" dərcləri, eləcə də ustadın o yazılara verdiyi yozumlar, dəqiqləşdirmələr, aydınlatmalarını artırmaqla mükəmməlləşdirilə, daha artıq elmiləşdirilə bilər. Beləcə, biz, nəhayət ki, ilk dəfə olaraq ilk milli parlamentimizin keçdiyi enişli-yoxuşlu, mübarizəli yolun qənaətbəxş mənzərəsini aydınlığı ilə izləmək, öyrənmək fürsəti əldə edirik.

Şirməmməd müəllim qiymətli bir insandır və Allah da bizdən daha əvvəl və daha yaxşı bilir nə qədər qiymətlidir o!

Allah Şirməmməd müəllimin millət üçün gərəkliyini, tarix üçün faydalığını dəqiq bildiyindən, ona millət körpüsü olmaq vəzifəsini həvalə etdiyindən bu millət üçün onu yaşadır.

Sağlam yaşadır, gümrah yaşadır, düşüncəsini aydın, ruhunu təmiz yaşadır. Elə yaşadır ki, bu gün də – doxsanını arxada qoyandan sonra da əli qələmlidir, bu gün də iş başındadır, universitetə gedərək dərsini deyir, bu gün də masasının üstündə yeni tədqiqlər var, millətə təqdim eləyəcəyi yeni işlər sıra gözləyir.

Tarix, tale və Tanrı Şirməmməd Hüseynov kimi sərvəti millətimizə çox görməsin!

"525-ci qəzet"
4 noyabr 2017-ci il, şənbə

Rafael HÜSEYNOV,
akademik

MİLLƏT ÇAYININ KÖRPÜSALANI

Onun fikridir və bu dördcə kəlmə sözdə həm dərin təvazö, həm çağırış, həm xəbərdarlıq, həm arxayınlıq, əminlik, həm də bir az qınaq var.

"Maraqlananlar üçün faydasız olmaz".

Bu sözləri deyən 100 yaşına doğru əli qələmli, aydın düşüncə ilə, gündəlik axtarış və tapıntılarla irəliləyən bir böyük şəxsiyyət, çağdaşımız olan canlı klassikdir.

Şərəfli dünənimizlə bugünümüz arasında ən mötəbər körpülərdən olan bir insan.

Ustad Şirməmməd Hüseynov!

Şirməmməd müəllim həmin o dördcə sözlük gümanını (və tapşırığını!) çox illər öncə Azərbaycanın son bir əsrdən artıq müddətdəki tələtümlü, enişli-yoxuşlu həyatının taleyüklü məsələlərinə həsr etdiyi yazılar toplusunun müqəddiməsində yazıb.

Ümumən professor Şirməmməd Hüseynovun ta cavanlığından üzü bəri (əslində, bu işləmək və yaratmaq enerjisi, bu eşqi ilə indi də cavandır və istənilən gəncə örnək olacaq bir sərt iş rejimində çalışmaqdadır) qələmə aldığı, xalqa çatdırdığı bütün yazılar Azərbaycan istiqlalı, bu mübarizəli yolun tanınan və tanınmayan fədailəri, qoruyub yaşatmalı olduğumuz milli dəyərlər və ideallarla bağlıdır.

Və həmin dördcə kəlmə Şirməmməd Hüseynovun hər yazısına, hər tərtib etdiyi topluya, hər hazırladığı kitaba, hər doğurduğu əsərə, hər etdiyi çıxışa, hər apardığı mühazirəyə yığcam önsöz, "bismillah" biçimli bir başlanğıc kimi qavranıla bilər.

Şirməmməd müəllim uzun ömrünün yarıdan çoxunu müəllimliyə həsr edib və onillərin təcrübəsi ona insanı, illah da öz xalqımızı beş barmağı kimi tanımaq vərdişlərini aşılayıb.

Aqil adamdır, yaxşı anlayır ki, qəzet səhifələrindən, cild-cild kitablar vasitəsilə xalqa təqdim etdiyi qiymətli yazıların hamı tərəfindən oxunmasına, bilinməsinə ehtiyac varsa da, daha artıq kürəsəlləşdikcə daha çox dəyişən, rəqəmsallaşdıqca kitabı, çap yazılarını mütaliə etmək həvəsi tədricən daha çox azalan dünyanın çox yerində olduğu kimi, bizdə də camaatın oxumaq səbri də, şövqü də sönükləşib.

Amma o, inadla öz işini görür.

Köhnə əlifbalarda əl çatan arxivlərdə qalan yazıları qaldırır, indi işlək olan əlifbamıza köçürür, oxuyacaq kəslərin anlamasını asanlaşdırmaqdan ötrü ayrı-ayrı dövriyyədən çıxmış və başa düşülməsi əngəlli ola biləcək kəlmələrin lüğətini də əlavə edir və təqaüdündən bu məqsədlə ayırdığı vəsaitin üstündən müəyyən məbləği götürərək taksi ilə göndərir, adətən, bu qəbil yazılarını əlyazmadan oxuyub çap edən kompüterçiyə.

Ertəsi gün oradan yenə həmin yolla qayıdan yazını bu dəfə yenə təzədən oxuyub təshih edəndən sonra taksi haqqını ödəyərək yollayır redaksiyalara.

Savabına da heç kəsi şərik etmək istəmir.

Bir dəfə təklif etdim ki, sürücümü göndərim, gəlib həmin aparıb-gətirmə

əməliyyatlarında yardımçınız olsun, Stalin dövrünün təmiz kommunistlərinin ifrat prinsipiallığı ilə etiraz etdi: "Bəs birdən bu yazıları apardığı zaman sənin idarənin həmin sürücü tərəfindən görülməli işləri necə olsun?"

Yalnız gərgin alim əməyi ilə deyil, həm də ağır fəhlə zəhməti ilə araya-ərsəyə gələn bu yazıları 10 adamdan birinin oxuyub-oxumayacağına şəkki olsa da, usanmadan, bezmədən çalışır.

Çünki həm də bu işlərin əhəmiyyətinə inanır, həm əmindir ki, gec-tez mütləq bu yazıları oxuyub həzm edənlər artacaq, həm bilir ki, özü indi bu işləri yerinə yetirməsə, bir ayrısının onlara vaxt və ürək sərf edəcəyi ehtimalı zəifdir.

İşləyir və nəticəni xalqa təqdim etməzdən öncə xəbərdarlığını da yaddan çıxarmır ki, bunlarda fayda var ha!

Qarşına qoyulan məhsulda xeyir olduğunu sənə bəyan edirlərsə, yəqin ki, sən də maraq göstərməli, ona doğru can atmalısan.

Amma bu müdrik kişi dərk edir ki, maraqlanmaya da bilərlər, biganə qalanlar da olacaq.

Ona görə də bir az eyhamla (bunu yazanda gözümün önündə istər-istəməz Şirməmməd müəllimin kinayəqarışıq xeyirxah təbəssümlə işıqlanan çöhrəsi canlanır) əziyyətə qatlaşıb, heç olmazsa, öz faydanız üçün maraq göstərin bu irsə.

Adətən, ata balası üçün belə canıyananlıq edir.

Adətən, valideyn balalarından hansının hansı ağıl səviyyəsinə, hansı qabiliyyətə malik olmasından asılı olmayaraq, hər birinin bilməli olduqlarını öyrənməsinə bu sayaq nəvazişlə, qayğıkeşliklə yanaşır.

Şirməmməd müəllimin yaşı elə həddədir ki, tay-tuşlarının, simsarlarının, ürək dostlarının əksəri gedib.

Bu yazılar onunçün həm də daim özü qəbildən olan məsləkdaşlarla təmas qurmaq fürsətidir.

Sənin lə bir masa arxasında oturub mülahizə, sevinc, dərd, arzu, ümid bölüşən müasirlər tükənibsə, gərək Həsən bəy Zərdabi ilə, Məhəmməd Əmin Rəsulzadə ilə, Üzeyir Hacıbəyli ilə, Əlimərdan bəy Topçubaşı ilə, Əhməd bəy Ağayevlə... həmsöhbət olasan.

Özün həmsöhbət ol, yüngülləş, bu feyz digərlərinə də nəsib olsun deyə onların köhnə, fəqət köhnəlməz sözlərini bugündəkilərə və sabahdakılara da çatdır.

Professor Şirməmməd Hüseynov bu amalın, bu əxlaqın yiyəsi, bu idealın daşıyıcısıdır!

Azərbaycan tarixinin elə hadisələri var ki, onları biz hər zaman anmalı, onlar barəsində müdam minnətdarlıqla düşünməliyik.

XX yüzilin başlanğıcındakı Azərbaycan tarixində iki oxşar səhnə yaşanıb ki, ikisinin də əvvəlində göz yaşı dayanır.

1918-ci il may ayının 28-də Tiflisdə sabiq Qafqaz canişinliyinin iqamətgahında Həsən bəy Ağayev Azərbaycanın İstiqlal Bəyannaməsini elan edirdi.

O, İstiqlal Bəyannaməsinin mətnini oxuyurdu, müstəqil dövlətimizin yarandığını elan edirdi və həmin yığıncağın protokolunda o qəbil sənədlər üçün çox da səciyyəvi olmayan qeydlər də əksini tapıb ki, Həsən bəy Ağayev ağlayırdı, Xəlil bəy Xasməmmədov ağlayırdı, Nəsib bəy Yusifbəyli ağlayırdı, Xudadat bəy Məlikaslanov ağlayırdı...

O insanlar ki bu istiqlalı elan edirdilər, onlar bu möhtəşəm anların fövqəladə mənasını, millət tarixindəki yerinin ali siqlətini bütövlüyü ilə anlayırdılar, bunun bir millət üçün nə qədər müstəsna bəxtiyarlıq olduğunu dərk edirdilər, ona görə kövrəlirdilər.

Və 1920-ci il aprel ayının 27-si Azərbaycan parlamentinin – Məclis-i Məbusanının son iclası.

Məhəmməd Əmin Rəsulzadə söz alaraq iclasın başlanğıcında deyir ki, biz bu yığıncağımızı qapalı keçirməyək. Açaq qapıları, millət gəlsin və görsün ki, taleyimizdə nə baş verir. Millətin müqəddəratı həll olunur və insanlarımız bundan bixəbər qalmamalıdır.

Məhəmməd Əmin Rəsulzadə qəlb ağrısı ilə belə deyirdi. Çünki Azərbaycanın müstəqilliyi əldən gedirdi, hakimiyyət, istiqlal bolşeviklərə təslim edilirdi.

Bu sənəddə də belə protokollar üçün heç də xas olmayan belə bir cümlə var. Mötərizədə yazılıb ki, "Azərbaycan" qəzetinin baş redaktoru Şəfi bəy Rüstəmbəyli ağlayır.

O əvvəlki göz yaşı – Həsən bəy Ağayevgilin 1918-ci ilin mayındakı göz yaşı – fərəhin, böyük səadətin, iftixarın gətirdiyi göz yaşı idi, ikinci göz yaşı müdhiş faciənin, millətin tarixində dərin yaralar açan bir acının doğurduğu göz yaşı.

Və bu millət heç vaxt nə birinci, nə ikinci göz yaşlarını unuda bilər.

Yaxşı millət olmağın yolu yaddaşdan, yurdun taleyi, müqəddəratı ilə bağlı həlledici anları və şəxsiyyətləri unutmamaqdan keçir.

Ömrü boyu, xüsusən də təzədən qayıtmış istiqlalımızın açdığı meydan sayəsində 1990-cı illərin lap əvvəllərindən başlayaraq daha güclü şəkildə Şirməmməd müəllimə bu şərəfli tarixin salnaməsini millətimizə təqdim etmək missiyasını özünə şərəf borcu seçdi.

Daş daşımaq zəhmətlərin ən ağırı, fəhlə işlərinin ən çox güc istəyənlərindəndir.

Amma adi daşı daşımağa nə var!

Daş yükünü çəkməyə nə xüsusi hərarəti, ilhamı, sevgisi olan bir ürək gərəkdir, nə yüksək peşəkar qabiliyyətlər, ağıl, istedad.

Bütün bunlarsız da hər kəs yaxşı-yaman daş daşımaq imkanındadır.

Vətənin daşını daşıya bilmək isə ağırlardan-ağır əməkdir və burada ortabab, alababat söhbətinə yer yoxdur.

Millət naminə nə edirsənsə, ali səviyyəli olmalıdır.

Vətənin daşını çiyində yox, ürəkdə daşıyırlar!

Vətənin daşını çəkə bilməkçün ilk növbədə böyük hərflərlə VƏTƏNDAŞ olmağın vacibdir.

Üstəlik, ürəyində gərək xalqına sonsuz sevgi daim nəbz kimi vura, qan kimi damarlarında axa.

Millətə və torpağa sədaqət, fədakarlıq, dözüm, ardıcıllıq, təpər, görəcəyin işlərin böyüklüyü və kiçikliyindən asılı olmayaraq, bir saniyə belə səngiməyən məsuliyyət, cavabdehlik hissi, üstəlik də əməlinin bəhrələrinin hər kəsin qəlbinə yata bilməsindən ötrü bilik, zövq, şövq, qaynar həvəs, yorulmazlıq və yüksəkdən-yüksək peşəkarlıq.

Bircə Şirməmməd Hüseynovun son illərdə işıq üzü görmüş irihəcmli kitablarının bir qisminin adlarına diqqət edin: "Milli haqq və ədalət axtarışında" (Bakı,

"Adiloğlu", 2004), "Mətbu irsimizdən səhifələr" (Bakı, "Çənlibel", 2007), "Publisistik miras və müasirlik" (Bakı, "Elm", 2007), "Müstəqilliyin çətin yolu... Reallıqlar, düşüncələr" (Bakı, "Elm", 2009), "Üzeyir Hacıbəylu. Nəşrlərdə kənarda qoyulmuş mətbu əsərləri" (İki cilddə, Bakı, "Elm", 2009, 2010), "Məhəmmədəmin Rəsulzadə. Əsərləri" (Beş cilddə, Bakı, "Təhsil", 2014), "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" (Üç cilddə, Bakı, "Qanun", 2012, 2015, 2016, 2017)...

İnsanlara "Zəbur" da, "Tora" da, "İncil" də, "Tövrat" da, "Quran" da gərəkmiş ki, o müqəddəs kitablar yaranıb və bəşərin ayrılmaz yol yoldaşına çevrilib.

O kitablar üz tutduqları, etiqada dəvət etdikləri insanlara bütün başqa məziyyətlərindən savayı kamil insan, yaxşı adam olmağın əbədi dərslərini verirlər. Lakin xalqların və millətlərin onları yaxşı xalq, kamil millət edəcək kitablara da həmişə ehtiyacı olub, bu ehtiyac heç vaxt da tükənməyəcək.

Şirməmməd Hüseynov bu qəbil kitabları xalqınkı, millətinki etməklə məşğuldur.

Gözdən iraq düşənləri təzədən qaytarıb və qaytarır, yazılmalı olanları yazıb və yazır.

Bu kitabların hər birinin yaranması ictimai-siyasi həyatımızda, düşüncə mühitimizdə necə qarşılanmasından asılı olmayaraq, millət tarixinin çox önəmli hadisələridir.

Hər bir istedadlı insan, hər bir güclü yaradıcı ömür möhləti boyu hansısa şah əsərini yaradır. Bu onun gənclik illərində də baş verə bilər, ahıllığında da, ixtiyar sinnində də.

Zəka, ilham sahibinin yaradıcılıq yolu uzun da çəkə, onun şah əsərinin ortaya çıxması həyatının erkən çağına da, yolun ortasına da təsadüf edə bilər, yaxud arzulanan şah əsərin ömrün sonlarına doğru, təcrübələrin yekunu kimi meydana gəlməsi də mümkündür.

Şirməmməd müəllim şərəfli ömür yaşayıb, çox layiqli bir alim, xoşbəxt bir müəllim həyatı sürüb və onun yetirmələri, tələbələri Azərbaycan boyuncadır.

Şirməmməd müəllim örnək sayılası ailə başçısı ömrü yaşayıb, Azərbaycana çox dəyərli balalar bağışlayıb.

Və ilk gəncliyindən əli qələmli olub, durmadan işləyib, bolluca məqalələr, dissertasiyalar, kitablar yazıb.

Valideynə balalarından hansını daha çox istədiyini söyləmək necə cavabsız qədər çətin sualdırsa, yaradıcı adama da hansı əsərinin daha üstün olduğunu müəyyənləşdirmək bir o qədər qəliz məsələdir.

Şirməmməd müəllimin isə, mənim zənnimcə, ömrünün şah əsəri kitabı "Parlament hesabatları"dır.

Hərçənd, Şirməmməd müəllimin doğurduğu və sanbalına, çəkisinə, dəyərinə görə elə bu üçcildliyə bərabər sadaladığım və adını çəkmədiyim digər kitabları da var, amma bu üçcildliyin sanbalı, məna yükü, mahiyyəti büsbütün başqadır.

Uzaq 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində dərc edilmiş parlament hesabatlarını günümüzə çatdıran cildlər sırası qiymətəsığmaz salnamədir.

Azərbaycanın tarixində iki əvəzsiz əsər var ki, tariximizdən bəhs edərkən, salnaməçiliyimizdən söz düşəndə hər zaman onları hökmən xatırlamaq zərurəti yaranır.

XIII yüzildə Fəzlullah Rəşidəddin Təbrizdə Rəşidiyyə mədrəsəsini qurdu, ilk

universitet təhsilimizin təməlini qoydu və "Cami ət-təvarix" adlı elmi əsaslara dayanan ilk misilsiz salnaməmizi yaratdı.

Bu "Tarixlər toplusu"ndan sonra çoxlu oxşar salnamələr, tarixi məcmuələr yaranıb, fəqət bir örnək olaraq bütün orta əsrlər içərisində ən uca mərtəbədə qərar tutan zirvə əsər "Cami ət-təvarix"dir.

Və XIX yüzildə Abbasqulu Ağa Bakıxanov "Gülüstan-i İrəm"i qələmə aldı.

Bu da salnamə idi, amma artıq həm də bir peşəkar tarixçi alimin əsəri idi ki, incə təhlillər, müxtəlif mənbələri tutuşdurmaq əsasında elmi tarixçiliyin yeni dövrdə şəkillənən bir sıra ümdə xüsusiyyətləri nəzərə alınaraq ərsəyə gətirilmişdi.

Bu iki əsər arasındakı altı əsrlik zaman kəsiyində, həmin iki kitabdan bir az əvvəli və bir qədər sonranı da nəzərə alsaq, 7-8 əsrlik iri tarix parçası ərzində çox salnamələr yaranıb. Amma bu iki müəllifin adı və əsəri, düşünürəm ki, hər zaman üstün tutularaq yaşayacaq və sayğılarla yad ediləcək.

Artıq bizim dövrdə – XX əsrdə və XXI yüzilin ilk onillərində Şirməmməd Hüseynov və Qulam Məmmədli salnaməçiliyin yeni tipini yaratmaq hünəri ilə ziyalı mühitimizi heyrətləndirə bildilər.

Onlar salnaməçiliyin Azərbaycanda buçağacan ortada olmayan nümunəsini ortaya qoydular.

Qulam Məmmədli Azərbaycan teatrının salnaməsini vücuda gətirdi, "günbəgün" adlandıra biləcək janr xəlq elədi, Hüseyn Cavidin, Abbas Mirzə Şərifzadənin, Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun, Nəriman Nərimanovun, Mirzə Cəlilin, Üzeyir bəy Hacıbəylinin ömür yollarını əks etdirən tayı-bərabəri olmayan qiymətli salnamələr yaratdı və salnaməçiliyin tamam yeni çeşidi və tərzini Azərbaycan xalqına bəxş etdi.

İlk Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, adı vətənimizin adı ilə eyni olan "Azərbaycan" qəzeti bəlli idi, ictimai-siyasi gerçəkliyimizdə, mətbuat tarixində izini qoyub getmişdi.

Dövlət müstəqilliyimizin bərpasından az sonra, 1998-ci ildə ilk Azərbaycan parlamentinin iclaslarının stenoqramları çapa hazırlanaraq nəşr edildi. Sanki boşluq doldurulmuşdu, onillərcə hətta arxivlərdə belə gizli saxlanmış, yalnız xüsusi hallarda və məxsusi icazə ilə istifadəsinə icazə verilmiş bu mətnlər hamınınkılaşmışdı.

Lakin nə yaxşı ki, müdrik alim və mətbuatşünas Şirməmməd Hüseynov həmin dövrə bir də nəzər salmağı vacib hesab etdi.

Onun təqdimatındakı "Azərbaycan" qəzetində dərc edilən parlament hesabatları və bu hesabatlarla bağlı yazılar, onların qovuşmasından törəyən üç sanballı cild xüsusi hadisə – məlumdan yaranan büsbütün yeni naməlum idi.

O mənada ki, bu nə "Azərbaycan" qəzetində Xalq Cümhuriyyəti dövründə buraxılmış qəzetdə çıxmış protokolların sadəcə əski əlifbadan latın qrafikasına köçürülməsi idi, nə də 1998-ci ildəki kimi, bəlli protokolların cüzi redaktə ilə nəşri.

Şirməmməd müəllim ömrü boyu topladığı təcrübə və biliklərə qəlbindəki coşqun millət və yurd sevgisini də artıraraq arxada qalmış şanlı, keşməkeşli, qəmli və nigaran tarixi, əslində, yenidən canlandırdı.

Bişkin alim usta qələmi ilə bəlli protokolları zəruri izah və şərhlər, yeri düşdükcə sözə söykək duran əlavə materiallarla zənginləşdirdi.

Buradaca bir-iki önəmli cəhətə diqqət yönəltməyə lüzum var.

Əvvələn, "Azərbaycan" qəzetinin nəşrindən 9 onillikdən də artıq böyük zaman sovuşmuşdu, yeni nəsillər o nüsxələrdən bixəbər idi.

İkincisi isə, həmin nüsxələrlə indi kitabxanalarda, arxivlərdə açıq istifadə imkanı varsa da, yeni nəsillərçün əlifba maneəsi, ərəb-fars tərkiblərinin yaratdığı müşküllər bəlli idi.

1998-ci ildə buraxılmış parlament protokolları isə xeyli şəkildə tələsik hazırlanmışdı, yanlışlar, kobud xətalarla ləbələb idi və heç bir tutarlı şərh və izahla müşayiət edilmirdi.

Şirməmməd Hüseynov – bu müstəsna alimimiz, bu cəfakeş müəllimimiz, bu təpədən-dırnağa işıq olan ziyalımız üçcildlik əsərini zahirən qısa bir zaman içərisində hazırlayıb.

Həmin yazıları kitablaşdıraraq xalqa təqdim edənəcən ard-arda mətbuatda dərc də elətdirib və bu minvalla cildlərin yaranma gedişatını müşahidə etmək hər birimizə nəsib olub. Amma bilənlər bilir ki, bu kitabları hazırlamaq üçün Şirməmməd müəllim 50 illik yol gəlib.

Ömrü uzunu bu barədə düşünüb, ömrü boyu bu hadisələri və adları içərisində yaşadıb. Və öz etirafıdır ki, ilk gənclik illərindən, Moskvadakı aspirantura dövründən, orada məxfi arxivlərdə işlədiyi çağlardan, bu qəbil materialları nəinki üzə çıxarmağa, hətta oxumağa belə yasaq qoyulduğu zamanlardan gizli ümid və inamla tariximizin bu dövrü ilə əlaqədar materialları toplayırmış, qeydlərini edirmiş, haçansa belə işlərin də vaxtı yetişəcəyi, kilidli qapısının açılacağı arzusu və intizarı ilə təhlillərini aparırmış.

50 ildən artıq müddətdə qəlbdə bəslənmiş, kimsəyə görünməmiş, Şirməmməd müəllimin yazı masasının gözündə qalmış həmin ilkin hazırlıq yazıları XXI yüzildə "Azərbaycan" qəzetindəki parlament hesabatlarına qovuşaraq Ustadın xeyirxah və xilaskar əlləri ilə bizə qayıtdı.

Bu yazıları dinlədikcə mat qalmaya bilmirsən.

Bir tərəfdə heyranlıq və heyrət doğuran istiqlalçı, qurucu babalarımızın pak amal uğrunda fədakar mübarizələri, mətinliyi, mərdanəliyi, tələtümlü əyyamlarda söylədikləri sərrast sözləri və çağırışlarıdırsa, digər tərəfdə ikiqat heyranlıq və ikiqat heyrət oyadan Şirməmməd müəllimin, illərcə valideynlərinə borcunu qaytarmaq üçün münasib girəvə gözləmiş fərasətli, sadiq bir övladın məhəbbəti və canıyananlığı ilə bu irsi belə ali peşəkarlıqla canlandırmasıdır.

Mən az öncə yanılaraq yox, elə qəsdən "oxuduqca" yerinə "dinlədikcə" yazdım.

Əslində, bu, "dil (indiki halda "qələm") çaşıb düzünü söylər" məsəlinin dürüstlüyünə əlavə sübutdur.

Şirməmməd müəllimin təqdimatındakı bu yazıları səhifə-səhifə çevirdikcə biixtiyar tarixə dalırıq və həmin qərib illərin axarındakı səsləri aydınlığı ilə eşidirik.

Parlament iclaslarının salnaməsindən Həsən bəy Ağayevin, Əhməd bəy Pepinovun, Əhməd Cavadın... səsini, onlara əleyhdar olanların sədalarını eşidirik.

Əliheydər Qarayevin də səsi gəlir ordan, Məhəmməd Əmin Rəsulzadənin də.

O səsləri indi – XXI əsrdə eşidirsən və anlayırsan ki, hansı girdablardan, hansı yarğanlardan adlamışıq, ayrıntıları ilə dərk edirsən ki, millətin tarixində millətin, yurdun taleyinə münasibətdə necə tam əks qütblərdə qərar tutmuş insanlar yaşayıb,

istiqlal yolumuzda hansı toqquşmalar, çarpışmalar, hansı təzadlı baxışlar olub.

Şahid kəsilirik ki, Azərbaycanın bugünkü istiqbalının, təzədən qayıtmış bu müstəqilliyinin təməlində hansı barışmaz mübarizələr dayanır, bu səadətə gələn yolun başlanğıcında hansı dramatik aylar, günlər, saatlar, dəqiqələr yaşanıb.

Və bu kitablar silsiləsinin ortaya qoyduğu mühüm bir öyüd, vacib bir dərs var.

Bu nəsihət, bu ibrət də ondan ibarətdir ki, o pak insanlara, o qurucu babalara əbədi borcluyuq, onlara hər zaman minnətdar olmalıyıq.

Onlar olmasaydı, bu dövlət olmazdı!

Onlar mürəkkəbdən-mürəkkəb tarix dönəmində Azərbaycan istiqlalını elan edib 23 ay yaşayacaq müstəqil dövlətimizi qurmasaydılar, sonra 70 il ömür sürəcək Sovet İttifaqının içərisində də Azərbaycan Respublikası olmayacaqdı və SSRİ dağılarkən, 15 dırnaqarası müstəqil respublika artıq elə gerçək mənada müstəqil dövlətə çevriləndə biz o sırada olmayacaqdıq.

1991-ci ilin 18 oktyabrında biz dövlət müstəqilliyimizi yenidən elan edə bildiksə, səbəbkar o KİŞİlərdir!

Müstəqilliyin hər bəhrəsindən hər cür bəhrələnənlərə lap aydın olsun deyə bir daha təkrar edirəm: Sovet İttifaqı dağılanda onun içərisindən bizim müstəqil dövlət kimi çıxmaq imkanımız ona görə oldu ki, daha əvvəl cümhuriyyətimiz vardı, cümhuriyyətimizdən sonra Sovet İttifaqı içərisində Azərbaycan Respublikası vardı. Sovetin Konstitusiyası isə sözdə, yalandan da olsa, hər halda Əsas Qanununda məhz respublikalara İttifaqdan çıxmaq ixtiyarını rəsmən verirdi.

Bu gün müstəqil dövlətimiz varsa, buna görə biz o qurucu insanlara hər açılan səhərimizlə, müstəqil yaşadığımız hər yeni günümüzlə, başlanan hər yeni azad, asılılıqdan qurtulmuş sabahımızla borcluyuq.

O cildliyin (və Şirməmməd müəllimin bütün fəaliyyətlərinin) bünövrəsində, nüvəsində dayanan ən birinci amil eşqdir.

Qurucu babalarımızın öz yoluna, əqidəsinə, xəttinə sonsuz inamını, imam və sevgisi, eləcə də Şirməmməd Hüseynovun Azərbaycan tarixinə, Azərbaycan millətinə, istiqlalımıza olan məhəbbəti, o nadir şəxsiyyətlərimizin ruhuna olan sədaqəti, ehtiramı, etibarı!

Məhəbbət yoxsa, dəryaca ağlın olsa da, əlindən çıxan bəhrənin işığı çatmaz, rəngləri solğun alınar, təqdim etdiyin məhsulla ürəklərə qığılcım ötürə bilməzsən.

Üzeyir bəyin sonrakı nəşrlərdə qırağa qoyulmuş mətbu əsərlərinin birləşdiyi cildlər də, Məhəmməd Əmin Rəsulzadənin qələm və düşüncə yadigarlarından ibarət Şirməmməd Hüseynov "Xəmsə"si də, söz yox, son dərəcə dəyərli və sanballı mətnşünaslıq nümunələridir.

Lakin parlament hesabatlarını əhatə edən üçcildlik bənzəri olmayan mətnşünaslıq abidəsidir.

Nəyə görə mətnşünaslıq abidəsi?

Mətnşünaslıq elmi iynə ucu ilə qaya çapmaq kimi gərgin əmək, alın təri tələb edən ciddi tədqiqat sahəsidir.

Təəssüflər olsun ki, artıq bu istiqamətin yaşamalı olan bir çox ənənələrini itirmişik, ya itirməkdəyik.

Azərbaycanda 1950-60-70-ci illərdə Əbdülkərim Əlizadə, Məmmədağa Sultanov, Tahir Məhərrəmov, Əbülfəz Rəhimov, Nəsrəddin Qarayev, Əziz Mirəhmə-

dov, Turan Həsənzadə və bir sıra başqaları cox mükəmməl mətnşünaslıq məktəbi yaratmışdılar. Təəssüf ki, o insanlar getdilər, həmin ötkəm mətnşünaslıq məktəbi, o məktəbin iş üsulları, vərdişləri də korşalmağa, gündəlik təcrübədən qeyb olmağa başladı.

1990-cı illərin ortalarında mən Məclis-i Məbusanımızın – ilk parlamentimizin birinci rəhbəri Həsən bəy Ağayevin ömür yolunu araşdırırdım. Əslində, milli parlamentimizin ilk sədri Əlimərdan bəy Topçubaşov idi. Lakin Əlimərdan bəy Topçubaşov əvvəlcə İstanbulda ezamiyyətdə idi, sonra isə Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getdi və iki dəfə parlament sədri seçilsə də, bir gün belə həmin kürsüdə əyləşmədi, məclisi Həsən bəy idarə etdi.

Əlimərdan bəyin parlamentin sədri olaraq xaricdəki fəaliyyətlərinin başlıca hədəfi ondan ibarət idi ki, Azərbaycan dövlətinin başçısı kimi rəsmi statusa və səlahiyyətlərə malik olsun, Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə rəsmən tanınmasını təmin etmək üçün orada danışıqlar aparsın.

Həsən bəy Ağayevin faciəli ömür yolunu araşdıraraq məsləkinə candan bağlı bu millət fədaisi haqqında "Yaxşıların yaxşısı" adlı kitabımı yazarkən əski parlament materiallarını da qaldırmalı olurdum.

O zaman həmin protokollar nəşr edilməmişdi – hələ 1990-cı illərin başlanğıcı idi.

Parlament iclaslarının əlyazmalarını oxuduqca qürur hissi keçirirdim.

Hər vərəqin arxasında tarix durur. Yəni hətta mətninə nüfuz etməzdən əvvəl bu kağızların, xətlərin özü belə ayrıca tarixdir axı!

Təsəvvür edin, stenoqramları kimlər tərtib edir, kimlər qələmə alırmış – onlardan biri hələ xeyli gənc olan, az sonra Azərbaycanın ən parlaq ədibi kimi şöhrətlənəcək Cəfər Cabbarlı idi.

Di gəl, protokollarla tanış oduqca, stenoqramların əlyazmalarını oxuduqca görürdüm ki, hətta Cəfər Cabbarlı kimi bilgin, danışanların buraxdığı müəyyən üslubi səhvləri də yeri düşdükcə əlüstü islah edən stenoqrafistin – tezyazarın da əlindən çıxmış vərəqlərdə yanlışlıqlar az deyil.

Təbii, bu, ilk növbədə vaxt qıtlığı, tələskənlikdən yaranmış qüsurlar idi.

Müstəqilliyimizin bərpasından 7 il keçərkən həmin sənədlər Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyası və Baş Arxiv İdarəsi tərəfindən 5 kitabda nəşr edildi ki, onların 2 cildi parlament hesabatları idi.

1998-ci il nəşrinə materialları əlyazmalardan Bakı Dövlət Universitetinin müəllimi, cümhuriyyət tariximizə, bir vaxtlar dərs aldığı Cavidə, Müşfiqə coşqun məhəbbətlər bəsləyən Səfər İbrahimov hazırlamışdı.

Onun əsas işi mətnləri ərəb əlifbasından kirilə köçürmək olmuşdu. Lakin Səfər müəllim sadəcə ərəb əlifbasını bilirdi, klassik ədəbiyyata və üsluba az-çox bələd idi, amma tarixçi, mətnşünas deyildi.

Doğrudur, əslən Cənubdan olan və orta əsrlər tarixi üzrə yaxşı mütəxəssis sayılan professor Seyidağa Onullahi də redaktor kimi bu işə cəlb edilmişdi. Amma oxuduqca və orijinallarla tutuşdurduqca görürsən ki, həmin stenoqramlarda nə qədər kobud qüsurlar var.

Ehtimal yaranır ki, hətta həmin materialların çoxunu heç Seyidağa Onullahi görməyib. Çünki nəşrdə elə səhvlərə təsadüf edilir ki, bunlar heç vəchlə Seyidağa

müəllimin nəzərindən qaça bilməzdi.

Bəs o stenoqramlarla "Azərbaycan" qəzetində dərc edilən hesabatların fərqi nədədir?

"Azərbaycan" qəzetində dərc edilən parlament hesabatlarının mənası və dəyəri büsbütün başqadır. Bunlar hamısı Məhəmməd Əmin və Üzeyir bəylərin redaktə süzgəcindən keçərək dərc olunub. Yəni onlar, məlum stenoqramlardan fərqli olaraq, ağızdan çıxan hər sözü əks etdirməyiblər, yalnız ictimai məna kəsb edənləri saxlayıblar, müəyyən ixtisarlar aparıblar, bəzi parçaların məzmununu veriblər.

Və Şirməmməd Hüseynovun məharəti, materiallara yetərincə hündürdən, gen miqyasda, panoramda baxa bilməsinin nəticəsi bundan ibarətdir ki, o, qəzetdə dərc edilən ayrı-ayrı iclaslar barədə hesabatları verir, amma bunun yanında bəzən əvvəldə, hərdən sonda həmin mətləblərə dayaq duran, elə o qəzetdəcə yer almış başqa yazıları da gətirir.

Qəfildən qarşımıza bu məsələlər və mətləblərlə həmahəng gələn, heç parlamentdə olmayan Fərhad Ağazadənin məqaləsi çıxır və sanki həqiqətlərə əlavə bir pəncərə taybatay açılır.

Ya Məhəmməd Əmin Rəsulzadənin özünün, yaxud Üzeyir bəy Hacıbəylinin parlament divarları arasında səslənməmiş, müstəqil məqalə kimi işıq üzü görmüş yazıları parlament hesabatları kontekstinə qovuşur, həmin andaca mətnin ahəngi, ritmi dəyişir, yeni məna qatları ortaya çıxır, xeyli qaranlıq suallara aydınlıq gəlir.

Bunları edə bilməkçünsə, bu kompozisiyanı qura bilməkdən ötrü isə gərək o dövrün hadisələrinə, həmin dövrün ayrı-ayrı şəxsiyyətlərinin əqidəsinə, qələminə, düşüncə tərzinə dərindən vaqif olasan.

Şirməmməd Hüseynov kimi!

Bu yazılar silsiləsinin göstərdiyi parlament mənzərəsi, istiqlal uğrunda gedən mübarizəmizin gerçəkçi və dolğun fonu, ayrıca vurğulayıram ki, yalnız və yalnız Şirməmməd Hüseynov kimi həmin tarix kəsiyindən incəlikləri ilə agah olan müstəsna bələdçinin əməkləri ilə yaradıla bilərdi.

Hər halda bu gün həmin işi o cür sərişdə və vurğunluqla yerinə yetirə biləcək ikinci şəxsi mən tanımıram.

Şirməmməd müəllimin "Parlament hesabatları"nın cildlərini vərəq-vərəq çevirdikcə hadisələri yalnız oxumuruq, dinləmirik, həm də bütün əyaniliyi ilə görürük.

Hesabatları ibtidasından son səhifəsinəcən mütaliə edəndə belə qənaətə gəlirsən ki, bu, nəhəng bir film kimidir, bir epopeya timsallıdır və oxuya-oxuya olmuşları sanki ilk kadrından son kadrınacan seyr edirsən.

Bu kitab həm də bir ülgüdür. 3 cild olsa da, onları bir bütöv sayaraq "kitablar" yox, sadəcə "kitab" deyirəm.

Birincisi, bu kitab bir daha əyan edir, nəşrindən bir əsr keçəndən sonra da ülgü göstərir ki, yaxşı qəzet nədir.

XX əsrin əvvəlindəki "Azərbaycan" qəzetinin nümunəsi işarə edir ki, millətin ola biləcək yaxşı qəzeti necə çıxarmaq lazımdır ki, üstündən zamanlar keçəndən sonra da salnamə sayılsın, tarixin bərpa olunması üçün mənbəyə çevrilsin, saralıbsolsa da, mahiyyətcə nimdaşlaşmasın, boyatlaşmasın, yeni zamanla da ünsiyyətə girə bilsin.

Və həmin qoca "Azərbaycan" indikilərə bunu da pıçıldayır ki, nəşr olunmaq

üçün istənilən məqaləni yazanda fərqində olmalısan, çək-çevir etməlisən ki, 50 il ötəcək, mənim haqqımda bu yazıya görə nə deyəcəklər, 100 il sovuşacaq, mənə bu yazıma görə necə qiymət verəcəklər.

Qələmi götürəndə, qəzet-jurnal buraxanda bir an belə vaxtı yetişincə hər suala cavab tələb edən tarix qarşısında məsuliyyətini unutmamalısan!

Kim bilir, bəlkə də o qüdrətli şəxsiyyətlər o zaman bütün bunlar barədə fikrə dalıblar?!

Məhəmməd Əmin Rəsulzadə də, Üzeyir bəy Hacıbəyli də, Şəfi bəy Rüstəmbəyli də, Ceyhun bəy Hacıbəyli də, ola bilsin, bu barədə ən azı təhtəlşüur düşünüblər, ona görə o təhər köhnəlməz, dəyərini itirməz qəzet yaradıblar. Həmin səbəbdəndir ki, "Azərbaycan" qəzetinin səhifələri vətən işığı ilə, millət atəşi ilə doludur.

Vətən işığı, millət atəşi elə əziz Şirməmməd müəllimin də bütün varlığında olduğundandır ki, bu cür mükəmməl bir əsəri ortaya çıxarmağa müvəffəq olub.

Bu cildləri yaratmaq əsnasında Şirməmməd Hüseynov dünənin dumanlarında əriyib-itmiş, bugünün insanlarına pünhan qalan bir sıra adları da aşkarlayıb, onlara təzədən həyat bağışlayıb.

"Azərbaycan" qəzetində yazıları çıxan Əhməd Həmdi adlı şəxs diqqətini çəkib. Azərbaycanda çox soraqlaşsa, arxivlərə baş vursa da, bir məlumat əldə edə bilməyib. Amma ruhdan, həvəsdən düşməyib, ona ilk gənclik əyyamlarından xas olan inadkarlığı ilə yenə arayıb, yenə axtarıb, yenə soraqlaşıb və suallarına cavabı Türkiyə arxivlərində bulub.

Və bu hərəkəti ilə də Şirməmməd müəllim növbəti dərsini, növbəti öyüdünü verib.

Yəni istiqlal, müstəqillik bizim elə müqəddəs sərvətimizdir, səcdəyə layiq elə mirasdır ki, onun yolunda azacıq belə zəhməti olmuş hər insanı biz həmişə qədirbilənliklə, dualarımızla, sağollarımız, rəhmətlərimizlə anmalıyıq.

Şirməmməd müəllimin hər çıxışı, hər yazısı, hər kitabı və o sıradan bu cildlər heykəllərdir.

Tanrı, tale, tarix Şirməmməd Hüseynov kimi fövqəladə insanları millətə göndərir ki, cərəyan ötürən naqilə çevrilsinlər, qoymasınlar yaddaş qırılsın, imkan verməsinlər keçmişlə rabitələr kəsilsin.

Şirməmməd Hüseynov milli yaddaş daşıyıcısı, bir mənəviyyat körpüsüdür. Azərbaycanın dünəniylə indisi, istiqlalımızın qaynaqları ilə bugün arasındakı körpü.

Milləti tarix sınaqlarından zədəsiz çıxaran, həmişə ayaq üstə saxlayan, güclü edənsə məhz tarixi yaddaş, belə sarsılmaz körpülər olub.

Azərbaycan bayrağı bu gün yenə yüksəklərdədirsə, Azərbaycan himni səslənəndə yenə biz iftixar qəhəriylə doluruqsa, bunun ümdə səbəbi odur ki, 70 ilin sovet qadağaları boyunca ayrı-ayrı insanlar bu sevdaya dönük çıxmadı, bu eşqi ürəyində yaşatdı, ziyalılarımız, düşüncə və duyğu adamlarımız sətirlərinin altında olsa da, həmin hissləri yurddaşlarımıza çatdırdı və qoymadı ki, istiqlal yanğısı sozalsın.

Qürbətlərdə, mühacirətlərdə, zillətlərdə yaşaya-yaşaya bu hissiyyatı diri saxladılar və ən qəddar maneələrə rəğmən vətənlərinə bunu çatdırmağa səy elədilər, nail də oldular ki, vətəndaşlarımızın içərisində istiqlal ruhu, müstəqillik istəyi şölələnməkdə davam etsin.

İndi Şirməmməd müəllim də yeni əsrimizin, təzə minilliyimizin başlanğıcın-

dan bu üç kitabla və ona bənzər digər cildləri ilə elə ocaq qalayıb ki, bu ocağın istisi və işığı Azərbaycanın çox uzaq gələcəklərinə səmt götürüb, şəksiz, gələcəkdəki yurddaşlarımıza da böyük faydalar verəcəkdir.

...İstiqlalımızın bir əsri tamam oldu, ikinci yüzili başlandı.

Yaşanmış tariximizin hər qırpımı gərək hər an göz önündə ola.

XIII yüzildə rəsədxana açmaq niyyətini hökmdara inandırmaq və anlatmağa cəhd edərkən dahi Xacə Nəsirəddin Tusi söyləmişdi ki, Yerdə rahat yaşamaqçün göyü yaxşı bilmək lazımdır!

1918-ci ilin 7 dekabrında yaradılmış Məclis-i Məbusan bütün tariximizçün fəxr qaynağı olan milli hadisə idi.

Elə həmin səbəbdən mən Azərbaycanın ilk parlamentinin həyatını əks etdirən mükəmməl akademik nəşri görməyi çox istərdim.

Necə təsəvvür edirəm o kitabı?

Xatırlatdığım kimi, 1998-ci ildə Məclis-i Məbusanın stenoqramları həm Azərbaycan, həm rus dillərində, qüsurlu da olsa, nəşr edilib. Düşüncəmə görə, oradakı əsas nöqsan yalnız mətnin bərpası əsnasında buraxılmış ayrı-ayrı səhvlər deyil, həm də tərtib prinsiplərindəki xətalardır. Həmin nəşrdə azərbaycanca cilddə yalnız ana dilində olan çıxışlar verilib, rusca nəşrdə isə rus dilində edilən çıxışlar yer alıb. Demək, o da, bu da natamamdır. Mənsə akademik nəşrdə ana dilində olan mətnlərin arasında rusca olan mətnlərin də dilimizə çevrilərək verilməsini, amma orijinaldakının da cildlərin sonunda, şərhlərlə göstərilməsini məqbul sayıram. Eləcə də həmin akademik nəşrin şərhlər və izahlar, lüğət bölməsi Şirməmməd Hüseynovun kitablarındakı qəzet hesabatları, müxtəlif tamamlayıcı başqa "Azərbaycan" dərcləri, eləcə də ustadın o yazılara verdiyi yozumlar, dəqiqləşdirmələr, aydınlatmalarını artırmaqla dolğunlaşdırıla, daha artıq elmiləşdirilə bilər. Beləcə, biz, nəhayət ki, ilk dəfə olaraq ilk milli parlamentimizin keçdiyi enişli-yoxuşlu, mübarizəli yolun qənaətbəxş mənzərəsini aydınlığı ilə izləmək, öyrənmək fürsəti əldə edirik.

Unudulmaz Bəxtiyar Vahabzadənin Şirməmməd müəllimə həsr etdiyi bir şeiri var – "Körpü çaydan uzaq düşüb".

Elə bu adda yazını "Əkinçi"dən oxuduğu bir məqaləyə əsasən 1993-cü ildə Şirməmməd müəllim yazıbmış.

Millət qayğılarını ürəyinin başında daşıyan Həsən bəy Zərdabi bir vaxtlar intibahın və inkişafın Şərqdən başlandığını, islam və türk dünyasının bəşər tərəqqisinin önündə getdiyini, lakin sonra vəziyyətin dəyişdiyini, yüksəlişlərin Qərbə keçdiyini yazır və belə qənaətə gəlirdi ki, bizim Şərqdə tikdiyimiz körpü yerində durur, lakin daha maarif, inkişaf, elm çayı onun altından axmır, yatağını dəyişərək Qərbə köçüb. Ona görə də xalqına, türk dünyasına, islam Şərqinə səslənirdi ki, körpümüzün çaydan aralı düşməsi düçar olduğumuz bəladır, biz yüksəliş istəyiriksə, öz körpümüzü elmi-texniki tərəqqi çayının məcrası üstündə inşa etməliyik.

Məqalə şairi bərk tutur və axşam köhnə dostuna zəng vurur ki, nə yazmısan orda, xırdala görüm.

Və gecənin bir aləmində Bəxtiyarın növbəti telefon zəngi Şirməmmədi yuxudan oyadır: "A1 gəldi" deyərək ona ithaf etdiyi təzə şeiri oxuyur:

Hələ toxum cücərməmiş
Tarlamıza alaq düşüb.
Başımız da daz olalı
Əlimizə daraq düşüb.

Xəyallarım – qanad-qanad,
Ətəyimdən dartdı həyat.
Dünənimə Dürat, Qırat,
Bugünümə ulaq düşüb.

Əlim üzüldü diləkdən,
Dilim yandı "gəl" deməkdən.
Öz haqqını gözləməkdən
Haqqın gözünə ağ düşüb.

Bu tayda sən, o tayda mən,
Üzəmmədim bu çayda mən.
Ömr əritdim harayda mən,
Körpü çaydan uzaq düşüb.

Bəsirətli Bəxtiyar Vahabzadə bu şeiri yalnız mövzunu, ideyanı verdiyinə görə Şirməmməd müəllimə həsr etməmişdi.

Bəxtiyar millətcanlı bir yaradıcı idi, əngin təfəkkür sahibi idi və gözəlcə duyurdu ki, daim yaddaşın yatmış qatlarını diksindirən Şirməmmədlər olmasa, körpülərin çaylardan uzaq düşməsi təhlükəsi və ondan törəyən yüz cür fəsad yaxamızdan bilmərrə əl götürməyəcək.

Şirməmməd Hüseynov və onun məktəbi, yolu, dərsləri var olduqca isə körpii heç vaxt millət çaymdan aralı düşməyəcək!

...Şirməmməd müəllim bu yurd və xalq üçün təbərrük insandır və Allah da bunu bizdən daha əvvəl və daha yaxşı bilir!

Allah Şirməmməd müəllimin millət üçün gərəkliyini, tarix üçün faydalığını dəqiq bildiyindən, ona millət körpüsii olmaq vəzifəsini həvalə etdiyindən bu millət üçün onu yaşadır.

Sağlam yaşadır, gümrah yaşadır, düşüncəsini aydın, ruhunu təmiz yaşadır. Elə yaşadır ki, bu gün də – doxsanını arxada qoyub yüzünü haqlamaqda olduğu ərəfədə də əli silahlıdır, bu gün də səngərdədir.

Və böyründə də sədaqətli, vəfalı, fədakar şəfqət bacısı!

Mülki bir insandan bəhs edə-edə hərbi deyimləri qələmə gətirməyimi məcazlar saymayın. Bunlar şairanə bənzətmələr deyil, həqiqətin xalisidir.

Millət quruculuğu yolunda mübarizələr bitməyib, əksinə, hər gün daha artıq sürətlə davam edir və etməlidir.

Bu şərəfli yolda isə qələmin ən uzaqvuran toplardan-tüfənglərdən daha qüdrətli bir silah olduğunu tarixin bütün gedişi təsdiqləyir.

Böyük azərbaycanlı, lap çoxdan bütöv Azərbaycanı zəkasının nurunu səpdiyi auditoriyaya çevirmiş Ustad Şirməmməd Hüseynov istirahət günü və məzu-

niyyəti olmayan bir cədvəllə hər gün iş başındadır.

Universitetə gedərək əsgərlərinə təlimini verir – gələcəyin jurnalisti olacaq tələbələrinə dərsini deyir, qayıdıb gəlib səngərinə – yazı masasının arxasına keçir, silahını – qələmini götürür və başlayır itirdiklərimizi qaytarmağa, qazandıqlarımızı daha yaxşı qoruya bilməkçün yollar göstərməyə, istiqlal salnaməmizi bir az da bütövləşdirməkçün yeni mübarizələrinə.

Şirməmməd Hüseynov bu millətin ruhuna keşik çəkmək, varlığını sağlam saxlamaq, yeni sınaqlardan mərdanəliklə keçirməkçün taleyin və tarixin Azərbaycana misilsiz ərməğanıdır.

Tale və tarix Şirməmməd müəllimin özünü də hər an bizlərçün hifz etməyi, qulluğunda durmağı isə onun sadiq ulduzuna – şəfqətli ömür-gün yoldaşı, ilk oxucusu Ülkər xanıma həvalə edib.

Mehriban mənzilində bizə – Şirməmməd müəllimi ürəkdən sevənlərə görüş fürsətlərini, ustadın doyulmaz söhbətlərini dinləmək girəvəsini də tütyə dərman kimi qaşıq-qaşıq verən, onu bir sərhədçi sayıqlığı ilə mühafizə edən Ülkər xanımın insafsız dəmir intizamına illərcə dözməyə hazırıq və daha artıq – bunun müddətlərcə davam etməsini arzulayırıq!

Dəyərlərimizi hamı Ülkər xanım kimi beləcə göz bəbəyitək qorusaydı, nə dərdimiz olardı

Noyabr, 2018

İŞLƏNMƏMİŞ 30 QƏLƏM

Onun fikridir və bu dördcə kəlmə sözdə həm dərin təvazö, həm çağırış, həm xəbərdarlıq, həm arxayınlıq, əminlik, həm də bir az qınaq var.

"Maraqlananlar üçün faydasız olmaz".

Bu sözləri deyən 100 yaşına doğru əli qələmli, aydın düşüncə ilə, gündəlik axtarış və tapıntılarla irəliləyən bir böyük şəxsiyyət, çağdaşımız olan canlı klassik idi.

Şərəfli dünənimizlə bugünümüz arasında ən mötəbər körpülərdən olan bir insan.

Ustad Şirməmməd Hüseynov!

Şirməmməd müəllim həmin o dördcə sözlük gümanını (və tapşırığını!) çox illər öncə Azərbaycanın son bir əsrdən artıq müddətdəki tələtümlü, enişli-yoxuşlu həyatının taleyüklü məsələlərinə həsr etdiyi yazılar toplusunun müqəddiməsində yazıb.

Ümumən professor Şirməmməd Hüseynovun ta cavanlığından üzü bəri (əslində, bu işləmək və yaratmaq enerjisi, bu eşqi ilə 90-ında da cavan idi və istənilən gəncə örnək olacaq bir sərt iş rejimində çalışmaqdaydı) qələmə aldığı, xalqa çatdırdığı bütün yazılar Azərbaycan istiqlalı, bu mübarizəli yolun tanınan və tanınmayan fədailəri, qoruyub yaşatmalı olduğumuz milli dəyərlər və ideallarla bağlı idi.

Və həmin dördcə kəlmə Şirməmməd Hüseynovun hər yazısına, hər tərtib etdiyi topluya, hər hazırladığı kitaba, hər doğurduğu əsərə, hər etdiyi çıxışa, hər apardığı mühazirəyə yığcam önsöz, "bismillah" biçimli bir başlanğıc kimi qavranıla bilər.

Aqil adam idi, yaxşı anlayırdı ki, qəzet səhifələrindən, cild-cild kitablar vasitəsilə xalqa təqdim etdiyi qiymətli yazıların hamı tərəfindən oxunmasına, bilinməsinə ehtiyac varsa da, daha artıq kürəsəlləşdikcə daha çox dəyişən, rəqəmsallaşdıqca kitabı, çap yazılarını mütaliə etmək həvəsi tədricən daha ziyadə azalan dünyanın çox yerində olduğu kimi, bizdə də camaatın oxumaq səbri də, şövqü də sönükləşib.

Amma o, inadla öz işini görürdü.

Köhnə əlifbalarda əl çatan arxivlərdə qalan yazıları qaldırır, indi işlək olan əlifbamıza köçürür, oxuyacaq kəslərin anlamasını asanlaşdırmaqdan ötrü dövriyyədən çıxmış və başa düşülməsi əngəlli ola biləcək kəlmələrin lüğətini də əlavə edir və təqaüdündən bu məqsədlə ayırdığı vəsaitin üstündən müəyyən məbləği götürərək bu qəbil yazılarını əlyazmadan oxuyub çap edən kompüterçiyə taksi ilə göndərirdi.

Ertəsi gün oradan yenə həmin yolla qayıdan yazını bu dəfə yenə təzədən oxuyub təshih edəndən sonra taksi haqqını ödəyərək yollayırdı redaksiyalara.

Savabına da heç kəsi şərik etmək istəmirdi.

Bir dəfə təklif etdim ki, sürücümü göndərim, gəlib həmin aparıb-gətirmə əməliyyatlarında yardımçınız olsun.

Stalin dövrünün təmiz kommunistlərinin ifrat prinsipiallığı ilə etiraz etdi: "Bəs birdən bu yazıları apardığı zaman sənin idarənin həmin sürücü tərəfindən görülməli işləri necə olsun?"

Yalnız gərgin alim əməyi ilə deyil, həm də ağır fəhlə zəhməti ilə araya-ərsəyə gələn bu yazıları 10 adamdan birinin oxuyub-oxumayacağına şəkki olsa da, usanmadan, bezmədən çalışırdı.

Çünki həm də bu işlərin əhəmiyyətinə inanırdı, həm də əmin idi ki, gec-tez mütləq bu yazıları oxuyub həzm edənlər artacaq, həm də bilirdi ki, özü indi bu işləri yerinə yetirməsə, bir ayrısının onlara vaxt və ürək sərf edəcəyi ehtimalı zəifdir.

İşləyirdi və nəticəni xalqa təqdim etməzdən öncə xəbərdarlığını da yaddan çıxarmırdı ki, bunlarda fayda var ha!

Qarşına qoyulan məhsulda xeyir olduğunu sənə bəyan edirlərsə, yəqin ki, sən də maraq göstərməli, ona doğru can atmalısan.

Amma bu müdrik kişi dərk edirdi ki, maraqlanmaya da bilərlər, biganə qalanlar da olacaq.

Ona görə də bir az eyhamla (bunu yazanda gözümün önündə istər-istəməz Şirməmməd müəllimin kinayəqarışıq xeyirxah təbəssümlə işıqlanan çöhrəsi canlanır) deyirdi ki, əziyyətə qatlaşıb, heç olmazsa, öz faydanız üçün maraq göstərin bu irsə.

Adətən, ata balası üçün belə canıyananlıq edir.

Adətən, valideyn balalarından hansının hansı ağıl səviyyəsinə, hansı qabiliyyətə malik olmasından asılı olmayaraq, hər birinin bilməli olduqlarını öyrənməsinə bu sayaq nəvazişlə, qayğıkeşliklə yanaşır.

Şirməmməd müəllimin yaşı elə həddə idi ki, tay-tuşlarının, simsarlarının, ürək dostlarının əksəri getmişdi.

Bu yazılar onunçün həm də daim özü qəbildən olan məsləkdaşlarla təmas qurmaq fürsəti idi.

Sənlə bir masa arxasında oturub mülahizə, sevinc, dərd, arzu, ümid bölüşən müasirlər tükənibsə, gərək Həsən bəy Zərdabi ilə, Məhəmməd Əmin Rəsulzadə ilə, Üzeyir Hacıbəyli ilə, Əlimərdan bəy Topçubaşı ilə, Əhməd bəy Ağayevlə... həmsöhbət olasan.

Özün həmsöhbət ol, yüngülləş, bu feyz digərlərinə də nəsib olsun deyə onların köhnə, fəqət köhnəlməz sözlərini bugündəkilərə və sabahdakılara da çatdır.

Professor Şirməmməd Hüseynov bu amalın, bu əxlaqın yiyəsi, bu idealın daşıyıcısı idi!

Azərbaycan tarixinin elə hadisələri var ki, onları biz hər zaman anmalı, onlar barəsində müdam minnətdarlıqla düşünməliyik.

XX yüzilin başlanğıcındakı Azərbaycan tarixində iki oxşar səhnə yaşanıb ki, ikisinin də əvvəlində göz yaşı dayanır.

1918-ci il may ayının 28-də Tiflisdə sabiq Qafqaz canişinliyinin iqamətgahında Həsən bəy Ağayev Azərbaycanın İstiqlal Bəyannaməsini elan edirdi.

O, İstiqlal Bəyannaməsinin mətnini oxuyurdu, müstəqil dövlətimizin yarandığını elan edirdi və həmin yığıncağın protokolunda o qəbil sənədlər üçün çox da səciyyəvi olmayan qeydlər də əksini tapıb ki, Həsən bəy Ağayev ağlayırdı, Xəlil bəy Xasməmmədov ağlayırdı, Nəsib bəy Yusifbəyli ağlayırdı, Xudadat bəy Məlikaslanov ağlayırdı...

O insanlar ki bu istiqlalı elan edirdilər, onlar bu möhtəşəm anların fövqəladə mənasını, millət tarixindəki yerinin ali siqlətini bütövlüyü ilə anlayırdılar, bunun bir millət üçün nə qədər müstəsna bəxtiyarlıq olduğunu dərk edirdilər, ona görə kövrəlirdilər.

Və 1920-ci il aprel ayının 27-si Azərbaycan parlamentinin – Məclis-i Məbusanının son iclası.

Məhəmməd Əmin Rəsulzadə söz alaraq iclasın başlanğıcında deyir ki, biz bu yığıncağımızı qapalı keçirməyək. Açaq qapıları, millət gəlsin və görsün ki, taleyimizdə nə baş verir. Millətin müqəddəratı həll olunur və insanlarımız bundan bixəbər qalmamalıdır.

Məhəmməd Əmin Rəsulzadə qəlb ağrısı ilə belə deyirdi. Çünki Azərbaycanın müstəqilliyi əldən gedirdi, hakimiyyət, istiqlal bolşeviklərə təslim edilirdi.

Bu sənəddə də belə protokollar üçün heç də xas olmayan belə bir cümlə var. Mötərizədə yazılıb ki, "Azərbaycan" qəzetinin baş redaktoru Şəfi bəy Rüstəmbəyli ağlayır.

O əvvəlki göz yaşı – Həsən bəy Ağayevgilin 1918-ci ilin mayındakı göz yaşı – fərəhin, böyük səadətin, iftixarın gətirdiyi göz yaşı idi, ikinci göz yaşı müdhiş faciənin, millətin tarixində dərin yaralar açan bir acının doğurduğu göz yaşı.

Və bu millət heç vaxt nə birinci, nə ikinci göz yaşlarını unuda bilər.

Yaxşı millət olmağın yolu yaddaşdan, yurdun taleyi, müqəddəratı ilə bağlı həlledici anları və şəxsiyyətləri unutmamaqdan keçir.

Ömrü boyu, xüsusən də təzədən qayıtmış istiqlalımızın açdığı meydan sayəsində 1990-cı illərin lap əvvəllərindən başlayaraq daha güclü şəkildə Şirməmməd müəllim bu şərəfli tarixin salnaməsini millətimizə təqdim etmək missiyasını özünə şərəf borcu seçdi.

Daş daşımaq zəhmətlərin ən ağırı, fəhlə işlərinin ən çox güc istəyənlərindəndir.

Amma adi daşı daşımağa nə var!

Daş yükünü çəkməyə nə xüsusi hərarəti, ilhamı, sevgisi olan bir ürək gərəkdir, nə yüksək peşəkar qabiliyyətlər, ağıl, istedad.

Bütün bunlarsız da hər kəs yaxşı-yaman daş daşımaq imkanındadır.

Vətənin daşını daşıya bilmək isə ağırlardan-ağır əməkdir və burada ortabab, alababat söhbətinə yer yoxdur.

Millət naminə nə edirsənsə, ali səviyyəli olmalıdır.

Vətənin daşını çiyində yox, ürəkdə daşıyarlar!

Vətənin daşını çəkə bilməkçün ilk növbədə böyük hərflərlə VƏTƏNDAŞ olmağın vacibdir.

Üstəlik, ürəyində gərək xalqına sonsuz sevgi daim nəbz kimi vura, qan kimi damarlarında axa.

Millətə və torpağa sədaqət, fədakarlıq, dözüm, ardıcıllıq, təpər, görəcəyin işlərin böyüklüyü və kiçikliyindən asılı olmayaraq, bir saniyə belə səngiməyən məsuliyyət, cavabdehlik hissi, üstəlik də əməlinin bəhrələrinin hər kəsin qəlbinə yata bilməsindən ötrü bilik, zövq, şövq, qaynar həvəs, yorulmazlıq və yüksəkdən-yüksək peşəkarlıq.

Bircə Şirməmməd Hüseynovun son illərdə işıq üzü görmüş irihəcmli kitablarının bir qisminin adlarına diqqət edin: "Milli haqq və ədalət axtarışında" (Bakı, "Adiloğlu", 2004), "Mətbu irsimizdən səhifələr" (Bakı, "Çənlibel", 2007), "Publisistik miras və müasirlik" (Bakı, "Elm", 2007), "Müstəqilliyin çətin yolu... Reallıqlar, düşüncələr" (Bakı, "Elm", 2009), "Üzeyir Hacıbəylu. Nəşrlərdə kənarda qoyulmuş mətbu əsərləri" (İki cilddə, Bakı, "Elm", 2009, 2010), "Məhəmmədəmin Rəsulzadə. Əsərləri" (Beş cilddə, Bakı, "Təhsil", 2014), "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" (Üç cilddə, Bakı, "Qanun", 2012, 2015, 2016, 2017)...

İnsanlara "Zəbur" da, "Tora" da, "İncil" də, "Tövrat" da, "Quran" da gərəkmiş ki, o müqəddəs kitablar yaranıb və bəşərin ayrılmaz yol yoldaşına çevrilib.

O kitablar üz tutduqları, etiqada dəvət etdikləri insanlara bütün başqa məziyyətlərindən savayı kamil insan, yaxşı adam olmağın əbədi dərslərini verirlər.

Lakin xalqların və millətlərin onları yaxşı xalq, kamil millət edəcək kitablara da həmişə ehtiyacı olub, bu ehtiyac heç vaxt da tükənməyəcək. Şirməmməd Hüseynov bu qəbil kitabları xalqınkı, millətinki etməklə məşğul idi.

Gözdən iraq düşənləri təzədən qaytarırdı, yazılmalı olanları yazırdı.

Bu kitabların hər birinin yaranması ictimai-siyasi həyatımızda, düşüncə mühitimizdə necə qarşılanmasından asılı olmayaraq, millət tarixinin çox önəmli hadisələri idi.

Hər bir istedadlı insan, hər bir güclü yaradıcı ömür möhləti boyu hansısa şah əsərini yaradır. Bu onun gənclik illərində də baş verə bilər, ahıllığında da, ixtiyar sinnində də.

Zəka, ilham sahibinin yaradıcılıq yolu uzun da çəkə, onun şah əsərinin ortaya çıxması həyatının erkən çağına da, yolun ortasına da təsadüf edə bilər, yaxud arzulanan şah əsərin ömrün sonlarına doğru, təcrübələrin yekunu kimi meydana gəlməsi də mümkündür.

Şirməmməd müəllim şərəfli ömür yaşadı, çox layiqli bir alim, xoşbəxt bir müəllim həyatı sürdü və indi onun yetirmələri, tələbələri Azərbaycan boyuncadır.

Şirməmməd müəllim örnək sayılası ailə başçısı ömrü yaşadı, Azərbaycana çox dəyərli balalar bağışladı.

Və ilk gəncliyindən əli qələmli oldu, durmadan işlədi, məqalələr, dissertasiyalar, kitablar yazdı.

Valideynə balalarından hansını daha çox istədiyini söyləmək necə cavabsız qədər çətin sualdırsa, yaradıcı adama da hansı əsərinin daha üstün olduğunu müəyyənləşdirmək bir o qədər qəliz məsələdir.

Şirməmməd müəllimin isə, mənim zənnimcə, ömrünün şah əsəri kitablı "Parlament hesabatları"dır.

Hərçənd, Şirməmməd müəllimin doğurduğu və sanbalına, çəkisinə, dəyərinə görə elə bu üçcildliyə bərabər sadaladığım və adını çəkmədiyim digər kitabları da var, amma bu üçcildliyin sanbalı, məna yükü, mahiyyəti büsbütün başqadır.

Uzaq 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində dərc edilmiş parlament hesabatlarını günümüzə çatdıran cildlər sırası qiymətəsığmaz salnamədir.

Azərbaycanın tarixində iki əvəzsiz əsər var ki, tariximizdən bəhs edərkən, salnaməçiliyimizdən söz düşəndə hər zaman onları hökmən xatırlamaq zərurəti yaranır.

XIII yüzildə Fəzlullah Rəşidəddin Təbrizdə Rəşidiyyə mədrəsəsini qurdu, ilk universitet təhsilimizin təməlini qoydu və "Cami ət-təvarix" adlı elmi əsaslara dayanan ilk misilsiz salnaməmizi yaratdı.

Bu "Tarixlər toplusu"ndan sonra çoxlu oxşar salnamələr, tarixi məcmuələr yaranıb, fəqət bir örnək olaraq bütün orta əsrlər içərisində ən uca mərtəbədə qərar tutan zirvə əsər "Cami ət-təvarix"dir.

Və XIX yüzildə Abbasqulu Ağa Bakıxanov "Gülüstan-i İrəm"i qələmə aldı.

Bu da salnamə idi, amma artıq həm də bir peşəkar tarixçi alimin əsəri idi ki, incə təhlillər, müxtəlif mənbələri tutuşdurmaq əsasında elmi tarixçiliyin yeni dövrdə şəkillənən bir sıra ümdə xüsusiyyətləri nəzərə alınaraq ərsəyə gətirilmişdi.

Bu iki əsər arasındakı altı əsrlik zaman kəsiyində, həmin iki kitabdan bir az əvvəli və bir qədər sonranı da nəzərə alsaq, 7-8 əsrlik iri tarix parçası ərzində çox salnamələr yaranıb. Amma bu iki müəllifin adı və əsəri, düşünürəm ki, hər zaman üstün tutularaq yaşayacaq və sayğılarla yad ediləcək.

Artıq bizim dövrdə – XX əsrdə və XXI yüzilin ilk onillərində Şirməmməd Hüseynov və Qulam Məmmədli salnaməçiliyin yeni tipini yaratmaq hünəri ilə ziyalı mühitimizi heyrətləndirə bildilər.

Onlar salnaməçiliyin Azərbaycanda buçağacan ortada olmayan nümunəsini ortaya qoydular.

Qulam Məmmədli Azərbaycan teatrının salnaməsini vücuda gətirdi, "günbəgün" adlandıra biləcək janr xəlq elədi, Hüseyn Cavidin, Abbas Mirzə Şərifzadənin, Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun, Nəriman Nərimanovun, Mirzə Cəlilin, Üzeyir bəy Hacıbəylinin ömür yollarını əks etdirən tayı-bərabəri olmayan qiymətli salnamələr yaratdı və salnaməçiliyin tamam yeni çeşidi və tərzini Azərbaycan xalqına bəxş etdi.

İlk Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, adı vətənimizin adı ilə eyni olan "Azərbaycan" qəzeti bəlli idi, ictimai-siyasi gerçəkliyimizdə, mətbuat tarixində izini qoyub getmişdi.

Dövlət müstəqilliyimizin bərpasından az sonra, 1998-ci ildə ilk Azərbaycan parlamentinin iclaslarının stenoqramları çapa hazırlanaraq nəşr edildi. Sanki boşluq doldurulmuşdu, onillərcə hətta arxivlərdə belə gizli saxlanmış, yalnız xüsusi hallarda və məxsusi icazə ilə istifadəsinə icazə verilmiş bu mətnlər hamınınkılaşmışdı.

Lakin nə yaxşı ki, müdrik alim və mətbuatşünas Şirməmməd Hüseynov həmin dövrə bir də nəzər salmağı vacib hesab etdi.

Onun təqdimatındakı "Azərbaycan" qəzetində dərc edilən parlament hesabatları və bu hesabatlarla bağlı yazılar, onların qovuşmasından törəyən üç sanballı cild xüsusi hadisə – məlumdan yaranan büsbütün yeni naməlum idi.

O mənada ki, bu nə "Azərbaycan" qəzetində Xalq Cümhuriyyəti dövründə buraxılmış qəzetdə çıxmış protokolların sadəcə əski əlifbadan latın qrafikasına köçürülməsi idi, nə də 1998-ci ildəki kimi, bəlli protokolların cüzi redaktə ilə nəşri.

Şirməmməd müəllim ömrü boyu topladığı təcrübə və biliklərə qəlbindəki coşqun millət və yurd sevgisini də artıraraq arxada qalmış şanlı, keşməkeşli, qəmli və nigaran tarixi, əslində, yenidən canlandırdı.

Bişkin alim usta qələmi ilə bəlli protokolları zəruri izah və şərhlər, yeri düşdükcə sözə söykək duran əlavə materiallarla zənginləşdirdi.

Buradaca bir-iki önəmli cəhətə diqqət yönəltməyə lüzum var.

Əvvələn, "Azərbaycan" qəzetinin nəşrindən 9 onillikdən də artıq böyük zaman sovuşmuşdu, yeni nəsillər o nüsxələrdən bixəbər idi.

İkincisi isə, həmin nüsxələrlə indi kitabxanalarda, arxivlərdə açıq istifadə imkanı varsa da, yeni nəsillərçün əlifba maneəsi, ərəb-fars tərkiblərinin yaratdığı müşküllər bəlli idi.

1998-ci ildə buraxılmış parlament protokolları isə xeyli şəkildə tələsik hazırlanmışdı, yanlışlar, kobud xətalarla ləbələb idi və heç bir tutarlı şərh və izahla müşayiət edilmirdi.

Şirməmməd Hüseynov – bu müstəsna alimimiz, bu cəfakeş müəllimimiz, bu təpədən-dırnağa işıq olan ziyalımız üçcildlik əsərini zahirən qısa bir zaman içərisində hazırladı.

Həmin yazıları kitablaşdıraraq xalqa təqdim edənəcən ard-arda mətbuatda dərc də elətdirdi və bu minvalla cildlərin yaranma gedişatını müşahidə etmək hər birimizə nəsib olub. Amma bilənlər bilir ki, bu kitabları hazırlamaq üçün Şirməmməd müəllim 50 illik yol gəlmişdi.

Ömrü uzunu bu barədə düşünmüşdü, ömrü boyu bu hadisələri və adları içərisində yaşatmışdı. Və öz etirafı idi ki, ilk gənclik illərindən, Moskvadakı aspirantura dövründən, orada məxfi arxivlərdə işlədiyi çağlardan, bu qəbil materialları nəinki üzə çıxarmağa, hətta oxumağa belə yasaq qoyulduğu zamanlardan gizli ümid və inamla tariximizin bu dövrü ilə əlaqədar materialları toplayırmış, qeydlərini edirmiş, haçansa belə işlərin də vaxtı yetişəcəyi, kilidli qapısının açılacağı arzusu və intizarı ilə təhlillərini aparırmış.

50 ildən artıq müddətdə qəlbdə bəslənmiş, kimsəyə görünməmiş, Şirməmməd müəllimin yazı masasının gözündə qalmış həmin ilkin hazırlıq yazıları XXI yüzildə "Azərbaycan" qəzetindəki parlament hesabatlarına qovuşaraq Ustadın

xeyirxah və xilaskar əlləri ilə bizə qayıtdı

Bu yazıları dinlədikcə mat qalmaya bilmirsən.

Bir tərəfdə heyranlıq və heyrət doğuran istiqlalçı, qurucu babalarımızın pak amal uğrunda fədakar mübarizələri, mətinliyi, mərdanəliyi, tələtümlü əyyamlarda söylədikləri sərrast sözləri və çağırışlarıdırsa, digər tərəfdə ikiqat heyranlıq və ikiqat heyrət oyadan Şirməmməd müəllimin illərcə valideynlərinə borcunu qaytarmaq üçün münasib girəvə gözləmiş fərasətli, sadiq bir övladın məhəbbəti və canıyananlığı ilə bu irsi belə ali peşəkarlıqla canlandırmasıdır.

Mən az öncə yanılaraq yox, elə qəsdən "oxuduqca" yerinə "dinlədikcə" yazdım.

Əslində, bu, "dil (indiki halda "qələm") çaşıb düzünü söylər" məsəlinin dürüstlüyünə əlavə sübutdur.

Şirməmməd müəllimin təqdimatındakı bu yazıları səhifə-səhifə çevirdikcə bi-ixtiyar tarixə dalırıq və həmin qərib illərin axarındakı səsləri aydınlığı ilə eşidirik.

Parlament iclaslarının salnaməsindən Həsən bəy Ağayevin, Əhməd bəy Pepinovun, Əhməd Cavadın... səsini, onlara əleyhdar olanların sədalarını eşidirik.

Əliheydər Qarayevin də səsi gəlir ordan, Məhəmməd Əmin Rəsulzadənin də.

O səsləri indi – XXI əsrdə eşidirsən və anlayırsan ki, hansı girdablardan, hansı yarğanlardan adlamışıq, ayrıntıları ilə dərk edirsən ki, millətin tarixində millətin, yurdun taleyinə münasibətdə necə tam əks qütblərdə qərar tutmuş insanlar yaşayıb, istiqlal yolumuzda hansı toqquşmalar, çarpışmalar, hansı təzadlı baxışlar olub.

Şahid kəsilirik ki, Azərbaycanın bugünkü istiqbalının, təzədən qayıtmış bu müstəqilliyinin təməlində hansı barışmaz mübarizələr dayanır, bu səadətə gələn yolun başlanğıcında hansı dramatik aylar, günlər, saatlar, dəqiqələr yaşanıb.

Və bu kitablar silsiləsinin ortaya qoyduğu mühüm bir öyüd, vacib bir dərs var.

Bu nəsihət, bu ibrət də ondan ibarətdir ki, o pak insanlara, o qurucu babalara əbədi borcluyuq, onlara hər zaman minnətdar olmalıyıq.

Onlar olmasaydı, bu dövlət olmazdı!

Onlar mürəkkəbdən-mürəkkəb tarix dönəmində Azərbaycan istiqlalını elan edib 23 ay yaşayacaq müstəqil dövlətimizi qurmasaydılar, sonra 70 il ömür sürəcək Sovet İttifaqının içərisində də Azərbaycan Respublikası olmayacaqdı və SSRİ dağılarkən, 15 dırnaqarası müstəqil respublika artıq elə gerçək mənada müstəqil dövlətə çevriləndə biz o sırada olmayacaqdıq.

1991-ci ilin 18 oktyabrında biz dövlət müstəqilliyimizi yenidən elan edə bildiksə, səbəbkar o KİŞİlərdir!

Müstəqilliyin hər bəhrəsindən hər cür bəhrələnənlərə lap aydın olsun deyə bir daha təkrar edirəm: Sovet İttifaqı dağılanda onun içərisindən bizim müstəqil dövlət kimi çıxmaq imkanımız ona görə oldu ki, daha əvvəl cümhuriyyətimiz vardı, cümhuriyyətimizdən sonra Sovet İttifaqı içərisində Azərbaycan Respublikası vardı. Sovetin Konstitusiyası isə sözdə, yalandan da olsa, hər halda Əsas Qanununda məhz respublikalara İttifaqdan çıxmaq ixtiyarını rəsmən verirdi.

Bu gün müstəqil dövlətimiz varsa, buna görə biz o qurucu insanlara hər açılan səhərimizlə, müstəqil yaşadığımız hər yeni günümüzlə, başlanan hər yeni azad, asılılıqdan qurtulmuş sabahımızla borcluyuq.

O üçcildliyin (və Şirməmməd müəllimin bütün fəaliyyətlərinin) bünövrə-

sində, nüvəsində dayanan ən birinci amil eşqdir.

Qurucu babalarımızın öz yoluna, əqidəsinə, xəttinə sonsuz inamı, imanı və sevgisi, eləcə də Şirməmməd Hüseynovun Azərbaycan tarixinə, Azərbaycan millətinə, istiqlalımıza olan məhəbbəti, o nadir şəxsiyyətlərimizin ruhuna olan sədaqəti, ehtiramı, etibarı!

Məhəbbət yoxsa, dəryaca ağlın olsa da, əlindən çıxan bəhrənin işığı çatmaz, rəngləri solğun alınar, təqdim etdiyin məhsulla ürəklərə qığılcım ötürə bilməzsən.

Üzeyir bəyin sonrakı nəşrlərdə qırağa qoyulmuş mətbu əsərlərinin birləşdiyi cildlər də, Məhəmməd Əmin Rəsulzadənin qələm və düşüncə yadigarlarından ibarət Şirməmməd Hüseynov "Xəmsə"si də, söz yox, son dərəcə dəyərli və sanballı mətnşünaslıq nümunələridir.

Lakin parlament hesabatlarını əhatə edən üçcildlik bənzəri olmayan mətnşünaslıq abidəsidir.

Nəyə görə mətnşünaslıq abidəsi?

Mətnşünaslıq elmi iynə ucu ilə qaya çapmaq kimi gərgin əmək, alın təri tələb edən ciddi tədqiqat sahəsidir.

Təəssüflər olsun ki, artıq bu istiqamətin yaşamalı olan bir çox ənənələrini itirmişik, ya itirməkdəyik.

Azərbaycanda 1950-60-70-ci illərdə Əbdülkərim Əlizadə, Məmmədağa Sultanov, Tahir Məhərrəmov, Əbülfəz Rəhimov, Nəsrəddin Qarayev, Əziz Mirəhmədov, Turan Həsənzadə və bir sıra başqaları cox mükəmməl mətnşünaslıq məktəbi yaratmışdılar. Təəssüf ki, o insanlar getdilər, həmin ötkəm mətnşünaslıq məktəbi, o məktəbin iş üsulları, vərdişləri də korşalmağa, gündəlik təcrübədən qeyb olmağa başladı.

1990-cı illərin ortalarında mən Məclis-i Məbusanımızın – ilk parlamentimizin birinci rəhbəri Həsən bəy Ağayevin ömür yolunu araşdırırdım. Əslində, milli parlamentimizin ilk sədri Əlimərdan bəy Topçubaşov idi. Lakin Əlimərdan bəy Topçubaşov əvvəlcə İstanbulda ezamiyyətdə idi, sonra isə Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getdi və iki dəfə parlament sədri seçilsə də, bir gün belə həmin kürsüdə əyləşmədi, məclisi Həsən bəy idarə etdi.

Əlimərdan bəyin parlamentin sədri olaraq xaricdəki fəaliyyətlərinin başlıca hədəfi ondan ibarət idi ki, Azərbaycan dövlətinin başçısı kimi rəsmi statusa və səlahiyyətlərə malik olsun, Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə rəsmən tanınmasını təmin etmək üçün orada danışıqlar aparsın.

Həsən bəy Ağayevin faciəli ömür yolunu araşdıraraq məsləkinə candan bağlı bu millət fədaisi haqqında "Yaxşıların yaxşısı" adlı kitabımı yazarkən əski parlament materiallarını da qaldırmalı olurdum.

O zaman həmin protokollar nəşr edilməmişdi – hələ 1990-cı illərin başlanğıcı idi.

Parlament iclaslarının əlyazmalarını oxuduqca qürur hissi keçirirdim.

Hər vərəqin arxasında tarix durur. Yəni hətta mətninə nüfuz etməzdən əvvəl bu kağızların, xətlərin özü belə ayrıca tarixdir axı!

Təsəvvür edin, stenoqramları kimlər tərtib edir, kimlər qələmə alırmış – onlardan biri hələ xeyli gənc olan, az sonra Azərbaycanın ən parlaq ədibi kimi şöhrətlənəcək Cəfər Cabbarlı idi.

Di gəl, protokollarla tanış oduqca, stenoqramların əlyazmalarını oxuduqca görürdüm ki, hətta Cəfər Cabbarlı kimi bilgin, danışanların buraxdığı müəyyən üslubi səhvləri də yeri düşdükcə əlüstü islah edən stenoqrafistin – tezyazarın da əlindən çıxmış vərəqlərdə yanlışlıqlar az deyil.

Təbii, bu, ilk növbədə vaxt qıtlığı, tələskənlikdən yaranmış qüsurlar idi.

Müstəqilliyimizin bərpasından 7 il keçərkən həmin sənədlər Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyası və Baş Arxiv İdarəsi tərəfindən 5 kitabda nəşr edildi ki, onların 2 cildi parlament hesabatları idi.

1998-ci il nəşrinə materialları əlyazmalardan Bakı Dövlət Universitetinin müəllimi, cümhuriyyət tariximizə, bir vaxtlar dərs aldığı Cavidə, Müşfiqə coşqun məhəbbətlər bəsləyən Səfər İbrahimov hazırlamışdı.

Onun əsas işi mətnləri ərəb əlifbasından kirilə köçürmək olmuşdu. Lakin Səfər müəllim sadəcə ərəb əlifbasını bilirdi, klassik ədəbiyyata və üsluba az-çox bələd idi, amma tarixçi, mətnşünas deyildi.

Doğrudur, əslən Cənubdan olan və orta əsrlər tarixi üzrə yaxşı mütəxəssis sayılan professor Seyidağa Onullahi də redaktor kimi bu işə cəlb edilmişdi. Amma oxuduqca və orijinallarla tutuşdurduqca görürsən ki, həmin stenoqramlarda nə qədər kobud qüsurlar var.

Ehtimal yaranır ki, hətta həmin materialların çoxunu heç Seyidağa Onullahi görməyib. Çünki nəşrdə elə səhvlərə təsadüf edilir ki, bunlar heç vəchlə Seyidağa müəllimin nəzərindən qaça bilməzdi.

Bəs o stenoqramlarla "Azərbaycan" qəzetində dərc edilən hesabatların fərqi nədədir?

"Azərbaycan" qəzetində dərc edilən parlament hesabatlarının mənası və dəyəri büsbütün başqadır. Bunlar hamısı Məhəmməd Əmin və Üzeyir bəylərin redaktə süzgəcindən keçərək dərc olunub. Yəni onlar, məlum stenoqramlardan fərqli olaraq, ağızdan çıxan hər sözü əks etdirməyiblər, yalnız ictimai məna kəsb edənləri saxlayıblar, müəyyən ixtisarlar aparıblar, bəzi parçaların məzmununu veriblər.

Və Şirməmməd Hüseynovun məharəti, materiallara yetərincə hündürdən, gen miqyasda, panoramda baxa bilməsinin nəticəsi bundan ibarətdir ki, o, qəzetdə dərc edilən ayrı-ayrı iclaslar barədə hesabatları verir, amma bunun yanında bəzən əvvəldə, hərdən sonda həmin mətləblərə dayaq duran, elə o qəzetdəcə yer almış başqa yazıları da gətirirdi.

Qəfildən qarşımıza bu məsələlər və mətləblərlə həmahəng gələn, heç parlamentdə olmayan Fərhad Ağazadənin məqaləsi çıxır və sanki həqiqətlərə əlavə bir pəncərə taybatay açılır.

Ya Məhəmməd Əmin Rəsulzadənin özünün, yaxud Üzeyir bəy Hacıbəylinin parlament divarları arasında səslənməmiş, müstəqil məqalə kimi işıq üzü görmüş yazıları parlament hesabatları kontekstinə qovuşur, həmin andaca mətnin ahəngi, ritmi dəyişir, yeni məna qatları ortaya çıxır, xeyli qaranlıq suallara aydınlıq gəlir.

Bunları edə bilməkçünsə, bu kompozisiyanı qura bilməkdən ötrü isə gərək o dövrün hadisələrinə, həmin dövrün ayrı-ayrı şəxsiyyətlərinin əqidəsinə, qələminə, düşüncə tərzinə dərindən vaqif olasan.

Şirməmməd Hüseynov kimi!

Bu yazılar silsiləsinin göstərdiyi parlament mənzərəsi, istiqlal uğrunda gedən mübarizəmizin gerçəkçi və dolğun fonu, ayrıca vurğulayıram ki, yalnız və yalnız Şirməmməd Hüseynov kimi həmin tarix kəsiyindən incəlikləri ilə agah olan müstəsna bələdçinin əməkləri ilə yaradıla bilərdi.

Hər halda bu gün həmin işi o cür səriştə və vurğunluqla yerinə yetirə biləcək ikinci şəxsi mən tanımıram.

Şirməmməd müəllimin "Parlament hesabatları"nın cildlərini vərəq-vərəq çevirdikcə hadisələri yalnız oxumuruq, dinləmirik, həm də bütün əyaniliyi ilə görürük.

Hesabatları ibtidasından son səhifəsinəcən mütaliə edəndə belə qənaətə gəlirsən ki, bu, nəhəng bir film kimidir, bir epopeya timsallıdır və oxuya-oxuya olmuşları sanki ilk kadrından son kadrınacan seyr edirsən.

Bu kitab həm də bir ülgüdür. 3 cild olsa da, onları bir bütöv sayaraq "kitablar" yox, sadəcə "kitab" deyirəm.

Birincisi, bu kitab bir daha əyan edir, nəşrindən bir əsr keçəndən sonra da ülgü göstərir ki, yaxşı qəzet nədir.

XX əsrin əvvəlindəki "Azərbaycan" qəzetinin nümunəsi işarə edir ki, millətin ola biləcək yaxşı qəzeti necə çıxarmaq lazımdır ki, üstündən zamanlar keçəndən sonra da salnamə sayılsın, tarixin bərpa olunması üçün mənbəyə çevrilsin, saralıb-solsa da, mahiyyətcə nimdaşlaşmasın, boyatlaşmasın, yeni zamanla da ünsiyyətə girə bilsin.

Və həmin qoca "Azərbaycan" indikilərə bunu da pıçıldayır ki, nəşr olunmaq üçün istənilən məqaləni yazanda fərqində olmalısan, çək-çevir etməlisən ki, 50 il ötəcək, mənim haqqımda bu yazıya görə nə deyəcəklər, 100 il sovuşacaq, mənə bu yazıma görə necə qiymət verəcəklər.

Qələmi götürəndə, qəzet-jurnal buraxanda bir an belə vaxtı yetişincə hər suala cavab tələb edən tarix qarşısında məsuliyyətini unutmamalısan!

Kim bilir, bəlkə də o qüdrətli şəxsiyyətlər o zaman bütün bunlar barədə fikrə dalıblar?!

Məhəmməd Əmin Rəsulzadə də, Üzeyir bəy Hacıbəyli də, Şəfi bəy Rüstəmbəyli də, Ceyhun bəy Hacıbəyli də, ola bilsin, bu barədə ən azı təhtəlşüur düşünüblər, ona görə o təhər köhnəlməz, dəyərini itirməz qəzet yaradıblar. Həmin səbəbdəndir ki, "Azərbaycan" qəzetinin səhifələri vətən işığı ilə, millət atəşi ilə doludur.

Vətən işığı, millət atəşi elə əziz Şirməmməd müəllimin də bütün varlığında olduğundandır ki, bu cür mükəmməl bir əsəri ortaya çıxarmağa müvəffəq olub.

Bu cildləri yaratmaq əsnasında Şirməmməd Hüseynov dünənin dumanlarında əriyib-itmiş, bugünün insanlarına pünhan qalan bir sıra adları da aşkarlayıb, onlara təzədən həyat bağışlayıb.

"Azərbaycan" qəzetində yazıları çıxan Əhməd Həmdi adlı şəxs diqqətini çəkib. Azərbaycanda çox soraqlaşsa, arxivlərə baş vursa da, bir məlumat əldə edə bilməyib. Amma ruhdan, həvəsdən düşməyib, ona ilk gənclik əyyamlarından xas olan inadkarlığı ilə yenə arayıb, yenə axtarıb, yenə soraqlaşıb və suallarına cavabı Türkiyə arxivlərində bulub.

Və bu hərəkəti ilə də Şirməmməd müəllim növbəti dərsini, növbəti öyüdünü verib.

Yəni istiqlal, müstəqillik bizim elə müqəddəs sərvətimizdir, səcdəyə layiq elə mirasdır ki, onun yolunda azacıq belə zəhməti olmuş hər insanı biz həmişə

qədirbilənliklə, dualarımızla, sağollarımız, rəhmətlərimizlə anmalıyıq.

Şirməmməd müəllimin artıq bizlərə qalan əziz yadigarlar olan hər çıxışı, hər yazısı, hər kitabı və o sıradan bu cildlər, heykəllərdir.

Tanrı, tale, tarix Şirməmməd Hüseynov kimi fövqəladə insanları millətə göndərir ki, cərəyan ötürən naqilə çevrilsinər, qoymasınlar yaddaş qırılsın, imkan verməsinlər keçmişlə rabitələr kəsilsin.

Şirməmməd Hüseynov milli yaddaş daşıyıcısı, bir mənəviyyat körpüsü sayılası şəxsiyyət idi.

Azərbaycanın dünəniylə indisi, istiqlalımızın qaynaqları ilə bugün arasındakı körpü.

Milləti tarix sınaqlarından zədəsiz çıxaran, həmişə ayaq üstə saxlayan, güclü edənsə məhz tarixi yaddaş, belə sarsılmaz körpülər olub.

Azərbaycan bayrağı bu gün yenə yüksəklərdədirsə, Azərbaycan himni səslənəndə yenə biz iftixar qəhəriylə doluruqsa, bunun ümdə səbəbi odur ki, 70 ilin sovet qadağaları boyunca ayrı-ayrı insanlar bu sevdaya dönük çıxmadı, bu eşqi ürəyində yaşatdı, ziyalılarımız, düşüncə və duyğu adamlarımız sətirlərinin altında olsa da, həmin hisləri yurddaşlarımıza çatdırdı və qoymadı ki, istiqlal yanğısı sozalsın.

Qürbətlərdə, mühacirətlərdə, zillətlərdə yaşaya-yaşaya bu hissiyyatı diri saxladılar və ən qəddar maneələrə rəğmən vətənlərinə bunu çatdırmağa səy elədilər, nail də oldular ki, vətəndaşlarımızın içərisində istiqlal ruhu, müstəqillik istəyi şölələnməkdə davam etsin.

Şirməmməd müəllim də yeni əsrimizin, təzə minilliyimizin başlanğıcından bu üç kitabla və ona bənzər digər cildləri ilə elə ocaq qalayıb ki, bu ocağın istisi və işığı Azərbaycanın çox uzaq gələcəklərinə səmt götürüb, şəksiz, gələcəkdəki yurddaşlarımıza da böyük faydalar verəcəkdir.

...İstiqlalımızın bir əsri tamam oldu, ikinci yüzili başlandı.

Yaşanmış tariximizin hər qırpımı gərək hər an göz önündə ola.

XIII yüzildə rəsədxana açmaq niyyətini hökmdara inandırnaq və anlatmağa cəhd edərkən dahi Xacə Nəsirəddin Tusi söyləmişdi ki, Yerdə rahat yaşamaqçün göyü yaxşı bilmək lazımdır!

1918-ci ilin 7 dekabrında yaradılmış Məclis-i Məbusan bütün tariximizçün fəxr qaynağı olan milli hadisə idi.

Elə həmin səbəbdən mən Azərbaycanın ilk parlamentinin həyatını əks etdirən mükəmməl akademik nəşri görməyi çox istərdim.

Necə təsəvvür edirəm o kitabı?

Xatırlatdığım kimi, 1998-ci ildə Məclis-i Məbusanın stenoqramları həm Azərbaycan, həm rus dillərində, qüsurlu da olsa, nəşr edilib. Düşüncəmə görə, oradakı əsas nöqsan yalnız mətnin bərpası əsnasında buraxılmış ayrı-ayrı səhvlər deyil, həm də tərtib prinsiplərindəki xətalardır. Həmin nəşrdə azərbaycanca cilddə yalnız ana dilində olan çıxışlar verilib, rusca nəşrdə isə rus dilində edilən çıxışlar yer alıb. Demək, o da, bu da natamamdır. Mənsə akademik nəşrdə ana dilində olan mətnlərin arasında rusca olan mətnlərin də dilimizə çevrilərək verilməsini, amma orijinaldakının da cildlərin sonunda, şərhlərlə göstərilməsini məqbul sayıram. Eləcə də həmin akademik nəşrin şərhlər və izahlar, lüğət bölməsi Şirməmməd Hüseynovun kitablarındakı qəzet hesabatları, müxtəlif tamamlayıcı başqa "Azərbaycan" dərcləri, eləcə

də ustadın o yazılara verdiyi yozumlar, dəqiqləşdirmələr, aydınlatmalarını artırmaqla dolğunlaşdırıla, daha artıq elmiləşdirilə bilər. Beləcə, biz, nəhayət ki, ilk dəfə olaraq ilk milli parlamentimizin keçdiyi enişli-yoxuşlu, mübarizəli yolun qənaətbəxş mənzərəsini aydınlığı ilə izləmək, öyrənmək fürsəti əldə edirik.

Unudulmaz Bəxtiyar Vahabzadənin Şirməmməd müəllimə həsr etdiyi bir şeiri var – "Körpü çaydan uzaq düşüb".

Elə bu adda yazını "Əkinçi"dən oxuduğu bir məqaləyə əsasən 1993-cü ildə Şirməmməd müəllim yazıbmış.

Millət qayğılarını ürəyinin başında daşıyan Həsən bəy Zərdabi bir vaxtlar intibahın və inkişafın Şərqdən başlandığını, islam və türk dünyasının bəşər tərəqqisinin önündə getdiyini, lakin sonra vəziyyətin dəyişdiyini, yüksəlişlərin Qərbə keçdiyini yazır və belə qənaətə gəlirdi ki, bizim Şərqdə tikdiyimiz körpü yerində durur, lakin daha maarif, inkişaf, elm çayı onun altından axmır, yatağını dəyişərək Qərbə köçüb. Ona görə də xalqına, türk dünyasına, islam Şərqinə səslənirdi ki, körpümüzün çaydan aralı düşməsi düçar olduğumuz bəladır, biz yüksəliş istəyiriksə, öz körpümüzü elmi-texniki tərəqqi çayının məcrası üstündə inşa etməliyik.

Məqalə şairi bərk tutur və axşam köhnə dostuna zəng vurur ki, nə yazmısan orda, xırdala görüm.

Və gecənin bir aləmində Bəxtiyarın növbəti telefon zəngi Şirməmmədi yuxudan oyadır: "Al gəldi" deyərək ona ithaf etdiyi təzə şeiri oxuyur:

Hələ toxum cücərməmiş
Tarlamıza alaq düşüb.
Başımız da daz olalı
Əlimizə daraq düşüb.

Xəyallarım – qanad-qanad,
Ətəyimdən dartdı həyat.
Dünənimə Dürat, Qırat,
Bugünümə ulaq düşüb.

Əlim üzüldü diləkdən,
Dilim yandı "gəl" deməkdən.
Öz haqqını gözləməkdən
Haqqın gözünə ağ düşüb.

Bu tayda sən, o tayda mən,
Üzəmmədim bu çayda mən.
Ömr əritdim harayda mən,
Körpü çaydan uzaq düşüb.

Bəsirətli Bəxtiyar Vahabzadə bu şeiri yalnız mövzunu, ideyanı verdiyinə görə Şirməmməd müəllimə həsr etməmişdi.

Bəxtiyar millətcanlı bir yaradıcı idi, əngin təfəkkür sahibi idi və gözəlcə duyurdu ki, daim yaddaşın yatmış qatlarını diksindirən Şirməmmədlər olmasa,

körpülərin çaylardan uzaq düşməsi təhlükəsi və ondan törəyən yüz cür fəsad yaxamızdan bilmərrə əl götürməyəcək.

Şirməmməd Hüseynovun irsi və məktəbi, yolu və dərsləri var olduqca isə körpü heç vaxt millət çayından aralı düşməyəcək!

...Şirməmməd müəllim bu yurd və xalq üçün təbərrük insan idi və əlbəttə ki, Allah da bunu bizdən daha əvvəl və daha yaxşı bilirdi!

Allah Şirməmməd müəllimin millət üçün gərəkliyini, tarix üçün faydalığını dəqiq bildiyindən, ona millət körpüsü olmaq vəzifəsini həvalə etdiyindən bu millət üçün onu yaşadırdı.

Sağlam yaşadırdı, gümrah yaşadır, düşüncəsini aydın, ruhunu təmiz yaşadırdı.

Elə yaşadırdı ki, doxsan beşinə çatanda onun əli silahlı idi, hər gün səngərdə idi.

Və böyründə də sədaqətli, vəfalı, fədakar şəfqət bacısı!

Mülki bir insandan bəhs edə-edə hərbi deyimləri qələmə gətirməyimi məcazlar saymayın. Bunlar şairanə bənzətmələr deyil, həqiqətin xalisidir.

Millət quruculuğu yolunda mübarizələr bitməyib, əksinə, hər gün daha artıq sürətlə davam edir və etməlidir.

Bu şərəfli yolda isə qələmin ən uzaqvuran toplardan-tüfənglərdən daha qüdrətli bir silah olduğunu tarixin bütün gedişi təsdiqləyir.

Böyük azərbaycanlı, lap çoxdan bütöv Azərbaycanı zəkasının nurunu səpdiyi auditoriyaya çevirmiş Ustad Şirməmməd Hüseynov istirahət günü və məzuniyyəti olmayan bir cədvəllə hər gün, ta 2019-cu il iyunun 24-ünəcən, nəfəsi gedib-gələn son saatlaracan iş başında idi.

Universitetə gedərək əsgərlərinə təlimini verirdi – gələcəyin jurnalisti olacaq tələbələrinə dərsini deyirdi, qayıdıb gəlib səngərinə – yazı masasının arxasına keçir, silahını – qələmini götürür və başlayırdı itirdiklərimizi qaytarmağa, qazandıqlarımızı daha yaxşı qoruya bilməkçün yollar göstərməyə, istiqlal salnaməmizi bir az da bütövləşdirməkçün yeni mübarizələrinə.

Şirməmməd Hüseynov nümunəsi bu millətin ruhuna keşik çəkmək, varlığını sağlam saxlamaq, yeni sınaqlardan mərdanəliklə keçirməkçün taleyin və tarixin Azərbaycana misilsiz ərməğanıdır.

Tale və tarix Şirməmməd müəllimin özünü də hər an bizlərçün hifz etməyi, qulluğunda durmağı isə onun sadiq ulduzuna – şəfqətli ömür-gün yoldaşı, ilk oxucusu Ülkər xanıma həvalə etmişdi.

Mehriban mənzilində bizə – Şirməmməd müəllimi ürəkdən sevənlərə görüş fürsətlərini, ustadın doyulmaz söhbətlərini dinləmək girəvəsini də tütyə dərman kimi qaşıq-qaşıq verən, onu bir sərhədçi sayıqlığı ilə mühafizə edən Ülkər xanımın insafsız dəmir intizamına illərcə dözməyə hazır idik və daha artıq – bunun müddətlərcə davam etməsini arzulayırdıq!

Dəyərlərimizi hamı Ülkər xanım kimi beləcə göz bəbəyitək qorusaydı, nə dərdimiz olardı ki!

...Və nə acı ki, bir gün hökmən gələcəyini bilsək də, heç cür Şirməmməd müəllimə yaraşdıra bilmədiyimiz əbədi ayrılıq anı da yetişdi...

O acı xəbər məni Vətəndən uzaqlarda, Strasburqda yaxaladı. İyunun 24-də Avropa Şurasının yay sessiyasının ilk iş günü idi.

Elə iclasın getdiyi əsnada telefonla Bakıdan aldığım xəbərin kədəri ilə həmin anlarda bunları yazmış və elə həmin gecə də sosial şəbəkələrdə paylaşmışdım: "USTADLA VİDALAŞMA

Siz axı mənim qədər bilmirsiniz biz kimi itirmişik! O getdi və bununla da sıra dağlar qurtardı. Ömrümün ən əziz adamlarından biri həyatdan ayrıldı və mən içərimdən qocaldım.

Şirməmməd müəllimin gedişiylə əslində çoxdan bitmiş, amma onun varlığıyla, onun sayəsində hələ davam etməkdə olan epoxa tamamlandı.

O nəsil ki onlarla ilk gəncliyimdən, 17-18 yaşından ünsiyyətdə olmuşdum, o insanlar ki, hərəsi bir zirvə idi, o insanlar ki, məhz onların zəkasından, istedadından yaranmış bəhrələrlə Azərbaycan bir az da vüqarlı, bir az da üstün, bir az da nurlu olmuşdu, bir-bir bizi tərk etdilər.

Şirməmməd müəllim sonuncu idi və körpü idi.

Onunla hər görüşə müqəddəs ibadətgaha, ruh evinə gedən kimi gedirdim.

Şirməmməd müəllimlə hər görüşəndə içərisində olduğum iki min neçənci il yaddan çıxırdı, başlayırdım 1930,40,50, 60, 70, 80-ci illərin axarında dövr eləməyə.

Həmin illərin insanları dirilirdilər, müasirim olurdular, o illərin qəzet-jurnalları Şirməmməd müəllimin səsində, təqdimində, yozumunda mənimlə büsbütün ayrı cürə danışırdı, elə təsəvvür edirdim indi adama nağıl kimi uzaq görünən Rəşid bəy Əfəndiyev də sağdır, büllur kimi saf, bilikləri dərya kimi dərin Muxtar Əfəndizadə də həyatdadır, maestro Niyazi də, salnamə adam Qulam Məmmədli də diridir, ürəyi vulkanlı Bəxtiyar Vahabzadə ilə də əbədi ayrılmamışıq...

Onlar və neçə-neçə o cür misilsiz şəxsiyyətlər Şirməmməd müəllimlə birgə təzədən haqq dünyasına qovuşdular, sanki vaxtca da bizdən xeyli uzaqlaşdılar.

Məhəmməd Əmin Rəsulzadəni tədqiq və nəşr edənlər indi də var, gələcəkdə də olacaq.

Təbii ki, araşdırdıqca bu böyük qurucunu daha da yaxından tanıyıblar, tanıdıqca seviblər, eyni hisslərlə bundan sonrakılar da yaşayacaq.

Ancaq Məhəmməd Əmin Rəsulzadəni Şirməmməd müəllim kimi canıyananlıqla, təəssübkeşliklə duyan, anlayan, sevən, atəşin sevgi ilə təbliğ edən, qoruyan ikinci o səviyyəli adam olmayacaq.

Onun cümhuriyyət qurucularımıza məhəbbəti və sədaqəti bir övladın atasına, babasına, bir valideynin oğluna, nəvəsinə olan istəyi kimi idi.

Yaşı elə həddə çatmışdı ki, artıq o, qurucu babaların hamısından xeyli sinli idi.

Lakin qəlbi cavan idi, ruhu gənc idi, həvəsi tükənmirdi.

İkinci kim var ki, 90-nı keçəndən sonra da yazmaqdan, öyrətməkdən usanmasın, hər həftə xalqına millətin şərəfli tarixi ilə bağlı unudulmamalı səhifələri təqdim etsin və bilsə də ki, bu yazılanları oxuyan az olacaq, bezməsin, usanmasın, sabahlara ümidlərlə baxsın?!

Əziz Şirməmməd müəllim, sizsiz çox çətin olacaq mənə, çox!

Yalqız qoyub getdiniz!..

Gördüyüm işlər haqqında hər təqdirli sözünüz mənə hər bir mükafatdan ali idi. Çünki o sözlərin hansı dildən qopduğunun fərqindəydim, o təqdirli kəlmələr məni daha yeni işləri görməyə qanadlandırırdı.

Sizin yaşda ölmək qorxulu deyil, Şirməmməd müəllim, mənim yaşımda

münsifsiz, müəllimsiz, sizsiz qalmaq ağırdır, üzücüdür, niskillidir!

...Bu bazar günü – iyunun 23-də Fransaya uçacaqdım.

Arzulayırdım ki, şənbə günü gəlib sizi görüm.

Xəbər göndərdim, "sənə deyərik" söylədilər.

Kaş elə birbaşa durub gələydim!..

Bu gün, iyunun 24-də Strasburqda Avropa Şurası tarixində ən uzun iş gününü keçirdik.

Səhər 8 radələrində Assambleyaya gəlmişdik, iclaslarımız gecə 1-ə 10 dəqiqə qalmış bitdi.

Və bu ağır, yorucu iş günü əsnasındakı iclaslarda səssizə qoyulmuş telefonumun ekranı növbəti dəfə işıqlandı, Bakıdan zəng vurub məndən cavab ala bilməyənlər yəqin danışmaq imkanımın olmadığını sezərək yazdılar.

Qapqara xəbəri yazdılar.

Və müdhiş soraq məni sarsıtdı.

İnanmaq istəmədim. Sonra daha bir dost, sonra daha bir yaxınım yazdı.

Bəlkə də kiminçünsə 95 illik ömür uzun görünə bilər.

Şirməmməd müəllim kimi təpədən dırnağa mərifət, savad, millət sevgisi, vətənçilik saçan bir insan üçünsə əlbəttə ki, bu ömür möhləti qısadır.

Axı sonuncu yazısı ölümündən 1 gün əvvəl işıq üzü görmüşdü.

Axı gələn həftə təzə yazısı olacaqdı.

Axı il sonunda 95 yaşını təntənə ilə bayram edəcəkdik.

Söz vermişdim. Ötən il 94-ü tamam olanda 10 gün ərzində onun haqqında bir kitab yazıb buraxdım. Çox da sevindi. Vəd etdim ki, hər il – 100 yaşınız tamam olanacan eynən bu cür bir kitab yazacağam.

Əslində hər dəfə görüşəndən, bir neçə saat söhbət edəndən sonra yüküm elə artırdı ki, onun barəsində, şərəfli ömrü və parlaq düşüncələri haqqında ildə bir neçə kitab yaza bilərdim.

Heyhat!..

Bəzən düşmən, dost olmayan adam qiyməti ən yaxın dostdan da yaxşı verə bilir.

Hələ Qarabağ ocağının alışmasından çox əvvəl, sovetin mənəm-mənəm çağlarında rəhmətlik Xudu müəllim hərdən zarafatla deyirdi ki, Bakıdan, Azərbaycandan ermənilər köçəndə hər halda bir neçəsini saxlamaq lazımdır.

Təəccüblə niyəsini soruşanda qayıdırdı ki, erməni olanda nə olar, biz öz adımızı düz demirik, onlarsa bizim millətin adını düppədüz – "türk" deyir.

Sanki bu yaşa çatmış, yalnız yazı-pozuyla, millətəxeyir işlərlə məşğul Şirməmməd müəllimin istəməyəni, rəqibi, gözügötürməyəni olmamalıydı.

Fəqət keçinməsindən heç bir neçə saat keçməmiş, elə həmin uzundan uzun iclasımızın gedişində sosial şəbəkələrdə sıra-sıra insanların təəssüf, kədər yağan qeydləri ilə yanaşı birisinin də onu "sovetin düşməni" adlandıran yazısını oxudum.

Hansı məqsədlə, hansı kinlə yazıb, babalı öz boynuna, Allahı bilsin, özü bilsin, amma hər halda Şirməmməd müəllimin sovetin heç vəchlə dostu ola bilməyəcəyini doğru yazıb.

Nə qədər ki, Şirməmməd müəllim sağ idi, lap elə onun nəfəsinin gedib-gəldiyi bir neçə saat öncəyədək, mən istiqlalımızdan daha çox arxayın idim.

Şirməmməd müəllim qocalmış, zəifləşmiş vücudu ilə də istiqlalımızı, müstəqilliyimizi hər zavaldan, içəridən və çöldən gələ bilən hər bəd nəfəsdən qorumağa hazır idi.

Çünki sinəsindəki coşqun millət eşqi, istiqlal sevdası onu güclüdən güclü edirdi.

Hər gün qələmi ilə qurucu babaların yanında olduğundan onlardan aldığı təpəri, dəyanəti, əzmi də ətrafına yaymağı bacarırdı.

Şirməmməd müəllim varlığı, eşqi və qələmi ilə qurucu babalarımızın hələ sönməmiş közü idi.

Şirməmməd müəllim – közərən tənha ocaq söndü, onlar da elə bil təzədən söndülər...

Növbəti səhərimiz sizsiz açılacaq, əziz Şirməmməd müəllim!

Bu soyuq üzlü həqiqətlə barışmağa məcbur olmaq nə qədər də əzablıdır!

Sizdən uzaqlardayam. Heç gəlib vidalaşa da bilmirəm sizinlə!

Bağışlayın, əziz ustad!".

...Bu ayrılığın üstündən 1 aydan da bir az çox keçən günlərin birində Ülkər xanımın qəmli etirafı ürəyimi sıyırdı: "Hərdən öz-özümə düşünürdüm ki, dünyada doyunca yaşadım, nəvələri də gördüm nəticələri də. Amma Şirməmməd yox! O həyat eşqi ilə, yaşamaq arzusu ilə, təzə əsərlər yaratmaq həvəsi ilə dolu idi".

Ülkər xanım yol çəkən kədərli, yorğun gözləriylə baxır mənə, naçar-naçar köks ötürür: "Bilsən onsuz olmağa alışmaq necə çətindir!..".

Danışır və hiss edirəm ki, ayrılığın üstünə yeni günlər gəldikcə birgəliyin illərini, aylarının həftələrini, günlərinin indi yaddaşını göynədən xatirələrini nə təhər xiffətlə yaşayır.

"Yeməyini yemişdi, keçdi əyləşdi həmişə oturduğu bu kresloda. Mürgüləyirdi. Elə yuxuda da sakitcə keçindi. İnanmağım gəlmirdi, elə bilirdim oyanacaq".

Haqlısınız, Ülkər xanım!

O irs ki, o dərslər ki, o yol ki Şirməmməd müəllim yadigar qoyub getdi onlar həmişə oyandıracaq, qəflət yuxusuna dalmağa imkan verməyəcək.

Nə Şirməmməd müəllimi, nə də onun bütün ruhuyla, varlığıyla sevdiyi millətini!

Ölüm haqdır, hər gələn bir gün gedir.

Amma məni yandıran Şirməmməd müəllimin vəfatından bir neçə gün qabaq aldırdığı, yazı masasının siyirtməsində qalan, hələ heç biri bircə sətir də yazmamış 30 qələmdir!

O qələmlərin yazacağı mətləbləri, düşüncələri, sözləri, daha vacibi – təpəri və eşqi özü ilə apardı Şirməmməd müəllim.

Şirməmməd müəllimin yazmağa macal tapmadıqlarını hansı qələmlərlə, kimlər yazacaq?!.

Rafael HÜSEYNOV,
Akademik
31 avqust 2019-cu ildə Azərbaycan Dövlət Radiosunda "Axşam görüşləri" verilişinin mətni

MƏNİM QƏDƏR BİLMİRSİNİZ, BİZ KİMİ İTİRMİŞİK!

Rafael HÜSEYNOV
Akademik



Siz axı mənim qədər bilmirsiniz, biz kimi itirmişik!

O getdi və bununla da sıra dağlar qurtardı.

Ömrümün ən əziz adamlarından biri həyatdan ayrıldı və mən içərimdən qocaldım.

Şirməmməd müəllimin gedişi ilə, əslində, çoxdan bitmiş, amma onun varlığı ilə, onun sayəsində hələ davam etməkdə olan epoxa tamamlandı.

O nəsil ki, onlarla ilk gəncliyimdən, 17-18 yaşından ünsiyyətdə olmuşdum, o insanlar ki, hərəsi bir zirvə idi, o insanlar ki, məhz onların zəkasından, istedadından yaranmış bəhrələrlə Azərbaycan bir az da vüqarlı, bir az da üstün, bir az da nurlu olmuşdu, bir-bir bizi tərk etdilər.

Şirməmməd müəllim sonuncu və körpü idi.

Onunla hər görüşə müqəddəs ibadətgaha, ruh evinə gedən kimi gedirdim.

Şirməmməd müəllimlə hər görüşəndə içərisində olduğum iki min neçənci il yaddan çıxırdı, başlayırdım 1930, 1940, 1950, 1960, 1970, 1980-ci illərin axarında dövr eləməyə.

Həmin illərin insanları dirilirdilər, müasirim olurdular, o illərin qəzet-jurnalları Şirməmməd müəllimin səsində, təqdimində, yozumunda mənimlə büsbütün ayrı cür danışırdı, elə təsəvvür edirdim, indi adama nağıl kimi uzaq görünən Rəşid bəy Əfəndiyev də sağdır, büllur kimi saf, bilikləri dərya kimi dərin Muxtar Əfəndizadə də həyatdadır, maestro Niyazi də, salnamə adam Qulam Məmmədli də diridir, ürəyi vulkanlı Bəxtiyar Vahabzadə ilə də əbədi ayrılmamışıq...

Onlar və neçə-neçə o cür misilsiz şəxsiyyətlər Şirməmməd müəllimlə – birgə təzədən söndülər.

Məhəmməd Əmin Rəsulzadəni tədqiq və nəşr edənlər indi də var, gələcəkdə də olacaq.

Təbii ki, araşdırıqca bu böyük qurucunu daha da yaxından tanıyıblar, tanıdıqca seviblər, eyni hisslərlə bundan sonrakılar da yaşayacaq.

Ancaq Məhəmməd Əmin Rəsulzadəni Şirməmməd müəllim kimi canıyananlıqla, təəssübkeşliklə duyan, anlayan, sevən, atəşin sevgi ilə təbliğ edən, qoruyan ikinci o səviyyəli adam olmayacaq.

Onun cümhuriyyət qurucularımıza məhəbbəti və sədaqəti bir övladın atasına, babasına, bir valideynin oğluna, nəvəsinə olan istəyi kimi idi.

Yaşı elə həddə çatmışdı ki, artıq o, qurucu babaların hamısından xeyli sinli idi. Lakin qəlbi cavan idi, ruhu gənc idi, həvəsi tükənmirdi.

İkinci kim var ki, 90-nı keçəndən sonra da yazmaqdan, öyrətməkdən usanmasın, hər həftə xalqına millətin şərəfli tarixi ilə bağlı unudulmamalı səhifələri təqdim etsin və bilsə də ki, bu yazılanları oxuyan az olacaq, bezməsin, usanmasın, sabahlara ümidlərlə baxsın?!

Əziz Şirməmməd müəllim, sizsiz çox çətin olacaq mənə, çox!

Yalqız qoyub getdiniz!..

Gördüyüm işlər haqqında hər təqdirli sözünüz mənə hər bir mükafatdan ali idi. Çünki o sözlərin hansı dildən qopduğunun fərqində idim, o təqdirli kəlmələr məni daha yeni işləri görməyə qanadlandırırdı.

Sizin yaşda ölmək qorxulu deyil, Şirməmməd müəllim, mənim yaşımda münsifsiz, müəllimsiz, sizsiz qalmaq ağırdır, üzücüdür, nisgillidir!

Bu bazar günü – iyunun 23-də Fransaya uçacaqdım.

Arzulayırdım ki, şənbə günü gəlib sizi görüm.

Xəbər göndərdim, "sənə deyərik" söylədilər.

Kaş elə birbaşa durub gələydim!..

Bu gün, iyunun 24-də Avropa Şurası tarixində ən uzun iş gününü keçirdik.

Səhər 08:00 radələrində Assambleyaya gələn iclaslarımız gecə 00:50-də bitdi.

Və bu ağır iş günü əsnasındakı iclaslarda səssizə qoyulmuş telefonumun ekranı növbəti dəfə işıqlandı, Bakıdan zəng vurub məndən cavab ala bilməyənlər, yəqin, danışmaq imkanımın olmadığını sezərək yazdılar.

Və müdhiş soraq məni sarsıtdı.

İnanmaq istəmədim. Sonra daha bir dost, sonra daha bir yaxınım yazdı.

Bəlkə də, kimin çünsə 95 illik ömür uzun görünə bilər.

Şirməmməd müəllim kimi təpədən dırnağa mərifət, savad, millət sevgisi, vətənçilik saçan bir insan üçünsə, əlbəttə ki, bu ömür möhləti qısadır.

Axı sonuncu yazısı ölümündən bir gün əvvəl isıq üzü görmüşdü.

Axı gələn həftə təzə yazısı olacaqdı.

Axı il sonunda 95 yaşını təntənə ilə bayram edəcəkdik.

Söz vermişdim. Ötən il 94-ü tamam olanda 10 gün ərzində onun haqqında bir kitab yazıb buraxdım. Çox da sevindi. Vəd etdim ki, hər il – 100 yaşınız tamam olanacan eynən bu cür bir kitab yazacağam.

Əslində, hər dəfə görüşəndən, bir neçə saat söhbət edəndən sonra yüküm elə artırdı ki, onun barəsində, şərəfli ömrü və parlaq düşüncələri haqqında ildə bir neçə kitab yaza bilərdim.

Bəzən düşmən, dost olmayan adam qiyməti ən yaxın dostdan da yaxşı verə bilir.

Hələ Qarabağ ocağının alışmasından çox əvvəl, sovetin mənəm-mənəm çağlarında rəhmətlik Xudu müəllim hərdən zarafatla deyirdi ki, Bakıdan, Azərbaycandan ermənilər köçəndə hər halda bir neçəsini saxlamaq lazımdır.

Təəccüblə niyəsini soruşanda qayıdırdı ki, erməni olanda nə olar, biz öz adımızı düz demirik, onlarsa bizim millətin adını düppədüz – "türk" deyir.

Sanki bu yaşa çatmış, yalnız yazı-pozu ilə, millətə xeyir işlərlə məşğul Şirməmməd müəllimin istəməyəni, rəqibi, gözügötürməyəni olmamalı idi.

Fəqət keçinməsindən heç bir neçə saat keçməmiş, elə həmin uzundan uzun iclasımızın gedişində sosial şəbəkələrdə sıra-sıra insanların təəssüf, kədər yağan qeydləri ilə yanaşı, birisinin də onu "sovetin düşməni" adlandıran yazısını oxudum.

Hansı məqsədlə, hansı kinlə yazıb, babalı öz boynuna, Allahı bilsin, özü bilsin, amma hər halda Şirməmməd müəllimin sovetin heç vəchlə dostu ola bilməyəcəyini doğru yazıb.

Nə qədər ki, Şirməmməd müəllim sağ idi, lap elə onun nəfəsinin gedib-gəldiyi bir neçə saat öncəyədək, mən istiqlalımızdan daha çox arxayın idim.

Şirməmməd müəllim qocalmış, zəifləşmiş vücudu ilə də istiqlalımızı, müstəqilliyimizi hər zavaldan, içəridən və çöldən gələ bilən hər bəd nəfəsdən qorumağa hazır idi.

Çünki sinəsindəki coşqun millət eşqi, istiqlal sevdası onu güclüdən güclü edirdi. Hər gün qələmi ilə qurucu babaların yanında olduğundan onlardan aldığı təpəri, dəyanəti, əzmi də ətrafına yaymağı bacarırdı.

Növbəti səhərimiz sizsiz açılacaq, əziz Şirməmməd müəllim!

Bu soyuq üzlü həqiqətlə barışmağa məcbur olmaq nə qədər də əzablıdır!

Sizdən uzaqlardayam. Heç gəlib vidalaşa da bilmirəm sizinlə!

Bağışlayın, əziz ustad!

24 iyun 2019, Strasburq
"Çapar" dərgisi, 2019, № 5, 6

MÜƏLLİMİMİZİN VƏTƏN SEVGİSİ YENİ TƏQDİMATDA

Azərbaycan ictimai-ədəbi cəmiyyəti akademik Rafael Hüseynovu işi başından aşan, hər anı, hər saatı çox vacib tədbirlərə, dövlət işinə bağlı olan bir insan, bir vətəndaş və nəhayət, bir alim kimi yaxşı tanıyır. Sözün həqiqi mənasında işi başından aşan belə bir insanın həm də məhsuldar alim olduğunu elmi-ədəbi ictimaiyyət çox yaxşı bilir. Bu alim məhsuldarlığı zəminində onun qələmə aldığı "Millət yaddaşının keşikçisi" adlı kitabını oxuyub çox qəribə duyğular keçirdik. Bir tərəfdən, əlbəttə, mötəbər imzasından çıxan əsərlərinin daimi oxucuları kimi, digər tərəfdən bu kitabın həsr olunduğu böyük insanın çox doğma olması, müqəddəs bir talisman statusu kəsb etməsi ilə: kitabın qəhrəmanının Şirməmməd Hüseynov olması ilə.

Hörmətli Rafael müəllim bu kitabda uzun bir ömrün ən mənalı akkordlarını qələmə almaqla oxucuya bütöv bir Şirməmməd Hüseynov taleyi bəxş etmişdi. Müəllimindən müəllimlik dərsi alan Şirməmməd Hüseynov "həmişə bir həqiqətə inandı ki, müəllimsənsə, demək, millət quruculuğu ilə məşğulsan, sənin bugünkü keyfiyyətsiz işin sabah millətin taleyinə zədəsini buraxa bilər". Bəli, Şirməmməd müəllim ömrünün bugünkü ahıl çağında da məhz bu missiya ilə çalışmaqdadır. Biz o xoşbəxt adamlardanıq ki, Şirməmməd müəllimin müəllimlik haqqında müqəddəs dərslərini dinləyirik, biz o xoşbəxt adamlardanıq ki, şəxsən onun öz mücadiləsi ilə yaratdığı, təmiz bir dünya qurduğu filologiya-jurnalistika fakültəsinin əməkdaşlarıyıq və biz xoşbəxt adamlardanıq ki, ömrümüzün böyük bir hissəsini bu müəllimimizlə bir yerdə çalışmışıq və çalışmaqdayıq. R.Hüseynovun kitabdakı bütün sətirləri həqiqətlə yoğrulub. Onun belə bir fikrini sitat gətirmək istərdik: "Şirməmməd müəllim uzun ömrünün yarıdan çoxunu müəllimliyə həsr edib və onillərin təcrübəsi ona insanı, illah da öz xalqımızı beş barmağı kimi tanımaq vərdişlərini aşılayıb".

Bəli, Şirməmməd Hüseynov bir neçə missiyanın daşıyıcısıdır: müəllimlik, mətbuat tariximizin ünlü tədqiqatçısı, millət fədaisi, həqiqət carçısı! Bütün bunların önündə ona görə "müəllimlik" dayanır ki, o, hər şeydə, hər anda öncə müəllimdir.

Haqqında bəhs etdiyimiz kitabda Şirməmməd müəllimin ömür yolunun məsum uşaq çağından başlamış bugünkü ustadlıq anınadək bütün məqamları çox lakonik, amma hər kəsə örnək olacaq bir şəkildə qələmə alınıb. Şəkidə orta mək-

təb, orta məktəb illərindən başlayan uşaq diribaşlığı, əvvəlcə riyaziyyat ixtisası, bir xeyli orta məktəb müəllimliyi, sonra universitetdə peşə seçimindəki təbəddülatları, jurnalistikaya gəlişi, tələbə vaxtından universitetdə hiss olunmağı, hərdən həqiqəti deyən dilindən bəlaya düşməsi, Moskva universitetindəki aspirant həyatı, elmə marağı və universitetin jurnalistika sahəsində ilk alim obrazı və nəhayət, bundan sonrakı yorulmaz fəaliyyəti həcmcə çox da böyük olmayan bu kitaba necə sığdı, bu da bir üslub möcüzəsidir.

Rafael müəllim Şirməmməd Hüseynovun sovet ideoloji kanonlarının hökm sürdüyü çətin zamanlardakı müəllimliyini, bu müəllimin senzura qadağaları şəraitində tələbələrə necə millət sevgisi aşılamağını məhəbbətlə qələmə almışdır. Müəllifin belə bir qənaəti var: "Şirməmməd Hüseynov müəllim idi, təsdiqlənmiş proqramlara əsasən dərsini deyirdi, fəqət bununla ürəyi soyumurdu, həm də yeniyetmələrin gözünü açırdı, onlara bir sovet pedaqoqu olaraq deməməli olduqlarını da söyləyirdi". Bəli, bunlara şahid olanlardan biri də bizik. "Sosializm yarışı" deyilən bir saxta məfhumu mətbuatda yeri gəldi-gəlmədi işlədənləri nəzərdə tutub iclas salonunda bir dəfə bizə dedi: "Vallah, bu sosializm yarışını o qədər genişləndirəcəksiniz ki, axırda bir gün onu partladacaqsınız". Yaxud: "Azərbaycanın dövlətçilik ənənəsindən şübhələnənlər arxivə də adam kimi baxsınlar. O arxivlərdə Azərbaycan Xalq Cümhuriyyəti deyilən bir dövlətin nə olduğunu görsünlər. Yaxud "Bakı Dövlət Universiteti adını dəyişib ona görə, Azərbaycan Dövlət Universiteti elədilər ki, biz ikinci universitet açа bilməyək" və s.

Kitab Sovet dönəmində 26-lar adlandırılan bir qrup antiazərbaycançıya qoyulan heykəllər, yazılan şeirlər, deyilən difirambalar dövründən bəhs edir və belə bir həqiqəti dilə gətirir: "Şirməmməd müəllimsə bəlli üsuluyla əsrin başlanğıcının qəzetlərindən tapdığı hansısa məqalədən parçanı oxuyurdu və tələbələr dinlədikcə anlayırdılar ki, ermənilərdən və onlara bənzərlərdən ibarət bu "qəhrəmanlar" hansı yuvanın quşu imişlər, əllərində hansı qanların ləkəsi var".

Rafael Hüseynovun dediyi bu fikirlərin biz də tələbəykən canlı şahidi olmuşuq. Onun bütün fikirləri orijinal olurdu, həm mühazirə üsulu ilə, həm də söylədikləri ilə. Beləliklə, Ş.Hüseynov o zaman da (gənclik çağlarında, sovet rejimində), bu gün də heç vaxt saxta danışmadı. Hər kəlməsində, hər fikrində zamana müxalif bir xarakter vardı, amma elə bil tale onu qoruyurdu, bu günümüz üçün, klassikamızı yenidən yaddaşlara qaytarmaq üçün, xalqdan gizlədilən Xalq Cümhuriyyətini, onun qurucularını yenidən xalqa qaytarmaq üçün. Bu mənada kitabın müəllifi tamamilə haqlıdır ki, "ümumən professor Şirməmməd Hüseynov ta cavanlığından üzü bəri... qələmə aldığı, xalqa çatdırdığı bütün yazılar Azərbaycan istiqlalı, bu mübarizəli yolun tanınan və tanınmayan fədailəri, qoruyub yaratmalı olduğumuz milli dəyərlər və ideallarla bağlıdır".

Əzizimiz Rafael müəllim! Bizim müəllimimizin məhz siz deyən yaradıcılıq yolunu, onun mətbuat tariximizin tədqiqindəki rolunu, Xalq Cümhuriyyəti və onun fədailərinin əsərlərinin tədqiqini və onları öz təqaüdü hesabına çoxsaylı kitablar şəklində çapını nəzərdə tutan Prezidentimiz İlham Əliyevin jurnalistlərlə görüşü zamanı dediyi sözləri burada bir daha xatırlatmaq istərdik. Prezident bu görüşdə Şirməmməd müəllimə üzünü tutaraq demişdi: "Şirməmməd müəllimin çıxışı mənim üçün çox böyük maraq doğurdu... Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 1970-ci illərdə siz Azərbayan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi – "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarıcı sıyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı, xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir". Prezidentimizin müəllimimizə bu qiyməti indi onun tələbələrinin dilində əzbər olub.

Bu yerdə biz R.Hüseynovun Şirməmməd müəllimin indiyədək nəşr etdirdiyi kitablarının adlarına diqqət çəkdiyini yada salmaq istərdik. Bu kitablar bir tərəfdən tələbədən tutmuş Vətən sevgisi ilə yaşayan hər kəsi maarifləndirir, digər tərəfdən "o kitablar üz tutduqları, etiqada dəvət etdikləri ümmətə bütün başqa məziyyətlərindən savayı kamil insan, yaxşı adam olmağın əbədi dərslərini verir. Lakin xalqların və millətlərin onları yaxşı xalq, kamil millət edəcək kitablara da həmişə ehtiyacı olub, bu ehtiyac heç vaxt da tükənməyəcək. Şirməmməd Hüseynov bu qəbil kitabları xalqınkı, millətinki etməklə məşğuldur".

R.Hüseynovun bu kitablar haqqında çox önəmli bir fəlsəfəsi var: "Bu kitabların hər birinin yaranması ictimai-siyasi həyatımızda, düşüncə mühitimizdə necə qarşılanmasından asılı olmayaraq millət tarixinin çox önəmli hadisələridir.

Hər bir istedadlı insan, hər bir güclü yaradıcı ömür möhləti boyu hansısa şah əsərini yaradır. Bu, onun gənclik illərində də baş verə bilər, ahıllığında da, ixtiyar sinnində də.

Zəka, ilham sahibinin yaradıcılıq yolu uzun da çəkə, onun şah əsərinin ortaya çıxması həyatının erkən çağına da, yolun ortasına da təsadüf edə bilər, yaxud arzulanan şah əsərin ömrün sonlarına doğru, təcrübələrin yekunu kimi meydana gəlməsi də mümkündür.

Şirməmməd müəllim şərəfli ömür yaşayıb, çox layiqli bir alim, xoşbəxt bir müəllim həyatı sürüb, onun yetirmələri, tələbələri Azərbaycan boyuncadır".

Rafael Hüseynov Şirməmməd müəllimin çoxsaylı kitabları içərisində "Parlament hesabatları"nı onun şah əsəri hesab edir. Doğrudan da, müəllifin dediyi kimi, "Parlament hesabatları" – Xalq Cümhuriyyəti dövründəki parlament iclaslarının "Azərbaycan" qəzetində əks olunmuş fəaliyyəti haqqında üç cildlik bu kitab çox önəmli bir məsələyə həsr olunmaqla, çox böyük zəhmət hesabına başa gəlmişdir. Müəllif yazır: "Şirməmməd Hüseynov... üçcildlik əsərini zahirən qısa bir zaman içərisində hazırlayıb. Həmin yazıları kitablaşdıraraq xalqa təqdim edənəcən ard-arda mətbuatda dərc də etdirib və bu minvalla cildlərin yaranma gedişatını müşahidə etmək hər birimizə nəsib olub. Amma bilənlər bilir ki, bu kitabları hazırlamaq üçün Şirməmməd müəllim 50 illik yoi gəlib". Biz də bu yerdə belə bir məsələni qeyd etmək istərdik ki, Şirməmməd müəllimin bu tip titanik zəhmətinin məhsulunu bizə də doğma olan "525-ci qəzet" bir neçə ildir ki, özünün qiymətli şənbə buraxılışlarında daimi olaraq işıqlandırmış və bu gün də işıq-

landırmaqdadır. "525"in bu yazılara bu qədər diqqəti bir tərəfdən klassik dövlətçiliyimizə, kiassik irsimizə marağından, digər tərəfdən bu qəzetin əməkdaşlarının əksəriyyətinin müəllimi olmasına yönələn sevgidən doğur.

Məlumdur ki, Parlament iclasları vaxtında həm də stenoqramma ilə yazıya alınmışdır. Rafael Hüseynov belə bir sual qoyur və özü də cavab verir: "Bəs o stenoqrammalarla "Azərbaycan" qəzetində dərc edilən hesabatların fərqi nədədir?

"Azərbaycan" qəzetində dərc edilən parlament hesabatlarının mənası və dəyəri büsbütün başqadır. Bunlar hamısı Məhəmməd Əmin və Üzeyir bəylərin redaktə süzgəcindən keçərək dərc olunub. Yəni onlar, məlum stenoqrammalardan fərqli olaraq, ağızdan çıxan hər sözü əks etdirməyiblər, yalnız ictimai məna kəsb edənləri saxlayıblar, müəyyən ixtisarlar aparıblar, bəzi parçaların məzmununu veriblər". Biz də əlavə edək ki, hesabat bir jurnalistika janrı olmaqla, problemə publisist müdaxilələri ilə onu daha qabarıq şəkildə cəmiyyətə çatdırır. Şirməmməd müəllim dövrün ilk parlament müxbiri sayılan Üzeyir bəyi hamıdan yaxşı tanıdığından onun və əməkdaşlarının fikirlərinə məhəbbətlə yanaşmışdır. Bu mənada R.Hüseynovun obrazlı fikirinə biz də şərikik: "Şirməmməd müəllimin hər çıxışı, hər yazısı, hər kitabı və o sıradan bu cildlər heykəllərdir... Şirməmməd Hüseynov milli yaddaş daşıyıcısı, bir mənəviyyat körpüsüdür. Azərbaycanın dünəniylə indisi, istiqlalımızın qaynaqları ilə istiqbalımız arasında körpü"dür.

Biz Şirməmməd Hüseynovla universitet və dostluq münasibətlərimizin birgəliyindən doğan bir məzmunla onun ömür yolunun bir çox məqamlarına bəlkə hamıdan çox bələdik. Rafael Hüseynovun onun həyat yolu ilə bağlı söylədiyi fikirlərin hamısı elə bizim də gözlərimiz önündə baş verib. Məsələn, ünlü şairimiz Bəxtiyar Vahabzadə və Şirməmməd müəllim xətti.

Məlumdur ki, millət fədaisi kimi hələ sovet dövründən çox-çox yaxşı tanıdığımız Şirməmməd müəllim də, Bəxtiyar müəllim də bizim doğma universitetimizdə bir yerdə işləmişlər. Yaddaşımızın tarixini vərəqlədikcə bu iki şəxsiyyətin əqidə dostluğunun millətə gərək olan məqamlarını biz də xatırlayırıq. Bəxtiyar Vahabzadə etiraf edirdi ki, onun bir sıra məşhur şeirinin ilkin ideyası dostundan gəlir. Hətta şairin "Lenin" poemasının bütün motivlərinin milli müstəqilliklə bağlılığı Şirməmməd müəllimin ona seçib verdiyi sitatlardan doğmuşdur. Kitabın müəllifi Rafael Hüseynov Şirməmməd-Bəxtiyar tandemini çox maraqlı misallarla oxucuya təqdim edib. Bu mənada B.Vahabzadənin Şirməmməd müəllimə həsr etdiyi "Körpü çaydan uzaq düşüb" şeirinin yaranma tarixinə dair publisistik sətirlər çox duyğuludur və müəllifin belə bir cümləsinə hamımız şərik çıxırıq ki, "Şirməmməd Hüseynov və onun məktəbi, yolu, dərsləri var olduqca körpü heç vaxt millət çayından aralı düşməyəcək".

Kitabda Şirməmməd müəllimin bioqrafiyasına elmi-publisistik, bir az da bədii yanaşma onu daha oxunaqlı etmişdir. Kiçik bir abzasa diqqət edək: "Universitetə gedərək əsgərlərinə təlimini verir – gələcəyin jurnalisti olacaq tələbələrinə dərsini deyir, qayıdıb gəlib səngərinə – yazı masasının arxasına keçir, silahını – qələmini götürür və başlayır itirdiklərimizi qaytarmağa, qazandıqlarımızı daha yaxşı qoruya bilmək üçün yollar göstərməyə, istiqlal salnaməmizi bir az da bütövləşdirmək üçün yeni mübarizələrinə".

Şirməmməd müəllimin foto-arxivini "xatirə qutusu" adlandıran müəllif bu

qutunun sehrinə dalaraq onun nəsil şəcərəsi, uşaqlıq illəri, universitet və ictimai həyatı haqqında illustrativ materialların təhlilləri ilə bizi heyran qoyur. Təkcə bu şəkillərə verilən interpretasiyalar obrazın bütün ömür yolunun, bu yolun məşəqqətlərini, uğur və sevinclərini aydın bir süjet xətti ilə izləməyə imkan verir. Məlum olur ki, mənəvi kimsəsizlik çağlarından, paytaxtdan uzaq bir məkandan başlayan bir ömür yolunu dünya şöhrətli yazıçılarla, türk düynasının yanar ulduzu Çingiz Aytmatovla, Oljas Süleymenovla, Moskva Dövlət Universitetinin azman alimləri ilə görüşlər gözləyirmiş. Bu ömür yolunda onun Azərbaycan istiqlal düşüncəsinin müstəqim fədaisi Xudu Məmmədov, böyük ziyalımız Nurəddin Rzayev kimi milli şəxsiyyətlər bəzəyəcəkmiş. Həcmcə çox da böyük olmayan "Millət yaddaşının keşikçisi" reallığa bu tipli yanaşmaları ilə böyük bir epopeya təsiri bağışlayır.

Kitabda müəllif Şirməmməd Hüseynov xarakterinə belə bir rezyume verir: "Ömrü boyu çalışıb, daim işin çətinindən yapışıb, harda olubsa, xalqına da, yurduna da, dövlətinə də fayda verməyə can atıb, həmişə haqpərəst olub, doğru sözü deməkdən çəkinməyib, yalnız az yeməyib, həm də halallığı hər şeydən üstün tutub, haram tikədən uzaq durub, vicdanı qarşısında onu gözükölgəli edəcək heç bir əmələ qol qoymayıb, nəfsi toxluğu, aza qane olmağı ailəsinə də aşılayıb".

Bu abzasın son sətri əlinizdəki məqalə müəlliflərinə bəlkə də daha çox məlumdur. "... Vicdanı qarşısında onu gözükölgəli edəcək heç bir əmələ qol qoymayıb, nəfsi toxluğu, aza qane olmağı ailəsinə də aşılayıb". Bu həqiqət universitetdə onunla birlikdə çalışan hər kəsin gözü önündədir. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində olan təmizlik, ləyaqət Şirməmməd Hüseynov məktəbinin səbəbidir. O, burada elə bir təmizlik bünövrəsi yaradıb ki, bu bünövrə heç vaxt dağıla bilməz.

Biz Rafael Hüseynovun müəllimimiz haqqında bu kitabını sevgi və məhəbbətlə oxuduq. Dekabrın 17-də böyük müəllimimizin 94 yaşı tamam olur. Ömrünün bütün çağlarında millətinə sevgi ilə yaşamış və bu gün də yaşamaqda olan ustadımıza bu yolda can sağlığı, gümrahlıq arzulayırıq.

Nizami CƏFƏROV,
Akademik

Cahangir MƏMMƏDLİ,
Professor

"525-ci qəzet", 15 dekabr 2018-ci il, şənbə

ŞİRMƏMMƏD HÜSEYNOV–95

MİLLİ MƏTBUATIMIZIN UNUDULMAZ PATRİARXI

145 yaşını haqlamaqda olan Azərbaycan mediası bütün mərhələlərində xalqa, milli jurnalistikamıza, tariximizə baş ucaliği gətirən görkəmli simalar yetişdirib. Bizlər bu uzun, keşməkeşli yolun hər dönəmində misilsiz xidmətləri olan isimləri yaxşı tanıyırıq. Hesab edirəm ki, milli mətbuatımızın banisi Həsən bəy Zərdabidən tutmuş günümüzədək müxtəlif mərhələlərdə Cəlil Məmmədquluzadə, Məmmədağa Şaxtaxtinski, Üzeyir Hacıbəyli... kimi silinməz izləri qalan dühaları daim xatırlamaq hamımızın borcudur.

Sevimli müəllimimiz Şirməmməd ömrünün 60 ildən çoxunu mətbu zirvələrin daha mükəmməl tanıdılması naminə arxivlərdə keçirən, onların bənzərsiz irsinə ikinci həyat verən mətbuat tədqiqatçılarından olub. Deyirəm nə yaxşı ki, tale bu zaman kəsiyində onu xalqımıza bəxş etmişdi. Yoxsa hələ də həmin dövrün zirvəsinə kim haqq edir sualı uzun müddət cavabsız qalacaqdı.

Əlbəttə, zirvə o zaman daha möhtəşəm görünür ki, sağında-şolunda əzəmətli müttəfiqləri dayansın. Ötən əsrin ikinci yarısından bəri mediamız kimləri itirmədi, onların yerləri boş görünəndə Nəsir İmanquliyev, Nurəddin Babayev, Nəriman Zeynalov, Qulu Xəlilov sinələrini irəli verdilər. Yazdılar, yaratdılar, mətbuat tarixini, nəzəriyyəsini tədris etdilər. Publisistik məqalələri ilə nədən, necə yazmağın praktik nümunələrini ərsəyə gətirdilər. Həmin illərdə mətbuatımız ona görə indikindən daha cazibədar görünürdü ki, sükanı arxasında adlarını sadaladığım insanlar dayanmışdılar. Onların mühazirələrini dinləmək üçün nəzərə çarpmadan auditoriyalarda görünməyi təhsil aldığım Filologiya fakültəsinin tələbələri zirəkliyin bir forması olaraq dəyərləndirirdilər. Şirməmməd müəllim tək-tək pedaqoqlardan idi ki, xəfif təbəssümü ilə bunu görməzliyə vururdu. İkinci kursda Ulu Öndərimiz Heydər Əliyevin sayəsində Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsilimi davam etdirmək üçün göndəriləndə arzu və inadıma dəstək verən Şirməmməd müəllimin xeyirxah məsləhətlərini minnətdarlıqla xatırlayıram.

Ola bilsin kimsə Şirməmməd müəllimin ünvanına işlətdiyim jurnalistikamızda son 50 ilin zirvəsi ifadəsini bir qədər mübahisəli saysın. İstərdim sözlərimi konkret məqamlarla əsaslandırım. Jurnalist simasını, ilk növbədə, səviyyələndirən yaradıcılığı, yazılarıdır. O heç vaxt janrlardan, üslubiyyatdan dərs demədi. Fəqət irsi nədən, necə yazmağın gör-götür nümunələri oldu. Ustadın şirin ləhcəsi, zəngin lüğət fondu fikir və məqsədin çatdırılmasının necə geniş imkanlara malik olduğuna diqqət çəkirdi. İş qalırdı bundan yerli-yerində faydalanmaq bacarığına.

Şirməmməd müəllim yazılarında fərdlərin yox, bütövlükdə cəmiyyətin maraqlarını əsas götürürdü. Ustada xas xüsusiyyətlər ölkədə obyektiv, cəsarətli, duyumlu-düşüncəli jurnalistlərin bütöv bir nəslinin formalaşmasına təsirsiz ötüşmədi. Yetirmələri indiyədək halallıq haqqına sədaqətlərini qürur hissi ilə dilə gətirirlər. Tələbəsi olmasam da, özümü həmin sırada sayıram.

Şirməmməd müəllimin prinsipiallığı, sözü düz gözün içinə qədər deməsi təbiidir ki, heç də hamının xoşuna gəlmirdi. Yoldaşlıqla, dostluqla ədalət prinsipini qarışdırmamağı məsləhət görürdü. Biliyinə, mövcud potensialına bələd olanlar deyəcəkləri sözü, təklifi fikir süzgəcindən keçirəndən sonra ustada yetirirdilər. Tələbələrinin həyata, istehsalata hazırlıqlı, cəsarətli qədəm qoymalarında xüsusi maraqlı idi. Çünki bu adamlar dövrün salnaməsini yaradanların sıralarına belə keyfiyyətləri əxz etmədən qətiyyən qatıla bilməzdilər. Həmkarlarım müəllimlərinin dekan işlədiyi 1971-1976-cı illəri Jurnalistika fakültəsinin qızıl dövrü olaraq xarakterizə edirlər. Bu, tələbəli, müəllimli hamı üçün ləzzət edən məsuliyyətin cavabdehliklə, təşəbbüskarlığın həssas münasibətlə vəhdətdə olduğu daha yaradıcı, canlı mühit idi. Sonralar hətta narazılar belə xiffətini çəkdilər. Ən əsası o idi ki, universitetdə Jurnalistika fakültəsinin timsalında vətəndaş cəmiyyəti üçün layiqli, fəal həyat mövqeyinə malik kadrlar hazırlayan model formalaşdırılmışdı.

Tanınmış jurnalistlərdən biri o illəri xatırlayarkən diqqəti özünün diplom müdafiəsinə çəkir: "Günlərin birində "1905-1911-ci illərin Azərbaycan mətbuatı" mövzusunda işimi tanışlıq üçün diplom rəhbərim Şirməmməd müəllimə təqdim etdim. Göründə ki, Mirzə Ələkbər Sabirin əsərlərində olmayan bir şeirini tapmışam, çox sevindi. "Bax, bu əsl tələbə təhqiqatıdır, dedi. İnşallah "Hophopnamə"nin yeni nəşrinə daxil edilməsinə çalışarıq". İstifadə olunan ədəbiyyatın təhlilinə nəzər salanda qaşlarını çatıb təəccüblə mənə baxdı. Şirin ləhcəsi ilə soruşdu: "Balası, 3 müəllimini birdən tənqid edibsən, sözünün arxasında dayana biləcəksənmi". Tələbəsinin "buradan azı 3 qiymətinin iyi gəlir" sözündən məmnun qalan dekan: "Onda getdik döyüşə" dedi.

Müdafiə 1 saatdan çox çəkdi. Sonda tələbəni içəri dəvət edərək belə mənalı müzakirələrə görə təşəkkürlərini bildirdilər, diplom işini əla qiymətləndirdilər. Bəli, bu həmin beş ilə xas auradan, mənzərələrdən yalnız biridir".

1990-cı ildən sonra Jurnalistika fakültəsində də yarpaq tökdü dövrü başladı. Şirməmməd müəllim üçün uzun illər birgə çalışdığı insanların dünyalarını dəyişmələri olduqca ağır itki idi. Hər birinə xoş münasibət bəsləyirdi. Xüsusilə on illər boyu çiyin-çiyinə işlədiyi, "Bakı-Baku" qəzetlərinin baş redaktoru professor Nəsir İmanquliyevin itkisindən uzun müddət özünə gələ bilmədi. Bəlkə də buna görə idi ki, təsəllisini arxivlərdə tapırdı, dost itkisini evdə yazı masası arxasında keçirdiyi yuxusuz gecələrdə kompensasiya etməyə çalışırdı.

Bu rejim onun demək olar gündəlik həyat tərzi idi. O, rahat düşünür, yazıb-yaradırdı. Həyat yoldaşı, məqalələrinin, əsərlərinin ilk oxucusu, korrektoru, redaktoru Ülkər xanım isə bezmədən, giley-güzarsız yanını kəsdirirdi. Bir dəfə nəciblik, dözüm, iradə sahibi kimi formalaşmış anamıza sual verdim: "Çətin deyilmi?" (Ağsaqqalımız tələbəsi olan xanıma auditoriyada vurulmuşdu. Ş.Hüseynovun həmkarlarından şux, səliqəli geyimi ilə seçilməsində, nikbinliyində bu amilin əvəzsiz rolu var idi). Gülümsündü: "Bir adamın ki, qayəsi xalqa, dövlətə xidmətdir, indiki və gələcək nəsillərə parlaq irs yadigar qoymaqdır, onun cinahında dayanmaq insana yorğunluq gətirməz" dedi.

Şirməmməd müəllim gülümsəyərək bildirirdi ki, "görüləsi mühüm işlərin həcmi o qədər böyükdür, bir ömür çərçivəsinə sığmaz. Onsuz da yatmağa kifayət qədər vaxtımız olacaq. Yazmaq-yaratmaq üçün öhdəmizdə az müddət qalır". Həmin sözlər vasitəsilə müdrik insanın 70-dən sonra işə, arxivlərə, elmi-təhqiqat müəssisələrinə, görüşlərə, müsahibələr verməyə gedərkən yalnız taksidən istifadə etməsinin fəlsəfəsinə vardım.

Professor ilk baxışda zəhmli, çox ciddi adam təsiri bağışlayırdı. Amma tezliklə duyurdun ki, bu görüntünün arxasında nəcib, xeyirxah insan dayanır. Bizim qarşılıqlı əlaqələrimiz, diskussiyalarımız əsasən 2005-ci ilin iyun ayından daha da intensivləşdi. Milli mətbuatımızın 130 illik yubileyinə hazırlaşırdıq. Mediada sanballı xidmətləri olan jurnalistlərimizin geniş miqyasda mükafatlandırılması üçün Mətbuat Şurasına da öz namizədlərini irəli sürmə səlahiyyəti verilmişdi. Zənglərə Şirməmməd müəllimdən başladım. Vaxt azlığına görə gecə saat 11-də evinə zəng vurdum. Dəstəyi Ülkər xanım götürdü. Səs tonundan həyəcanlandığımı hiss edən xanım səmimiyyətlə: "Narahat olma, Əflatun müəllim, – dedi, – oyaqdır". Xəbəri dinləyib sakitcə: "Məsləhət prezidentimizindir", – dedi. Dilinə xahiş, minnət gətirmədi. Belə hallar xarakterindən çox-çox uzaq idi. Maraqlanıb mükafatlar kolleksiyasına nəzər saldım. Güman edirdim ki, orden-medalları pencəyinə sığmayacaq. Təsəvvürümdə yanılmışdım. Cəmi bir dövlət mükafatı var idi. 1988-ci ildə Əməkdar jurnalist adına layiq görülmüşdü. Vəssalam!

Digərləri ötən əsrin 60-70-ci illərinin bəzəyi "Qızıl qələm", Zərdabi, Y.Məmmədəliyev, M.Rəsulzadə adına mükafatlar idi.

Müəllimimiz dövlət başçısının sərəncamı ilə Prezident təqaüdünə layiq görüldü. Bir dəfə təqaüdünü hara xərclədiyi ilə maraqlandım. Məhəmməd Əmin Rəsulzadənin 1992-ci ildən bəri tərtib etdiyi əsərlərinin 5 cildliyini göstərdi. Vəsaitsizliyə görə çeşidlənmiş halda illər boyu kitab rəfində yatıb qalmışdı. Sponsor axtarışını şəxsiyyətinə sığışdırmayan professor bundan sonra kitabın çapına təqaüdü hesabına başladı. 2018-ci ildə işi yekunlaşdıranda rahat nəfəs aldı. Fəxr etdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə, ulu Məhəmməd Əminin xatirəsinə ərməğanı var. Maraqlısı bu idi ki, Ş.Hüseynov hər dəfə söhbətlərində Tanrıdan işləri yekunlaşdırmaq üçün möhlət istədiyini rica edirdi. Bu arzusuna da qovuşanda: "İndi rahat nəfəs ala bilərəm" təşəkkürünü dilə gətirməkdən zövq alırdı.

"Şərəf" ordenli professor elm adamı idi. Lakin daha çox filosof təsiri bağışlayırdı. Türkdilli ölkələrin jurnalist təşkilatlarının Bakıda keçirilən qurultayında rus dilində məruzəsi ilə hamını heyrətə gətirmişdi. Biz onun 100 yaşına çatmasını istəyirdik. "Allahın işinə qarışmayın" deyirdi.

Müraciətlərimdə mətbuatımızın patriarxını "Ali Ruh" adlandırırdım. Belə yanaşma ulu H.Zərdabinin dəfn mərasimində Əhməd bəy Ağaoğlu tərəfindən böyük mütəfəkkirin ünvanına səslənmişdi. O da eyni tərzdə mənə müraciət edirdi. İndi qulaqlarım yenə soraqdadır...

Əflatun AMAŞOV,
Azərbaycan Mətbuat Şurasının sədri, Əməkdar jurnalist
"Azərbaycan" qəzeti, 17 dekabr 2019-cu il

CÜMHURİYYƏT ADAMI

Bədii təyin statusunda "dağ adamı", "düşüncə adamı" epitetlərinin işlədilməsi, zənnimcə təsadüfi deyil və sözün obrazlılıq xassəsindən, işarəvilik təbiətindən səmərəli bəhrələnmə sonucda təqdim edilən qəhrəmanın canlı portretinin polifonik çalarlarını, çoxqatlı cizgilərini assosiativ təsəvvürdə daha da zənginləşdirir.

Bu qəbildən "Cümhuriyyət adamı" deyimi də, düşünürəm ki, vurğulanan epitetlərə adekvat səslənir və ilk növbədə müstəqil vətəni, azad millətini, suveren dövlətini sevən, təəssübünü çəkən, onun tarixini, epoxasını, mühitini dərindən araşdıran, Cümhuriyyət qurucularının əməl və amalına yaxından bələd olan, istiqlal məfkurəsinin alovlu təbliğatçısına çevrilən, canı, ruhu ilə müqəddəs milli ideallara sadiq qalan mərd, mübariz, fədakar insan, dönməz əqidəyə, parlaq zəkaya malik şəxsiyyət göz önündə canlanır... Çağdaş zəmanəmizdə sadalanan yüksək mənəvi meyarlara cavab verən, Cümhuriyyət irsini istiqlal işığında qəlbinin hərarətinə, zəkasının nuruna bələyərək qalın, sanballı kitablara, dərs vəsaitlərinə çevirib müasir gəncliyə ünvanlayan, səhhətinin kövrək məqamlarında da, əhvalını soruşanlara: "Mənim xəstələnməyə vaxtım və haqqım yoxdur!" - deyə hayqıraraq həyat, yaşam üçün ən böyük şəfanı xalqa xidmətdə tapan, məzmunlu, mənalı ömrünün, xoşbəxt taleyinin yüzüncü onilliyinə qürur, iftixar hissilə qədəm qoyan, Bakı Dövlət Universiteti Mətbuat tarixi kafedrasının professoru, əməkdar jurnalist, Prezident təqaüdçüsü, "Şərəf" ordenli Şirməmməd Hüseynovu çoxsaylı təltif və mükafatlardan fərqli anlamda "Cümhuriyyət adamı" adlandırsaq, güman edirəm ki, mübaliğəyə yol vermiş olmarıq.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra onun min əzabəziyyətlə hasilə gətirdiyi, nəşr etdirdiyi tədqiqat işlərini, elmi yaradıcılığını və publisistik fəaliyyətini davamlı izləmək məmnunluğu mənə də müyəssər olmuşdur. Hər zaman rəvan nitqə, sağlam məntiqə, geniş erudisiyaya, güclü yaddaşa malik Şirməmməd müəllimin ən sərt dönəmlərdə belə nurlu çöhrəsindən təbəssüm əskik olmayıb. Bu müdrik, fədakar pedaqoq-alimi bəzən Cümhuriyyət dövründən bugünümüzə təşrif gətirmiş adama, sinəsi sirlə, sehirlə dolu aləmə bənzədirəm. Ağlı-qaralı saçlarına əlləri ilə sığal verib qabaran köksünü kürsüyə dayayaraq Cümhuriyyət qurucularından, dövrün ictimai-siyasi hadisələrindən odlu-alovlu nitqlər söyləyəndə – onun simasında Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov və başqaları istiqlal fədailərinin ləyaqətli, sədaqətli, dəyanətli, cəsarətli mənəvi varisini görürəm.

Onun həyat yolunu nəzərdən keçirdikdə görürük ki, Şirməmməd Ağaməmməd oğlu Hüseynov (1924) Şəki şəhərində anadan olub, 20 yaşında Şəki

Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirib, iki il Zaqatala və Şəki rayonlarında fizika-riyaziyyat müəllimi vəzifəsində pedaqoji işlə məşğul olub. Jurnalistlik fəaliyyətinə 1944-cü ildə "Nuxa fəhləsi" qəzetində ədəbi işçi kimi başlayıb. 1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alaraq oranı fərqlənmə diplomu ilə bitirib. Bir müddət "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri vəzifəsində çalışan Şirməmməd Ağaməmməd oğlu 1950-ci ildə M.Lomonosov adına Moskva Dövlət Universiteti Jurnalistika fakültəsinin aspiranturasına daxil olur və dörd ildən sonra namizədlik dissertasiyası müdafiə edərək elmi dərəcə alır. Şirməmməd müəllim 1954-cü ildə Moskvadan qayıtdıqdan sonra taleyini birdəfəlik olaraq doğma universitetlə, onun Jurnalistika fakültəsi ilə bağlayır. O, 1954-cü ildən Jurnalistika fakültəsində baş müəllim, dosent, dekan müavini, dekan, kafedra müdiri, professor vəzifələrində çox fəal çalışmışdır. Xalqımız dövlət müstəqilliyini bərpa edənədək (1991, oktyabr) professor Ş.Hüseynovun jurnalistika məsələlərinə həsr edilən 11 monoqrafiya və dərsliyi, 111 elmi-publisistik məqaləsi nəşr olunubdur. Son 25 ildə Şirməmməd müəllimin elmi-publisistik fəaliyyəti, tədqiqat əsərləri, çıxışları, məruzələri Cümhuriyyət qurucularının irsi, tarixi şəxsiyyətləri ilə birbaşa bağlıdır. Onun 1992-2014-cü illərdə, 22 il ərzində toplayıb, tərtib və ərəb qrafikasından transfoneliterasiya edib, nəşrə hazırladığı Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin beş cildliyinin ümumi həcmi 160 ç.v.-dən çox, yəni 2576 səhifədir. Şirməmməd Ağaməmməd oğlunun hər bir cildə müfəssəl ön söz, şərh və lüğət yazdığını, 20 ilə yaxın müddət ərzində (1903-1920) mətbuat orqanlarına səpələnmiş ədəbi-publisistik materialları bir-bir topladığını, sistemləşdirdiyini nəzərə alsaq nə qədər nəhəng, məşəqqətli və elmi baxımdan əhəmiyyətli işin öhdəsindən böyük peşəkarlıqla tək gəldiyinin şahidi oluruq. Vurğulamalıyıq ki, M.Ə.Rəsulzadənin Bakı dövrü ədəbi irsini toplayıb nəşrə hazırlamaq mühacirət dövründən qat-qat çətin və əzablıdır. Çünki Cümhuriyyət ideoloqunun mühacirət irsi əsasən kitablarda, dərgilərdə öz əksini tapmışdırsa, Bakıda yaşadığı və fəaliyyət göstərdiyi müddətdə bir ədəd də kitabı çap edilməmiş, bütün əsərləri yüzlərlə dəstləri natamam olan mətbuat səhifələrindən araşdırıb üzə çıxarmaq lazım gəlmişdir. M.Ə.Rəsulzadənin mühacirət dövrü ictimai-siyasi mübarizəsində haqq-ədalət axtarışı, mühacirlər arasında təşkilatlanma mühüm yer tuturdusa, Bakı dövrü fəaliyyətində istiqlal uğrunda mübarizə, Azərbaycanın müstəqilliyinin bəyan edilməsi, möhkəmləndirilməsi və xarici aləmdə tanıdılması problemləri ön plana çıxırdı.

M.Ə.Rəsulzadə "Əsərləri" beşcildliyinin hazırlanması və nəşri professor Şirməmməd Hüseynovun milli tarixşünaslığımız, ədəbiyyatşünaslığımız və mətbuat tariximiz üçün əvəzolunmaz töhfə, xalqımıza, müstəqilliyimizə, dövlətçiliyimizə ucaldılan möhtəşəm mənəvi abidəsidir.

Onun "Mənəvi irsimiz və gerçəklik" (2004), "Milli haqq və ədalət axtarışında" (2004), "Mətbu irsimizdən səhifələr" (2007), "Müstəqilliyin çətin yolu... reallıqlar, düşüncələr" (2009), "Azərbaycan istiqlalının bayraqdarı" (2011) və b. kitablarında sərlövhədən də bəlli olduğu kimi, müstəqillik, mənəviyyat və mətbuat problemləri vətəndaş yanğısı, araşdırıcı-alim cəfakeşliyi, publisist sərtliyi, kəsərliliyi ilə incələnmişdir.

Milli istiqlala, Cümhuriyyət qurucularının ədəbi irsinə dair kitabların ərəb qrafikasından müasir əlifbaya transfoneliterasiya edilməsi, nəşrə ön sözün və şərhlərin yazılması hər zaman Şirməmməd müəllimin elmi fəaliyyətində ön sırada, üst qatda yer almışdır. Onun "Qurtuluş" jurnalının 1934-cü il xüsusi nömrəsi" (2008), "M.Ə.Rəsulzadə - Azərbaycanda milli hərəkat" (2009), "Ü.Hacıbəyli. Nəşrlərdən kənarda qoyulmuş mətbu əsərləri" (2009), "Ü.Hacıbəyli. Nəşrlərdən kənarda qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri" (2010), "M.Ə.Rəsulzadə. Bakı və Azərbaycan tarixinə dair əsərləri" (2013), "İstiqlal. 1918 - 28 mayıs - 1919" (2014) və b. kitablar vaxtikən nadirəyə çevrilmiş, yalnız Şirməmməd müəllimin fədakar zəhməti nəticəsində tapılıb üzə çıxarılaraq nəşrə hazırlanmış, müqəddimə, izahlar və lüğət yazılaraq sanballı tirajla çağdaş oxuculara, milli istiqlal sevdalılarına ünvanlanmışdır.

Xatırlayıram ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Cümhuriyyətinin birinci ildönümünə həsr edilmiş və 1919-cu il 28 mayda çap olunmuş "İstiqlal" məcmuəsi haqqında məlumatlı olsaq da, Azərbaycan arxivlərindən toplunu əldə etmək müşkül məsələyə çevrilmişdi. Türkiyəli araşdırmaçı dostların da, bu sahədə bizə yardım göstərməsi "kolay" deyildi. Ankarada 1991-ci il may ayında konfransda olduğum müddətdə ən zəngin kitabxanalarda apardığım araşdırmalar da nəticəsiz qalırdı... Budur, uzun illərin sorağında olduğum "İstiqlal" məcmuəsi... Professor bu toplunu əldə etməklə kifayətlənmir, onu müasir əlifbaya çevirərək 2014-cü ildə "Qanun" nəşriyyatında çap etdirir. Nəşrin dəyərli xüsusiyyətlərindən biri də odur ki, çapa hazırlayan topluda mətnin latın qrafikalı variantı ilə paralel ərəb əlifbalı faksimilesini də vermişdir. Məcmuədə "Azərbaycan istiqlalını mübəyyin əqdnamə"si, Ə.Cavadın "Milli bayrağımıza", "Qalx", Əli Yusifin "Bir Turan yolçusu diyor ki" şeirləri, M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", "Azərbaycan paytaxtı", Üzeyir Hacıbəylinin "Azərbaycan türklərinin musiqisi haqqında", Məhəmməd Ağaoğlunun "Azərbaycan", "Xalq ədəbiyyatı" və b. elmi-publisistik məqalələr yer almışdır.

Məcmuənin üz qabığında isə Şirməmməd müəllim məramını belə bəyan edir: "Məcmuə çoxminlik dövlətçilik tariximizdə ilk dəfə "Azərbaycan" adlı dövlətimizin bir yaşının tamam olması münasibətilə 1919-cu il Mayın 28-də işıq üzü görmüşdür. Cəmi 4 ildən sonra Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Müstəqil Cümhuriyyətimizdə bayram edəcəyik. Bu məcmuəni həmin yubileyə hazırlığın ilk töhfəsi hesab edin!"

Bəli, cümhuriyyət adamının istiqlal "marafonu" bir əsrlik müstəqillik bayramımızdan xeyli əvvəl, "İstiqlal" məcmuəsi ilə başlasa da, Azərbaycan Xalq Cümhuriyyətinin tədqiqi, tanıtımı və təbliği sahəsində bir hovur nəfəs dərmədən, maneələr qarşısında dayanmadan, vaxt itirmədən qarşısına qoyduğu ali məqsədin dərinliyi ilə ucalığı arasındakı zaman məsafəsinin mötəbər vəhdətinə çevrildi. Möhtəşəmliyi, mükəmməlliyi və əhəmiyyəti ilə heyrət doğuran, 2015-2017-ci illərdə "Qanun" nəşriyyatında çap edilən, ümumi həcmi 95 ç.v.-dən çox olan "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhləri" adlı üçcildlik kitab 1918-ci ilin noyabr ayından 1920-ci ilin aprelinədək fəaliyyət müddətində Azərbaycan Cümhuriyyətinin ideoloji istiqamətinin, quruculuq yolunun, dövlətçilik sisteminin, iş prinsiplərinin Parlament müstəvisində müzakirəsi, qərarların qəbu-

lu, daxili və xarici siyasət, ictimai-mədəni mühit haqqında dolğun təsəvvür yaradır. 443 saydan ibarət olan "Azərbaycan" qəzetinin səhifələrindən bu qədər materialın araşdırılıb toplanması, ərəb qrafikasından müasir əlifbaya çevrilməsi, geniş və ətraflı ön söz yazılması, zəngin lüğət tərtibi titanik zəhmət tələb etsə də, professor Şirməmməd Hüseynov bu ağır, eyni zamanda iftixar, qürur hissi doğuran işin öhdəsindən qeyrətlə, mətanətlə, ləyaqətlə gəlmişdir.

"Azərbaycan" qəzetində Parlament hesabatları və şərhləri" üçcildliyinin birinci cildi (Redaktorları: prof. Şamil Vəliyev, Samir Xalidoğlu, Bakı, "Qanun", 2016, 556 səh.) prof. Ş.Hüseynovun "Ön söz"ü ilə başlayır, Xəlil İbrahimin "Azərbaycan Parlamanı" yazısında Heyəti-Vükəla rəisi Fətəli xan Xoyskinin parlaman sədri Məhəmməd Əmin Rəsulzadəyə məktub yazaraq Məclisi Millinin vaxtının və yerinin müəyyənləşdirilməsinin və toplanmasına səy etməyin təmənnasında olduğunu vurğulayan informasiyalar yer almışdır. Rəsmi müraciətdən sonra M.Ə.Rəsulzadə Milli Şura üzvlərini 1918-ci il noyabr ayının 16-da Duma binasının (İndiki Bakı şəhər İcra Hakimiyyəti-A.R.) iclas zalına dəvət etdi. Milli Şura rəisi Bakıda keçirdikləri ilk iclasda xalqımızın keçdiyi mübarizə yoluna ümumi nəzər salaraq belə dəyərləndirirdi: "Azərbaycanlılar ... heç vəqt hürriyyət və istiqlaliyyət fikrindən ayrılmayaraq daima bu uğurda çalışmış, mübarizə eləmişlərdir. Rusiya çarizmi dövründə onların fəaliyyəti yalnız milli ədəbiyyat, milli məktəb, milli mədəniyyət mübarizəsində təzahür etmişdir".

Göründüyü kimi, M.Ə.Rəsulzadə Milli Şuranın beş aylıq fasilədən sonra növbəti iclasının açılışı zamanı yığcam və sanballı çıxışında "mənəm-mənəm"likdən ucada dayanaraq iki cümlə ilə ədəbiyyat, maarif və mədəniyyət xadimlərinin milli istiqlaliyyət uğrunda mübarizəsini haqlı olaraq xüsusi vurğulamış, onların haqlarını, xidmətlərini zərgər dəqiqliyi ilə yüksək dəyərləndirmişdir.

"Azərbaycan" qəzetinin səhifələrində Milli Şuranın iclas materialları yer almış, Parlamanın açılışı münasibətilə Üzeyir Hacıbəyli, Xəlil İbrahim, Fərhad Ağazadə, Əli Yusif, Hüseyn Mirzəcamalov və başqaları rəy və təkliflər bildirmiş, təbriklər öz əksini tapmışdır.

"Azərbaycan" qəzetində Parlament hesabatları və şərhləri" üçcildliyinin birinci cildinə 1918-ci il 10 noyabrdan 1919-cu il 12 mayadək olan dövrdə Cümhuriyyət Parlamentinin müzakirə etdiyi məsələlər, firqələrin müraciət və bəyanatları, görkəmli ziyalıların, ədiblərin, mədəniyyət xadimlərinin istiqlal ruhuna köklənmiş düşüncələri, baxışları, təəssüratları, ictimai-siyasi hadisələr haqqında şərhlər daxil edilmişdir.

Üçcildliyin ikinci cildi əvvəlkinin davamı olsa da, kitab professor Şirməmməd Hüseynovun ön sözü ilə açılır, M.Ə.Rəsulzadənin "Azərbaycan"ın birinci səneyi-davamiyyəsi", "Hadisələrin mənası", Ü.Hacıbəylinin "Dördgöz olmalıyıq" məqalələri toplunun istiqlal ruhuna uyğun, müqəddəs məramı ilə canlı vəhdət yaradan müqəddimələrdir. Topluda M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, N.Yusifbəyli, A.A.Ağaəlizadə, Ö.F.Nemanzadə (Ümidvar), X.İbrahim, Ə.Ağakişizadə, F.Ağazadə və b. məqalələri, şərhləri müasirliyi, aktuallığı ilə diqqət çəkir. İkinci cilddə yer alan materiallar içərisində Cümhuriyyətin bir illik yubileyi ilə əlaqədar "Azərbaycan" qəzetində Vükəla Şurası rəisi və Daxiliyyə naziri Nəsib bəy Yusifbəylinin "Azərbaycan vətəndaşlarına hökumətin müraciəti", Şeyxülislam, Axund Ağa Ağaəlizadənin "İstiqlaliyyət", Məhəmməd Əmin Rəsulzadənin "Nə böyük bayram", Üzeyir Hacıbəylinin "Bir yaş", İbrahim Xəlilin "Şərəfli bayram", Fərhad Ağazadənin "Türk şüarası və istiqlal", Əliabbas Müznibin "Azərbaycan istiqlalı", Əli Yusifin "Gənc nəslə", Şəfiqə Əfəndizadənin "Təşkilatın qadınlara təsiri", Ağababa Ağababazadənin "Milli bayram münasibətilə" və digər nəşr edilmiş məqalələr, düşüncələr, təəssüratlar şanlı tariximizə məhəbbət, milli dövlətçiliyə rəğbət və istiqlal məfkurəsinə sədaqət ruhunda qələmə alınaraq cümhuriyyət insanlarında işıqlı gələcəyə, nurlu sabahlara möhkəm inam və ilham aşılayırdı.

"Azərbaycan" qəzetində Parlament hesabatları və şərhləri" kitabının ikinci cildi Parlamanın 23 təşrini-əvvəl (oktyabr-A.R.) tarixli iclası və Ü.Hacıbəylinin "Əsassız tələb" adlı məqaləsi ilə bitir. Ali qanunverici orqanın 23 oktyabr tarixli iclasında "Mətbuat nizamnaməsi" haqqında məruzə Şəfi bəy Rüstəmbəyliyə həvalə edilmişdi. O, azad, hürr mətbuatın mahiyyəti barədə deyir: "...Mətbuat gərək hürr və sərbəst olsun... Bu layihənin əsası üzrə hər bir azərbaycanlının ixtiyarı var ki, məmləkətdə qəzetə çıxarsın, kitab təlif etsin və mətbəə açsın".

Azərbaycan xalqının istiqlala gedən yolunda mayaka, dan ulduzuna çevrilən, məramı uğrunda məhrumiyyətlərə, təpkilərə məruz qalan, lakin amalından, niyyətindən dönməyən milli mətbuatımızın hüquq və vəzifələrini özündə əks etdirən "Mətbuat nizamnaməsi" ilə söz və düşüncə azadlığının yeni hüquqi mərhələsinə qədəm qoyurdu. Parlaman təmsilçiləri bu qanun layihəsi ilə mətbuatı məmur özbaşınalığından xilas etməyin, azad fikrin intişarına təkan verməyin optimal yollarını arayırdılar.

"Azərbaycan" qəzetində Parlament hesabatları və şərhləri" kitabının yenicə çapdan çıxmış üçüncü cildində də ("Qanun" nəşriyyatı, 2017, 552 səh.) "Mətbuat nizamnaməsi" ciddi müzakirəsi davam etdirilmişdir.Azərbaycan Məclisi-Məbusanının (Parlamanında) 23-27 oktyabr 1919-cu il tarixində keçirdiyi iclaslarında Nəsib bəy Yusifbəyli, Səmədağa Ağamalıoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əliheydər Qarayev, Məhəmməd Əli Rəsulzadə, İbrahim Əbilov, Hacı Kərim Sanılı, Əsədulla Əhmədov, Abdulla bəy Əfəndizadə, Əhməd Cövdət və başqaları müzakirələrə qatılır, qanun layihəsi ikinci oxunuşdan sonra müəyyən dəyişiklərlə qəbul edilir. Kitabda Parlamanımızın bir illiyi münasibətilə "Azərbaycan" qəzetinin 1919-cu il 9 dekabr tarixli 340-cı sayında verilən məlumatda bildirilir ki, bir il ərzində Cümhuriyyətin ali qanunvericilik orqanı 104 iclas keçirmiş, 120-yə yaxın mühüm qərarlar qəbul olunmuşdur. O cümlədən, parlamana təqdim olunan qanun layihələrini sahələr üzrə nəzərdən keçirdikdə - maliyyə nəzarətindən 82-dən 55-i, ədliyyədən 31-dən 14-ü, daxiliyyədən 24-dən 14-ü, xariciyyədən 2-dən 1-i, səhiyyədən 6-dan 2-si, poçt və teleqrafdan 8-dən 5-i, hərbiyyədən 9-dan 7-si, maarifdən 19-dan 7-si və sair bəyənilmişdir. Məclisi-Məbusana bir il müddətində 205 qanun layihəsi daxil olmuş, onlardan 16-sı rədd edilmiş, 60-ı komissiyalarda araşdırılırdı. Ümumilikdə isə Azərbaycan Cümhuriyyətinin Parlamanı 17 aylıq fəaliyyəti dövründə 145 iclas keçirmiş, 270 qanun layihəsindən 200-ə yaxınını qəbul etmişdir.Mötəbər statistikanın qabartdığı bu rəqəmlər gənc Cümhuriyyət Parlamanı üzvlərinin qanun yaradıcılığı sahəsində təşəbbüskarlığını, fədakarlığını təcəssüm etdirən nümunəvi dəyərlər və meyarlardır.

"Azərbaycan" qəzetinin 1920-ci il 28 aprel tarixli sonuncu – 85-ci sayında Parlamanın 15 nisan (aprel) iclasında təsdiqlənmiş "İran-Azərbaycan müahidənamələrinin təsdiqi" adlı sənədin son müzakirəsi verilmişdir. Bu faktın özü də İranın Azərbaycana siyasi münasibətlərində tarixin bir ironiyasını xatırladır.

"Azərbaycan" qəzetində Parlament hesabatları və şərhləri" kitabının sonuncu cildində akademik, millət vəkili Nizami Cəfərovun "Professor Şirməmməd Hüseynova açıq məktub", millət vəkili Fazil Mustafanın "Təqaüdünü millətinə xərcləyən kişi", millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovun "İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü" adlı məqalələr də yer almışdır.

Cümhuriyyət dövrünün mühüm əhəmiyyət kəsb edən önəmli hadisələrini, tarixi şəxsiyyətlərin fikir və düşüncələrini, parlamandakı müzakirə və mübahisələri özündə əks etdirən materialları "Azərbaycan" qəzetinin səhifələrindən toplayıb ərəb qrafikasından müasir əlifbaya çevirərək hər cildinə ön söz, lüğət yazan "Şərəf" ordenli, professor Şirməmməd Hüseynov üçcildlik kitabı ilə Azərbaycan Xalq Cümhuriyyətinə Şərqdə ilk demokratik respublikanın 100 illik yubileyi ərəfəsində ən möhtəşəm və unudulmaz abidə ucaltdı. Onun vətənə, millətə və dövlətə böyük sevgisini, bariz fədakarlığını və mətin iradəsini təcəssüm etdirən "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhləri" adlı kitablarını bütövlükdə istiqlal dövrünün ensiklopediyası, ictimai-siyasi mühitin salnaməsi və müstəqilliyimizin tarix dərsliyi də adlandırmaq olar.

Əminliklə vurğulamaq istəyirəm ki, milli ruhunun yenilməzliyi, yaradıcılıq qüdrətinin sarsılmazlığı, istiqlal məfkurəsinə sədaqəti ilə tanınan, rəğbət qazanan Cümhuriyyət adamı, professor Şirməmməd Hüseynovun AXC Parlamanı və epoxası haqqında monumentallığı, əzəməti, möhtəşəmliyi ilə fərqlənən üçcildliyi istiqlalına, müstəqilliyinə yenidən qovuşmuş Azərbaycanın dövlət mükafatına təqdim olunmağa, titanik əməyi qədirşünaslıqla dəyərləndirilməyə layiqdir.

Asif RÜSTƏMLİ,
filologiya elmləri doktoru, professor
"525-ci qəzet", 2017, 7 iyun

"AZƏRBAYCAN"–*100*

"PİS KİŞİ" OLMAQDAN QORXMAYAN KİŞİ

Sovet hökuməti qəribə hökumət idi.

Hər yerdə pulsuz məktəblər, institut və universitetlər açaraq xalqı kütləvi surətdə savadlandırırdı. Amma ziyalını "sevmirdi". 37-ci ildə bütün müttəfiq respublikaların ziyalıları şərlənərək həbs və sürgün olundu, güllələndi...

Mətbuatı "milyonların tribunası" adlandırır, özünü "ən demokratik quruluş" sayırdı. Amma qəzet, jurnal, radio və televiziya "qlavlit" və "partiya nəzarəti" formasında ikiqat senzura tətbiq edirdi.

SSRİ-nin "qardaş xalqların könüllü ittifaqı" olduğundan hər zaman ağızdolusu danışılırdı. Amma bu 15 qardaşdan 14-nün bir vaxtlar müstəqil dövlət olduğunun xatırlanmasına yol verilmirdi, bütün millətlərin xoşbəxtliyinin məhz bu ittifaqa – "qırmızı imperiya"da olduğu daim "sübuta yetirilirdi".

Azərbaycanın 23 ay müstəqil dövlət kimi yaşadığı da hamıdan gizlədilir, bu barədə ictimai şəkildə danışılmasına qətiyyən yol verilmirdi. "Geridə qalmış, ucqar, kütləvi savadsızlığın" hökm sürdüyü bu ölkənin yalnız sovet hakimiyyətinin qələbəsindən sonra "xoşbəxtliy"ə, "ağ günlər"ə çıxdığı hamının beyninə yeridilirdi.

***

Başdan-başa "savadsızların yaşadığı ucqar və geridə qalmış bir ölkə" müstəqil dövlətini quraraq sərbəst şəkildə yaşaya bilərdimi? – Sanki bu sualdan o boyda superdövlət qorxurdu. Odur ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, onu quranlar, idarə edənlər, yaşadanlar barədəki bütün həqiqətlər arxivlərin qaranlıq küncündə, rəflərdə "məxfi" qrifi ilə gizlədilirdi.

Həmin dövrün salnaməsi və Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzeti də yasaq edilənlər cərgəsində idi. Hətta BDU-nun Jurnalistika fakültəsində "Rus jurnalistikası tarixi", "Kommunist partiyaları və fəhlə hərəkatı mətbuatı tarixi" adlı bir neçə semestri əhatə edən xüsusi fənlər keçirilsə belə, "Azərbaycan mətbuat tarixi" fənnində bu qəzet barədə bir 45 dəqiqə də olsa söhbət açılmırdı!

Sanki nə müstəqil dövlətimiz olub, nə də onun rəsmi mətbu orqanı!..

***

Şirməmməd Hüseynov "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovla

Şirməmməd Hüseynov "Azərbaycan" qəzeti redaksiyasında

Artıq arxivlərə "gün işığı" düşüb. Müstəqil Azərbaycan AXC-ni öz sələfi sayaraq yüz yaşını qeyd etməyə hazırlaşır. Dövlətimiz və xalqımız tarixi keçmişinə qürurla, qədirbilənliklə baxır, hörmətlə yanaşır. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" fərmanında tarix elmi qarşısında qoyduğu yeni vəzifələrə uyğun olaraq tariximiz olduğu kimi, "ağ ləkələr"dən təmizlənmiş şəkildə yenidən yazılır. Özümüzdə it-bata salındığından dünyanın hər yerindən yeni arxiv sənədləri gətirilir, bir vaxtlar beynimizə yeridilən "həqiqətlər"in puçluğu sübuta yetirilir!

"Günün tarixi"ni yazan qəzetlər illərdən sonra "illərin salnaməsi"nə çevrilir...

Bu mənada hər dövrün "ictimai arxivi" olan qəzetlər həmin dövrün hadisələrini, görülən işləri və şəxsiyyətləri öyrənmək baxımından qiymətli mənbədir. Təəssüf ki, bu gün bu mənbələr də bütün xalq üçün əlçatmazdır. Sovet dövründə iki dəfə dəyişdirilən əlifbamız əslində həm də tariximizdən ayrı salınmağımıza və saxlanılmağımıza xidmət edib. Bu gün XIX və XX əsrin əvvəllərində (ərəb əlifbası dəyişdirilənə qədər) nəşr olunan qəzetlər kütlə üçün "qapalıdır"! Ərəb hürufatını bilməyənlər həmin qəzetləri oxuya bilmirlər. Yalnız ayrı-ayrı alimlər, mətbuat tədqiqatçıları, "köhnə əlifba"nı müstəqil şəkildə öyrənənlər bu imkandan bəhrələnirlər.

***

Belə bir məqamda "Azərbaycan" qəzetini hamı üçün əlçatan edən tədqiqatçı-alimlərdən biri də, əslində elə birincisi də professor Şirməmməd Hüseynovdur.

Şirməmməd müəllim (onu belə çağırmağa adət etmişik) nadir təbiətli və xarakterli insanlardandır.

Onu sevməyənlərin sayı bəlkə də sevənlərin sayından çoxdur. Amma elə ki ürəkdə yurd salır, deməli, həmişəlik qalır. Tutaq ki, Qoqolu, Cəlil Məmmədquluzadəni, Mirzə Ələkbər Sabiri də ucdantutma hamı sevməyib. Amma onların vətənpərvərliyinə, dövlətinə, xalqına və millətinə sevgisinə kimsədə zərrə qədər də şübhə olubmu?! Qətiyyən! Bu mütəfəkkirlər onları sevməyənlərdən xalqa və millətə daha çox fayda və başucalığı gətiriblər. Tənbəlləri, savadsızları, yaltaqları, rüşvətxorları, ortada yeyib qıraqda gəzənləri Şirməmməd müəllim heç vaxt sevməyib!

Deməli, qarşı tərəflər də onu!

***

Tələbəlik dövründə eşitdiklərimdən:

Şirməmməd müəllimin tədris etdiyi fənn asan deyildi və özü də qiymətdə güzəştə getməzdi. Auditoriyada elan etdiyi prinsipi isə belə idi: əlimi kəsərəm, savadsız, biliksiz tələbəyə qiymət yazmaram! Bir dəfə dostlarından biri bacısı oğluna qiymət yazmasını ondan xahiş edir. Bacıoğlu imtahanda cavab verə bilmədiyindən kəsilir. Dostu giley-güzar edərək Şirməmməd müəllimdən inciyir.

Şirməmməd müəllim fakültədə həmin tələbənin yaxasından yapışaraq yoldaşlarının əhatəsində "Niyə dostumu məndən incik saldın?" deyə rüsvay edir!

Təhsildə tələbə-müəllim münasibətləri vacib məqamlardandır. Tələbə müəllimi sevəndə onun tədris etdiyi fənni daha yaxşı oxumağa çalışır. Müəllim isə özünü yalnız oxuduğu mühazirə ilə deyil, auditoriyanı idarəetmə qabiliyyəti, davranış mədəniyyəti və səmimiyyəti, digər təsiretmə imkanları ilə də sevdirə bilər. BDU-nun Jurnalistika fakültəsi bu məsələdə daim fərqlənib, tələbə-müəllim münasibətləri yaxınlığı, səmimiyyəti ilə diqqət çəkib. Jurnalistika fakültəsi bütün dövrlərdə kasıb, eyni zamanda təmiz fakültə sayılıb.

Tələbələr Şirməmməd müəllimdən həm çəkiniblər ("qorxublar" ifadəsini qəsdən işlətmirəm), həm də hörmət ediblər.

Çəkiniblər – çünki tələbkardır, güzəştə gedən deyil və danlamaq imkanını heç zaman əldən buraxmır!

Hörmət ediblər – savadına və dünyagörüşünə, ədalət və prinsipiallığına, mövqeyinə və sözü üzə şax demək xasiyyətinə görə!

Şirməmməd müəllim təkcə fənni üzrə bilik verməklə kifayətlənmir. Vətəndaş və vətənpərvər yetişdirməyə, dünyagörüşü verməyə, gənclərə təmizlik və düzlük aşılamağa çalışır.

Çünki bütün bunların hamısı özündə var. Sovet hökuməti böyük əksəriyyətini dəyişdi, hətta çoxunu ikiüzlü, rüşvətxor və karyerist etdi! Amma Şirməmməd müəllimə bata, onu dəyişə bilmədi!

Nə pul axtardı, nə vəzifə, nə də şan-şöhrət! Amma müəllim və alim adını yüksəltməyi, özünə və başqalarına qarşı güzəştsiz, mənən təmiz olmağı bacardı.

***

SSRİ-nin nəzarət və cəza sistemi var idi! N.Xruşşovun İttifaqa rəhbərliyindən sonra bir qədər yumşalma müşahidə olunsa da, bütövlükdə ictimai şəkildə, mətbuatda və televiziyada kommunizm ideologiyasına uyğun gəlməyən sözlər danışmaq, fikirlər səsləndirmək yenə təhlükəli sayılırdı və ciddi cəzalandırılırdı. Mətbuat və ədəbiyyat yalnız "sətiraltı ifadələr"lə bəzi fikirləri insanlara çatdırmağa çalışırdı. Lakin bunu da hər jurnalist, hər şair və yazıçı bacarmırdı. Üstəlik belə bir niyyət "odla oynamağı" xatırladırdı. Amma quruluş çat verirdi: iqtisadiyyat dağılır, xalqın vəziyyəti ağırlaşır, dövlətdə korrupsiya, rüşvətxorluq halları artır, müttəfiq respublikalar arasında ayrı-seçkilik güclənirdi. SSRİ ölkə daxilində vətəndaşlara "sülh göyərçini" qiyafəsində təqdim edilsə də, əslində "inqilab ixracı" ilə məşğul olur, Vyetnam və Əfqanıstan müharibəsində tərəf kimi iştirak edir, dövlətin sərvəti bu kimi lüzumsuz işlərə sərf olunurdu. Əsl həqiqətlər isə xalqdan gizlədilir, yaxud başqa cür təqdim olunurdu. AzTV-nin yeganə kanal olduğu həmin illərdə beynəlxalq məsələlərdən bəhs edən xüsusi veriliş vardı və orada tanınmış insanlar "siyasi icmalçı" kimi çıxış edərək SSRİ-nin beynəlxalq sahədə gördüyü işlərdən danışardılar. Məqsəd dünyada baş verənləri şərh etmək, kapitalizmi pisləmək, "kommunizmin ümumdünya qələbəsi"nə inam yaratmaq idi. Siyasi icmalçılar xüsusi bülletenlər oxuyur, əsl həqiqətlərdən xəbərdar olurdular. Ancaq onlar sovet quruluşuna sərf edənləri, yaxud bütün hadi-

sələri kommunizmin mədhinə yönəltməklə danışmalı idilər. Bu proqramın tamaşaçıları da çox idi. Şirməmməd müəllimin aparıcısı olduğu verilişlər daha maraqlı olardı. Çünki o, rəngarəng faktlar təqdim etməklə həm tamaşaçıları ələ almağı bacarırdı, həm də müəyyən həqiqətləri sızdırırdı.

Düz sözü söyləmək çətin olan zamanlarda da Şirməmməd müəllim doğru danışmağı bacarırdı!

***

Şəki yumoru, Şəki hazırcavablığı hamıya bəllidir (Hətta qabrovolulara da). Şəkinin bamәzə adamları ən ciddi məqamlarda belə yumorla danışmağı, duzlu-məzəli zarafatlar etməyi bacarırlar. Şirməmməd müəllim də elinə-obasına bağlı insandır...

... "Proletarların dahi rəhbəri V.İ.Lenin"in anadan olduğu gün SSRİ miqyasında bir ənənə kimi "qırmızı iməcilik"lə qeyd olunurdu. Tədbir adəti üzrə qeyri-iş gününə salındığından insanlar üzdə danışmasalar da, ürəkdə narazı qalırdılar. Həm də hər iməcilikdən sonra işləyənlərin bir günlük əmək haqqı tutularaq "Ümumittifaq fondu"na köçürülürdü. Bu da heç kimin xoşuna gəlmirdi.

Şirməmməd müəllim Jurnalistika fakültəsinin dekanı, mən isə komsomol təşkilat katibi idim. Bir gün məni çağıraraq: "Balası, bizi yuxarı binaya iclasa çağırıblar, gedək", – dedi (O zaman Jurnalistika fakültəsi indiki Əlyazmalar İnstitutunun yanında yerləşirdi).

İclas Leninin doğum günü münasibətilə şənbə günü keçiriləcək "qırmızı iməciliy"ə həsr olunmuşdu. Bütün fakültələrin dekanları, komsomol təşkilatı katibləri və universitet rəhbərliyi yığıncaqda iştirak edirdi. Rektor Faiq Bağırzadə, partkom Fəridə Sultanova, bir neçə prorektor və dekan çıxış edərək "böyük Leninin ideyaları"ndan, "iməciliyin siyasi əhəmiyyəti"ndən, onu yüksək səviyyədə keçirilməsinin vacibliyindən danışdılar. Sonda universitetin təsərrüfat hissə müdiri çıxış edərək təmizlik işlərinə və ağac əkininə gərək olacaq vasitələrin – kifayət qədər bel, xərək, pəncərə şüşələrini silmək üçün əsgi parçaları və əlli vedrə tədarük edildiyini bildirdi.

Ciddi və işgüzar ruhda keçən iclasa yekun vuran F.Bağırzadə "Sualı olan var?" – deyə zala müraciət etdi. Birinci cərgədə oturan Şirməmməd müəllim:

- O əlli vedrə nəyə gərəkdir? – deyə soruşdu.

Təsərrüfat hissə müdiri izahat verdi:

- Pəncərələri silmək üçün su gətirməyə, ağac gövdələrini ağartmaqdan ötrü əhəngli su düzəltməyə...

Şirməmməd müəllim sualının mənasını açdı:

- Elə bildim onları kimlərəsə bağlayacağıq!

Ümumi gülüşmə, ardınca atmacalar başladı.

Ciddi iclas lağlağı şəraitində başa çatdı...

Hamımız Şirməmməd müəllimin əslində nə dediyini dəqiq anlamışdıq...

***

Bu, Şirməmməd müəllimin mövcud quruluşa yumorla ilk "qiyməti" deyildi. Bəzən ehtiyatla da olsa daha kəskin formada danışar, baş verənlərə ayıq nəzərlərlə baxmağımızı istərdi.

Adətən Jurnalistika fakültəsinin məzunlarına iş yerinə göndərişi Mərkəzi Komitənin Təbliğat və Təşviqat şöbəsinin mətbuat sektoru verirdi. Beşinci kurs tələbələri hələ noyabr ayında sənədlərini hazırlayaraq dekanlığa təqdim edir, oradan isə MK-ya göndərirdilər.

Növbəti ilin mart ayında kimin harada işləyəcəyi məlum olurdu və dövlət imtahanını verib diplom müdafiəsindən sonra hərə öz iş yerinə yollanırdı.

Şirməmməd müəllim məni yanına çağırdı. Əlində bir vərəq vardı. Onu nəzərdən keçirib üzümə baxdı:

- Sizin təyinatdır. Baxıram, mərkəzi orqanlardakı boş yerlərə kiminsə adı yazılıb (O zaman belə təyinatlara – yerlərdən göndərilən "adlı təyinat"lara icazə verilirdi – B.S.). Sənlik bir şey yoxdur! Gərək özün başına çarə qılasan!

Vəziyyətin belə olacağını irəlicədən bilirdim. Amma yenə xoşagəlməz xəbər oldu. Tutuldum. Qəflətən Şirməmməd müəllim mənə məsələyə dəxli olmayan sual verdi:

- Heç Sabunçu vağzalında olmusan?

Təəccüblə üzünə baxdım. Bir şey anlamadım. Ehtiyatla cavab verdim:

- Bəli.

- Ordakı hambalları görmüsən?

Çaşıb bir qədər də ehtiyatlandım: "Xeyir ola, bu nə sualdı?"

- Bəli, görmüşəm.

Əlini ağzına bir şey atırmış kimi hərəkətlər edərək dedi:

- O hambalların heç bir perspektivləri yoxdur. Odur ki, əllərinə nə düşürsə, ağızlarına atırlar. Bu gün yuxarıda oturanların bir qismi həmin hambalların günündədir. Gərək inciməyəsən...

Hələ 1973-cü il idi. Heç bir dekan öz tələbəsi ilə belə açıq danışmazdı...

***

Ötən əsrin sonlarında Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazandı. Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu öndər Heydər Əliyev müstəqilliyimizi əbədi və dönməz etdi, AXC-nin aqibətinin təkrarlanmasına yol vermədi. Prezident İlham Əliyev 16 may 2017-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" xüsusi sərəncam imzalayıb. Bu əlamətdar tarixə xalqımız böyük həvəslə hazırlaşır. Alim və tarixçilərimiz Azərbaycan Xalq Cümhuriyyəti dövrünün araşdırılması, tarixi hadisələrin olduğu kimi qələmə alınaraq xalqa çatdırılması sahəsində səmərəli iş aparırlar. Həmin dövrün tədqiqatçılarından biri kimi professor Şirməmməd Hüseynov müntəzəm surətdə mətbuatda maraqlı yazılarla çıxış edir, bir sıra mühüm sənədləri və qəzet məqalələrini arxivlərdən çıxararaq geniş ictimaiyyətə təqdim edir. Onun hazırladığı "Azərbaycan" qəzetində parlament hesabatları və şərhləri" adlı üçcildlik kitab böyük maraqla qarşılanmış, AXC-nin rəsmi qəzeti "Azərbaycan"ın Məclisi-Məbusanla bağlı fəaliyyətinin bir qisminə işıq salmışdır. Tarixçi və mətbuat tədqiqatçısı kimi dövrün hadisələrinə, AXC-nin liderlərinin fəaliyyətinə yaxından bələd olan professor Şirməmməd Hüseynov onların müstəqil dövlət quruculuğu sahəsində gördükləri işləri obyektiv və səriştəli şəkildə işıqlandırmağa çalışır. O, həmin dövr mətbuatının dil və üslubuna, müasir oxuculara tanış olmayan sözlərin mənasına, ictimai-siyasi həyatdakı fikir çarpışmalarının mahiyyət və mənasına dərindən bələd olduğundan izah və şərhləri də daha dolğun və əhatəlidir.

Şirməmməd müəllim bu işə ürəyinin hökmü ilə girişib. Ona ad-san, mükafat lazım deyil! Sağ olsun Prezidentimiz, Şirməmməd müəllimə "Şərəf" ordeni də verib, Prezident təqaüdü də! Amma o, Prezident təqaüdünü neyləyir? Dövlətdən alır, kitaba çevirir, yenidən xalqa qaytarır!

Hər şeydən öncə əqidəsi var! Şirməmməd müəllim, necə deyərlər, papaq eləsəydi, kifayət qədər sponsor tapılardı. Amma o, ömrü boyu heç kimə boyun əyməyib, kimdənsə gözükölgəli olmayıb. Biz tələbələri olmuşuq, bilirik. Müəllimi ən yaxşı tələbəsi tanıyır. Şirməmməd müəllim heç bir qapı döyməyib. Bu kitaba görə də heç bir mükafat istəmir. Bilir ki, bu vətən də, bu millət də, bu dövlət də onundur.

Və bu gün də vətəninə, millətinə, dövlətinə xidmət edir.

***

Həyat əksəriyyətini dəyişir, amma çox az insan sırasında Şirməmməd müəllimə də gücü çatmadı!

Şirməmməd Hüseynov prinsiplə yaşayan insandır və çox xoşdur ki, onun prinsipləri dövlətçilik və azərbaycançılıq prinsipləri ilə üst-üstə düşür.

Şirməmməd Hüseynov tamahsız və təmənnasız insandır! Heç zaman heç bir addımı nəyəsə nail olmaq naminə atmır. Həmişə ağlı kəsəni edir.

Şirməmməd Hüseynov yarınmağı, kimisə, nəyisə boğazdan yuxarı tərifləməklə xoşa gəlməyi sevmir! Əksinə, həmişə tənqidə, irad tutmağa üstünlük verir. İstər tələbəsi olsun, istərsə də qeyrisi...

Şirməmməd Hüseynov həqiqəti üzə deyib, "pis kişi" sayılmaqdan qorxmur! Çünki həqiqət onunçün həmişə hər şeydən ucada dayanıb.

Nə yaxşı ki, hələ az da olsa düz danışıb, düz və təmiz iş görən kişilər qalıb!

Sevimli müəllimimiz Şirməmməd Hüseynov kimi!

Qoy bu yazı ona ad günü münasibətilə keçmiş tələbəsindən sürpriz-hədiyyə olsun!..

Bəxtiyar SADIQOV,
"Azərbaycan" qəzeti, 16 dekabr 2017-ci il

HƏMİŞƏ YAŞARLILIĞIN ŞƏRTİ VƏ SİRRİ

Böyük və qayğıkeş insan, mahir maarifçi, tələbkar pedaqoq, cəsarətli, cəfakeş və istedadlı alim, milli istiqlalın sevdalısı, həqiqətin və mənəvi dəyərlərin dayağı, əbədi müəllimim professor Şirməmməd Hüseynov haqqında az qala 50 illik tanışlığımızdan yaranan kitablıq xatirələrim var. Elə bilirəm ki, düz 28 il bundan əvvəl- Sovet imperiyasının dağılması və Azərbaycanın müstəqilliyinin bərpa olunması ərəfəsində pak əməlləri və sarsılmaz əqidəsi ilə cəmiyyətdə böyük nüfuz qazanmış Şirməmməd Hüseynovdan aldığım müsahibə onun fenomenal düşüncəsi, uzaqgörənliyi, arzu və istəkləri, dövrünün ən aktual problemləri barədə zəngin təəssürat yaradır. Odur ki, həmin müsahibəni oxucuların diqqətinə təqdim edirəm.

BİZ HARA GEDİRİK

Müsahibimiz siyasi icmalçı,
Bakı Dövlət Universitetinin professoru
Hüseynov Şirməmməd Ağaməmməd oğludur.

- Mümkünsə, bir neçə kəlmə ilə özünüzü oxucularımıza təqdim edin.

- Məmnuniyyətlə. 1924-cü ildə Şəkidə anadan olmuşam. 3 yaşında ikən atamı itirmişəm. Bakı Dövlət Universitetinin jurnalistika şöbəsini bitirdikdən sonra Moskvada aspiranturaya daxil olmuşam.1954 -cü ildə "1917-1918-ci illərdə Azərbaycan mətbuatı" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişəm. Həmin ildən Bakı Dövlət Universitetində pedaqoji və elmi fəaliyyətlə məşğulam. Jurnalistika fakültəsində təhsil alan tələbələr üçün yazdığım dərsliklərə, çoxillik elmi-pedaqoji fəaliyyətimə görə professor adına layiq görülmüşəm.

- Bilirik ki, durğunluq və ondan əvvəlki illərdə obyektiv çətinliklərə baxmayaraq, vicdanın səsi ilə işləmiş, tələbələrinizə əsl həqiqəti söyləməkdən çəkinməmisiniz.Bununla belə, yəqin siz də etiraf edərsiniz ki, illər boyu kommunist ideologiyasını təbliğ, təşviq edən minlərlə jurnalistin həyata vəsiqə alması üçün siz də xeyli zəhmət çəkmisiniz. Həyatınızın həmin illəri üçün təəssüflənmirsiniz ki?

- Bu suala birmənalı cavab vermək çətindir."Təəssüflənirəm" desəm, bu qeyri-obyektiv, qeyri-səmimi olar, bir az da dərinə getsəm, öz mənliyimə toxunar. Axı, acılı-şirinli həmin illərdə minlərlə tələbə ilə təmasda olmuş, rəsmi proqramdan əlavə, özümün yazılmamış proqramım ilə tələbələrimə həyat dərsi vermişəm. Bilirsiniz, mənim dünyagörüşüm, həyata baxışım iki zəmində formalaşıb. Biri məktəb mühiti, digəri ailə. Məktəb, istər şagirdkən, istər tələbə ikən kommunist ideallarına sədaqət ruhunda tərbiyələndirirdi. Ailəmizdə isə bəzəksiz, hay-küysüz mühit hökm sürürdü. Dayılarım cəmiyyətin iyrəncliyini bütün çılpaqlığı ilə söyləyir, nifrətlərini gizlətmirdilər. Onların sualları təbii ki, məni də düşündürürdü: Namuslu filankəsi gecə ikən niyə apardılar? Namussuz filankəs isə öz keyfindədir, niyə? Bir sözlə, ailəmiz qapalı, məhdud çərçivədə cəmiyyətin müxalif qüvvəsi idi. Bax, özüm də müəllim ikən çalışmışam ki, tələbələrim sərbəst düşünsün, ətrafda baş verən hadisələri açıq gözlə götür-qoy etsinlər, özləri düzgün nəticə çıxarsınlar.

Bir fakt deyəcəm. "İskra"-nı biz ilk partiya mətbuatı kimi tədris edirdik. Deməli, orada dərc olunan məqalələrə müraciət edə bilərdik.Mən qəsdən "İskra"nın 1901-ci il 13-cü nömrəsində çap olunmuş "Gürçüstanda rus süngüsünün 100 illiyi"məqaləsini tələbələrə açıqlayırdım. Bunu elə dövrdə edirdim ki, respublika hökuməti Azərbaycanın Rusiyaya birləşdirilməsinin ildönümü az qala milli bayram kimi qeyd edirdi. Məsləkdaşım, əqidə dostum Bəxtiyar Vahabzadə (yeri gəlmişkən, o da Universitetin proqramı ilə dərs deyirdi, eyni zamanda "Ana dili", "Latın dili" kimi şeirlərini də yazırdı) ilə məni də çoxları kimi 1986-cı il Alma-Ata hadisələri həm sarsıtdı, həm qəlbimizə işıq saldı: demək Sovetlər birliyindəki türk dünyası, hələ yaşayır, mübarizə aparır. Lakin Alma-Ata hadisələrinə münasibətimizi necə bildirək? Mən Bəxtiyara dedim ki, hadisə ilə ad günüm eyni vaxta-17 dekabra təsadüf edir. Şeiri ad günümə ithaf et və ürəyindən keçəni yaz. Beləliklə, "17 dekabr" şeiri meydana gəldi. Şeirin leytmotivi türk ruhunun yaşaması və ölməzliyidir. Auditoriyalarda da bu məzmunda söhbətlərimi, yəqin ki, tələbələrim də xatırlayır. Odur ki, universitetdə keçirdiyim illər üçün təəssüflənməyə dəyməz. Digər tərəfdən isə təəssüflənməmək də olmur. Tələb olunanları deməmək özünü yaşamaq imkanından məhrum etmək idi. Ürəyimizdə olanların hamısını isə çox vaxt söyləyə bilmirdik. Bu gün dönə-dönə müraciət etdiyim, sitatlar gətirdiyim mətbuat tariximizi, şübhəsiz, o vaxt indikindən yaxşı bilirdim. Amma susurdum. Bilirdim ki, tələbələrin arasında da Dövlət Təhlükəsizlik Komitəsinin agentləri var. Fikrimcə, bizim nəsil həm bədbəxt, həm də xoşbəxt nəsildir. Ona görə bədbəxtik ki, ömrümüzün böyük bir hissəsi Leninin təbirincə, "xalqlar dostluğu həbsxanasında", Qorbaçovun fikrincə, "bədbəxtliyə ortaq qardaşlar" cəmiyyətində, nəhayət, akademik Şmelyov demişkən, "dəlixanada" yaşamışıq. Xoşbəxtik, ona görə ki, xalqımızın qəddinin yavaş-yavaş düzəldiyi günləri də görürük. Azərbaycan Cümhuriyyətinin bərpasının şahidi və iştirakçısı olmaq əsl səadət deyilmi?

- Bir halda ki, söhbət Azərbaycan Cümhuriyyətinin bərpasından düşdü, zəhmət olmasa, deyin, sizcə, indi nə üçün Azərbaycan Respublikasını tanımırlar?

- Bunun bir neçə səbəbi var. Başlıcasını deyirəm. BMT-nin Nizamnaməsində hansı ölkələri müstəqil dövlət kimi tanımaq şərtləri yazılmışdır. Əlbəttə, ən əvvəl müstəqilliyini elan etmiş dövləti müstəmləkəçisi olduğu dövlət tanımalıdır, yəni onun razılığı olmalıdır. Bu razılıq isə iki yolla alınar: ya dinc yolla, ya da zorla. Bizdə necədir? Moskva kağızda hər şey, həqiqətdə isə az şey verir. Təkcə respublikaların xarici siyasətlərinə nəzər salmaq kifayətdir ki, mənzərə aydın gö-

rünsün. Baltikyanı ölkələr istisna olmaqla, keçmiş SSRİ-nin bütün respublikalarının rəhbərləri, məncə, xarici ölkələrə yalnız mərkəzin razılığı ilə gedə bilərlər. Eləcə də iqtisadi-maliyyə məsələləri Moskvasız mümkün deyil. Bir sözlə, Moskva əvvəlki imperiyanın cildini dəyişib saxlamaq istəyir.

- Sizcə, mərkəz bundan sonra respublikalara qarşı necə siyasət yeridəcək?

- Mərkəz bütün gücü ilə çalışacaq ki, respublikaların ağzını bir yerə bağlasın. Bu zaman yaratmaq istədiyi birliyə ya iqtisadi, ya hərbi, ya da suveren dövlətlərin ittifaqı deyəcək. Fəqət, imperiyanın dağılmamasına çalışacaqlar.

- Azərbaycanın bütün mənalarda müstəqilliyini özünün başlıca vəzifəsi hesab edən müxalifətə münasibətiniz necədir?

- Əvvəlcə, müxalifət anlayışının özünə münasibətimi bildirim. Təəssüflər ki, bizdə bəzən qüvvələr marksist- leninçi tərəzi ilə ölçülür, cəmiyyət təbəqələrə, siniflərə bölünür. "Bizimlə olmayanlar düşmənimizdir" – bu, çox təhlükəlidir. Xeyr, müxalifət düşmən sinif, təbəqə, qüvvə deyil. Yaxud, əksinə, hakimiyyətdə olanlara sinfi düşmən kimi baxmaq lazım deyil. Müxalifətin cəmiyyətdəki rolunu, mövqeyini müəyyənləşdirmək üçün uzağa yox, öz mətbuat tariximizə müraciət edək.

1917-ci ildə N.Nərimanov "Hümmət" qəzetinin birinci nömrəsini çapdan buraxır və baş məqalədə öz məramını elan edir. M.Rəsulzadə "Açıq söz"də"Tazə rəfiqimizi təbrik" adlı məqalə ilə çıxış edir və "Hümmət"i təbrik edir. Bununla belə, N.Nərimanovun baş məqalədə irəli sürdüyü tezislərə qarşı öz fikrini qoyur. Demək istədiyim odur ki, tərəflər öz proqramını əsaslandırmalı, inandırmalı, təmkinlə qəbul etdirməlidir. Yox, əgər sənin proqramın elmi şəkildə əsaslandırılmayıbsa, yaxud yarımçıqdırsa və mənə onu zorla qəbul etdirmək istəyirsənsə, bu, düzgün deyil. Bu o deməkdir ki, "bəy oğlusan, demək, köpək oğlusan". Bu gün bizdə vəziyyət necədir?

Əvvəlcədən deyim ki, məncə, müxalif qüvvələr hakim qüvvələrdən bir baş yuxarıdır. Bu, parlament iclaslarında özünü daha parlaq büruzə verir. Müxalif qüvvələr "Bizi hara aparırsınız?" – sualına qismən cavab verməyə hazırdırlar və cavab verirlər. Lakin nə prezident, nə baş nazirimiz xalqın "Biz hara gedirik?" – sualı qarşısında hələlik susurlar. Onlar nə öz proqramları, nə son məqsədləri, nə tutduqları yol barədə hələlik xalqa bütöv və açıq söz deməmişlər. Həyata keçirilən dəyişikliklər, islahatlar, qərarlar təzyiqlər, mitinqlər vasitəsilə olmuşdur.

- Sizcə, Dağlıq Qarabağ problemi necə yaranmışdır və onun həlli yolu hansıdır?

- Bu barədə lazım olduğundan çox danışılmış, deyilmişdir. Əgər kim hələ də Dağlıq Qarabağ münaqişəsinin səbəbini, həlli yolunu bilmirsə, deməli, ya özünü bilməməzliyə, görməməzliyə qoyur, yəni bunu qəsdən edir, ya da o, kənar planetdən gəlib. Bu belədir. Mənsə, başqa şey demək istəmirəm. Ömər Faiq Nemanzadə 1906-cı ildə "İrşad" qəzetində "Nə etməliyik?" məqaləsində yazırdı ki, ermənilər bizi öz təbii düşməni hesab edirlər. Təbii düşmənlə isə düşmən kimi rəftar etməyi bacarmalısan. Erməni milli faşizmi bizi bir xalq kimi tanımaq istəmir, bizi məhv etməyi qarşısına məqsəd qoyub. Bunu heç vaxt, hətta sülh zamanı unutmamalıyıq. Odur ki, hər bir azərbaycanlı doğularkən, onun qulağına, həm də

erməni zərbəsindən sayıqlıq duası oxunmalıdır: erməni səni təbii düşmən sayır.

- Bu gün sanki əksəriyyət latın əlifbasının tərəfdarıdır. Lakin ona doğru irəliləyiş yoxdur. Niyə?

- Çünki əlifba məsələsini siyasi oyuna çevirənlər var. Bəziləri üçün bu, vaxtı çatmamış məsələ, digərləri üçün zaman-zaman nüfuz qazanmaq vasitəsidir. Bir başqası üçün alternativ qoymaq alətidir:ərəb, yoxsa latın?! Bütün bunların arxasında əlifbaya qətiyyən dəxli olmayan niyyətlər, əməllər durur. Latın xalqımız üçün zərurətdir, kim bu nemətdən də sui-istifadə etmək istəyirsə, onun vicdanı təmiz deyil.

- Əvvəllər yaşı 100 olmayan KP-nin tarixinin tədrisinə az qala təhsil illərinin yarısı həsr olunurdu. Halbuki Azərbaycan tarixinə bir neçə saat vaxt ayrılır və ikinci növ fənn kimi öyrədilirdi. İndi vəziyyət necədir?

- Təhsil sisteminin ümumiyyətlə, köklü islahata ehtiyacı var. Sualınıza isə sevindirici cavab verə bilməyəcəyəm. İndi Kommunist Partiyasının tarixi öyrənilmir, eyni zamanda Azərbaycan tarixini də istənilən səviyyədə öyrətməyə kadr yoxdur.

- Sonuncu sualı verməyəcəm.Belə demək mümkünsə, deyilməyən suala cavab verin.

- Xalq hələlik siyasətçilərlə siyasətbazları yaxşı seçə bilmir. Odur ki, kim siyasətbazlıqla məşğul olub xal toplamaq istəyirsə, xalqa xəyanət edir. Gəlin bunu unutmayaq.

Müsahibəni apardı:

Abid TAHİRLİ

"Odlar yurdu" qəzeti,
№21 noyabr, 1991-ci il

MÜƏLLİM ADININ UCALIĞINDA

Hörmətli Şirməmməd Ağaməmməd oğlu Hüseynov!

Sizi – müasir Azərbaycan jurnalistlərinin müəllimi və ağsaqqalını anadan olmağınızın 80 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirik.

Siz hər vətəndaşa, hər jurnalistə örnək ola biləcək şərəfli ömür yolu keçmisiniz. Respublikanın ictimai-mədəni mətbu həyatındakı coşqun fəaliyyətiniz, elmi-pedaqoji sahədəki xidmətləriniz ən yüksək qiymətə layiqdir.

Çağdaş Azərbaycan mədəniyyətinin sütunları M.F.Axundov və H.Zərdabi, ictimai fikir və mətbuat tariximizin parlaq simaları Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Üzeyir bəy və Ceyhun bəy Hacıbəyli qardaşları, Cəlil Məmmədquluzadə, Haşım bəy Vəzirov kimi qələm və kəlam sahiblərinin irsi və idealları Sizin çağlayan, tükənməyən mənəvi qida mənbəyiniz olub.

Siz Sovet rejimi və ideologiyasının hakim olduğu illərdə milli-mənəvi dəyərlərin daşıyıcısı və gənc nəslə ötürücüsü idiniz. Tələbələriniz auditoriyalarda Sizin azadlıq eşqi ilə çırpınan qəlbinizin səsi ilə kursdan-kursa adlayırdılar. Bu gün həmin tələbələr müstəqil Azərbaycanın qurucuları sırasındadırlar və Sizinlə fəxr edirlər. Bu sözləri söyləyərkən jurnalistika fakültəsinə qəbul olunduğum 1980-ci ilin ilk tədris günü yadıma düşür. Dekan Şirməmməd müəllim auditoriyaya daxil olur, bizi salamlayır, təbrik edir və öz ilk tövsiyələrini verir: "Yeməyinizə, sağlamlığınıza fikir verin, idmanla məşğul olun. Bir də ki, özünüzü maşından qoruyun. İnanıram ki, bu mühit sizin əksəriyyətinizi yaxşı jurnalist, o da olmasa, ən azı yaxşı vətəndaş kimi yetişdirəcək". Siz mühit dedikdə, o vaxt bizə dərs deyən və bu gün haqq dünyasında olan Mir Cəlal Paşayev, Nəsir İmanquliyev, Qulu Xəlilov, Famil Mehdi, Nurəddin Babayev, Xəlil Əlimirzəyev, Seyfulla Əliyev, Tofiq Rüstəmli, Əli Nəbili kimi görkəmli elm, ədəbiyyat xadimlərinin, nüfuzlu pedaqoqların çalışdığı universitet həyatını nəzərdə tuturdunuz. Siz mühit dedikdə, bizə o vaxt dərs deyən və bu gün də Sizinlə çiyin-çiyinə çalışan Yalçın Əlizadə, Cahangir Məmmədli, Akif Rüstəmli, Nəsir Əhmədli kimi səriştəli, savadlı, tələbəni duyan, hiss edən, bütün varlığı ilə müəllim adını, şərəfini uca tutan pedaqoqları nəzərdə tuturdunuz. Bax, tələbələriniz Sizinlə fəxr edir dedikdə, bu sözləri, həm də Sizin timsalınızda bizə dərs demiş bütün müəllimlərimizə ünvanlayıram.

Hörmətli Şirməmməd müəllim! Biz əminik ki, doğma Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə bundan sonra da var qüvvənizlə çalışacaqsınız. Bu əlamətdar gündə Sizi bir daha təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

Sizin tələbəniz
Abid TAHİRLİ
"525-ci qəzet", 17 dekabr 2004-cü il

Solmaz Rüstəmova-TOHİDİ:

- Xarici səfərdəyəm. Qulu Məhərrəmli zəng vurub eşitdiyi ağır xəbərin düz olub-olmadığını soruşur. Özü də xaricdədir. Heç birimiz hələ baş verən itkimizin böyüklüyü, əvəzsizliyi haqda danışmırıq. Hər ikimizi Ustadla vidalaşmağın imkansızlığı üzür. Mən Fin sərhədini vaxtından əvvəl keçmək, Sankt-Peterburqa qayıdıb təyyarə ilə Bakıya uçmaq variantlarını araşdırıram. Heç bir halda mümkünlüyü yox. Mənimlə birgə olan həmkarlarım məni sakitləşdirməyə çalışır, bəlkə də bu imkansızlığın Ustadımın yadımda elə canlı qalmasının rəmzi olduğunu bildirirlər. Mənim də özümü bununla aldatmaqdan başqa çarəm qalmır.

İndiki halda hisslərimlə, fikirlərimlə bölüşməkdə qələmim acizdir. Ustadımı son dəfə mayın 28-də görmüşdüm. Cümhuriyyətin 101-ci yaşının təbrikinə gəlmişdim, həyətdə Əflatun Amaşovla rastlaşdıq. Birlikdə Ustadın evinə qalxdıq. Çox sevindi, həmişəki kimi gördüyü işlərdən, "525-ci qəzet"dəki son yazılarından danışdı, mənə İstiqlal gününün 1-ci ildönümünün Cümhuriyyət tərəfindən necə qeyd edildiyinə aid yazını bütünlüklə oxutdu. Hamımız çox təsirləndik! Bu bayramın 101 ildən sonra Müstəqilliyini bərpa etmiş, Cümhuriyyətin üçrəngli bayrağını qaldırmış Azərbaycanda qeyd edilməsindən, ziyalının, alimin, məmurun Vətən qarşısında borcu və sevgisindən söz açıldı. Müdrik fikirlər eşitdik. Onunla vidalaşarkən Ustad ayaqüstü öz dediklərinə sanki yekun vurmağa başladı. Ondan xahiş etdim ki, yenidən danışsın, yazmaq istəyirəm. Ürəyimə heç bir fikir-filan gəlməmişdi, sadəcə dedikləri Böyük Sözlər idi, indi məlum oldu ki, bizlərə Vəsiyyətidir!

Əlvida, Ustadım! Cisminlə vidalaşmaq mənə nəsib olmadı! Bircə təsəllim odur ki, bu gün ruhun Böyük Məhəmməd Əminin ruhu ilə qovuşacaq, Cümhuriyyətçilərin ruhu ilə danışacaq! Onlara Üçrəngli bayrağının bu gün bütün Azərbaycan üzərində dalğalandığını xəbər verəcəksən! Rəsulzadə irsini Vətən övladlarına qaytardığını bildirəcəksən. Cümhuriyyət xadimləri xatirəsinin, Cümhuriyyət fikrinin, Cümhuriyyət dəyərlərinin, Cümhuriyyət sevgisinin Azərbaycan gəncliyinin bütün qəlbinə hakim kəsildiyinə əmin edəcəksən! Bu işdə Sənin özünün – Cümhuriyyət ruhu daşıyıcısının şəxsi xidmətinin miqyasını o müdrik ruhlar özləri hiss edəcək.

Əlvida, əziz Müəllimim, yanında qəbahətimiz olubsa, bizi bağışla. Biz heç vaxt Sən ola bilməyəcəyik, Ustad! Amma Sənə layiq olmağa çalışacağıq.

Sənin get-gedə zəifləyən vücudunu qucaqlayanda, nuru sönməkdə olan gözlərini görəndə hər dəfə ürəyim qısılırdı, amma gümrah, əminlik dolu səsini eşidəndə dərhal sakitləşirdim. 95 yaşının yubiley tədbirlərinə dair fikirlərimiz vardı, bilirdin, bəyənirdin, amma gözləmədin!

Əbədiyyət dünyasına qənşər! Qəlbin rahat, ruhun şad olsun!

"525-ci qəzet", 26 iyun 2019-cu il

Qulu MƏHƏRRƏMLİ:

- Azərbaycan jurnalistikasının əfsanəsi, millət yaddaşının keşikçisi, böyük maarifçi-pedaqoq, mənəvi irsimizin, o cümlədən, Cümhuriyyət tarixi və İstiqlal mübarizəmizin, Rəsulzadə fenomeninin və mətbu irsimizin cəfakeş araşdırıcısı, görkəmli tədqiqatçısı-alim, professor Şirməmməd Hüseynov vəfat edib...

Bu acı xəbəri xarici ölkədə almaq ikiqat ağırdır. Dərdi bölüşməyə, itkinin və kədərin miqyasını anlatmağa kimsə yox... İki gün əvvəl özü xəstəxanadan mənə zəng etmişdi. Bir qəzet məqaləsinin adını dəqiqləşdirirdi. Bir saat sonra yenə zəngləşdik, ordan-burdan danışdıq və qorxa-qorxa səhhətini soruşdum. "Yaxşıyam, məndən nigaran qalma" – dedi. Amma çox nigaran qalmışdım. Ertəsi gün axşam bir də zəng etdim, telefonu qızı Fərəh xanım götürdü, ustadı soruşdum, "yaxşıdır" dedi. Amma onun qayğılı səsindəki övlad kədəri min kilometr uzaqdan belə duyulurdu...

Ş.Hüseynovun tarixi bir missiyası var idi və bu missiyanı şərəflə yerinə yetirdi. Milləti maarifləndirdi, milli düşüncəmizi, istiqlal duyğularımızı körüklədi, xalq olaraq hansı yolla gedəcəyimizi göstərdi. Yaxın keçmişimizlə mənəvi-ruhi əlaqəni bərpa etdi, bizə Cümhuriyyət dərsi keçdi. Qurucu babalarımızı tanıtdı, Rəsulzadənin üzərindəki qara qısqanclıq pərdəsini qaldırıb onu gün işığına çıxartdı, əsərlərini çap etdi, ideyalarına qol-qanad verdi, mətbu irsimizlə bağlı qiymətli kitablar yazdı.

Tamamlaya bilmədiyi işləri qalsa da, özündən sonrakılar üçün zəngin irs və mənalı yaşamaq örnəyi qoyub getdi. Həyatı və yaradıcılığı həqiqət, ləyaqət və vicdan üzərində qurulmuş Şirməmməd Hüseynovun vəfatı ilə mətbuat tariximizdə, jurnalistikamızda böyük bir epoxa sona yetir.

Əziz müəllimim, böyük ustad, Allah sənə rəhmət eləsin! Bu millət üçün etdiyiniz təmənnasız xidmətlər heç vaxt unudulmayacaq, yeriniz hər zaman görünəcək! Ruhun böyük Zərdabinin, Rəsulzadənin, Ağaoğlunun, Üzeyir bəyin müqəddəs ruhuna qovuşur. O gözəl ruhun şad olsun!

"525-ci qəzet",
26 iyun 2019-cu il, çərşənbə

BÖYÜK KİŞİLƏRİN ƏMƏLLƏRİ VƏ RUHLARI QARŞISINDA TƏZİMLƏ...

Solmaz TOHİDİ-RÜSTƏMOVA
Tarix elmləri doktoru

"...ON THE TABLE"

Bu gün əziz Ustadım Şirməmməd müəllimin vəfatından 40 gün ötür. Dəfninə gəlib çata bilməmişdim, birinci cümə axşamında ailəsi və yaxınları ilə axşam saat 11:00-a qədər oturduq. Şirməmməd müəllimin portreti qarşısında onunla bağlı xatirələrimdən söz açdım, onun mənim sadəcə müəllimim olmayıb, elmə gəlməyimdə müstəsna rol oynadığı ilə bağlı intriqalarla dolu hekayətimi eşidəndə, qızları bu əhvalatı mütləq bölüşməyi məsləhət gördülər. Yazımın başlığındakı ingiliscə ifadəni də onların təklifi ilə saxlayıram.

Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində oxuduğum elə birinci il Tələbə Elmi Cəmiyyətinin xətti ilə gənc jurnalist-tədqiqatçıların MDU Jurnalistika takültəsinin təşkilatçılığı ilə keçirilən ümumittifaq konfransında iştirak etmişdim. Elə həmin vaxtdan Moskva Dövlət Universitetində gördüyüm elmi-peşəkar mühit məndə öz təhsilimi mütləq Moskvada davam etdirmək kimi güclü bir arzu yaratmışdı. Qayıtdıqdan sonra bu arzumu səfərimizin yekunları ilə ciddi şəkildə maraqlanan fakültəmizin dekanı Şirməmməd müəllimlə bölüşmüşdüm və yəqin ki, elə o vaxtdan onun diqqətini çəkmişdim.

Belə ki, iki ildən sonra Moskvaya bir tələbə göndərmək imkanı yarananda Şirməmməd müəllim bu təklifi, deyəsən, ilk mənə etmişdi. Amma atam yaşımın azlığını bəhanə gətirərək, Moskvaya oxumağa getməyə icazə vermirdi, mənim inadım qarşısında, yəqin ki, öz fikrini yaxından tanıdığı Şurməmməd müəllimə də bildirmişdi. Çünki Şirməmməd müəllim nədənsə birdən fikrini dəyişmişdi və artıq üçüncü kursda oxuduğum halda bir il itirməyin məsləhət olmadığını, Moskvaya isə oğlan uşağı göndərməyi daha məqsədəuyğun saydığını demişdi. Zənnimcə, sonra o yerə bizdən bir kurs aşağı oxuyan Zeynal Məmmədov göndərildi.

Bununla belə, ilk arzum ürəyimdə möhkəm yer almışdı, mətbuat tarixinə və elmi tədqiqata da həvəsim Şirməmməd müəllimin unikal mühazirələri nəticəsində getdikcə artırdı. Bolşevik mətbuatı, dünya kommunist mətbuatı kurslarını tədris edən Şirməmməd müəllim elə müddəalarla danışırdı ki, sonda bir yığın suallar meydana çıxırdı. Bu suallara özümüz cavab tapmalı idik, hər halda mən məhz onun mühazirələrindən həvəslənərək, Leninin əsərləri vasitəsilə "xain Kautskinin" nəzərləri ilə tanış olur, partiya tarixi üzrə mütəxəssis olan tarixçi atamla bütün bu mövzularda maraqlı, bəzən də çox qızğın müzakirələrə girişirdim.



Beşinci kursda diplom işi üçün mövzu seçimimdə mərhum müəllimimiz, Azərbaycan mətbuatını tədris edən, alovlu, atəşin ruhlu, gur səsli, professor Qulu Xəlilov əsas rol oynadı. Şeyx Məhəmməd Xiyabaninin "Azərbaycan" məqaləsindən necə danışdısa, "Şeyx Məhəmməd Xiyabaninin publisistikası" mövzusunda diplom işi yazası oldum. Həcmi və məzmununa görə tələbə diplom işindən bir qədər fərqlənən bu ilk ciddi tədqiqatımın müdafiəsində kağızsız-filansız yarım saat çıxış etdim, suallara necə cavab verdimsə, Şirməmməd müəllimdən onun məşhur "Əla -ye, Əla!" qiymətini ilk dəfə eşitdim. Amma iş bununla bitmədi.

Fakültənin dekanı və İmtahan Komissiyasının sədri kimi Şirməmməd müəllim belə müdafiənin nə üçün nümunə olduğunu şərh edəndən sonra məni "aspiranturada saxlamaq" barədə qərarı iclasın protokoluna saldırdı. Lakin elə oradaca məlum oldu ki, jurnalistika fakültəsini hətta qırmızı diplomla bitirənlər də aspiranturaya yalnız iki il əmək stajı olandan sonra daxil ola bilərlər və bunun üçün yer ayrılmalıdır. Şirməmməd müəllim bunu biləndən sonra sözündən dönmədi, dərhal qərarda "aspiranturaya zəmanət verilsin" yazdırdı və elə həmin iclasda mənim bu iki ili hansı redaksiyada işləməyim məsələsini də həll etdi!

Beləcə, mənim jurnalist kimi əmək fəaliyyətim başladı. Lakin bu sahədə arzu və ümidlərim yavaş-yavaş boşa çıxırdı ki, bu, ayrıca mövzudur. Tələş içində idim, Moskvaya aspiranturaya getmək üçün yollar axtarırdım. Müəyyən səbəblərdən fakültəmizə getmək istəmirdim, atam da Moskva məsələsində mənə heç cür dəstək vermirdi.

Üç il keçdikdən sonra birdən fakültədən məni aradılar və nə üçün aspiranturaya elan üzrə sənəd vermədiyimi soruşdular. Məlum oldu ki, Şirməmməd müəllimin bilavasitə cəhdləri nəticəsində fakültəyə, nəhayət ki, bir aspirantura yeri ayrılıb, bu yeri Müəllimim mənim üçün nəzərdə tutub, indi isə başqa birisi gəlib sənəd verib, Şirməmməd müəllim bərk əsəbiləşib, çünki özü Moskvada uzunmüddətli elmi ezamiyyətdə olsa da, məsələni nəzarətdə saxlayır.

Bu xəbərin reallıqla üzləşdiyindən artıq ətrafındakı böyüklərə, hətta keçmiş müəllimlərinə inamı tükənən, nikbinliyi azalan, çıxış yolları daralan bir gənc üçün nə demək olduğunu təsəvvür etmək çətin deyil!

Təbii ki, dərhal sənədlərimi hazırlamağa başladım, amma iş yerimdən tələb olunan bir sənədin verilməsində əməlli-başlı əngəl yarandı. Vaxt keçir, sənədi ala bilmirdim, sənəd qəbulu üzrə müddətə üç gün qalmış fakültədən yenə zəng gəldi, Şirməmməd müəllim vəziyyətlə maraqlanırdı. Çarəsiz qalıb vəziyyəti dekanı əvəz edən, fakültə partiya təşkilatının rəhbəri, müəllimimiz olmuş Seyfulla Əliyevə danışdım, narahat oldu, sözügedən insanları tanıyırdı, özünün imkansız olduğunu, amma Şirməmməd müəllimə xəbər verəcəyini söylədi. Ertəsi gün səhər tezdən məsələni fakültə rəhbərliyinə çatdırdığım üçün üzüm xeyli danlanandan (?) son*ra, nəhayət ki, lazım olan sənədi aldım. Məlum oldu ki, Şirməmməd müəllim məsələni elə gecə ikən telefon vasitəsilə həll edib!*

Beləliklə, aspirantura macəralarımın ikinci mərhələsi başladı. Bir yerə iki nəfər sənəd vermişdik, "rəqibim" bizdən iki kurs yuxarı oxumuş, hazırda "Azərbaycan kommunisti" jurnalında işləyən Oktay adlı keçmiş tələbə yoldaşımız, sakit, mədəni oğlan idi. Bir-birimizə hörmətimiz vardı, eyni mərhələləri keçdiyimizdən, eyni imtahanları verdiyimizdən elə bir yerdə gedib-gəlirdik, lazım olanda bir-birimizə kömək də edirdik. Bu ünsiyyətimiz ətrafdakıları, müsabiqənin nəticələrini maraqla izləyənləri əməlli-başlı əyləndirirdi. Hərəmizin öz tərəfdarları vardı. Fakültənin bəzi rəhbərliyi Oktayın iş yerini nəzərə alaraq onun keçməsini arzulayırdı, amma Şirməmməd müəllimin rəyini bildiklərindən, qorxudan açıq bir söz demirdi. Üç imtahandan eyni qiymətlər alanda – ixtisas və fəlsəfədən "5", ingilis dilindən "4" – vəziyyət lap gərginləşdi. Müəllimlərimizdən hətta kimsə zarafatyana bir çıxış yolu da göstərmişdi: "Aspiranturaya oğlan girsin, qızı da alsın, hər ikisinin işi düzəlsin".

Mən artıq bu zarafatlara cavab verəsi halda deyildim, çünki vəziyyətin hara getdiyini görürdüm. Oktay, deyəsən, məsələsini daha yüksək səviyyədə həll edirdi və qərar qəbul olunandan xeyli əvvəl artıq məndən çəkinir, əlavə bir yer almaq imkanından danışır, darıxmağa səbəb olmadığını bildirir, gah da elmi işə həvəsi olmadığı, partiya işinə görə elmi dərəcə almaq məcburiyyətində olduğu kimi sözlərlə sanki özünə bəraət qazandırmaq istəyirdi...

Heç indi də anlamıram, bütün bunları gördüyüm halda mən kimə və nəyə arxayın idim?! Oktaydan cəmi bircə məsələdə üstün olduğumamı? Bu qədərmi sadəlövh idim?! Hər halda, seçim Oktayın xeyrinə həll olundu və o zaman keçirdiyim sarsıntını xatırlayanda hələ də özümə yazığım gəlir.

Bu vaxta qədər bu işlərə qarışmayan atam da elə bil ilk dəfə bu aspirantura məsələsinin mənim üçün nə qədər mühüm olduğunun fərqinə vardı. Amma indiki halda əlindən nə gəlirdi ki?! Az sonra hər şey aydınlaşmağa başladı. Deyəsən, elə həmin günlər Oktayın işlədiyi "Azərbaycan kommunisti" jurnalının baş redaktor müavini Müzəffər müəllim atama zəng edərək, bir qədər üzrxahlıqla məsələdən xəbərdar olduğunu bildirdi (Müzəffər müəllim atamla bir yerdə işləyən Klara xanımın həyat yoldaşı, Nazim və Rasim İmanovların atası idi, ailəvi xoş ünsiyyətimiz var idi). Müzəffər müəllimin dediyindən aydın oldu ki, Azərbaycan Kommunist Partiyası MK orqanı olan bu jurnalın rəhbərliyi ADU-nun

rektoruna müraciət edib, partiya kadrlarının elmi səviyyəsini yüksəltmək kimi səbəblərin aspiranturaya qəbul məsələsində nəzərə alınmasını xahiş edib, bir sözlə, qəbul vaxtı Oktaya üstünlük verilməsi barədə rəsmi məktubla çıxış edib. Eyni zamanda, Müzəffər müəllim atama məsləhət gördü ki, "qızı götürüb ADU-nun rektorunun qəbuluna getsin, məsələni şəxsən izah etsin, çünki bu məsələdə beləcə geri çəkilmək, heç bir addım atmamaq düzgün deyil".

Atam elə bil ürəkləndi və ertəsi gün birlikdə ADU-nun rektoru Faiq Bağırzadənin qəbuluna getdik. Yadımdadır, çox asanlıqla qəbula düşdük, atam özünü təqdim etdi, məsələni danışdı. Tanıyanlar bilir ki, çox çılğın və mürəkkəb xasiyyəti, bəzən gözlənilməz reaksiyası ilə məşhur olan Faiq müəllim atamı çox diqqətlə dinlədi, onun və mənim Tohidi soyadımıza maraq göstərdi, sonra "Sizinlə açıq danışacağam, Əli müəllim, siz də ziyalısınız, siyasət adamısınız, partiya göstərişlərinin mühümlüyü barədə sizə əlavə nəsə deməyə ehtiyac yoxdur. Mətbuat işi sırf siyasi işdir, odur ki, aspiranturaya qəbul zamanı bərabər şərtlər daxilində Oktay Məmmədovun Respublika Partiya orqanında işlədiyi üstünlük kimi nəzərə alınıb".

Bu yerdə mən, yanpörtü oturmuş atamın arxasından "Mənim işlədiyim qəzet də Bakı şəhər partiya komitəsinin orqanıdır", – dedim.

Faiq müəllim heyrətlə boylanaraq mənə baxdı, söhbətə qarışacağımı heç gözləmirdi, amma artıq cavab verməli idi: "Onun səndən daha bir üstünlüyü var: O, kommunistdir".

Mən: "Bu üstünlük vəzifəyə gedəndə nəzərə alınmalıdır, elmə gələndə yox. Bu məsələdə isə mənim ondan bir üstünlüyüm var: Mən universiteti fərqlənmə diplomu ilə bitirmişəm! İndiki halda bu fərq nəzərə alınmırsa, aspiranturaya qəbul zamanı fərqlənmə diplomu yox, partiya bileti əsas götürülürsə, bu diplom daha harada mənə lazım ola bilər?!"

Birnəfəsə dediyim bu sözlərdən Faiq müəllim də, elə atam da sanki bir anlıq özlərini itirdilər. Faiq müəllim diqqətlə üzümə baxdı, sonra birdən dedi:

- İngiliscə de görüm: stolun üstündə bir neçə kitab və dəftər var.

Bu gözlənilməz sualdan indi mən heyrətləndim və ilk nəzərimə çarpan atamın qulaqlarının və boynunun birdən-birə qızarması oldu. Lakin özümü tez ələ aldım və beşinci sinif səviyyəsində olan bu cümləni dərhal tərcümə etdim:

- There are several books and copybooks on the table.

Faiq müəllim üzündə elə bil heyrətqarışıq təbəssümlə: - "Yes.... on the table...", – dedi. Sonra daha bir sadə cümlənin tərcüməsini soruşdu, cavab alandan sonra üzünü atama tutaraq:

- Əli müəllim, o oğlanın əmri artıq imzalanıb, siyahılar divardadır. Vəziyyəti dəyişmək mümkün deyil. Amma Mən sizə Kişi kimi söz verirəm ki, bu qız üçün nazirlikdən əlavə yer alacağam. Mən rektor kimi özüm də çox maraqlıyam ki, belə savadlı, hazırlıqlı gənclər elmə gəlsin.

Atam ayağa qalxdı, Faiq müəllimə bizi qəbul etdiyinə görə təşəkkür elədi və onun vədinə inandığını bildirdi. Sonra iti addımlarla rektorun kabinetindən, daha sonra binadan çıxdı. Mən onun arxasınca az qala qaçmalı olurdum. Atam yalnız universitetin həyətində ayaq saxladı və mənə tərəf dönərək: "Əgər o suallara cavab verməsəydin, mən orda xəcalətdən ölməli idim", – dedi.

O zaman atamın belə bir vəziyyətdə məni deyil, özünü düşündüyünü fikirləşərək, az qala inciyəcəkdim. Amma sonrakı sözlərindən atamın ilk dəfə mənim qabağımda öz köməksizliyindən nə qədər pərişan olduğunu hiss etdim:

- Qızım, mən bu məmləkətdə qərib bir adamam. Bundan artıq sənin üçün heç nə edə bilmirəm. Gözləyək, dedi ki, "Kişi kimi söz verirəm". Bəlkə, elə, doğrudan, sözünün üstündə durdu".

Mən onsuz da Faiq müəllimin vədindən ruhlanmamışdım, atamın bu "bəlkə" ehtimalı isə lap ümidimi qırdı.

Az sonra məlum oldu ki, Şirməmməd müəllim bu məsələdə dekanlığın mövqeyini – yəni mənim namizədliyimi müdafiə etməyi – rektorluğa çatdırmadığı üçün fakültə rəhbərliyinə irad tutanda da bu işə Mərkəzi Komitənin qarışdığını əsas səbəb gətiriblər.

Beləliklə, mənim üçün artıq məsələ bitmişdi. Yenidən işə qayıtmalı, ayrılmağa qərar verdiyim gündəlik redaksiya həyatına dönməli idim... Bu gerçəklik məni olduqca üzürdü. Aspirantura mənim üçün, sadəcə, elmlə məşğul olmaq imkanı deyildi. 3-4 illik jurnalist fəaliyyətindən sonra elm mənə ilk növbədə az-çox öz mövqeyini qorumaq, yazılarında, fikirlərində nisbətən müstəqil olmaq, daha ciddi və gələcəyə ünvanlanmış işlər görmək və nəhayət, Moskva Universitetinə aparan bir yol idi... İndi bütün bu arzular, planlar arxada qalırdı. Şirməmməd müəllimin də etimadını doğrultmamışdım, ingilis dilindən beş alsaydım, bəlkə, belə problemlər olmazdı, deyə özümü danlayır, əzab çəkirdim.

Xəbərim yox idi ki, hələ aspirantura macərası bitməyib və ingilis dili "imtahanı" da öz işini bundan sonra görəcək...

Faiq müəllimlə görüşdən 4-5 gün keçmişdi, universitetdə işləyən və bütün bu əhvalatın fəal müşahidəçilərindən olan bir rəfiqəm mənə zəng etdi və oynaq bir səslə "Daha biz tərəflərə (universitetə) gəlmirsən?", – soruşdu. Mənim həvəssiz cavablarıma onun israrla, "dur bir gəl, siyahılara bax, bəlkə, hələ mənə muştuluq verəsi oldun", – sözlərindən sonra Universitetə getdim və Aspiranturaya qəbul olunanların siyahısına baxanda gözlərimə inanmadım. Yazı maşınında yığılmış siyahının sonunda Oktayın adı pozulub, əl ilə mənim adım yazılmışdı!

Dərhal Aspirantura şöbəsinə getdim və məlum oldu ki, bizimlə görüşdən iki gün sonra Faiq müəllim Oktayı çağırtdırıb, onunla söhbət edib və birdən ona da "Stolun üstündə bir neçə kitab-dəftər var" cümləsini ingiliscə deməyi təklif edib. Oktay cavab verə bilməyəndə Faiq müəllim Aspirantura şöbəsinin müdirinə deyib ki, "get, o siyahıdan bunun adını sil, o qızın adını yaz!"

Aspirantura şöbəsinin müdiri nəsə demək istəyəndə, onun sözünü kəsib və daha sərt səslə bir də həmin əmrini təkrar edib. Bax belə!

Bu əmrin tək mənim həyatımı deyil, həm də çox-çox insanların ədalət, insaf, düzlük və "Kişi sözü" kimi anlayışlar barədə fikrini dəyişdiyinin özüm dəfələrlə şahidi olmuşam.

Mən isə həmin əmr qüvvəyə minən kimi dərhal işdən çıxdım, az sonra Moskvaya getdim, Lomonosov adına MDU-nun Jurnalistika fakültəsinin əfsanəvi dekanı Yasen Nikolayeviç Zasurskinin həm də müdiri olduğu Xarici ölkələr mətbuatı kafedrasında üç əlavə minimum verərək, ixtisasımı tarixə dəyişdim, (bizim univetsitetdə jurnalistikaya yer yalnız filologiya ixtisası üzrə verilirdi). Daha sonra elə həmin fakültənin elmi şurasmda İran mətbuatı tarixindən namizədlik dissertasiyası müdafiə edərək, Bakıya qayıtdım. Təbii ki, bütün bu illərdə Şirməmməd müəllimlə əlaqə saxlayırdım. Diplomumu alandan sonra Müəllimim məni fakültəyə çağırdı, Moskva diplomunu göstərərək, kafedrada olan müəllimlərdən "o oğlanın müdafiə edib-etmədiyini" soruşdu və hələ bir xəbər olmadığını eşidəndə qalibanə nəzərlərlə bir-bir hamının üzünə baxdı...

İndi bu sətirləri yazıram və Şirməmməd müəllimin həmin surəti gözlərim önünə gəlir, göz yaşlarımı saxlaya bilmirəm. Əziz Müəllimim, Ustadım, verdiyi sözə əməl edən Böyük Kişi!

Elmə yolumu açmaqla yanaşı, öz əməli ilə şəxsiyyətimi də möhkəmləndirən, məni sınmağa, inamımı sönməyə, ruhumu ölməyə qoymayan Nəhəng İnsan!

Bu aspirantura hekayətimlə o bəyənmədiyimiz Sovet gerçəkliyində Böyük Kişilərin varlığını göstərmək istədim.

Sıravi bir diplom müdafiəsində hansısa bir işartı gördüyü tələbəsinə verdiyi sözə əməl edən Müəllim – Şirməmməd Hüseynov...

Ədalət hissindən çıxış edərək, Mərkəzi Komitənin məktubuna əhəmiyyət verməyən və öz əmrini ləğv edən Rektor – Faiq Bağırzadə...

Sonralar, elmi taleyimdə daha bir belə Böyük Kişi həlledici rol oynayacaqdı – Ziya Bünyadov...

Bu İnsanlar öz nümunələri ilə ən ümidsiz, ən ədalətsiz bildiyimiz şəraitdə belə Haqqın varlığını sübut ediblər və bununla da Örnək olublar.

Bu gün onların bənzəri varmı?.. Onlara nə dərəcədə layiq ola bilmişik?!

"Çapar" dərgisi, 2019, №5,6

CƏDVƏLƏ DÜŞMƏYƏN DƏRS

Dostlarımın çoxuyla ilk tanışlığım Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) oxuyarkən olub. Xasiyyətimiz tutur, sözümüz-söhbətimiz düz gəlirdi. Tezliklə mehribanlaşdıq. Bir vaxt gördük ki, özumüz də bilmadən əməlli-başlı dostlaşmışıq.

Biz təhsilimizi 50-ci illərdə başa çatdırmışıq. Respublikamızın hər tərəfinə səpələnmişik. Amma gözdən uzaqlaşsaq da heç vaxt könüldən uzaq olmamışıq. Münasibətlərimiz öz təravətini itirməyib. Əlaqələrimiz davam eləyir. Mümkün olduqca, tez-tez görüşürük. Şirin-şirin söhbətlər eləyib xoş günlər, saatlar keçiririk. Fikrən 35–40 il əvvəllərə qayıdırıq, tələbəlik illərini hökmən dönə-dönə yada salırıq, gah sevinclə, gah həsrətlə xatırlayırıq. Axı, o dövr ömrümüzün ən haylı-haraylı, çal-çağırlı vaxtlarıydı. Həyat eşqi çox güclüydü. Bu eşq bizi dolğun yaşamağa, insan adını ləyaqətlə daşımağa çağırırdı.

Təhsil illərində işlərimizin hər babətdən uğurla getməsi təkcə öz hünərimiz deyildi. Hər səmərəli addımımız həm də müəllimlərimizin məhsuldar fəaliyyətinin bəhrələriydi. Axı bizim təhsilə və həyat hadisələrinə münasibətimizin formalaşmasında onların iştirakı tutarlıydı. O zaman ADU-da dərs deyən müəllimlər respublikamızın ən görkəmli, ən istedadlı alimləri sırasında addımlayırdılar. Məmməd Arif Dadaşzadə, Əzəl Daşdəmirov, Yusif Məmmədəliyev, Mircəlal Paşayev, Bəxtiyar Vahabzadə, Əziz Əfəndiyev, Həsən Şahgəldiyev, Seyfulla Əliyev, Səidə İmanova, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Feyzulla Qasımzadə, Cəfər Xəndan, Xəlil Əlimirzəyev və onlarca başqa dərin zəka sahibləri bizə son dərəcə maraqlı mühazirə oxuyur, canlı seminar məşğələləri keçirdilər. Biz bilirdik ki, müəllimlərimizin çoxu əsl elm fədaisiydi, onların apardığı tədqiqat işləri dərin və əhəmiyyətliydi. Eyni zamanda hiss eləyirdik ki, hər birinin insanlığı alimliyindən çox-çox yüksək və irəliydi. Onlar el arasında deyildiyi kimi, aydan arı, sudan duruydular. Gözü-könlü tox, qəlbi-əli təmiz adamlardı. Pedaqoji fəaliyyətdə onların yalnız bir məqsədi vardı: tələbələri böyük həyata, böyük milli vəzifələri yerinə yetirməyə hazırlamaq! Başqa bir təmənnaları yoxdu. Qəbul, sessiya və dövlət imtahanları günlərində nə valideynlərlə sövdələşir, nə də artıq-əskik qiymətlər yazırdılar. "Əsl meyar bilikdir!" sözləri onda şüar yox, real gerçəklikdi. Məhz buna görə də müəllim-tələbə münasibətlərində bir billurluq vardı. Hamı bir-birinin üzünə dik baxa bilirdi. Bu saflığın qədir-qiymətini biz illər keçdikcə, təhsil sistemində indi baş verən eybəcərliklər barədə eşitdikcə daha yüksək tuturuq. Müəllimlərimizi də çox tez-tez fərəhlə, qürurla xatırlayırıq. Şirməmməd Hüseynov daha çox yadımıza düşür.

O, ali təhsilini başa çatdırdıqdan sonra aspiranturada oxuyub dissertasiya müdafiə eləmiş və tarix elmləri namizədi alimlik dərəcəsi almışdı. Pedaqoji fəaliyyətətə universitetin filologiya fakültəsinin jurnalistika şöbəsində başlamışdı. O zaman mən də həmin şöbədə təhsil alırdım.

Tələbələrin qəribə bir adəti var: təzə müəllimi elə hey öyrənməyə çalışır, onun qırımını yoxlayırlar. Jurnalistika şöbəsində oxuyanlar da o zaman Şirməmməd müəllimi diqqətlə dinləyir, ona hər cəhətdən maraq göstərirdilər. İlk təəssürat yaxşıydı. O, orta boylu, qara, qıvrım saçlı, şahin baxışlı, mülayim, aydın tələffüzlü bir kişiydi. Səsində azacıq cingilti vardı. Çöhrəsində təbəssüm və ciddilik bir-birini çox tez-tez əvəz eləyirdi. Boş danışıqdan xoşu gəlmirdi. Hər yerdə, hər şəraitdə yalnız ən vacib məsələlərdən danışığa meyl eləyirdi. Bildiklərini ətrafındakılara, xüsusən tələbələrə öyrətməyə çalışırdı. Bildikləri isə hədsiz çoxdu. Hiss eləyirdik ki, onun mütaliəsi sistemli, planlı, əhatəli və səmərəlidir. Təkcə oz ixtisası, elmi işi üzrə lazımi ədəbiyyatı oxumaqla kifayətlənmirdi. Humanitar elmlərin bütün sahələri üzrə biliyini daim zənginləşdirirdi. Elə buna görə də mühazirələri, söhbətləri son dərəcə maraqlı, təsirli, canlı olurdu. Auditoriyanın diqqəti yayınmırdı.

Şirməmməd Hüseynov universitetin yaşlı müəllimlər nəslinin ənənələrini ardıcıl davam elətdirirdi. Lakin özünəməxsus iş təcrübəsi də vardı. Misal üçün o, mühaziräni oxumurdu, yalnız söyləyirdi. İbarəli ifadələrdən, təmtəraqlı, gurultulu cümlələrdən qaçır, mühazirə mətnini kənara qoyaraq ən sadə, anlaşıqlı bir dildə danışırdı. Əsas diqqətini tələbələrə elm öyrətməyə yox, tələbələrdə elm öyrənməyə maraq oyatmağa yönəldirdi. Öz dinləyicilərinin qəlbinə dərin bilik almaq qığılcımı salırdı.

Mühazirə oxumaq qaydalarını düşünülmüş surətdə tez-tez pozurdu. Bir də görürdün ki, mətndən kənara çıxır, mövzudan xeyli uzaqlaşırdı. Keçirdi respublikamızda, ölkədə və planetimizdə baş verən əsas hadisələrdən danışmağa. Başlayırdı həyatın irəli sürdüyü ən kəskin suallara cavab verməyə. Çalışırdı ki, hər birimizdə milli qeyrət hissini gücləndirsin. Məsələn, Fransa, yaxud İspaniya kommunist mətbuatından danışanda bəzən söhbəti hərləyib-fırlayıb yönəldirdi Azərbaycan mətbuatı tarixinə tərəf. O zamanlar mürtəce hesab olunan qəzet və jurnallar, burjuaziya ziyalısı adıyla damğalanan mütərəqqi fikirli böyük şəxsiyyətlər barədə yana-yana söhbət açırdı.

Aydınca anlayırdıq ki, o bizi təkcə yaxşı jurnalist kimi yetişdirməklə işini bitmiş hesab eləmək istəmirdi. Şirməmməd müəllim öz tələbələrini həmişə mənalı və ləyaqətli yaşamağa, namuslu və qeyrətli olmağa, sevinci və çətinlikləri mərdanə qarşılamağa, nadanlıq və cəhalətdən xilas olmağa, siyasi naşılıqdan yaxa qurtarmağa, boş təbliğata uymamağa, hər şeyə açıq gözlə, sağlam düşüncəylə baxmağa hazırlayırdı. O zamanlar jurnalistika şöbəsində tədris olunan fənlərdən biri dərs cədvəlinə düşmür, rəsmi qeydiyyata alınmırdı. Biz bunu həyat fənni adlandırırdıq. Faktiki mövcud olan həmin fənni Şirməmməd Hüseynov deyirdi. O, əsl həyat müəllimiydi.

Tələbələr onu çox sevirdilər. Ali təhsili başa çatdırdığımız fərəhli dövrdə ürəyimizdən dalğa-dalğa gizli bir kədər də keçirdi. Səmimi surətdə müqəddəs hesab elədiyimiz müəllimlərdən, xüsusən Şirməmməd Hüseynovdan ayrılmağımıza heyfsilənirdik.

- Bir də onun söhbətlərinə qulaq asmayacaq, mühazirələrini eşitməyəçəyik, – deyib qəmlənirdik. Sadəlövhlüklə səhv elədiyimizi sonralar başa düşdük. Sən demə, o, bizim üçün daim müəllim olaraq qalırdı. Axı, o, altmışıncı illərdə radio ilə (onda televiziya hələ lazımınca inkişaf eləməmişdi) vaxtaşırı çıxış eləyib ən yeni, əhəmiyyətli beynəlxalq hadisələrin şərhini verirdi. Tez-tez əmək kollektivlərinə gedib respublika "Bilik" cəmiyyətinin mühazirəçisi kimi söhbət aparırdı. Azərbaycan milli demokratik mətbuatının açılmamış səhifələrinin tədqiqatıyla məşğul olur, əldə elədiyi nəticələri kitab və qəzet oxucularına çatdırırdı.

Bir vaxtlar Şirməmməd müəllim universitetin qəbul komissiyasında məsul vəzifə sahibiydi. Öz səlahiyyətlərindən qeyrətlə İstifadə eləyirdi: universitetə yalnız istedadlı abituriyentlərin qəbul edilməsinə çalışırdı. Möhtəkirlərə, vicdan dəllallarına qarşı amansız mövqe tuturdu. Onun qətiyyətli hərəkətlərini bütün respublika alqışlayırdı. Biz məzunlar isə böyük heyranlıqla daha çox fərəhlənirdik. Öz aramızda deyirdik ki, bəzi ziyalıların mənəvi təmizliyi südə bənzəyir, içərisinə bir zərrə çirk düşən kimi çürüyür. Şirməmməd müəllimin vicdanı isə pas tutmayan metal kimidir, bütün vəziyyətlərdə saf və parlaq qalır.

1985-ci ildən sonra alimlərin və yaradıcı ziyalıların potensial gücünün hərəkətə gəlib səmərə verməsi üçün geniş imkanlar yarandı. Lakin onların çoxu həmin imkanlardan istifadə eləməyə hazır deyildir. Qəti hərəkətlər vaxtı bəziləri çaşbaş düşür, bəziləri aydın bir mövqe tuta bilmir, bəziləri də qatı mühafizəkarlıq eləyirdilər. Bununla belə, keyfiyyətcə yeni şəraitdə öz istedadını, elmi-nəzəri hazırlığını böyuk milli problemlərin həllinə bir an da yubanmadan istiqamətləndirməyə bacaranlar da vardı. Şirməmməd müəllim onların ön sırasındaydı. O, milli demokratik mətbuat tarixinin tədqiqatını dərhal intensivləşdirdi. Böyük demokrat, siyasi xadim və alovlu publisist Məmməd Əmin Rəsulzadənin əsərlərinin dördcildliyini (geniş şərhlər və izahatlarla) çapa hazızlamaq kimi çox gərgin bir işə girişdi. Birinci cild artıq hazırdır.

Universitetin professoru Şirməmməd Hüseynov yeni şəraitdə siyasi həyatın ən mühüm məsələləri barədə öz sözünü televiziya kameraları qarşısında, dövri mətbuat səhifələrində ən səmimi şəkildə deməyə başladı. "Azərbaycan", "Dalğa", "Azadlıq" qəzetlərinin və başqa mətbuat orqanlarının səhifələrində öz publisistik məqalələriylə çıxış elədi. Onun "Bərəkət" qəzetində hər həftə iki dəfə çap olunan siyasi şərhləri diqqəti xüsusilə çəlb eləyir. Həmin yazılar müasir həyatın ən aktual məsələləri barədə ən operativ, ən yığcam anlaşıqlı izah və təhlillərdir.

Hörmətli professor xeyirdən-şərdən qalan deyil, toy və hüzür məclislərində vaxt imkan verən qədər iştirak eləyir. Həmin məclislərdə o, öz adətincə zamanın gərdişindən danışır, dinləyənlərin marağını nəzərə alıb dəbdə olan ən aktual mövzulara toxunur.

Bir sözlə, Şirməmməd müəllim bizim üçün öz müəllim vəzifəsini yenə də layiqincə yerinə yetirir. Bu işi indi respublikamızın çox böyük hissəsini əhatə eləyən nəhəng bir auditoriyada görür. Biz taleyin qarşıya çıxardığı çətinlikləri aradan qaldırmağın ən yaxın yollarını, mürəkkəb vəziyyətlərin, dolaşıq-qarışıq düyünlərin mənasını başa düşməyin üsullarını ondan öyrənirik. Ümumiyyətlə, Şirməmməd müəllimin çıxışlarına, söhbətlərinə, məqalələrinə maraq respublikamızda çox böyükdür.

Belə bir marağın səbəblərini onun elmi və publisistik fəaliyyətinin xüsusiyyətləriylə izah eləmək olar və eləmək iazımdır. Bunun üçün 1985-ci ildən başlayaraq sovet mətbuatında görünən köklü dəyişikliklərə ötəri nəzər yetirək. Uzun illər boyu Sov.İKP-nin daxili və xarici siyasətini ardı-arası kəsilmədən şit-şit tərifləyən

kütləvi informasiya vasitələri öz siyasi xətlərində tədricən 180 dərəcə dönüş elədilər. Onlar başladılar hakim ideologiyanı, mövcud quruluşu, sarsılmaz hesab edilən siyasi sistemi qamçılamağa. Elə ona görə də qəzetlərə, jurnallara, radio və televiziyaya maraq qat-qat artdı. Lakin uzun sürmədi. Səmərəsiz tənqiddən, bəzən isə söyüş və təhqirdən ibarət olan məqalələr, çıxışlar oxucuları, dinləyiciləri və tamaşaçıları yormağa başladı. Çünki publisistlərin yazıları, söhbətləri əsasən "Ölkədə vəziyyət necə olmuşdur? İndi necədir? Niyə böhran başlandı? Təqsir kimdədir?" suallarına uzun-uzadı cavab verirdi. Bu prosesdə Ş.Hüseynov ən əlverişli mövqe tutdu. Tənqidbazlığa uymayaraq publisistlərin konstruktiv təfəkkürlü dəstəsində qaldı. O, çıxışlarını və yazılarını "Vəziyyətdən çıxmaq üçün nə etməli?" sualıyla əlaqədar mövzulara həsr eləyirdi. Qısaça desək o, üzünü keçmişə yox, gələcəyə tutur.

Professorun yazmaq və çıxış eləmək üslubu orijinaldır, tədqiq olunmağa, öyrənilməyə, geniş yayılmağa layiqdir. Həmin üslubun bir tüsusiyyəti budur ki, Ş.Hüseynov uzunçuluğu sevmir, çıxışa və yazıya əsas mətləbdən başlayır. Yorucu girişdən, çoxlu haşiyələrdən qaçaraq sözunün canını deyir və yazır. Elə bu səbəbə görə də onun qələm məhsulları yığçam və təsirli olur, düz hədəfə dəyir.

Bizim müəllimimiz məlum həqiqətləri sadalamağı, başqalarının dediklərini, yazdıqlarını təkrar eləməyi, hər hansı hadisəni və vəziyyəti qiymətləndirməkdə dəbə uymağı xoşlamır. Bəzən efirə, mətbuat səhifəsinə yol tapan boş-boğazlıqdan əsəbiləşir. Hər bir hadisə və fakt haqqında yalnız öz mülahizələrini bildirir. Həyat təcrübəsi zəngin, intellektual səviyyəsi yüksək, siyasi təfəkkürü geniş olduğu üçün qaldırdığı məsələlər auditoriyada başa düşülür. O, faktlara, rəqəmlərə müraciət eləyərkən oxucuya, dinləyiciyə və tamaşaçıya informasiya vermək məqsədi güdmür, yalnız söylədiyi mülahizələri təsdiq eləməyə çalışır. Çox vaxt isə faktların, rəqəmlərin özlərini şərh eləyir, onların arxasında duran mətləbləri, gizli niyyətləri açıb göstərir. Bəzən isə tarixdən və müasir dövrdən gətirdiyi səciyyəvi faktlar, rəqəmlər onlarla şərhi, təhlili, izahı və sübutu əvəz eləyir.

Belə xüsusiyyətlər aydın göstərir ki, şərh, fakt, ifadə eləmə üsulu, dəmir məntiq professorun çıxışlarında və yazılarında təbii bir vəhdət halındadır. Bunlar bir-birini tamamlayır və önə çıxarır. Qısasını desək, onun publisistikası kamil, yetgin, döyüşkən və səmərəlidir, respublikamızın ağır vəziyyətdən qurtarması uğrunda mübarizədə kəsərli bir silahdır.

Bu yaxınlarda hörmətli professorun ad günü olmuşdur. Gəlin həmin hadisə münasibətilə onu ürəkdən təbrik eləyək, istedadlı publisistimizə uzun ömür, möhkəm çansağlığı, səadət diləyək! Gəlin arzulayaq ki, Şirməmməd müəllimin parlaq istedadı, iti qələmi, kəsərli nitqi, sağlam təfəkkürü uzun illər boyu xalqımıza xidmət eləsin, müstəqil həyat yoluna qədəm qoyan Azərbaycanın real tərəqqisi uğrunda mübarizənin önündə getsin.

Teymur XƏLİLOV

"Azərbaycan müəllimi" qəzeti, 3 yanvar 1992-ci il

Azərbaycan Yazıçılar Birliyi
Ədəbiyyat Qəzeti

ÖMRÜMÜZÜN ŞİRMƏMMƏD HÜSEYNOV TƏSƏLLİSİ

Bu gün müəllimlər müəllimi, ürəyi və qəlbi Vətən sevgisi ilə dolu, klassik mətbuatımızın, ictimai fikir tariximizin misilsiz nümayəndələrinin yaradıcılıq dünyasının yorulmaz tədqiqatçısı, ömrünü həqiqətə həsr etmiş bir insanın – Şirməmməd Hüseynovun Tanrıya qovuşmasından – dünyasını dəyişməsindən cəmi altı gün ötür. Bu altı gün onu təkcə yanında görüb tanıyanların deyil, təkcə müəllimi olmuş yüzlərlə, minlərlə jurnalistin deyil, həm də əsərlərini oxuyub maariflənmiş, milli kimliyimizi dərk etmiş hər kəsin içində qovrulan bir dərd kimi ötüb keçməkdədir. Mən qəlbimdən qopan bir aprə ilə iyunun 24-ü axşamını – müəllimimin uzun ömrünün son dəqiqələrini yada salıram. Bu ölüm xəbəri elə o axşamın alatoranında, sanki birdən-birə bütün Azərbaycana yayıldı və yeni informasiya texnologiyası – internet aləmi yasa batdı. Birlikdə sədaqət dolu bir ömür yaşamış həyat yoldaşı – Ülkər xanımın dilində bircə sual bitmişdi: "Məni qoyub hara gedirsən?". Ülkər xanımın bu sualı yorulmadan təkrarlamasına, bir ağı, bir bayatı havasına salmasına Tanrıdan gələn bir haqqı vardı. Yaxşıdan yaxşı tanıdığım bu cütlük uzun bir ömrü görünməmiş bir sədaqətlə, Füzuli vəfası, Nəsimi idealları ilə yaşamışlar. Bu cütlük sevgiyə, ailəyə, övladlara sədaqət rəmzi kimi onları tanıyanların hamısına ideal bir nümunə idi.

"Məni qoyub hara gedirsən?". Təxminən 60 ilin ömür-gün sədaqətini yaşamış bu insanın bu suala haqqı çatırdı. Amma bir cəhət də vardı ki, Şirməmməd müəllim təkcə 70 ilin sevgisini qoyub getmirdi. O, bütöv bir nəslin havadarı kimi əzizlərini, doğmalarını qoyub gedirdi. O, qəlbini, ruhunu Azərbaycan, Vətən sevgisi ilə doldurduğu minlərlə jurnalist ordusunu qoyub gedirdi. O, varlıqları ilə qürur duyduğu və bir vətəndaşlıq qeyrəti ilə ilk dəfə gündəmə gətirdiyi Cümhuriyyət qurucularının ruhlarını qoyub gedirdi. O, təmizliyində və azərbaycançılıq ideyalarının təbliğində, millətin, xalqın maariflənməsində misilsiz rol oynamaqda olan bir universitetin təəssübünü çəkən, bu universitetin millətə layiq olmasında birbaşa əməyi olan bir müəllim kimi o böyük kollektivi, o müqəddəs universiteti qoyub gedirdi. Ona görə də Ülkər xanım, sanki birdən-birə bu itkinin təkcə ona deyil, o ailəyə deyil, bütöv bir millətə aid olduğunu xatırlayıb da ağrısına, laylasına ara verdi...

Səhəri gün ömrünün şüurlu 70 ilini həsr etdiyi Bakı Dövlət Universiteti öz

övladını ağuşuna aldı, Şirməmməd Hüseynovla vida mərasimi bu doğma universitetin böyük salonunda keçirildi. Etiraf edim ki, bu vida mərasimini dünyanın ən peşəkar reportyoru belə, bütün detallarınadək ifadə edə bilməzdi. O vida saatlarında həmin salona Azərbaycanın ən mükəmməl ziyalıları, dövlət, hökumət adamları, dostlar, tanışlar axın etdilər. Bunlar hardasa adi, başa düşülən görünə bilər. Amma bir də o vardı ki, – mən bunu bütün məsuliyyətimlə deyirəm, – Azərbaycanın jurnalist ordusunun bəlkə hamısı o zala axın etmişdi. Zal dolmuşdu, zal adamları tutmurdu və jurnalistlərin bir çoxu məcbur olub qonşu zallara keçmişdi. Bu anda mən hər bir jurnalistin içində bu ağır itkinin ağrısını aydınca hiss edirdim. Onların əksəriyyəti sinxron müsahibələrdə respondentə verdiyi suallarda titrək, kövrək səslə dillənir, göz yaşında boğulurdu. Amma hər kəsin sözündə belə bir optimist fikir də vardı: Şirməmməd Hüseynov öz tədqiqatlarıyla, öz kitablarıyla, klassikləri ərəb qrafikalı Azərbaycan əlifbasından müasir Latın qrafikalı əlifbaya transliterasiyası ilə, saysız-hesabsız məqalələri və monoqrafiyaları ilə həmişə aramızdadır, həmişə sağdır. Mən də bu qiymətli optimist fikirlərə pənah gətirərək qələmə aldığım bu yazıda onun haqqında keçmiş zamanda danışmayacağam...

Mən indiyəcən yüz-yüz yazı işləmişəm. Amma heç vaxt narahatlığı, məsuliyyət anını bu qədər ağır keçirməmişəm. Birdən ağlıma gəlir ki, ömrünün ən ağır, çətin günlərində sənə təsəlli olmuş bir insan, dünyanı və həyatı dərk etməyi, necə yaşamağı öyrədən bir *müəllim* haqqında nəsə demək elə *Tanrı* haqqında söz demək qədər məsuliyyətlidir. İnsanın bioqrafiyası onun uşaqlıq çağlarından başlayır. Ən çətini budur ki, Şirməmməd müəllimin uşaqlıq dövrü olmayıb. Və deməli, bu yazının ənənəviliyinə əsas yoxdur. Universitet auditoriyasında dərsə başlayanda onun otuz yaşı olub. Qırx il əvvəl – qırx yaşında gördüyüm bu müəllimin, məncə, heç vaxt otuz yaşı, iyirmi yaşı, on yaşı, bir yaşı olmayıb. Auditoriya davranışı, elmə, tələbəyə münasibəti elə ilk gördüyüm cavan çağından klassik müəllim imicini xatırladır. Yalnız onun simasında Səhhət, Əbdürrəhim bəy, Çəmənzəminli... tipli klassik müəllim obrazları dururdu gözümüzün qabağında. Sərt və qayğılı. Sərt və içi tələbəyə məhəbbət dolu bir insan. Sərt və ədalətli. Sərt və təmiz. Sərt və elmi... Həyatının bütün anlarında sərtlik onun fəaliyyətinin birinci komponenti olub. Dünyanı zarafat sayanlara bu zarafatın zarafat olmadığını anlatmaq sərtliyi. Bir də təmənnasızlıq. Bütün həyatını təmənnasız yaşadığı dərhal gözünün içindən bilinir. Və bir az da yaxından tanıdıqca təmənnasızlığın onun həyatında ən ciddi keyfiyyət olduğunu anlayırsan. İnsanı gözükölgəli olmağa, anlamağa və düşünməyə macal verməməyə, yaltaqlıq və yalan tərifə sürükləməyə ancaq təmənnanın gücü çatır. Bizim günlərimizdə müəllim təmənnasızlığı bəlkə ona görə qəhrəmanlıq sayılır ki, insanı ləyaqətə aparan bu keyfiyyətin qarşısında hər adam tab gətirə bilmir. Şirməmməd müəllimin təmənnasızlıq dərsləri bütöv bir kollektivin ictimai gözdə, ictimai rəydə təmizliyini təmin edib. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsi müəllimli-tələbəli həmişə təmiz bir ömür yaşamaqdadır. Bu təmizlik dünyasından duyduğumuz iftixar üçün hamımızın müəllimi Şirməmməd Hüseynova borcluyuq. Hər şeydə çətini bünövrənin qoyuluşudur. Jurnalistika fakültəsinin haçansa qoyulan təmiz bünövrəsinə toxuna biləcək çirkli əlləri Şirməmməd müəllim ən ədalətli hakim sərtliyi ilə kəsib atmışdır.

Adam var ki, öz borcunu vəzifə pilləsinə görə tənzimləyir. Şirməmməd müəllim üçün bu fakültədə vəzifənin fərqi olmayıb. Lap adi müəllimdən tutmuş dekanlı günlərinədək bütün pillələrdə universitetin təmizlik ləyaqətini qoruyub.

Ləyaqətsiz, natəmiz adam ona dost ola bilməz. Adi müəllimdən tutmuş rektora qədər o, həmişə ancaq ləyaqətlilərlə ünsiyyət bağlayıb. Şirməmməd müəllim universitet ləyaqətini öz şərəfi sayan o zamankı rektor Mehdi Əliyevlə dost ola bilərdi. Şirməmməd müəllim Azərbaycan hüquqşünaslarının nadir təmizlik və ləyaqət simvolu olan Məmməd Xələfovla dostluq edə bilərdi. Şirməmməd müəllim öz poeziyasında milli-azadlıq ideyaları yayan, sovet senzurasının ağır basqıları altında "Gülüstan" kimi bir poemanı qələmə alan böyük Bəxtiyar Vahabzadə ilə dost ola bilərdi. Şirməmməd müəllim dünən də, bu gün də Azərbaycan gənclərinin idealı olan, ömrünün son anında Üzeyir bəyin ev-muzeyində Azərbaycan deyib Allaha qovuşan Xudu Məmmədovla dost ola bilərdi... Onun özünə dost saydığı hər kəsin qəlbində gizli-aşkar bir müstəqil Azərbaycan arzusu vardı. Azərbaycanın belə bir gerçəkləşmə anında o özünün "Müstəqilliyin çətin yolu..." kitabında toplanan saysız publisist yazılarını qəzetlərdə dərc etdirib milləti müstəqil dövlət uğrunda mübarizəyə səslədi. Üzeyir Hacıbəylinin əsərləri külliyyatına salınmağını sovet senzurasının vaxtilə qadağan etdiyi əsərlərini ayrıca kitab halında çap etdirdi. Bu əsərləri sovet senzurası ona görə qadağan etmişdi ki, Üzeyir bəy o əsərlərdə erməni xislətinin iç üzünü açmışdı, bu millətin nankorluğunu, bizdən yedikləri çörəyə naxələf çıxdığını bütün çılpaqlığı ilə ortaya qoyurdu.

Ş.Hüseynovun sovetlərin hökmranlığının son dövrlərində yazdığı "Dərd həmin dərddir", "Müstəqil Azərbaycan Demokratik Respublikası olmasaydı", "Bir kərə yüksələn bayraq", "Tarixin ibrət səhifələri", "Milli müqəddəsimiz" və s. kimi onlarca publisistik əsəri yeni müstəqilliyin kodu rolunu oynadı. Hələ o zaman azadlıq mücahidi Bəxtiyar Vahabzadə onun kitablarından birinə ön sözündə yazırdı: "Ömrü boyu vətəninə, millətinə, doğma ana dilinə səcdə qılan, onların taleyini öz şəxsi taleyi bilən və bu əqidəsi yolunda qələmi ilə çarpışan əsl vətəndaş jurnalistin, tarix aliminin qələmindən çıxan bu kitabın hər bir azərbaycanlının masaüstü kitabı olacağına inanıram". Xalq şairinin bu inamı elə o vaxtdan gerçəkləşdi...

Bütün bunlar belədir, amma o da var ki, Şirməmməd müəllimin ən böyük tribunası sırf gəncliyi təmsil edən Bakı Dövlət Universiteti oldu.

Universitetdə tanıdığımız və tanımadığımız Şirməmmədlər çox olub. Ancaq universitet elminin, universitet pedaqogikasının və ən əsası, universitet təmizliyinin uzun müddət həm də Şirməmməd müəllimin çiynində dayandığını heç kəs inkar edə bilməz.

Tələbəsindən təmənna uman neçə-neçə "müəllim" onun bircə işarəsi ilə universitetdən uzaqlaşıb. Nadir müəllimlərdəndir ki, heç vaxt ona tələbə "tapşırmaq" mümkün olmayıb. Həm də nadir müəllimlərdəndir ki, heç vaxt tələbəyə qeyri-obyektiv qiymət verməyib. Fakültədə saxlamaq üçün tələbələrin içərisindən zaman-zaman müəllim seçib. Bu seçimində tələbəsinin təmizliyi, elmiliyi əsas ölçü olub. F.Mehdini, Y.Əlizadəni, N.Əhmədlini haçansa beləcə müştəri gözü ilə duyub və fakültədə qalmalarına şərait yaradıb. Təmiz dünyasının təmiz-

liyindən yoğrulmuş bu adamların ölkəmizin çətin illərində bəzən bir neçə yerdə işləməyə məcbur olmasına, başqaları kimi haçansa özünə "gün ağlamasına" işarə ilə bizi sınayırmış kimi bir dəfə: - Sizi bədbəxt eləmədim ki? – dedi. İçində çox-çox qəribə, bəlkə də zamana üsyan faktı daşıyan bu sual şəxsən mənə yönəlmişdi və mənim həmin anda, nədənsə, Mirzə Cəlilin bir zaman uşaqlarının soyuq otağını qızdırmaq üçün öz əlyazmalarını sobada yandırması yadıma düşdü...

Qəm eləmə, Şirməmməd müəllim! Bu dünyada hər şey ötəri, hər şey gəldi-gedərdi. Tarix bizə həşəmət sahiblərinin miskin sonucunu çox göstərib. Ömrünü bir quru həsir üzərində başa vuran H.Zərdabinin, əlyazmalarını soyuq otağın hərarətinə çevirən Mirzə Cəlilin, tiranların əlindən didərgin düşən Məhəmməd Əminin, Ceyhun Hacıbəylinin... qarşısında neft və milyonlar sahiblərinin izi də qalmadı.

Bir az ötdü və Azərbaycan özünün Liderini yenidən hakimiyyətə qaytarması ilə universitet müəlliminin də ləyaqətini özünə qaytardı.

H.Zərdabinin "bizə bu dünyada ancaq təmiz ad və ləyaqət qalacaq" kəlamının sərt gerçəkliyi qarşısında bər-bəzəkli avtomobillərin, möhtəşəm villaların, saxta tərif və saxta məhəbbətin mənasızlığını anlamamaq da nadanlıq olardı. "Vətən, vətən" deyib – ancaq arzularla yaşamaq hələ vətənə sevgi deyil. Şirməmməd müəllim pafoslu, poetik sözlərdən uzaqdır. Hər şeyi elmi məntiqlə, elmi proqnozla hesablayır. Bəlkə də ona görə ki, bu keyfiyyətin çox yaşadığı bir çağda – 1950-ci illərdə Moskvada aspiranturada oxuyub. Bu gün Azərbaycan jurnalistikasının elmi və praktik istiqamətində qəbul olunmuş Şirməmməd Hüseynov məktəbi eyni ilə Rusiyada Yasen Nikolayeviç Zasurski məktəbinə ekvivalentdir.

Moskva Universiteti kimi nəhəng bir elm, tədris müəssisəsində cəmi dörd il aspirant olub yadda qalmaq zor işdir. Sirməmməd müəllim bu universitetin elmi əsərlərində, toplularında, simpozium və seminarlarında çıxışları ilə yadda qalır. Şirməmməd müəllimin Polşa, Bolqarıstan, Çexoslovakiya, Türkiyə səfərlərinin hamısı elmi əlaqələrə xidmət edib. Məhəmməd Əmin Rəsulzadənin Türkiyədə uyuyan qəbri önündə durmaq və fikrə getmək üçün bu ölkəyə səfər etdi. Məhəmməd Əmin Rəsulzadə də pafoslu sözlər sevmədi, ancaq vətəni sevdi, sevgisini, ağrılarını böyük işlə sübut etdi. H.Zərdabini, M.Ə.Rəsulzadəni, Ü.Hacıbəylini, C.Məmmədquluzadəni, Ö.Nemanzadəni tədris edə-edə müəllimimiz bu təmiz, təmənnasız, qayğılı, ağrılı ziyalıların ömrünü özünə örnək seçdi.

Heyranlıqdan uzaq olan Şirməmməd müəllim ancaq bu sıranın ömür yolundan, sözündən, işindən heyranlıqla danışır. Bu ziyalılara etinasızlıq faktına qarşı özünə xas sərtliyini, əsəbi publisist qələmini işə salər. M.Ə.Rəsulzadə idealları ən ahıl vaxtında da sonadək qəbul etdiyi mübarizə faktıdır. Min bir çətinliklə, gecəli-gündüzlü arxiv zəhmətilə, Türkiyə, İran, Azərbaycan məkanlarının nəzərə alınması ilə böyük öndərin əsərlərini toplamış, tərtib etmiş, onun beşcildlik əsərlərini oxucuya vermişdir. O zaman bu əsərləri kitab halında çap etməyin maddi mümkünsüzlüyü qarşısında "525-ci qəzet"ə – tələbələrinə müraciət etdi və tələbələri bu müraciətə müəllimlərinə məhəbbət timsalında cavab verdilər. Artıq neçə illərdir ki, "525-ci qəzet"in oxucuları hər şənbəni M.Ə.Rəsulzadə publisistikası ilə qarşılayırlar.

Bir az da keçdi, Azərbaycan iqtisadi cəhətdən bugünkü inkişaf səviyyəsinə çatdı. Mənim də yaxşı yadımdadır. Azərbaycan Mətbuat Şurası 2013-cü ilin noyabrında Prezident İlham Əliyevə ikinci dəfə "Jurnalistlərin dostu" mükafatını təqdim edərkən orada Şirməmməd müəllim qısa bir nitq söylədi. Onun sözünün sonunda Prezident dedi: "Şirməmməd müəllimin çıxışı mənim üçün çox böyük maraq doğurdu... Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 1970-ci illərdə siz Azərbaycan Televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi – "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir".

Şirməmməd Hüseynov Məhəmməd Əmin Rəsulzadənin çap etdirdiyi kitablarının birində kitabı Prezident təqaüdündən etdiyi qənaət hesabına nəşr etdirdiyini göstərmişdi. Prezident İlham Əliyev bu qeydi oxuyan kimi M.Ə.Rəsulzadənin əsərlərinin 5 cildinin dövlət hesabına nəşr edilməsinə göstəriş vermişdi. Bu hadisədən sonra bu böyük tədqiqatçı Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetində dərc olunan Parlament hesabatlarını da iki böyük cilddə çap etdirdi. Şirməmməd müəllim bu qədər gərgin pedaqoji, elmi işin qarşısında publisist qələmini də heç vaxt yerə qoymayıb. 30-dan çox monoqrafiyanın, 800-dən çox elmi məqalənin müəllifi daim publisist işi də görüb. Yenidənqurmanın lap ilk illərində əlinə düşən girəvədən dərhal istifadə elədi və neçə-neçə kitab yazdı. Mən bu yerdə yenə də B.Vahabzadənin bu kitablardan birinə yazdığı ön sözə qayıdıram: "...Mən bu yazıların içindən keçən vahid bir xətt görürəm. Bu xətt bunları yazan müəllifin vahid prinsipi, fikri və əqidəsidir. Bu prinsip, bu baxış və bu əqidə məqalədən-məqaləyə dərinləşir. Və 50 ilə yaxın bir müddətə tanıdığım əqidə qardaşım Şirməmməd Hüseynovun vətəndaş obrazını tamamlayır. Şirməmmədi yaxından tanıyan çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa, bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır".

Şirməmməd Hüseynov yaradıcılığı millət, xalq yoluna işıq tutan bir aynadır. Azərbaycanın ünlü alim və sənət adamları – akademik Vasim Məmmədəliyev, yazıçı Anar, Aqşin Babayev, Milli Məclisin üzvü Fazil Mustafa, Əflatun Amaşov və neçə-neçə qələm sahibi öz yazılarında onun qiymətini verdi. Fazil Mustafa ona həsr etdiyi "Aydın görünən aydınlar" sərlövhəli yazısında belə bir həqiqət üzərində dayanır:

"Ömrünün 90-cı ilinə qədəm qoymuş bu Azərbaycan ziyalısı, ilahi mənada Yaradanın verdiyi biliyin, düşüncənin, ərdəmin zəkatını haqqıyla vermiş sayıla bilər. O, dürüst bir universitet müəllimi olmuş, yalnız aşıladığı bilgi ilə deyil,

müəllim davranışı ilə yüzlərlə tələbənin faydalı insan obrazının biçilməsinə təsir göstərmişdir. Elə buradaca durmaq olardı və bu, Ona sayğı üçün ömrün sonunadək kifayət edərdi. O öz peşəsinin ustadı səviyyəsinə qalxacaq bir media bilgini idi, bununla da yüzlərlə qəzetçinin etalon olaraq müəyyənləşdirdiyi dəyəri qazanmışdır. Lakin o, burada da durmaq şansını istifadə etmədi. Azərbaycan türkcəsində bir-birinə yaxın olduğu qədər də dərin mahiyyət fərqi olan iki felin mövcudluğunda doğru istiqamət götürə bildi. Bunlar "Qayğısına qalmaq" və "Həsr etmək" felləri arasında seçim idi. Şirməmməd müəllim tələbəsinin, oxucusunun, ailəsinin, tanıdığı-tanımadığı Azərbaycan vətəndaşının qayğısına qaldı və bununla bəlkə də kifayətlənmək ona qarşı cəmiyyətdə yenə də eyni sayğınlığı qoruyacaqdı. Lakin yenə də həmin məqamda durmaqdan imtina edərək həyatını, biliyini "Həsr etmək" mərhələsinə yönəltdi. Bu ayrı bir fövqəladə ibadət sayıla bilərdi. Yaşamımızda, mövcudluğumuzda, millətə çevrilməyimizdə, dövlət qurmamızda misilsiz haqqı olan Məhəmməd Əmin Rəsulzadənin haqqını qaytarmağa özünü, biliyini həsr etdi".

Şirməmməd müəllim getdi. Amma bizim təsəllilərimiz də çoxdur. Və o təsəllilər sırasında Şirməmməd müəllimin müasiri olmaq, onun dərslərinə qulaq asmaq, yanında işləmək, sözünü, söhbətini dinləmək kimi önəmli bir faktımız var.

Xoşbəxtliyimiz odur ki, bir iş görmək istəyəndə əvvəlcə qarşımıza sual qoyuruq: Görəsən, Şirməmməd müəllim nə deyər? Biz bu sualı indən belə daha kəskin qoyacağıq. Çünki bu sual bizi şərdən və bəsit əməldən, pislikdən və səviyyəsizlikdən, ləyaqətsizlikdən və şübhəyə əl yerindən qoruyan Tanrı tələbi kimi və bəlkə də Tanrı haqqı kimi həmişə köməyimizə çatıb.

Cahangir MƏMMƏDLİ
"Ədəbiyyat qəzeti", 29 iyun 2019-cu il

USTAD GETDİ

Onu həmişə Həsən bəy Zərdabiyə bənzədirdim. Oxşarlıqlarını axtarırdım. Hər ikisinin dünyasını anlamağa çalışırdım. Ömrünü xalq və onun maariflənməsi üçün şam kimi yandıranlar üzdə olmağı heç sevməzlər. İşləri-gücləri, yazı-pozuları *xalq* və *onun gələcəyi* idi. Əsas məsələ yaddaşlardan heç zaman silinməyəcək tarixi günümüzə daşımaq, bildiklərini gəncliyə aşılamaq idi və edirdilər. Xalqın pərvanəsi idilər. Xalq üçün yanırdılar.

Birisini görmədik... irsini öyrəndik...

O birisi günümüzdə yaşayırdı, irsi öyrədirdi...

Birisinin yoxluğunu o birinin varlığı doldururdu.

O da getdi... Dünyanın boşaldığını o qədər aydın, o qədər aşkar hiss etdik ki...

Ustad getdi – Şirməmməd Hüseynov... Zərdabi bənzəri...

O olanda arxayındıq. Övlad atasına arxayın olan kimi... Arxayındıq ki, önümüzdo *Ustad* var... Cümhuriyyət və mətbuat tariximiz onluqdur... O nəhəngdir, əzəmətlidir, qürurludur. Onun yanında özümüzü yığışdırırdıq. Çünki o nəhəng dənizin damlaları idik. O dənizə sevə-sevə qovuşurduq, dənizə çevrilməyə cəhd edirdik. Onunla mübahisə etməzdik, bu heç ağlımıza da gəlməzdi... Damla dəniz olmağa iddia edə bilər, əgər buxarlanmasa... Biz isə öyrənə-öyrənə buxarlanırdıq, sonra buluda dönür, yağış halında yenə ona qayıdırdıq...

Ustad getdi...

Getdi bir də dönməyə... Bu dəfə ruhu ilə dönəcək. Yazdıqlarını, hələ yaza bilmədiklərini bizə yenidən öyrətmək üçün yenə dönəcək... hər addımda ondan misallar, iqtibaslar çəkəcəyik... onun yaşam və iş tərzini, millətə, dövlətə, vətənə sevgisini nəsillərə örnək kimi göstərəcəyik...

Ustad getdi...

İşıqlı gözləri və şarkazm, amma səlis danışığı yaddaşımda həmişəlik həkk olunub. O, müstəqillik dövrü ilə fəxr edirdi... Onun yaradıcılarına nəhayətsiz sayğı duyur, onlar haqqında yazdığı üçün qürurlanırdı... Onlar haqqında yazanda bilirdim ki, o, böyük insanlarla təmasda olur...

Ustad getdi... *Müəllim* getdi... *Ata* getdi... Yetim qaldığımızı hiss edirsinizmi...

Biz də sənlə nəhayətsiz fəxr edirik, *Ustad*... Bizdən də təmaslarını əskik etmə... Ruhumuzu yetim qoyma... Ruhun şad olsun!

Yunus OĞUZ,
"Ədəbiyyat qəzeti", 29 iyun 2019-cu il

Bu bir xalq qəzetidi www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Mirbəşiyev Gündəlik hüquq qəzeti Qəzet 1990-cı ilin iyulundan çıxır № 113 (5577) 26 iyun 2019-cu il Qiyməti 20 qəpik

Aqil ABBAS:

"ŞİRMƏMMƏD HÜSEYNOVUN ÇOX YAŞAMASININ SİRRİ"

Ustadımız Şirməmməd Hüseynovun üç xoşbəxtliyi vardı. Birincisi, xalqı çox sevirdi və xalq da onu çox sevirdi. İkincisi, cümhuriyyəti quranlar kimi özünü bu millətə, bu dövlətə fəda eləmişdi. Allah da arzularını həyata keçirmək üçün ona sağlamlıq və uzun ömür qismət eləmişdi ki, xəstələnmədən quş kimi uçub getdi. Üçüncüsü də, onun müqəddəs ailəsi, Ülkər xanım kimi həyat yoldaşı olması.

Mən on il "Elm və həyat"da Ülkər xanımla çalışmışam. O, bütün redaksiya işçilərinin anası idi. Əgər biz ögeylərə belə ana kimi yanaşa bilirdisə, gör öz övladlarına və həyat yoldaşına necə idi? Və Şirməmməd müəllimin ayaq üstə, sağlam 95 il ömür sürməsində ən əsas rolu elə Ülkər xanım oynayırdı. Ülkər xanıma ayrıca bir başsağlığı verirəm.

"Ədalət" qəzeti, 26 iyun 2019-cu il

MÜƏLLİM

Müəllim sarıdan bəxtim həmişə gətirib. Ağcabədinin kənd məktəbində birinci sinifə gedəndə də, sonra Ağdam şəhər 1 saylı orta məktəbdə oxuyanda da, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alanda da...

Jurnalistika fakültəsinin müəllimlərinin təmənnasızlığı bu günün özündə də adla deyilir. Bu ənənəni qoyanlardan biri, əslində, birincisi idi professor Şirməmməd Hüseynov.

Nə gizlədim, çox olub, ən müxtəlif məclislərdə Onun haqqında söhbət düşəndə, ya da təsadüfən televiziya ekranında görəndə ətrafımd akılara xüsusi əda ilə, qürrələnə-qürrələnə "Şirməmməd müəllim mənə dərs deyib" - deməyim. Aydındır ki, bu hərəkətin məğzində bir özünü öymək duyğusu gizlənib hətnişə. Yəni mən elə-belə adam deyiləm, baxın görün kimdən dərs almışam! Və bu davranışı müxtəlif illərdə jurnalistika fakültəsində oxumuş, Şirməmməd müəllimdən dərs almış başqa çox adamdan da, həm də dəfələrlə görmüşəm.

...1992-ci ilin noyabr ayının sonları idi. Jurnalistika fakültəsinin son kursunda oxuyurdum. "525-ci qəzet"in 2-ci sayı nəşr olunmuşdu. Şirməmməd müəllimin dərsi idi. Dərs təzə başlamışdı. Söhbət əsnasında Şirməmməd müəllim stolunun üstündəki qovluqdan qəzetin həmin sayını çıxardıb dedi: "Bir qəzet var, burda bir yazı diqqətimi çəkdi". Bunu deyib qəzetin ilk səhifəsindəki - manşetdəki yazının başlığını oxudu. Bəhs olunan mövzuya yazıdakı münasibəti bəyəndiyini dedi və yazını təqdir elədi. Uşaqlardan biri yerindən məni göstərib: "Şirməmməd müəllim, o qəzetin redaktoru Yusifdir də, təzə çıxır qəzet", - dedi. Şirməmməd müəllim mənə baxıb qayıtdı ki: "Sən dərsə niyə gəlirsən? Niyə gedib işinlə, qəzetinlə məşğul olmursan? Dekanatlıqda deyəcəm, bunu nəzərə alsınlar. Sən öz işinlə məşğul ol".

İllər keçdi, əziz müəllimimiz "525"lə əməkdaşlığa başladı. Bu hadisəni neçə dəfə Onun özünə xatırlatmaq istəsəm də, utandım...

Az qala 20 ildi, Şirməmməd müəllimin "525"də hər həftə yazıları gedirdi. Hər həftə yazıları vaxtında göndərərdi, yenə ürəyi rahat olmazdı, zəng edib soruşardı: "Oğlum, yazı gəldimi?"

Həvəsi olanda hələ göndərdiyi yazılarla bağlı kiçik informasiya da verərdi, əzbər cümlələr deyərdi yazılardan. Hər dəfə bu zəkaya, bu şövqə heyran qalırdım və həm də bu böyük insanın mənə dərs dediyinə, müəllimim olduğuna görə qürur duyardım.

İki həftə əvvəl yazı ilə bağlı yenə zəng elədi: "Yusif, oğlum, bu yazı bu ay sonuncu yazıdır, yazını hazırlayıb göndərməkdə mənə kömək eləyən adamlar tətilə çıxır. Bir də sentyabrda görüşərik", -deyib sağollaşdı.

Və indi bu ağır xəbəri - Onun dünyasını dəyişdiyi xəbərini eşitdim.

Bağırmaq, hönkürmək istədim, gücüm, taqətim çatmadı...

Mən bu gün bir zamanda, bir ölkədə yaşadığıma, mənim müəllimim olduğuna, mənə dərs dediyinə görə fəxr elədiyim yeganə kişini, ustad müəllimimi itirdim.

Azərbaycan isə böyük Şirməmməd Hüseynovu itirdi!..

Ruhunuz şad olsun, böyük kişi!..

P.S. *Bu müdhiş xəbərin sarsıntısı, qəhəri içində, nədənsə, Şirməmməd müəllimin ömür-gün yoldaşı, fədakar qadın, əziz Ülkər xanımı xatırladım. Təxminən ilyarım, ya iki il əvvəlin söhbətidir, bir gün Ülkər xanım mənə zəng elədi, qısa hal-əhvaldan sonra dedi: "Yusif, niyə Şirməmməd müəllimin qəzetdəki yazılarında onun yaxşı şəklini vermirsiniz?" Tutuldum: "Ülkər xanım, niyə, yaxşı şəkil deyil ki? "Ülkər xanım: "Yox, bu şəkildə yaşlı görünür. Mən sənə basqa bir şəkil göndərirəm, bundan sonra yazılarında o şəkli verərsən ", — dedi. Çaşmışdım, tez özümü toplayıb cavab verdim: "Baş üstə, Ülkər xanım, göndərin ".*

Telefonu yerə qoyub fikrə getdim, indiki zamanda ən uzun sevginin ömrünün uzağı üç il sürməsi ilə bağlı son vaxtlar eşitdiyim bir fikri xatırlayıb dodağımın altında öz-özümə mızıldandım: "Yalan sözdür, nə üç il, sevgi bir ömür də sürə bilər".

Yusif RZAYEV

MƏTBUATA XƏRCLƏNƏN ÖMÜR

M.Ə.Rəsulzadənin adını daşıyan Bakı Dövlət Universitetinin bir əsrə yaxın yaşı – 80 illiyi münasibətilə bu böyük təhsil oçağının müəllimləri elm və təhsil sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti tərəfindən fəxri adlarla təltif edildi.

Elm, pedaqogika, yaradıcılıq sahələrində saçını ağartmış, ömrünü xərcləmiş, cəmiyyətə yüzlərlə ali təhsilli mütəxəssis vermiş universitet müəllimlərindən bir çoxu çəkdikləri zəhmətin qiymətini gördülər: 17 nəfər "Şöhrət" ordeni, 18 nəfər "Tərəqqi" medalı, 13 nəfər "Əməkdar elm xadimi", 21 nəfər "Əməkdar müəllim" adını qazandı. Amma danılmaz bir fakt, acı bir həqiqət də var ki, dördüncü hakimiyyət adlanan mətbuat və kütləvi informasiya vasitələrinin özülü olan BDU-nun jurnalistika fakültəsi ad sarıdan kasadlığa düşdü. Görünür, bu, güzgü rolunu oynayıb cəmiyyətin hər üzünü əks etdirən qələm sahiblərinin öz zamanında həmişə birmənalı qarşılanmamasından irəli gəlib.

Bu təltiflər sırasında jurnalistika fakültəsinin dekanı Yalçın Əlizadə ilə yanaşı, həyat illərini elmin mürəkkəbinə batırıb cildlər qalaqlamış, bu yaradıcı elmin məziyyətlərini arayıb yeni nəsillərə ötürmuş bir çox müəllimlərin də adını görmək istərdik...

Məsələn, professor Şirməmməd Hüseynovu. O, Azərbaycan təhsil sisteminin mənəvi mərkəzi hesab edilən BDU-da 1954-cü ildən çalışır. Ş.Hüseynov jurnalistika ixtisası üzrə Moskvada elmi-yaradıcı iş müdafiə etmiş ilk azərbaycanlıdır. 75 yaşlı Ş.Hüseynovun fəaliyyəti elmi, pedaqoji, yaradıcı, ictimai olmaqla bir neçə şaxəyə ayrılır. Jurnalistikanın bir elm kimi formalaşmasında Şirməmməd müəllimin xidməti daha böyükdür. Mətbuat tariximizin müxtəlif dövrlərinə aid məzmunlu mülahizələri, müəlliflərindən biri olduğu iki cildlik "Jurnalistika məsələləri" kitabı yüzlərlə tələbənin dərs vəsaitinə çevrilib.

Hələ imperiya dövründə belə Ş.Hüseynov özünün demokratik, cəsarətli, aydın və müstəqil fikirləri ilə seçilmiş bir insan kimi o dövrkü rəhbərlik tərəfindən dəfələrlə təqibə məruz qalıb. Lakin o, Azərbaycanın müstəqilliyi yolunda ön xətdə duraraq ardıcıl və cəsarətli mübarizəsindən çəkinməyib.

Azərbaycan mətbuatı tarixində Şirməmməd Hüseynovun ən böyük xidməti M.Ə.Rəsulzadə irsinin təmənnasız olaraq ədəbi nəşrini tərtib etməkdir. Birinci cildin çapından az sonra üzərində işlədiyi 2-ci cildin materiallarını hal-hazırda mətbuat səhifələrində müntəzəm dərc etdirir. Yaxın həmkarlarından birinin dediyinə görə, Şirməmməd müəllim M.Ə.Rəsulzadənin mətnlərinin dəqiq, səhvsiz işlənməsi üçün şəxsi xahişi ilə şərqşünas, tarixçi, filoloq alimlərin köməyindən istifadə edir. Bir əlində böyüdücü şüşə (lupa), bir əlində lüğət arxivlərdə, kitabların toz-torpağın içində heç kimdən təmənna ummadan ömrünü fəda etməsi bütün Azərbaycanda Ş.Hüseynovun birinci dərəcəli əsl tədqiqatçı jurnalist olduğunu sübut edir.

Əgər 80 illiyini təntənə ilə qeyd etdiyimiz BDU-nun adını daşıyan M.Ə.Rəsulzadə irsinin əsas araşdırıcısı, müstəqil Cümhuriyyətimiz haqqında ilkin məlumatların tədqiqatçısı kimi bir böyük insana öz qiyməti verilmirsə, dövlətin digərlərinə "payladığı" adlar şübhə altına düşür.

Sevda SABİRQIZI
Təzadlar, 22-29.02.2000

PROFESSORUN YUBİLEYİ M.Ə.RƏSULZADƏNİN İLDÖNÜMÜNƏ TƏSADÜF ETDİ

Mətbuatımızın ağsaqqalı Şirməmməd Hüseynovun 75 illik yubileyi Məmməd Əmin Rəsulzadənin 116-cı doğum günündə qeyd olundu.

Çağdaş Azərbaycan jurnalistikasının ağsaqqalı, M.Ə.Rəsulzadə irsinin yorulmaz tədqiqatçısı, professor Şirməmməd Hüseynov özünün 75 illik yubileyini rəmzi olaraq, dahi öndərin 116-cı ildönümü ilə eyni gündə qeyd etməyi qərara aldığından ölkənin bir çox tanınmış siyasət, ədəbiyyat və mədəniyyət adamları dünən 6-cı mikrorayondakı "Nübar" şadlıq sarayında Rəsulzadə xatirəsinin işığına, Şirməmməd müəllimin dövrəsinə yığışmışdılar.

Məclisdə ilk sözü söyləyən Müsavat başqanı İsa Qəmbər M.Ə.Rəsulzadənin millətimizin taleyindəki rolundan, tariximizdəki xüsusi mövqeyindən danışaraq, Ş.Hüseynovun öndərin irsinin araşdırılması yolunda göstərdiyi fədakarlığı yüksək qiymətləndirdi. İ.Qəmbər M.Ə.Rəsulzadəyə ildönümü keçirməyə daha çox Ş.Hüseynovun, həmçinin Müsavat Partiyasının haqqı çatdığını ayrıca vurğuladı.

M.Ə.Rəsulzadənin tariximizdəki şərəfli mövqeyi barədə, onun siyasi və ictimai fəaliyyəti, ilk müstəqil cümhuriyyətimiz haqqında ilkin məlumatları Ş.Hüseynovdan eşitdiyini deyən şair Famil Mehdi öz dünyagörüşünün, milli duyğularının formalaşmasındakı roluna, əməyinə görə mətbuatımızın ağsaqqalına dərin minnətdarlığını dilə gətirdi.

Şair Məmməd İsmayıl ilk müstəqil, demokratik dövlətimizin qurucusu olan böyük öndərin işıqlı ideallarının, müsavatçılıq ənənələrinin yaşadılmasında Ş.Hüseynovun, həmçinin Müsavat başqanı İ.Qəmbərin zəhmətini yüksək dəyərləndirdi. M.İsmayılın millətsevərlik, azadlıq ruhu ilə yazılan "Türkün sevgisi" şerini şairin öz dilindən eşitmək məclis iştirakçılarında dərin təəssürat oyatdı.

Məclisə bir qədər gec qatılan xalq şairi Bəxtiyar Vahabzadə "50 illik dostunun indi artıq bütün millətin, türk dünyasının dostuna çevrilməsindən" duyduğu fərəhi dilə gətirdi. B.Vahabzadə Ş.Hüseynova qələmini bundan sonra da yorulmadan işlətməyi, xalq, millət eşqilə yazıb-yaratmağı arzuladı.

Hərbi vətənpərvərlik ruhlu mahnı və marşların tanınmış ifaçısı Şəmistan Əlizamanlının əzəmətli səslə oxuduğu "Yol ver türkün bayrağına" nidalı bəstədən sonra yazıçı Sabir Azəri söz aldı. Özünün sənət və əqidə müəllimləri kimi məclisdəki iki ağsaqqal ziyalıya – Ş.Hüseynov və B.Vahabzadəyə üz tutan S.Azəri keçdiyi həyat yoluna görə bu gün hər iki müəlliminin qarşısında utanma-

dan, alnıaçıq dayana bilməsindən duyduğu fərəhi, qürur hissini təsirli sözlərlə ifadə etdi.

Mərasimin rəmzi səbəbkarı Ş.Hüseynov böyük öndərin əsərlərinə öz səhifələrində müntəməzəm yer verən "525"ə öz təşəkkürünü bildirdi: "Bugünkü məclis həm də "525"çilərindir, bu təntənənin mühüm bir hissəsi də onların payına düşür".

Məclis iştirakçılarının sırasında Müsavat Partiyasının baş katibi Vurğun Əyyub, partiyanın katibləri Mehman Cavadoğlu, Arif Hacıyev, görkəmli şairlər Ramiz Rövşən, Rüstəm Behrudi, tanınmış söz adamlarından Akif Səməd, Teyyub Qurban, Nəsir Əhmədli, Nəsiman Yaqublu və bir sıra başqa ziyalılar, mətbu orqanların rəhbərləri də vardı.

SEYFƏDDİN

"525-ci qəzet", 1 fevral 2000, səh. 8

ŞİRMƏMMƏD MÜƏLLİMİN DƏRSLƏRİ

O adın sehri 1986-cı ildə universitetin (o vaxt Azərbaycanda bir ali təhsil ocağı universitet adlanırdı – indiki BDU) jurnalistika fakültəsində oxuduğumuz ilk günlərdən başladı. Yuxarı kursların tələbələri Şirməmməd müəllimdən əfsanə kimi danışırdılar...

Birinci və ikinci kurslara dərs demirdi Şirməmməd müəllim.

Üçüncü, dördüncü, beşinci kursların dərs cədvəlində "dosent Şirməmməd Hüseynov" qeydinə boylanırdıq.

Dəhlizdə baş əyib biz olmayan auditoriyalara girməyini seyr edirdik...

***

Bizə növbə çatanda Şirməmməd müəllim professor rütbəsinə yüksəlmişdi. Amma bu, formal yenilik olmuşdu. Onun rütbəsi – adı idi.

...Dövran dəyişmişdi. Azad söz silkələnməsi sovet rejimini, sosializm sistemini sovurub aparırdı. Azərbaycana erməni təcavüzündən doğan xalq hiddəti hakim kəsilmişdi. Dinc zamanın tələbələri geridə qalmışdı. Avazı dəyişməyən müəllim auditoriyada duruş gətirə bilmirdi.

Ən pis dövrdə də çərçivəyə sığmamış Şirməmməd müəllim bizə qadağaların ovulub töküldüyü bir zamanda dərs deməyə başladı.

Mühazirələrinin bir-birindən gözlənilməz döngələri içində dərsin necə bitdiyini bilmirdin.

Tarixindən bixəbər olduğumuz Azərbaycan Xalq Cümhuriyyətindən – dövlətimizdən, bayrağımızdan soraq verirdi...

Adı batırılmış "Müsavat"ı dirildirdi.

Yurdun tarixini nəql edirdi.

Sovet rejiminin, kommunist rəhbərlərin görünməyən qatını açırdı.

Formasiyalardan keçmiş, müharibələrdə ələnmiş dövlətlərin portretini cızırdı.

Dostu da tanıdırdı, düşməni də.

Hər tezisinin altında daşdan keçən dəlil, fakt, sənəd.

O uzun monoloqlar arada belə nəfəs dərirdi:

- Bildin, nə deyirəm?

Bildiniz yox, bildin. Şirməmməd müəllim dərsi hamıya desə də, hər tələbəyə üz tutmazdı.

Bu cümləsində qəribə bir intonasiya vardı. Onu ifadə eləmək üçün gərək "Bildinmi nə deyirəm?" yazasan.

Hər həqiqət sərtliyi ilə dilə gəlirdi və biz bu azadlıq seli içində itib-batmamaq dərsi alırdıq...

***

Şirməmməd müəllim sovetin çox hücumuna sinə gərmişdi.

O yeni dövrün də öz basqıları oldu.

1989-cu ilin yanvarında sovet hökuməti Dağlıq Qarabağda xüsusi idarəetmə tətbiq eləmiş, torpağımızı birbaşa Moskvaya calamış, əslində, Ermənistanın vilayətinə çevirmişdi.

Həmin ilin yayında Azərbaycan Xalq Cəbhəsinin yaranması ilə milli müqavimətin yeni dalğası başladı. 1988-ci ildə cücərib boy atmış hərəkat yenə kükrədi.

Davamlı mitinqlər, kütləvi tətillər payızda bəhrə verdi. SSRİ rəhbərliyi Dağlıq Qarabağdakı canişini Arkadi Volskini geri çəkdi, onun başçılıq etdiyi Xüsusi İdarəetmə Komitəsi ləğv olundu, vilayətin Bakının tabeliyinə qaytarılması üçün Respublika Təşkilat Komitəsi yaratmaq qərarı çıxarıldı.

Bu yeniliyi Qarabağı ram eləmək imkanı sayan Şirməmməd müəllim siyasi icmalçısı olduğu Azərbaycan Televiziyasından respublika rəhbərliyini və xalq hərəkatı liderlərini birliyə çağırdı.

Çağırış Şirməmməd müəllimin düşmən elan olunması ilə nəticələndi.

"Xalq düşməni" kampaniyasına universitetin bir çox cəbhəçi fəalı başçılıq edirdi. Jurnalistika fakültəsindən olan fəallar bu haqsız hücumlara qarşı çıxdı, amma azlıqda idik. Yadımdadır, AXC-nin universitet şöbəsinin konfransında Şirməmməd Hüseynovun adını Ağsaqqallar Şurası siyahısına saldıra bilmədik.

Barışıq istəməyən qüvvələrin əli hər yerə çatırdı.

Bir "milli liderin" o vaxt dediklərinə baxın:

- Şirməmməddir, Şiraslandır, nədir...

Mitinqdə, xalqın qarşısında dedi bu sözləri.

Şirməmməd Hüseynovu çıxdaş eləməyə çalışan "siyasət" bizi 20 Yanvara apardı.

Dərs çıxarmaq lazım gəldi...

***

1990-cı ilin martında Baltik respublikaları – Estoniya, Latviya, Litva müstəqillik elan etmişdi. Dərsdə Şirməmməd müəllimə "Azərbaycan da SSRİ-dən ayrılmaq üçün müraciət edərmi" sualını verdim.

Cavabı qısa oldu:

- Asılıdır barıtın çoxluğundan gücü bombanın...

Şirməmməd müəllim 1970-ci illərdə jurnalistika fakültəsinin dekanı olmuşdu. Bir yol tədrisin rus dilində aparıldığı hərbi hazırlıq kafedrasına baş çəkəndə dəhliz boyu bütün yazıların rusca olmasına irad tutur:

- Azərbaycanda dövlət dili Azərbaycan dilidir. Niyə bir stenddə də Azərbaycan dilində yazı yoxdur?!

Kafedra müdiri səhvin düzəldiləcəyini vəd edir.

Bir müddət sonra hərbi hazırlıq kafedrasına reyd eləyən Şirməmməd müəllim divarda belə yazı görür: "Asılıdır barıtın çoxluğundan gücü bombanın".

Rusdilli adamların gücü hansısa silahın xarakteristikasını belə verməyə çatıbmış.

Şirməmməd müəllim o cümləni aforizmə çevirmişdi.

1990-cı ilin martında "Azərbaycan da SSRİ-dən ayrılmaq üçün müraciət edərmi" sualını eyni cür cavablandırdı:

- Asılıdır barıtın çoxluğundan gücü bombanın.

Yəni qeyrətimiz varsa, hər şey yaxşı olar.

O yaz fakültənin tədris qəzeti "Jurnalist"in yeni sayı bütünlüklə Azərbaycan Xalq Cümhuriyyətinə və yeni azadlıq mübarizəsinə həsr olundu.

Qəzeti bizim qrup hazırlamışdı. Şirməmməd müəllimin rəhbərliyi altında.

Bakıda fövqəladə rejim hökm sürürdü. Müxalif nəşrlər qapanmışdı.

Şirməmməd Hüseynov bədxahlarına belə dərs verdi...

***

1992-ci ilin yanvarında Şirməmməd müəllimlə şəhərdə rastlaşmağımı xatırlayıram. Universiteti bitirib "Azadlıq" qəzetində işə girmişdim.

Mənim şuşalı olduğumu bilirdi:

- Şuşaya "Qrad"ı kim aparıb?!

Reaktiv yaylım atəşi silahıdır "Qrad". Bu qurğu Şuşaya təzəcə aparılmışdı. Xankəndini də vururdular.

Mənim cavabımı gözləmədi:

- Sən bilirsən "Qrad" nə deməkdir?!

Yenə cavab gözləmədi:

- Kütləvi qırğın silahı!

Əvvəl rusca dedi bu sözü, sonra Azərbaycan dilində təkrarladi:

- Kütləvi qırğın silahı! Görürsən Rusiya televiziyası necə qabardır bunu?! Azərbaycanlıların kütləvi qırğın silahı tətbiq elədiyini bağırır dayanmadan. Sən bilirsən, bu nə deməkdir?!

Şuşadan bir neçə gün əvvəl çox nigaran qayıtmışdım. Ona görə donub qaldım.

Şirməmməd müəllim başını narazı-narazı bulayıb nöqtə qoydu:

- Səngər qazmaq lazımdır, səngər! Bildin, nə deyirəm?

Onun məşhur "Bildin, nə deyirəm?"inin nə demək olduğunu çox gözləmək lazım gəlmədi...

Ağır dərs oldu...

Hikmət SABİROĞLU,
Jurnalist "Çapar" dərgisi, 2019, № 5, 6

HAMIMIZIN MÜƏLLİMİ

"Əziz müəllim! Qəzet vasitəsilə Sizin məktubunuzu, uzaqgörən şeirlərinizi və Şirməmməd müəllimin ürəkdən gələn sərhini alıb cox sevindim. Bütün bunlar mənə 87-ci ilin noyabrındakı görüşümüzü xatırlatdı..."

Oljas Süleymenovun
Bəxtiyar Vahabzadəyə məktubundan

Hamı onu "ustad" adlandırır. Onu "canlı tarix", "yeriyən əfsanə", "dövrümüzün Zərdabisi", "bizim Şirməmməd müəllim" deyə çağıranlar da az deyil. Çünki o, indi də Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Abdulla Şaiq kimi klassik müəllimlərin fəaliyyətini bütün ruhu ilə bir məktəb olaraq yaşatmaqdadır. Bu mənada müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə inkar edə bilməz. Bu məktəbin müdavimi olmaq da hər jurnalistin gücü çatası bir iş deyil. Çünki bu məktəbin dərs yükü də ağırdır, əməl yükü də!

Əbəs yerə deyil ki, uzun illərdir Şirməmməd müəllim onu yaxından tanıyan dostları, tələbələri üçün, eləcə də sonrakı nəsillər üçün diqqətin, məsuliyyətin, dəqiqliyin, gördüyü işlərə hədsiz sevgi və sədaqətin, həm də prinsipiallığın, işgüzarlığın, obyektivliyin simvolu olaraq qalmaqdadır. Bu, əlli-altmış il əvvəl də belə idi, indi də belədir, bundan sonrakı illər vəfasızlıq etməsə, yəqin, sonacan beləcə davam edəcək.

Riyaziyyatdan jurnalistikaya gələn yolda

O, vaxtilə Şəkidə orta məktəbi qurtarıb, on yeddi yaşında şəhər ikiillik Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsində təhsil alır. Bir müddət Zaqatalada, Şəkidə bu fənn üzrə müəllim işləyir. Sonradan "Nuxa fəhləsi" qəzeti ilə başlayan əməkdaşlığı onu jurnalistika aləminə gətirib çıxarır. Amma o vaxtlar qazandığı bu riyazi təfəkkür və riyazi dəqiqlik onun bütün həyatına və tədqiqatlarına güclü təsir göstərdi.

90 illiyini qeyd etdiyimiz Şirməmməd Hüseynovla Şəkidəki evində – Gəncəli məhəlləsində görüşdük. Hər il yay aylarında onu doğma yurda – Şəkiyə çəkib gətirən təkcə bürkülü havalar və isti gecələr deyil. Bəlkə də bir çoxu artıq tarixə qovuşan əqidə, məslək dostları ilə bağlı qəlbində sönməyən isti, əziz xati-

rələrdir. Hər dəfə böyük azərbaycanlıların – Mirzə Fətəlinin, Rəşid bəy Əfəndiyevin, Bəxtiyar Vahabzadənin neçə vaxtdır ziyarət yerlərinə çevrilən evlərinə baş çəkməklə Şirməmməd müəllim vaxtı-zamanı bir anlığa da olsa, dayandıra bilir və bir daha böyük ruhların əbədiliyinə və diriliyinə şahidlik edir. Şahidlər varsa, demək yaşayan ruhlar da var.

Şirməmməd müəllim o günləri belə xatırlayır: "41-ci ildə müharibə başlandı. Cavan oğlan idim. Rəşid Əfəndiyev də bizim küçədə yaşayırdı. Qoca kişi idi. Çörək növbə ilə satılırdı. Mən onun talonunu götürüb gedib çörəyini alıb verirdim. Həmişə gedib baş çəkirdim ki, görüm nə kömək lazımdı. Çünki bilirdim ki, Rəşid bəy bu millətə xidmət edən bir şəxsdir. Qori Gimnaziyasının müəllimi olmuşdu... Mənim dünyagörüşüm burda formalaşıb. Kim idi bizə dərs deyənlər? Cümhuriyyət dövrünün yetirdiyi vətənpərvər, maarifin qədrini bilən müəllimlər, canını bu yolda qoyan insanlar...".

2700 illiyini qeyd etməyə hazırlaşdığımız Şəki şəhəri Azərbaycan tarixində özünəməxsus yerə sahibdir. Şirməmməd müəllim deyir ki, "Gəncəlilər türk tayfasıdır. Əcdadlarımız bu torpağı vətən ediblər, qoruyublar, burda yaşayıblar. Azərbaycan tarixini nəzərdən keçirsək, görərik ki, Şəki xanlığının da tarixi var, Şəki şəxsiyyətlərinin də. Vaxtilə Şəkidə Xan Sarayı tikilib. Amma Bəxtiyar Vahabzadənin bir şeiri var. Deyir Şəkini Qurcana çayı iki yerə bölür. Bir tərəfində Xan Sarayı və camaat ən çox ora gedir. Çünki orda xarici gözəllik var. Amma çayın o biri tayında bir koma var – orada Mirzə Fətəli Axundov anadan olub. Ora hər adam getmir. Amma millətin tarixi bəzən saraylardan yox, komalardan keçir. Bəxtiyarın bu şeirini ruscaya tərcümə etmişdilər. Çingiz Aytmatov oxuyub belə yazmışdı: "Əhsən!" İndi bizim bu Gəncəli məhəlləsi kimləri yetişdirməyib? Mirzə Fətəli Axundov, Rəşid bəy Əfəndiyev, Salman Mümtaz, Bəxtiyar Vahabzadə, Xalq artisti Əlövsət Sadıqov, dilçi Əzəl Dəmirçizadə, akademiklər Cəmil və Cəbrayıl Hüseynovlar, professor Yaşar Qırayev... Burada böyük bir ziyalı nəsli yetişib ki, onlar da millətin tarixində müəyyən iz qoyub...".

Şirməmməd müəllim böyük azərbaycanlılardan damşmaqdan doymur. Deyir ki, onlar böyük olduqları qədər də hərtərəfli insanlardır. Məsələn, Üzeyir bəy görürdü ki, uşaqlar üçün hesab dərsliyi yoxdur, hesab dərsliyi yazdı. Gördülər ki, rusca-türkcə lüğət yoxdur, Məhəmməd Əminlə birlikdə belə bir lüğət hazırladılar. İndi bəziləri deyir ki, Məhəmməd Əminin ali təhsili yox idi. Deyirəm ki, nə olsun? Mirzə Fətəlinin, Tolstoyun, Üzeyir bəyin, hətta Stalinin, Mao Tse-

dunun da ali təhsili olmayıb. Amma onlarm məktəbi tamam başqa idi. Onlar həyat məktəbi keçmişdilər.

"Tarix bir hökmü-ilahidir..."

Şirməmməd müəllim orta məktəbdə oxuyarkən sinif yoldaşları və müəllimləri ilə çəkdirdiyi şəkli göstərib deyir ki, onlardan yalnız mən qalmışam. Elə nəsildə də – qardaş, bacı arasında da qalan təkcə mənəm. Şirməmməd müəllim onu da deyir ki, insan bir qayə, bir məslək, bir məhəbbət və şövqlə yaşayanda heç bir xəstəlik ona yaxın gəlmir. Deyir ki, bir şairin şeirini oxudum. Yazır ki, nəsil gəlir, nəsil gedir, haradan gəlir, hara gedir, bu məxluqdan bilən varmı niyə gəlir, niyə gedir?.. Hərə gərək bilsin ki, dünyaya niyə gəlib, niyə gedir! Heç kim bu dünyaya könüllü gəlmir, oradan könüllü də getmir... İş görmək lazımdır! Mənə universitetdə elə insanlar dərs deyib ki – Məmməd Arif, Mir Cəlal, Həsən Şirəliyev, Nəsir İmanquliyev, Əli Sultanlı, Cəfər Xəndan, Feyzulla Oasımzadə... Bunlar elə kişilər idi ki, sözün həqiqi mənasında, onlara baxmaq, onlara oxşamaq, onların yolu ilə getmək ən müqəddəs bir iş sayılırdı. Çünki onlar mənfiliklərdən – tanışlıq, rüşvətxorluq, yerlibazhq kimi xəstəliklərdən kənar idilər. Millətin hər zaman belə insanlara ehtiyacı olub. Bax, mənim də həyatımın, yaşayışımın mənası budur.

Çox yaşamaq şərt deyil, çox işləmək şərtdir: nəyi qoyub gedirsən, sənin qoyduğunun bu millətə hansı xeyri var... Yalnız tarix bilir ki, gedəndən sonra kim xatırlanacaq, kim yaddan çıxacaq! Cümhuriyyət dövründə Azərbaycan əhalisi təxminən iki milyon olub. Ancaq Cümhuriyyət ensiklopediyasında cəmi 289 adamın adı var. Deməli, iki milyondan 289 adamın adı tarixə düşüb. Onların içərisində də millətin tanıdığı cəmi 17 adam var. Bizim ilk tariximizi yazan Abbasqulu Ağa Bakıxanov "Gülüstani-İrəm"in birinci cümləsində nə yazsa yaxşıdır: "Tarix bir hökmü-ilahidir". Tarixin çıxardığı hökmə hələ əl qoyan anadan olmayıb. Tarix hər şeyi yerinə qoyur". Belə yerdə düşünürsən ki, o, bu sözləri elə-belə demir. Dostu Famil Mehdinin sözlərilə desək, "Şirməmməd müəllim elmdə, siyasətdə havayı güllə atanlardan deyildi". Şirməmməd müəllim deyir ki, A.A.Bakıxanov bizim tariximizi yazdı – "Gülüstani-İrəm"i. M.F.Axundov dramaturgiyamızı yaradıb, ədəbi intibahın, tənqidi təfəkkür tərzinin əsasını qoydu ki, özümüzə baxaq, görək kimdir Hacı Qara, kimdir Dərviş Məstəli şah, kimdir fransız. Zərdabi isə qəzetimizi yaratdı. Bu, siyasi düşüncə, siyasi intibah idi. Daha sonra Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə gəldi və yeni ziyalı nəsli yetişdi. Həm də Azərbaycan sahibkarları formalaşdı: Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Aşurbəyovlar, Murtuza Muxtarov... Həmin sahibkarlar o ziyalıların işini maliyyələşdirdilər. Bütün bunlar dövlət yaratmaq üçün hazırlıqlar idi. Mənə elə gəlir ki, millət üçün ən böyük xidmət onun müstəqil dövlətini yaratmaqdır. Mən ömrümün 50 ilindən çoxunu bu işə həsr etmişəm. Məhəmməd Əminin əsərlərinin 5 cildini buraxmışam, indi isə 6-cı və 7-ci cildini nəşrə hazırlayıram. Fikirləşirəm ki, bundan sonra Nəsib bəy Yusifbəylinin əsərlərini, çıxışlarını yığıb çap etdirim. İnanın ki, onun elə əsərləri var ki, bizə hava-su kimi lazımdır. Ş.Hüseynovun yorulmaz fəaliyyətini AMEA-nın müxbir üzvü, professor, millət vəkili Rafael Hüseynov belə dəyərləndirir: "Üze-

yir bəyin və Məhəmməd Əmin Rəsulzadənin məqalələrini transliterasiya edərək həm qəzetlərdə, həm də ayrıca kitablar halında nəşr etdirən Şirməmməd Hüseynov kimi vicdanlı araşdırmaçının işini hazırda bir başqasının belə şövq, səriştə və peşəkarlıqla icra edə biləcəyini ağla gətirə bilmirəm".

"Yaşamaq qanmaqdır, qanasan gərək..."

Tarixən belə insanların dostları çox olmur. Şirməmməd müəllimin prinsiplərinə, tələblərinə, həyat və düşüncə tərzinə uyğunlaşmaq, doğrudan da hər adamın, hər kişinin işi deyil! Həyat yoldaşı Ülkər xanım deyir ki, kənardan hamıya olduqca tələbkar və sərt insan təsiri bağışlayan Şirməmməd müəllim evdə, ailədə bir o qədər yumşaq və ədalətlidir: "O, mənim müəllimim olub, mənə dərs deyib. 50 ildən çoxdur ki, indi hər gün mən ona imtahan verirəm".

Dostlarından professor Nurəddin Rzayev isə yazırdı: "Əgər məndən xəbər alsaydılar ki, son əsrin ən yüksək bəşəri və milli şüurlu, vicdanlı Azərbaycan jurnalisti kimdir, bir an belə düşünmədən Şirməmməd müəllimin adını çəkərdim". Bu nüfuzu, bu hörməti Şirməmməd müəllim illərdir ki, zərrə-zərrə toplayır və onu itirməkdən böyük qorxusu yoxdur. Müasir jurnalistikanın dünya şöhrətli nəzəriyyəçilərindən olan professor Zasurskinin xatirələrində maraqlı bir məqam diqqəti cəlb etməkdədir. O, Moskvadakı aspirantura illərini, gənclik dövrünü yada salarkən deyir ki, "Şirməmməd hələ aspirant illərindən Azərbaycanın böyük patriotudur. O, elmi işində də, həyat qaydalarında da, dünyaya baxışında da həmişə azərbaycanlıdır. Biz araq içməyə gedəndə, başqa əyləncələrə sərf etdiyimiz vaxtda Şirməmməd yataqxanada daha bir kitabı oxuyub başa çatdırırdı".

Şirməmməd müəllim deyir ki, Üzeyir bəy çox nəhəngdir. O yazır ki, gərək hər bir vətəndaş bilə ki, bu Vətən də bizimdir, bu millət də bizimdir, bu dövlət də bizimdir. Üzeyir bəy jurnalistlərin nə ilə məşğul olmağını da göstərir: "Vətən

abadlığı, millət səlamətliyi, camaat tərəqqisi, dövlət intizamı, bir də istiqlaliyyət. Kim bu prinsiplərə əməl edərsə, bizim qəzetin səhifəsi bir ananın öz doğma övladına açdığı qucağı kimi ona açıqdı". Şirməmməd müəllim Üzeyir bəydən söhbət düşmüşkən bir faktı da vurğulayır: "Mən qızlarımı musiqiyə vermişəm. Niyə? Baxdım ki, Üzeyir bəyin yaratdığı Dövlət Konservatoriyasında musiqişünasların əksəriyyəti ya ruslaşmış azərbaycanlılardır, ya yəhudilər, ya da ermənilərdir. Bizim milli kadrlarımız, musiqişünaslarımız isə azdır. İndi bir qızım sənətşünaslıq doktoru, professor, Mədəniyyət və İncəsənət Universitetinin rektorudur. O biri qızım Bəstəkarlar İttifaqının katibidir. Dədələri kimi namusla, qeyrətlə və düz işləyən insanlardır. Ailəndə gərək sənin əqidəni bölüşən insanlar ola. Mənim nəvələrim də elədi. Gərək birinci ailəndə təmizlik yaradasan və sonra da onu digərlərinə təlqin edəsən. Hərə öz ailəsində yaxşı vətəndaş yetişdirsə, bu millətin işi düzələr".

Vaxtın qiymətini onun kimi bilən az olar. Xüsusilə, yollarda itən vaxtı Şirməmməd müəllim nə özünə bağışlaya bilir, nə başqalarına. "Səksən-doxsan, bir gün yoxsan", – deyir Şirməmməd müəllim. Hətta bir dəfə sürücünün hər addımbaşı avtobusu saxladığını görən Şirməmməd müəllim ona 2 manat verib: "Saxlama, sür", – deyib. O vaxtdan universitetə maşınla gedib gəlir. Bir qaçqının maşınında. İndi bundan hər ikisi razıdır. O deyir yolda itən vaxtıma heyifim gəlir. Bir də insanları bir-birinə qarşı qoyan münasibətlər onun yaralı yeridir. Onun hamının əzbər bildiyi bir şeiri var: "Yaşamaq yanmaqdır, yanasan gərək..." Bir dəfə mən ona dedim ki, sən gərək belə yazaydın: "Yaşamaq qanmaqdır, qanasan gərək..."

Balığı və Xaliqi unutmamaq

Doğmaları deyir ki, bu yaxınlarda Lənkəranda idik. Orada vaxtilə Şəkinin birinci katibi vəzifəsində çalışan Hadi Rəcəbli ilə rastlaşdıq. Hadi müəllim dedi ki, o vaxtlar mənim yanıma gələnlərin hərəsi bir şey xahiş edərdi. Bir Şirməmməd müəllimdən başqa. Onun xahişi ancaq Mirzə Fətəli kimi bu yurdun yetirdiyi insanların evi ilə, irsi ilə bağlı olardı. Şirməmməd müəllim deyir ki, bir dəfə Şəkiyə gələrkən Mirzə Fətəlinin evinin damdığını eşitdim. Getdim mədəniyyət şöbəsinin müdirinin evinə, şəhər sovetinin, rayon sovetinin, birinci katibin evinə, hamısından bir-bir soruşdum ki, evinizdən damır, ya yox? Hamısının qapısını açanlar bir ağızdan bildirdi ki, dammır. Sonra getdim birinci katibin kabinetinə, dedim ki, sizin hamınızın evində olub, maraqlanmışam, sizin evlərdə dammır. Bəs niyə Mirzə Fətəlinin evində damır? Sağ olsunlar. Dərhal yığışdılar. Səhər onun ev muzeyinin qarşısında bir aləm adam vardı...

Şirməmməd müəllim deyir ki, Bəxtiyar dostum idi. Mən onunla yüz yerə getmişəm, yüz yerdə çörək yemişik. Bir dəfə də olsun heç birimizi əlimizi cibimizə salmağa qoymayıb. Deyib siz maaşla dolanırsımz, mən isə qonorar alıram, pulu mən verəcəm. O belə şəxsiyyət idi. Bir dəfə Bəxtiyargildə oturmuşduq. Gecə saat 11 idi. Qapı döyüldü, üstü-başı dağınıq bir nəfər içəri girdi və dedi ki, mən Kazan tatarıyam. Türmədən çıxmışam. İndi Kazana getməliyəm, pulum da yox, qalmağa yerim də. Bəxtiyar onu göndərdi hamama, mehmanxanada yer aldı, əynin-başın təzələtdirdi və sabahı pul da verib yola saldı. Aradan 6 ay keçən-

dən sonra həmin adam oğlu ilə birlikdə hədiyyə ilə gəldi Bakıya... Ona görə deyiblər ki, yaxşılıq elə, balığı at dəryaya. Balıq bilməsə də, Xaliq bilər.

P.S. Bu da "Ömrü boyu vətəninə, millətinə, doğma ana dilinə səcdə qılan, onların taleyini öz taleyi bilən və bu əqidəsi yolunda qələmi ilə çarpışan əsl vətəndaş jurnalist, tarix alimi" haqda deyilənlərə son. Ancaq bu elə sondur ki, Şirməmməd müəllim barədə bundan sonra deyilən hər sözə, görüləcək hər işə başlanğıc da ola bilər. Bu mənada əlli illik əqidə, məslək dostu Bəxtiyar Vahabzadənin Şirməmməd müəllimin kitabına ön söz kimi yazdığı olduqca maraqlı, maraqlı olduğu qədər də ibrətamiz sözlər həm də bu yazıya son söz ola bilərdi: "Şirməmməd Hüseynovu yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır. Bu isə qələm əhli üçün çox vacib şərtdir. O, ətrafımızda cərəyan edən irili-xırdalı bütün hadisələrə yalnız öz gözləri ilə baxır, öz ağlı ilə də qiymətləndirir. Onun öz yaxınlarına, qohum-qardaşına, dostlarına və hətta övladlarına olan münasibəti də eyni güzəştsiz prinsip və eyni baxış əsasında qurulmuşdur".

Bir də "əziz qardaşım, məndən "Şirməmməd kimdir?" – deyə soruşsalar, mən iki misra ilə belə cavab verərdim:

Şirməmməd – əxlaqın, haqqın öz səsi,
Ləyaqət, dəyanət mücəssəməsi!

Bəxtiyar QARACA,
"Kaspi" qəzeti, 2019

"ŞİRMƏMMƏD MÜƏLLİMİN MİRZƏSİ"

O-nun haqqında mən ancaq belə yaza bilərəm. "O" hərfindən sonra mütləq defis qoymaqla. Çünki O-ndan başlanan hər şey, O-nunla bitən hər şey Şirməmməd müəllimə aid olsa da həm də O-ndan bir defis qədər aralı, əlçatmazdır.

İdeallaşdırıram? Ola bilər.

İfrata varıram? Ola bilər!

Müqəddəsləşdirirəm? Ola bilər.

Ona görə ki, O İdealdır, İfratdır, Müqəddəsdir.

Şirməmməd Hüseynov məndən ötrü təpədən dırnağa Dövlətə, Cümhuriyyətə, Respublikaya oxşayan insandır.

Şirməmməd Hüseynov Azərbaycanın ölçülərindən, tələblərindən, milli ağciyəri, ürəyi və beyni tutumundan dəfələrlə artıq bir varlıqdır. Yəni təkcə özü deyil, bir az Məhəmməd Əmin, bir az Üzeyir Hacıbəylidir, bir az Fətəlixan Xoyski, bir az Əlağa Şıxlinskidir, bir az Həsənbəy Zərdabi, bir az Mirzə Ələkbər Sabirdir. Bir az daha kimdir... daha kimdir... daha kimdir... Və hamısı bir yerdə, bir küll halında Şirməmməd Hüseynovdur. O-nunla iki telelayihə həyata keçirmişik. Əslində daha doğru olar demək ki, O həyata keçirib, mən isə Şirməmməd Müəllimin dedikləri üçün bir jurnalist-keçirici olmuşam. Mən O-ndan müsahibə almamışam, sadəcə hüzurunda dayanmışam. O isə mənə baxıb və danışıb. Məni seçilmişə çevirib. Minlərin arasından birinci və sonuncu edib. Seçilmişliyim onda olub ki, Ş.Hüseynov öz ustad dərlsərini məhz mənə danışmaq, mənə diqtə etmək istəyib.

Həyat və ömür yoldaşı, dostu Ülkər xanım hər dəfə qapıdan girəndə də, çıxanda da xahiş edib ki, O-nunla hətta çəkilişdən əvvəl və sonrakı söhbətlərimizi belə videoya alaq. Qənimətdir. Mütləq tarixdə qalmalıdır. Mən isə həyatımın olduqca vacib işi kimi O-nun mühazirələrinin tarixə köçürülməsində iştirak etmişəm.

...Və mənim ola bilsin ki, ən şərəfli qələm adım budur:

Mir Şahin,
"Şirməmməd Hüseynovun Mirzəsi".

ŞİRMƏMMƏD HÜSEYNOV ADLI "YÜKSƏLƏN BAYRAQ" – ÖLÜMÜNDƏN 1 İL KEÇDİ

Tanınmış ziyalılar Cümhuriyyət tariximizin və mətbuatımızın görkəmli araşdırmaçısını vəfatının ildönümü ərəfəsində xatırladılar; həyat yoldaşı alimdən bəhs edən ikinci kitabını çapa hazırlayır.

"Söz vermişəm, 100 illiyi bayram eləməmiş bu işdən əl çəkən deyiləm. Gündə ən azı 8 saat o tarixi öyrənməklə, yazmaqla məşğulam". Bu sözləri ömrünün 90-ı adladığı zaman deyirdi. Təsəvvür edin, ömrün bu çağında bir an belə usanmadan, yorulmadan özü dediyi kimi, həm öyrənirdi, həm də tarix yazırdı...

Azərbaycan Demokratik Cumhuriyyətinin, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində və təbliğində, milli mətbuatımızın araşdırılıb çağdaş nəslə çatdırılmasında böyük xidmətləri olan Şirməmməd Hüseynov belə bir ömür yaşadı. Özü də qane olmurdu, deyirdi, yazmadıqlarım yazdıqlarımdan on qat çoxdur. "A kişi, Cümhuriyyətin 23 aylıq tarixinin hər günü bir əsrə bərabərdir! Məhəmməd Əmin yazırdı ki, 28 mayda Azərbaycan xalqı bir gündə qərinələrin sevincini yaşadı"-deyirdi ürəyində yanğı, gözlərində işıq olan ziyalımız... Həm də təmənnasız xidmət göstərirdi xalqına, nəinki qonorarsız, həm də cibindən xərcləyərək.

Yeni nəşrdən çıxmış kitabını nəvə-nəticəsi kimi əlində əzizləyərək göstərər, ön hissəsindəki qeydə işarə edərdi: "Yazmışam ki, kitab onu sifarişsiz və təmənnasız hazırlayan Şirməmməd Hüseynovun vəsaiti ilə də nəşr olunur. Mən heç vaxt gedib nə heç kəsin qapısını döyənəm, nə də heç kəsdən bir manat pul alan. Ayda 1000 manat Prezident təqaüdü almıram? Həm də universitetdə tam ştatda işləyirəm. Ona görə də nə xərci var özüm verirəm. Mənim gündəlik yeməyim 6-7 manat tutur. Yerdə qalanı sərf edirəm Cümhuriyyətçilərə".

Bax, belə kişi idi Şirməmməd müəllim! **"Mən Cümhuriyyətin 100 illiyinə 50 ildir hazırlaşıram".** Bu da Şirməmməd müəllimin sözləri idi. Əhdinə sadiq qaldı, Cümhuriyyətin 100 illiyini bayram etdi, özü də necə? Xoşbəxtlikdən bu böyük ziyalı ilə vaxtaşırı evində görüşmək qismətim olub. Əski əlifba ilə nəşr olunmuş "Azərbaycan"ın nüsxələrini latın qrafikasına çevirəndə hər işarə üstündə əsdiyini görürdüm, sözün mənası dəyişər, deyə... 95 illik ömrünün 75 ilini bax belə, fəal həyat keçirdiyini deyirdi həmişə. Ş.Hüseynov həm də fenomenal şəxsiyyət idi. 95 yaşında mükəmməl, çox güclü yaddaşa malik idi ki... Hər sözündə, söhbətində konkret mənbələrə, faktlara istinad edirdi, sitatlar gətirirdi.

Elə bil ki, elektron beyinə sahib idi, yazılanlar heç vaxt silinmirdi. Hətta küçədə gedəndə tanıyanlar yaxınlaşıb onun əlindən öpürdülər. Şirməmməd müəlllim o məhəbbəti qazanmışdı...

Belə əvəzolunmaz insan bir il öncə, 2019-cu ilin 24 iyununda həyata vida etdi... Ş.Hüseynova olan xalq məhəbbəti onun dəfn mərasimində yaşanan izdihamdan da bir daha aydın göründü. Hətta onun dəfn mərasimindəki izdihamı Həsən bəy Zərdabinin dəfn mərasimindəki izdihamla eyniləşdirənlər də oldu.

Bu itkidən hər kəs sarsıldı, amma ən çox sarsılan, hər zaman onu qoruyan ömür-gün yoldaşı Ülkər xanımdır. Qeyd edək ki, 45 il "Elm və həyat" jurnalında şöbə müdirliyindən baş redaktor vəzifələrinədək çalışmış Ülkər xanım hazırda AMEA-nın Ədəbiyyat İnstitutunda çalışır. Ülkər xanım Şirməmməd müəllimin vəfatından sonra ona həsr etdiyi 350 səhifəlik "Sizdən bir də olmayacaq. Əlvida" kitabını hazırlayıb nəşr etdirib. Kitabda iyunun 24-dən (Şirməmməd müəllimin vəfat etdiyi gündən – E.P.) avqustun 2-dək, 40 gündə Azərbaycan mətbuatında Ş.Hüseynov haqqında yazılmış məqalələr toplanıb. Şirməmməd müəllimin yaradıcılığından bəhs edən ikinci kitabı – "Haqqın səsi"ni Ramiz Övsər (BDU-nun Şəki filialının müəllimi) hazırlayaraq nəşr etdirib. Bu kitab tədqiqat işidir. Ülkər xanım "Yeni Müsavat"a dedi ki, hazırda Şirməmməd müəllimə həsr etdiyi ikinci kitabı hazırlayır. Deyir, virus imkan vermədi, yoxsa indiyə nəşr olunardı. "Cümhuriyyət adamı-olduğu kimi" adlanın 500 səhifəlik kitabda Ş.Hüseynov haqqında sovet dövründən başlayaraq yazılmış məqalələr toplanıb. Ülkər xanım özü də 60 illik ömür yoldaşı barədə düşüncələrini, avtobioqrafik məlumatları həmin kitabda, "Uzun ömrün qısa anları" bölümündə çap etdirəcək.

"Şirməmməd müəllim müdrik insan, böyük alim, müəllim və el ağsaqqalı idi". Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında birinci dərəcəli müşavir-diplomat, ictimai xadim, araşdırmaçı alim **Ramiz Abutalıbov** söylədi. Ramiz müəllim özü də böyük araşdırmaçı ziyalımız olduğu halda, Ş.Hüseynova yüksək dəyər verdi: "Mən şəxsən çalışmışam ki, onun xeyir-duasıyla iş görəm".

Deputat Fazil Mustafa dedi ki, Şirməmməd Hüseynov Azərbaycanın nadir rastlanan biliyə malik aydın və çalışqan şəxsiyyət idi: "Həm də məqsədyönlü, sistemli çalışa bilən az sayda elm adamlarından sayılırdı". Millət vəkili bir xatirəsini də bölüşdü: "1998-ci ildə "Azadlıq" qəzeti redaktorunun təklifi ilə köşə yazıları yazırdım. Razılaşdıq ki, rahat yazmam üçün psevdoimza variantını seçək və bununla həm özümə, həm də qəzetə də hücumları azaldaq. "Toğrul Oruc" imzası ilə xeyli köşə yazılarım dərc olundu. Bir gün qəzetin baş redaktoru Gündüz bəy (Tahirli – E.P.) yanıma gəldi ki, bəs, Şirməmməd müəllim gəlmişdi, deyirdi Toğrul Orucu mənimlə tanış edin. Öncədən razılaşdığımız kimi kimliyimi bildirməmişdilər. Şirməmməd müəllim demişdi ki, mənim arzuladığım publisistikanı onun qələmində sezdim, hər dəfə də yazılarını təkrar oxuyuram. Sonradan bunu Şirməmməd müəllimə xatırladarkən, təəccübləndi və o vaxt söylədiklərini təsdiq etdi. Vəfatından bir neçə ay əvvəl də evində ziyarət etmişdim, çox maraqlı söhbətimiz olmuşdu. Allah ruhunu şad etsin!"

"Keçmiş irslə müasirliyi sintez etməyi bacaran alim, görkəmli tədqiqatçı Şirməmməd Hüseynovla 20 ildən çox jurnalistika fakültəsində eyni kafedrada çalışmışıq".

Bu fikirləri tarix elmləri doktoru, BDU-nun professoru Nəsiman Yaqublu söylədi. Bildirdi ki, Şirməmməd müəllimdə diqqət etdiyi başlıca cəhət zəhmətsevərliyi, çalışqanlığı və daima öz üzərində çalışmağı idi: "Son illərdə isə öz fəaliyyətini bütövlükdə keçmiş irsin öyrənilməsinə, toplanılıb gənc nəslə çatdırılmasına həsr etmişdi. O, bu işin də maraqlı bir üsulunu tapmışdı, yəni keçmiş irsi müasirliklə əlaqələndirib oxuculara çatdıra bilirdi. Məsələn, Rəsulzadə o zaman nə yazıb və indi necədir? Ü.Hacıbəyli o zaman nə yazıb, indi necədir və s. Bu, çox vacib problemdir ki, Şirməmməd müəllim elmimizdə və jurnalistika tariximizdə sistemləşdirib insanlarımıza təqdim etdi".

N.Yaqublunun sözlərinə görə, onun bir üstünlüyü də auditoriyanı ələ almaq və diqqətli saxlamaq baçarığı idi: "Dövrün, çox zaman günün olduqca aktual bir məqamını tapıb söyləyirdi və auditoriyanı maraq dairəsində saxlayırdı. Dəyərli bir araşdırmaçımız idi."

"Professor Şirməmməd Hüseynovu bizdən ayıran bir illik zaman onun araşdırmaçı-alim, millət yaddaşının keşikçisi, pedaqoq və publisist kimi miqyasını, həm də dəyərini bir daha göstərdi".



Bu fikirlər isə professor Qulu Məhərrəmliyə məxsusdur. Şirməmməd Hüseynov haqda danışan həmsöhbətimiz dedi ki, o ilk növbədə mətbuat tariximizin, bu mətbuata hopmuş milli məfkurə, ictimai düşüncə və istiqlal tariximizin araşdırmaçısı idi: "Gerçək elmi mühit görmüşdü, Moskva Dövlət Universitetinin aspiranturasını bitirmiş, peşəkar tədqiqatçılıq məktəbi keçmişdi, bu səbəbdən də fərqli idi. Tarixi bilikləri, bu tarixə aid olan milli problemləri ustalıqla populyarlaşdıra bilirdi. Ensiklopedik zəka sahibi olan Şirməmməd müəllimin bir üstünlüyü də araşdırmaçı-alim fəhmi ilə publisist məharəti ustalıqla birləşdirməyi bacarmasında idi. Onun bizə zəngin irs kimi qoyub getdiyi bütün əsərlərində bu keyfiyyət özünü göstərir. Bu gün internetdə tez-tez qarşılaşdığımız, ustadın canlı nəfəsinin duyulduğu televiziya-radio çıxışları da məhz bu səbəbdən xeyli populyardır".

Q.Məhərrəmli qeyd etdi ki, Şirməmməd müəllim bu xalqın yaddaşında həm də Cümhuriyyət tarixinin, onun qurucusu Rəsulzadə irsinin tədqiqatçısı və təbliğatçısı kimi qalıb: "Ona görə də professor Şirməmməd Hüseynovun adı həmişə Cümhuriyyətlə, istiqlal düşüncəsi ilə, öz əsərləri ilə həmin milli istiqlal düşüncəni qidalandırmış Zərdabi, Əli bəy Hüseynzadə, Əli bəy Ağaoğlu, Üzeyir Hacıbəylinin adları ilə birgə assosiasiya olunacaqdır".

Vəfatının birinci ildönümü ərəfəsində həmkarlarla birlikdə böyük müəllimimizin məzarı başındayıq, II Fəxri Xiyabanda... Mərmər sinə daşının üzərində ən çox sevdiyi fikirləri həkk olunub: "Ata-babalarımız bizə bu Vətəni – cənnət məkanı Azərbaycanı əmanət ediblər. Biz də onu göz bəbəyimiz kimi qoruyub gələcək nəsillərə əmanət etməliyik". Bu fikirlər həm də bizlərə nəsihətdir...

Qəbrüstü abidəsi o qədər canlıdır ki... (Qəbrüstü abidəni Natiq Əliyev – Bəxtiyar Vahabzadə, Cavad Heyətin və digər nəhəng insanların da qəbrüstü abidələrin də müəllifi odur- hazırlayıb.) Sanki adamla bu dəqiqə danışacaq, sonra da gözəl intonasiya ilə "bildin"-soruşacaq. Sağlığında "canlı əfsanə" deyərdik. İndi abidəsi də canlıdır elə bil...

Ruhun şad, məkanın cənnət olsun, böyük ustad!

Elşad PAŞASOY,
Müsavat.com, 24 iyun 2020

AYDIN GÖRÜNƏN AYDINLAR

Fazil MUSTAFA,
millət vəkili

Azərbaycanda titulları, adları, medalları, nişanları çox sevirlər. İnsanın tanıtımında bu atributlar əhəmiyyətli rol oynayır. Dini adların spekulyasiyasından tutmuş, sənət adlarının, elmi adların əməlli-başlı insan həyatının təsəllisinə çevrildiyini bizim məmləkətdə hər məqamda müşahidə edə bilirsən. Fəxri adlar almaq üçün dövlətdən inciyən onlarla alimi, müğənni, peşə adamını, yazıçını, rəssamı tanımışam. Hacı titulunu adının qabağına hörənlərin çoxu ibadətini axsadır, professor, akademik olanların çoxu yaradıcılıq vərdişini itirir, xalq artisti adını qamarlayanların çoxu arxayınlaşaraq hansısa yeni sənət nümunələrini ortaya qoymağı düşünmürlər. Böyük əksəriyyət axirətə aparmaq üçün xeyli mənasız kitab makulaturası, dəmir medalcıqlar, ayrı-ayrı qurumların üzvü kimi fəxri təltiflər toplayır və müəyyən bir yaş hüdudlarında tükəndiyini dərhal büruzə verirlər. Azərbaycan elminin, sənətinin, siyasətinin, mənəvi sferasının artezan quyularının yanında azsaylı, qurumayan, həmişə axmağa bir cığır saxlayan bulaqların da nümunəsi azçox təsəlli vermişdir.

Bu qurumayan bulaqlardan biridir Şirməmməd Hüseynov. Ömrünün 90-cı ilinə qədəm qoymuş bu Azərbaycan ziyalısı, ilahi mənada Yaradanın verdiyi biliyin, düşüncənin, ərdənin zəkatını haqqıyla vermiş sayıla bilər. O, dürüst bir universitet müəllimi olmuş, yalnız aşıladığı bilgi ilə deyil, müəllim davranışı ilə yüzlərcə tələbənin faydalı insan obrazının biçilməsinə təsir göstərmişdir. Elə buradaca durmaq olardı və bu, Ona sayğı üçün ömrün sonunadək kifayət edərdi. O, öz peşəsinin ustadı səviyyəsinə qalxacaq bir media bilgini idi, bununla da yüzlərcə qəzetçinin etalon olaraq müəyyənləşdirdiyi dəyəri qazanmışdır. Lakin o burada da durmaq şansını istifadə etmədi. Azərbaycan türkcəsində bir-birinə yaxın olduğu qədər də dərin mahiyyət fərqi olan iki feilin mövcudluğunda doğru istiqamət götürə bildi. Bunlar "Qayğısına qalmaq" və "Həsr etmək" feilləri arasında seçim idi. Şirməmməd müəllim tələbəsinin, oxucusunun, ailəsinin, tanıdığı-tanımadığı Azərbaycan vətəndaşının qayğısına qaldı və bununla bəlkə də kifayətlənmək ona qarşı cəmiyyətdə yenə də eyni sayğınlığı qoruyacaqdı. Lakin yenə də həmin məqamda durmaqdan imtina edərək həyatını, biliyini "Həsr etmək" mərhələsinə yönəltdi. Bu ayrı bir fövqəladə ibadət sayıla bilərdi. Yaşamımızda, mövcudluğumuzda, millətə çevrilməyimizdə, dövlət qurmamızda misilsiz haqqı

olan Məhəmmədəmin Rəsulzadənin haqqını qaytarmağa özünü, biliyini həsr etdi. Kimlərin nə cızıb-pozduğunu bir tərəfə qoyun, bu millətin tarixində Məhəmmədəmin Rəsulzadə nəhəngliyində, yəni özündə bir neçə əvəzsiz dəyəri birləşdirən şəxsiyyət tapmaq çətindir. Dövlət adamı, ictimai xadim, doğru din və tarix şüuruna sahib, yetkin nəzəri biliyi, ədəbi düşüncəsi və ömür yolunun hansısa anına şəxsiyyətini əzdirməmiş bir insanın üzərimizdə ödənilməsi mümkün olmayan haqqını tanıtım mübarizəsinə girdi. Bunu şüarlarla, çağırışlarla etmədi, əsərlərini, fikirlərini tarixin, arxivlərin tozlarında təmizləyərək düşünməmiz, öyrənməmiz üçün qarşımıza qoydu. Məhəmmədəmin Rəsulzadənin tapılması mümkün olan bütün irsini topladı, yeni əlifbaya çevirdi, şərh etdi, nəşr etdi, təbliğ etdi. Düşündükmü, öyrəndikmi, fərq etməzdi, bu Onu ümidsizləşdirərək işindən, hədəfindən ayırmadı, "mənə qiymət verin!" deyə çığır-bağır salmadı, sanki hər dəfə Rəsulzadənin yeni cildi nəşr olunanda özü-özünə özündən razılıq yaratmayacaq qiymətlər qoymağa başlayırdı. Daha bir şeylər tapmaq, daha bir şeyləri tanıtmaq, dayanmadan, durmadan çalışmaq üçün bu qiymətləndirmə forması bəlkə də bitməyən, tükənməyən enerji qazandırırdı Ona. İnsanın özünün özünə qoyduğu qiymətdən obyektiv hansı meyar ola bilər ki? O zaman özünü Həsr edə bilirsən ki, başqalarının qiymətləndirməsinə aldanmırsan, aludə olmursan, tamarzı qalmırsan.

Ötən il Azərbaycanın xilaskarı və haqqını hələ də görməzdən gəldiyimiz Nuri Paşa ilə bağlı bir tədbir keçirəndə, irəliləyən yaşını nəzərə alaraq iştirakını düşünməsəm də, hörmət əlaməti olaraq belə bir tədbiri keçirəcəyimizi zəng edərək bildirdim. Hamıdan öncə gəlmişdi. Bakının işğaldan azad olması hadisəsi ilə bağlı o qədər dəyərli çıxış etdi ki, hər kəsi aydın zəkası ilə heyrət içində buraxdı. Xüsusilə də 1919-cu ildə ingilislər tərəfindən Batumda həbsdə saxlanan və edam cəzasına məhkum edilən Nuri Paşanın Azərbaycan hökumətinin göndərdiyi komandoslar tərəfindən qaçırılmasının detallarını çatdırması hamının marağını çəkdi. Tariximizin birinci müstəqillik dövrünə bu qədər tükənməz sevgi daşıyıcısı olan bu cür tədqiqatçının varlığına necə sevinməyəsən?

Ona görə də hər gün titullarını, vəzifələrini qoruyucu paltar kimi əyninə geyib daşıyan, həm də dövlətdən, cəmiyyətdən qayğı, pul, fəxri xiyabanda yer gözləyən personallarla müqayisədə, 90 yaşının həndəvərində belə, öz haqqını unudaraq Rəsulzadənin, Həsən bəy Zərdabinin, Üzeyir bəyin və daha kimlərin haqqını qaytarmağımızın vacibliyini bizlərə xatırladan Şirməmməd müəllimin obrazını daha aydın görə bilirsən. Məhz aydın görə bildiyim Şirməmməd Hüseynov obrazı, azsaylı Azərbaycan Aydınının obrazıdır.

"İstiqlalin işığında" kitabı, Bakı, 2014

ŞİRMƏMMƏD MÜƏLLİMİN "ŞİNEL"İ

Əflatun AMAŞOV,
Azərbaycan Mətbuat Şurasının sədri

Son günlər həmkarlarım və qələm əhli ilə söhbətlərimin çoxunda söz-sözü çəkərək Şirməmməd müəllimin üzərinə gəlir. Yəqin ki, yubiley əhvali-ruhiyyəsindədir. Ölkə jurnalistlərinin ağsaqqalı, Bakı Dövlət Universitetinin professoru 90 yaş ərəfəsindədir. Onun yüzü də aşıracağına əminik. Minlərin xeyir-duası müqabilində bu nədir ki... Tanınan, üzdə olan, hətta hələ uğurlara imza atmayan jurnalistlər sanki sözləşiblər kimi, söhbətin əvvəlində, ya sonunda şəstlə vurğulayırlar: Biz Şirməmməd müəllimin "şinel"indən çıxmışıq.

Tələbəliyimin bir hissəsi Vətəndən uzaqlarda keçdiyindən, Şirməmməd Hüseynovun müəllim, dekan, kafedra müdiri işlədiyi universitetlərdə mühazirələrini dinləmək xoşbəxtliyi mənə nəsib olmayıb. Bu üzdən, yaxından müşahidə etmədiyim, daxilinə nəzər salmadığım həmin "şinel"in parametrlərini, xüsusiyyətlərini yalnız nəzəri cəhətdən xəyalımda canlandırıram. Bu zaman istər-istəməz milli jurnalistikamızın korifeyi Mirzə Cəlilin Azərbaycan ictimai mühitinə səmimi etirafla təqdim etdiyi zərb-məsələ çevrilən sözləri yada düşür: "Biz Qoqolun "Şinel"indən çıxmışıq". Bu bircə cümlə bəs edib ki, hətta Qoqolu tanımayanlar belə klassik rus yazıçısını görkəmli şəxsiyyət kimi qəbul edələr. Söhbət öz ustadlarımızın üzərinə gələndə isə məsələ qəlizləşir. Çox vaxt susuruq, duruxub qalırıq, böyüklərimizi sağlıqlarında olduqları kimi qiymətləndirməkdə çətinlik çəkirik. Toz-torpaqlı, yamaq götürməyən, nimdaş "Şinel" sahibini Vətənimizdə şöhrətləndirənlərin özləri, nədənsə, belə diqqətdən uzun müddət kənarda qalırlar.

Bəlkə də bu müqayisəm kimlərəsə məqbul görünməyəcək. Zənnimcə, Şirməmməd müəllimin "şinel"i bütün yadelli nümunələrlə müqayisədə mənə daha möhkəm, yaraşıqlı və geniş görünür. Çünki bu "şinel" demokratiya havalıdır. Şirməmməd müəllim mühazirələrində də, beynəlxalq şərhçi kimi çıxışlarında da, publisistik yazılarında da, adi həyatda da haqqı nahaqqa vermədiyi, boğazdan yuxarı fikirlər söyləmədiyi, həqiqəti həmişə, hər yerdə gözün içinə dik dediyi, bəzilərinin sərtlik kimi qiymətləndirdiyi xasiyyətində daxilən humanizmə, xeyirxahlığa səxavətlə yer ayırdığı üçün belə qənaətdəyəm. Gəlin görək bu "şinel"dən kimlər çıxmayıb?! Adları sadalamağa kifayət qədər vaxt və hövsələ gərəkdir. Bir də qorxuram inciyənlərin sayı çox olar. Yalnız onu deyə bilərəm ki, bu "şinel"in istisinə qızınanlar, ondakı hikmət dünyasından, xəzinədən pay götürənlər ad-sanından, tutduğu mövqedən asılı olmayaraq peşə prinsiplərini sədaqətlə qoruyan layiqli vətəndaş kimi tanınırlar. Duruş gətirməyənlər də tapılır. Bunu da təbii saymaq olar. Çünki hər jurnalistika fakültəsində oxuyanın alnına jurnalist olmaq yazılmayıb...

Bəzən düşünürəm ki, mən də dəfələrlə Şirməmməd Hüseynov məktəbinin müdavimləri ilə bir sırada əyləşib onun şirin ləhcəli düzümlü-biçimli, həm də cəsarətli mühazirələrini, valideyn nəsihətlərinə bənzər söhbətlərini dinləmişəm. Bütün bunlar romantik təxəyyülün təsvirləri olsa da, müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə dana bilməz. Bu məktəbin sonadək müdavimi olmaq, necə deyərlər, hər jurnalistin işi deyil. Dərs yükü də ağır, əməl yükü də. Bunu mən demirəm, dünənki və bugünkü tələbələri etiraf edir. Elə mənim özüm də onun dünyasından nələrisə əxz etməkdə həmişə maraqlıyam. Çünki bu böyük insanı tutduğu yoldan döndərmək, tapındığı əqidədən sapdırmaq mümkün olmayıb, onun inancı da, nifrəti də, məhəbbəti də sonadəkdir.

İcra strukturlarında uzun müddət vəzifə tutub yenidən jurnalistikaya qayıdarkən "bir həsir, bir də Məmmədnəsir" vəziyyətində olan həmkarımız geniş maddi imkanlardan imtinasına, təmənnasızlığına görə hörmət sahibi olmasını belə əsaslandırır: "Mən də Şirməmməd müəllimin "şinel"indən çıxmışam". Şəstlə, vüqarla söylənilən fikirlər istər-istəməz adamı o "şinel"ə boylanmağa sövq edir.

Yenə məndən iciməsinlər, daha bir müqayisəm var. Görürsən ki, kifayət qədər tanınmayan, bir neçə kitabı çıxan şəxslər az qala hər gün mətbuatın gündəmindədirlər. Doğrusu, bu ürək sözlərimi qələmə alarkən də mənə məlum idi ki, Şirməmməd müəllimin həyat və fəaliyyətini işıqlandıran məxəzləri tapmaq müşkül işdir. Axtarmadım, özü ilə də əlaqə saxlamadım. Xarakterinə bələd olduğumdan əmin idim ki, mənə lazım olanları deməyəcək. Bakı Dövlət Universitetində 80 illik yubileyi ərəfəsində "Şirməmməd Hüseynov. Biblioqrafiya" kitabı tərtibçilərinin bu ərməğan üçün hansı çətinliklər çəkdiklərini də təsəvvür edirəm. Həmin nəşrdəki hər cümləyə, hər fikrə necə məsuliyyətlə yanaşıldığı göz qabağındadır. Orada toplanmış materiallardan bir mətləb hasil olur ki, Şirməmməd Hüseynov istəsəydi dünyanın istənilən ölkəsinin öncül universitetlərində fəxri yerlərdən birini tutardı. Amma o, Vətənə üstünlük verib, öz "şinel"i, öz məktəbi ilə çığırını salıb, yüzlərin, minlərin könlündə özünə rəğbət, məhəbbət şamı yandırıb. Buna baxmayaraq, böyük bir mənəvi xəzinənin sahibi – 15 kitabın, 600-ə yaxın məqalənin müəllifi olduğunu kimsə xatırlatmağı özünə rəva bilmir. Amma mən xatırlatmağı vacib bilirəm ki, Şirməmməd Hüseynovun bütün işlərini bir kənara qoysaq, təkcə Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məhəmmədəmin Rəsulzadənin irsini toplayıb üzə çıxarması bir institutun görə biləcəyi nəhəng işdir.

Şirməmməd müəllim qeyrət çəkən Kişilərdəndir. Onun elmdə də güzəşti yoxdur. Keçmiş tələbələrindən biri deyir ki, diplom işimdə həmin mövzu ilə əlaqədar monoqrafiyası olan iki müəllimini tənqid etdiyinə görə bir qədər ehtiyatlanırmış. Müdafiə uzun çəkib, geniş müzakirə və mübahisələrə səbəb olub. Yekun nöqtəsini isə Şirməmməd müəllim qoyub: "Əgər bizim məzun belə məsul zamanda sözünü cəsarətlə deyə bilirsə, o, diploma, əla qiymətə və sabah jurnalist kimi işləməyə layiqdir".

Şirməmməd müəllimin dərsləri bizlərə nələri öyrədir? Bu barədə günlərlə danışmaq mümkündür, amma bir neçə məqam üzərində dayanmaq istərdim. Milli mətbuatımız Həsən bəy Zərdabidən bəri 140 ilə yaxındır yol gəlir. Onun ənənələrinin davamında, inkişafında, əxz olunmasında Şirməmməd Hüseynovun pedaqoq, tədqiqatçı və jurnalist kimi xidmətləri misilsizdir. Şirməmməd müəllim prinsipiallıq, işgüzarlıq, obyektivlik nümunəsidir. Elə bu gün də o, istedad işartısını duyduğu hər bir tələbəyə qayğı ilə yanaşır, fakültəyə "paraşüt"lə düşənlərə isə hər hansı bir güzəşti praktikasından yad sayır. Əks halda "Şirməmməd müəllimin "şinel"i" fenomeni olmazdı.

"525-ci qəzet", 17 dekabr 2014

ZAMANIN VƏ SƏNƏTİN YARADICISI, TƏBLİĞATÇISI VƏ QORUYUCUSU

Tofiq ABBASOV,
"New Baku Post" qəzetinin baş redaktoru

Ziyalılığın missiyası barədə saatlarla diskussiyalara varmaq olar. Ziyalılıq bütün dövr və vəziyyətlər üçün yararlıdır və onunla ən praqmatik meyarları belə, müəyyənləşdirib hərəkətə keçmək mümkündür. Bütün hallarda məqsədli şəkildə addım atmaq zəruridir və yalnız o halda nəticə əldə etmək olur. Bunun üçün isə bilik, qətiyyət, dərrakə və əzm lazımdır. Belə fenomenal xüsusiyyətləri özündə birləşdirənlərin dəst-xətti həmişə yaşayır və örnək kimi qəbul edilir.

Lakin ən cazibəli tarix onda yaranır ki, sadalanan keyfiyyətləri həm müasirləri, həm də sonrakı nəsillər anlayaraqdan həyat tərzinə çevirir. Əsl ziyalılıq baş verən və əldə olunanlarla kifayətlənməyib, daim irəli getməyin yeni yollarını aramaqdır. Belə daimi narahatlıq söhbətin nədən getməsindən asılı olmayaraq, daxili aləmin vəziyyəti kimi təbii qəbul edilməlidir. İnkişafın sərhədi yoxdur, yəni, sərhədsizdir və kamil insanlar həmişə həmin sərhədləri genişləndirməyə çalışırlar, bu niyyətlərində israrlıdırlar.

Azərbaycan jurnalistikasının zəngin ənənələri və görkəmli nümayəndələri həmişə olub. Həmin varlıqların bu gün də olması ürəklərə nikbinlik, sabaha inam hissi yaradır. Çətin sənətin bayrağını ucalıqdan enməyə qoymayan Şirməmməd müəllim neçə illərdir ki, Ustad kürsüsündən təkcə olub-keçənlərə, mövcud vəziyyətə münasibət bildirməklə kifayətlənmir, eyni zamanda əməli və nümunəvi fəaliyyət göstərir, sözün əsl mənasında tər töküb misli-bərabəri olmayan fədakarlıqla tarix yaradır.

Belə şəxslərdən yazmaq, fikir yürütmək ona görə çətindir ki, çoxşaxəli fəaliyyəti əhatə etməyə sözlər və ifadələr də azlıq edir. Ustadla şəxsən tanış olduğuma, onunla əsl həqiqət anlarını yaşadığıma, sənət və həyat dərslərini ondan aldığıma görə həmişə düşünmüşəm ki, lakonik tərzdə Şirməmməd müəllim barədə nəsə deməli olsam, onun portretinə, xasiyyətinə yaraşan hansı söz və ifadəni işlətmək yerinə düşər?

Şəxsi araşdırmalarımın nəticəsi belədir – müasir Azərbaycan jurnalistikasının yaradıcısı, təbliğatçısı və qoruyucusu Ustad Şirməmməd Hüseynov!

Burada heç bir şişirtmə və pafos yoxdur. Çünki bu bir reallıqdır ki, Ustad ölkədə və cəmiyyətdə nə baş verməsindən asılı olmayaraq, daim müqəddəs bildiyi işinin başında olub, auditoriyalarda hər tələbə uğrunda fədakarlıq göstərib və ən

əsası, həmişə daxilindəki həqiqətləri açıqlayıb.

Bir dəfə Ustadla görüşdən qayıdarkən həmkarlardan biri ilə rastlaşdım. Şirməmməd müəllimin mənə verdiyi əlyazmanı ona göstərdim. Əlyazmanı diqqətlə nəzərdən keçirən həmsöhbətim belə bir ifadə işlətdi: "Əsl alim xəttidir, əhsən bu kişiyə". Lakin işin kulminasiyası həmkarımın qənaəti yox, mənim ona əlavəm oldu – dedim ki, "Bu yazı Üzeyir Hacıbəylinin itmiş sayılan məqaləsinin dəqiq mətnidir və Şirməmməd müəllim onu Axundov kitabxanasının arxivində uzun sürən axtarış-tədqiqatdan sonra tapıb". Həmkarım da borclu qalmayaraq, söhbətin ana xəttini vurğuladı: "Bax buna görə Şirməmməd müəllimə elə indi heykəl qoymaq lazımdır. Çünki tariximizi özümüzə qaytarır. Əhsən bizim Ustada..."

Çətin müharibə illərindən sonra jurnalistika elmi ilə məşğul olmuş canlı əfsanə və yenilməz Ustad Şirməmməd müəllimin neçə-neçə ampluada mükəmməl olmasının səbəbi odur ki, sənətə bütün varlığı ilə bağlıdır. O, nadir fədailərdəndir ki, həmişə zamanla dialoqu özünün daxili səsi, milli qeyrəti və vətəndaş kamilliyi hesabına tapmağı bacarıb.

Mən heç bir sirr açmıram. Onu tanıyan həmkarları, şair və yazıçı müasirləri, ictimai xadim və siyasi simalar bu haqda müxtəlif səpkidə dəfələrlə fikir bildiriblər. Və bütün yanaşmaları birləşdirən heyrət hissi olub və həmin hiss indi də dəyişməz olaraq qalır.

Xeyirxah işin yaradıcısı, təbliğatçısı və qoruyucusu olmaq şərəfi yalnız o adamlara nəsib olur ki, onlar seçdikləri missiyanın həm əsgəri, həm də sərkərdəsi olmağı özündə tərbiyə edir, çətinlik və əziyyətlərə baxmayaraq, bütün müşküllərin öhdəsindən sevgi və ruhi bağlılıqla gəlirlər. Müstəqillik dövründə milli jurnalistika sənətinin dərinliklərini yenidən açıb cavan nəsillərə bəxş etməyi özünə borc bilən Şirməmməd müəllimin məhsuldarlığı həqiqətən də hədsiz heyrət doğurur. Günlərlə, aylarla kitabxana və arxivləri ələk-vələk edən Ustad səciyyəvi başlıqlarla toplular çapdan çıxarıb.

Şirməmməd müəllim fantastik səliqə və görünməmiş bağlılıqla yenidən həyata qaytarılmış milli klassiklərin yüzlərlə əsər və yazılarını, ithaf və nitqlərini Azərbaycan xalqına qaytardı. "Milli haqq və ədalət axtarışında", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr" və bu ruhda ərsəyə gətirilmiş külliyyatlar milli tarixin ağ ləkələrini aradan qaldırmaqla yanaşı, özünüdərk hissi və milli oyanış kimi taleyüklü cərəyanların dirçəlməsini təmin etdi. Ona görə də, Ustad öz ağıl, zəka və əməyi ilə yox saydığımız mənəvi sərvətlərin varlığa çevrilməsini gerçəkləşdirən nadir insanlardandır.

Taleyin və zamanın bəxş etdiyi imkandan inanılmaz dərəcədə istifadə etmiş Ustad sənətdə inqilabi işlər görür, milli tarixə yeni nəfəs verir, onu canlandırıb gələcək nəsillərə ərməğan edir...

Minlərlə tələbənin sənət yoluna işıq salmış Ustadı universitet auditoriyasından kənar təsəvvür etmək mümkün deyil. Məncə, Şirməmməd müəllimdən dərs alanların payına taledən böyük uğur düşüb. Çünki o, zəngin təcrübə, sənətə necə qulluq etmək nümunəsini özündə ehtiva etməklə örnək yaradıb, zamanın nizamladığı nəsillər arasında ünsiyyətə təkan verib.

Möcüzədən danışmağa əsas varsa, o da ondan ibarətdir ki, Şirməmməd müəllim keçmişin kodlarını açıb klassiklərin mətləblərini dərk etdi və bizlərə anlatdı,

kod açarını da bizlərə vermiş oldu. Bu həmin o açardır ki, keçmişlə gələcək arasında bağlılığı yaradır, sabahın aydın yaradıcılıq yollarını göstərir.



Şirməmməd Hüseynov keçmiş tələbəsi Tofiq Abbasovla.
17 Dekabr 2009-cu il

Mənim üçün, yəqin ki, yüzlərlə tələbəsi üçün Şirməmməd müəllimin dərsi davam edir. Dərs ala-ala da dərsin, həm də sənətin zirvəsinə doğru irəliləyirik. Nə qədər ki, dərs verən var və nə qədər ki, dərs alan var, zirvəyə aparan yollar açıq olacaq, rahatlıqla keçiləcək.

Həmin yolda həmişə qolumuzdan tutan müəllimimizə öna görə də deyirik – yorulmayasan, Ustad!

Bakı, 2014

SİZDƏN BİR DƏ OLMAYACAQ

Dünyamızı pis kişilərin ümidinə qoymayın,
ŞİRMƏMMƏD müəllim, yaşayın!

Türk qardaşlarımız, cinsindən asılı olmayaraq, hamıya kişi deyirlər. Bizlərsə bu sözə çox həssasıq, onu çox ehtiyatla işlədirik. Sözün qısası, hər yetənə kişi demirik. Onlarmı haqlıdır, bizmi haqlıyıq – ürək döyüntüsü və şirin xatirələr burulğanında, həsrətli və nisgilli bir ovqatnan qələmə aldığım bu yazıda həmin məsələni araşdırmaq fikrindən çox uzağam. Məqsədim əsl kişi kimi tanıdığım və bu günə qədər oxşarına rastlaşmadığım dəyərli bir insan haqqında söhbət açmaqdır.

Həyatda şanslı adam deyiləm. Həmyerlilərim demişkən, bir ovuc sudan ötrü Kürün üstünə getsəm, o boyda çayı qurudaram. Amma bir şeydə bəxtim gətirib. Orta məktəbdə və ali təhsil aldığım Azərbaycan Dövlət Universitetində iki qeyrətli insanın nurlu çöhrəsi ömür yoluma işıq tutub. Birincisi – oxuduğum orta məktəbin direktoru Məşədi İmanqulu Həsənov olub. Qəbri nurnan dolsun. İkincisi isə... Tələsməyəcəyəm.

Bu yazını başlayanda oxucunu intizarda saxlamaqdan ötrü cürbəcür variantlar düşünmüşdüm. Alınmadı. İlk sətirlərdən hiss edirəm ki, kimdən söhbət açacağım artıq diqqətli oxucuya məlumdur. Beləliklə...

...Sentyabrın axırları idi. İllərdən bəri xəyalıynan yaşadığımız tələbəlik həyatına, Bakının bir gündə üç-dörd dəfə dəyişən şıltaq havasına, elə bu havaya bənzəyən müxtəlif xasiyyətli universitet müəllimlərinə öyrəşməyə hələ macal tapmamışdıq. Bir gün bizi, yəni birinci kursun qızlarını otaqlardan birinə yığdılar. Əvvəlcə dekanlıqda işləyən yupyumru, həlim xasiyyətli qadın gəlib dedi ki, qızlar, fakültəmizin dekanı sizinlə söhbət eləmək istəyir. Sonra da əlavə etdi ki, bizim dekan dünyanın ən yaxşı kişisidir və kaş onda olan keyfiyyətlərin heç olmasa yarısı qalan kişilərdə olaydı. Çox böyük qiymət idi, həm də çox riskli... Nəfəsimizi qısıb "dünyanın ən yaxşı kişisi"ni gözləməyə başladıq... Sonra dekan gəldi. Bu adamın sifəti tanış idi. Universitet tələbə qəbulu komissiyasının məsul katibi olmuşdu. Açığı deyim ki, o zaman bu adamın görkəmi ehtiyatlandırmışdı məni. Elə düşünmüşdüm ki, onun həndəvərinə belə dolanmaq, adi söz də soruşmaq olmaz. İndi o, qarşımızdaydı. Əvvəlcə bizi tələbə adını qazanmağımız münasibətilə təbrik etdi, universitetdə, jurnalistika fakültəsində oxumağın məsuliyyətindən danışdı. Sonra əsl mətləbə keçdi. Dedi ki, məktəb partasından təzə qalxmısınız – cavansınız, hələ çox şeyləri anlamırsınız. Bu sinif otaqlarında sizə

müxtəlif xasiyyətli müəllimlər dərs deyəcəklər. Onların arasında nadürüstlər də tapılacaq. Zaçot, qiymət yazmaqdan ötrü sizə söz deyənlər – görüş təyin edənlər, harasa dəvət edənlər ola bilər. Bizim fakültənin müəllimləri buna cürət (!) edə bilməzlər. Amma sizə başqa fakültə və institutlardan da müəllimlər dərs deyəcəklər... Barmağını hədələyici şəkildə silkələdi: belə şeylər olarsa, mən bilməliyəm... O söhbət bu gün çoxlarına modern görünməyə bilər. Elə o zaman da bəziləri bu söhbətə kinayə ilə yanaşmışdılar. Yəni, biz uşaq deyilik ki... Amma mənim – boyasız, riyasız kənd mühitində böyümüş, həyatı ancaq kitablardan (həm də həyatı problemlərsiz təsvir edən, qəhrəmanları namuslu kişilər, abırlı qadınlar və ismətli qızlar olan sovet romanlarından) öyrənən bir qızın şüurunda bu sözlər şimşək kimi çaxdı. Çaxdı... və çox mətləblərə işıq saldı. Aylar, illər keçdikcə Şirməmməd müəllimin sözlərindəki həqiqət təsdiqlənirdi. Dərs danışanda sözümüzü eşitməkdən çox gözlərimizə baxan, imtahan götürəndə stolun altından ayağımızı basdalamağa çalışan nanəciblərə də rast gəldik. Amma... Şirməmməd müəllimin hədələyici barmağı çox şeyin qabağını kəsmişdi...

...Ondan yaman qorxurduq. Bu "qorxu" sözündə qəribə bir şirinlik var. Qorxa-qorxa sevirdik onu. Sevə-sevə qorxurduq ondan. Heç kəs onun gözünə görünmək istəmirdi. Kimə desəydilər, səni dekan çağırır, sarısını udurdu. Amma onun otağından çıxanda "hə, nə olmuşdu, səni niyə çağırmışdı" deyə soruşanlara hamı belə cavab verirdi: "O, yaxşı kişidir". Oğlanla qızın fərqi yoxuydu ondan ötrü. Hamını eyni tərzdə danlayar, acılayardı. Heç kəs incimirdi. Hamı bilirdi ki, o sərt baxışlı, acı dilli kişinin sinəsində isti bir ürək döyünür. Elə bir ürək ki, tələbəni sevir, qayğısını çəkir, qoruyur, əsl vətəndaş kimi, gərəkli insan kimi yetişməsi üçün var qüvvəsini sərf edir. "Mənə qiymət faizi deyil, tələbənin biliyi lazımdır" deyirdi Şirməmməd müəllim. Sonra da deyirlər ki, əvəzedilməz insan yoxdur. Yalandır! Bütün yaxşı adamlar əvəzedilməzdir! Pislər bir-birilərini çox asanlıqla əvəz edirlər. Çünki onlar çoxdular. O vaxt deyirdilər ki, respublikamızın təhsil nazirliyində – onu "jurnalistika fakültəsinin rektoru" adlandırırlar. Bir də onu deyirdilər ki, Şirməmməd müəllimin dekan olduğu dövrdə jurnalistika fakültəsinə daha çox "proletar balası" daxil olub. Çünki heç kəsə boyun əymədən, heç kəsi "eşitmədən" işləyirdi bizim dekanımız. O dövrdə səbatsızlıq, milli duyğulara hörmətsizlik göstərənlərin çoxu bunu imperiya siyasəti ilə bağlayaraq özlərinə haqq qazandırmaq istəyirdilər. Amma Şirməmməd Hüseynov sübut eləyirdi ki, insan hər bir şəraitdə öz xalqının övladı ola bilər və olmalıdır da.

Bizə dərs də deyib Şirməmməd müəllim. Heç yadımdan çıxmaz. Bir gün dekabristlər dövrü rus jurnalistikasından danışanda sözünü kəsib baxışlarını auditoriyada dolandırdı: "Görürsünüz, uşaqlar, belə oğulları olan xalq həqiqətən xoşbəxtdir" dedi. Dedi və susdu. Gözləri yol çəkdi... Həmin anı bu gün də unutmuram və həmişə də fikirləşirəm ki, görəsən, həmin o anda Şirməmməd müəllim nə düşünürdü? Elə bilirəm, çox şey demək istəyirdi, amma deyə bilmirdi... Və mən onun deyə bilmədiklərini necə də bilmək istəyirdim...

Zaman hökmünü verdi. Çox şeylər dəyişdi. Və Şirməmməd Hüseynovun "525-ci qəzet"in səhifələrindəki silsilə yazılarını oxuyanda anladım ki, o zaman gözləri yol çəkəndə nə düşünürmüş, nələri dilinin ucundan qaytarırmış. O bilirmiş ki, bu millətin də onu xoşbəxt etməyə qadir olan və bunun uğrunda canını

belə əsirgəməyən oğulları olub. İndi öz qələmiylə onları bizə tanıdan Şirməmməd müəllimin özünü necə xoşbəxt hiss etməsi hər sözündən, hər cümləsindən oxunurdu.

Bir çıxışı da yaddaşıma həkk olunub. Universitetin iclas zalında hansı tədbirdəsə dedi: "Kaş, insanların vicdanını göstərə bilən rentgen kəşf olunaydı, qadınlarla işim yoxdur, əminəm ki, kişilərin çoxu bu rentgendən təmiz çıxmazdı". Bu sözlər gurultulu alqışlarla qarşılandı. Bu sözlərdə həm cəsarət, həm də əsl kişilik manerası vardı.

Şirməmməd müəllim, çox heyf ki, cəngavərlik dövrü çox arxada, uzaq əsrlərin qoynunda qaldı. Elə bir dövr ki, kişilər qadınların yerə düşmüş ətirli dəsmalını qaldırıb yiyəsinə təqdim etməyi (həm də təzim edə-edə) özlərinə şərəf bilirdilər. İndi çörəyini əlindən alırlar. Uzun illər torpağımızın sərvəti ilə fəxr etmişik. Amma millətin əsl sərvəti onun kişiləridir. Mən qadınları ona görə demirəm ki, qadın da əsl kişilərin əhatəsində özünü əsl xanım kimi hiss edir. Uşaqlıqdan, tay-tuşlarımdan fərqli olaraq, müğənnilərin, kino ulduzlarının deyil, əsl kişi saydığım adamların şəkillərini toplamışam. İstərdim ki, bu yazı da Şirməmməd müəllimin şəkli ilə birlikdə dərc edilsin və mən də həmin şəkli qəzetdən götürüb öz albomuma vurum.

Yazılarının dərc olunması hər bir müəllif üçün zövqdür. Mənimsə bir şeyi düşünəndə alacağım zövqü heç nəynən müqayisə etmək olmaz. Təsəvvür edirəm ki, Şirməmməd müəllim bu yazımı oxuyur, özünəməxsus bir şəkildə dodağını büzüb gözlərini qıyır: "Doğrudanmı, mənim belə bir tələbəm olub?!" Bilirəm, nə qədər düşünsə də, məni heç cür xatırlaya bilməyəcək. Bax, əsl zövq budur! Olub, Şirməmməd müəllim! Və o tələbə həmişə bundan qürur duyur...

Bu yazını münasibətsiz yazıram. Universiteti bitirən gündən Şirməmməd müəllimi görməmişəm. Bilmirəm onun həyatında nələr baş verib, hansı işləri görüb, hansı adları, mükafatları alıb. Mən heç onun doğum gününü də bilmirəm. Bildiyim bir şey var ki, onun kimi kişilər hər gündə, hər ildə doğulmurlar. Və belə kişilər əsl milli sərvətdir!

...Bu yaxınlarda televizorda bir süjetdə gördüm onu. Göz dəyməsin, elə həmin Şirməmməd müəllimdi. Yaşayın, Şirməmməd müəllim! Dünyamızı pis kişilərin ümidinə qoymayın! Yazıqlar olar bizə...

Vəsilə USUBOVA,
"525-ci qəzet", 4 yanvar 2005-ci il

ŞİRMƏMMƏD MÜƏLLİMİN OXŞARI YOXDUR

- Azərbaycanda barmaqla sayılacaq qədər jurnalistlər var ki, illərlə eyni media orqanında işləsinlər. Siz də onlardan biri olaraq 1966-cı ildən "Elm və həyat" jurnalında işləyirsiniz.

- Düzdür, "Elm və həyat" mənim birinci və axırıncı iş yerimdir.



- Bunun səbəbi sizin yaxşı işçi olmağınızdır, yoxsa "Elm və həyat"dan kənarda özünüzü görmürsünüz?

- Bunun səbəbi odur ki, mən Azərbaycan mətbuatında "Elm və həyat" qədər maraqlı jurnal tanımıram. Bizə hər gün akademiklərin, professorların, elmlər namizədlərinin məqalələri gəlir. Onların üzərində işləməklə elmin müxtəlif sahələrindən o qədər maraqlı məlumatlar əldə edirik. Bütün elm yeniliklərini həmin yazılardan mənimsəmək olar və heç bir mətbuat orqanında bu yoxdur. "Elm və həyat"ın yaranandan məqsədi elmi nailiyyətləri, elmi yenilikləri xalqa yayaraq maarifləndirməkdir. Bu ideyanı əsas tutub 50 ildən çoxdur ki, bu yolu gedirik. İndi hansı mətbuat orqanında nanotexnologiya barədə yazı görmək olar? Heç yerdə. Mən 40 ilə yaxındır ki, Moskva mətbuatını izləyirəm və görürürəm ki, elm yenilikləri nədir. Çalışırıq oradan öyrənək və öz jurnalımıza da tətbiq edək. Nəzərinizə çatdırım ki, nanotexnologiya elmdə ikinci inqilab yaradacaq. Əgər 20-ci əsri elmi-texniki inqilab əsri adlandırırıqsa, 21-ci əsr nanotexnologiya əsri olacaq və həyatımızın elə bir sahəsi olmayacaq ki, nanotexnologiya ora müdaxilə etməsin. Biz isə hələ bu barədə az bilirik.

- Hamıya məlumdur ki, "Elm və həyat"ın konkret auditoriyası var.

- Əlbəttə, bizim müəlliflərimiz Müasir Azərbaycan elmini yaradanlardır, oxucularımız da elmi yenilikləri öyrənmək istəyənlərdir.

- 51 ildir ömür sürən "Elm və həyat" SSRİ-dən başlayaraq müstəqil Azərbaycanın ilk günlərinin də şahidi olub. O gündən bu günə çox şey dəyişib, bəs "Elm və həyat"da nə dəyişdi?

- "Elm və həyat" həqiqətən yeganə mətbuat orqanı oldu ki, bura siyasi proseslərin heç bir təsiri olmadı. Elm sovet dövüində də elm idi, bu gün də elmdir, gələcəkdə də belə olacaq. Burada söhbət həqiqi elmdən gedir. Dəyişən heç bir şey olmadı. Yeganə dəyişiklik bu oldu ki, 90-cı illərdən geniş oxucu kütləsi arasında oxumağa meyl azaldı. Bu da təbii idi, hamının başı bir tikə çörək qazanmağa qarışdı. Vaxtı ilə "Elm və həyat" jurnalı 150 min tirajla çıxırdı. Bu o deməkdir ki, jurnal 100 mindən artıq oxucunun evlərinə gedib çıxırdı, bu zaman mütləq jurnalı evdə 2-3 nəfər oxuyurdu. Deməli, jurnalın yarım milyon oxucusu var idi. Sovet dövründə Azərbaycandan başqa, SSRİ-nin 136 şəhərində bizim abunəçimiz var idi. Hələ mən xarici ölkələri demirəm. İrandan da bizə abunə olanlar var idi, düzdü o vaxtı bir az çətin idi, indiki kimi sərbəstlik yox idi. İndi jurnalımızın yayılma imkanları daha çoxdur, hətta bir neçə il əvvəl Azərbaycandan çox uzaqlarda olan Meksikada "Elm və həyat" jurnalı Amerikanın "Qranpri" mükafatına layiq görüldü. Mükafat jurnala yüksək rəqabət şəraitində keyfiyyət və servis sahəsindəki uğurlu fəaliyyətinə görə verilmişdi. Mən təəccübləndim ki, bizim jurnal uzaq Meksikaya necə gedib çıxıb? Sən demə orada da jurnalı tanıyanlar, izləyənlər varmış. Çünki onlar Azərbaycan elmində nələr baş verdiyini öyrənmək üçün bu jurnalları alırlar. Maraqlanırlar ki, hansı alim nə yenilik edib?

- Siz Lütfi Zadənin xanımı Fey Zadənin kitabını tərcümə etmisiniz. Kitab hansı mövzuda idi?

- Öncə onu qeyd edim ki, Lütfı Zadə tək 20-ci əsrin deyil, 21-ci əsrin də dahisidir. Onun kəşfləri hələ bu əsrin 90-cı illərinədək tətbiq olunacaq. Heç Zadə onda həyatda olmayacaq, amma onun ideyaları tətbiqini tapacaq. Xanım Feyin əsərinə gəlincə isə, bir dəfə professor Rafiq Əliyev redaksiyamıza gəlmişdi. Mən Lütfi Zadə haqqında jurnalda 5-6 dəfə yazılar verdiyimizi dedim. R.Əliyev dedi ki, məndə onun həyat yoldaşının kitabı var. Əvvəl elə bildim balaca kitabçadır. Zadənin həyat yoldaşı bildiyimiz kimi milliyətcə yəhudidir. Böyük bir əsər yazıb. Bu həm bədii, həm də elmi əsərdir. Əsərin adı "Qeyri-səlis məntiqin atası ilə həyatım və səyahətlərim"dir. Razılaşdıq ki, onu tərcümə edim. Kitab ingilis dilində Amerikada, Azərbaycanda da rus dilində çap olunmuşdu. Mən 500 səhifəlik kitabı 2 aya tərcümə etdim, nəşrə də özüm hazırladım. Həmçinin başqa əlavələrim oldu. Həmin kitabda xanım Fey Lütfl Zadə ilə bütün həyat yolunu işıqlandırıb. Elə bilin ki, bədii roman oxuyursunuz. Necə sevişiblər, ilk görüşləri necə olub, çox maraqlı bir əsər yazıb. Sonra Zadə haqqında dünya alimlərinin məqalələrini tapdım. Onları da kitaba əlavə etdim. Çox maraqlı kitab alındı. Bir şeyi qeyd edim ki, ilk dəfə biz Lütfi Zadənin yubileyini keçirtdik. Həm 85 illiyini, həm də kitabın təqdimatını keçirtdik. Hətta Lütfi Zadə xanımıyla elektron poçtumuza öz səsiylə məktub göndərdi. Biz təqdimatı onların səsi ilə açdıq.

- Ülkər xanım, siz Azərbaycan elminə xidmət edirsiniz. Həm sizi, həm də "Elm və həyat"ı böyük oxucu auditoriyası indi tanımır. Mən özüm sizi Mətbuat Şurasının təşkil etdiyi "Elm və həyat"ın 50 yaşı ilə bağlı yubiley

tədbirində tanıdım. Bunun səbəbi nədir?

- Düzü, mənim heç marağım olmayıb ki, məni tanısınlar və ya tanınım. Qətiyyən belə şeylə aram yoxdur. Uzun illərdir bu jurnalda çalışıram. Yəqin iş fəaliyyətimə də bu jurnalla nöqtə qoyacağam. Mənim tanınmağa ehtiyacım olmayıb. Jurnalda müəllif yazıları ilə bərabər dünya elmi-kütləvi mətbuatından maraqlı məqalələri tərcümə etməyə daha çox üstünlük vermişəm. Jurnal səhifələrində elmin bir çox sahələrinə aid yüzlərlə tərcümələrim dərc olunub. Mən Heydər Əliyev haqqında "Azərbaycanda neft-kimya sənayesinin inkişafında Heydər Əliyevin rolu" kitabının da tərcüməçisiyəm. Mən ancaq işlə məşğul olmuşam.

- 51 il jurnalist olmaq... Ola bilməz ki, bu müddətdə hər şey yaxşı olub. Bir qadın kimi hansı çətinliklərlə üzləşdiniz?

- Sözün düzü, jurnalistika mənim üçün çox asan keçib. Müraciət etdiyim mövzular həmişə sanballı olub və həmişə sərbəst olmuşam, mütaliəm geniş olub və yazılarımın mövzusunu özüm seçmişəm. Qəzetdə işləmək çox çətindir. Jurnal ayda 1 dəfə çıxır. Və ay ərzində sən istədiyin mövzunu axtarırsan, araşdırırsan.

- Bizdə qəzetdən də çətindir. Çünki qəzetin 1 gün vaxtı olur ki, yazını geniş şəkildə təqdim etsin və bir sıra imkanlardan istifadə edə bilər. Saytda isə əsas operativlikdir və mümkün qədər çevik olmalısan.

- Bu baxımdan biz sizlrədən tamam fərqlənirik.

- Elə qəzetlərdən söz düşmüşkən hansı qəzetləri oxuyursunuz?

- Gündəlik dövlət qəzetlərində informasiyalarla maraqlanıram. "525-ci qəzet"i alıram. Bu yaxınlarda nəşrə başlayan "Baku Post" qəzeti də maraqlı çıxır. Orada məni maraqlandıran elmi mövzulara rast gəlirəm.

- Bayağı yazan qəzetləri bir çoxları kimi siz də qınayırsınız, amma bugünkü auditoriya elə ən çox onları izləyir. Sizin ciddi dediyiniz o qəzetləri heç alan olmur.

- Mətbuatımızın banisi Həsən bəy Zərdabi "Əkinçi" qəzetini çıxardanda nələrdən yazırdı, necə yazırdı. Bu gün də mən bəzən "Əkinçi"ni vərəqləyəndə bu böyük azərbaycanlıya – Zərdabiyə min rəhmət deyirəm. Hər şeyi, hər mövzunu mətbuata gətirmək olar? Buna ehtiyac yoxdur axı. Özəl telekanallar bəzən elə şit verilişlər yayımlayır ki...

- Onsuz da hər şey o qədər açıqdır ki, informasiya bolluğu var. O verməsə də, digəri verəcək.

- Nə deyim? Zaman göstərəcək ki, bu lazmdır ya yox? Mən onları qəbul edə bilmirəm.

- Bəs oxuyandan sonra nə deyirsiniz?

- Deyirəm ki, bu nə yazıdır yazmısan və kimə lazımdır? Mən bunu qəbul edə bilmirəm. Yəqin, bu mənim həm yaşımdan asılıdır, həm də ömrümün çox hissəsini sovet dövründə yaşamağımdan irəli gəlir.

- Bəs telekanallarımızı izləyirsiniz?

- Əlbəttə, izləyirəm. Amma özəl kanallarımızdakı şit verilişlərin, mentalitetimizə yaraşmayan layihələrin geniş yer almasına zamanın tələbi deyə gözəl adət-ənənələrimizi unutmalı deyilik. Bu məni narahat edir.

- Hansı verilişlərə?

- Ad çəkmək istəmirəm. İndi bəziləri yüngül veriliş axtarır. Amerika gənclərinin əksəriyyəti televiziyaya "İdiot qutusu" deyirlər. Mən səyahət verilişlərinə, heyvanlar aləminə, tarixi mövzulara, əlbəttə ki, elmi-kütləvi verilişlərə baxmağı xoşlayıram. Son xəbərləri də izləyirəm. Verilişlərə baxmaqdan məqsədim nə isə yeni bir şey öyrənməkdir. Axı bildiklərimiz bilmədiklərimizin yanında heç nədir. İctimai kanaldakı "Açıq dərs", "Ortaq məxrəc" verilişlərinə baxıram, radioda vaxtilə Mehparə Axundovanın bir neçə il apardığı "Elm korifeyləri" verilişini daim dinləmişəm. Bizim nə qədər elm, tarix sahəsində öyrənəcək məlumatlarımız var. Onlara vaxt sərf edək də. Bizdə ailələr tanıyıram ki, işdən gələn kimi televizorun düyməsini basırlar, yetər ki, televizor açıq olsun, lazım oldu-olmadı, nəyə isə baxsınlar.

- Xatırlayırsızsa, mən sizi müsahibəyə dəvət edərkən qafqazinfo.az portalından olduğumu dedim, siz isə tanımadığınızı söylədiniz. Nəzərə alsaq ki, bu gün bir çoxları elə xəbərləri saytdan öyrənir. Sizin saytları tanımamağınız qafqazinfo-nun günahıdır, yoxsa siz xəbər saytları ilə maraqlanmırsız?

- Çox maraqlanmıram. Çünki daha çox kitabdan, jurnaldan dövri mətbuatı oxumağa üstünlük verirəm, nəinki internətə.

- Günün neçə saatını kitab oxuyursunuz?

- Bizim işimizin adı nədir? Oxumaqla məşğuluq da.

- Ev işlərinə necə vaxt ayırırsınız? Yəqin evdə uşaqlarınız böyük olar. Nəvələriniz var?

- Mənim bu gün-sabah nəticəm olacaq (gülür).

- Doğurdan da çox cavan görünürsünüz.

- Bunun səbəbi mənim həyat yoldaşımdır. O, məni belə saxlayıb.

- Sizi belə gözəl saxlayan jurnalistlərin mənəvi atası Şirməmməd Hüseynovdur. Azərbaycanın ən dürüst sayılıb-seçilən kişisinin həyat yoldaşı olmaq nə deməkdir və ya o necə həyat yoldaşıdır?

- Onu hamı zəhmli, çox sərt, tələbkar adam kimi tanıyır. Bu, həqiqətən belədir. Lakin o, son dərəcə qayğıkeş həyat yoldaşı və atadır. Bu onun xidmətidir ki, mən belə gümrah qalmışam.

- Neçə ildir evlisiniz?

- 54 ildir. Yarım əsrdən çoxdur. Hərdən zarafatla deyirəm ki, biz artıq qoşa gəzən əkizlərə dönmüşük. Hətta o xəstəxanada yatanda da mən onun yanında olmuşam. Biz heç ayrı qalmamışıq. Yenə də deyirəm, onu hamı sərt adam kimi tanısa da, mənim üçün dünyanın ən müsbət insanıdır. Şirməmməd Hüseynov çox tələbkardır həm özünə qarşı, həm ətrafdakılara, həm ailə üzvlərinə, həm də tələbələrinə qarşı. Mən onu başa düşürəm, o haqqını tələb edir, onun tələbkarlığında da sünilik yoxdur. Mən hiss edirəm ki, Şirməmməd Hüseynov həmişə düz danışır. Tutaq ki, hansısa məsələdə mən deyirəm ki, bu belə olmalı idi. Sonra görürəm ki, yox o deyən doğrudur.

- Neçə uşağınız var?

- İki qızımız var.

- Sənətləri nədir?

- Hər ikisi musiqişünasdır. Kiçik qızım Lalə Hüseynova Bəstəkarlar İttifa-

qında məsul katibdir. Bu yaxınlarda Azərbaycan Bəstəkarlar Birliyi haqqında "Böyük yolun tarixi: Azərbaycan Bəstəkarlar İttifaqı" adlı 445 səhifəlik kitabı çapdan çıxıb. Digəri isə Fərəh Əliyeva Mədəniyyət və Turizm Nazirliyində çalışır. Bizim başımız ancaq oxumağa, yazmağa mütaliəyə qarışıb. Böyük qızım Fərəh Əliyevanın 7-8 kitabı çıxıb. Onun elə tədqiqatları var ki, mən bəzən həsəd aparıram ki, iki oğlan uşağı böyüdə-böyüdə bunlara necə vaxt ayırır?

- Şirməmməd müəllimin qızlarla münasibəti necədir?

- Qızlar ataları ilə fəxr edirlər. Şirməmməd müəllim çox qayğıkeş atalardandır. Bu gün də nəzəri onların üzərindədir. Övladlarını həmişə atalarının sözü ilə əməlinin bütöv olduğunu görürlər.

- Elə bir hadisə və ya kitab olubmu ailəlikcə müzakirə etmisiniz?

- Müzakirə deyil, sadəcə bir-birimizə xəbər veririk ki, belə bir kitab var. Bu baxımdan Solmaz Tohidi-Rüstəmovanm Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları, talanlar haqqında çıxan kitabları çoxları kimi, bizim də marağımıza, diqqətimizə səbəb olub. Bu kitablarla hər bir azərbaycanlının tanış olması vacibdir. Biz cavanlığımızda çox mütaliə edirdik. Özü də mən rus dilində oxuyurdum. Əvvəllər bədii ədəbiyyat oxuyurdum, indi qətiyyən bədii ədəbiyyata marağım yoxdur. Mənimki elmi-kütləvi ədəbiyyatdır.

- Bəs Şirməmməd Hüseynov yazılar yazanda əvvəlcədən sizə məlumat verirmi?

- Bilirsiz, bütün bunlar mənim gözümün qarşısında olur. Onun təxminən 4-5 kitabının redaktoru mən olmuşam.

- Redaktə edəndə işinizə müdaxilə edib?

- Mən onları redaktə etməmişəm. Onun qəzetlərdə məqalələri çıxmışdı, onları bir yerə topladım, kitab halında çapına kömək elədim. Yəni yazı redaktə etməmişəm. Onu heç kim redaktə edə bilməz. O qədər sərrast, dürüst, savadlı yazır ki, mən heç vaxt onun yazılarını redaktə etməmişəm. Nəinki mən, heç kim eliyə bilməz.

- Bəzən deyirlər ki, insanlar yaşlaşanda uşağa bənzəyirlər, uşaq kimi qayğılarını çəkməyi istəyirlər?

- Bizdə həmişə elə olub. Cavanlığımızda da, indi də bir-birimizin qayğısına qalırıq. Mənim ona xüsusi hörmətim var. Bu təkcə həyat yoldaşına olan hörmət deyil, bu bir azərbaycanlı ziyalısına, vətənpərvər insana olan hörmətdir. Şirməmməd Hüseynovun oxşarı yoxdur. 54 ildir onunla yaşayıram və bunun şahidi oluram. Xalq şairi Bəxtiyar Vahabzadə onun haqqında görün nə yazıb: "Şirməmməd – əxlaqın, haqqın öz səsi; Ləyaqət, dəyanət mücəssəməsi. O, vətənpərvərhk, düzgünlük, haqsevərlik, gözütoxluq kimi bir çox mənəvi xüsusiyyətləri ilə mənə həmişə böyük əqidəli ziyalılarımızı xatırladır. H.Zərdabi milli mətbuatımızın təməl daşını qoydusa, o, bu böyük işin davamçısı kimi bir neçə jurnalist nəslinin müəllimidir". Şirməmməd müəllim bu gün də yazıb- yaratmaqla yanaşı, BDU-da müəllimlik fəaliyyətini davam etdirir – yeni nəsil jurnalistlərinə dərs deyir. Onun həyatı həqiqətən əxlaqın, ləyaqətin, dönməzliyin, bütövlüyün nümunəsidir. Bizim çox sadə həyatımız olub. Hətta Mirşahin Şirməmməd müəllim haqqında veriliş hazırlayanda dedi ki, bu cür sadə şəraitdə yaşayırsınız? Amma evimizdə 5 min kitab var idi. Bizim varımız, dövlətimiz o kitablardır...

- Bəs indi vəziyyət necədir? Dəyişən nəsə var?

- Bizim evimizi sökdülər. Yəqin xatırlayırsınız da "Beş mərtəbə" adlanan yerdə Heydər Əliyev sarayının yaxınlığındakı evləri sökdülər. Ondan sonra bizə yaxşı ev verdilər.

- Yeni eviniz Şirməmməd Hüseynova hədiyyə olunmayıb?

- Təbii ki, hədiyyə deyil. Həm də biz ev istəməmişik, hamı kimi bizə də ev verdilər. Mən sökülən evimdən çox razı idim, şəhərin mərkəzində 4 mərtəbəli binanın 3-cü mərtəbəsində yaşayırdıq, çox rahat mənzilimiz var idi. Dövlətin qərarı ilə böyük bir ərazidəki evlər söküldü. Biz yeni evə köçdük. Yeni evimiz parlamentə yaxındır, mərkəzə uzaq olsa da, yenə yaxşıdır. Hər ikimiz işləyirik deyə darıxmırıq. Bu yaxınlarda Şirməmməd Hüseynov Məmməd Əmin Rəsulzadənin əsərlərinin 3-cü cildini çıxartdı, indi də 4-cü cildi üzərində işləyir.

- Evdən danışdıq, bəs maddi vəziyyətiniz necədir?

- Vəziyyətimiz yaxşıdır. Şirməmməd Hüseynova prezident təqaüdü verilir. Onun zəhməti qiymətləndirilib.

- Nə əcəb onun həyatını kitaba yazmaq istəmirsiniz?

- İndidən söz versəm, sonra alınmasa yaxşı çıxmaz. Özü də elə şeyləri xoşlamır. Bir də onun haqqında yazmaq üçün istedadlı qələm sahibi olmalısan. Tələbələri, həmkarları onun haqqında çox yazıblar. O ki qaldı onun pedaqoji fəaliyyəti və publisistikasına, nə vaxtsa bunlar haqqında qiymətli əsərlər yazılacaq.

- Bəs gənclərin kitaba münasibəti sizi qane edir? Axı hamı onları oxumamaqda ittiham edir.

- İndi internet olan yerdə, 21-ci əsrdə kim götürüb 300-400 səhifəlik kitab oxuyub ona vaxt sərf edəcək? Bizim vaxtmızda televiziya yox idi, olsa-olsa radio var idi. İndi hansı cavanın həvəsi var ki, kitab oxusun? Kitab oxumaqdansa, gedib internetdə axtarıb həmin kitabın məzmunu ilə tanış olur. Bu mənim subyektiv fikrimdir. Keçmişdə mütaliə vaxt keçirməyin, öyrənməyin bir yolu idi, indi daha ona ehtiyac yoxdur. İnternet var.

- Deyirsiniz kitabı ancaq vaxtı keçritmək üçün oxuyurlar?

- Əvvəllər belə idi. Biz dərslərimizi hazırlayırdıq, ayrı əyləncə yox idi, sonra oturub mütaliə edirdik. İndi həyat tamam dəyişib, dünya genişlənib. İnformasiya bolluğu, İnternet yaranıb. Bütün bunlar olan yerdə kim kitab oxuyacaq?

- Buna bəraət qazandırmaq olar?

- İndi bizə elmi-kütləvi əsərləri, tarixi romanları daha çox oxumaq lazımdır.

Qafqazinfo-nun müxbiri GÜNEL,
05 may 2012-ci il;
"Şəki bələdiyyəsi" qəzeti, 25 iyun 2012

"İŞIĞIMIZ SÖNMƏYƏCƏKDİR"

Bakı Dövlət Universitetinin professoru, görkəmli tədqiqatçı-alim, gözəl pedaqoq Şirməmməd Hüseynovu respublika televiziyasında görən həmyerliləri çox sevindilər. Və mübaliğəsiz deyək ki, təkcə şəkililər yox, respublikamızın bütün bölgələrindən olan tamaşaçılar millətin, xalqın bu ağır sınaq günlərində ürəkdən gələn, qəlbə, ruha, zehinlərə işləyən ağıllı, səmimi, səfərbərədici sözə ehtiyac duyurdular: Şirməmməd Hüseynov 11 ay idi ki, belə geniş bir auditoriya ilə ünsiyyətdən kənarda qalmışdı. Professor özü də belə bir canlı təmas üçün qəribsəmişdi. Şirməmməd Hüseynov məhz indi – Vətənin, millətin dar günündə gözə görünməsinin, indiyədək ürəyindəkilərini sevimli tamaşaçılara deyə bilməməsinin səbəblərini özünə məxsus tərzdə açıqladı.

Həmişə olduğu kimi, bu dəfə də hörmətli professor tamaşaçılarla üzbəüz dayanarkən XX əsrin görkəmli şəxsiyyətlərinin, ziyalılarının uzaqgörənliklə söylədikləri fikirlərə istinad etdi, bu günümüzlə səsləşən həmin proqnozların geniş şərhini verdi. M.Ə.Rəsulzadənin "XX əsr faciələr əsri olacaqdır", Ömər Faiqin "İşığımız sönməyəcəkdir", "İqbal"da yazılmış "Bizdə cürət... ittifaq hissi batıb getmişdir" sözlərinin əsrin sonunda da öz aktuallığını saxladığını, bu günümüzün reallığı ilə üst-üstə düşdüyünü qeyd etdi.

"İşığımız sönməyəcəkdir" fikrini qüvvətləndirən Şirməmməd Hüseynov son iki ayda hakimiyyətə gələn yeni rəhbərliyin respublikanın ictimai-siyasi iqlimini sağlamlaşdırmaq üçün həyata keçirdiyi tədbirlərə müsbət münasibətini bildirdi. Qeyd etdi ki, indi bütün sağlam qüvvələr, xalqın qeyrətli oğulları bu işığın ətrafında əl-ələ verməli, sıx birləşməli, müharibədən, məhrumiyyətlərdən, böhran şəraitindən çıxmaq üçün səylər səfərbərliyə alınmalıdır. Milli birlik təfəkkürü, milli birlik ideologiyası yaratmaq, müstəqilliyimizi sözdə yox, işdə möhkəmləndirmək, saxta vətənpərvərlik hissindən uzaq olmaq indi həmişəkindən daha çox lazımdır.

Şirməmməd Hüseynova qulaq asandan sonra tamaşaçı istər-istəməz üzünü televiziya şirkətinin sədri babək Hüseynoğluna tutub demək istəyir:

– Hörmətli sədr! Bu gün Şirməmməd Hüseynov kimi ziyalıların, hadisələri düzgün qiymətləndirməyi bacaran, xalqa, millətə, "düzü-düz, əyrini-əyri" demək üçün özündə cəsarət tapan, nüfuzlu adamların, ağıllı siyasətçilərin, elm, mədəniyyət xadimlərinin, el ağsaqqallarının ekrana çıxıb, öz ürək sözlərini həmvətənlərinə söyləməsi çox vacib, çox gərəkli işdir. Arzu edirik ki, Şirməmməd Hüseynovun özü ilə tamaşaçı arasındakı görüşün "intervalı" bundan sonra daha qısa olsun!

"ŞƏKİNİN SƏSİ" qəzetinin redaksiya heyəti
"Şəkinin səsi" qəzeti, № 10, 15 sentyabr 1993-cü il

"İŞIQLI SABAHA" ADDIMLAYARKƏN...

S.M.Kirov adına ADU-nun idman meydançası. Taxta kürsüdəki səsartıranlardan əzəmətli hayqırtılar gəlir: "Yaşasın B..O..S..İ.." "Şanlı Azərbaycan gənclərinə URRA!".

Sənin hər gəlişini bayrama çevirərdik, Oktyabr! Pişvazına çıxmaq üçün, səni layiqincə qarşılamaq üçün 5-10 gün qabaqdan hər gün saatlarla ayaq döyərdik. O möhtəşəm bayram günündə isə sübh tezdən universitet tələbələrinin daimi toplanış yerinə Basin və Korqanov küçələrinin kəsişdiyi yerə yığışardıq. Basinlə Korqanovu Kirov prospekti, 26-lar bağı əvəz edərdi. Daha sonra Şaumyan küçəsi və nəhayət Lenin meydanı...

P.S. Bütün bu zahiri təntənə pərdəsinin ardında bir gənclik həvəsi, coşğun tələbə dünyası tələtüm içində idi onda. 7 noyabra qədərki yürüş təlimlərinin mənasızlığından, dil, tarix, ixtisas dərslərimizin yerimək dərsi ilə əvəz olunmasından doğan istehza, kinayə uz-gözümüzdən əskilmirdi onda. Amma bir inzibati-bürokratik üsul-idarə var idi ki, onun pəncəsindən çıxmaq olmazdı. Bu pəncə "intizam, qayda-qanun", – deyirdk, əslində isə "əyil, qul ol, itaət et", – pıçıldayırdı. Adətən, yürüş dərsinə gəlməyənlərin adları "qara" lövhələrə vurular, haqqında ciddi xəbərdarlıq elan edilərdi. Dövr elə idi onda. İl ili əvəz etdikcə gözümüz açılırdı. Çoxumuz əvvəlcə müəllimlərin gözünə görünüb, sonra yürüş dərslərindən qaçardıq. Bu bəla da bizə yuxarılardan gəlirdi: üzdə bir cür, içəridə başqa cür olurduq.

Onda biz uşaq idik, gənc idik, bəs böyüklərimiz? Yəni zamanın tarixini yazan jurnalist müəllimlərimiz də bilmirdilər ki, bu bayram tamaşasında öz köləliyimizə, hüquqsuzluğumuza, əsarətdə olmağımıza hurrey deyib əl çalırıq? Bu gün yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyimiz ziyalılar o vaxt bizə partiyalı mətbuatdan dərs deyirdilər. Yeganə bir inqilabçı müəllimimiz vardı ki, o zaman adı ancaq universitetlə bağlı adamlara və yəqin ki, DTK əməkdaşlarına məlum idi – indi ən yaxşı şərhçilər sırasında tanınan Şirməmməd Hüseynov. Beş illik tələbəlik dövründə təkcə o bizi inqilaba, azadlığa, müstəqilliyə səsləyirdi. Təkcə o düzə düz, əyriyə əyri deyirdi. O, bütün inqilabi dəyişiklikləri irəlicədən görürdü və öz inamını, öz arzularını qətrə-qətrə bizə də yeridirdi. Bax beləcə gözümüz açılırdı onda.

7 noyabrda isə hamımız bir nəfər kimi Basinlə Korqanovun kəsişdiyi yerdə olurduq. Və bu Basin–Korqanov–Kirov–Şaumyan–Lenin labirintindən keçərək öz köləlik addımlarımızın nümayişinə gedirdik. Gedirdik milyonlarla

insan dənizinin bir ləpəsinə çevrilməyə. Bu insan dənizinin əksəriyyəti biz idik – addımlamağa məhkum olunmuşlar! Demə, bir neçə ildən sonra həmin meydan təlim keçmişlərin öz məharətini göstərdiyi sirk arenasına yox, yüz minlərlə adamın məhz eyni Basin–Kirov–Şaumyan yolu keçən köləlik yürüşünə yox, xalqın düz söz, ədalətli söhbət meydanına dönəcəkmiş. Məhz o meydandakı alovlu nitqlərdən, odlu çıxışlardan Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı doğulacaqmış.

Fəaliyyət göstərdiyi qısa dövr ərzində həbslər, təqiblər və ən nəhayət, 20 yanvar qırğınının şahidi olan milli-azadlıq hərəkatımızın əsas qələbəsi müstəqillik oldu. Görəsən, dünyaya yenicə göz açan bu körpəni qoruya biləcəyikmi? Rus imperiyasının pəncəsi altında əzilən, sosialist rejiminin qurbanı olan, varı-yoxu əldən gedən, istismar oluna-oluna qazandığı düşmən hücumu, iqtisadi gerilik, ekoloji təhlükə olan Azərbaycanımız müstəqil dövlət kimi yaşayacaqmı? Ümid bir özümüzə – öz birliyimizə, əl-ələ verib işləmək, qarşıdurmanı aradan götürmək əzmimizə, bir də Allaha qalıb...

AFAQ

"Qarabağ" qəzeti, 7 noyabr 1991-ci il

BÖYÜK MÜƏLLİM

25 İyun 2019



Çox təsirli, ağrılı bir gündür. Hava da buludlu, doluxsunmuş kimidir. Sanki Azərbaycanın göyləri də böyük oğlunu – nəcib, müqəddəs İnsan, fədakar alim, unudulmaz Şirməmməd müəllimi son mənzilə yola salır.

Əziz Şirməmməd müəllim,

Siz mənim sevimli müəllimim, atam Məsud Əlioğlunun yaxın dostusunuz. Sözlərimi ona görə indiki zamanda bildirirəm ki, bu dostluğun, müəllimliyinəbədiyaşar olduğuna əminəm.

70-ci illərdə "Xarici jurnalistika" fənnindən söylədiyiniz mühazirələr, mövzular ətrafında gəzişmələriniz – insan, cəmiyyət, milli və bəşəri dəyərlər barədəsöylədiklərinizmənim və yəqin ki, bütün tələbələrinizin həyatında köklü dəyişikliklər, oyanışlar yaradıb, bir şəxsiyyət, qələm adamı, vətəndaş kimiformalaşmağımızda əsaslı rol oynayıb. Bunu dəfələrlə özünüzə də demişəm: "Siz tək mənim yox, bütün Azərbaycanın müəllimisiniz" və əlinizi öpmüşəm. Busözü bu gün də deyirəm və əlinizi öpürəm. Bu gün vidalaşdığım insanın yalnız unudulmaz, böyük müəllimim, atamın yaxın dostu olmadığını, bu itkinin hədsizböyük, bütövlükdə Azərbaycan, onun insanlıq və vətəndaşlıq tarixi üçün əvəzsiz, yeri heç vaxt doldurulmayacaq itki olduğunu bütün varlığımla dərk edirəm. İstəyirəm biləsiniz ki, Siz hər zaman olduğu kimi, bu gün də həyatımda əhəmiyyətli yer tutursunuz, yenə ən çətin məqamlarımda üz tuta, məsləhət ala bildiyimdoğma adamım olaraq qalırsınız – mən Sizi itirməmişəm. 45 il əvvəl dediyiniz fikirlər – azərbaycançılıq, vətəndaşlıq heysiyyəti, milli dirçəlişlə bağlı dərin təəssüb və ağrıyla söylədiyiniz sözlər tutum və həqiqət etibarilə o qədər nəhəng və dəqiq, göstərdiyiniz yol, səmt o qədər aydın və işıqlıdır ki, yaşandıqca, irəlilədikcə bitmir.

Son telefon danışığımız bir neçə ay əvvəl – Novruz bayramı ərəfəsində baş tutdu. Bayram təbrikindən sonra mən yenə həmişəki kimi, bizlərə verdiyinizhəyat və insanlıq dərslərinizi xatırladım, onları unutmadığımı, jurnalistikanın nüvəsinin qorxmazlıq və cəsarət, hadisələrə obyektiv, ədalətli yanaşma olduğunu, mövzu və məsələlərin bütövlükdə ölkə, milli mənafe, ümumbəşəri dəyərlər baxımından qiymətləndirilməsinin vacibliyini əsla yaddan çıxarmadığımı, bizlərə – Jurnalistika fakültəsinin tələbələrinə aşıladığınız işıqlı ideyalarınızın qaranlıqları aydınladan sönməz məşəltək hər zaman yolumu işıqlandırdığını bildirdim.

Siz telefonun o başında həmişəki müdrik həlimliklə susdunuz, sonra nədənsə atamdan danışdınız. Onu unutmadığınızdan, sanki bu günlərdə itirdiyinizkimi, ağrılar dolu sevgiylə xatırlamağınızdan təsirləndim… Siz heç nəyi və heç kimi unutmursunuz, əziz müəllimim. Bu dünyada görüb tanıdıqlarınızı, onlarınişıqlı əməllərini, ömürlərini cümhuriyyət mücadilələrində, milli dirçəliş, maarifçilik uğrunda yandıranları, yazılanları, tarixin yaddaşına köçsə də, nəzər-diqqətdən kənarda qalıb unudulanları Siz unutmadınız.

Deyildiyi kimi, peyğəmbərlər və alimlər ölmürlər. Siz də unudulmazsınız, Şirməmməd müəllim. Mənalı, məzmunlu ömür yolunuzla, həyatınızı, varqüvvənizi son nəfəsinizədək xalqınıza, insanların maariflənməsinə, ziyalanmasına həsr etdiyiniz təsirli həyat hekayənizlə hər zaman qəlblərdə, yaddaşlarda yaşayacaqsınız.

Ruhun şad olsun, əziz müəllimim!

Afaq MƏSUD



"ŞİRMƏMMƏD HÜSEYNOV MİLLİ YADDAŞIMIZIN DAŞIYICISI İDİ" – deputat Vüqar İsgəndərov

Bu gün Azərbaycan mətbuat tarixinin görkəmli nümayəndəsi, publisist, 1924-cü ildə Şəkidə anadan olan Şirməmməd Hüseynovun doğum günüdür. Azərbaycanın milli mətbuatını onsuz təsəvvür etmək qeyri-mümkündür. Onun mətbuat tariximizdə qoyduğu silinməz iz neçə neçə gənc jurnalisti, mətbuat nümayəndələrini daim öz arxasıyca aparacaq. Şirməmməd Hüseynovun tarixi araşdırmaları, elmi əsərləri, hər zaman öyrəniləcək və tədqiq olunacaq. Görkəmli alim Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəltməklə Həsən bəy Zərdabidən sonra bu sahəyə yenidən can verib. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Əlbəttə onun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti daim yüksək qiymətləndirilib.

1948-ci ildə "Nizami təqaüdü", 1966-1972-ci illərdə "Qızıl qələm" mükafatı, 1988-ci ildə "Əməkdar jurnalist" fəxri adı, 1991-ci ildə Zərdabi adına mükafat, 1992-ci ildə Y.Məmmədəliyev adına mükafat, 1998-ci ildə M.Ə.Rəsulzadə adına mükafatlarına layiq görülmüşdür. 2014-cü ildə isə cənab Prezident İlham Əliyevin sərəncamına əsasən "Şərəf" ordeni ilə təltif olunmuşdur.

800-dən çox elmi-publisistik məqalə, 15-dən artıq kitab və monoqrafiya müəllifi olan görkəmli professor Mirzə Fətəli Axundzadədən başlamış Məmməd Əmin Rəsulzadəyə qədər gedən bir yolun ən gizli publisist anlarını qələmində

yenidən dirçəltmişdir. Xüsusən Cümhuriyyət dövrünü yüksək səviyyədə araşdıran Şirməmməd Hüseynov çox orijinal məlumatlar verməklə həmin tarixin mükəmməl bir formada öyrənilməsinə təkan vermişdir.

Şirməmməd müəllim milli yaddaşımızın daşıyıcısı idi, əsərləri Azərbaycanın dünəni və bu günü arasında mənəvi körpü rolu oynayırdı. Onun Azərbaycan Xalq Cümhuriyyətinin, onun qurucularının, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində, təbliğində misilsiz xidmətləri olub. Müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir. Bu nəşrlərin hər biri istər alimlər, istər tələbələr, istərsə də oxucular üçün zəngin xəzinədir.

Bakı Dövlət Universitetində 60 illik elmi fəaliyyəti olan bu görkəmli şəxsiyyəti yetirmələri daim müəlimlərin müəllimi kimi xarakterizə edirdi. Onun əzmkarlığı hər bir vətəndaşa nümunə olmalıdır. Fitri istedada sahib olan Şirməmməd Hüseynov ömrünün son anına qədər elmi fəaliyyətlə məşğul olmuş və ömrünü elmə fəda edən bir fədai obrazı yaratmışdır.

Əlbəttə, biz də belə elm fədailərini, ictimai xadimlərin xatirələrini daim yaşatmalı və onlarla fəxr etməliyik. Ona görə də yaxşı olardı ki, yaxın vaxtlarda Milli mətbuatımızın banisi Həsən bəy Zərdabidən sonra bu sahədə onun ən layiqli davamçısı Şirməmməd Hüseynovun Şəkidə ev muzeyi yaradılsın. Onun anım günü olan 24 iyun 2021-ci il tarixinə qədər bu istiqamətdə müəyyən addımlar atılsın və bu ilki anım gününü məhz həmin evdə keçirək. Onu öz doğulduğu evdə yad edək.

Doğum günün mübarək, ustad!

Vüqar İSGƏNDƏROV,
Milli Məclisin üzvü

"Yeni Müsavat" qəzeti, 17 dekabr 2020-ci il

MÜCADİLƏNİN BAŞLANĞICI M.Ə.RƏSULZADƏNİN ƏSƏRLƏRİNİN I CİLDİ

Neçə illər bundan əvvəl universitetin divar qəzetlərindən birində Qorkinin dilimizə tərcümə olunan əsərlərinin tarixi barədə kiçik bir məqalə dərc olunmuşdu. Bu məqalənin müəllifi olan tədqiqatçı tələbə qız öz mövzusundan bəhs edərkən tərcüməçilərdən biri kimi yəqin özü də bilmədən və onu necə təhlükə gözlədiyini ağlına belə gətirmədən M.Ə.Rəsulzadənin adını çəkmişdi. Təsadüfən məqaləni oxuyan müəllimlərdən biri bu sirri heç kəsə açmamışdı. Nə məqalənin müəlifinə bir söz demişdi, nə də bir kəsi xəbərdar etmişdi ki, divar qəzetini çıxarsınlar. Çünki bu hərəkət dərhal şübhə doğuracaqdı və təhlükəsizlik komitəsinin universitetdəki təmsilçisinin ayıq-sayıq nəzərlərindən yayınmayacaqdı. Nəticədə çox adam zərərdidə olacaqdı.

Kiçik görünə biləcək bu hadisəni yada salmaqda iki məqsədimiz var: birincisi, Rəsulzadə adını xatırlamağın nə qədər təhlükəli olduğunu və bir də bu böyük şəxsiyyətin ədəbiyyatın bütün sahələrində necə geniş fəaliyyət göstərdiyini qeyd etməkdir.

Bu gün isə M.Ə.Rəsulzadənin ədəbi və ictimai irsi bütün xalqımızın malı olmuş və çox əlamətdardır ki, biz onun əsərlərinin birinci cildinə sahib ola bilmişik.

BDU-nun professoru Şirməmməd Hüseynov tərəfindən toplanıb tərtib edilən, ərəb əlifbasından kiril əlifbasına köçürülən bu birinci cildin yaranmasının tarixi də maraqlıdır. Görkəmli jurnalistimiz və tədqiqatçı professorumuzun bu fəaliyyəti əsl vətəndaşlıq qeyrətinin nümunəsidir, çünki bu cildin əmələ gəlməsi, Rəsulzadə adının populyarlaşdığı son üç ilin nəticəsi deyil, uzun illər gizli şəraitdə arxivlərdə aparılan yorulmaz fəaliyyətin məhsuludur, buna görə də qiymətli həmkarımız Şirməmməd müəllimə vətəndaşlıq borcunu canla-başla axıra çatdırdığına görə minnətdar olmalıyıq.

Cildin üzərində böyük iş aparılmışdır. 470 səhifədən ibarət olan bu əsər Ş.Hüseynovun yazdığı ön sözlə, müəllifin mücadilə silahdaşı və davamçısı Mirzəbala Məmmədzadənin məqaləsi ilə başlanır. Rəsulzadənin keçdiyi böyük mübarizə yoluna həsr edilmiş bu məqaləni M.B.Məmədzadə "Qələm, kəlam və məfkurə ustadımız" başlığı altında 1954-cü ildə Ankarada "Azərbaycan" jurnalında, Məmməd Əminin 70 illiyi münasibətilə çap etdirmiş, sonradan dəfni münasibətilə söyləmişdir. Məqalənin müəllifi bu böyük dövlət və fikir adamının 19 yaşından ömrünün axırınadək fasiləsiz davam edən mübarizəsindən maraqlı, ibrətamiz faktlar və hadisələri təsvir edir. "Milləti üçün bir səadət qapısı açmağı" öz həyatının qayəsi kimi düşünən Rəsulzadə bütün ömrünü bu müqəddəs işə həsr etmişdir. İndi artıq hamımıza yaxşı məlumdur ki, M.Ə.Rəsulzadə ilk müstəqil respublikamızın yaradılmasında və bu günə gəlib çıxmasında misilsiz rol oynamışdır. Lenin və ya Stalin olsaydılar da, olmasaydılar da rus xalqı yaşayacaqdı. Dünyada qəhrəman kimi dəyərləndirilən və fransız xalqının azadlığı uğrunda yorulmadan mübarizə aparan de Qoll da o cür. Amma əsrimizin əvvəlində Məmməd Əmin və silahdaşlarının fədakarcasına mübarizəsi olmasaydı, Azərbaycan xalqı qırğın meydanında kimsəsiz qalacaqdı, tarix və coğrafi məkandan silinməli olacaqdı. Rəsulzadənin öz xalqı qarşısında xidməti, bir neçə il sonra Atatürkün Türkiyənin taleyindəki xidmətinə çox bənzəyir.

M.Ə.Rəsulzadənin işıq üzü görmüş əsərlərinin birinci cildi onun gənc yaşlarında müxtəlif qəzet və jurnallara yazdığı məqalə, məktub, şeir, felyetonlarını əhatə edir və kitabın ilk yazısının altında 1903 rəqəmi qeyd olunmuşdur ki, bu vaxt müəllif on doqquz yaşına yenicə qədəm qoymuşdu. Bu, Tiflisdə çıxan "Şərqi-Rus" qəzetinə yazdığı məktubudur, lakin bu kiçik məktubda xalqın qarşısında duran böyük mətləblərdən bəhs olunur. "Qafqaz müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə eləməkdən başqa bir şey mənzur (məqsəd) tutmasınlar. Məsələn, hər kəsin ki qüvvəsi çatır uşağını məktəbə qoymağa, məbadə-məbadə palçıxçı dükan şagirdi və qeyrə-qeyrə razı olsun".

Rəsulzadə mübarizəsinin və bununla bağlı siyasi, ictimai fəaliyyətinin, ədəbi yaradıcılığının erkən dövrü elə bir zəmana təsadüf edir ki, Azərbaycan xalqı o vaxt da imperiyanın ssenarisi ilə yaradılmış fəlakətə düçar olmuşdu və bugünkü kimi, Qarabağ, Zəngəzur, Naxçıvan erməni-müsəlman münaqişəsi nəticəsində od içində yanırdı. Gənc Məmməd Əmin 1906-cı il yanvarın 5-də çıxan "İrşad" qəzetində bu fəlakətin səbəblərindən birini belə izah edirdi: "Yazıçılara lazımdır ki, nifaqa bir cüzi dəxi olsa xidmət edən məqalələrdən ibrazi-nifrət və narazılıq etsinlər... Hərgah "Erməni məsələsi və panislamizm" kimi kitablar əvəzində, məhəbbət və qardaşlığa çağıran risalələr nəşr etsə idilər, bu qədər nahaq qanlar tökülməyib, bu qədər evlər, xanimanlar bərbad olub viran qalmaz idi. Bu qədər arvadlar dul, bu qədər uşaqlar yetim düşməz idi". Müəllif, görünür, öz dövrünün mənfur balayanlarını, xanzadyanlarını, kaputikyanlarını nəzərdə tutur və onların bəd əməllərindən ürək yanğısı ilə bəhs edir.

M.Ə.Rəsulzadənin əlimizdə olan bu cildini vərəqlədikcə, bu böyük insanın gənc yaşına rəğmən öz xalqı ilə necə həmahəng nəfəs dərdiyini, bütün dərdi-bəlalarını necə dərindən hiss etdiyinin şahidi olursan. "Hər yana baxırsan lənglik, hər tərəfə dönürsən bütün durğunluqdur ki var. Ürəklə bağıran, qəlbdən nalə edən az tapılır. Zatən qəlbdən bağıranların bağırtıları da azdır, çünki işə məşğul olduqda bağırmağa vaxt qalmıyor" ("Tərəqqi", № 56, 1908, 19 sentyabr). Bu gün Vətənimizin düçar olduğu bəlaları görürmüş kimi həmin ilin oktyabrında yazırdı: "Madam ki, Krılovun hekayəsində olduğu timsal kimi hərəmiz bir yana çəkəcəyik, o halda dövri-çərxeyi mədəniyyətimiz haman yerində qalacaq, hərəkətə gəlməyəcəkdir". Və xalqların başına gətirilən zillətlərə bais olanların ünvanları da ona yaxşı bəlli idi, bunların səbəblərini də dərindən başa düşürdü, bilirdi ki, xalqları bir-birinin üstünə salan kəslər kimlərdir və məqsədləri nədir. "İştə "şeytan" əli ilə yapılan erməni-müsəlman müqatiləsi, necə ki gözləmək olardı, bizə bir böyük səfalət, tükənməz fəlakət, yaddan çıxarılmayan rəzalət və həlakət yetirməkdədir. Budur, Qarabağ dağılmış, Zəngəzur talan olmuş, yüzlərlə kəndlər yağmaya getmiş... Min-

lərlə binəvalar çöllərdə qalıb "acından öldük, soyuqdan qırıldıq, ey insanlar, bizə imdad!" – deyə fəryadlarını asimana bülənd ediyorlar... Hökumət isə işinə məşğul olub burasına heç diqqət belə etmiyor. Nə üçün də eləsin?! Bu bəlalar, bu fəlakətlər yalxu bir müsəlmanların, yalxu bir ermənilərin bədbəxtliyi deyil. Bu bəla, bu bədbəxtlik cümlə Qafqazın, külli qafqazlıların bədbəxtliyidir".

Rəsulzadənin təsvir etdiyi hadisələr, bildiyiniz kimi, əsrimizin əvvəllərində cərəyan edirdi və bundan sonra 1918-ci ildə də həmin faciə baş verdi, üçüncü dalğa isə 1988-ci ildən bu günümüzə kimi gəlib çıxan fəlakətlərdir. Bəs onda görəsən uzun illər boyu respublikaya başçılıq edənlər necə olub ki, bu günümüzü görə bilməyiblər? Tutalım, Rəsulzadə yasaq idi, bəs bu faciələrdən bəhs edən qeyri ədəbiyyatçılarımız, jurnalistlərimiz, siyasi xadimlərimizin yazdıqları necə, bunlardan faydalanıb vaxtında tədbir tökmək olmazdı ki, Xocalı, Şuşa, Laçın və digər faciələrimizin qarşısı alınaydı? Rəsulzadənin bəhs etdiyi o "şeytan" yüz ildən artıqdır ki, fəaliyyət göstərir, amma bizim rəhbərlərimiz həmişə başlarının altına yastıq qoymuş, xalqı gözləyən fəlakətin qarşısını almaq üçün heç qımıldanmamışlar. Budur bədbəxtliyimizin və fəlakətimizin səbəbi. "Öylələri gərək cəmaət işinin başında olsunlar ki, həqiqətən onlar haman işi aparmağa, layiqincə yerinə yetirməyə müsaid olub öz əfkar və hissiyyatlarını deməyə, yoldaşlarına bəyan etməyə müqtədir olmaqla bərabər, cəmaətin aşağı sinfinin tərəfdarı, füqarayi-cəmaətin himayəçisi olsunlar", – deyə 1907-ci ildə "Təkamül"də yazarkən belə rəhbərlərə işarə edirdi.

1903-1909-cu illərdə yazılıb bu cilddə toplanmış əsərlər, demək olar ki, bütünlüklə Azərbaycan xalqının taleyi ilə bağlı mühüm məsələlərdən – siyasi, iqtisadi, məişət, mədəniyyət və qeyri problemlərdən bəhs edir və bunların böyük əhəmiyyəti ondadır ki, bu gün də öz dəyərini itirməmişdir. İnqilab, partiyalar, dövlətin idarə edilməsi, demokratiya, təhsil məsələləri, İran və Türkiyə hadisələri gənc Məmməd Əminin yaradıcılığında mühüm yer tutur. Dövlət işini öz şəxsi mənafelərinə qurban edən xadimlərdən bəhs edərək müəllif "Tərəqqi"də Bakı duması nümayəndələri haqqında yazırdı: "Bizim qlasnılar... ancaq bunu bilirlər ki, bacardıqca öz ciblərini dolduran işləri, layihələri icra etdirsinlər və şəhər idarəsini öylə hala qoysunlar ki, bilamümmaniət keyfləri istədiyi kimi hökmranlıq eləyib, öz qəvm və əqvamlarının keyf və sədaqətlərini təmin etsinlər!.."

Milli dövlətimiz qurulduqdan sonra bu fikrini inkişaf etdirərək, Rəsulzadə 1919-cu ildə "Azərbaycan" qəzetində xəbərdarlıq edirdi: "... İndi artıq istiqlal fikri bir firqənin, bir kütlənin arzusu deyil, bütün cəmaət vətəni istiqlalsız və dövləti hürriyyətsiz təsəvvür edəmiyor. Ona görə də demokratiya qapısında şübhəli adamlar durmasına heç vəchlə razı olmaz və bir tək vahid kimi hürriyyət və istiqlalının müdafiəsinə hazırdır".

Böyük zəhmət bahasına başa gələn birinci cild şübhəsiz ki, xalqımız tərəfindən maraq və sevgi ilə qarşılanacaq. Amma təxminən on cildi əhatə edəcək Rəsulzadə əsərlərinin çapı mütləq dövlət tərəfindən himayə edilməli, bunun üçün vəsait ayrılmalıdır. Ancaq bu yolla bütövlükdə nəşri uğurla başa vurmaq olar.

Hacı HACIYEV,
Azərbaycan Jurnalistlər Birliyinin sədri
"Xalq" qəzeti, № 30, 24 fevral 1993-cü il

"ƏSRİ"DƏ BİR MƏZAR VAR

Xalqı yaşadan, tanıdan birinci növbədə onun tarixi şəxsiyyətləridir. Xoşbəxtlikdən hər əsrdə varlığımızı, diriliyimizi nümayiş etdirən şəxsiyyətlərimiz yetişib, var olub. Bəşəriyyət tarixinə düşən şairlərimizi dünya tanıyır, xalq yaradıcılığı və sənətkarlarımız zəngindir, çoxdur. Neçə əsrlərdir möhtac olduğumuz, parçalanmış vətəni, itirilmiş istiqlaliyyəti, birlik və vəhdətimizi yarada biləcək, təmin edə biləcək dövlət və siyasət adamlarımız olub. Mədəniyyətlərin ən alisi siyasi mədəniyyətdir demişlər. Biz bu mədəniyyət məktəbini XX əsrdə keçirik. Onun ilk müəllimləri M.F.Axundov və H.Zərdabi, ilk istedadlı bayraqdarı Məmmədəmin Rəsulzadə olmuşdur.

Əsrin əvvəllərində dövrün tələbi ilə, xalqın əsrlik istək və arzusu ilə milli istiqlal məfkurəsini yaradan minləri, onminləri bu məfkurə ətrafında birləşdirən və tariximizin ilk müstəqil cümhuriyyətini yaradanlardan biri də M.Ə.Rəsulzadə olmuşdur. Onun anadan olduğu 31 yanvar günü tariximizin əlamətdar günü hesab oluna bilər. Bu il tarixi gündən 111 il keçmişdir.

Yanvarın 31-də M.Ə.Rəsulzadənin anadan olduğu Novxanı kəndində son neçə ildə müşahidə etdiyimiz şənlik vardı. Məmmədəminin pərəstişkarları, onun ideya övladları və nəvələri, davamçıları kəndin mərkəzi meydanında qoyulmuş heykəlin ətrafına toplaşmışdılar. Gənc müsavatçılar öz ideya ataları ilə görüşə gəlmişdilər. Xoş sözlər deyildi. Azərbaycan milli qurtuluş hərəkatının ideoloqunun və liderinin həyat və fəaliyyətindən danışıldı. Heykəlin önünə tər çiçəklər qoyuldu. Sonra əksəriyyətini cavanların təşkil etdiyi iştirakçılar Novxanı qəbiristanlığına yollandılar. Burada Məmmədəminin atası Ələkbər kişi ilə yanaşı onun nəvəsi, Məmmədəmin Rəsulzadənin oğlu Azərin məzarı ziyarət edildi, yasin oxundu, qardaş türk torpağında Ankaranın Əsri qəbiristanında uyuyan, xalqımızın böyük oğlu, qaldırdığı istiqlal bayrağına səcdə etdiyimiz Məmmədəminin ruhuna dualar oxundu. Novxanının bu böyük övladının mənzil muzeyi də açıq idi.

Bəli, bu gün milli mücadilə öndərimizin mənzil muzeyini, atası Ələkbər kişinin, oğlu Azərin qəbrini qorxmadan, çəkinmədən yüzlərlə azərbaycanlı ziyarətə gəlir. On il bundan qabaq isə kənd qəbiristanlığındakı bu məzarı yalnız çox kiçik bir azərbaycanlı qrupu nəzərə çarpdırılmadan ziyarətə gəlirdi. Onların içərisində Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov və b. vardı. Ailəmizdə yanvarın 31-ni həmişə qeyd edirdik. Həmin gün həm də mənim müəllimə işləyən bacımın anadan olan günü idi. 1984-cü ildə isə bu ildönümü xüsusi şövqlə qeyd etdik. Bacımın 60, M.Ə.Rəsulzadənin 100 yaşı tamam olurdu. İlk dəfə qazana duz salarkən mən üzünü görmədiyim, şəxsən tanımadığım, ideya və ideallarına dərindən bələd olmadığım, lakin həmişə ailəmizdə xüsusi ehtiram və bir qədər

də ehtiyatla yad edilən Məmmədəmin Rəsulzadənin də adını əzizlərimlə birgə pıçıldadım. Bu ildönümün qeyd olunmasının digər bir mənasının yeganə biləni Bəxtiyar Vahabzadə idi. O zamanın, dövrün tələbi belə idi.

1988-ci il noyabr ayının əvvəllərində SSRİ jurnalistlərinin tərkibində Türkiyədə olarkən ilk ziyarət etdiymiz yer Ankarada Əsri qəbiristanlığı oldu. Məmmədəmin Rəsulzadənin məzarı uyuyan bu qəbiristanlığa bizim milli qurtuluş ideaologiyamızın banisi Məmmədəminin məsləkdaşları Məhəmməd Kəngərli və Əhməd Qaraca müşayiət edirdi. O zaman keçirdiyimiz həyəcanı təsvir etməyə indi də söz tapmıram. Səliqəsi və abadlığı ilə nəzəri cəlb edən məzarıstan, qoynunda yer verdiyi bir müqəddəs azərbaycanlıya görə birdən-birə bizim üçün doğma bir torpağa çevrildi. Tarixi bir qərinəni ötmüş doğmalarından uzaqda olan məzarın görkəmi də, ona mütəmadi göstərilən qayğı, ehtiram da bizi mütəəssir etmişdi. Bəli, öndərimizin uyuduğu torpaq ona doğulduğu torpaqdan daha çox qayğı göstərir.

Novxanıdan, atasının qəbri üstündən götürdüyümüz bir ovuc vətən torpağını onun məzarı üstünə səpdik. Həmin kiçik polietilen torbanı isə oğul məzarından götürdüyümüz torpaqla doldurdum. Payız olmasına baxmayaraq, yer hələ yumşalmamışdı. Əllərimlə, dırnaqlarımla qurumuş torpağı qazıyıb torbaya necə yığdığımı, bi kiçicik torpağı çox qiymətli, əziz bir xəzinə kimi qoruduğumu bu gün də həyəcansız xatırlaya bilmirəm. Səfərimiz Atatürkün anım həftəsi günlərinə düşmüşdü. Həmin həftə Türkiyənin hər yerində Mustafa Kamalın ölüm günü xüsusi ehtiramla yad edilir. Küçələr, xiyabanlar, onun portretləri ilə bəzədilir. Atatürkün keçindiyi an isə hər yerdə bütün hərəkət dayanır, küçələrdə gedən adamlar isə ayaq saxlayır. Bu, türk xalqının öz böyük oğluna sayqısıdır. Bir-birimizə deməsək də, nümayəndə heyətimizdə çoxlarının ürəyində belə bir ehtiramın nə vaxtsa M.Ə.Rəsulzadəyə göstərilməsini arzulayırdıq. Düzü, o zaman heç bir azərbaycanlının ağlına belə gəlməzdi ki, yaxın vaxtlarda o da öz öndəri M.Ə.Rəsulzadənin xatirəsini ədəbiləşdirəcək.

Türkiyədən qayıtdıqdan sonra gətirdiyimiz torpağı Novxanıda onun atasının məzarı üstünə səpdik.

Artıq bir neçə ildir ki, hər il yanvarın 31-i, mayın 28-i Novxanıdakı məzarları ziyarət etmək bir ənənəyə çevrilib.

Dahi öndərim, əsrin əvvəllərində səpdiyin mücadilə toxumları əsrin sonlarında cücərdi, ruhun şad olsun, indi uyuduğun torpaqda rahat yata bilərsən. Bir kərə qaldırdığın bayrağı övladların yenidən ucaltdılar, bu bayraq daim ucalacaq. Onu qoruyacaq oğulların var.

Ülkər HÜSEYNOVA

"Vahid" humanitar qəzeti, № 5(30),
şənbə, 4 fevral 1995-ci il

TƏLƏBƏNİN 40 İL QORXDUĞU PROFESSOR...

Dekabrın 17-si Azərbaycan mətbuatının ağsaqqalı, milli mətbuatımızın usanmaz araşdırıcısı Şirməmməd Hüseynovun 85 yaşı tamam olur. Azərbaycan Demokratik Cümhuriyyətinin qurucusu Məmməd Əmin Rəsulzadənin irsinin öyrənilməsində, təbliğində onun misilsiz xidməti var. Şirməmməd müəllim AzadlıqRadiosunun "Can Bakı" proqramının qonağı olub. Onun dediklərindən:

ŞƏKİ ÜSYANINI XATIRLAYIRAM

- Keçən əsrin 24-cü ilində anadan olmuşam. Uşaqlığımda nələr görməmişəm?! Şəki üsyanını xatırlayıram, 6-7 yaşım olardı, çörək kartoçka sistemi ilə verilirdi, aclıq idi, əziyyət idi... Keçmiş ziyalıları qırırdılar, kim bəy-xan olub, var-dövlətini əlindən alırdılar... Bunların hamısını yaşamışam. Təzəcə gözümü açmışdım ki, müharibə başladı – əvvəlcə Fin müharibəsi, sonra Böyük Vətən müharibəsi. Gündə bizə 300 qram çörək verirdilər. 10 yaşımdan dağdan odun daşımışam. Satırdıq, onunla dolanırdıq. Həyatın hər üzünü görmüşəm. Mən həm sosializmdə yaşamışam, həm müstəqilliyi yaşayıram.

MİLLƏTİN NAMUSUNA TOXUNDULAR...

- Mən bu fikirdəyəm ki, millətin müstəqilliyini əlindən almaq onun milli namusuna toxunmaq deməkdir. Mənim dayılarım Müsavat dövrünü çox gözəl xatırlayırdılar. Deyirdilər ki, müstəqil yaşadıq, cəmi 23 ay ömür sürdü, bolşeviklər gəldi, istiqlalımızı əlimizdən aldılar..

HARDA RÜŞVƏT VAR, MƏN ORDA YOXAM!

- O yerdə ki rüşvət var, oğurluq var, fırıldaq var, yalan var, – mən orda yoxam! Bu mənim həyat tərzim olub. Universitet mənim üçün ikinci ailədir. 64 lldir universitetdə çalışıram. 13 rektor görmüşəm. Axırıncısı Abel Məhərrəmovdur. Bunların içində vətənpərvəri də vardı, karyeristi də, hətta milli ruhu universitetdən çıxarmaq istəyənləri də...

5 TƏLƏBƏDƏN BİRİ "KQB"-nin AGENTİ İDİ

- Universitetdə milli ruhlu gənclik var idi. Onu deyim ki, fitva verən yaşlılar da var idi. Qorxurdular, amma bizim istiqamətimizi şəxsi söhbətlərdə ora yönəldirdilər. Auditoriyada yox! Auditoriyada hər 5 tələbədən biri "KQB"-nin agenti olurdu. Auditoriyada müəllimlərin nə danışdığını izləyirdilər... Bax, belə atmosfer vardı. İndi, Allaha şükür, ən böyük işi gördük, müstəqillik qazandıq. Mənim üçün ömrümün ən gözəl anı budur.

"AZƏRBAYCANDA 2324 PADŞAH VAR"

- Bir halda ki biz keçid dövründə yaşayırıq, hərçənd bəziləri deyir keçid dövrü bitib. Keçid dövrü o vaxt qurtaracaq ki, yeni nəsil yetişsin! Söhbət təkcə iqtisadiyyatdan, siyasətdən getmir, söhbət nəsildən gedir. Biz hamımız sovetlərdən qalan adamlarıq. Bizi idarə edənlər də həmçinin. İstər-istəməz sovet dövrünün təfəkkür tərzi, diktatura təfəkkürü var bizdə. Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"də yazırdı ki, İngiltərədə bir kral var, filan yerdə bir kral var, amma Azərbaycanda 2324 padşah var. Çünki kim hansı vəzifədə otursa, özünü padşah bilir.

GÖNDƏRDİM HEYDƏR ƏLİYEVƏ

- M.Ə.Rəsulzadənin ilk cildini Heydər Əliyevə yolladım. Üstündə də yazdım ki, XX əsrin əvvəllərində bizə müstəqil dövlət yaradan Məhəmməd Əmin Rəsulzadənin əsərlərini sizə təqdim edirəm. Arzum odur ki, əsrin sonunda Azərbaycan müstəqilliyini onun kimi aparmaq iqtidarında olan yeni bir M.Ə.Rəsulzadə yetişdirsin. Və ümidvaram ki, siz bu missiyanı yerinə yetirəcəksiniz.

ÜZEYİR BƏYİN ƏSƏRLƏRİNİN 40 FAİZİ HƏLƏ İŞIQ ÜZÜ GÖRMƏYİB

- Hərə öz dədə-babasının 8-10 cildini buraxdırır. Üzeyir bəyin övladı yoxdu axı. Biz hamımız onun övladlarıyıq! Biz niyə buraxmayaq? Cavanlara niyə onu olduğu kimi təqdim etməyək? Üzeyir bəyin əsərlərinin 40 faizi hələ işıq üzü görməyib. İndi birinci cild hazırdır. "Nəşrlərdən kənarda qoyulmuş mətbu əsərləri – 1904-12-ci illər". Adı belədir. İkinci cildi də hazırlayıram. Mart ayına onu da verəcəyəm. Üzeyir bəyin yubileyinə onun əsərlərinin akademik nəşrinin birinci cildini də ortaya qoyacağam. Bilirsiniz, mən işlədikcə yaş yadımdan çıxır.

40 İL QORXAN TƏLƏBƏNİN SUALI

Sual: Sizə şəxsi bir sual verəcəyəm. Tələbəlik dövründə həmişə Sizdən çəkinmişəm, hətta qorxmuşam. Çox sərt, amansız bir dekan kimi qalmısınız yaddaşımda. Bu hiss 40 ildir ki keçməyib. Hər dəfə Sizdən müsahibə alanda təzələnir...

- Sizə bir şey deyim, məndən qorxurdular, çünki qanundan qorxurdular. Əgər bir adam düzgün adamdırsa, nizam-intizama tabe olursa, vətəndaş kimi qanuna əməl edirsə, o niyə qorxmalıdır ki? Qanunu pozmağa meyillidirsə, o, qorxmalıdır. Amma heç kəs deyə bilməz ki, Şirməmməd Hüseynov yeri gələndə onun mənafeyini müdafiə etməyib! Əsas budur ey!

Sevda İSMAYILLI

"AzadlıqRadiosu.az", № 01, 23.12.2009

ŞİRMƏMMƏD HÜSEYNOV–80

AZƏRBAYCAN JURNALİSTLƏRİNİN MÜƏLLİMİ

...2001-ci ilin may günlərinin birində qəzetimizin naşiri Mahmud Məmmədovun tapşırığı ilə keçmiş müəllimim, Azərbaycan mətbuatının ən nüfuzlu, vicdanlı, obyektiv və xeyirxah şəxsiyyətlərindən biri olan Şirməmməd Hüseynova birgə işlə bağlı zəng edəndə ağlıma belə gətirə bilməzdim ki, bu təsadüf çox böyük tədqiqatçılıq, dəyərli publisistik fəaliyyəti ilə sonuclanacaq və Azərbaycanın keçmiş və çağdaş həyatının inandırıcı və konkret tarixi faktlar əsasında dolğun və obyektiv mənzərəsini yaradacaq əməkdaşlığa çevriləcəkdir. Elə mənzərə ki, təkcə "Günay" qəzetinin minlərlə oxucusu deyil, hətta ayrı-ayrı tədqiqatçılar, aspirantlar, hətta tələbələr dönə-dönə Ş.Hüseynovun dörd il ərzində inamla və çox böyük məsuliyyətlə apardığı rubrikaya müraciət edəcəklər.

Şirməmməd müəllim bu dörd il ərzində "Günay"ın səhifələrində 150-dən artıq araşdırma məhsulu, az qala hər biri elmi əsər ola biləcək məqalələr dərc etdirmişdir. Bu publisistik materiallar öz əhatə dairəsinə, sanbalına, maraqlılığına və akademizminə görə istənilən elmi-tədqiqat institutunun fəxr etdiyi araşdırmalarla cəsarətlə rəqabətə girə bilər.

Ş.Hüseynovun tədqiqat diapazonu, müraciət etdiyi mövzuların əhatə dairəsi kifayət qədər genişdir. Onun "Günay" qəzetində dərc olunmuş əsərlərinin əsas mahiyyətində Azərbaycan, onun keçmişi, indisi, gələcəyi və doğma yurdumuzu ilgiləndirən regional və qlobal problemlər dayanır. Şirməmməd müəllim özü "Günay" qəzetində işıq üzü görmüş araşdırmalarını belə xarakterizə edir:

"Əsas qayə tarixi, elmi baxımdan günün və dövrün aktual problemlərinə öz münasibətimi bildirməkdən, son illərə qədər aşkarlanmamış, işıq üzü görməmiş, bəzən təhrif olunmuş və hətta saxtalaşdırılmış hadisə və şəxsiyyətlərə aid tarixi faktları, mətbu nümunələri oxucuların nəzərinə çatdırmaqdır".

Bakı Dövlət Universitetinin jurnaistika fakültəsinin mətbuat tarixi kafedrasının professoru Ş.Hüseynovun "Günay" qəzetində pərvəriş tapmış yazıları bir-birindən kifayət qədər fərqli, kifayət qədər müxtəlif işləmə tərzinə malik olsalar da, onları istənilən tədqiqatçı üçün mühüm kateqoriya sayılan və publisistik məhsulun sənətkarlıqla yanaşı, mütləq uğurunu təmin edən "Tarix" və "Elm" anlayışları birləşdirir.

Qısa zaman kəsiyində tarixi, bəşəri, mənəvi və əxlaqi dəyərlərin tez-tez dəyişməsi fonunda öz yaradıcı "mən"inə, öz dəsti-xəttinə, öz üslubuna və heç vaxt dəyişilməyən publisistik əqidə və vicdana sadiqlik istənilən müəllifdən çox

böyük insani və ziyalı xüsusiyyətləri tələb edir. Ş.Hüseynov elmi tədqiqatla, maarifləndirmə ilə və Azərbaycan tarixinin ayrı-ayrı qaranlıq səhifələrinin üzə çıxarılması ilə fəal şəkildə məşğul olduğu 50 il ərzində bir dəfə də olsun öz həyat prinsiplərinin əksinə getməmişdir.

Professor Ş.Hüseynovun "Günay" qəzetində dərc olunmuş yazıları sistematik, məntiqi və ictimai fikrə, belə demək mümkündürsə, xronoloji şəkildə təsir göstərmək üzərində qurulmuşdur. Bu 150 yazının hər biri müstəqil və zəhmət tələb edən tədqiqat işi, ürək yanğısı olsa da, onları birləşdirən ümumi və dəyişməz bir ünvan vardır: bu Şirməmməd müəllimin sevgisini heç vaxt ritorik pafosla dilə gətirmədiyi, lakin əsl vətəndaş duyğuları ilə bağlandığı, nəfəs aldığı Azərbaycandır.

Təsadüfdürmü, zərurətdirmi, deməkdə çətinlik çəkirəm, lakin Ş.Hüseynovun "Günay" qəzetinin 2001-ci il may tarixli nömrəsində dərc olunmuş ilk yazısı "Ürək qanı ilə yazılmış sətirlər" adlanır. Bu başlıq, bu həqiqət və bu yanaşma tərzi Şirməmməd müəllimin dörd il ərzində qəzetdə dərc edilmiş bütün materialları üçün eyni dərəcədə xarakterikdir. Həcmindən və xarakterindən asılı olmayaraq işlənmiş bütün materialların, sözün əsl mənasında, Şirməmməd müəllimin ürək qanı ilə yazıldığına əmin olmamaq qeyri-mümkündür.

Ş.Hüseynovun tədqiqatçı alim kimi əsas yaradıcılıq məziyyəti Azərbaycanın ictimai siyasi həyatının tarixilik baxımından ayrı-ayrı mərhələlərinə uğurla nəzər salmaq və eyni uğurla da qanunauyğunluqlar aşkar edərək paralelliklər aparmaqdır. Məsələn, o, "Əsrlər keçir, problemlər isə qalır, niyə?" başlıqlı yazısında Qarabağın tacı olan Şuşada günyaya göz açmış, Rusiya və Fransada mükəmməl təhsil görmüş, sonralar Azərbaycan Milli Məclisinin katibi olmuş Əhməd bəy Ağayevin iki çıxışını oxuculara təqdim edir. Bu çıxışlarda Azərbaycanın düçar olduğu bəlaların tarixi kökləri barədə, xalqın gələcəyi haqqında səslənmiş ayrı-ayrı fikirlər bu gün də aktual səslənir:

"Avropa ilə yolumuz bağlıdır, orada nə olduğunu bilmiriz. Halbuki Avropada hüququ olan hadisatdan müqəddəratımız asılıdır. Avropada nə olduğunu bilməli və ona münasib də siyasətimiz olmalıdır..."

Və yaxud Ş.Hüseynovun "Günay" qəzetinin 27 may 2001-ci il tarixli 21-ci nömrəsində dərc olunmuş "İstiqlal dövrü, təqib illəri, sevincli, əzablı günlərimiz" başlıqlı, 28 may – Respublika gününə həsr olunmuş yazıda cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza "daddırdığı" istiqlal, onun tarixi əhəmiyyəti və indiki nəslin düzgün, sağlam ruhda böyüməsi üçün reallaşdıra bildiyi ən vacib məqamlardan söhbət açılmışdır. Fikrimizcə, bu yazıda ən əhəmiyyətli məqam Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu il mayın 28-də gənc nəslə ünvanladığı müraciətdir. Bu müraciət bəlkə də indiyədək vətəni necə sevməyi, ona necə bağlanmağı və onun uğrunda canından belə keçmək lazım gəldiyinin uzun-uzadı akademik ifadələrlə deyil, qısa, sadə və anlaşıqlı dildə öz həllini tapdığı yeganə hökumət sənədidir.

"Gənc nəslə.

Azərbaycan gənci! Bu gün sənin cümhuriyyətinin bir yaşı bitir. Kim bilir, tarixi ilahinin tövfiqi ilə qaç, bəlkə də yüzlərlə, minlərlə sənələr sən bugünkü gündə bayrağını götürüb səmimi bir sevinc, həqiqi bir vüqar ilə is-

tiqlal aldığı bu günü xatırlayacaqsan.

... Azərbaycan gənci! İftixar et, qardaş. Oğuz xan nəsli arasında birinci olaraq ən mədəni üsul-idarəyə, cümhuriyyət üsuluna nail olan yenə sənsən.

... Azərbaycan gənci! Gəl, yoldaş. Bu məhsullu əkinlər, sərin sulu yaylalar, həşəmətli ormanlar, qarlı dağlar, meyvəli bağlar, bağçalar, qara altun verən zəngin mədənlər həpsi sənindir".

Şirməmməd müəllimin yuxusuz gecələrdə, tozlu və qaranlıq arxivlərdə, narahat axtarışlarda ötən anların hesabına nəinki Azərbaycan mətbuat tarixinin, eləcə də Azərbaycanın bütöv çağdaş tarixinin qürurunu çevrilən hadisələr aşkar edilərək xalqa qaytarılır. Cəsarətlə demək olar ki, 15 sentyabr 1918-ci il Bakının azadlıq gününün hansı qurbanlar, məhrumiyyətlər bahasına başa gəldiyi və türk qardaşlarımızın bu taleyüklü məsələdə həlledici rolunun aşkar edilib xalqımıza çatdırılmasında professor Ş.Hüseynovun şəksiz xidməti olmuşdur. "Günay" qəzetinin 9 sentyabr 2001-ci il tarixi nömrəsində "Millət sizə minnətdardır" başlıqlı yazısında Ş.Hüseynov tarixi faktların köməyi ilə Bakının azad edilməsinin o vaxtkı mənzərəsini inandırıcı şəkildə göstərə bilmişdir.

Bu günün geniş şəkildə qeyd edilməməsinin əsas səbəbini göstərən Ş.Hüseynov həmin məqalədə yazır:

"Sovet dövründə bu tarix saxtalaşdırıldı, xilaskarlar işğalçı adlandırıldı. Böhtan və iftira baş alıb getdi. Tarixi unutqanlıq bizə baha başa gəldi, amma indi də bu tarixi gün layiqincə qeyd edilmir. Bunu nəzərə alaraq bəzi tarixi sənəd və materialları oxuculara təqdim edirəm".

Bu yazı heç kimin, bəlkə heç professor Ş.Hüseynovun da gözləmədiyi çox böyük rezonans yaratdı. "Günay" qəzetinin çıxışından sonra ölkənin kütləvi informasiya vasitələrinin böyük əksəriyyəti bu tarixi hadisəyə geniş yer ayırdılar, dəyirmi masalar, elmi konfranslar keçirildi. Sentyabrın 15-də isə Bakının işğalçılardan azad olmasının ildönümü təntənə ilə qeyd olundu.

Bu qüdrətə, bu məharətə, inandırma gücünə yalnız professor Ş.Hüseynovun qələmi və publisistik bacarığı malik ola bilərdi.

Fədakar alimin, görkəmli tədqiqatçının yorulmadan təbliğ etdiyi işıqlı simalar, bütün Azərbaycan xalqının fəxr edəcəyi, onun işıqlı gələcəyi uğrunda yorulmadan mübarizə aparmış, hətta həyatını qurban vermiş şəxsiyyətlər qalereyasında kimlər yoxdur? Üzeyir Hacıbəyov, Həsən bəy Zərdabi, İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Xəlil Xasməmmədov, Əhməd bəy Ağayev və adlarını sadalamadığımız onlarca digər millət mücahidləri.

Ş.Hüseynovun xalq qarşısında ən böyük xidməti bu böyük şəxsiyyətlərin həyat və yaradıcılığının tədqiq olunmasında ənənəvi yollarla getməməsi, onların fəaliyyətinin indiyədək işıqlandırılmamış hissəsinin aşkar edilməsinə can atmasıdır.

... Rus hökmdarı Birinci Pyotrun məşhur vəsiyyətnaməsi elm ictimaiyyətinə yaxşı məlumdur. Ş.Hüseynov tədqiqat zamanı ötən əsrin əvvəllərində Bakıda nəşr olunan "Dirilik" jurnalını vərəqləyərkən 1915- ci il 1 iyun tarixli 16-cı nömrəsində bu yazıya rast gəlir. Araşdırmalar zamanı məlum olur ki, bu vəsiyyətnamə 1725-ci ildə yazılsa da, məxfi saxlanılıb və heç yerdə dərc olunmayıb. Amma sonralar kimsə onu xaricə ötürüb, əvvəlcə fransız, sonra Qərbi Avropa dillərində nəşr olunub.

Uzun axtarışlardan sonra Ş.Hüseynov həmin sənədi İnternet səhifəsindən tapır və bu vəsiyyətnaməni əldə edən İqor Ladovun şərhi ilə tanış olur. Tədqiqat zamanı məlum olur ki, bizə məlum "Dirilik" jurnalında nəşr olunan vəsiyyətnamə ilə İqor Ladovun əldə etdiyi vəsiyyətnamənin arasında xeyli fərq vardır və bu fərqləri Ş.Hüseynov tapıb üzə çıxara bilib.

"Günay" qəzetinin 3 iyul 2004-cü il tarixli sayında dərc olunmuş bu yazı çox böyük rezonansa səbəb oldu. Ayrı-ayrı elmi dairələrin nümayəndələri ilə yanaşı, slavyan ölkələrinin bəzi səfirlikləri də həmin vəsiyyətnamə ilə bağlı müfəssəl aşardırmaya görə redaksiyaya zəng edərək, müəllifə təşəkkürlərini bildirdilər.

Professor Ş.Hüseynov bir pedaqoq olaraq da dünyada, eləcə də ölkədə gedən təhsil islahatlarından dönə-dönə bəhs etmişdir. Onun bu mövzuda "Günay" qəzetində "Milli məktəb və milli ruh", "İnformasiyalı cəmiyyət və təhsil proqramı", "Tənbəllik və ətalət bəlasına qarşı həyəcan təbili" və digər başlıqlı onlarla məqaləsi dərc olunmuşdur. Bu yazılarda Ş.Hüseynov dünya təhsil sistemi ilə Azərbaycan təhsili arasında paralelliklər apararaq və inkişaf etmiş ölkələrin təhsil sahəsində maraqlı təcrübəsini şərh edərək müasir dövrdə təhsil sistemində islahatlara öz münasibətini bildirir.

O, çağdaş Azərbaycan publisistikasının əsas problemlərindən, yaralarından jurnalist peşəsini nüfuzdan salan meyllərdən də ürək ağrısı ilə danışır. O, "Günay" qəzetində dərc olunmuş "Mətbuat cəmiyyətin övladıdır" başlıqli məqaləsində yazır:

"Bu gün Azərbaycanda qəzet reketi, mətbuat reketinin nümunələri vardır. Kimin kimdən xoşu gəlmirsə, ağına-bozuna baxmadan öz qəzetində onu ən ağır küçə söyüşləri ilə söyüb biabır edə bilir. Bu ondan irəli gəlir ki, mətbuat həqiqi həyatdan uzaq düşür. Jurnalistlər arasında mövzu yeknəsəqliyi var. Mətbuat ictimaiyyətin görən gözü funksiyasını yerinə yetirə bilmir".

Professor Ş.Hüseynovun "Günay" qəzetində dərc olunmuş 150-yə yaxın müxtəlif janrlı yazısı haqqında saatlarla söhbət açmaq, danışmaq olar. Bu yazıların hər biri, yuxarıda qeyd etdiyimiz kimi, təkcə Azərbaycan publisistikasının deyil, həm də Azərbaycan elminin, tarixinin qiymətli nümunəsi hesab edilə bilər.

Son dörd il ərzində "Günay" qəzeti Ş.Hüseynova, Ş.Hüseynov isə "Günay" qəzetinə, eləcə də onun oxucularına çox yaddaqalan anlar yaşatmağa çalışmışdır.

Qəzetimizin səhifələri Azərbaycan jurnalistlərinin müəllimi, görkəmli tədqiqatçı, pedaqoq və əsl insanın üzünə həmişə açıq olmuşdur və bu ənənə gələcəkdə də davam edəcəkdir. Fikrimizcə, bu uğurlu əməkdaşlıqdan bəhrələnən təkcə "Günay" qəzeti deyil, həm də onun minlərlə oxucusu olmuşdur. Həmin oxuculardan birinin, tarix elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Tofiq Köçərlinin fikirləri ilə razılaşmamaq qeyri- mümkündür:

"Mən həftəlik "Günay" qəzetinin hər bir nömrəsinin çıxmasını səbirsizliklə gözləyirəm. Neçə illərdir ki, o qəzetin az qala hər nömrəsində Şirməmməd müəllimin görkəmli şəxsiyyətlərimizdən kiminsə vaxtilə çıxmış və unudulmuş yazısını bizə təqdim edir. Kaş "Günay" (yaxud başqa bir təşki-

lat) həmin materialları toplayıb kitab şəklində də buraxaydı.

Şirməmməd müəllim düz adamdır. Heç bir halda qəlbini, mövqeyini gizlətməyən, haqqı nahaqqa dəyişməyən şəxsiyyətdir".

Şirməmməd Hüseynovun anadan olmasının 80 illik yubileyi ərəfəsində hörmətli akademikimizi və "Günay" qəzetinin oxucularını, eləcə də görkəmli alimin pərəstişkarlarını sevindirmək istəyirik. "Günay" qəzetinin naşiri Mahmud Məmmədov professor Ş.Hüseynovun qəzetimizdə dərc olunmuş yazılarını kitab halında, "Mənəvi irsimiz və gerçəklik ("Günay" səhifələrində)" başlığı ilə buraxmaq qərarına gəlmiş və bu nəcib ideya uğurla reallaşmışdır.

Fürsətdən istifadə edib, Azərbaycan jurnalistikasının iftixarı olan professor Şirməmməd Hüseynovu əlamətdar yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Tofiq YÜSİFOV

"Günay" qəzeti, № 51, cümə, 17 dekabr 2004

80

Şirməmməd Hüseynov

DƏVƏTNAMƏ

Hörmətli Əflatun müəllim!

Bakı Dövlət Universitetinin rektorluğu və jurnalistika fakültəsi Sizi Azərbaycanda ali jurnalistika təhsilinin təşkilatçılarından biri, tanınmış alim və pedaqoq, professor Şirməmməd Ağaməmməd oğlu Hüseynovun anadan olmasının 80 illiyinə həsr olunmuş yubiley mərasiminə dəvət edir.

Giriş sözü - Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor A. M. Məhərrəmov

Məruzələr:

1. Azərbaycanda ali jurnalistika təhsilinin inkişafında prof. Ş. Hüseynovun xidmətləri - jurnalistika fakültəsinin dekanı dos. Y. M. Əlirzalı

2. Prof. Ş. Hüseynov alim, pedaqoq və publisist kimi - mətbuat tarixi kafedrasının müdiri dos. C. Ə. Məmmədli

Təbriklər

Yubiley mərasimi 2004-cü il dekabr ayının 18-də saat 11-də Bakı Dövlət Universitetində keçiriləcək.

Ünvan: Z.Xəlilov küçəsi 23, II korpus, VII mərtəbə, auditoriya 705.

Təşkilat komitəsi

...Şirməmməd müəllimi yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun siması, dönməz, əyilməz şəxsiyyəti boylanır.

Bəxtiyar Vahabzadə
Azərbaycanın xalq şairi


BDU 18.12.2004
Böyük elm fədaisi Şirməmməd Hüseynov
80 illik yubiley

BDU 18.12.2004
80
Böyük elm fədaisi Şirməmməd Hüseynov 80 illik yubiley

BDU 18.12.2004
Böyük elm fədaisi Şirməmməd Hüseynov 80 illik yubiley

BDU 18.12.2004
Böyük elm fədaisi Şirməmməd Hüseynov 80 illik yubiley

2004-cü il dekabrın 18-də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin 705 nömrəli auditoriyasında Şirməmməd Hüseynovun anadan olmasının 80 illik yubileyi qeyd edildi. Yubiley haqqında ictimaiyyətə məlumat verilməsə də, onun müridləri tədbir başlamamışdan xeyli əvvəl gəlib auditoriyada yerlərini tutub oturmuşdular.

Auditoriyanın qapısının qabağında və dəhlizdə ayaqüstə duranların sayı dərs otağında oturanların sayından xeyli çox idi. Odur ki, universitetin rektoru dəhlizdə dayananların arasından keçib içəri girən kimi ilk sözü bu oldu ki, mən bilsəydim ki, bu qədər adam gələcək, yubileyi böyük zallardan birində keçirərdik.

Yubileyə gələnləri salamladıqdan sonra rektor, akademik Abel Məhərrəmov Şirməmməd Müəllim haqqında ürək sözlərini söylədi.

Qeyd edim ki, yubiley videoya alınsa da, bizə çəkilişin kasetini vermədilər, çəkilişi aparan bir neçə gündən sonra bizə bildirdi ki, çəkiliş brak alınıb. Lakin müəllimin sədaqətli tələbələri həmin məclisdə çıxış edənlərin hamısının nitqini stenoqram edib Şirməmməd müəllimə təqdim etdilər. Oxuyacağınız səhifələr həmin çıxışların mətnidir.

Professor Şirməmməd Hüseynovun 80 illik yubileyində (18 dekabr 2004) BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, prof. Abel Məhərrəmovun

GİRİŞ SÖZÜ

Bakı Dövlət Universitetinin rektoru, professor A.Məhərrəmov:

Bu gün Bakı Dövlət Universitetinin həyatında əlamətdar günlərdən biridir. Respublika elmi-pedaqoji ictimaiyyəti üçün əlamətdar bir gündür. KİV sahəsində çalışan insanlar üçün əlamətdar bir gündür. Çünki hamımızın müəllimi, sevdiyimiz böyük alim, nəcib insan Şirməmməd müəllimin anadan olmasının 80 illik yubileyidir. Bəli, biz bu yubiley şənliyində Şirməmməd müəllimin yubiley işığına toplaşmışıq. İcazə verin ilk növbədə hamınızın adından əziz yubilyarımızı təbrik edim, ona can sağlığı arzu edim. Bundan sonra ən azı yaşadığı qədər də yaşasın və universitetdə fəaliyyət göstərsin.

Sözün düzü mən oturanda başladım narahat olmağa ki, gərək Şirməmməd müəllimin yubileyi belə balaca otaqda keçirilməyəydi. Ancaq bilirsiniz, Şirməmməd müəllim həmişəki kimi, ruslar demişkən bir az "skromnu"luq edib. Deyib eybi yox, mən özüm nəhəngəm, böyüyəm, lakin mənim tədbirim kiçik auditoriyada olmalıdır. Yəqin nəzərə alıb ki, hamı bir-birilə nə qədər sıx otursa, o qədər mehribanlıq olar. Doğrudan da, Şirməmməd müəllim böyük yubileyə layiq şəxsdir, şəxsiyyətdir. Nurani bir insandır. Gözəl alimdir, gözəl müəllim, gözəl tədqi-

qatçıdır. Universitetdə belə insanlar çox az-az olur. Açığını danışmaq lazımdır ki, bəzən olur ki, biz yubiley edirik, lakin yubilyar haqda danışmağa söz tapmırıq. Ancaq mən bilirəm ki, bu gün hamı istəyir ki, Şirməmməd müəllim haqqında ürək dolusu danışsın, onun yaradıcılığı haqqında, xoş xasiyyəti haqqında, əsl müəllim olması haqqında, əsl ziyalı olması haqqında, əsl insan olması haqqında. Düzdür, bəzən də hesab olunur ki, mən özüm də hərdən elə hesab edirəm ki, Şirməmməd müəllim cəmiyyətdə hərdən bir az radikallıq da edir, bu da var. Bunu da düzgün qəbul etmək lazımdır, ancaq mən həmişə öz-özümə fikirləşirəm ki, bunun da öz yeri var. Çünki bilirsiniz ki, insanlar – bu tarixi insanlar, bu tarixi şəxsiyyətlər uzun müddət Sovet dövründə yazıb-yaradıblar. Kitabxanalarda olub, arxiv materiallarını araşdırarkən əsl həqiqəti qoyub, həqiqət olmayan şeylərdən yazmağa məcbur olublar. Mən Şirməmməd müəllimin əsərlərinə baxdım və gördüm ki, Moskva Dövlət Universitetində fəaliyyətə başlayandan doğrudan da çoxlu arxiv materialları ilə məşğul olub ki, bu dərəcədə onun dünya görüşü, tədqiqat masştabı, konturları olduqca böyük olub. Onun bütün fəaliyyəti və yaradıcılığı milli təəssübkeşlik, milli ruh məsələlərinin hamısında tarixi keçmişimizə düzgün yanaşmaq, vaxtı ilə deyə bilmədiyi sözləri bu gün demək ki, heç olmasa insan bir az rahatlaşsın. Bax bu istiqamətdə Şirməmməd müəllimin fəaliyyəti bir tədqiqatçı kimi yüksək qiymətləndirilir.

Müəllim kimi Şirməmməd müəllimi şəffaflıq dərəcəsinə görə qoysan birinci yerdə durur. Açıq danışmaq lazımdır. Şirməmməd müəllim hər bir tələbəyə öz övladı kimi baxır. Bəzən deyirlər ki, Şirməmməd müəllim tələbələri incidir-filan. Şirməmməd müəllim o vaxt incidir ki, tələbə gətirib elə vəziyyətə çıxarır ki, qovula bilər. Baxıram, o tələbə elə düz də edib qovulur. Ya dərsə gəlmir, ya da heç oxumaq istəmir. Belə adamları cəmiyyətdə yerinə qoymaq lazımdır, yoxsa bunların da başını sığallasan, cəmiyyətdə pis rüşeymə çevrilə bilər. Bütün bunları deməkdə məqsədim odur ki, Şirməmməd müəllimə həm müəllim kimi, həm də tədqiqatçı kimi universitetdə, respublikada, cəmiyyətdə yüksək qiymət verilir. O ki qaldı bir jurnalist kimi, təbii ki, bunu siz məndən də yaxşı bilirsiniz. Şirməmməd müəllimin fəaliyyəti çox yüksək qiymətləndirilir. Neçə nəsil jurnalist yetişdirib. Necə deyərlər, müəllimlərin müəlliminə çevrilib. Zala baxıram, oturanların arasında hər cür yaş təbəqəsindən insanlar var. Bu da onu göstərir ki, Şirməmməd müəllim uzun illər məhsuldar işləyib və bu gün də məhsuldar işləməkdədir.

Hər adamın yaradıcılığında bir yer həlledici olur, mən hesab edirəm ki, Sizin Moskva Dövlət Universitetində oxumağınızdan daha çox, Siz Şəki İkiillik Müəllimlər İnstitutunu qurtararkən, fizika-riyaziyyat müəllimi olmağınız olub. Mən bunu araşdırmışam. Çünki riyazi təfəkkür olandan sonra bu ədəbiyyatçılara orientir çox asandır. Siz Moskva Dövlət Universitetində gözəl elmi məktəb keçmisiniz. Bax belə bir yolu keçən adam doğrudan da məhsuldar işləməlidir.

Bu gün doğrudan da universitetin həyatında tarixi və əlamətdar bir gündür, çox sevindirici bir gündür. Bizim universitetin ən tanınmış, fəxr edəcəyimiz alimlərindən biri – hörmətli Şirməmməd müəllimin bayram günüdür, yubiley günüdür. Mən həmişə deyirəm ki, yubiley həm də alim üçün hesabat deməkdir. Xalq qarşısında hesabatdır, universitet qarşısında hesabatdır, KİV qarşısında hesabatdır. Şirməmməd müəllim, biz Sizin hesabatınızı çox yüksək qiymətləndiririk. Siz bu xidmətlərinizə görə universitetin sütunlarından birinə çevrilmisiniz. Doğrudan da, Azərbaycanın əsl kadr hazırlığında Sizin müstəsna xidmətləriniz var. Biz bunu unutmayacağıq. Ancaq bir arzumuz da var ki, bundan sonra 3-4 onillik də bizə kömək edəsiniz.

Bir daha icazə verin, bütün kollektivimiz adından, rektorluq adından, bütün fakültələrin nümayəndələri adından əziz yubilyarımızı, hörmətli Şirməmməd müəllimi təbrik edir, ona uzun ömür, can sağlığı arzu edirik.

Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin dekanı, dosent Y.Əlizadənin çıxışı:

Azərbaycan jurnalistikasının, jurnalist tədqiqatçılığının tarixən bəxti bir də onda gətirib ki, Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirib indiki Bakı Dövlət Universitetinin şərqşünaslıq şöbəsinə sənəd verən, lakin yaşına uyğun gəlməyən güclü mühakimələri və məntiqi ilə komissiya üzvlərini heyran qoyaraq hüquq fakültəsində oxumaq təklifi alan və həmin təklifi rədd edən Şirməmməd Hüseynov növbəti təklifə – "Şəki fəhləsi" qəzetində işləməsi nəzərə alınaraq jurnalistika şöbəsində oxumaq təklifi ilə razılaşıb.

Bu 1945-ci ildə olmuşdu. Onda Şirməmməd müəllimin 21 yaşı vardı, jurnalistika şöbəsinə isə ilk tələbə qəbulu idi. Tədris prosesinə, xüsusilə ixtisas fənlərindən tədrisə praktiklər cəlb olunmuşdu. Bunlar güclü jurnalistlər idi. O, Jurnalistika kafedrasının müdiri Həsən Şahgəldiyev, Nəsir İmanquliyev, İsrafil Nəzərov, Qılman İlkin, Cümşüd Əzimov, professor Mikayıl Rəfili, Məmməd Arif, Feyzulla Qasımzadə, Məmməd Cəfər, Məmməd Qaziyev kimi alimlərin də mühazirələrini dinləmişdi.

Jurnalistika şöbəsinin ilk buraxılışı 1950-ci ildə oldu. Şirməmməd müəllim məzun oldu. Onun jurnalistikadan ayrılmayacağı bəlli idi. Lakin o, bu əsrarəngiz aləmə başqa mövqedən gəlməyi qərara almışdı. Deyildiyi kimi, ixtisas müəllimləri yüksək səviyyəli peşəkarlar idi. Ancaq Şirməmməd müəllim özünəməxsus fəhmlə hiss edirdi ki, müəllimdə praktik yaradıcılıq nə qədər güclü olsa da, bu elmi zəminə, elmi bünövrəyə söykənməsə, davamlı və perspektivli ola bilməz, olsa da səmərəsi kifayət etməz.

Həmin Şirməmməd Hüseynov bu qayə ilə Lomonosov adına Moskva Dövlət Universiteti jurnalistika fakültəsinin aspiranturasına qəbul olundu. Apardığı araşdırmalar 1954-cü ildə "1917-1918-ci illərdə Azərbaycan mətbuatı" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiəsi ilə nəticələndi.

Azərbaycanda ali jurnalistika təhsilinin formalaşmasına və inkişafına Şirməmməd müəllim ilk töhfəni məhz bu dissertasiya ilə gətirdi və jurnalistika sahəsində ilk elmlər namizədi oldu.

Sonralar bu yolu Nüsrət Bağırov, Seyfulla Əliyev, Nurəddin Babayev,

Salman Qarayev davam etdirdilər. Filologiya fakültəsi nəzdindəki jurnalistika jurnalistika şöbəsinin elmi-pedaqoji potensialı bu minvalla genişlənməyə və güclənməyə başladı.

Şirməmməd müəllim Moskva Dövlət Universitetinin təhsil ab-havasını Bakıya gətirdi. Bir sıra ixtisas fənlərinin, xüsusilə də "xarici ölkələrin jurnalistika tarixi" fənninin əyanilik, predmetə bədiilik baxımından ona yeni yanaşma üslubu bu fənni Şirməmməd müəllimin adı ilə bağladı.

Şirməmməd müəllim öz pedaqoji fəaliyyəti ilə ali jurnalistika təhsilinə ciddiyyət, prinsipiallıq gətirdi, "oxumaq, oxumaq, oxumaq" deyimini "düşünmək, düşünmək, düşünmək" deyimi ilə tədricən tələbələrinə təlqin etməyə başladı.

Şirməmməd Hüseynov həmişə zamanı qabaqlayan, yeniliyi duyan və onunla ayaqlaşan, ehkamçılığı qəbul etməyən alim-pedaqoq kimi formalaşırdı. Ötən əsrin 50-ci illərinin sonu, 60-cı illərin əvvəllərində artıq onun öz ürəyindən olan tələbə-məzun korpusu yaranırdı. Famil Mehdiyev, Tofiq Hacıyev, Tofiq Rüstəmov, Şamil Şahməmmədov, Nəriman Zeynalov, Əliş Nəbili, Ceyran Əbdürrəhimova, Şamil Qurbanov, Osman Mirzəyev, Mailə Muradxanlı, Yusif Kərimov, Şamil Fərzəliyev və onlarla başqaları Şirməmməd Hüseynovu həyat müəllimi adlandırırdılar.

Sonralar onların bir çoxu Şirməmməd müəllimin layiqli seçimi və qayğısı ilə görkəmli jurnalistika nəzəriyyəçilərinə çevrildilər. Professor Famil Mehdiyev Azərbaycanda jurnalistika sahəsində ilk elmlər doktoru oldu. Professor Tofiq Rüstəmov, professor Ceyran Əbdürrəhimova, professor Şamil Qurbanov, dosentlər Nəriman Zeynalov, Əliş Nəbili məhz Şirməmməd müəllimin xeyir-duası ilə həyatlarını birdəfəlik jurnalistika fakültəsi ilə, peşəkar jurnalist kadrları yetişdirilməsi prosesi ilə bağladılar.

Şirməmməd müəllimin kadr seçimlərində zərgər dəqiqliyi mövcuddur və bu seçimlərdə o heç vaxt yanılmır. Onun tələbəsi, sonralar mətbuat tariximizin gözəl araşdırıcılarından biri kimi tanınan mərhum professor Şamil Qurbanov "Müəllimlər" adlı kitabında Şirməmməd Hüseynova həsr etdiyi "Mətbuat tarixinin çətin yollarında" adlı məqaləsində taleyinin Bakı Dövlət Universiteti ilə bağlanmasını belə təsvir edir: "...Bir gün dos. Seyfulla Əlyevlə Şirməmməd müəllim redaksiyaya gəldi.

- Biz istəyirik səni universitetə aparaq. Rəhbərliklə də razılaşmışıq.

Mən belə bir təklifi gözləmirdim. Dedim:

- Getməyə razı olaram, amma Nəsir İmanquliyevdən ayıbdır. O, heç icazə verməz, üstəlik xasiyyətnamə almalıyam, arayış almalıyam, o, qətiyyən bunlara qol çəkməz.

- Bunları ölçüb biçmişik. İstəyənlər çoxdur. Ancaq biz səni istəyirik ki, ora səni götürək. Birbaşa dosent yerinə gedirsən. Səndən heç bir sənəd istəməyəcəklər, sadəcə razılığın lazımdır.

Mən universitetə gedəsi oldum. Bu iş üçün əlbəttə Şirməmməd müəllimə minnətdarlığımı bildirirəm".

Artıq kifayət qədər kadr potensialı olan jurnalistika şöbəsi 1969-cu ildə filologiya fakültəsinin nəzdindən ayrılaraq müstəqil fakültəyə çevrildi və bu addımın təşəbbüsçülərindən biri, bəlkə də birincisi Şirməmməd Hüseynov oldu. O,

yeni fakültənin ikinci dekanı kimi, fəaliyyət göstərdiyi 1970-76-cı illərdə Azərbaycanda ali jurnalistika təhsilinin yeni istiqamətdə təşkili və onun nüfuzunun artması yolunda xeyli sayda iş gördü.

Həmin dövrdə istər dünya, istərsə də ölkə miqyasında bir sistem kimi kütləvi informasiya vasitələrinin formalaşması prosesi artıq başa çatmış, onların qarşılıqlı əlaqə və təsir mexanizminin tədrisi və tədqiqi yolunda addımlar atılmışdı. Şirməmməd müəllimin dekan kimi yadda qalan xidmətlərindən biri bu oldu ki, həmin vaxta qədər yalnız bir ixtisaslaşdırma üzərində qurulan jurnalistika təhsilində ixtisaslaşmaların sayının artırılması məsələsini qaldırdı və istəyinə nail oldu. 1971-ci ildən fakültədə kadr hazırlığı 5 ixtisaslaşma – qəzetçilik, televiziya jurnalistikası, radio jurnalistikası, nəşriyyat işi və tərcümə işi üzrə ixtisas qruplarında aparılmağa başlandı. Kütləvi informasiya vasitələri kanallarından hər birinin onların öz spesifikası baxımından tədrisi, tədqiqata cəlb olunması, ən başlıcası isə qəzet, televiziya, radio və nəşriyyat üçün daha hazırlıqlı və peşəkar kadr hazırlığı istiqamətində yeni addımlar atıldı.

Şirməmməd müəllim keçmiş SSRİ məkanında ali jurnalistika təhsili verən universitetlər arasında inteqrasiya prosesinə Bakı Dövlət Universitetinin də cəlb olunmasında önəmli rol oynadı. Moskva və Leninqrad Dövlət Universitetləri, Kiyev, Rostov, Sverdlovsk, Tbilisi, Minsk, Kişinyov, Daşkənd universitetləri ilə sıx tədris və elmi əlaqələr, yaradıcılıq əlaqələri yarandı. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin jurnalistika üzrə elmi-metodik şurasının 1971-ci ildə Bakıda keçirilən səyyar iclası da xeyli dərəcədə Şirməmməd müəllimin təşəbbüsü ilə baş tutmuşdu. Ölkənin jurnalist kadrları hazırlayan 30-dan çox ali məktəbi jurnalistika fakültəsinin rəhbərləri Bakı Dövlət Universitetinə toplaşmışdır.

Şirməmməd müəllimin dekanlıq fəaliyyətinin daha bir əlamətdar və yadda qalacaq cəhəti bu oldu ki, 1971-ci ildə fakültədə yeni bir kafedra – mətbuat tarixi kafedrası açıldı. Bu kafedra ilk növbədə "Əkinçi"dən başlayan Azərbaycan milli mətbuat tarixinin öyrənilməsi, tədqiqi sahəsində elmi-metodiki mərkəzə çevrildi. Şirməmməd Hüseynov həm də həmin kafedranın üzvü kimi professor Qulu Xəlilov, dosentlər Nüsrət Bağırov, Seyfulla Əliyev, Nəriman Zeynalov, Əliş Nəbili ilə çiyin-çiyinə milli dildə dərslik və dərs vəsaitləri yaratmaq, İttifaqın jurnalistika ictimaiyyətini, xüsusən araşdırıcılarını Azərbaycan mətbuatı tarixi, onun demokratik ənənələri ilə yaxından tanış etmək missiyasını layiqincə yerinə yetirə bildilər. 1972-75-ci illərdə MDU və "Mısl" nəşriyyatları müəlliflərindən biri də Şirməmməd Hüseynov olan "Mnoqonasionalnaya sovetskaya jurnalistika" monoqrafiyasını nəşr etdi. N.Zeynalovun iki hissədən ibarət "Azərbaycan mətbuatı tarixi", I hissəsi 1966-cı ildə buraxılmış, "Jurnalistika məsələləri" kitabının II hissəsi çapdan çıxdı. Azərbaycan Dövlət Universiteti Elmi əsərlərinin "Jurnalistika" seriyası Şirməmməd müəllimin baş redaktorluğu ilə mütəmadi çıxmağa başladı.

1975-ci ildə "Jurnalist kadrlarının hazırlanması və onların ixtisasının artırılmasını yaxşılaşdırmaq haqqında" Mərkəzi Komitənin qərarı Şirməmməd müəllimin dekan olduğu jurnalistika fakültəsində də kadr hazırlığında keyfiyyət dəyişikliyinə xidmət edəcək addımların atılmasına gətirib çıxardı. Yaradıcılıq müsabiqəsinin tətbiqi fakültəyə kütləvi axının qarşısını xeyli aldı və onun yaradıcı statusu gücləndi.

Çox təəssüf ki, son 12 ildə bu müsabiqənin dayandırılması arzuolunmaz həmin prosesin yenidən təkrarlanmasına gətirib çıxarmışdır.

Şirməmməd müəllim jurnalistika fakültəsində 5 il mətbuat tarixi kafedrasına rəhbərlik etmişdir. Milli mətbuatımızın rəngarəng palitrasının tədqiqi, öyrənilməsi və təbii ki, tələbə jurnalistlərə aşılanması kafedranın fəaliyyətində aparıcı istiqamətlərdən biri sayılmışdır. Şirməmməd müəllim özü etiraf edirdi ki, əlimə qələm alıb müstəqil yaradıcılığa başladığım andan ən böyük arzum gördüklərimi, düşündüklərini, həqiqəti yazmaq arzusu olub. Mətbuat tariximizi tədqiq edib qüdrətli qələm sahiblərimizin XX əsrin ilk onilliklərində dövri mətbuatda dərc olunmuş yazılarını heyranlıqla oxuduqca bu istək yaşamaq qayəmə çevrildi.

Şirməmməd müəllimin 80 illik ömür yolunun 13 ili Müstəqil Azərbaycanın payına düşmüşdür. O, belə fikirləşirdi və yenə də həmin fikirdədir ki, azad Azərbaycan səviyyəli, demokratik Azərbaycan jurnalistikasından çox asılıdır. Jurnalistikamızın, jurnalist təhsilinin təəssübünü çəkmək, sənətimizi yabançı təsirlərdən qorumaq, milli mənafe və milli dəyərlərimizin keşiyində dayanmaq Şirməmməd Hüseynov publisistikasının aparıcı istiqamətlərindəndir. Bu gün qəzet bolluğu içərisində bir qəzet yoxsulluğu da var. Bu gün ikinci bir peşə sahəsi tapmaq çətindir ki, oraya jurnalistikaya olan qədər müdaxilə edilsin, Şirməmməd müəllim bununla (birbaşa) barışa bilmir. Onun öz sözləridir: **"Cahil və nadanın əlinə odlu silah vermək ətraf üçün nə qədər qorxuludursa, siyasi mədəniyyəti, milli qeyrəti, şərəfi olmayan kəmsavadların və qələm dəllallarının əlinə söz silahı, mətbuat orqanı vermək cəmiyyət üçün ondan yüzqat qorxuludur.**

...Azərbaycanda demokratik islahatlar və insan hüquqlarının müdafiəsi hərəkatına siyasi naşıları və qələm parazitlərini yaxın qoymaq ən azı tarix və xalq qarşısında məsuliyyətsizlikdir".

Azərbaycanda ali jurnalistika təhsili inkişafının 50 illik bir dövrü professor Şirməmməd Hüseynovun adı və məhsuldar elmi-pedaqoji fəaliyyəti ilə bağlıdır. Bu dövrün yetirmələri olan Bakı Dövlət Universitetinin 3 minə qədər jurnalist diplomlu məzunu Şirməmməd müəllimi öz ustadı bilmiş və yeni gələn jurnalist tələbə nəsli də belə bir ustaddan dərs almaları ilə fəxr edirlər.

Şirməmməd müəllim, bizlərə keçdiyimiz vətəndaşlıq milli təəssübkeşlik, mənəvi-əxlaqi saflıq, jurnalistikamıza, mətbuat tariximizə dərin ehtiram və məhəbbət dərslərinə görə çox sağ olun.

Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, dosent C.Məmmədlinin çıxışı:

Rektorun çıxışından sonra hiss olundu ki, Abel müəllim özü də fundamental elm sahəsindən olmasına baxmayaraq, Şirməmməd müəllimin bəlkə də fizika-riyaziyyat məqamına verdiyi qiymət interpretasiyasında bizdən qiymətli oldu. Şirməmməd müəllimin müəllimliyi böyük bir jurnalist ordusunun yaranmasına, mənim dostlarımın, mənim müəllimlərimin müəllimi auditoriyasının yaranmasına gətirib çıxarıb.

Şirməmməd müəllim böyük müəllimdir. Mən onun biblioqrafiyasını buraxanda müəllim sözünü mütləq böyük hərflə yazdım və dedim ki, bu imkanı bizə Şirməmməd müəllimə görə Tanrı özü bəxş edib ki, sözlə onun böyüklüyünü göstərə bilək. Həqiqətən Şirməmməd müəllim böyük müəllimdir və Azərbaycan jurnalistlərinin böyük bir ordusunun müəllimi olaraq qalmaqdadır. Şirməmməd müəllim öz dərslərində həmişə vətəndaşlıq qeyrəti, azərbaycançılıq öyrədib. Sitatın arxasında onun öz interpretasiyaları var. Şirməmməd müəllim fakültəyə rəhbərlik edəndə, kafedraya rəhbərlik edəndə, hərçənd ki, o, indi də kafedranın rəhbəridir. Mən bu auditoriyaya hesabat verərək deyirəm ki, Şirməmməd müəllim kafedraya girəndə biz heç vaxt kafedra müdirinin kreslosunda oturmuruq. Çünki Şirməmməd müəllim kafedraya girəndə Landao kimi girir.

Şirməmməd müəllim haqqında hər cür söz deyildi, mənim bir cümləmi uşaqlar çox yüksək qiymətləndirirlər. Belə bir qeyri-təvazökarlıq da edim, Şirməmməd müəllim yekun sözündə mənim həyatımın mənası olan bir söz dedi. Dedi ki, mən Moskva Dövlət Universitetində, aspiranturada oxuduğum günlər yadıma düşdü, o anda mən kövrəldim, çünki mən özüm üçün dünyada bundan böyük qiymət almayacağam, bu adı mənə Şirməmməd müəllim vermişdi. Şirməmməd müəllim Moskva dərsləri alıb, bunu da unutmaq olmaz və yenə də o qədər də radikallıq etməyək ki, Moskva "şkolası" bizim üçün ögeydir. Bu belə deyil. Mən Abel müəllimə də çox təşəkkür edirəm ki, o həmişə çox açıq şəkildə deyir ki, Moskva Dövlət Universitetinin belə bir məktəbi ilə elmi bağlarımızı birdən-birə qətiyyən qıra bilmərik və qırmamalıyıq. Mən bunu keçən bu vaxt Moskvada olan Moskva Dövlət Universitetinin rektoruna da dedim.

Biz onun yanında işləyənlər və ondan kənarda olanlar da, yəni onun bütün tələbələri həmişə bir iş görəndə belə bir sual veririk "görən Şirməmməd müəllim nə deyər?" və əgər o, işdə bir qram narahatlıq və qeyri-insani bir şey varsa, adam o dəqiqə işdən çəkinər. Ona görə də mən öz yazımda demişəm və burada da təkrar edirəm, Şirməmməd müəllim bizim taleyimizdə başımızın üzərində dayanan bir talisman və Tanrı qüvvəsidir. Allah onun ömrünü uzun eləsin.



Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun çıxışı:

Azərbaycan Mətbuat Şurası Sizi səmimi qəlbdən təbrik edir, sizə uzun ömür, can sağlığı arzu edir. Mən nələri əlavə etmək istəyirəm. Sizin ömrünüzün 60 ili Azərbaycanda jurnalist kadrlarının hazırlanmasına həsr olunub. Cəsarətlə demək olar ki, siz Azərbaycanda jurnalist təhsili sisteminin yaradıcısı, onu həyata keçirənsiniz. Sizin tələbəniz olan hər bir jurnalist fəxrlə sizi özünün müəllimi sayır, sizin məktəbin nümayəndəsi saymaqla fəxr edir. Azərbaycan jurnalistikasının tarixinin tədqiqi sahəsində sizin xidmətləriniz olduqca böyükdür. Həsən bəy Zər-

dabi ilə başlanan Azərbaycan mətbuat tarixini siz elə Həsən bəy Zərdabi əzmkarlığı ilə tədqiq etmisiniz.

Bax bu yaxınlarda "Milli haqq və ədalət axtarışında", "Mənəvi irsimiz və müasirlik" adlı ikicildlik kitabınız əsas verir ki, sizi bir vətəndaş publisist kimi qiymətləndirə biləк. Bütöv bir institutun kollektivinin gördüyü işlərdən mən deyərdim ki, çoxdur. Azərbaycan Mətbuat Şurası, Azərbaycan jurnalistləri bu işinizi davam etdirmək üçün sizə uzun ömür, can sağlığı arzulayır. Təbrik edirik!

Sabir RÜSTƏMXANLI
Xalq şairi, millət vəkili

Mənim nəzərimdə yaxın ***tariximizin*** canlı əfsanələrindən biri – jurnalistikamızın ağsaqqallarından olan görkəmli alim, pedaqoq, mətnşünas, araşdırıcı, BDU-nun professoru Şirməmməd Hüseynovdur.

Şirməmməd müəllimə böyük sayğı və ehtiramımın hardan başlandığını düşünəndə maraqlı bir hadisə düşür yadıma. Universitetin filologiya fakültəsinin əlaçı və fəal tələbələrindən olduğuma görə dekan müavini Şirməmməd müəllimlə səmimi münasibətlərimiz vardı. Ədəbiyyat dərnəklərindən tanıdığım, orda coşqun çıxışlar edən Abbas adlı bir yoldaş bir gün mənə yaxınlaşıb "Sənə bir işim düşüb" dedi. Abbas jurnalistikada oxuyurdu, arada ciddi bir yaxınlığımız da yoxdu, nə işi düşə bilərdi mənə? "Buyur!" dedim. Onun xahişi məni təəccübləndirdi. "Şirməmməd müəllim mənə qiymət vermir, heç kimi də eşitmir. Sənin xətrini istəyir, bəlkə mənim xahişimi edəsən. Tələbələrə qarşı daha diqqətlidir, səni eşidər!" "Müəllimləri də eşitmirsə, mənim deməyimin nə faydası?" deyib boyun qaçırmağa çalışdım. Abbas əl çəkmədi.

Axırda məcbur edib, utana-utana Şirməmməd müəllimdən Abbasa qiymət yazmasını xahiş etdim.

Mənim bu ərkim və cəsarətimdən əsəbiləşmədi, ancaq söhbətə xitam verən bir şəkildə "O mümkün deyil!" dedi.

Mən də əl çəkmədim: "Niyə?" deyə soruşdum və Şirməmməd müəllimə Abbası niyə müdafiə etməyimin səbəblərini izah etməyə çalışdım! "Dərnəkdən tanıyıram, millətini sevən, qeyrətli oğlandır".

Şirməmməd müəllim: "Sənin öz yoldaşının xahişini eləməyə pis baxmıram. Ancaq öyrənməsə qiymət verməyəcəyəm. Yadında saxla, nə qədər qeyrətli olur-olsun, savadı, biliyi yoxsa, bir gün biqeyrət olacaq. Qeyrətini göstərmək üçün gərək ağlı, biliyi olsun, yoxsa hər yerdə burnundan vurub oturdacaqlar yerində, yavaş-yavaş olacaq gözüqıpıq, biqeyrət".

O qədər dəqiq bir yanaşma idi ki, heç nə deyə bilməzdin. Təşəkkür edib ayrıldım. Şirməmməd müəllim bir neçə sözlə biliyin, elmin əhəmiyyətini necə gözəl anlatmışdısa, o sözlər həmişəlik həkk olundu yaddaşıma. Aradan uzun illər keçsə də, onun sözünü unutmamışam və dəfələrlə misal çəkmişəm. Boş "mən qeyrətliyəm, vətənimi sevirəm" deməklə düşmən qabağına çıxmaq olmaz. Cəb-

hənin öz silahı var, dialoqun, masa arxasında, kürsüdə aparılan fikir savaşının öz silahı. Ağıl və bilik silahı!

O söhbətlə mən Şürməmməd müəllimi özüm üçün kəşf etdim və mənə dərs deməsə də, həmişə müəllim ehtiramı göstərdim ona.

Bilirəm ki, aramızdakı bu söhbəti o da unutmayıb.

Universitetin IV kursundan "Ədəbiyyat və incəsənət" qəzetində işləməyə başladım. Dünənki müəllimlərimin bir çoxunu ayrı müstəvidə – müəllif kimi gördüm, auditoriyada böyük görünənlərin bir çoxunun araşdırmaçı və müəllif kimi cılızlığına təəccübləndim, münasibətlərdə çox yaxınlaşmalar-uzaqlaşmalar oldu. Bəzi müəllimlərimi unutdum, ancaq Şirməmməd müəllim daim öz ucalığında, obyektivliyində qaldı. Universitet müəllimi ləyaqətini daim qorudu və tələbələrin sevimlisi olmaq statusunu illər uzunu, bu günə qədər qoruya bildi. Cəsarətli vətəndaşlıq mövqeyinə, sözünü hər yerdə mərdi-mərdanə demək bacarığına, şəxsiyyət bütövlüyünə görə sevdiyim insanlardan birinə çevrildi.

Sonra qəfildən bizim arzuladığımız günlər gəldi; hamının gözünün qabağında SSRİ, "Titanik" gəmisi kimi, göz görə-görə suyun dibinə getməkdəydi. Lakin hər bir ağıllı adamın gördüyü bu labüd sonluq da bir çoxlarını ayılda bilməmişdi; "bu boyda imperiya dağıla bilməz, sus, birdən XII Qızıl Ordu gələr, nəslimizi kəsər" psixologiyasıyla yaşayan və düşünənlər çox idi.

Real vəziyyəti görən, sonucun nə olacağını düşünmədən həqiqəti deyən az ziyalı vardı ortada; onlardan biri də Şirməmməd Hüseynov idi.

1989-cu ildə mənim bərpa etdiyim və əsrin sonunda Azərbaycan milli, demokratik mətbuatının ilk qaranquşu olan "Azərbaycan" qəzeti o illərdə bir məhək daşıydı. Bir çoxları qorxularından qəzetə yaxın düşmürdü, ünvanıma yüzlərlə alqış dolu məktubla yanaşı, ölüm hədələri də gəlirdi; belə vaxtda Şirməmməd müəllim bizim ən ürəkli və ardıcıl müəlliflərimizdəndi. O, mətbuat tarixi, Məmməd Əmin Rəsulzadənin fəaliyyəti, 1930-cu illərin qanlı repressiyaları ilə bağlı çox dəyərli yazılar yazır, böyük milli əhəmiyyəti olan sənədləri ortaya çıxarırdı.

Qədim ədəbiyyatımız bir yana, XIX-XX yüzillərin mətbuatını diqqətlə oxuyub incələyən alimlərimizin, mətnşünasların sayı get-gedə azalır.

Belə bir dönəmdə Şirməmməd müəllim bütün enerjisini Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) və ona qədərki demokratik mətbuatın araşdırılmasına, mətnlərin bərpasına və çapına verdi. Xüsusən milli ideologiyamızın liderlərindən, cümhuriyyətin qurucularından biri olan Məmməd Əmin Rəsulzadənin bir çox əsəri məhz onun qeyrəti, inadkarlığı ilə aşkarlanıb mətbuat səhifələrinə çıxarıldı.

Məmməd Əmin Rəsulzadə irsi çox zəngin və çoxtərəflidir. Onun toplanması və nəşri bir elmi institutun işidir. Lakin Şirməmməd Hüseynov bu işlə on illər boyu təkbaşına məşğul olmuşdur.

Rəsulzadənin Türkiyə mətbuatındakı əsərlərini toplayan əziz dostumuz Əli Yavuz Akpınarla Şirməmməd müəllimin bu sahədəki xidmətləri əsil alim qəhrəmanlığıdır.

Şirməmməd müəllim sadiq dost və gözəl insandır. Bu baxımdan onun unudulmaz xalq şairimiz Bəxtiyar Vahabzadə ilə dostluğu sözümün təsdiqidir. Bəxtiyar müəllimin Bakıdakı və Şəkidəki evlərində ən çox və ardıcıl gördüyüm ürək sirdaşlarından biri Şirməmməd müəllim idi. Bütün söhbətlərinin başında da

Vətən, Millət, Azadlıq, Ədalət, milli problemlərimizin həlli və s. dayanırdı.

Şirməmməd müəllimi heç vaxt, heç yerdə soyuq, biganə, ürəksiz, cəsarətsiz danışan görmədim. Həmişə ən vacib, ən yaxşı bildiyi şeylərdən, ən əsası millətin tale məsələlərindən danışır. Buna görə də yüksək səslə və cəsarətlə danışır. Məncə onun uzun və şərəfli yaşamağının bir səbəbi də budur.

Bizim həyat idealımız

ÇAĞDAŞ AZƏRBAYCAN JURNALİSTİKASININ MƏNƏVİ ATASI

Əslində həmin gün tək jurnalistlərin yox, dünyanın hər yerindəki, Azərbaycanın təəssübünü çəkən bütün soydaşlarımızın bayramı idi. Həmin gün uzun illər azad söz həsrətilə yaşayan Azərbaycan ziyalısının, qanlı-qadalı illərdə ölkənin ən ucqar guşəsində ONUN şərhlərilə təsəlli tapan tamaşaçının bayramı idi. Həmin gün klassik jurnalistikanın qüdrətini ONUN təqdimatında kəşf edən əlahəzrət oxucunun bayramı idi. Və nəhayət, həmin gün Şirməmməd müəllimin mühazirələrindən fərəhdən gözləri yaşarmış halda çıxan yüzlərlə tələbənin təəssüratlarını ONA çatdırmaq cəsarətini özündə tapan yazı müəllifinin bayramı idi. Ötən şənbə günü Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində həm də ona görə bayram idi ki, 80 illik yubileyini keçirməyə professor Şirməmməd Hüseynovu razı salmaq mümkün olmuşdu və yubiley tədbiri, nəhayət ki, baş tutmuşdu...

"Şirməmməd müəllim şəffaflıq dərəcəsinə görə Bakı Dövlət Universitetində birinci yerdə dayanır. Şirməmməd müəllim harada olursa, o yeri tarixiləşdirir". Bunu rektor Abel Məhərrəmov dedi. O, yubilyarı qısaca təbrik etdi və bildirdi ki, Şirməmməd müəllimin ömrünün 81-ci ilinə qədəm qoyması bütün Universitet üçün bayramdır.

Sonra həm ənənəvi, həm də ənənəvi olmayan təbriklər başladı. Şirməmməd müəllimə məhəbbətini ifadə etmək üçün hər kəs özünün söz sandığında olan ən gözəl kəlmələri seçməyə çalışırdı. Jurnalistikamızın sayılıb-seçilən simaları – Hacı Hacıyev, Əflatun Amaşov, Arif Əliyev, Cahangir Məmmədli, Mailə Muradxanlı.

Jurnalistika fakültəsinin dekanı Yalçın Əlizadə sonuncu kursda bizə dedi ki, Şirməmməd müəllim sizə dərs deyəcək, ona görə belə qərara gəlmişik ki, jurnalistika haqqında təsəvvürləriniz bütöv olsun. Oldu da. Sonuncu kursda möcüzə baş verdi. Jurnalistika fakültəsinin axırıncı kurs tələbələri başa düşdülər ki, indiyəcən onların tanıdıqları, bildikləri jurnalistika, əslində, tamam başqa aləm imiş. Dünyanın ən gözəl müəlliminin mühazirələrində bu peşə hər dəfə ayrı çalar alırdı, hər dəfə daha gözəl olurdu. Kövrək tələbə ürəyinə, hələ yetkinləşməmiş qələminə etibar etməsə də, yazı müəllifi bu dərslərdən aldığı təəssüratları ifadə etməyə cəhd göstərəcək. Axı, o heç ağlına da gətirməzdi ki, vaxtilə babasının yanında əyləşib, yeganə Azərbaycan telekanalında, nə danışdığını anlamasa belə, nənəsinin tez-tez "vallah düz deyir" deməsindən çox böyük adam olduğunu hiss etdiyi bu şəxsiyyət çox sonralar onun müəllimi olacaq, günlərin bir günü tələbə kimi əyləşəcək bu şəxsiyyətin qarşısında, hətta onun haqqında yubiley yazısı da yazacaq. Və anlayacaq ki, dünyanın ən zəngin dili belə, sevimli müəllimi haqqında tələbənin ürəyindəkiləri ifadə etmək iqtidarında deyil. Şirməmməd Hüseynov Tanrının təkcə jurnalistlərə deyil, dünyadakı bütün azərbaycanlıların taleyinə yazdığı gözəl qismətdir. Bu gün Azərbaycanda söz və mətbuat azadlığı qanunla təsbit olunursa, bu gün Azərbaycanda vicdanlı jurnalist,

vicdanlı olmağa çalışan jurnalist varsa, bu, ilk növbədə Şirməmməd müəllimin xidmətidir. Bu gün biz Məmməd Əmin Rəsulzadə dühasını, Həsən bəy Zərdabini, Üzeyir Hacıbəylini, Ə.Topçubaşovu, Cəlil Məmmədquluzadəni tanıyırıqsa, buna görə məhz Şirməmməd Hüseynova minnətdar olmalıyıq. Bu klassiklərin irsinin öyrənilməsi, aşkara çıxarılması, nəşri, təbliği Şirməmməd Hüseynovun Azərbaycan xalqına misilsiz xidmətidir. Bu gün jurnalistika ayrıca bir tədqiqat sahəsi kimi mövcuddursa, buna görə də biz Şirməmməd Hüseynova minnətdar olmalıyıq. Bir sözlə, o, ixtisasından asılı olmayaraq, ömrünü bu sənətə bağlayanların sənət məbədidir.

Şirməmməd müəllim jurnalistika fakültəsinin ilk məzunudur. Qədim Şəki torpağında doğulub böyümuş, hələ uşaq çağlarında başqalarından seçilən, 6-cı sinifdəykən şeir söyləmək istedadı bütün respublikaya yayılan Şirməmməd Hüseynov fəaliyyətə fizika-riyaziyyat müəllimi kimi başlayır. Şəkidə ikiillik pedaqoji təhsildən sonra o, Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük və Oxut orta məktəblərində fizika-riyaziyyat müəllimi işləyir. Vaxtilə Şəkidə çıxan "Nuxa fəhləsi" qəzetində ədəbi işçi kimi fəaliyyət göstərən Şirməmməd Hüseynov müharibədən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin yenicə açılmış jurnalistika şöbəsinə daxil olur və bununla da keçmiş fizik Azərbaycanda jurnalist sənətkarlığının "cazibə qanunu"nu kəşf edir. Şirməmməd müəllimin riyazi təfəkküru sonralar jurnalistikanı filoloji yanaşmadan xilas edir. ONUN mühazirələrində olanlar yaxşı bilirlər ki, Şirməmməd müəllim jurnalistikanın mahiyyətini necə riyazi dəqiqliklə xarakterizə edir. Bir dəfə Şirməmməd müəllim bizə dedi ki, İohan Qutenberq ixtisasca zərgər olub, ona görə də jurnalistika zərgər dəqiqliyilə yanaşma tələb edir. Sən demə, Qutenberq kitab şriftlərini zərgər qəliblərində hazırlayırmış. Bəlkə də BDU-nun jurnalistika fakültəsi dəqiqliyi, əqidəsi, halallığı, bütövlüyü ilə ona görə fərqlənir ki, bu fakültəni də öz qəlibinə məhz keçmiş riyaziyyatçı Şirməmməd Hüseynov salıb. ONUN əliylə qurulmuş bu ocaq müqəddəsdir. Bunu yubiley tədbirində söz alanların hamısı etiraf etdi. Şirməmməd müəllim olan yerdə ƏDALƏT var, HƏQİQƏT var, TƏMİZLİK var. Bu gün jurnalistika fakültəsində oxuyanlar, çalışanlar bilirlər ki, bu fakültədə Sirməmməd müəllim adında bir şəxsiyyət var və Allah göstərməsin, kiminsə tamahı güc gəlsə, kimsə yolunu azsa, onu hansı aqibət gözləyir.

...Şirməmməd müəllim hələ 2-ci kursdan Universitet qəzetinin redaktor müavini təyin olunur. Ümumiyyətlə, bu şöbənin ilk məzunları arasında sonralar jurnalistikada öz sözünü demiş qələm sahibləri çoxdur. "Kommunist" qəzetinin redaktoru, Mərkəzi Komitənin Mətbuat Şöbəsinin müdiri olmuş Rəşid Mahmudov Şirməmməd müəllimin tələbəlik illərini bizimlə söhbətində belə xatırladı: **"Şirməmməd müəllim çox gözəl tələbə olub. O bizdən bir az yaşlı idi, "Nuxa fəhləsi"ndən gəlmişdi. Aramızda situasiyadan tez baş çıxarması, aydın təfəkküru ilə seçilirdi, bütün müəllimlərin, tələbələrin sevimlisi idi. Biz onunla bir yataqxanada qalırdıq. Çətin illər idi. Elə olurdu ki, bir tikə çörəyi də bölüb yeyirdik. Sonra onu yaxşı tələbə olduğuna görə, Moskva Dövlət Universitetinə aspiranturaya qəbul etdilər. Şirməmməd Hüseynovun müdafiəsində jurnalistika fakültəsinin banisi Həsən Şahgəldiyev özü də var idi. Şirməmməd müəllim çox zəhmətkeş insandır. Ən əsası odur ki, bu insan yüzlərlə kadr yetişdirib, saçlarını jurnalistikanın yolunda ağardıb. Mən onu Azərbaycan jurnalistikasının müəllimi sayıram. Ona uzun ömür, can sağlığı, 100 il yaşamağı arzu edirəm".**

Moskva həyatı Şirməmməd müəllimin həyatında mühüm mərhələ olur. 1950-54-cü illərdə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil alan Şirməmməd müəllim burada da fərqlənir. Orada Şirməmməd müəllim jurnalistika istiqamətində ən ciddi əsərlərin müəllifi kimi tanınan Yasen Nikolayeviç Zasurski, məşhur tədqiqatçı Boris İvanoviç Yesin kimi alimlərlə yoldaşlıq edir. MDU-nun jurnalistika fakültəsinin dekanı, Amerika ədəbiyyatı mütəxəssisi Zasurski Şirməmməd Hüseynov haqqında deyir: **"Şirməmməd Hüseynov hələ aspirantura illərindən Azərbaycanın böyük patriotudur. O, elmi işində də, həyat tərzində də, dünyabaxışında da həmişə azərbaycanlıdır. Biz araq içməyə gedəndə, başqa əyləncələrə sərf etdiyimiz vaxt ərzində Şirməmməd yataqxanada daha bir kitabı oxuyub başa çatdırırdı" ("Şirməmməd Hüseynov. Biblioqrafiya". 2004).**

Şirməmməd müəllim neçə-neçə elmi-praktik konfransda, jurnalistika ilə bağlı müşavirələrdə Azərbaycanı təmsil edib. Onu başqalarından fərqləndirən və sevdirən bu insanın qeyri-adi dərəcədə orijinal olmasıdır. Şirməmməd müəllim Amerika jurnalistlərinin işləyib hazırladıqları jurnalistika nəzəriyyələrinin Məmməd Əmin Rəsulzadənin, Həsən bəy Zərdabinin, Üzeyir Hacıbəyovun fikirlərindən heç də uzağa getmədiyini, bizim klassiklərin fikirlərini elə ustalıqla, o qədər aydın şərh edir ki, tələbədə Azərbaycan ziyalısının əslində ən böyük qiymətə layiq olduğuna əminlik yaranır. Şirməmməd Hüseynovla Azərbaycan jurnalistikasında yeni mərhələ – tədqiqat mərhələsi başlayır. Sovetlərin istilasınadək mövcud olan Azərbaycan mətbuatını ona qədər heç kim bu qədər dəqiqliklə tədqiq etməyib. Şirməmməd müəllim 800-dən artıq elmi-publisistik məqalənin, 15-dən çox kitab və monoqrafiyanın müəllifidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı və rəhbəri, görkəmli ictimai xadim, mətbuat tarixi haqqında ilk elmi əsərin müəllifi Məmməd Əmin Rəsulzadənin dəyərli publisistik irsinin Azərbaycan oxucusuna çatdırılması Şirməmməd müəllimin öz milləti qarşısında böyük xidmətidir.

Həmin tədbirdə Şirməmməd müəllimin ünvanına çox xoş sözlər söylənildi. Dünyanın ən gözəl müəllimi, ən fədakar tədqiqatçısı, ən gözəl publisisti, ən mərd insanı, müəllimlərin müəllimi adlandırdılar Şirməmməd Hüseynovu. Bu, həm də böyük-böyük jurnalistlərin Şirməmməd müəllim qarşısında nitq mədəniyyətindən, jurnalist sənətkarlığından verdikləri imtahan idi. Bütün hallarda, Şirməmməd müəllim haqqında düşüncələrini onun şəxsən özünə çatdıra bilmək, bu hadisəni yaşamaq özü böyük zövq idi. Yazı müəllifi də cəsarətə gəlib deyəcək:

- Sizi sevirik, müəllim! Siz bizim üçün həyat idealısınız! Təmizliyiniz, qətiyyətiniz, zəhmətkeşliyiniz, istedadınızla! Siz qocaman elmlərin arasında ürkək gəzib-olaşan, hələ sümükləri bərkiməmiş çağdaş Azərbaycan jurnalistikasının mənəvi ATASIsınız! Bayramınız mübarək, ATA!

Sizin 90 yaşınızın tamamında daha peşəkar yazmaq arzusuyla tələbəniz

Ülviyyə ƏSƏDZADƏ,

"525-ci qəzet", 21 dekabr 2004, çərşənbə axşamı

BƏXTİYAR VAHABZADƏ

17 DEKABR

Dostum Şirməmməd Hüseynova

On yeddi dekabr... Sənin ad günün,
Hərənin bəxtinə bir ulduz düşür.
Həm də tapmacadır yolu hər ömrün,
Sönmüş bir ocağa birdən köz düşür.

Sabahı bu gündən görmək çox çətin,
Yatır kül altında bir od külçəsi.
Birinci pilləni atan nə bilsin
İkinci pillənin nədir müjdəsi.

Birinci pillədə görmüşdünmü sən
Bu gün yetişdiyin mənzili, qardaş?
Gəl, gəl, alqışlayaq biz əvvəlcədən
Üzümüzə gələn hər ili, qardaş.
İllər yaxşı gəlir biri-birindən
Küllər çözələnir od hənirindən.

Biz hardan biləydik iyirmi yaşında
Ömrün hələ altmış düşərgəsi var.
İndi də nə bilək elçi daşında
Oturan elçinin nə müjdəsi var.

Gah olur, həsrətlə umduğumuzun
Görürük həyatda tərsini, qardaş,
Gah da gözümüzə ələnən tozun
Zaman özü verir dərsini, qardaş.

Bəzən yolda qalır gözlədiyimiz,
Gözlənməyən yerdən bəzən köz çıxır.
Bəzən qazananda uduzuruq biz,
Bəzən şərimizdən xeyrimiz çıxır.



Lal axan çayların altında yerdən
Qaynayan suları görmürük, fəqət.
Qırır qolundakı zənciri birdən
Yatmış bildiyimiz bir kölə millət.

Vaxtın axarında sular durulur,
Gerçək gül açanda solur riyalar.
Bir anın içində uçub məhv olur,
Yüzillik, minillik imperiyalar.

Bu gün dağlardakı dumanın, çənin,
Sabah gül açması bir himə bənddir.
Bu gün təşəxxüslə "mən", "mən" deyənin
Sabahkı taleyi kimə bəllidir?

Birinci pillədə görmüşdünmü sən
Bu gün yetişdiyin pilləni, qardaş?
Təbrik eyləyirəm elə indidən
Sabahkı gün ilə mən səni, qardaş!

17 dekabr 1986
"Ədəbiyyat qəzeti", 3 avqust 2019-cu il

Akademik
İsa HƏBİBBƏYLİ

ŞİR MƏMMƏD MÜƏLLİM

Fədakar tədqiqatçı Şirməmməd Hüseynova

Yorulmadan çalışmaqda,
Qələm ilə yarışmaqda
Bir Məmmədli O.
Tələbələr qarşısında
Alimlərin sırasında,
Gur Məmmədli O.
Cəsarət gərəkən anda,
İnad tükənməz onda,
Vur Məmmədli O.
Əqidəsindən o yana
Dur Məmmədli O.
Eldə etibar var ona
Mir Məmmədli O.
Cümhuriyyətçi,
Dönüb dastana!
Pir Məmmədli O.
Bərabərdir
Məmmədlərin hamısına
Şir Məmmədli O.

Bakı, 19 yanvar 2019-cu il

Mətbuatşünaslıq elminin babası, gözəgörümlü elm adamı, hörmətli Şirməmməd müəllim üçün
Ən xoş arzularla
İsa Həbibbəylidən
Məmməd 27.06.2006



Nəriman HƏSƏNZADƏ
Xalq şairi

YANAR ÜRƏK
(Ustadın xatirəsinə)

Əziz Ülkər xanıma

Bir gün yerə qoymadı:
nə gözündən – eynəyi,
nə əlindən – qələmi.
Görənlər, belə gördü
Şirməmməd müəllimi.

Qalxdı –
şax baxa-baxa,
tay-tuşunun üzünə, –
Müəllim kürsüsündən.
Şirməmməd kürsüsünə.

Qızlarının atası,
xanımının əriydi.
"Cümhuriyyət" –
sonuncu
şahanə əsəriydi.

Sinədəftər deyirdi
Varaq-varaq tarixi.
Ya Qədim tarix olsun,
ya Qarabağ tarixi.

İstiqlal deyirdisə,
o söz –şüar deyildi.
Millətin özüydü o.
Ona oxşar deyildi.

Türkün qardaşlığından,
Nuru Paşadan dedi.
"Azərbaycan, sən oldun,
məni yaşadan", – dedi.
Azərbaycan deyəndə,
Bir az ucadan dedi.

Bir çağırış səsiydi,
himnin bir nəqəratı.
Bir hünər dünyasıdı,
bir müəllim həyatı.

Oyaq qaldın, indi yat
sevdiyin torpaq altda.
Vətən döyüşlərdədi,
Üçrəngli bayraq altda.

"Ədəbiyyat qəzeti",
06 iyul 2019-cu il

Dəmir GƏDƏBƏYLİ

ALİMLƏR USTADI
(85 yaşlı ustad Şirməmməd müəllimə)

Halaldan halalsan, təmizdən təmiz,
Bəllidir, milyonlar, yüzlər içində.
Vətənə, millətə eşqin bir dəniz,
Sözün də ucadır sözlər içində.

Mənim alim dostum, ustad qardaşım,
Mənalı, şərəfi bir yol keçmisən.
Yenilməz məsləkli könül sirdaşım,
Əyri dövranlarda düzlük seçmisən.

Xoşbəxt bağbanısan söz aləminin,
Kim deyir gülündən dərən olmayıb.
Düzlük ahəngindən öz aləminin,
Bir yol döndüyünü görən olmayıb.

Müdrik babaların yadigarısan,
Sənət çırağını gur yandırmısan.
Tarixi düz yazmaq deyildir asan,
Yazıb çoxlarını utandırmısan.

Qadir qələmində möcüzələr var,
Xalqına bağlısan cavanlığından.
Sənin zəhmətinlə neçə sənətkar,
Çıxıb arxivlərin qaranlığından.

Bu gün ad günüdür, sevinir dostlar,
Alim ustadısan, el ağsaqqalı.
Vallah gözəl deyib şair Bəxtiyar,
Hədər ağartmadın, dostum, saqqalı!

Büllur məsləkinə heyran olduğum,
Vurğunam səndəki əzmə, cürətə.
Şərəfli ömründən ibrət aldığım,
Çoxdan qovuşmusan əbədiyyətə!

16.12.2009. Bakı.

BABAM

Xalq Cümhuriyyətinin
yorulmaz tədqiqatçısı,
hörmətli professor Ş.Hüseynova



Haqqı yalanlardan iraq eylədin,
Çox nursuz göylərə çıraq eylədin,
Tarixin yazdığı vərəq eylədin –
Babam.

Yatmış vicdanları söz oyadarmı?
Gözləri korlara çıraq olarmı?!
Həqiqət əbədi gizli qalarmı?

Azadlıq yolunu seçəndən insan,
Etmiş mücadilə vermişdi çox qan.
Fırlanır, dəyişir bu qoca dövran –
Babam.

Danışdıqca həqiqəti güc alır,
Düşünmə ki, zaman keçir-qocalır.
Nəsil-nəsil cavanlaşır, ucalır –
Babam.

Əqlinin kəsəri, gözünün nuru,
Arzun, amalın çeşmətək duru.
Sevənlərin fəxri, əzmi, qüruru –
Babam.

Döyüş meydanıdı fikir meydanı,
Sözlə fəth ediblər bəzən dünyanı.
Damardakı qanın, qəlbin həyəcanı –
Babam.

Vicdanı oyadan haqqın səsidi,
Üçrəngli bayrağım – təntənəsidi.
Azərbaycan – müqəddəs kölgəsidi –
Babam.

Dağın kölgəsində təpə görünməz
Varlığı, yoxluğu itər bilinməz.
Heç kimin tarixdən adı silinməz –
Babam.

Sızqa bulaqların ömrü gödəkdi,
Hardasa quruyub o itəcəkdi.
Bizi yaşadan var, o – gələcəkdi –
Babam.

Sabir qamçıladı şarlatanları,
Xalqın gözünə kül atanları.
Çağırdı, oyatdı o, yatanları –
Babam.

Qarşısında hörmətlə mən baş əyirəm,
Sənə dövrümüzün Siyavuşu deyirəm.
Bir güllü, çiçəkli yaz gözləyirəm –
Babam.

Əyrinin yanında düzü kəsirlər,
Əyrini qoruyur, üstə əsirlər.
Gör gəlib kiminlə kəllələşirlər,
Babam.

Həsən TƏHMƏZLİ,
İngilis dili müəllimi,
Cəbrayıl qaçqını, 2014



Portreti M.Ə.Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə çəkmişdir.
Bakı, 17.12.2018

PROFESSOR ŞİR MƏMMƏD MÜƏLLİMİN 90 İLLİK YUBİLEYİNƏ

Mərd atanın mərd oğulu,
Məclisinə salam olsun.
Can qoyduğun vətən yolun,
Tarix qədrin bilən olsun.

Elimin Şir Məmməd oğlu,
Şərəf ordenli həyat yolun.
Qoy həmişə dolu olsun,
Sədaqətlə sağın, solun.

Doxsanı vursan da başa,
Qələmin qılıncdı daşa.
Ey doğma! Dosta, qardaşa
Üzün daim gülər olsun.

Valehin sözləri sadə,
Qurtarmadı sözü daha.
Sizdən uzaq bu dünyada,
Daim gəzən kədər olsun.

Valeh NƏSİBOV,
Sənaye-cihazqayırma mühəndisi
2014, dekabr

ŞİRMƏMMƏD MÜƏLLİMDƏN SORUN

Bu dünyanın yaranmasın
Şirməmməd müəllimdən sorun.
Yerin göydən ayrılmasın
Şirməmməd müəllimdən sorun.

Canlı tarix, canlı yaddaş
Kişi möcüzədir, qardaş
Hansı yerdə qalsan çaş-baş
Şirməmməd müəllimdən sorun.

Necə hökmdarlar gəlib
Necə bəylər, xanlar gəlib
Necə ev yıxanlar gəlib
Şirməmməd müəllimdən sorun.

Varaqlasan arxivini
Biləcəksən tarixini
Necə millətin irsini
Şirməmməd müəllimdən sorun.

Əhliman deyir sözünü
Sadə aparıb özünü
Dünyanın hər bir üzünü
Şirməmməd müəllimdən sorun.

Aşıq Əhliman ŞİRVANLI,
15.08.2018

Çox hörmətli Şirməmməd müəllim
Kəlbəcər dağlarından salamlar!

HALALDI, HALAL!

Çox mübarək olsun fəxri adınız!
Qardaş, bu ad Sizə halaldı, halal!
Cəsarət adlansın istedadınız,
Mənəvi sərvətdən calaldı, calal!

Mən də çox demişəm zəhərdi tütün,
Kəsin toxumunu, yandırın, ütün!
Düzdür sözləriniz tamam, büsbütün,
Zərəri insana məlaldı, məlal!

Haramlıq meydandan əkiləcəkmi?
Alaqlar kürsüdən çəkiləcəkmi?
Yalanlar himindən söküləcəkmi?
Hələlik cavabsız sualdı, sual!

Ümiddir aşkarlıq, yenidən qurma,
Buna dodaq büzür çox bığıburma,
Gəlin beləsinə deyək: qudurma!
Bəd əməllər xalqa zavaldı, zaval!

Nə vaxt görünürsüz ekranda gözə,
Ancaq köklü sözü deyirsiz üzə,
Şamiləm, bu yolda uğurlar Sizə!
Hələ dərdlərimiz mahaldı, mahal!



Dərin ehtiramla,
ülvi salamla:

Şamil ƏSGƏROV

Ünvanım: 374390; Kəlbəcər, Lenin döngəsi-9

Şirməmməd Hüseynov:
"ÖLKƏMİZDƏ İQTİSADI İNKİŞAF MƏDƏNİ İNKİŞAFI ÜSTƏLƏYİR"

Şirməmməd Hüseynovdan heykəl mövzusunda ilginc açıqlamalar; "Gəlin prezidentə kömək edək!"

"Onların tarixi xidmətlərini yazaq, millətə öyrədək, o ruhda bu milləti tərbiyə edək və müasirləşdirək, ən yaxşı heykəl budur!"

Prezident İlham Əliyevin mədəniyyət xadimləri ilə görüşdə əməkdar artist Bəhram Bağırzadənin Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevə abidə qoyulması barədə irəli sürdüyü təşəbbüs dövlət başçısı ölkə rəhbərliyi tərəfindən müsbət qarşılanıb. Son məlumata görə, abidənin qoyulması üçün konkret məkanlar nəzərdən keçirilir.

Variantlardan biri kimi milyonçunun vaxtilə yaşadığı evin yaxınlığındakı park da müzakirə mövzusudur. Amma bir çoxları Kukla Teatrının qarşısındakı həmin ünvanın bir zamanlar Məhəmməd Əmin Rəsulzadənin abidəsi üçün ayrıldığını xatırladaraq buna etiraz edirlər. Oradakı daş lövhə isə sonradan qeyri-müəyyən səbəblərdən götürüldü və yerində fəvvarə quraşdırıldı. Məhəmməd Əmin Rəsulzadənin vəfatının növbəti ildönümündə bu mövzu ilə bağlı ağsaqqal jurnalistimiz, professor Şirməmməd Hüseynovla söhbət etdik.

- Şirməmməd müəllim, vaxtilə Məhəmməd Əmin Rəsulzadəyə abidə qoyulması üçün ayrılan yerdə Hacı Zeynalabdin Tağıyevə abidə qoyulması təşəbbüsünə necə baxırsınız?

- Mən ümumiyyətlə, heykəl qoymağın əleyhinəyəm, kim olur-olsun. Məhəmməd Əmin Rəsulzadə deyirdi ki, heykəlpərəstlik bəşəriyyətin keçdiyi bütpərəstlik dövründən qalan şeydir. Bütpərəstlikdən sonra bəşəriyyət çox inkişaf edib, müxtəlif mərhələləri keçib. İndi təzədən bütpərəstliyi bərpa etmək, adamların sementdən, mərmərdən heykəli qoyub, cansız şeylərə səcdə eləmək bütpərəstlikdir. Bildin, qardaş? Bu, bizdə sovet dövründən qalma dəbdir. Leninə, Stalinə, Orconikidzeyə, Şaumyana, Nərimanova, Əzizbəyova, Məmmədyarova heykəl... Nə qədər heykəl olar? İndi gəlin dünyaya baxaq. Amerika – dünyanın ən inkişaf etmiş demokratik ölkəsidir. Gedin, görün şəhərlərdə, meydanlarda heykəl var? Heykəl yoxdur axı. Balaca bir şəhəri heykəllərlə bəzəməyə nə ehtiyac var e. Soruşuram səndən...

- Şirməmməd müəllim, ümumiləşdirəndə haqlısınız, amma bir məsələ var. Hacı Zeynalabdin Tağıyevə də bir heykəl qoyulsa, nə olar ki?

- A kişi, mən ayrı şey danışıram, sən ayrı şey. Qulaq as, bilirsən nə təhərdir? Dünyada 230-a yaxın müstəqil dövlət var. Avropada 30-dan çox dövlət var. Ay qardaş, gedin, baxın, görün o dövlətləri yaradanların heykəli varmı? Fransa, İtaliya, ya

Almaniya dövlətini yaradanın heykəli var? Bütövlükdə bu heykəl xəstəliyindən qurtarmaq lazımdır. Bütün diqqəti vermək lazımdır Nərimanova, yaxud Hacı Zeynalabdinə qoyulan heykələ ayrılan pulu ehtiyacı olanlara...

Təsəvvür elə, bu gün xaricdə bizim nə qədər azərbaycanlılar oxuyur. Heç gör onların məsələsini müzakirə edən, onları yada salan var? Bax, mənim nəvələrimin biri Yaponiya universitetində müdafiə elədi, indi də Amerikadadır. Onları dəvət ediblər, orda işləyirlər. Onlarla maraqlanan var? Soruşuram səndən? Mənim nəvəm diş həkimidir, İzmir Universitetində magistr oldu, doktorluğu müdafiə elədi, indi ağız, diş, çənə cərrahiyyəsi üzrə iki aylıq Şanxaydakı məktəbə gedib. İndi onun nə getməyi, nə gəlməyi ilə bir dənə maraqlanan varmı? Bu millətə kadr hazırlamaq lazımdır, yoxsa heykəllə məşğul oimaq lazımdır?! Elm, mədəniyyət sahəsində o qədər görüləsi işlər var ki... Prezident sağ olsun, mədəniyyət xadimlərini yığıb. Amma söhbət nədən gedir? Köhnə qayda ilə yeni nəsli tərbiyə eləmək mümkün deyil. "Dalay-dalay"la millət tərbiyə eləməzlər, a kişi! İndi bu mədəniyvəti biz müasir mədəniyyət səviyyəsinə yüksəltməliyik, budur prezidentin amalı! Ona görə onları yığmışdı. Qardaş, müasirləşək! Məhəmməd Əmin Rəsulzadə 1915-ci ildə "Açıq söz" qəzetini çıxaranda nahaq yerə "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" yazmamışdı. Bir ildən sonra oktyabrın 2-də qəzetin 1 yaşı münasibətilə yazdı ki, ardıcıllıq belə olmalıdır: "Müasirləşmək, Türkləşmək, İslamlaşmaq". Cümhuriyyət dövründən sonra məqalə yazdı ki, elə bilirlər biz isiamlaşmaqla panislamizmi, yaxud türkləşməklə pantürkizmi təbliğ edirik. Məsələni belə qoydu: "Milliyyət, beynəlmiləliyyət, müasirlik" İndi biri deyir Zeynalabdinə heykəl qoyaq, başqası deyəcək dədəm şairdir, ona heykəl qoyaq. Bu heykəldən əl çəkin də. Allahın qayda-qanunu var, torpağa verildi, qurtardı da. Təzədən sən bunu sementlə diriltməyəcəksən ki. Bütpərəstliyə qayıdırıq?

- Deməli, siz bununla Məhəmməd Əmin Rəsulzadəyə heykəl qoyulması barədə də söhbətlərə də son qoyulmasını istəyirsiniz?

- Bəs, necə? Hamıya! Mən bir adama yox, hamıya şamil edirəm. Heç kəsin heykəlləşdirmək ehtiyacı yoxdur! Üzeyir bəyin üç məşhur formulu var e: "Bu Vətən də bizimdir, bu millət də bizimdir, bu dövlət də bizimdir". Gəlin biz bu Vətəni, bu milləti, bu dövləti müasirləşdirək, onun qayğısına qalaq! Bax, sağ olsun, yollar düzəlir, zavodlar tikilir, inkişaf var. Bilirsən, bizim məmləkətimizdə iqtisadi inkişaf mədəni yüksəlişi üstələyir. Amma bunlar paralel inkişaf etməlidir axı.

- Şirməmməd müəllim, reallıq budur ki, artıq Hacı Zeynalabdin Tağıyevə abidə qoyulması ilə bağlı aktyor Bəhram Bağırzadənin təklifi bəyənilib və dövlət rəhbərliyinin bununla bağlı qərarı var. Sadəcə məkan müzakirəsi gedir. Sizin yerlə bağlı təklifiniz varmı?

- A kışı, bilirsən nə var? Belə şeylərlə hörmət qazanmaq istəyənlər var. Həmin adamdan soruşsan ki... Hacı Zeynalabdin Tağıyev savadsız olub axı. İkincisi, Hacı Zeynalabdini Hacı Zeynalabdin eləyənlər var. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, digər Cümhuriyyəti yaradanlar. Ondan əvvəl Həsən bəy Zərdabi. Zərdabi dördüncü mərtəbədə yaşayırdı, Zeynalabdin üçüncü mərtəbədə. Milli ruhu aşılayanlar milli ziyalılar idi. Onun müəllimlərini qoyursan qıraға, Zeynalabdin Tağıyevi vətənpərvər edənlərdən danışmırsan, o kişini eləmisən filosof. Hardan o ideyanı götürüb? Soruşuram səndən. Əgər

savadsızdırsa, kitab oxumayıbsa, dünyanı bilməyibsə... Kim o ideyanı ona aşılayıb? Hanı elə bır əsər? Zeynalabdini Zeynalabdin eləyən kimlər olub, a kişi? Zərdabilər olub! Bildin?

- Bildim.

- Sonra da Əli bəy Hüseynzadəyə "Həyat" qəzetini öz mətbəəsində çıxartmağa imkan verdi. "Fyuzat" jurnalını çıxartmaq üçün maliyyə imkanı ayırdı. Gördü ki, onlar müasir adamlardır və bu müasirlik onun ruhuna uyğun idi. Bax, mən "525-ci qəzet"-in növbəti sayı üçün yazı hazırlayıram. 1927-ci ilin martında Məhəmməd Əmin Rəsulzadənin atası Axund Hacı Ələkbər vəfat edib. O münasibətlə "Yeni Qafqasya" jurnalında onunla bağlı nekroloq veriblər. Bu ziyalı dəstəsinin hamısını yetişdirən mühit, kişilər, onların arxasında duranlar olub. Bu millətə heykəl qoymaq yox e... Bu millətə heykəl onu müasirləşdirmək, ona yaxşı yaşayış vermək, bu milləti savadlı etmək, milli ruhda tərbiyə etməkdir. Gəlin bütün diqqətimizi verək ki, məktəblərimiz, adamlarımız, elmimiz, mədəniyyətimiz müasirləşsin! Görülən işlər çoxdur, amma görüləsi işlər də çoxdur! Diqqəti buna vermək lazımdır, heykəllərə yox!

- Professor, xalqımıza xidmətlərinin qarşılığında Tağıyevə bir dənə abidə qoyulsa, nə olar ki?

- Onda birisi də deyəcək ki, Cümhuriyyəti yaradanlar Zeynalabdindən əskik kişilərdir?

- Təbii ki, Məhəmməd Əmin Rəsulzadəyə, Cümhuriyyət qurucularına da abidə qoyulsun. Nəyi pisdir ki?

- Sən niyə heykəl tərəfsən? Mən ayrı şey deyirəm, sən ayrı. Bu məsələyə nöqtə qoymaq lazımdır, vəssalam!

- Dövlət başçısı qərarını verib, deməli, geri qayıdış yoxdur...

- Dövlət başçısı yığıb bir məsələ qoyur, amma aşağıdakılar filankəsə heykəl, filankəsə muzey, filankəsə filan şey... Filan bəstəkarın 90 yaşı var, ona prezident təqaüdü verək. A kişi, bunların millət, müasirləşmək məsələsi ilə bağlı fikirləri yoxdur. Belə çıxır ki, bızım müasir düşüncə tərzimiz zəifdir. İqtisadi rnəsələyə, dövlətin nüfuzu məsələsinə prezident baxır. İqtisadi cəhətdən yüksəlməyən millət mədəni cəhətdən də yüksələ bilməz! İndi bu böyük işi, fundamenti yaradır prezident. İndi gəlin, biz müasir mədəniləşmək əvəzinə, heykəltəraşlıqla məşğul olaq. Hərəmiz bir heykəl zavodu açaq da.

- Şirməmməd müəllim, prezidentin belə görüşlərinin davamlı şəkildə keçiriləcəyi bildirilir. Belə bir görüşdə iştirak etsəniz, yəqin ki, bu fikirləri şəxsən deyərdiniz, eləmi?

- Niyə demirəm kı? Deyərərn. Çünki prezident müasir prezidentdir. Mən deyirərn ki, iqtisadi fundamenti prezident yaradır. Amma hamısını o yarada bilməz, gəlin prezidentə kömək edək! Bu Vətəni, bu milləti, bu dövləti müasirləşdirək!

- Siz 95 yaşınızda da Rəsulzadə, Cümhuriyyətlə bağlı araşdırmalarınızı davam etdirirsiniz. Nəhayət, Rəzulzadə ilə bağlı abidə gözləntisində olanlara sözünüz nədir?

- Bilirsən, zaman ayrı zamandır, dövran ayrı dövrandır! Dünya hara gedir, gərək onu anlayasan. Baxasan ki, bu amerikanlar nə ilə məşğuldurlar. İndi sən təsəvvür elə, amerikanlar Aya böyük nümayəndə heyəti göndərməyə hazırlaşırlar kı,

orada yaşamağı öyrənsinlər. Çin hazırlaşır Marsa adam göndərsin. Baxın, görün onlar nə ilə məşğuldur. Demirəm ki, siz də Marsa adam göndərin. Amma o, elm sahəsidir, texnikadır. O elmi yaratmaq lazımdır.

- Belə anladım ki, ürəyiniz doludur və sizin prezidentə demək istədiyiniz kifayət qədər sözləriniz var.

- Mən 95 illik ömrümün 75 ilini fəal həyat keçirmişəm, görmüşəm nə var, nə yox. İkincisi, siyasi icmalçı olmuşam, belə hadisələrdən az-çox başım çıxır. Mənim "525-ci qəzet"də Nərimanov barədə yazım çıxıb. Oxuyan yoxdur e... (Ardınca çox maraqlı faktlarla zəngin olan məqalənin özətini bölüşür – E.P.) Mənim sözüm budur ki, qardaş, gəlin heykəlpərəstliklə, bütpərəstliklə məşğul olmayaq! Hamıya hörmət edək, onların tarixi xidmətlərini yazaq, millətə öyrədək, o ruhda bu milləti tərbiyə edək və müasirləşdirək, ən yaxşı heykəl budur! Hacı Zeynalabdin Tağıyev barədə yazı yazmışdım. "Azərbaycan" qəzeti də çap elədi, "525-ci qəzet" də. Oxuyan oldu? İndi bu heykəl deyənlər Məhəmməd Əmin Rəsulzadənin Hacı Zeynalabdin Tağıyevlə bağlı məqaləsini oxuyublar? Əl çəkin bu heykəlpərəstlikdən! Kimi dindirirsən, deyir heykəl. Bizdə zəif olan siyasi mədəniyyətdir. Finlandiyanın əhalisi Azərbaycan əhalisindən üç dəfə kiçikdir. Amma orda qəzetlərin tirajı 100-150 mindir. Amma bizdə qəzetlərin tirajı ən çoxu 5-6, ya 9 mindir. Bu, siyasi mədəniyyətin aşağı səviyyədə olmasıdır. Siyasi mədəniyyət ölkəni qanunla idarə etmək mədəniyyətidir. Qəzetlərin tirajı bu qədər aşağıdırsa...

Təsəvvür elə, Ceyhun Hacıbəyli Avropadan "Həqiqət" qəzetinə məktublar yazırdı. Nəyə diqqət etsə, yaxşıdır? Deyirdi burada hamı qəzet oxuyur. Faytonçu müştərisini gözləyəndə qəzet oxuyur. Çünki maraqlanır ki, ölkə necə idarə olunur, hansı proseslər gedir, kim nə ilə məşğuldur? Daha çox siyasi mədəniyyətdən söhbət gedir. Oxumaq mədəniyyətindən, musiqi mədəniyyətindən yox, maşallah o qədər artistlərimiz var ki... Siyasi mədəniyyəti kimlər inkişaf etdirir: siyasi partiyalar. Amma siyasi partiyaların geniş mənada fəaliyyəti, nüfuzu istənilən səviyyədədirmi? Qətiyyən yox.

- Mən getdikcə daha çox əmin oluram ki, indiki məqamda sizin prezidentlə görüşünüzə çox böyük ehtiyac var...

- Prezidentin o qədər işi var ki. Mən yuxarıda dedim e, iqtisadi yüksəliş mədəni yüksəlişi üstələyir. O, fundamentlə məşğuldur.

- Amma ölkə başçısı səslənən ideyalara çox həssasdır. Hətta son görüşdə unudulmuş xalq artisti Rasim Balayevə şəxsən zəng etməsi də dediklərimi təsdiqləyir.

- Hər şeyi prezidentdən tələb etmək düzgün deyil. Hərə öz tərəfindən iş görməlidir.

Elşad PAŞASOY

"Yeni Müsavat", 13.03.2019

Azərbaycan Yazıçılar Birliyi
Ədəbiyyat Qəzeti

NURA QOVUŞAN

40 gündür ki, Şirməmməd Hüseynov aramızda yoxdur.

40 gündür ki, Şirməmməd müəllimin anadan olduğu gün barədə düşünürəm. Çünki Şirməmməd Hüseynovun doğum tarixi SSRİ türklərinin milli istiqlal hərəkatının başlandığı günə təsadüf edir və bunun ədəbiyyatlaşmış bir səhifəsi də var...

Yəni bu böyük insanın doğum günü həm də o mənada əlamətdardır ki, Azərbaycanda ilk açıq antisovet şeir Şirməmməd Hüseynova və onun doğum gününə ithaf edilib. Bəxtiyar Vahabzadənin "17 dekabr" şeirini deyirəm. Şeir Şirməmməd Hiiseynovun ad günü dolayısı ilə 1986-cı ilin 17 dekabrında Qazaxıstanda baş vermiş Jeltoksan hadisələrinə həsr olunub.

Hamının bildiyi bir tarixdir. Qorbaçov Dinməhəmməd Kunayevi vəzifədən uzaqlaşdırıb yerinə rus kökənli Kolbini Qazaxıstan rəhbəri təyin etdi. Bu hadisə qazax xalqı tərəfindən böyük təpki ilə qarşılandı, sovet tarixində imperiya diktaturasına, ruslaşdırma siyasətinə qarşı ilk açıq etirazlara səbəb oldu və etiraz dalğası bütün ölkəni bürüdü. Ədəbiyyat tariximizdə bu etirazın ilk yazılı örnəyi Bəxtiyar Vahabzadənin "17 dekabr" şeiridir. Və şeirin Alma-Ata hadisələrindən üç gün sonra Bakıda "Kommunist" qəzetində dərc olunduğunu da nəzərə alsaq, böyük bir ehtimalla düşünməyə əsasımız var ki, SSRİ tarixində və ölkənin hüdudları daxilində yazılmış və dərc olunmuş ilk açıq antisovet şeirin doğuluşuna görə Sovet türklərinin ədəbiyyatı Bəxtiyar Vahabzadəyə və bu şeirin ideya qaynağı Şirməmməd Hüseynova minnətdar olmalıdır. Bunu ilk dəfə müstəqil Qazaxıstanın Romadakı səfiri Oljas Süleymenov etiraf etdi. "Az i Ya"nın müəllifi yazdı ki, "SSRİ-də ilk demokratik aksiya olan dekabr etirazlarının əhəmiyyətini Sovet İttifaqında heç bir şair belə ucadan və aydınlıqla deməmişdi". Oljas Süleymenov həmin şeirlə bağlı Bəxtiyar Vahabzadə ilə yanaşı, Şirməmməd Hüseynovu da bağrına basmağı özünə borc bilirdi.

Vahabzadə "İstiqlal" kitabında "17 dekabr" barədə yazır: "Həmin gün mən uşaqlıq dostum, jurnalist, professor Şirməmməd Hüseynovla görüşdüm. Mənim rejimə qarşı yazdığım bir sıra əsərlərin – o cümlədən, "Bağışlayın, səhv olub", "Mərziyə", "Ləyaqət", "Dan yeri" və s. yazılmasının səbəbkarı Şirməm-

məd müəllim olmuşdur. Daha doğrusu, mövzusunu o seçmişdir. Görüşdüyümüz gün Şirməmməd müəllim Alma-Atada baş verən hadisədən ağızdolusu danışıb "İndi mən bu hadisəni qələmə ala bilən bir oğul istəyirəm", – deyə üzümə baxdı. Mən ona "sən mənim bir neçə əsərimin yaranması üçün əlimə tutalqa vermisən, indi bu hadisənin də qələmə alınması üçün əlimə bir dəstəvuz ver, gör necə yazıram" – deyincə, o, əlini cibinə salıb pasportunu çıxartdı. Baxdım ki, 17 dekabr onun ad günüdür. Bununla 17 dekabrda baş vermiş Alma-Ata hadisəsini qələmə almaq üçün ayağım altına qoyacağım dayağı tapdım. Həmin axşam "17 dekabr" adlı şeir yarandı... Şirməmməd Hüseynova həsr olunan bu şeir 3 gündən sonra "Kommunist" qəzetində çap olundu...".

Milli ədəbiyyatımızda ana dili problemini ilk dəfə daha qlobal müstəviyə çıxaran "Mərziyə" poemasının da yazılışına səbəbkar kimi Bəxtiyar Vahabzadə Şirməmməd Hüseynovu nişan verirsə, deməli, Şirməmməd Hüseynov təkcə mətbuat tariximizin deyil, Azərbaycan ədəbiyyatının da fikir atalarından biridir. Şirməmməd müəllimin tələqinləri ilə yazılmış "Bağışlayın, səhv olub", "Mərziyə", "Ləyaqət", "Dan yeri", "17 dekabr", "Körpü çaydan uzaq düşüb" şeirləri kim etiraf etməz ki, Azərbaycan poeziyasının qızıl səhifələridir.

... Şirməmməd Hüseynovun yoxluğu hər addımda özünü büruzə verir. Çünki sağ və sol təmayüllü, istər istiqlalçı, istərsə də marksist yönlü mətbuat tariximizə Şirməmməd Hüseynov qədər aşina olan ikinci bir alimimiz yoxdur. Yadıma gəlir, bir dəfə bir radio verilişində Şirməmməd müəllimlə birgə Əli bəy Hüseynzadə barədə danışırdıq. İndi bu sətirləri yazarkən həmin verilişin lent yazısını dinləyirəm. Deyir ki, Əli bəy Hüseynzadə qarşısına üç məqsəd qoymuşdu. "Birinci məqsəd bu idi ki, bu millət bilsin ki, türklər kimdir və kımlərdən ibarətdir. Çünki əgər millət özü özünü dərk etməsəydi, onun gələcəyi olmazdı. Avropanı, Amerikanı yaxşı bilirdi axı. Görürdü ki, yeni dövr milliyyətçilik əsridir. Bu milli ruh millətlərin özünü dərk etməsinə, müstəqil dövlət yaratmasına, xalqları inkişaf yoluna çıxarmağa səbəb olub. Amma biz hələ kimik, bunu bilmirik. Elə hamımız deyirik, müsəlmanıq. Müsəlman dinindir axı sənin. Bəs sən kimsən bir millət olaraq? Ona görə deyirdi, gərək əvvəlcə bilək ki, biz kimik. Biz türkük. Türklükdən sonra ikinci qayə gəlirdi. Deyirdi, biz türkük, sonra müsəlmanıq. Dinimizə, min illik islam mədəniyyətinə sahib çıxmalıyıq. Deməli, mən türkəm, mən müsəlmanam. Sonra isə üçüncü qayə: mən insanam. Mən bəşəriyyətə məxsusam. Görürsünüz, nə böyük nəzəriyyədir? İndi biz bu nəzəriyyənin əsasında müstəqil dövlət qurmuşuq. Amma bilmirik ki, bu hansı qaynaqdan gəlir. Buna görə də mən indiki qəzetlərdən həmin səviyyəni – "Həyat"ın, "Füyuzat"ın səviyyəsini istərdim. Bunun üçün də bizə müasir dünyanı dərk edən adamlar – qələm əhli lazımdır".

Şirməmməd müəllim Əli bəy Hüseynzadənin "Ey qələm" məqaləsini, zənnimcə, əzbərdən bilirdi. Deyirdi ki, mən heç yerdə qələm haqqında bu məqaləyə bərabər ikinci bir yazıya rast gəlməmişəm. "Sən dünya görmüş, qəhrəmanlar yola salmış, filosoflar əlində işləmiş, nurdan yaradılmış müqəddəs bir vücudsan. Sənin qüvvəyi-hafizən çoxdur. O vaxt ki, avropalılar sənin nə olduğunu bilməyirdilər, səni biz onlara tanıtdıq... Sevgili qələmim, sənin də böyük-böyük vəzifələrin var. Bəlkə bu parçalanmış, şirazəsi dağılmış vətənimizi hifz edək".

Şirməmməd Hüseynov özü də dünya görmüş, qəhrəmanlar yola salmış, filosoflar əlində işləmiş, nurdan yaradılmış müqəddəs bir vücudla – qələmlə bu parçalanmış, şirazəsi dağılmış vətəni hifz edən mütəfəkkirlərimizdən biri idi...

Ruhu şad olsun!

Azər TURAN

"Ədəbiyyat qəzeti", 3 avqust 2019-cu il

TÜRKİYE Okuyor
Tam Bağımsız Gazete

ULUSAL HAFIZAMIZIN TAŞIYICISI, İSTİKLAL SEVDALISI OLAN HOCALAR HOCASI

04 Temmuz 2019 Köşe Yazarları,
Pervane MEMMEDLİ, Sürmanşet

PERVANE MEMMEDLİ

yazar@türkiyeokuyor.com

Bu günler biz Şirmemmed Hüseynov gibi büyük alim, büyük hocalar hocası ve büyük vatandaşımızı kaybettik. Şirmemmed Hüseynov 94 yıl yaşadı ve kalemini asla bırakmadı, "Yaratan türklere devlet kurmak, yaşatmak qabiliyyeti, fedakarlık ve kahramanlık ruhu, insaf ve merhemet hissi verib. At ölüne qeder çapar, ot görür. Ben ölenecen yazacağım ve çalışacağım – söyleyen Şirmemmed Hüseynov 94 yıl yaşadı, ve kalemini asla yere koymadı. O ömrünü Azerbaycanda ilk Cumhuriyeti kurup yaşadanları aramaya adadı.

Yazdığı kitaplarda onların fedakarlık ve kahramanlık ruhunu bizlere iletti.

Şirmemmed – ahlakın, hakkın öz sesi
Leyaqet, deyanet mücesemesi!

Bu mısraları dahi söz üstadımız Bahtiyar Vahabzade kalp dostu, vicdan ve inanç kardeşi Şirmemmed Hüseynova sunmuşdu.

Şirmemmed Hüseynov Sovyet döneminde 1918-1920 yıllarındaki Cumhuriyetimizin kurucusu Muhammed Emin Resulzadenin üzerindeki yasak örtüsünü kaldırıp, yeniden kendimize iade etti, hafızamızı yeniledi.Ulusal müzikimizi ilk defa nota köçürüb müzik kültürümüzü dünyaya tanıtan Üzeyir Hacıbeylini tek dahi besteci olarak değil, aynı zamanda büyük bir eğitimci, yetenekli yazar gibi tanıttı, bizlere.

Ş.Hüseynovun hayatının 60 yılı Bakü Devlet Üniversitesi ile bağlı olup. 1950-1954 yıllarında M.V.Lomonosov adına Moskova Devlet Üniversitesi gazetecilik Fakültesi doktora eğitim alan Şirmemmed Hüseynov Vatana ilk Azerbaycanlı akademisyen-gazeteci olarak döndü. Daha sonra Bakü Devlet Üniversitesi'nde (önceler Azerbaycan Devlet Üniversitesi)çeşitli pozisyonlarda çalıştı. Kızı Fereh Eliyeva Bakü Devlet Üniversitesinin babası için kutsal mekan olduğunu ve BDU-nu evi kadar sevdiğini, ve Bakü Devlet Üniversitesini Azerbaycan'ın küçük modeli olarak kabul ettiğini söyledi.

Sovyet ideolojik klanları tarafından yasaklanan sansür koşullarında, üniversitedeki öğrencilerini sevgiyi teşvik eden bir milletti. Programa uygun ders derken aynı zamanda, öğrencilerinin gözünü açıyordu: Burjuva yazarlarının adına söylediği eleştirel sözler daha çok Sovyet yazarlarına ait olurdu. Belece öğrencilere gah setiraltı, bazen de açık şekilde asıl gerçekleri söyleyip çatdırırdı.O öğrencilerin arasında ben de var idim. Sonraları bana onunla – hocamla bir yerde, kafedrada çalışmak nasip oldu.

Şirmemmed hocamız onu seven on binlerce öğrencinin, bir ülkede bir meslek faaliyetinde çalışan tüm insanların manevi babasıydı. O prinsippial, mücadeleci, usyankar idi. Haqq-adalet, prinsipallıq sembolüydü. Sovert döneminde BDU-da rüşvetin kökünün kesildiği tek fakülte gazetecilik fakültesi idi ki, bunun da bünevresi Şirmemmed hocamızın dekan olduğu yıllarda koyuldu.

Ş.Hüseynovun tüm yazıları Azerbaycan'ın istiklali, koruyup yaratmalı olduğumuz milli değerler ve ideallerle ilgili idi. Muhammed Emin Resulzade eserleri (5 cilt, 1992-2018), Azerbaycan lejyonları (2003), Ulusal hak ve adalet arayışında (2004), Manevi irsimiz ve gerçeklik (2004), "Metbu irsimizden sayfalar", "Parlamento raporları" (3 cilt) ve b. Bu kibi degerli kitapların yazarı idi.

Azerbaycan Halk Cumhuriyeti'nin kurucularının mirasının araştırılmasında özel hizmetler göstermiş Şirmemmed Hüseynov daima hakikatin, adaletin, özgür sözün yanlısı olup. Halk Cumhuriyeti dönemindeki parlamentomuza faaliyetinden bahseden "Parlamento raporları "üç ciltlik bu kitap milli hafızamızın taşıyıcısı idi, sabahımızın yolgöstereni idi.

O bizim her anlamda yolgösterenimiz idi, eserleri Azerbaycan'ın dünü ve bugünü arasında manevi köprü rolü oynuyordu. Bu bellek yaşamakta devam edecek, bu köprü hep var olacak. Onun hatırasını saygıyla anır, ruhu önünde eğiliyoruz!

ÜZEYİR HACIBƏYLİNİN İKİCİLDLİYİNİN TƏQDİMATI KEÇİRİLMİŞDİR

İyunun 16-da "Ambassador" mehmanxanasında dahi bəstəkar, milli operamızın banisi, görkəmli naşir, jurnalist və publisist Üzeyir Hacıbəylinin nəşrlərdən kənar qalan əsərlərinin toplandığı "Üzeyir Hacıbəyli: nəşrlərdə kənara qoyulmuş əsərlər (1904-1912)" və "Üzeyir Hacıbəyli: nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri (1915-1917)" kitablarının təqdimatı keçirilmişdir.

Mətbuat Şurasının təşəbbüsü (MŞ) və "Azərsun Holdinq"in maliyyə dəstəyi ilə təşkil olunmuş tədbirdə bir sıra KİV-lərin rəhbərləri, media mütəxəssisləri və ziyalılar iştirak etmişlər.

MŞ-nin sədri Əflatun Amaşov tədbiri açaraq, ictimai-siyasi fikir, eləcə də milli mətbuat tariximizin öyrənilməsində müəllif – Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovun xidmətini yüksək qiymətləndirmişdir. O qeyd etmişdir ki, kitablar Prezident İlham Əliyevin Ü.Hacıbəylinin anadan olmasının 125 və Milli Mətbuatımızın yaranmasının 135 illiyi ilə bağlı imzaladığı sərəncamlarda nəzərdə tutulan tədbirlər çərçivəsində görülən işlərə bir töhfədir.

Müəllif, professor Ş.Hüseynov çıxış edərək bildirmişdir ki, Ü.Hacıbəyli milli operamızın banisi, görkəmli bəstəkar olmaqla yanaşı, həm də publisist, ictimai-siyasi xadim və siyasi icmalçı kimi tanınmışdır.

Kitablar haqqında məlumat verən Ş.Hüseynov qeyd etmişdir ki, birinci cilddə Ü.Hacıbəylinin bu günədək çap olunmamış 117, ikinci cilddə isə 56 əsəri nəşr edilmişdir. Bundan əlavə, Ü.Hacıbəylinin 1964-cü, 1968-ci və 1985-ci illərdə çap edilmiş əsərləri içərisində 30-dək "redaktə" olunmuş əsəri də ikicildliyə daxil edilmişdir.

Kitablarda toplanmış məqalələrdə Ü.Hacıbəyli tariximizdə uzun müddət qaranlıq qalan bir çox məsələlərə yer verdiyinə və milli şüurun formalaşması istiqamətində fikirlərini açıq şəkildə bəyan etdiyinə görə bu əsərlərin işıq üzü görməsinə imkan verilməmişdir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları professor Cəmil Həsənli, Xalq şairi Sabir Rüstəmxanlı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov və Təfəkkür Universitetinin rektoru, professor Müşfiq Atakişiyev Ü.Hacıbəyli yaradıcılığının ictimai fikrin formalaşmasında böyük rolunu qeyd etmiş, bildirmişlər ki, həmin əsərlər bu gün də öz təsirini göstərməkdədir. Çıxışlarda, həmçinin xalqımızın ictimai-siyasi fikir tarixinin öyrənilməsi, milli ideyaların inkişaf etdirilməsi baxımından ikicildlikdə toplanmış əsərlərin çox qiymətli mənbə olduğu vurğulanmışdır.

"Xalq" qəzeti, 17.06.2010-cu il

ALİ MEDİA MÜKAFATININ QALİBLƏRİ

Mətbuat Şurasının yeni təsis etdiyi Ali Media Mükafatının ilk laureatları bəlli olub. Şuradan verilən məlumata görə, I dərəcəli mükafat BDU-nun jurnalistika fakültəsinin professoru Şirməmməd Hüseynova verilib ("Milli mətbuat tarixinin öyrənilməsində və jurnalistika sahəsində uzunmüddətli pedaqoji fəaliyyətinə görə").

II dərəcəli mükafatın sahibləri "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov və "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadədir ("Azərbaycan mediasının saflığı uğrundakı xidmətlərinə və bu məqsədlə apardıqları mübarizədəki prinsipial mövqelərinə görə").

III dərəcəli mükafat jurnalist Rizvan Cəbiyev, yazıçı-publisist Yusif Kərimov, yazıçı-jurnalist Ziyəddin Sultanov, jurnalist Mədinə Həsənova və jurnalist Məzahir Süleymanzadəyə qismət olub ("Media sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə").

Xatırladaq ki, I dərəcəli mükafat bir nəfərə verilib və pul mükafatının məbləği 5000 manatdır. II dərəcəli mükafat 2 nəfərə verilib və məbləği 2000 manatdır. III dərəcəli mükafat isə 5 nəfərə verilib ki, o mükafatın məbləği də 1000 manatdır.

SEVİNC

"Yeni Müsavat" qəzeti, 24 iyul 2010

ŞİRMƏMMƏD HÜSEYNOVUN 87 YAŞI TAMAM OLDU

Azərbaycan mətbuatının ağsaqqalı, milli mətbuat tariximizin yorulmaz araşdırıcısı, Bakı Dövlət Universitetinin müəllimi, professor Şirməmməd Hüseynovun dünən 87 yaşı tamam oldu.

1924-cü il, dekabrın 17-də Şəkidə anadan olan Şirməmməd müəllim böyük və şərəfli ömür yolu keçərək Azərbaycan tarixinin ən önəmli olaylarının canlı şahidinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin irsinin öyrənilməsində, böyük Üzeyir Hacıbəylinin yaradıcılığının yeni səhifələrinin üzə çıxarılmasında və təbliğində onun misilsiz xidməti var.

Mətbuat tariximizin qaranlıq səhifələrinə işıq salanların arasında Ş.Hüseynovun adı həmişə fəxrlə ön cərgədə çəkilir.

Qeyd edək ki, Ş.Hüseynov bu ilin əvvəlində Mərkəzi Klinik Xəstəxanada əməliyyat olunmuşdu. Şirməmməd müəllim modern-az-a açıqlamasında hazırda özünü yaxşı hiss etdiyini söyləyib. "Hələ ki, başım işləyir, gözüm görür, qulağım eşidir, hərəkət edə, işləyə bilirəm".

Yeri gəlmişkən, "Qış bulvarı"ndakı söküntü işləri ilə əlaqədar Şirməmməd müəllim yeni mənzillə təmin olunub və şəraitindən razılıq edir.

"Yeni Müsavat" qəzeti olaraq Şirməmməd müəllimi ürəkdən təbrik edir, bu böyük və dəyərli ziyalımıza cansağlığı, tarixi araşdırmalarında yeni-yeni uğurlar, yeni mənzildə ürəyi istəyən qədər yaşamasını arzulayırıq.

E.PAŞASOY

"Yeni Müsavat" qəzeti, № 337(4996),
18 dekabr 2011-ci il

ŞİRMƏMMƏD HÜSEYNOV 88 YAŞINI İŞ BAŞINDA QEYD ETDİ

"Söz vermişəm ki, Cümhuriyyətin 100 illiyini eləməmiş qələmi yerə qoymayım"

Dekabrın 17-də Azərbaycan mətbuatının ağsaqqalı, milli mətbuat tariximizin yorulmaz araşdırıcısı, Bakı Dövlət Universitetinin müəllimi, professor Şirməmməd Hüseynovun 88 yaşı tamam oldu.

Ş.Hüseynov "Yeni Müsavat"a açıqlamasında elə ad günündə də araşdırmaları ilə məşğul olduğunu söylədi: "Elə bu dəqiqə 1917-ci ildə çıxan "Müsavat" qəzetinin birinci sayı qabağımdadır. Oradakı bütün yazıları latın qrafikasına çevirirəm. Özü də bu yazılar qurultay ərəfəsindən bəhs edir".

Ş.Hüseynovun sözlərinə görə, böyük öndər, cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin 4-cü cildini artıq nəşriyyata təqdim edib və yanvarın 31-dək nəşr olunacaq: "Hazırda isə 5-ci cildini hazırlayıram".

Qocaman alim yaşın ağırlığını elə də hiss etmədiyini dedi: "Söz vermişəm ki, Cümhuriyyətin 100 illiyini eləməmiş qələmi yerə qoymayım. Çünki görüləsi çox iş var, bu işlərlə məşğul olan isə yoxdur".

Qeyd edək ki, Ş.Hüseynov 1924-cü il, dekabrın 17-də Şəkidə anadan olub. Böyük ömür yolu keçən Ş.Hüseynov Azərbaycan tarixinin ən önəmli olaylarının canlı şahidinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadənin irsinin öyrənilməsində, təbliğində onun misilsiz xidməti var. "Yeni Müsavat" qəzeti olaraq bu böyük insanı ad günü münasibətilə təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq.

E.PAŞASOY

"Yeni Müsavat" qəzeti, № 336(5345), 18 dekabr 2012-ci il

"MƏN 100 İLLİYİ BAYRAM ELƏMƏYƏ BAŞLAMIŞAM"

Şirməmməd Hüseynov: "Vətən sevgisi insan ömrünü uzadan birinci dərmandır"

Dekabrın 17-də mətbuatımızın ağsaqqalı, canlı əfsanəmiz, Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovun 93 yaşı tamam oldu. Doğum günündə bu yorulmaz araşdırmaçı alimimiz, hamımıza örnək olan dəyərli ziyalımızla həmsöhbət olmaq istədik. Hər zamankı kimi, iş başında olsa da, "Yeni Müsavat"a vaxt ayırdı.

- Şirməmməd müəllim, istədim doğum gününüzdə həm sizi təbrik edim, həm də ad günü təəssüratınızı öyrənim. Ömrün 93-cü ilinin tamamında hansı hisslər keçirirsiniz?

- Vallah, bir əsrə yaxın Azərbaycan tarixinin, taleyinin şahidi olasan, bu, hər adama müyəssər olan şey deyil. Amma əsas budur ki, 20-ci, 21-ci əsr Azərbaycan tarixinin ən möhtəşəm əsrləridir. İnsan həddi-buluğa çatanda yeni nəsil yaradır. Millət də həddi-buluğa dövlət yaradır. Amma hər həddi-buluğa çatanın övladı olmur, hər həddi-buluğa çatan millət az olur. Bu milləti həddi-buluğa çatdırdılar. Həddi-buluğ nədir? Bax, indi mən məqalələr verirəm. Cümhuriyyətin iqtisadi əsasları. Yazıblar e...Yəni müstəqil dövlət yaratmaq üçün gərək bunun iqtisadi zəmini ola. Bu iqtisadi zəmin olub. Yəni millətin özü-özünü dolandırmaq imkanı olub. Əkinçiliyi də olub, sənayesi də, sənətkarları da, mənəvi ədəbiyyatı da, mətbuatı da, dili də olub, qeyrəti də namusu da olub. İndi bunları öyrənmək lazımdır ki, bu milləti həddi-buluğa çatdıran hansı qüvvələr, kimlər olub? Çünki onların nümunəsi bizə lazımdır. Millət həddi-buluğdan tükənməz, dövlətçiliyini itirəməz. Bir şərtlə ki... Məsələn, məqalə yazılıb ki, millətin, cümhuriyyətin iqtisadi təməli nə olub, kimlər yaradıb bunu? Məlum olub ki, bunlar təmənnasız, vətənə, millətə xidmət edən kişilər olub. Onlardan öyrənmək lazımdır.

- Belə məlum olur ki, siz hətta ömrünüzün 93-cü ilinin tamamında da Cümhuriyyətimizin 100 illiyi, Cümhuriyyət qurucuları barədə düşünürsünüz...

- Bəs necə? Görmürsən, mən hər həftə iki səhifə "525-ci qəzet"ə göndərirəm, bir məqalə də "Azərbaycan" qəzeti çap edir. İkisində də rubrika açmışam. Birində "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qarşısında", o birisində də "Azərbaycan Xalq Cümhuriyyəti-100". İndi bircə şey var ha... 100 illik gəlir, bu cümhuriyyəti yaradan kişiləri qanmaq lazımdır, ya yox? Mən eşitdim ki, guya prezident göstəriş verib ki, harda Azərbaycan Cümhuriyyəti xadimlərinin qəbri var, onların üstü götürülsün. Bu, yaxşı şeydir, ya yox? İndi görək bunu nə təhər yerinə yetirəcəklər. Türkiyədə nə qədər Azərbaycan mücahidi var. Onların hamısının qəbri, ailələri var. Mənə belə gəlir ki, onların nəsillərini bu bayrama çağırmaq lazımdır. Maraqlanmaq gərəkdir, necə yaşayırlar, nə edirlər? Yəni xaricdə mücahidlərimizin qəbirləri çoxdur. Tiflisdə nə qədəri var. Bu respublikada nə qədəri var. Mirzə Balanın bir məqaləsi var, deyirdi ki, hər Cümhuriyyət bayramını qeyd edəndə məzarlardan qulağımıza səslər gəlir, amma bircə şey də var ki, onlardan da bö-

yük bir qismini ki, dənizə tullayıblar, dənizin dalğaları o səsi bizə gətirir. Bunları bilmək lazımdır e. Keçmişini bilməyən millətin gələcəyi olmaz.

- Bu yaxınlarda mətbuat yazdı ki, Rəsulzadənin həyat yoldaşının məzarı Türkiyədə tapılıb.

- Rəsulzadənin iki həyat yoldaşı olub. Biri onun övladlarının anasıdır - yazıçı Seyid Hüseynin bacısı. Amma o birisi Polşadan olan Leyla xanımdır, polyak qızıdır (Vanda xanım). Onun məzarı Türkiyədədir. Polşa prezidenti Pilsudskinin qohumu olub. Yəni böyük bir ailənin övladıdır. Özü də bizimkilər dövlət yaratmaq uğrunda fədakarlığı həm də polyaklardan öyrəniblər. Çünki Avropada polyaklar qədər milli dövləti uğrunda vuruşan ikinci millət yoxdur. Fikir verin, Şopen polyak olub. O, Vyanada ölüb, amma polyaklar onun ürəyini öz vətənlərinə gətiriblər, indi də saxlayırlar. Polyaklardan vətənpərvərliyi, vətən uğrunda vuruşmağı öyrənmək lazımdır. Millətçiliyi yox, vətənpərvərliyi.

- Professor, gecə-gündüz araşdırmalarınızı davam etdirirsiniz. Məmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli irsinin araşdırma və təbliğində böyük işlər dördünüz. Bəs, bundan sonra kimləri araşdırmaq niyyətindəsiniz?

- Mən fikirləşirəm ki, Məmməd Əmindən, Üzeyir bəydən sonra Nəsib bəy Yusifbəylinin, Mirzə Bala Məmmədzadənin əsərlərini, Əhməd Həmdinin məqalələrini çap edək. Bunların yaradıcılığında Cümhuriyyət və Azərbaycan tarixi öz əksini tapıb. Başqa bir məsələ... Məmməd Əmin deyirdi mühacirət dövründə elə bina qurmuşuq ki, onu heç nə dağıda bilməz. Bir şeir var e...

Könlüm evi bir gülşənə bənzər ki, əzizim,
Min badi-xəzan əssə də, viran ola bilməz!

(Səməd Vurğun)

İndi bunlar bir dövlət yaradıblar ki, onu heç kəs yarada bilməz! Müəyyən vaxtda kimsə istila edə bilər, fasilə olar. Amma yenə əvvəl-axır o dövlət üzə çıxacaq. Millət ona sahib çıxacaq.

- Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı şəxsən sizin təklifiniz, sözünüz, məsləhətləriniz varmı?

- Bilirsiniz necədir? Hər şeyi bir adamdan gözləmək zəiflik əlamətidir. Çünki prezidentin, hökumətin başı müasir məsələlərə qarışıqdır. Bu işi ziyalılar, tarixçilər, ədəbiyyatçılar, jurnalistlər görməlidir. Mən heç kəsdən heç nə gözləmədən işləyirəm. Gərək hamı işləyə də, hərə bir sahədə. Göstərişlə keçirilən bayram bayram deyil. Hərə özü bayram eləməlidir. Mən özüm 100 illiyi bayram edəcəyəm. Bayram eləyirəm də, artıq 4 ildir bayram eləməyə başlamışam. Amma o bayrama 50 ildir hazırlaşıram. Üzü də 50 il bundan qabaq demişəm ki, Cümhuriyyətin 100 illiyini bayram eləməmiş, bu dünyadan gedən deyiləm (gülür).

- İnşallah, bu dövlət, bu millət də gördüyünüz böyük işləriniz, millətə, vətənə sevginiz qarşılığında sizin 100 illiyinizi qeyd edər...

- (Gülür) Mən deyirəm ki, niyyətin hara, mənzilin də ora.

- Cümhuriyyətdən danışdıq, amma 93 yaşınızı necə qeyd edirsiniz, bu barədə demədiniz...

- Bilirsən, mən təntənə-məntənə tərəfdarı deyiləm. Bax, bu gün də "Azərbaycan" qəzetində bir məqaləm çap olunub: "Yeni Qafqasya" adlı. 1927-ci ildə "Yeni Qafqasya" jurnalında Ərdoğan familiyalı bir nəfərin azəri oğullarına məktubu dərc olunub. İndi bu Ərdoğan o ərdoğanlardandır, kimdir, bilmirəm. O, elə şeylər yazıb ki, mən indiki Ərdoğanın çıxışında eynən həmin cümlələri görürəm, 7-dən 70-ə, tələbəsindən müəlliminə qədər. Ərdoğanın dilində nə varsa, orda var. O nəsildəndir kimsə...

- Belə demək olarmı ki, siz elə öz məqalənizlə ad gününüzdə özünüzü təbrik edibsiniz?

- Hərə gərək özü-özünə bayram keçirə, ruhən, hər cəhətdən. Əgər hər millətin nümayəndəsi fərdi qaydada özü bayram edirsə, deməli, millət bayram eləyir. Adamları yığıb iclas keçirmək bayram deyil. Özü də o bayramı, o sevinci ruhunda yaşadırsan. Mən sənə deyim, vallah-billah Vətən sevgisi insan ömrünü uzadan birinci dərmandır.

- (yarızarafat) Demək, uzunömürlüyün sirri məlum oldu...

- Bəli. Ən böyük sirr budur ki, namuslu, qeyrətli olasan, millətə təmənnasız xidmət edəsən, heç kəsdən də heç nə gözləməyəsən. Abbas Səhhət "Hophopnamə"nin 1912-ci ildəki ilk nəşrinin müqəddiməsində Əbdülhəqq Hamidin sözlərini sitat gətirib ki, insanın öz vicdanından aldığı mükafatı heç bir padşah, heç bir sultan, heç bir prezident verə bilməz. Yazır ki, Sabir də öz zəhmətinin, millətə xidmətinin mükafatını heç kəsdən gözləmirdi, öz vicdanından alırdı.

"Yeni Müsavat" Media Qrupu olaraq dəyərli ağsaqqalımız Şirməmməd müəllimi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, araşdırmalarında daha böyük uğurlar arzulayırıq.

Elşad PAŞASOY

"Yeni Müsavat", 05 may 2017

"MÜƏLLİM ÖZÜ NÜMUNƏ OLMAQLA TƏLƏBƏSİNİ TƏRBİYƏLƏNDİRƏ BİLƏR"

Səhifəmizin bugünkü qonağı BDU-nun jurnalistika fakültəsinin mətbuat tarixi kafedrasının professoru, Prezident təqaüdçüsü Şirməmməd Hüseynovdur

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsi 1952-ci ildə yaradılıb. 25 iyun 1954-cü ildə həmin fakültənin Elmi Şurasında MDU-nun mətbuat tarixi kafedrasının müdiri, professor A.Portyankinin rəhbərliyi ilə namizədlik dissertasiyasını birinci müdafiə edən tələbə Şirməmməd Ağaməmməd oğlu Hüseynov olub. Şirməmməd Ağaməmməd oğlu Hüseynov elmi fəaliyyətinə görə 1948-ci ildə "Nizami" təqaüdünə, iki dəfə: 1966-1972-ci illərdə "Qızıl qələm" mükafatına, 1988-ci ildə "Respublikanın əməkdar jurnalisti" adına, 1991-ci ildə "Zərdabi mükafatı laureatı" adına, 1992-ci ildə "Yusif Məmmədəliyev adına mükafat"a, 1998-ci ildə "Məhəmməd Əmin Rəsulzadə adına mükafat"a layiq görülmüşdür. 2005-ci ildən Prezident təqaüdçüsüdür. Şirməmməd Hüseynov 1954-1961-ci illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsi, jurnalistika kafedrasınm baş müəllimi, sonra dosenti, 1962-1969-cu illərdə filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə ADU-nun jurnalistika fakültəsinin dekanı, 1976-1980-ci illərdə mətbuat tarixi və ideoloji iş metodları kafedrasmın müdiri vəzifələrində çalışıb. 1988-ci ildən bu günə kimi BDU-nun jurnalistika fakültəsində mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professorudur.

Şirməmməd müəllimi ilk dəfə 34 il öncə auditoriyada görmüşəm. Tələbəsi olmuşam, mühazirələrini dinləmişəm. Şirməmməd müəllim dərs dediyi tələbələrə deməzdi ki, mənə qulaq asın, dərsimdən qalmayın, dediklərimi qeyd eləyin. Onun böyük anlamda dərsinin cazibəsinə düşən biz tələbələri qoşa saatların nə vaxt bitməsini hiss etməzdik. Şirməmməd müəllimin mühazirələri hələ oxumağa macal tapmadığımız dəyərli bir kitabın içindəkilər deməkdi... o mühazirələr olduqca maraqlı idi.

Şirməmməd müəllim bizə doğru düşünməyi, doğru yazmağı öyrədib. Müxtəlif kurslarda "Partiya-sovet mətbuatı tarixi", "Burjua mətbuatının tənqidi" fənlərini tədris edən tanınmış pedaqoq, əslində öz mühazirələri ilə həmişə daha çox milli mətbuatımızın qaranlıq səhifələrinə işıq tutub.

Jurnalistlər ordusunda onun yetirmələrini məhz eyni bir cəhət birləşdirir, doğmalaşdırır: Milli ruh, milli təəssübkeşlik.

Unudulmaz müəllimimizlə hazırda çalışdığı Bakı Dövlət Universitetində, jurnalistika fakültəsinin mətbuat tarixi kafedrasında görüşdük. Özünəməxsus həmişəki

təbəssümü üzündə, göstərdiyi mənbələri eynəksiz oxuyurdu...

- 17 dekabr 1924-cü ildə Şəkidə anadan olmuşam. Atam əvvəllər Şəki İpək fabrikində işləyib. Sovet hökuməti gələndən sonra xırda ticarətlə məşğul olub.

...Nəsil şəcərəm barədə kitablarımda da yazmışam. Mənim ata nəslimin də, ana nəslimin də nümayəndələri çox namuslu, qeyrətli, sanballı, bir sözlə, düz adam kimi tanınıblar.

Üç yaşım hələ tamam olmamış, 1927-ci ildə atam vəfat edib. Üç qardaş, üç bacı qalmışıq anamın ümidinə. Heç bir təhsil görməyən, evdar qadın olan anamın məşəqqətli günləri atamın ölümündən sonra başlayıb. O vaxta qədər çöl işi nədir bilməyən anam gedib ipək fabrikində baramaaçan fəhlə işləyib, baramaların vaxtı çatanda onları saf-çürük edib yaxşıya-pisə ayırıb.

Fabrikdən aldığı halal maaşıynan bizi böyüdüb, çalışıb ki, hər bir ehtiyacımızı ödəsin. Oxumağımızın da qeydinə qalıb, ali təhsil ardınca getməyimizdə də özünün zəhmətli işi, alın təri bahasına dayağımız olub.

Anam işdə olanda ailənin ilk övladı – böyük bacım bizim tərbiyəmizlə, dərslərimizlə məşğul olub, yeməyimizi-içməyimizi hazırlayıb. Bəlkə də elə bu səbəbdən altı bacı-qardaşdan beşimiz ali təhsil almışıq, bircə o bacım oxuya bilməyib. Çox zəhmətkeş olub böyük bacım. Həm bizə baxardı, həm də vaxt tapan kimi qış corabları toxuyardı. O corabların satışından gələn qəpik-quruş ehtiyac, qayğı yükü ağır olan ailə büdcəmizə əvəzsiz bir kömək idi...

Bayaq dediyim kimi, anam özü evdar qadın olsa da, tanınmış, savadlı nəsildən idi... Bir vaxtlar Qafqazın Şeyxülislamı Molla Fərəc Pişnamazzadə olub, anam Sara xanım onun bacısı qızıdır. Dayılarım da təhsilli adamlardı...

Biz rayon mərkəzində yaşayırdıq. Valideynlərimin beşinci uşağı idim. Ailəmizdə düzlük o qədər əsas şərt idi ki, qonşumuzun alça və ya gavalı ağacının budaqları çəpərin üstündən aşıb bizim tərəfə əyilsə də, ağlımıza gəlməzdi ki, meyvələrdən birinə əl uzadaq... Hətta özü qopub yerə düşənləri də anam bizə yığdırar, deyərdi ki, aparın verin sahibinə... Əgər qonşu apardığınız meyvələrdən sizə verərsə, yeyərsiz, verməzsə, haramdı, toxunmazsız. Bax, beləcə halallığa öyrətməklə böyüdüb anam bizi...

- Şirməmməd müəllim, məktəb illəri ilə bağlı xatirələriniz də maraqlı olardı...

- Altı yaşım olanda birinci sinfə getmişəm. Orta təhsil illərim Şəkidə keçib. Məktəb üzrə fərqlənən şagirdlərdən sayılırdım. Keçirilən respublika olimpiadalarında iştirak edər, qazandığım uğurlarla həmişə məktəbimizin, müəllimlərimin başını uca edərdim.

...Bax, bu şəkli görürsən? Ön cərgədə sağdan dördüncü dayanan mənəm. 30 iyul 1940-cı ildə Soçidə çəkilib. Mənim üçün çox qiymətli fotoşəkildi. Bu gün də dəyərli bir xatirə kimi qoruyub saxlayıram.

1940-cı ilin yayında on beş müttəfiq respublikadan olimpiadalarda yer tutmuş əlaçı şagirdləri seçib Soçiyə dincəlməyə göndərmişdilər.

Olimpiadada fəxri yer tutduğuma görə Azərbaycan Respublikasından Soçiyə göndərilmiş beş nəfər azərbaycanlı şagirdin biri mən idim. O günlərin yadigarıdı bu şəkil...

Oxuduğum Şəki şəhəri, Mirzə Fətəli Axundov adına 2 nömrəli orta məktəbi

on altı yaşımda "əla" qiymətlərlə başa vurmuşam. Məktəbimizin birinci buraxılış məzunlarındanam.

...1941-1943-cü illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxumuşam və bitirmişəm. Bu məktəbin də birinci buraxılış məzunlarındanam.

Bir müddət Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük, Oxut kənd orta məktəblərində fizika-riyaziyyat müəllimi, "Nuxa fəhləsi" qəzetində ədəbi işçi işlədim.

1945-1950-ci iilərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil aldım, universiteti fərqiənmə diplomu ilə bitirdim. Yenə də birinci buraxılış...

Hər yerdə birinci buraxılış məzunu olmağım da sırf taleyin qismətidi. Adam hətta özü bilərəkdən istəsə belə, birinci olmaq tarixlərini bu cür ardıcıllıqla düzə bilməz.

- Qələm əhli adətən vaxt qıtlığından şikayətlənir...

- Mənim vaxt qıtlığı problemim olmayıb. Jurnalistika şöbəsində oxuya-oxuya, tələbəsi olduğum universitetin "Lenin tərbiyəsi uğrunda" qəzetində redaktor müavini, daha sonra "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri işləmişəm.

Vaxtımı elə bölürdüm ki, dərslərimi də yüksək səviyyədə oxuyurdum, mənə həvalə edilən işi də axşama qoymurdum.

- Universitet illəri arxada qaldı...

- Bu dəfə təhsilimi Rusiyada davam etdirdim. 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil aldım...

Moskva dövrü ömrümün qızıl hərflərlə yazılan ən səmərəli illəri olub.

Mənim dissertasiyamın mövzusu 1917-1920-ci illəri əhatə edirdi. Bütün mənbələr əski əlifbaynan, ərəb dilindəydi. Hələ Bakıda tələbə olduğum illərdə öz respublikamızın kitabxanalarında, arxivlərində elmi işim üçün lazım olan materialları əldə edə bilmirdim. Nədənsə, onların istifadəsinə imkan yaradılmır, icazə verilmirdi. Amma Moskvada bu qadağa ilə üzləşmədim. Orada oxuduğum dövrdə sərasər dörd il kitabxanaları, arxivləri araşdırdım, Azərbaycan mətbuatına dair mənbələri tapıb üzə çıxardım.

Bu sırada məqam tapdıqca Üzeyir Hacıbəyovun, Soltan Məcid Əfəndiyevin, Nəriman Nərimanovun, Məhəmməd Əmin Rəsulzadənin də vaxtilə qadağan edilmiş əsərlərinin üzünü köçürüb nüsxələyirdim. Moskvada oxuduğum illərdə bir dəqiqəmi də boş yerə sərf etmirdim. O dövrdəki arxiv araşdırmalarımın, qeyd dəftərlərimin hamısını bu günə kimi saxlamışam. Atalar deyib, saxla samanı, gələr zamanı...

İndi də əlimdə elə mövzular var ki, onları araşdırmaq, bərpa edib millətə tanıtmaq, geniş oxucu auditoriyasının ixtiyarına vermək gərəkdir.

- Elmi araşdırmalarınızın əsas mövzusu?

- Mən milli mətbuat tariximizin 1917-1920-ci illər dövrünün və Məhəmməd Əmin Rəsulzadə irsinin araşdırıcısıyam. Mətbuatımızı təmsil edən hər bir qələm əhli nədən yazdığına və necə yazdığına ciddi yanaşmalıdır.

Mənim vurğulamaq istədiyim odur ki, 1917-1920-ci illər milli mətbuatımızın tarixini əks etdirən qiymətli materiallar dərindən öyrənilməli, tədqiq və təbliğ olunmaqla yanaşı, həm də hifz edilib qorunmalıdır. İndi daha qadağalar da yoxdur. Sağ olsun arxiv əməkdaşları, işləmək istəyənə hər cür şərait yaradırlar. Əsas odur ki, araşdırıcının özünün çalışmağa həvəsi, şövqü ola...

Tarixlə məşğul oldunsa, gərək hər şəraitdə obyektiv olasan, səhvsiz işləməyi bacarasan.

- Moskvada senzura səddi ilə heç qarşılaşmadınız?

- Bu cəhətdən doğrudan mənim bəxtim gətirmişdi. Moskvada – Qlavlit adlanan idarədə azərbaycanlı senzor vardı – Əlihüseyn Əliyev. Rus qadınla evlənmişdi, həmişəlik Moskvada yaşayırdı.

Əlihüseyn əslən şəkiliydi, üstəlik də orta məktəb yoldaşım idi. Yazılarımı senzor kimi o yoxlayırdı. Baxdığı materiallarımın da çapına şəxsən özü icazə verirdi. Əlihüseynin qoyduğu dərkənardan sonra, kimin ixtiyarı vardı ki, ağzını açıb bir kəlmə söz desin. Mən də Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin üzünü köçürürdüm, sonda müəllifin adının yerində yazırdım "Üzeyir Hacıbəyov"... "Nəriman Nərimanov"... "Soltan Məcid Əfəndiyev"... Onlar bolşevik yazarlar sayıldığından, problem yaranmırdı. Əsl müəllifin də adının altından xətt çəkib işarələyirdim ki, sonradan baxanda özüm də müəyyən edə bilim ki, əsər əslində hansı müəllifindir. Hamısını Bakıya gətirdim... Bu illər ərzində 26 adda kitab hazırlayıb nəşr etdirdim. Oxuculara təqdim etdiyim materialların hamısı ilk dəfə çap olunur.

Hələ yorulmamışam. İndi də imkan düşdükcə arxivləri araşdırıb yeni mənbələr tapır, əski əlifbadan yeni əlifbaya köçürür, kompüterdən çıxartdırır, nüsxələdirəm... Sonra aparıram şərqşünaslıq fakültəsinə, göstərirəm ərəbşünaslara, farslara. Onlar da öz qeydlərini edirlər. Ərəbcəni Vasim Məmmədəliyev yaxşı bilir. Dediyim odur ki, mən şərqşünaslarla əlaqəli çalışıram. Kitablarımı da sovet dövründən üzü bəri heç vaxt dövlət və ya sponsor hesabına maliyyələşdirməmişəm. Öz halal maaşımdan, təqaüdümdən etdiyim qənaət hesabına demək olar ki, ildə bir kitabım işıq üzü görür. Bütün bu proseslərin hamısı zəhmət, vaxt və vəsait tələb edir.

- Şirməmməd müəllim, neçə ildir BDU-da pedaqoq kimi çalışırsınız?

- 1954-cü ildən bu günə qədər.

- Tələbələriniz sizdən həmişə dərin rəğbət və ehtiramla danışır...

- Bu, sizin fikrinizdir. Mən bu barədə bir söz deyə bilmərəm. Ancaq bildiyim odur ki, dərsimə gecikən deyiləm – bu bir. Hazırlıqsız əsla auditoriyaya girmərəm – bu da iki.

Baxmayaraq ki, eyni sahədə çalışdığım əlli səkkiz ildən artıqdı, hətta bütöv auditoriyaya deyil, ikicə nəfərə belə dərsim olsa, yenə də sabahkı dərsə irəlicədən hazırlaşıram.

Bununla belə, yenə də iddia edə bilmərəm ki, tələbələrim məndən razıdı, ya narazıdı... öyrənirlər, ya öyrənmirlər. Bilirsiz, tələbəni mühazirə nə qədər öyrədirsə, bir o qədər də əsər öyrədir. Gərək nə yazmısansa, qoyasan tələbənin qarşısına, o da oxuya. Müəllim özü nümunə olmaqla tələbəsini tərbiyələndirə bilər, sözlə bu mümkün olan şey deyil.

- Neçə övlad böyütmüsünüz?

- İki qızım var. Fərəh və Lalə. Bizim şəcərədə ümumiyyətlə, elmə, təhsilə maraq həmişə üstün olub. Böyük qızım Fərəh Əliyeva (həyat yoldaşının soyadını daşıyır) sənətşünaslıq elmləri doktoru, Bakı Musiqi Akademiyasının professoru,

Mədəniyyət və Turizm Nazirliyində incəsənət şöbəsinin müdiridi.

Qızlarım Bülbül adına musiqi məktəbində oxuyublar... Dörd-beş yaşları olanda apardım ikisini də bəstəkar Süleyman Ələsgərovun yanına (Allah ona rəhmət elə-sin), musiqi qavrama qabiliyyətlərini yoxlatdırdım. Süleyman Ələsgərov hər iki qızımın musiqi duyumundan razı qaldı.

Çalıb oxumaq üçün, oynamaq üçün yox, musiqişünaslıq elmi ilə, musiqi tarixi-mizlə məşğul olmaq üçün uşaqlarımı musiqi sahəsinə yönəltdim...

O biri qızım Lalə Hüseynova (bu qızım mənim soyadımı daşıyır) da sənətşünaslıq elmləri üzrə fəlsəfə doktorudu, dosentdi. Bəstəkarlar İttifaqının məsul katibi işləməklə bərabər, həm konservatoriyada çalışır, həm də Heydər Əliyev adına liseydə mədəniyyət tarixindən dərs deyir.

Həyat yoldaşım Ülkər Hüseynova "Elm və həyat" jurnalında redaktorun müavinidir. Bizim dördümüzün – mənim, yoldaşımın və iki övladımızın son on ildə 24 kitabımız çıxıb. 13 kitab mənimdi, 4-ü yoldaşımındı. Yeri gəlmişkən, Lütfi Zadə haqqında Azərbaycan dilində ilk kitabın müəllifi Ülkər xanımdı. 132 nömrəli məktəbin tarixinə həsr edilmiş kitabı da Ülkər xanım hazırlayıb...

Dörd nəvəm var: iki oğlan, iki qız. Dördü də ali təhsil alıb, magistratura bitirib. Ən kiçik nəvəmin 23 yaşı var: Nilufər Rəhimova. Bu saat Yaponiyada məşhur Kioto Universitetində əczaçılıq üzrə magistratura təhsili alır. Onun Yaponiyadakı elmi rəhbəri ötən il Nobel mükafatı aldı. Nilufər ingilis, yapon, fransız, türk, rus dillərini sərbəst bilir. Elmi rəhbəri deyir ki, mən dünyada azərbaycanlılar kimi istedadlı millət görməmişəm, biz yaponlar cəmi iki dil bilirik – yapon dili, bir də ingilis dili, amma azərbaycanlılardan hansı gəlirsə, ən azı beş dil bilir. Təvazökarlıqdan kənar olmasın, nəvələrim hamısı zəhmətkeşdilər, gecəni gündüzə qatıb oxuyublar. İlk nəvəm Əhəd Əliyev Amerikada təhsil alıb. İngiliscə təmiz bilir. Əhədin qardaşı Toğrul Əliyev isə stomatoloqdu. O da təcrübəni Türkiyədə keçib. Oğlanlar Fərəhin uşaqlarıdı, qızlar Lalənin.

Nilufərin böyük bacısı Leyla Rəhimova Heydər Əliyev Fondunda işləyir. İngilis dilini, incəsənət sahəsini çox gözəl bilir. O da həm Bülbül adına məktəbi, həm də konservatotiyanı bitirib.

- 34 il əvvəlki tələbəniz kimi yenə də sizi dinləyirəm.

- Nəinki yazanda, hətta danışanda belə ehtiyatımızı əldən buraxmamalıyıq. Düşmən bəzən öz sözümüzü silaha çevirib bizi vura bilər. Gəncliyi elə ruhda yetişdirməliyik ki, intellektual səviyyəsi, davranışı, dünyagörüşü, dil bilmək qabiliyyəti və digər məziyyətləri ilə millətimizi hər yerdə təmsil edə bilsin.

Hazırladı: Ellada UMUDLU

"Azərbaycan müəllimi" qəzeti, 9 noyabr 2012-ci il

Şirməmməd Hüseynov:

"Keçmişin kölgəsindən çıxmaq lazımdır"

QƏZET ÖZ DÖVRÜ BARƏDƏ DANIŞMALIDIR

XXI əsrin düşüncə tərzi formalaşmalıdır. Lakin süni sürətləndirməyə də yol vermək olmaz.

Pedaqoq, professor, mətbuat tədqiqatçısı Şirməmməd Hüseynov ölkədə mətbuatla ictimaiyyətin münasibətini, eləcə də mətbuatın hazırkı durumunu bü cür şərh etdi: "Azərbaycanda ictimai rəy istənilən səviyyədə deyil. Mətbuat informasiyanı cəmiyyətə ötürsə də, əksər halda oxucu ona münasibət bildirməkdən boyun qaçırır". Az qala bütün ömrünü Bakı Dövlət Universitetində tələbələrə jurnalistikanın sirlərini öyrədən ustad oxucudan da, tələbələrindən də daha çox şey gözləyir.

- Hazırkı durum sizi qane edirmi? Mətbuatımızın ictimai-siyasi proseslərə təsir gücünü, geosiyasi məsələlərdə rolunu necə dəyərləndirirsiniz?

- Bəşəriyyət informasiya cəmiyyətində yaşayır. XXI əsrdə istehsalat prosesi dəyişib. Bizim jurnalistikada isə hələ də sovet dövrü baxışı hökm sürür. Keçmişin kölgəsindən çıxmaq lazımdır. Azərbaycanda qələmi, savadı ilə tanınan və məktəbi olan jurnalist tapmaq çox çətin işdir. Tarixi öyrənəndə, adətən mətbuata müraciət edirlər, yəni qəzet elə olmalıdır ki, 50 ildən sonra da oxunanda dövrü barədə dəqiq "danışsın". Çünki tarixçilərdən fərqli olaraq jurnalistlər bu günün tarixini yazırlar.

- Cavabınızdan belə başa düşmək olar ki, jurnalistikamızın bugünkü nəsli həmin tarixi yaxşı yaza bilmir...

- İstəsə də yaza bilməyəcək. Niyə? Səbəbini deyim. Təsəvvür edin, adam nə "Quran"ı, nə ərəb dilini, təbii ki, nə də mövzunu bilir, amma gedib Qafqazın şeyxindən müsahibə alır. Başqa sahələrdə də, həmçinin. Yəni, milli jurnalistikamızda bu gün təsadüfi adamlar o qədərdir ki, az-çox bu sahə üzrə təhsili olanları kölgədə qoyub, görünməz ediblər. Belə olmaz. Mən təəssüf edirəm ki, Azərbaycan jurnalistləri xarici ölkələrdəki qaynar nöqtələrdən birbaşa xəbər vermirlər, Bakıda oturub məlumatları tərcümə etməklə məşğuldurlar. Niyə jurnalistika fakültəsinin tələbələri, məsələn, "Nyu-York Tayms", "Vaşinqton Post" və bu kimi qəzet redaksiyalarında təcrübə keçməsinlər?

- Bəlkə, problem bizdə sırf jurnalistika məktəbinin olmamasındadır?

- Xeyr, xarici ölkələrdə də jurnalisti ali məktəb hazırlamır. Həmin şəxs bu sahəyə başqa bir peşəyə yiyələndikdən sonra gəlir. Jurnalist olmaq istəyənlər bir neçə dilə yiyələnməli, tarixi bilməli, dünyada baş verən prosesləri düzgün təhlil etməyi bacarmalıdırlar. Xaricdə elmi-texniki jurnalistlər yetişdirildiyi halda, biz humanitar sahə jurnalistləri hazırlayırıq. 10 ali məktəbimizdə jurnalistika fakültəsi var, ancaq heç birində studiya tapmazsan. Ciddi narahatlıq doğuran digər bir məqam isə tələbələrin əksəriyyətinin fakültəyə arzusu, istəyi ilə yox, sadəcə, test balı imkan verdiyindən qəbul olunmasıdır.

- Çıxış yolu, sizcə, nə ola bilər?

- Real vəziyyət daim nəzarətdə saxlanılmalı, müzakirələr aparılmalıdır. Jurnalistlər Birliyi, Təhsil Nazirliyi respublikada jurnalist kadrlarının hazırlığının vəziyyətini müzakirə etməyi çoxdan unudb. Yaddaşım məni aldatmırsa, jurnalist kadrlarının hazırlanması və təkmilləşdirilməsi məsələsi sonuncu dəfə təxminən 40 il əvvəl, 1975-ci ildə müzakirə olunub.

- İllərdir jurnalist kadrlar yetişdirirsiniz. Bir müəllim kimi tələbələrinizə tövsiyələriniz...

- Mətbuatımız, ilk növbədə bu millətə xas olan məsələlərə diqqət yetirməli, doğruluğu, işgüzarlığı, neqativ hallara qarşı ciddi mübarizəni ön plana çəkməli, insanlarımızda XXI əsrin düşüncə tərzini formalaşdırmağa çalışmalıdır. Bu istiqamətdə müəyyən işlər görülsə də, temp hiss olunmur. Lakin süni sürətləndirməyə də yol vermək olmaz. KİV-in əsas vəzifəsi nədir? Hər şeydən öncə özünü millətə tanıtmaq – kimdir, məqsədi nədir, hardan gəlib, hara getmək istəyir. Müstəqil dövlətimiz var, onun müstəqil düşüncə tərzinə malik vətəndaşının yetişməsində, insanlarımızın siyasi mədəniyyətinin formalaşmasında mətbuatın üzərinə olduqca məsul vəzifə düşür. Siyasi mədəniyyət olmadan müstəqil vətəndaş yetişə bilməz. Müstəqilliyimizi əbədiləşdirmək üçün müstəqil vətəndaş tərbiyəsi vacibdir ki, bu işi jurnalistlər də görməlidir!

Yaqut TAPDIQQIZI
"New BakuPost" qəzeti,
№ 1(1), 6.04.2012-ci il

DÖVRÜMÜZÜN ZƏRDABİSİ

1971-1976-cı illərdə jurnalistika fakültəsində oxuyanların bəxti gətirmişdi. O vaxtlar fakültədə dərs deyən heç bir müəllimin tələbələrdən umacağı ola bilməzdi. Şirməmməd müəllim elə birinci kursdan bütün tələbələrə tapşırmışdı ki, əgər eşidəm-biləm ki, müəllimlər sizin qiymətinizi nahaqdan kəsib, mənə deyin. Heç nədən qorxmayın.

Bir dəfə isə kursumuzun qızlarını yığıb bizə dedi: «Bütün imtahanlar fakültədə keçiriləcək. Əgər hər hansı bir müəllim sizi imtahan götürmək bəhanəsilə başqa bir ünvana çağırsa, mənə məlumat verin. Mənim də iki qızım var. Qızlara daha çox diqqət yetirmək, onları həmişə qorumaq lazımdır» (Bu barədə tələbə yoldaşım, tanınmış jurnalist Vəsilə Usubova vaxtilə «525-ci qəzet»də ətraflı yazıb). Elə o vaxtdan Şirməmməd Hüseynovu qeyrətli və namuslu bir insan kimi tanıdıq. Şirməmməd müəllim kimi tələbələrin hüququnu qoruyan ikinci bir müəllim, dekan tanımıram. O vaxtdan 45 ilə yaxın bir dövr keçib. Bu illər ərzində onu dəyişməz, eyni zamanda haqq, ədalət uğrunda mücadilə aparan gördüm. Hələ indiyədək onun tapşırıqla qiymət yazdığını və kimisə tapşırdığını eşitməmişəm. Ş.Hüseynov ömrü boyu özünün «qızıl» qanunları ilə yaşayan insandır.

Doğrusu, tələbəlikdən qorxu xofu var idi hamımızın canında. Elə ki, deyirdilər Şirməmməd müəllim gəlir, tez özümüzü yığışdırırdıq. Özünəməxsus xarakterə malik – ciddi, bəzən də sərt, qaraqabaq, sözü üzə deməyi bacaran Şirməmməd müəllim mühazirəyə başlayanda dönüb tamam başqa adam olurdu. Mühazirələri o qədər maraqlı deyirdi ki, auditoriyada saatlarla ona qulaq asmaq istəyirdik. Dünya mətbuatı, jurnalistlərin fəaliyyəti ilə bağlı qeyri-adi faktlar onun mühazirələrinin əsas mahiyyətini təşkil edirdi. Şirməmməd müəllim planetimizdə baş verən hadisələr, siyasi məsələlərdən də yan keçmirdi. SSRİ-nin tərkibində olan Azərbaycanın o vaxtkı durumu ilə bağlı söylədiyi cəsarətli fikirləri biz tələbələri düşünməyə vadar edirdi. Onun mühazirələrinin sorağı bütün respublikaya yayılmışdı. Elə ona görə də Şirməmməd müəllimin mühazirələrində auditoriyada yad adamları görəndə təəccüblənmirdik. Biliklərə yiyələnmək istəyən tələbələrin arxa-dayağı idi. O vaxtlar mən xəyalımda axtardığım haqq və ədalət təmsilçisini Şirməmməd müəllimin timsalında tapdım.

Yaxşı yadımdadır, ikinci kursda ədəbiyyat imtahanında mənə M.Ə.Sabirlə bağlı sual düşmüşdü. M.Ə.Sabirin 1958-ci ildə nəşr olunmuş kitabından xoşuma

gələn bir şeiri əzbər dedim və təhlil etdim. Təsadüfən həmin kitabı özümlə imtahana da gətirmişdim. Müəllim dedi ki, M.Ə.Sabirin belə bir şeiri yoxdur. Mən sübut üçün kitabın yanımda olduğunu bildirdim. O, isə mənə qulaq asmaq belə istəmədi. Qiymət kitabçama "4" yazdı. Əvvəlki imtahanlardan əla qiymət aldığımdan bu, mənə çox pis təsir elədi. Kitabı götürüb Şirməmməd müəllimin yanına getdim. Hadisəni olduğu kimi danışdım və şeiri göstərdim. Şirməmməd müəllim dərhal müəllimi çağırtdırdı. Mənə isə narahat olmamağı tövsiyə etdi. Onların söhbəti xeyli çəkdi. Ədəbiyyat müəllimi dekanın kabinetindən çox pərt halda çıxdı və məni sərt baxışlarla süzdü. Növbəti semestrdə həmin müəllimi fakültəmizdə görmədik.

Şirməmməd müəllim təkcə tələbələrinin haqqını müdafiə etməyib, eyni zamanda bütöv bir xalqın haqqı uğrunda qələm çalan ziyalılardandır. O, istiqlal tariximizin çox görkəmli araşdırıcısıdır. Milli dirçəliş, xalqımızın azadlığı uğrunda mücadilə aparan Həsən bəy Zərdabi, Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Mirzəbala Məmmədzadə, Üzeyir Hacıbəyli, Nəsib bəy Yusifbəyli kimi görkəmli şəxsiyyətlərin irsinin öyrənilməsi sahəsində çox böyük işlər görüb. Şirməmməd müəllim bu yaşında xalqımızın keçdiyi şanlı istiqlal yoluna işıq salmışdır. Şərqdə ilk müstəqil Azərbaycan Demokratik Respublikasının yaradıcısı olan Məhəmməd Əmin Rəsulzadənin bütün fəaliyyətini araşdırmış, onun xalq, vətən üçün gördüyü işləri bugünkü oxucuya çatdırmışdır. Canından da artıq sevdiyi Vətənindən uzaq salınmış M.Ə.Rəsulzadənin «insanlara hürriyyət, millətlərə istiqlal» şüarı onun həyatının mənasına çevrilmişdir. Vətən həsrətilə yaşasa da, nə vaxtsa Azərbaycanın istiqlala qovuşacağına əmin idi. 1953-cü ilin mayın 28-də «Azadlıq» radiosuna verdiyi müsahibədə hamını əmin edir ki, Azərbaycan istiqlala qovuşacaqdır. Onun 1918-ci ildə, Azərbaycan Demokratik Respublikasını yaradarkən, çox uzaqgörənliklə dediyi «Bir kərə yüksələn bayraq, bir daha enməz» sözləri özünü doğrultdu.

M.Ə.Rəsulzadənin məqalələrini oxuduqca Şirməmməd müəllimin Xalq Cümhuriyyətinin yaradıcısına olan hörmət və ehtiramının səbəbini anladım. M.Ə.Rəsulzadə xalqın taleyini hər şeydən üstün tutub, yaratdığı dövlətdə, Milli Şuranın sədri olsa da, maaş almayıb, ancaq «Azərbaycan» qəzetindən aldığı qonorar hesabına yaşayıb. Tariximizi, ədəbiyyatımızı mükəmməl bilib, publisist, naşir, həm də görkəmli siyasi xadim olub. Rəsulzadə azəri türklərinin bu torpağın ən qədim sakinləri olduğunu tutarlı faktlarla sübut edəndə, biz onu tarixçi kimi, böyük Nizamidən, M.F.Axundzadədən, «Çağdaş Azərbaycan ədəbiyyatından» yazanda isə ədəbiyyatşünas kimi tanıyırıq.

Şirməmməd müəllim bu dahi insanın əsərlərini toplamış və kitab halında (5 cild) nəşr etdirmişdi. Bu cildlərə M.Rəsulzadənin yüzlərlə məqaləsi toplanıb. Həmin məqalələrin hər biri müxtəlif məsələlərə həsr olunmuş və ürəkyanğısı ilə yazılmışdır. Şirməmməd müəllim Məhəmməd Əmin Rəsulzadə başda olmaqla, Demokratik Respublika yaradanları çox fədakar insanlar kimi dəyərləndirir.

Azərbaycanın müstəqilliyi uğrunda son nəfəsinədək vuruşan Məhəmməd Əmin Rəsulzadənin məqalə və çıxışlarını min bir zəhmətlə toplayıb nəşr etdirməyi özünün mənəvi borcu hesab edən Şirməmməd müəllimi böyük mücahid Məmməd Əminlə yaxınlaşdıran ümumi cəhətlər çoxdur. Əqidə bütövlüyü, vətənin müstəqilliyini hər şeydən üstün tutması, bütün məsələlərə ədalətlə yanaşmasıdır. Şirməmməd müəllim illərlə adı yasaq olunan azadlıq mücahidlərinin məqalələrini toplayıb, oxucuların ixtiyarına verməklə, onların da haqlarını özlərinə qaytarmış oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin M.Ə.Rəsulzadənin anadan olmasının 130 illiyinin qeyd olunması ilə bağlı verdiyi Sərəncam xalqımızın bu böyük oğluna olan hörmət və ehtiramın əlamətidir.

Hər cür təmtəraqdan uzaq, sadə və mənalı həyat tərzi sürən Şirməmməd müəllim gününü arxivlərdə keçirmiş, mətbuat tarixini ardıcıl araşdırmışdı. Bu araşdırmalar onun 5 cildlik «Məhəmməd Əmin Rəsulzadə. Əsərləri», «Müstəqilliyin çətin yolu... biz hara gedirik», «Haqq və ədalət axtarışında», «Mənəvi irsimiz və gerçəklik», «Ü.Hacıbəylinin nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri» və sair əsərlərində öz əksini tapıb.

Hazırda Şirməmməd müəllim Xalq Cümhuriyyətinin parlamentində 23 ay müddətində deputatların etdiyi çıxışları nəşrə hazırlayır. Gördüyü işin aliliyini bildiyinə görə, bu işdən xüsusi zövq alır.

Şirməmməd müəllimin ömür-gün yoldaşı Ülkər xanımla işlədiyim «Elm və həyat» jurnalında tanış olmuşam. Ülkər Hüseynova da yüksək intellektə malik ziyalı bir xanımdır. Tanınmış jurnalist, professional tərcüməçi olan Ülkər xanım 50 ildir ki, «Elm və həyat» jurnalında şöbə müdiri, redaktor vəzifələrində çalışıb. Təşəbbüskarlığı, dünyagörüşü və elmi biliklərə dərindən yiyələnməsi ilə fərqlənir. Azərbaycanda elmi jurnalistikanı yaradanlardan biri olmaqla yanaşı, bir neçə kitabın müəllifidir. Hazırda Nizami adına Ədəbiyyat İnstitutunun Elmi nəşrlər şöbəsində çalışır.

Artıq uzun illərdir ki, bir-birimizin uğurlarına birgə sevinir, çətin günlərin kədərini birgə bölüşürük. Şirməmməd müəllimin gördüyü işlərdən hamıdan qabaq xəbər tuturuq. Mən indi də Şirməmməd müəllimi görəndə özümü tələbə kimi hiss edirəm. Ülkər xanım Şirməmməd müəllimin qayğısını böyük məmnunluqla çəkir. Onun bu yaşda gümrah və sağlam olmasında Ülkər xanımın çox böyük rolu var. Şirməmməd müəllimlə Ülkər xanımın övladları - Fərəh xanım və Lalə xanım bu ailənin layiqli davamçılarıdırlar. Fərəh xanım Əliyeva sənətşünaslıq doktoru, professor, eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektorudur. Digər qızı Lalə xanım isə Bəstəkarlar İttifaqının məsul katibidir. Sənətşünaslıq üzrə fəlsəfə doktorudur. Şirməmməd müəllimin 4 nəvəsindən ikisi elm yolunu seçib. Nilufər Yaponiyada, Toğrul isə Türkiyədə təhsillərini davam etdirirlər. Uzun illərin müşahidəsi mənə haqq verir deyəm ki, Hüseynovlar ailəsinin özülü halallıqdan yoğrulub. Yəqin ki, bu ailə estafetini nəvələr davam etdirəcəklər. Çünki onun başında Şirməmməd müəllim kimi müdrik bir ata və baba dayanır.

1954-cü ildə Türkiyədə M.Ə.Rəsulzadənin 70 illik yubileyi keçirilərkən Krım tatarlarının məşhur ziyalısı Seyid Cəfər Krımərin M.Ə.Rəsulzadəyə yazdığı məktubunda deyilir: «Bir gün həyatınızı yazacaq bəxtli bir türk gənci, yaxud da şəxsiyyətinizi canlandıracaq bir türk sənətkarı ömrünüzün hər dövrünü qavrayıb anladıqca «nə şərəflidir mənə ki, bu yaşamağa dəyər səhifələri canlandırıram» – deyə sevinəcəkdir. Bunların əsərlərini oxuyan və ya seyr edənlər də Sizi daima sonsuz məhəbbət, hörmət və zəhmətlə anacaqlardır».

S.C.Krımərin böyük uzaqgörənliklə dediyi sözlərini dövrümüzün Həsən bəy Zərdabisi olan professor Şirməmməd Hüseynov reallaşdırdı. Şirməmməd müəllim M.Ə.Rəsulzadənin əsərlərinin üçüncü cildinin ön sözündə yazır ki, artıq 20 ildən çoxdur ki, sifarişsiz və təmənnasız bu böyük millət fədaisinin əsərlərini araşdırmaq, toplamaq və nəşr etdirməklə məşğulam. Biz də öz növbəmizdə deyirik: Yorulmayasınız Şirməmməd müəllim, hamımız Sizi sağlam, gümrah və 100 yaşında görmək arzusundayıq.

Mehparə AXUNDOVA,
AJB-nin üzvü
"525-ci qəzet", 5 dekabr 2014

ŞİRMƏMMƏD HÜSEYNOV RƏSULZADƏ HAQQINDA 4-CÜ KİTABI ÇAP ETDİRDİ

Qocaman jurnalist, professor Şirməmməd Hüseynovun Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin 4-cü cildini çapdan çıxarıb. İndi də 5-ci cildi üzərində işləyir. "Qanun" nəşriyyatında çap olunan bu kitab 500 nüsxədir.

Qeyd edək ki, Şirməmməd Hüseynov 1992-ci ildə Rəsulzadənin əsərlərinin 1-ci cildini (1903-1909), 2001-ci ildə 2-ci cildini (1909-1914) çap etdirib. 3-cü cilddə Rəsulzadənin 1914-1915-ci illərdə "İqbal", "Yeni İqbal", "Açıq söz" qəzetləri və "Qurtuluş" məcmuələrində dərc olunmuş 200-ə yaxın əsəri çap olunub.

İlk üç cildi öz təqaüdü hesabına dərc edən professora bu dəfə "Qanun" nəşriyyatı da kömək edib.

"Azadlıq" qəzeti, 31.01.2013



MİLLİ DƏYƏRƏ ÇEVRİLMİŞ BÖYÜK ZİYALI

Milli mətbuatımızın fədakar tədqiqatçısı, görkəmli publisist, peşəkar jurnalist təhsilinin təşkilatçılarından biri, uzun illər Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı, kafedra müdiri, fəxri professoru vəzifələrində işləmiş Şirməmməd Hüseynov jurnalistlərin bir neçə nəslinin sevimli müəllimi, parlaq örnəyi və qürur mənbəyi olmuşdur.

Ölkəmizdə yeni media siyasəti ilə bağlı ciddi debatların getdiyi hazırkı dönəmdə mətbuatımızın inkişafında danılmaz izlər qoymuş professor Şirməmməd Hüseynovun zəngin elmi və pedaqoji irsindən, şəxsi məziyyətlərindən söz açmağa ehtiyac hiss olunur. Böyük ustada dərin hörmət və ehtiramımızı ifadə edən bu qeydlər də məhz bu məramla yazılmışdır.

Əvvəla qeyd etmək lazımdır ki, Bakı Dövlət Universitetinin auditoriyalarında Şirməmməd müəllimin olduqca maraqlı mühazirələrini dinləmək səadəti mənə nəsib olmuşdur. Zərrə qədər mübaliğəyə yol vermədən deməliyəm ki, onun dərslərinə diqqət kəsilən zaman professorun özünəməxsus fikir və düşüncələrinə hər birimiz heyran qalardıq.

Professorun dilindən səslənən hər sözünün, arzu və diləyinin yalnız bir məramı vardı. O, nə deyirdisə, nə edirdisə, yalnız millətinin halal haqqını, şərəfini qorumaq naminə edirdi. Əqidəsi, şəxsi kredosu bəlli idi. O, Azərbaycanı layiq olduğu ucalıqda görməyi arzulayırdı!

Heç kimə sirr deyil ki, Şirməmməd müəllim tələbələrin nəzərində haqqın, ədalətin ayaqda qalması, nahaqqın qarşısında yenilməməsi üçün əlindən gələni etmişdir. Dekan işlədiyi illər ərzində onun tələbələrin yaxın dostu olması, "əzazil" müəllimlərdən zəhləsi getməsi, onları görən gözünün olmaması barədə az qala əfsanələr dolaşırdı.

Tələbə sayına görə kifayət qədər "yığcam" sayılan jurnalistika fakültəsi Şirməmməd müəllimin sayəsində o illərdə yenilikçi ruhun, halallığın, səmimi tələbə-müəllim dostluğunun nümunəsi sayılırdı və hətta universitetin digər fakültələrinin tələbələri tərəfindən qibtə ilə qarşılanırdı. Dekan fakültənin hörmətini, sanbalını daim yüksəltməyə çalışır və buna həqiqətən nail ola bilirdi. Professor Hüseynov bu fakültənin haqlı olaraq brendinə, ləyaqət rəmzinə çevrilmişdi.

Şirməmməd müəllim uzun onillər boyu milli mətbuatımızın tədqiqatı ilə məşğul olub. Hətta ömrünün ahıl yaşlarında belə bu işi böyük həvəslə davam etdirməsi ətrafdakıların dərin rəğbətinə səbəb olurdu. Bu məsələdə onu Qulam Məmmədli kimi görkəmli tədqiqatçı ilə müqayisə edirlər.

Professor Şirməmməd Hüseynov tariximizin unudulmaz illəri olan Azərbaycan

Xalq Cümhuriyyəti dönəmində görkəmli publisist, yazıçı və ictimai xadimlərin zəngin həyat və yaradıcılıq irsini toplayaraq cild-cild kitablar hazırlamış və onları sonrakı nəsillərə miras qoymuşdur. Onun milli mücadilə tariximizdə xüsusi yeri olan Məhəmməd Əmin Rəsulzadə barədə tədqiqatları böyük elmi dəyərə malikdir və parlaq fədakarlıq nümunəsidir.

Fikrimcə, Şirməmməd müəllimin ən böyük stixiyası parlaq mühazirələr oxuması idi. Kaş siz onun universitet auditoriyalarında XX əsrin əvvəllərində neft Bakısında cərəyan edən kəskin sinfi, dini və milli mücadilədə millət mücahidlərindən necə qürur hissi ilə söz açdığını eşidib-görəydiniz. Bu zaman o, böyük həvəslə özəl fikir və düşüncələrini tələbələrlə bölüşür və nəsillər arasında qırılmaz "körpü" saldığının fərqinə vararaq bundan zövq alırdı.

O, böyük Mirzə Fətəli Axundovlara, Həsən bəy Zərdabilərə, Cəlil Məmmədquluzadələrə, Üzeyir bəy Hacıbəyovlara, Məhəmməd Əmin Rəsulzadələrə, Əli bəy Hüseynzadələrə, Əhməd bəy Ağayevlərə və başqa bu düha və mütəfəkkirlərə sahib olan xalqının yenidən milli istiqlalına qovuşaraq öz gələcəyini sərbəst quracağına sonsuz inam bəsləyirdi. Fikrimcə, professorun gücü, qüvvəsi, cəsarət və prinsipiallığı məhz bu inamdan qaynaqlanırdı.

1970-ci illərdə dahi siyasətçi Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycanda əhali arasında milli ruh, azad düşüncə və milli təəssübkeşlik hissi digər müsəlman respublikaları ilə müqayisədə daha yüksək idi. Bu əhvali-ruhiyyə Şirməmməd müəllimin yaxın çevrəsində, bütövlükə Bakı Dövlət Universitetinin müəllim və tələbələri arasında xüsusilə güclü idi.

Şirməmməd Hüseynov təkcə Azərbaycanda deyil, hətta keçmiş İttifaq miqyasında da jurnalistikanın dərin bilicilərindən, korifeylərindən biri sayılırdı. Bir vaxtlar aspiranturasında əyani təhsil aldığı və burada elmi işini böyük uğurla müdafiə etdiyi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində onun adını dərin hörmətlə çəkir, elmi məqalələrinə istinad etməyi özlərinə borc bilirdilər.

Yadımdadır, 1977-ci ilin fevralında tədris ilinin ikinci semestrinin yenicə başladığı günlərin birində professor Ş.Hüseynov bu dünya şöhrətli təhsil ocağının jurnalistika fakültəsinin auditoriyasında "Beynəlxalq fəhlə və kommunist mətbuatının inkişaf tendensiyaları" mövzusunda məruzə ilə çıxış edirdi. Fakültənin tələbələri ilə yanaşı, demək olar ki, bütün müəllim-professor heyəti də "bakılı professoru" dinləməyə gəlmişdi.

Həmin gün mühazirə zamanı Şirməmməd müəllimin dilindən səslənən orijinal fikir və təkliflər "əyalətlərdə pedaqoqların elmi səviyyəsinin nisbətən aşağı olması" ilə bağlı kluarlarda gəzən söz-söhbətləri sadəcə alt-üst etmişdi. Mən o zaman təhsilimi artıq MDU-da davam etdirirdim. Cəmi bir il əvvəl Bakıda mənə dərs deyən sevimli müəllimimin MDU-da necə böyük nüfuz sahibi olduğunun şahidi olanda, təbii ki, sonsuz qürur hissi keçirirdim.

1982-ci il noyabr ayının əvvəllərində Moskva Dövlət Universitetində dissertant kimi imtahan verirdim. Həmin günlərdə Leonid İliç Brejnev vəfat etmiş və Yuri Vladimiroviç Andropov yenicə Sov.İKP Mərkəzi Komitəsinin Baş katibi seçilmişdi. Siyasi Büronun yeni baş katibin sədrliyi ilə keçirilən ilk iclasında dahi siyasətçi Heydər Əliyevin bu ali qurumun həqiqi üzvü seçilməsi barədə xəbər ildırım sürəti ilə bütün ölkəyə və dünyaya yayılmışdı.

Səhərisi gün fakültəyə gələndə "Partiya mətbuatı tarixi" kafedrasının müdiri pro-

fessor Dastyuk məni görüb hörmətlə yanına çağırdı, əyləşməyimi təklif edib dedi ki, dünən hörmətli Heydər Əliyevin büro üzvü seçilməsi ilə əlaqədar xəbəri eşidən kimi Bakıya zəng edərək, dostu, professor Şirməmməd Hüseynovu təbrik edib və ondan bu yüksək təyinatın bütün ölkə üçün çox faydalı olacağı barədə cavab eşidəndə çox sevinib.

Həqiqətən, cəmi bir neçə aydan sonra "ayıq-sayıq" paytaxt sakinləri Kremldə axşam saat 18-dən sonra yalnız Heydər Əliyevin kabinetində işıq yandığını açıq şəkildə söyləyir və onun ölkəni bürüməkdə olan böhrandan çıxarmaq üçün tükənməz enerji ilə çalışdığını dilə gətirirdilər. Təəssüf ki, dahi siyasətçinin parlaq şəxsiyyəti Kremlin özündə bir çoxlarında qısqanclıq hissi doğururdu.

Prezident İlham Əliyev 2013-cü il noyabrın 23-də "Jurnalistlərin dostu" mükafatının təqdim edilməsi mərasimindəki çıxışında həmin tədbirdə iştirak edən professor Şirməmməd Hüseynova müraciətlə demişdir: "...Azərbaycan xalqı xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə yüksək qiymət verir". Dövlətimizin başçısı professorun Azərbaycan Televiziyasındakı siyasi icmalçı kimi çıxışlarını xatırladığını bildirmiş, onun bu sahədəki fəaliyyətini yüksək dəyərləndirmişdir.

Yeri gəlmişkən, hörmətli professorun dövlətimiz və xalqımız qarşısındakı böyük xidmətləri hələ sağlığında layiqincə dəyərləndirilmişdir. O, ölkəmizdəki bir çox nüfuzlu mükafatlara, o cümlədən Yusif Məmmədəliyev (1992-ci il) və Məhəmməd Əmin Rəsulzadə adına mükafatlara (1998-ci il) layiq görülmüşdür. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şərəf" ordeni ilə təltif olunmuşdur.

Şirməmməd müəllim xalqının sevincinə sevinən, qəminə, kədərinə həssaslıq göstərən əsl ziyalı, vətənpərvər bir insan idi. İlk baxışda bəzən sərt, ciddi təsir bağışlasa da, əslində, çox sadə, ünsiyyətcil idi. O, hər kəsə, xüsusilə keçmiş tələbələrinə qarşı çox mehriban və əlçatan idi. Hörmətli müəllimimizin həyat və siyasət, xalqımızın gələcəyi ilə bağlı söhbətlərini, öyüd və nəsihətlərini dinləmək insana böyük zövq verirdi.

Həyatda iki böyük arzusu vardı. Birinci arzusu Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin canlı şahidi olmaq idi. Uca Tanrı bu xoşbəxtliyi sevimli müəllimimizə nəsib etdi. Professorun ikinci böyük arzusu erməni işğalı altında olan Dağlıq Qarabağı azad görmək idi. Təəssüf ki, 44 günlük Vətən savaşında xalqımızın möhtəşəm Qələbəsini görməyi ömür ona vəfa etmədi.

Burada bir məqamı da qeyd etməyi vacib sayıram. O da budur ki, Şirməmməd müəllim sivil, demokratik, eyni zamanda, böyük hərbi və "yumşaq güc"ə sahib olan Türkiyənin liderliyi ilə bütün türk xalqlarının birlikdə bəşəriyyətə yeni, daha yüksək sivilizasiya bəxş edəcəyinə bütün qəlbi ilə inanırdı və bunu çox arzulayırdı. Onun bu arzusu da çin olmaqdadır.

Professor Şirməmməd Hüseynov milli mətbuatımızın ağır və şərəfli yükünü öz çiyinlərində şərəflə çəkənlərə, özünün təbirincə desək "bu yolda can qoyan böyük kişilərə" heç bir siyasi konyukturadan çəkinmədən onların layiq olduqları dəyəri hər zaman verməyi bacaran əsl ziyalı idi. Bu gün artıq o, özü qədirbilən xalqının milli dəyərinə çevrilmişdir.

Məsaim ABDULLAYEV
"Xalq qəzeti", Əməkdar mədəniyyət işçisi
25 aprel 2021-ci il

TARİXİN İBRƏT SƏHİFƏLƏRİ

Torpaq xalqın namusu, qeyrətidir. Kim başqasının torpağına göz dikirsə, müxtəlif hiylə və bəhanələrlə ona sahib olmaq istəhasına düşürsə, çox böyük cinayət və xətaya yol verir. Tarixi təcrübə bu həqiqəti dəfələrlə sübut etsə də, yenə də bu təhlükəli əməldən əl çəkməyənlər var, yəqin ki, gələcəkdə də olacaqdır. Uzağa getməyək: neçə əsrlərdir ki, erməni kilsəsi əvvəl "Ermənistan", sonra "Böyük Ermənistan" yaratmaq işinə başçılıq edir, bu xülyanı həyata keçirmək üçün maddi və mənəvi hazırlıq işləri görür. Beş əsrdən çoxdur ki, 25 yaşına çatmış hər bir erməni ildə "millət vergisi" verməyə məcbur edilir. Bir əsrdən çoxdur ki, erməni millətçilərinin Daşnaksütun Partiyası dünya ermənilərini "Böyük Ermənistan" uğrunda səlib yürüşünə səsləyir. XX əsr tarixinə bələd olanlar keçən müddət ərzində ermənilərin Qafqaz, Türkiyə və İran torpaqlarında nə oyunlardan çıxdıqlarını, yəqin ki, xatırlayırlar. Erməni millətçilərinin üzdəniraq "plan"larında Azərbaycana xüsusi yer ayrılır. Azərbaycanı parçalamaq, onun ata-baba torpaqlarını tutmaq, əhalisini məhv etmək üçün təkcə XX əsrdə dörd böyük cəhd edilmişdir. Axırıncısı Dağlıq Qarabağda və Ermənistanda baş vermiş və davam etməkdə olan faciədir. Sual oluna bilər ki, nə üçün məhz Azərbaycan bu cür hədəfə çevrilmişdir. Soruşula bilər ki, bəs biz bu təcavüzə son qoymaq üçün nə etməliyik? Keçən əsrin əvvəllərində Azərbaycan torpaqlarını tutmağa, əhalisini qırmağa cəhd edən qəddar, hiyləgər, məkrli, təcavüzkar erməni millətçilərinin hücumunu dəf etmək üçün "nə etməliyik" sualına əli qələm tutan qeyrətli kişilərimiz necə cavab vermişlər; Təxminən 100 il bundan əvvəl ermənilərin Azərbaycanı istila planını bizə çox dəqiq agah edənlərin tövsiyələrindən bir nəticə çıxara bilmişikmi? Artıq İrəvan və Qarabağ əldən gedib. Bu baxımdan Ömər Faiq Nemanzadənin "İrşad" qəzetinin 1906-cı il, 4 avqust tarixli 183-cü sayında "Bir cavan" imzası ilə çap olunmuş "Nə etməliyik?" məqaləsi diqqəti cəlb edir.

NƏ ETMƏLİYİK?

Bir xeyli zamandır ki, ermənilərin Naxçıvan, İrəvan, Qarabağ mahallarında qurduqları duzax və tələlər, polis və qoşun əli ilə gördükləri işlər öylə bilirdik məhəlli xırda vəqələr ilə qurtarıb keçəcəkdir. Öylə güman ediyorduq ki, erməni-müsəlman toqquşması yalnız hökumət müftinlərinin və onlara aldanan avam cəmaətin çıxartdıqları müvəqqəti bir faciədir. Öylə sanırdıq ki, iki qədim qonşu arasına buraxılan bu dəhşətli və xanimansuz od siyasi inqilaba Qafqazda bir sədd çəkmək üçün yalnız hökuməti-müstəbidə qulluqçuları tərəfindən meydana çıxarılan gəlib-keçici bir mərəz və bəladır. Məgər nə qədər aldanmışıq. Məgər nə mərtəbədə qafil və bəsirətsiz olmuşuq! Məgər nə dərəcədə bifəhv və safdil olmuşuq ki, ermənilərin İrəvan və Qarabağ səmtlərində hər cür hazırlaşmaqlarını görə-görə, hər cürə fitnə və fəsadlarını hiss edə-edə hər növxainanu hərəkətlərini qana-qana özümüzü lazımi yolda müdafiə etməyi yadımıza belə gətirmədik.

Bəli, yadımıza belə gətirmədik ki, ermənilər çox-çox əvvəl, gecə-gündüz, kişiarvad hazırladıqları qanlı faciələri bizim oğul-uşaqlarımızın başında oynayacaqlar, hazırladıqları hədsiz-hesabsız bombaların hamısını bizim başımızda partladacaqlar.

Güman etməzdik ki, rus generalları bizim sədaqət və itaətimizin əvəzində ermənilər ilə bir olub bizi bu dərəcə dəni vasitələr ilə qıracaqlar.

Bu inanmaqlığımız, bu sadədilliyimiz səbəbilə idi ki, böyüyümüz, kiçiyimiz, yazıçımız, müxbirimiz... bir sözlə, cümləmiz qonşu ermənilər ilə yenə qədim sayaq üzrə, sülhanə rəftar edib rahat və arxayın olmağı vəz və bəyan ediyorduq. Və bu surətlə millətimizin gözünü qəfilanə bağlayıb böyük bir təhlükə və uçuruma sarı hazırlayırıq ki, o təhlükənin əvvəlinci zərbəsini Qarabağ vüquatı çox açıq meydana çıxartdı. İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq.

İndi lazımdır ki, ermənilərin niyyət və tədbirlərini kəmal ilə bilib, ona görə özümüzü mühafizə eyləyək.

Burasını heç vaxt yaddan çıxartmayaq ki, ermənilər hər nə cür olsa özləri üçün mütləq bir "Ermənistan" vücudə gətirmək niyyət qəbisindədirlər. Və bu niyyətlərini hüsula gətirmək üçün də mütləq bizi İrəvan, Qarabağ və Kars səmtlərindən çıxartmaq məcburiyyətindədirlər. Bilməliyik ki, ermənilər bu niyyətlərinə çatmaq üçün hər cür fədakarlığı gözə almışlar. Müsəlmanları həyəcana gətirib öz üstlərinə hücum etdirəcəklər, özləri bilə-bilə qırılacaqlardır, sonra durub Yevropaya öz məzlumiyyətlərini ağlayacaqlardır. Yavaş-yavaş öz qəsdlərinə planlar, yollar hazırlayacaqlardır. Öz gücləri ilə bacara bilmədliklərini, bu uğurda cəm etdikləri milyon-milyon pulların, rüşvətlərin zoru ilə rus məmurlarına gördürəcəkdirlər. Kars, Naxçıvan, İrəvan və Qarabağ səmtlərində həmişə öz niyyətlərinin hüsuluna çalışacaqlardır. Heç bir an bizi zəif və zəlil etməkdən geri durmayacaqlardır. Gah fürsəti qənimət bilib beşikdəki uşaqlarımızı doğrayacaqlardır, gah işlərinin məsləhəti üçün alçaqcasına yalvarıb barışacaqlardır. Amma bilməli ki, bu barışıq gələcəkdəki xainanə rəftarlarına pərdə çəkmək üçün qurulan tülkü duzağıdır. İndiyə qədər havaxt ki, ermənilər müsəlmanları sülhə dəvətə can və dil ilə gəliblər, həmişə deyirdim ki, bir neçə gün sonra davaya hazır olmalı və həqiqətdə də sülhü mütəaqib həmişə davayı gözləmişik. Burasını yaxşı bilməliyik ki, ermənilər ilə nə cür hüsn rəftar və hətta qardaşlıq belə etsəm, onlar öz siyasi qəsdlərindən əl çəkməyəcəklərdir. Həmişə çalışacaqlardır ki, bizi bir fənd və hiylə ilə yuxladıb, inandırıb, altdan öz işlərini, tədarüklərini görsünlər.

Ermənilər, Ermənistan dağlarında özlərinə məxsus əsgəri yol qayırmağı çoxdan fikir ediyordular. Lakin rusların qorxusundan böylə bir işə bir bəhanə və dəstəvuz tapa bilmirdilər. Amma indi erməni-müsəlman davası və yolların kəsilməsi onların əllərində gözəl bəhanə oldu. Rus məmurlarının əqilləri də ki, şükür Allaha bir toyuq qədər yox...

Bəli, ermənilər indi ruslar ilə bir olub bizi İrəvan, Qarabağ səmtlərindən zəiflətdikdən sonra gələcəkdəki fürsətə intizar edib, Rusiyanın inqilab və zəfini gözləyəcəklər. Və birinci fürsətdə Rusiyadan qabaqca "avtonomiya" istəyib, yavaş-yavaş özlərinə "Ermənistan" hazırlayacqlar.

Ermənilərin osmanlıdan çoxdan əlləri çıxdı. Ümidləri qaldı Qafqaza və İrana. İran da həm də olsun tez-gec oyanıb vətənin namusunu mühafizə edəcəkdir. Tək qalır ermənilər üçün Qafqaz. Budur ki, burada gecə-gündüz min hiylə və fənd ilə çalışacaqlar ki, müsəlmanları öz ticari davaları ilə, rus tüfəngləri ilə zəiflədib zamanın fürsətini gözləsinlər.

İşin həqiqəti ap-aşkar belədir, ermənilər bizimlə məhz siyasi niyyətləri üçün davaya məcburdurlar. Yoxsa, bizimlə həmişəliyə heç vaxt düşmən deyildirlər. Hakəza müsəlmanlar da ermənilər ilə heç vaxt düşmən deyildirlər ki, bu neçə qanlı davalara nihayət verilməsin. Nədən ötrü Şəki, Şamaxı, Zaqatala, Batum, Axalsitdəki müsəlman və ermənilər bir-birləri ilə qardaşca yola gediyorlar? Ondan ötrü ki, orada ermənilərin siyasi qəsdləri yox, orada müsəlmanları davaya məcbur etmiyorlar.

Halbuki, İrəvan və Qarabağda iş belə deyildir. Buralarda həmişə düşmənçilik, həmişə qətl və qarət ermənilərin ən birinci planıdır.

İndi burasını qəti surətdə biləndən sonra bizə lazımdır ki, düşmənin qabağına düşmən kimi çıxaq. Öz hüququmuzu mühafizə etmək üçün lazımdır. Bəlkə fərzdir ki, "daşnaksütun" kimi qüvvətli milli bir cəmiyyət təşkil edib, xain qonşularımıza öz hədlərini tanıdaq. Hər yerdə müntəzəm və gözətçi cəmiyyətimiz olmalıdır. Bunun üçün şəkili, şamaxılı, bakılı, qarabağlı, dağıstanlı, bilməm haralı deməyib cümləmiz bir vücud kimi müttəhid iş görməliyiz.

Ey bu gün biqəm və bihiss yatan üzvlərimiz! Siz zənn edirmisiniz ki, ermənilər sabah qüvvətli bir Ermənistan təşkil etdikdən sonra sizləri yerinizdə rahat qoyacaqlar. Xəyal edirmisiniz ki, bihəm bir millətə fürsət verdikdən sonra rahat və arxayın oturacaqsınız! Xeyr, xeyr, yatacaq zamanı deyildir. Bu gün ermənilərin niyyətləri və bizim safdilliyimiz məlum olduqdan sonra bilicilərimizə, başçılarımıza, fərzdir ki, bir saat rahat olmayıb, gələcək üçün çalışalar. Bizə bu halda hər bir partiyadan artıq qüvvətli bir milli partiya lazımdır. Qoy içimizdə sosialist də, fedoralist də, kommunist də olsun. Amma bu gün hamısından artıq hüquqi-milləti müdafiə edən qüvvətli milli bir partiya lazımdır.

Mən elə bilirəm ki, sosial-demokratlıq məzlumluq haqqını mühafizəyə çalışmaqdır. Bu halda ermənilərin siyasi niyyətlərinə, məhz milli istiqlallarına qurban olan bunca məzlum müsəlmanların köməyinə çatmaq, zalımların əllərindən xilas etmək ən birinci insaniyyətpərəstlikdir, ən gözəl demokratlıqdır. Bu saətdə bizə əcələ lazım olan milli bir cəmiyyətdir. Digər cəmiyyətlərimiz də, əlbəttə, öz qaidələrində əmələ gəlib davam edər. Qəlbi zəiflik, yalançı insanlıq, bixəbəranə sosial demokratlıq vaxtı deyil. Ən əvvəl, bu gün odlar içində yanan, zərurətdə can verən yaxın qardaşlarımızın ah və fəryadlarına çatmalıyıq. Bu gün insanlıq və sosializmin əmr etdiyi vəzifə budur. Yoxsa yumşaq kürsülərin üstündə oturub, insanlıqdan dəm vurmaq, yalnız iki şahı mənfəətdən ötrü ittihad edib sosial demokrat olmaq, mənfəətpərəstlikdən özgə bir zad deyildir.

Xülasə, keçmiş və indiki vuquatdan ibrət alıb, mətin qəlbli, durbin nəzərli, salim fikirli zilqurba – hamisi olmalıyıq. Hər şeydən əvvəl öz milli mənfəətimizi nəzərə alıb, əcələ bir cəmiyyəti – ittihad təşkil etməliyik.

Bir cəvan (Ömər Faiq NEMANZADƏ)
"İşad" qəzeti, № 183, 4 avqust 1906.

Təqdim edəni:
Şirməmməd HÜSEYNOV
"Elm və həyat", № 1-2, 2003

YAXŞINI GÖRMƏK BACARIĞI

Şirməmməd Hüseynov: **"Bu gün qəzetlərin əksəriyyəti kommersiya xarakterlidir, ona görə də maarifçiliyə, dürüstlüyə, dövlətçiliyə, həqiqətə xidmət edən qəzetə ehtiyac böyükdür"**

Şirməmməd Hüseynov: **"Ölkəmizdə inkişafın müsbət meyillərini görmək lazımdır, yaxşını görmək pisi görməkdən çətindir"**

Pedaqoq, professor, mətbuat tədqiqatçısı Şirməmməd Hüseynov bugünkü mətbuatı cəmiyyətə bənzədir. Ömrünü Bakı Dövlət Universitetinin yetişən jurnalist nəsli arasmda keçirən qocaman tədqiqatçı ölkədə mövcud jurnalist məktəbindən o qədər də razı deyil. "New Baku Post"a müsahibəsində belə deyib:

- "New Baku Post" qəzetinin işıq üzü görməsindən 1 il ötür. Son 1 ildə Azərbaycan mətbuatında hansı dəyişikliklər var?

- Azərbaycan mətbuatında müsbət və mənfi axtarmaq çətin əhvalatdır. Çünki cəmiyyət necədirsə, mətbuat da elədir. Mətbuatın xarakteri cəmiyyətin xarakterinə bənzəyir.

Azərbaycanda 1 il ərzində iqtisadi, beynəlxalq nüfuz qazanmaq cəhətdən böyük işlər görülüb. Bilirsiniz ki, Avropada, dünyanın bir çox ölkələrində iqtisadi böhran var. Amma bizdə iqtisadi, mədəni inkişaf tempi yüksəkdir. Bu hamımızı sevindirir. Mətbuatın bu işdə rolu az deyil. Cəmiyyətdə hansı siyasi qüvvələr varsa, onların da mətbuatı var. Bunların da respublikada cərəyan edən hadisələrə münasibəti müxtəlifdir. Bu, demokratiyanın tələbidir.

Bizim üçiin əsas məsələ budur ki, müstəqil dövlətimiz var, bu dövlət yaşayır, inkişaf edir, beynəlxalq nüfuzu artır, hətta 193 dövlət içərisində BMT-nin Təhlükəsizlik Şurasına müəyyən müddətdə başçılıq edir. Bununla fəxr eləmək lazımdır.

Vaxtilə Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Azərbaycanın çox böyük keçmişi var". İndi biz deyə bilərik ki, bu böyük keçmişlə parlaq gələcək arasındakı keçid dövründə çətinliklərin olması təbiidir. Amma bilmək lazımdır ki, bu millətin həm də parlaq gələcəyi var. İndi o gələcəyi görmək və reallaşdırmaq məsələsi var.

Hesab edirəm ki, jurnalistlərin, mətbuatın, hər birimizin əsas məqsədi və qayəsi o parlaq gələcəyi yaxınlaşdırmaqdır.

- İnternet jurnalistikasının məkanı genişləndikcə qəzet jurnalistikası haqqında bədbin fikirlər çoxalır. Reallığı necə qiymətləndirirsiniz? Fikirlər təsdiqini tapır, yoxsa yox?

- Dünyanın ən yüksək inkişaf etmiş ölkəsi Yaponiyadır. Ginnesin Rekordlar kitabına düşən, dünyanın ən çox tirajlı qəzeti də Yaponiyanın "İamori sinbun" qəzetidir. Tirajı 14 milyondur. 5 milyonu səhər, 5 milyonu günorta, 4 milyonu axşam çıxır. İnternet və elektron mətbuat qəzeti sıxışdırır məsələsi düzgün yanaşma deyil.

Avropanın ən inkişaf etmiş ölkələrində, əhalisi bizdən 2 dəfə az olan yerlərdə gündəlik qəzetlər 100 000 tirajla çıxır. Amma bizdə ən çox tirajlı qəzet "New Baku Post" qəzetidir ki, 20 000 tirajla çıxır. Sizin qəzet respublika mətbuatı içərisində birinciliyi əldə saxlayıb. Bu təsadüfdür?

"New Baku Post" qəzeti analoqu olmayan mətbuat orqanıdır. İllüstrasiyalı, rəngli qəzet satılmır və oxuculara pulsuz paylanılır. Azərbaycanda belə bir təsisçi və jurnalist kollektivi varsa, bu təqdirəlayiqdir.

Bu gün qəzetlərin əksəriyyəti kommersiya xarakterlidir, ona görə də maarifçiliyə, dürüstlüyə, dövlətçiliyə, həqiqətə xidmət edən qəzetə ehtiyac böyükdür.

- Azərbaycan jurnalist məktəbi sizi qane edirmi?

- Biz hamımız, yaşlı jurnalistlər sovet məktəbi keçmişik. Nə qədər çalışsaq da, sözün geniş mənasında demokratik mətbuata, dünyagörüşünə keçmək işi o qədər də asan deyıl. Ona görə də müstəqillik dövrü öz jurnalistikasını yetişdirməlidir. Bu 10 ilin, 50 ilin işi deyil. Bunu başa düşmək lazımdır. Gələcəyin jurnalistikası indidən yetişdirilməlidir.

XX əsrin əvvəllərində Azərbaycanda bir ali məktəb belə yox idi. Amma jurnalistika ilə məşğul olanların savadı yüksək idi. Həsən bəy Zərdabi Moskva universitetini bitirmişdi. Məhəmməd ağa Şahtaxtinski Almaniyada Leypsiq universitetini bitirmişdi. Hərəsi 6-7 dil bilirdi. Əhməd bəy Ağayev Parisin Sarbonna universitetində təhsil almışdı və 9 dil bilirdi. Ən əsası yazmağı bilirdilər. Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyov, Əlimərdan bəy Topçubaşov dünya səviyyəsində olan insanlar idi.

XX əsrin əvvəllərində yazarlar, publisistlər Şərq mədəniyyətini, islam mədəniyyətini bilirdilər, sonra Avropanı öyrənirdilər. İndiki ziyalılar, jurnalistlər Şərq jurnalistika tarixini, fəlsəfəsini, mədəniyyətini bilmirlər, Qərbə də hələ sözün həqiqi mənasında yiyələnməyiblər. Bu məsələlərə fikir vermək lazımdır.

4-cü hakimiyyət özündən əvvəlki 3 hakimiyyət üzərində nəzarətçidir və günün tələbini yazandır, ictimai fəaliyyəti həyata keçirəndir. Nöqsanları görmək üçün mətbuat nümayəndəsinin dünyagörüşü, savadı olmalıdır.

- Arxada qoyduğumuz il ictimai-siyasi proseslərlə dolu olsa da, qarşıda daha əhəmiyyətli, vacib hadisələr, kampaniyalar bizi gözləyir. Onların işıqlandırılmasında daha çox nəyi vacib sayıb, diqqəti artırmaq lazımdır?

- Jurnalistlərin tarixçilərlə ortaq vəzifələri də var. Tarixçilər 10 illiklərin, 100 illiklərin tarixini yazır. Jurnalistlər hər günün tarixini. Ölkəmizdə inkişafın müsbət meyillərini görmək lazımdır, yaxşını görmək pisi görməkdən çətindir.

Təmiz, gözəl paltarın içərisində qara ləkəni görmək asandır. Mən arzu edirəm ki, mətbuat yaxşını görsün. İlk növbədə yaxşını təbliğ etməyi bacarsın. Nöqsanları da tənqid etsin ki, onlar da aradan qalxsın. Jurnalistlər bu məsləkə qulluq etməlidir.

- "New Baku Post" qəzetinin 1 illik fəaliyyətini necə qiymətləndirirsiniz?

- Bu gün "New Baku Post"un 1 yaşı tamam olur. Düz 107 il əvvəl aprelin 7-si "Molla Nəsrəddin" jurnalı işıq üzü görüb. 130 il əvvəl aprelin 10-u Baxçasarayda "Tərcüman" qəzetinin ilk sayı çap olunub. Yəni 1 yaşlı qəzetə 107, 130 ildən sonra veriləcək qiyməti qəzet kollektivi indidən fikirləşməlidir. Elə qəzet çıxartmaq lazımdır ki, o bizim tariximizlə ayaqlaşsın.

Tariximizi öyrənənlərə yardım eləsin.

"New Baku Post"un 10-15-20 illiyi qeyd olunsun, mətbuatda layiqli yer tutsun. İnanıram olacaq. "New Baku Post"a istedadlı, qabiliyyətli, vətənini sevən, qeyrətli insanlar toplaşıb. 75 nömrə çıxıb. 1 yaşında olduğundan ondan çox şeyi tələb etmək də olmaz. Yaşayarıq görərik!

Yaqut TAPDIQQIZI
"New BakuPost" qəzeti,
№ 24(76), 06.04.2013

"PREZİDENTLƏ GÖRÜŞMƏK HƏR ADAMA NƏSİB OLMUR"

Bakı Dövlət Universitetinin Prezident təqaüdçüsü, əməkdar müəllim Şirməmməd Hüseynovla söhbət

- Şirməmməd müəllim, çox sağ olun ki, dəvətimizi qəbul edib redaksiyamıza gəldiniz.

- Mən vaxtilə "Azərbaycan müəllimi" qezetində şöbə müdiri, həm də jurnalistika şöbəsində tələbəsi olduğum universitetin "Lenin tərbiyəsi uğrunda" qəzetində redaktor müavini işləmişəm. Baxın, redaksiyanızdan mənə verilən vəsiqəni hələ də saxlayıram.

- İnşallah, 2014-cü ildə qəzetimizin 80, sizin də 90 illik yubileyinizdir. Ötən illəri necə xatırlayırsınız?

- Mən 1924-cü il dekabrın 17-də Şəkidə anadan olmuşam. Üç yaşım hələ tamam olmamış atam dünyasını dəyişib. Üç qardaş, üç bacı anamızın himayəsində böyümüşük.

- Orta məktəbdə necə oxumusunuz?

- Məktəbdə fərqlənən şagirdlərdən sayılırdım. Keçirilən respublika olimpiadalarında həmişə müvəffəqiyyət qazanardım. Məktəbimizin, müəllimlərimin başını uca edərdim.

1940-cı ilin yayında on beş müttəfiq respublikadan olimpiadalarda yer tutmuş əlaçı şagirdləri seçib Soçiyə dincəlməyə göndərmişdilər. Olimpiadada fəxri yer tutduğuma görə respublikamızdan Soçiyə göndərilmiş beş nəfər azərbaycanlı şagirdin biri mən idim. O günlərin yadigarı olan şəkli bu gün də dəyərli xatirə kimi qoruyub saxlayıram.

- Şirməmməd müəllim, təhsillə bağlı demək olar ki, əksər təhsil ocağında birinci buraxılış olmusunuz. Bunlar alın yazısıdı, yoxsa...?

- Hər yerdə birinci buraxılış məzunu olmağımı özüm hətta bilərəkdən istəsəydim belə, birinci olmaq tarixlərini bu cür ardıcıllıqla düzə bilməzdim.

- Birinci buraxılışı olduğunuz təhsil ocaqları?

- Şəki şəhəri, Mirzə Fətəli Axundov adına 2 nömrəli orta məktəbi on altı yaşımda əla qiymətlərlə başa vurmuşam. Məktəbin birinci buraxılış məzunlarındanam.

1941-1943-cü illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxudum. Bu məktəbin də birinci buraxılış məzunlarından oldum.

1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin nəzdindəki jurnalistika şöbəsində təhsil aldım, universiteti fərqlənmə diplomu ilə bitirdim. Yenə də birinci buraxılış.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsi 1952-ci ildə yaradılıb. 25 iyun 1954-cü ildə həmin fakültənin Elmi Şurasında namizədlik dissertasiyasını birinci müdafiə edən mənəm.

- Şirməmməd müəllim, sizi Rəsulzadə irsinin ən böyük və ilk tədqiqatçısı kimi tanıyırıq. Bu günlərdə cənab Prezidentimiz Məhəmməd Əmin Rəsulzadə ilə bağlı sərəncam imzaladı. Daha sonra cənab Prezidentlə görüşdə siz də iştirak etdiniz. O görüş barədəki təəssüratlarınız?

- Orada etdiyim çıxışda mən öz fikrimi demişəm. Yəni ölkənin Prezidenti ilə görüşmək hər adama nəsib olmur. Prezidentin dediyi fikirlər həm də elə mənim fikirlərimdi. Yəni o, bu mövzuda hər şeyi dedi. Əlavə eləməyə bir kəlmə yoxdu. Özü də biz jurnalistlərin yazdığı qanun xarakteri, göstəriş xarakteri daşımır. Amma Prezidentin dediyi rəhbər göstərişidir, o icra olunmalıdır. Çox yüksək qiymətləndirdim. 65 ildir dövlət rəhbərlərinin, rəsmi adamların çıxışlarını eşidirəm. Əksəriyyəti şparqalkadan oxuyanlar olub. Qarşımızda yalnız Prezident şparqalkasız danışdı, qəlbində olanları, düşündüklərini söylədi. Buradakı jurnalistlərə, sözün həqiqi mənasında, Prezident dərs keçdi. Mən o görüşdə çıxış edəndə öz fikirlərimi Prezidentə dedim. "Biz camaat tərəqqisindən yazanlarıq. Bu işləri, Vətənin abadlığı işlərini kim həyata keçirir? Siz və Sizin başçılıq etdiyiniz iqtidar. Millət salamatlığını kim təmin edir? Siz və Sizin başçılıq etdiyiniz iqtidar. Camaat tərəqqisini kim həyata keçirir? Siz və Sizin başçılıq etdiyiniz iqtidar. Müstəqilliyimizin qarantı kimdir? Siz! Ona görə əgər Siz bu işləri görməsəniz biz jurnalistlər nə yazarıq? Bizim vəzifəmiz nə olar? Ona görə də Sizə "Jurnalistlərin dostu" adını vermək qanunidir, təbiidir, seçim düzdür. Sizi təbrik edirik".

Həmçinin, Prezident İlham Əliyevə Rəsulzadə ilə bağlı sərəncama görə də təşəkkürümü bildirdim: "Təşəkkürüm var Sizə. Mənim səksən doqquz yaşım var, gələn il 90 olacaqdır. Arzu edirəm mənim qədər yaşayasınız. Mən ömrümün böyük bir hissəsini Cümhuriyyət tarixini öyrənmək işinə sərf etmişəm. Çünki 110 il müstəmləkəçilik rejimindən sonra 1918-ci il mayın 28-də Azərbaycan öz müstəqilliyini elan etdi. Bu işin təşkilatçıları var idi. Srağagün Məhəmməd Əmin Rəsulzadə ilə bağlı sərəncam vermisiniz. Mən Məhəmməd Əmin Rəsulzadənin bütün irsini öyrənən, çap edən adamam. Dörd cildini buraxmışam. Beşincini hazırlayıram. Təxminən 15 min səhifə. Mən ərəb əlifbası ilə yazılmış 30-40 qəzetin səhifələrini axtarmşam, bunları toplamışam. Ürəyimdə deyirdim ki, bunları mən yazmışam və heç yana da müraciət edən deyiləm. Srağagün sərəncamınızı oxuyanda dedim ki, görəsən Prezident haradan bilirdi ki, mənim ürəyimdən bu keçirdi? Yazmırdım, demirdim. Amma qəzetdə yazılmışdı ki, Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illiyi tamam olur. Məhəmməd Əminlə mənim aramda cəmisi 40 yaş fərqi vardır".

Türk-islam aləmində ilk demokratik respublikanı Azərbaycan türkləri yaradıb. Bundan böyük nə ola bilər? Prezident dedi ki, bizim müstəqillik bayramlarımızın içərisində ən böyük bayramımız 28 maydır.

Tarix həmişə hər millətə müstəqillik yaratmaq şansını vermir. Bizə ikinci şans da verildi. Kim gəldi o ikinci şansda? Cənab Heydər Əliyev. Kim birinci şansı həyata keçirməyə müvəffəq olmuşdu – Məhəmməd Əmin Rəsulzadə. Bu şəxsiyyətlər özləri deməyiblər ki, mən dahiyəm, mən öndərəm, mən rəhbərəm. Xeyr! Xalq deyib. Türklər o millətdirlər ki, tarixdə 128 müstəqil dövlət yaradıblar. O dövlətin altısını Azərbaycan Türkləri yaradıblar. Azərbaycan Xalq Cümhuriyyəti tarixdə 114-cü Türk dövlətidir. Bunu türk tarixçiləri yazırlar.

- Şirməmməd müəllim, illər sizə yorğunluq gətiribmi?

- Hələ yorulmamışam. İndi də imkan düşdükcə arxivləri araşdırıb yeni mənbələr tapır, əski əlifbadan yeni əlifbaya köçürür, kompüterdən çıxartdırır, nüsxələdirəm... Sonra aparıram şərqşünashq fakültəsinə, göstərirəm ərəbşünaslara, farslara. Onlar da öz qeydlərini edirlər. Sovet dövründən üzü bəri öz halal maaşımdan, təqaüdümdən etdiyim qənaət hesabına demək olar ki, ildə bir kitabım işıq üzü görür.

- Şirməmməd müəllim, tələbələriniz hər zaman sizdən ağızdolusu danışırlar.

- Bu, sizin fikrinizdir. Ancaq bildiyim odur ki, dərsimə gecikən deyiləm – bu bir. Hazırlıqsız auditoriyaya girmərəm – bu da iki. Hətta bütöv auditoriyaya deyil, ikicə nəfərə belə dərsim olsa, yenə də irəlicədən dərsə hazırlaşıram. Bilirsiniz, müəllim özü nümunə olmaqla tələbəsini tərbiyələndirə bilər.

- Şirməmməd müəllim, neçə övladınız var?

- İki qızım var. Fərəh və Lalə. Böyük qızım Fərəh Əliyeva həyat yoldaşının soyadını daşıyır. Sənətşünaslıq doktoru, Bakı Musiqi Akademiyasının professorudur. Mədəniyyət və Turizm Nazirliyində incəsənət şöbəsinin müdiridi. O biri qızım Lalə Hüseynova (bu qızım mənim soyadımı daşıyır) da sənətşünaslıq namizədidi, dosentdi. Bəstəkarlar İttifaqının məsul katibi işləməklə bərabər, həm konservatoriyada, həm də Heydər Əliyev adına məktəbdə mədəniyyət tarixindən dərs deyir.

- Maraqlıdır, qızlarınızın heç biri jurnalistikaya meyl etməyib?

- Dörd-beş yaşları olanda apardım qızlarımı bəstəkar Süleyman Ələsgərovun yanına, musiqi qavrama qabiliyyətlərini yoxlatdırdım. Rəhmətlik Süleyman Ələsgərov hər iki qızımın musiqi duyumundan razı qaldı. Birincisi, onları musiqi sahəsinə ona görə qoydum ki, gördüm konservatoriyada Azərbaycan musiqişünaslığı ilə məşğul olanlar cuhudlardı... ermənilərdi, bir də ruslaşmış azərbaycanlılardı... nə dilimizi bilirlər, nə də musiqi mədəniyyətimizi. İkincisi, o sahədə nə oğurluq var, nə də rüşvətxorluq. Çalıb oxumaq üçün, oynamaq üçün yox, musiqişünaslıq elmi ilə, musiqi tariximizlə məşğul olmaq üçün qızlarımı musiqi sahəsinə yönəltdim... Qızlarımın ikisi də Bülbül adına musiqi məktəbini bitirib.

- Həyat yoldaşınız necə?

- Həyat yoldaşım Ülkər Hüseynova "Elm və həyat" jurnalında redaktorun müavinidir. Bizim dördümüzün – mənim, yoldaşımın və iki övladımızın son on ildə 25 kitabımız çıxıb. Yeri gəlmişkən, Lütfi Zadə haqqında Azərbaycan dilində ilk kitabın müəllifi Ülkər xanımdı. 132 nömrəli məktəbin tarixinə həsr edilmiş kitabı da Ülkər xanım hazırlayıb...

- Nəvələriniz də elm yolunu seçiblər?

- Mənim dörd nəvəm var: iki oğlan, iki qız. Dördü də ali təhsil alıb, dördü də magistratura bitirib. Ən kiçik nəvəmin 24 yaşı var: Nilufər Rəhimova. Oğlanlar Fərəhin uşaqlarıdı, qızlar Lalənin.

- Şirməmməd müəllim, diplom işi, imtahan, yoxsa kredit? Bəzi ali məktəblərdə saxta diplom işləri, saxta buraxılış işləri olur...

- Bilirsiniz, bu saat ali məktəblərimizin hansını götürsək orada həm diplom işi var, həm dövlət imtahanı var. Çünki jurnalistin qabiliyyəti onun yazısı ilə ortaya çıxmalıdır. Mən Təfəkkür Universitetində o vaxt kafedra müdiri olan-

da məsələ qaldırmışdılar ki, ya tələbə dövlət imtahanı verməlidi, ya da diplom işi müdafiə eləməlidir. Mən ali məktəb qanunvericiliyindən bunlara istiqamət verdim ki, tələbə həm diplom işini, həm də dövlət imtahanlarını verməlidir. Mənim özümün diplom işim sonra oldu dissertasiyam. Yəni diplom işi elmi iş üçün, tədqiqat işi üçün əsasdır, vacibdir. Əgər tələbə istedadlıdırsa, savadlıdırsa, elmi tədqiqat işinə meyillidirsə, ona diplom işi verilir. Dünyada da belədir. Tələbə ilə işləmək lazımdır, tələbəyə yazmağı, tədqiqatı, hadisələrə münasibəti öyrətmək lazımdır.

- *Əsl jurnalist kimlərə demək olar?*

- Jurnalist günün tarixini yazana deyirlər. Tarixçi isə illərin, onilliklərin tarixini yazır.

- *Təhsilimizin bugünkü vəziyyəti ilə bağlı nə fikirdəsiniz?*

- Bizim təhsilin ən böyük nöqsanı odur ki, biz tələbəyə informasiya veririk, düşünmək vərdişi vermirik. Biz deyirik oxumaq, oxumaq, yenə də oxumaq. Amma Amerikada deyirlər, düşünmək, düşünmək, yenə də düşünmək.

- *Bu yaxınlarda cənab Prezident təhsilin inkişafı ilə bağlı bir strategiya da qəbul elədi. Təhsil sistemilə bağlı yeni addımlar atılır. Siz bu təhsilin, elmin, jurnalistikanın zirvəsində duran adamlardan birisiniz. Münasibətinizi bilmək maraqlı olar.*

- Biz baxırıq demokratik ölkələrə. Müxtəlif sistemler var. Bolonya sistemi, Amerika sistemi, Yaponiya sistemi. Yaponlar ali məktəbdə jurnalist hazırlamırlar. Onların ali məktəblərində jurnalistika fakültəsi yoxdur. Onlar jurnalist hazırlayırlar ali təhsili olan, müxtəlif ixtisaslara yiyələnmiş mütəxəssislərdən. Bizdə jurnalistika nədir? Humanitar elm sahəsi. Amma dünyada ən aparıcı jurnalistika elmi-texniki jurnalistikadır. Hərbi jurnalistika var, ixtisaslaşmış jurnalistika var, beynəlxalq jurnalistika var. Amerikada bəs nə təhər jurnalist hazırlayırlar? Universitetin bütün fakültələrində 4-cü kursu qurtarmış, hüquqşünas, fizik, riyaziyyatçı, bioloq istedadı, bacarığı varsa jurnalistika ixtisasına qabiliyyət imtahanı verir. Tələbə bir redaksiyadan zəmanət məktubu da gətirir ki, onu jurnalistika fakültəsinin 1-ci kursuna qəbul etsinlər. İl yarım oxudurlar. Olur bioloq-jurnalist, hüquqşünas-jurnalist, fizik-jurnalist və s.

Əvvəlcə öyrənmək lazımdır. Bizim müəllim kadrlarımızın böyük bir qismi sovet məktəbini keçən müəllimlərdir. Kommunist, sosialist məktəbini keçən adamlardan indiki informasiya cəmiyyətinin müəllimi səviyyəsini tələb etmək baş tutan şey deyil. Çingiz Aytmatov bizim dostumuz idi, mənim də, Bəxtiyar Vahabzadənin də. Mən bir dəfə ona bu barədə sual verdim. Dedi bizim Avropaya, inkişaf etmiş ölkələr səviyyəsinə çatmağımız üçün ən azı 5-6 nəsil dəyişməlidir.

- *Şirməmməd müəllim, aldığınız əməkhaqqı sizi qane edibmi? Oz istədiyiniz kimi yaşaya bilmisinizmi?*

- Mənim gündəlik xərcim 6-7 manatdan artıq tutmur. İçən deyiləm, həddən artıq yeyən deyiləm. Papiros çəkən deyiləm. Səhər 9-da herkules sıyığı yeyirəm, saat 11-də də yağ, kəsmik, bir loxma da çörək, gündə üç stəkan adi su içirəm. Saat 3-4 arası nahar edirəm. Axşam da yüngül nəsə yeyirəm. Mənim həyat tərzim ailəmin də həyat tərzidir. Yoldaşımm 80 yaşı var. O da sağlamdır. Qızlarım da sağlamdılar. Evin böyüyü nəyi nümunə kimi göstərirsə, hamı o yol-

la gedir. Mən 7- dən sonra heç bir nemətə əlimi uzatmaram. Buna iradə lazımdır. İnsanın iradəsi, hərəkətlərini ölçüb-biçməsi, özünü idarə etməsi vacib bir şeydir. Mənim xərclədiyim pul elmi işimə daha çox sərf edilir. Bu il iki kitab buraxdırmışam. Biri Məhəmməd Əminin 4-cü cildidi, ikincisi də M.Ə.Rəsulzadənin "Bakı və Azərbaycan tarixinə (1918-1919-cu illər) kitabıdır.

Uzun illər işləyib 2-3 yerdən maaş almışam. Universitetdə həm dekan idim, həm kafedra müdiri, həm də partiya tarixi institutunda yarımştat işləyirdim. Leninin əsərlərinin 23, 24, 25, 26, 27, 28-ci cildlərinin redaktoru olmuşam. Hər ay oradan maaş alırdım. Televiziyada etdiyim çıxışlara görə universitetdən aldığım maaşdan çox oradan qonorar alırdım. Həftədə iki dəfə çıxış edirdim, ayda 1000-1200 manat qonorar alırdım. İndiki dövrdə Bakı Dövlət Universitetində işləyirəm. 2005-ci ildən ayda 1000 manat Prezident təqaüdü alıram. Heç vaxt zəhmətdən qorxmamışam.

- *Gələn il qəzetimizin 80 yaşını qeyd edəcəyik. Sizi də qəzetimizin yubiley tədbirində görmək istərdik.*

- Mən "Azərbaycan müəllimi"ndə 1948-50-ci illərdə işləmişəm. O dövrdə sizin qəzetdə işləyənlərdən bir adam qalıb? Deməli, əgər qalmayıbsa, qəzetinizin 80 illik yıbileyinə qalan bir adam lazımdı, ya yox? Təkcə qəzetin komplekti qalmır ki, adamlar da – canlı komplekt də lazımdır. Sizə bir tövsiyəm var: Qocalar ömürlərini yaşayıblar, işlərini görüblər, qocalara hörmət yaxşı şeydir. Amma gərək cavanları işləməyə həvəsləndirəsən, mükafatlar verəsən. Ən böyük hünər, cavanları işə cəlb edə bilməkdir. Qəzetinizə kim əla yazı yazırsa, ona mükafat vermək, həvəsləndirmək lazımdır.

- *İctimai nəqliyyatdan istifadə edirsiniz?*

- Universitetə avtobusla yox, taksiynən gəlib-gedirəm. Niyə? Çünki mən avtobusla getsəm, 1 saat ordan bura gəlmək, bir saat da qayıtmaq. Mən ömrümün iki saatını indi yola sərf eliyə bilmərəm. Yola sərf eləməyə bir saat bəsdir. O biri bir saatımı da işləyərəm. Ona görə də bu saat ən üstündə əsdiyim şey varsa, o da mənim vaxtımdır. Ən çox istədiyim odur ki, Məhəmməd Əminin 5-ci cildini çapdan çıxarda bilim. Yəni, o qədər ömür qalmayıb ki, onu hədər yerə sərf edim.

- *Haqqınızda yazılan məqalələrdən yadınızda daha çox hansı qalıb?*

- 3 yanvar 1992-ci ildə sizin qəzetdə məqalə çıxıb mənim haqqımda. "Ali məktəb müəllimlərimiz" rubrikasından "Cədvələ düşməyən dərs".

Mən həftədə bir dəfə cədvələ düşməyən dərs keçirdim, yığışırdıq, deyirdim kimin nə sualı varsa, bizim sənətimizlə əlaqədar, beynəlxalq vəziyyətlə əlaqədar – mənə desin. Bildiyimi cavab verəcəm. Bilmədiyimi də öyrənib deyəcəyəm. O sual-cavab dərsiydi. Təkcə fakültənin yox ey, bir də görürsən başqa fakültələrin tələbələri də gəlirdilər ki, Şirməmmod müəllimin "açıq dərs"i var – Cədvəldə olmayan dərs. Çünki elə şeylər var ki, onları proqramla tələbəyə demək olmaz. Gərək auditoriyada proqrama uyğun dərs keçəsən. Amma həftədə bir dəfə "açıq dərs"də proqram yoxdur. Təkcə proqramnan sinfə girmək hələ işin hamısı demək deyil.

- *Uzunömürlülüyün bir açarı varmı?*

- Bir hədis var: Deyir ki, insanların xeyirlisi uzun ömürlü və əməlisaleh adamlardır. Tələbə vaxtı dörd il Moskvada yaşadım, mənə bir qram belə araq

içirə bilmədilər. Nəfsinə hakim olasan gərək. Bu günə qədər bir udum belə siqaret çəkməmişəm. Əvvəla ömrü verən yaradandı. Amma Allah adama ağıl da, baş da verir də. Yəni insan yaşayış tərzini özü seçir. Ana babam 97 yaşında vəfat edib. Bizim nəslimiz çox yaşayandı, uzunömürlüdü. İnsanı yaşadan zəhmətdir, əməkdir, həm də fiziki əməkdi. Yəni hər bir canlı özü üçün yaşayış vəsaiti əldə etmək qabiliyyətinə malik olmalıdır. Müstəqil yaşaya bilmək vərdişi adamı zəhmətə alışdırır.

Dünyada ən dəhşətli şey yeməyə aludə olmaqdır. İnsanm ömrünü qısaldır. Çox yemək insanın başına fəlakətlər gətirir.

Bu gün gözüm yaxşı görür, qulağım yaxşı eşidir, beynim yaxşı işləyir, yaddaşım da yerindədir. Yarım saatdan artıq televizorun qarşısında oturmaram. Gözümü qoruyuram. Səsinə qulaq asıram. Hər gün ən azı 4000-5000 addım atıram. Axşam saat 11-dən o tərəfə oyaq qaldığım vaxt yadıma gəlmir. Səhər 7-də dururam. Kompüterlə məşğul olmuram. Heç mobil telefonu da yaxınlığıma qoymuram. Arxivə gedəndə yarım saat işləyirəm, 15 dəqiqə durub gəzirəm, dincəlirəm. Hər bir insan özü özünə rejim yaratmalıdır. Hər şeyin öz vaxtı olmalıdır. Gərək hərə öz həkimi ola. Hər gün qan təzyiqimi ölçürəm, nizama salıram. Xalq təbabətindən də istifadə edirəm. Mən heç vaxt maşın da sürməmişəm.

- Şirməmməd müəllim, bu gün Azərbaycanda demək olar ki, əksər jurnalistlər, qəzet nümayəndələri sizinlə görüşmək istəyirlər. Çox sağ olun ki, bizə böyük bir diqqət ayırdınız. Siz bizim dəvətimizi qəbul etdiniz, bu elə bizim redaksiyamıza, bütövlükdə təhsil sisteminə olan hörmətinizdir.

Ellada UMUDLU
"Azərbaycan müəllimi" qəzeti,
6 dekabr 2013-cü il

ŞİRMƏMMƏD HÜSEYNOV ZİRVƏSİ

Onun haqqında danışanda adının önündə çoxsaylı epitetlər qoymağa çalışırlar. "Böyük alim", "görkəmli tədqiqatçı", "jurnalistikamızın patriarxı", "jurnalistika elmimizin korifeyi", "qeyrətli vətəndaş", "fədakar insan", "mehriban ailə başçısı" və s. Beləcə, ildən-ilə pərəstişkarları onun kimliyini, şəxsiyyətini layiqincə xarakterizə edə biləcək daha nadir, daha bəlağətli, daha sanballı ifadələr axtarıb tapmağa və sanki bununla ona olan, lakin özünün iddiasında bulunmadığı bir mənəvi borcun öhdəsindən gəlməyə, əvəzini verməyə çalışırlar. Son günlərdə eşitdiyim "millətin mühəndisi", "müasir milli düşüncəmizin arxitektoru", "millətin müəllimi" kimi fəxri adlar da Şirməmməd Hüseynova xalq sevgisinin, ziyalı rəğbətinin, tələbə məhəbbətinin doğurduğu ən səmimi duyğulardan qaynaqlanır. Bəxtiyar Vahabzadə isə Şirməmməd Hüseynov haqqında ən səmimi duyğularını belə ifadə etmişdi:

Şirməmməd – əxlaqın, haqqın öz səsi
Ləyaqət, dəyanət mücəssəməsi!

Bəli, özünün ürək dostu, qəlb sirdaşı, vicdan və məslək qardaşı Şirməmməd Hüseynov haqqında bu heyrətamiz misraları poetik düşüncənin ən mükəmməl ifadə tərzində yalnız və yalnız dahi söz ustadımız Bəxtiyar Vahabzadə deyə bilərdi.

Çoxları onun haqqında çox dəyərli fikirlər söyləyir. Şirməmməd Hüseynova dahi kimi baxırlar, onun zəkasına həsəd aparırlar. Doğrudan da, bir insanın on minlərlə insanı bir peşənin vurğununa və fədaisinə çevirməyi bacarması böyük düha tələb edir. Bu gün jurnalist peşəsini özünün həyat tərzinə çevirmiş, özünü bütövlükdə bu peşəyə həsr etmiş, öz varlığını bu peşə fəaliyyətindən kənarda təsəvvür etməyən minlərlə tələbəsi bu dühanın cəmiyyətimizdəki görüntüləri, cəmiyyətin yoluna işıq saçan qığılcımlarıdır.

Ona "bənzəri olmayan natiq" də deyirlər. Həqiqətən, minlərlə insanın nəfəs dərmədən, zamanı hiss etmədən, yorulmadan, usanmadan qulaq asmağa hazır olduğu bir natiqə tarixdə çox nadir hallarda rast gəlinir. O əsl natiqdir. İnamlı duruşu ilə, ona qulaq kəsilənlərin gözlərinə zillənən iti baxışları ilə dediyi sözləri dinləyənlərin zehnlərinə birdəfəlik həkk etməyi bacaran bir natiq. Şirməmməd Hüseynov sadə bir natiq deyil. O bəzən söylədiyi fikirlərin arxasında gizlətdiyi ən vacib məna və mahiyyət çalarlarını dinləyicisinə səsinin ahəngi ilə, üzünün ifadəsi ilə asanlıqla anlatmaq kimi qeyri-adi bir məharətə sahib olan natiqdir. Elə bir natiq ki, söylədiyi hər bir cümlə, hər bir fikir, hər bir mülahizə təkzib

olunması mümkün olmayan bir aksiomdur.

Ona "fədakar araşdırmaçı" deyirlər. Çox tədqiqatçılar illərlə kitabxana rəflərində qalıb toz basmış ədəbiyyatla çalışmaqdan, indiyədək elmi dövriyyəyə çıxmamış bilgiləri öyrənib bu bilgilər əsasında yeni bir elmi əsər ortaya qoymaqdan zövq alır və haqlı olaraq bununla fəxr edirlər. Şirməmməd Hüseynov isə adi tədqiqatçı deyil. O sadəcə əsər yazmır, o milli düşüncəmizin keçmişində bu günümüzü və gələcəyimizi araşdırır. O dahi Mirzə Fətəlinin, Həsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Ömər Faiq Nemanzadənin, Məmməd Əmin Rəsulzadənin, Üzeyir bəyin bu günümüzə gəlib çatmış saralmış arxiv sənədlərinin hər sətrində bu millət fədailərinin düşüncələrini, arzu və istəklərini, sonsuz Vətən eşqini aşkar edir. Bütün bu bilgiləri öz qəlbinin genişliyindən, öz dərrakəsinin süzgəcindən və öz ruhunun vətənpərvərliyindən keçirib bu günümüzə gətirir və bizimkiləşdirir. O özünün elmi tapıntılarını yalnız alimlərin oxuyacağı elmi əsərə yox, aydın və məntiqli şərhləri ilə millətini sevən hər bir vətəndaşın həyat amalına və fəaliyyət proqramına çevirə bilir. Belə idrak, belə peşəkarlıq, millətin gələcəyi qarşısında belə bir məsuliyyət hissi və nəhayət, belə bir vətənsevərlik bütün tədqiqatçılara xas olan bir keyfiyyət deyil.

Doğmaları onu "mehriban ata", "qayğıkeş həyat yoldaşı", "məsuliyyətli ailə başçısı" adlandırırlar. Lakin o sadə bir ailə başçısı deyil. O, həm də həyatının hər gününü sevdiyi peşəni başqalarına sevdirməyə həsr edən, bilik və bacarığını əsirgəmədən bölüşən bir müəllimdir. Şirməmməd müəllim onu sevən on minlərlə tələbənin, bir ölkədə bir peşə fəaliyyətində çalışan bütün insanların mənəvi atasıdır. Onu prinsipial, mübariz, üsyankar kimi də sevirlər. Çünki o, gördüyü işin doğruluğuna inanan və həm də inandıran, fədakar və mübariz ruhlu siyasi-ictimai xadimdir. Adətən belə insanlar haqqında deyirlər ki, onlar özləri üçün yaşamır. Şirməmməd Hüseynov da bu qəbildən olan, lakin adi bir ictimai-siyasi xadim qəlbində olmayan bir şəxsiyyətdir. İçərisində bulunduğu cəmiyyətin çatışmazlıqlarına dözməyən və qəzəblənən, eyni zamanda yeri gəldikcə sözü və əməlləri ilə başqalarını qəzəbləndirən, heç bir təzyiq qarşısında, heç zaman, heç bir halda öz inamından dönməyən üsyankar birisinin evin kandarından içəridə – ailə ocağında mərhəmətli bir insana, güzəştli və sevimli bir ataya, qayğıkeş bir həyat yoldaşına çevrilməsi, doğrudan da inanılmaz bir iradə, qibtə olunacaq bir dözüm və nəhayət, nəcabət dəyərlərinə əsaslanan yüksək əxlaq tələb edir. Bu mənada Şirməmməd Hüseynovun ailə məhəbbəti, doğma ocaq sədaqəti əsrlərin təcrübəsindən yoğrulmuş milli əxlaq mərtəbəsinə yüksəlir və onun etalonunu özündə əks etdirir.

Milli fikir və milli inkişaf tariximizdə, milli istiqlal mücadiləmizdə və milli əxlaq xəzinəmizdə millət başını ucaldan, milli qürur gətirən, zaman-zaman fəth olunmuş şöhrət zirvələrimiz var. Bu zirvələrdə Nizami, Nəsimi, Mirzə Fətəli, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli kimi mütəfəkkirlərimiz dayanır. Öz həyatı, mübarizəsi, ictimai fikir cərəyanı ilə bu sırada qərarlaşan və öz varlığı ilə milli sərvət xəzinəmizi daha da zənginləşdirən şöhrət zirvələrimizdən biri də Şirməmməd Hüseynov zirvəsidir. Bu elə bir möhtəşəm zirvədir ki, bugünkü və gələcək ziyalı nəsillərimiz üçün belə bir yüksəkliyi bir daha fəth etmək ölümsüz görünür. Ona görə də bu zirvələrdə dayananlar ölümsüzlərdir.

Bütün bunlara baxmayaraq, Şirməmməd Hüseynov özü haqqında danışmağı xoşlamır. Jurnalistlər nə qədər çalışsalar da tərifdən və onun şəxsiyyətinə səmimi pərəstişdən xoşhal olduğunu sezmək, verəcəyi cavabların başında onun dilindən "mən" sözünü eşitmək mümkün deyil. Onun haqqında yazılmış çoxsaylı məqalələrdə, dəyərli ziyalılarımızın çıxışlarında "istiqlal aşiqi", "qeyrət simvolu", "haqq-ədalət çarçısı" adlandırılan bu böyük İnsanın ətrafında baş verən və onun şəxsiyyətinə sevgidən doğan pərəstiş həyəcanlarına reaksiyası təəccüb doğuracaq dərəcədə sadədir. Buradan da onun portretinə yeni bir cizgi, adının önünə isə yeni bir epitet yaranır – Təmənnasız İnsan. Şirməmməd Hüseynova "təmənna" anlayışı yaddır. O "təmənna" adlı hissiyyatdan çox uzaqlarda və çox yüksəklərdə dayanan bir İnsandır. Bugünkü ziyalılarımız arasında yaşından asılı olmayaraq elə bir insan tapmaq çətindir ki, nədə isə Şirməmməd Hüseynova oxşamaq arzusunu ürəyindən keçirməsin. Amma bir məsələdə nə bu sətirlərin müəllifi, nə də Şirməmməd Hüseynovu sevən on minlərlə insanlar nə qədər çalışsaq da ona oxşaya bilməyəcəyik. Bu da elə təmənna məsələsidir. Şirməmməd Hüseynovdan danışarkən, onun haqqında düşünürkən təmənnasız olmaq mümkün olmur. Təmənnamız isə ondan ibarətdir ki, ana Təbiət Şirməmməd Hüseynova uzun ömür, möhkəm cansağlığı bəxş etsin, bu böyük ustada hələ uzun illər yazıb-yaratmaq xoşbəxtliyi və ən müqəddəs arzularına qovuşmağı nəsib etsin.

Millətin şərəfini uca tutmağı özünün şərəf işi hesab edən, "Şərəf"li millət müəllimimiz Şirməmməd Hüseynova 90 illik yubileyi münasibətilə ən səmimi arzularla,

Cavanşir FEYZİYEV,
fəlsəfə doktoru, millət vəkili
"525-ci qəzet", 23 dekabr 2014-cü il

AÇIQ SÖZLÜ, HƏYAT NƏFƏSLİ MÜƏLLİM

Azərbaycan jurnalistlərinin ağsaqqalı, mətbuatımızın yorulmaz tədqiqatçısı, zəhmətkeşliyi ilə çoxlarına nümunə olan Şirməmməd müəllimin dekabrın 17-də 90 yaşı tamam olur.

Düzü, Şirməmməd müəllimlə uzun illər birgə işlədiyimdən onun haqqında söz demək mənim üçün nə qədər xoşdursa, bir o qədər də çətindir. Çətindir ona görə ki, haqqında çox deyilib, çox yazılıb. İndi gərək mən deyilənləri təkrarlamadan ustad müəllimin çoxlarına məlum olmayan digər keyfiyyətlərindən söz açam.

Qədim yunan filosofu Sokrat deyirdi ki, "dünyada hər şeyə qiymət qoymaq olar, lakin müəllimin əsərinə qiymət qoymaq olmaz". Bu deyimin doğruluğunu biz hamımız aydın hiss edirik. Ustad müəllimin, tədqiqatçı alimin yuxusuz gecələrinin bəhrəsi olan M.Ə.Rəsulzadə irsinin nəşri sözün həqiqi mənasında heç bir qiymətlə ölcülə bilməz.

Bu yazını başlayanda, Şirməmməd müəllimin dekan, mənimsə müavin olduğum günləri xatırladım.

... Əvvəla qeyd edim ki, Jurnalistika fakültəsində müəllim kimi fəaliyyətim Şirməmməd müəllimlə bağlıdır. Bir gün mənə dedi ki, kafedraya müəllim yeri almışam, al bu pulu və elanı taksi ilə get nəşriyyata (o vaxt fakültəmiz aşağı binada yerləşirdi) ver qəzetə. Elan dərc olunandan 3-4 gün sonra "Bakı" axşam qəzetinin əməkdaşı, Bakı Dövlət Universitetinin tədris işləri üzrə o vaxtkı prorektoru Əlövsət Abdullayevin qardaşı Şakir Abdullayev fakültəyə gəldi. O, Şirməmməd müəllimlə ikilikdə görüşəndən sonra mənə yaxınlaşıb "səni təbrik edirəm" dedi. Başa düşmədim o niyə məni təbrik edir. Sən demə, Şakir Abdullayev elanla bağlı gəlmişdi, sənəd vermək istəyirdi. Öyrəndim ki, Şirməmməd müəllim ona "bu sənin hüququndur, amma nəzərə al ki, kollektiv Akifə səs verəcək" demişdi. Niyə bunu xatırladım. Görəsən prorektorun elmlər namizədi olan qardaşına üstünlük veməyib, baş laboranta üstünlük verən indi belə bir dekan varmı? Çətin sualdır.

Mən həmişə özümü Şirməmməd müəllimin tələbəsi sayıram. Onun bu xeyirxahlığını heç vaxt unutmaram. Amerika yazıçısı və filosofu Henri Devid Teqonun təbirincə desək, yaxşılıq yeganə libasdır ki, heç vaxt köhnəlmir. Bəli, ustad müəllimin yaxşılıq libası heç vaxt köhnəlməyəcək, çünki bu libas vicdan, ləyaqət və xeyirxahlıqdan biçilib.

Şirməmməd müəllim sözündə bütöv adamdır. Onun ən çox nifrət etdiyi şey yalan danışmaqdır. Həmişə deyir ki, yalanın ən böyük düşməni var, o da həqiqətdir. Bir gün dərsə davamiyyəti yoxlayırdıq. Məlum oldu ki, bir tələbə xeyli vaxt dərsə gəlməyib. Səbəbini soruşanda dedi ki, xəstə olmuşam, arayış da təqdim etmişəm. Şirməmməd müəllim nəsə şübhələndi, heç nə demədi. Səhiyyə

Nazirliyi vasitəsilə arayışı yoxlatdı. Məlum oldu ki, tələbə yalan danışır. Dərsə gəlmədiyi günlər Moskvada qarpız satıb və milis tərəfindən yaxalanıb. Bu barədə universitetə məktub da göndəriblər. Təkrar auditoriyaya gəldik. Şirməmməd müəllim tələbəni sorğu-suala tutdu. Və dedi ki, gəlmədiyinin səbəbini düz desən səni bağışlayacam, yalan desən universitetdən xaric edəcəm. Tələbə dediyinin üstündə durdu. Səhiyyə Nazirliyindən sorğuya aldığımız cavabı və Moskvadan gələn məktubu auditoriyada oxuyanda tələbəni sanki ildırım vurdu, donub qaldı, deməyə söz tapmadı. Tələbə universitetdən xaric olundu. Bərpa üçün xahişlərin heç birinin köməyi olmadı. Hətta, Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənovanın da xahişi yerinə yetirilmədi. Onu da deyim ki, tələbə bir il istehsalatda çalışdıqdan sonra bərpa olundu.

"Əqidəsi yolunda qələmi ilə çarpışan" (Bəxtiyar Vahabzadə) müəllimim həmişə haqq yolunu tutub, düzü-düz, əyrini-əyrini deyib. Onu tutduğu yoldan çəkindirmək mümkün deyil. Hər hansı işlə bağlı fikirləşərək qərar qəbul edir və verdiyi qərarın üstündə möhkəm durur. Bir misal çəkim. Rus bölməsində, dəqiq yadımda deyil, 3, yoxsa 4 tələbə xarici ölkələrin jurnalistikası fənnindən qeyri-kafi qiymət almışdı. Onların arasında "yuxarıların" da övladı vardı. Məsələ bir qədər qəliz xarakter almışdı. İşə o vaxtkı rektor da qarışdı. Şirməmməd müəllim rektorun təkidinə baxmayaraq, verdiyi qiymətin üstündə axıra kimi dayandı, tərəfkeşlik etmədi.

Amerika psixoloqu Deyl Karneginin bir fikrini yada salmaq istəyirəm: "İnsanlar üç cürdür: pulun köləsi olanlar, pulun dostu olanlar və pulun ağası olanlar". Psixoloqun bu fikrini sözgəlişi demədim. Şirməmməd müəllim sözün əsl mənasında pulun ağasıdır. Olmuş bir hadisəni yada salım. Bir tələbənin kəsiri vardı, xaric olunmaq üzrə idi. Atası Şirməmməd müəllimə pul təklif edir, rədd cavabı alır, qızıl təklif edir, rədd cavabı alır və deyir ki, qiymət almağın bir yolu var, o da qatlaşıb hazırlaşmaqdır. Bir gün həmin valideyn fakültəyə, Şirməmməd müəllimə səliqə ilə bükülmüş bağlama göndərir. Bağlama açılanda nə görsək yaxşıdır. Taxtanın üstündə əl ilə səliqəli işlənmiş Leninin barelyefi. 90-cı illərin əvvəllərinə kimi "proletariatın rəhbərini" kafedrada saxladıq, sonralar yadımda deyil, hara yoxa çıxdı.

Elə başa düşməyin ki, Şirməmməd müəllim tələbələrə qarşı amansızdır. Əsla belə deyil. Müəllim var tələbələrə həqiqəti çatdırır, müəllim də var həqiqətlə yanaşı onu tapmağı da öyrədir. Ustad müəllimim həmişə sevimli tələbələrinə vicdanlı, obyektiv, qərəzsiz olmağı tövsiyə edir. Öz üzərində çalışan tələbə onun gözünün işığıdır. Nə lazımdırsa kömək göstərməyə hazırdır, çalışqan tələbənin heç vaxt ümidini üzmür. Tələbəyə etdiyi yardımı da heç vaxt dilinə gətirmir. Onun bir neçə tələbəyə maddi köməyi mənim vasitəmlə olub. Belə yardımlardan biri haqqında. Bir gün fakültəyə bir qadın gəldi, onunla görüşdü və 3-cü kursun tələbəsindən şikayət elədi. Dedi ki, evimi tələbəyə kirayə vermişəm, kirə pulumu ala bilmirəm. Həmin tələbə dünyasını dəyişib, Allah rəhmət eləsin, məlum səbəbə görə adını çəkmirəm. Müəllim tələbənin kirə haqqını ödədi. Mən sonra tələbəyə bu barədə məlumat verdim.

Bakı Dövlət Universitetinin 95 illiyi ilə bağlı yazımda Çin atalar sözündən nümunə gətirmişdim. Yazının ruhuna uyğun gəldiyindən yenə ona müraciət

etməyi lazım bildim: "Uğurun yol yoldaşı nizam-intizamdır". Deyərdim ki, Şirməmməd müəllimin dekanlığı dövründə fakültədə polad qayda-qanun vardı. Onun nəticəsi idi ki, fakültəmiz həmişə rektorluğun hesabatlarında tərifləndirdi, yalançı faiz dalınca qaçmırdı. Tələbələrin dərsə davamiyyəti hər həftə müzakirə olunur, lazımi qərar çıxarılırdı, zəif oxuyanlar üçün əlavə məsləhət saatları təşkil edilirdi. Başqa fakültələrdən gəlib dərs deyən müəllimlərin tərkibinə də diqqət yetirirdi. Nə gizlədim, bəzən elə müəllimlər olurdu ki, yoxlamanı imtahana çevirib sanki ondan zövq alırdı. Bir dəfə coğrafiya müəllimi düz bir həftə tələbələrdən yoxlama qəbul edib, cəmi 3-4 tələbəyə "məqbul" yazmışdı. O vaxt Şirməmməd müəllim xəstə olduğu üçün bir müddət işə çıxmadığından dekanlığın işini mən aparırdım. Auditoriyaya girib müəllimə iradımı bildirdim. Xeyri olmadı. Dəhlizə çağırıb dedim ki, onsuz da hamını imtahana buraxacam. Müəllim acıq eləyib getdi. Tələbələrin hamısını imtahana buraxdım. Amma icimdə bir narahatlıq vardı. Məndən Şirməmməd müəllimə şikayət elədi. Haqlı olduğumu belə izah elədim. Dedim ki, dərs deyən müəllim hələ bilmir ki, fakültativ fənn nə deməkdir. Dedı, düz eləmisən narahat olma.

Hörmətli müəllimin 90 yaşına baxmayaraq, hər gün dünyada və ölkəmizdə baş verən hadisələrlə maraqlanır, qəzetlərə, telekanallara müsahibələr verir. Onunla 5-10 dəqiqə söhbət kifayətdir ki, çox şeydən xəbərdar olasan. Heç də təsadüfi deyil ki, digər fakültələrin tələbələri gəlib ustad müəllimin dərsində otururlar. Filologiya fakültəsinin tələbələrindən biri ilə söhbətdə dedi ki, mən müəllimin mühazirələrində bilmədiklərimi öyrəndim. Elə faktlar dedi ki, birinci dəfə eşidirdim. İcazə versəydilər Şirməmməd müəllimə görə fakültəmi jurnalistikaya dəyişərdim. Fakt özü mənə bir hadisəni yada saldı. Şirməmməd müəllim Moskvaya ezamiyyətə getmişdi. Bir dərsini mən deyəsi oldum. Jurnalı yazdım, amma imza atmadım, dedim gəlib özü imzalayar. İmzalamadı, dedi ki, Bakıda olmamışam, məni fakt qarşısında qoyma, dərsi sən demisən, sən də imzala. Yalnız vicdanı rahat və təmiz olanlar belə edər.

Şirməmməd müəllimin dekanlığı dövründə (1970-1976), əgər belə demək mümkünsə, tədris məktəbi keçdim. Tədrisin incəliklərini məhz həmin dövrdə öyrəndim. Dekan işlədiyim vaxt öyrəndiklərimin çox böyük köməyi oldu. Həmin dövrdə fakültədə tədris olunan bütün fənlərin proqramı çap olundu, elmi əsərlərin "Jurnalistika" seriyası və "Jurnalist" tədris qəzetinin nəşri qaydaya düşdü.

Deyiləsi sözüm çoxdur, onları gələcək yubileylərə saxlayıram. Bu sətirləri yazanda fikirləşirdim, görəsən yada saldığım hadisələri necə qarşılayacaq. Hər halda olub-keçənləri bir daha xatırladım.

Əziz Şirməmməd müəllim, Siz Azərbaycan jurnalistikasının iftixarı, insanları aydınlığa çıxaran müəllimsiniz. Çünki silahınız kitab və bilikdir. 90 illik yubileyinizi ürəkdən təbrik edir, Allahın bəxş etdiyi ömrü ağrısız-acısız yaşamağı arzulayıram.

Niyyətiniz qismətiniz olsun!

Akif RÜSTƏMOV,
BDU-nun dosenti
"525-ci qəzet", 18.XI.2014

"NKVD"-NIN "TAM MƏXFİ" MATERİALINDA RƏSULZADƏ KİMDİR?

Araşdırmaçı alimdən Məhəmməd Əmin Rəsulzadə haqqında ilginc məlumatlar

Şirməmməd Hüseynov:
"Rəsulzadə öyrənmək istəyir ki, almanlar Qafqazı alandan sonra müstəqil Azərbaycanın bərpasına razı olacaqlar, ya yox?"

Yanvarın 31-də Azərbaycan tarixinin dahi şəxsiyyətlərindən biri, böyük dövlət adamı, Azərbaycan Xalq Cümhuriyyətinin banisi, Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin 130 yaşı tamam olacaq. Cümhuriyyət qurucusunun yubiley tədbirlərinin keçirilməsi ilə bağlı Azərbaycan prezidenti İlham Əliyev ötən ilin noyabrında fərman imzalayıb və dövlət səviyyəsində yubiley tədbirlərinin keçiriləcəyi gözlənilir. Bu, alqışlanası haldır ki, 1991-ci ilin 18 oktyabrında Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olaraq elan olunan müstəqil Azərbaycanda hücumlara məruz qalan M.Ə.Rəsulzadə və onun silahdaşlarına artıq münasibət dəyişməkdə, dövlət səviyyəsində bu tarixi şəxsiyyətlərin qiyməti verilməkdədir.

Ancaq acı təəssüf və təəccüb doğuran bir məsələ də var ki, hətta 130 illik yubileyi ərəfəsində də M.Ə.Rəsulzadəyə hücumlar müşahidə edildi, onun rəhbərlik etdiyi, böyük tarixi xidmətləri olan Milli Şura ilə çağdaş dövrümüzdə yaradılan və konfliktlərlə ömrünü başa vurmaqda olan Milli Şura arasında paralellər aparılır, Cümhuriyyətimizin banisi ilə bəzi şəxslər arasında bənzərliklər axtarışına çıxılır. Bəlkə də bütün bunların üstündən keçmək olardı. Ancaq bütün taleyi müsibətlərlə dolu olan qurduğu Azərbaycan dövləti kimi ailəsi, düşərgədaşları, yaxınları da ağır faciələr yaşayan M.Ə.Rəsulzadənin on illər boyu mühacirətdə yaşadığını əsas götürüb onun guya xarici dövlətlər qarşısında öhdəliklər götürdüyünü iddia edənlər də tapıldı. Harada olur-olsun, İran, Türkiyə, Rusiya, Macarıstan, Rumıniya, Almaniya, fərqi yoxdur, hər yerdə ürəyi yalnız Azərbaycanın azadlığı uğrunda döyünən, sevgili üçrəngli, ay-ulduzlu bayrağın bir daha Azərbaycan səmasını bəzəyəcəyini arzulayan, buna çalışan Məhəmməd Əmin bəy ömrünün sonlarınadək **"Sən bizimsən-bizimsən vurduqca damarda qan, Yaşa, yaşa çox yaşa, ey şanlı Azərbaycan!"** deyərək mücadilə apardı. Belə bir tarixi şəxsiyyəti hansısa qüvvələr qarşısında öhdəliklər götürməkdə ittiham etməyin absurdluğunu elə Cümhuriyyət araşdırıcıları da əsaslı arqumentlərlə təsdiqlədilər. Fürsət düşmüşkən, M.Ə.Rəsulzadənin keçdiyi əzablı və şərəfli ömrünün bəzi səhifələrinə tarixçi alimlərin iştirakı ilə işıq salmağa çalışdıq.

Müsavat Partiyasının yaranmasının təşəbbüskarı

Ağsaqqal ziyalımız, professor Şirməmməd Hüseynov Rəsulzadənin həyatından bəhs edərkən o dövrü iki hissəyə bölür: "36 illik birinci hissə 1884-1920-ci ili əhatə edir. O, 1909-cu ilin martından 1911-ci ilin iyul-avqust aylarına qədər İranda olub. Özünün yazdığına görə, ondan sonra Lənkəran vasitəsilə gizli şəkildə Bakıya gəlib. 1910-cu il İran Demokratik Partiyasının yaradıcılarından biri olub, həmin partiyanın proqramını yazıb və o haqda kitab buraxıb. Bura gələndən sonra isə öz həmkarları ilə görüşüb. Müsavat Partiyasının yaranmasının təşəbbüskarı da Məhəmməd Əmin Rəsulzadədir. 1911-ci ildə İrandan gizli surətdə bura gələndən sonra o deyib və partiya yaradılıb. Amma indi hamı yazır ki, guya partiya yaradılması məsələsində Məhəmməd Əmin Bakıda olmayıb. Çünki bizim xəbərimiz yox idi ki, Məhəmməd Əmin 1911-ci ildə İrandan Bakıya gəlib, sonra İstanbula gedib. O 1917-ci ildə Müvəqqəti Hökumətin komissarı kimi Lənkərana gedib, orada yerli hakimiyyət orqanlarına seçkilər keçirib. Bununla bağlı "Açıq söz" qəzetində məqaləsi var, mən onu 4-cü cilddə vermişəm – "Dörd gün xalq içində". Orda yazır ki, bu, mənim Lənkərana ikinci səfərimdir. 1911-ci ildə bizi İrandan qovandan sonra mən gizli surətdə Lənkəran vasitəsilə gəlib Bakıya getdim, sonra isə İstanbula. Bunu heç kəs bilmirdi. İlk dəfə özünün məqaləsində mən bunu öyrəndim".

İstiqlal Bəyannaməsinin müəllifi

M.Ə.Rəsulzadə 1911-ci ilin avqust və ya sentyabr ayından 1913-cü ilin aprelinə qədər İstanbulda yaşayıb. Onun İstanbulda yazdığı məqalələrdən ibarət "İran türkləri" çıxıb. 1913-cü ilin fevralında Romanovlar sülaləsinin hakimiyyətə gəlməsinin 300 illiyi bayram olunub və o zaman siyasi məhbuslara əfv, mühacirlərə isə vətənə qayıtmaqla bağlı amnistiya verilib. Ş.Hüseynov danışır ki, M.Ə.Rəsulzadə də 1913-cü ilin aprelində vətənə qayıdıb: ***"1918-ci ilin fevralında Tropezon şəhərində Zaqafqa***ziya Seymin nümayəndə heyəti ilə türklər arasında müqavilə müzakirə olunub. Çox təəssüf ki, heç Ensiklopediyada da Məhəmməd Əminin ordakı iştirakı barədə heç nə yazmırlar. Cümhuriyyət elan olunandan sonra o, yenə Gəncəyə gəlir". Professor 1929-cu ildə Türkiyədə nəşr edilən *(1930-cu ildə Atatürk Sovet İttifaqının təzyiqi ilə Rəsulzadəni Türkiyədən qovur)* "Odlu yurd" məcmuəsinin 4-cü sayında Rəsulzadənin dərc olunan məqaləsini xatırlatdı: "Orada İstiqlal Bəyannaməsinin mənasını açıqlayıb. Yazır ki, bu istiqlal bəyannaməsinin əsasına biz böyük Fransız inqilabının, ABŞ-da Britaniyaya qarşı istiqlal müharibəsinin, İtaliyada Harribaldi hərəkatının, Almaniyanın birləşdirilməsi hərəkatındakı sənədlərdə olan "İnsanlara hürriyyət, millətlərə istiqlal" şüarını qoyduq. Deməli, bu bəyannamənin müəllifi Məhəmməd Əmin Rəsulzadədir". Rəsulzadənin adının İstiqlal Bəyannaməsini imzalayanlar sırasında olmamasına gəldikdə, araşdırmaçı xatırlatdı ki, o zaman Məhəmməd Əmin Batumda olub.

Ş.Hüseynov "NKVD"-nin M.Ə.Rəsulzadə haqqında "Tam məxfi" qrifli materialındakı ilginc məqamlardan da bəhs etdi və bu barədə ilk dəfə "Yeni Müsavat"a danışdı: "1944-cü ilin 17 iyununda SSRİ "NKVD"-si, Silinin imzası ilə bu barədə Molotova yazıb. (Rusiya Siyasi Dövlət Arxivi, Molotov Fondu-82, siyahı 2, iş 10-20, vərəq nömrə 142-143) Bunu Pavel Fitin hazırlayıb.

Orda yazılıb: Rəsulzadə Məhəmməd Əmin 1884-cü ildə anadan olub, azərbaycanlıdır, ixtisasca jurnalistdir. Ardınca yazıb ki, antisovet milli təşkilat – Müsavat Partiyasının lideri və ideoloqudur. Gülməlisi odur ki, 1998-ci ildə nəşr edilmiş Cümhuriyyət Ensiklopediyasında, həmçinin ondan əvvəl və sonra Rəsulzadəni "görkəmli ictimai-siyasi xadim" kimi təqdim edirlər, nə lider, nə ideoloq sözü var. "NKVD" bunu "lider və ideoloq" adlandırır, bizimkilər isə "görkəmli ictimai-siyasi xadim". Hətta deyirlər bundan "nə lider olar, nə də ideoloq". Arxiv materialında daha sonra yazılıb: "Azərbaycanda sovet hökuməti qurulandan sonra Rəsulzadə mühacirətə gedib. Mühacirətdə o, aktiv şəkildə antisovet işi ilə məşğul olmağa, Sovet hakimiyyətini devirmək uğrunda mübarizəyə başlayıb. Bu məqsədlə sistemli şəkidə ölkədə gizli fəaliyyət, casusluq, partizan hərəkatı, diversiya üçün xaricdən Azərbaycana öz nümayəndələrini göndərirmiş. 1930-cu ildə Şəki, Zaqatala, Şəmkirdə sovet hakimiyyətinə qarşı üsyanların da təşkilatçısı Müsavat Partiyası və Məhəmməd Əmin Rəsulzadə idi".

Rəsulzadə almanların qarşısında şərt qoydu...

"NKVD"-nin sənədində ardınca qeyd olunub: "Rəsuzadə xaricdə SSRİ-yə qarşı Polşa, Yaponiya, Türkiyə kəşfiyyatı ilə əlaqə saxlayır. 1942-ci ilin mayında almanlar Rəsulzadəni Polşadan Berlinə dəvət edirlər". ***Ş.Hüseynov bu yerdə zəruri qeydini edir ki, Rəsulzadənin Hitlerlə görüşü barədə iddialar başdan-ayağa yalandır:*** "Sözügedən sənəddə detallar əksini tapıb. Rəsulzadə Almaniyaya Qafqaz Emiqrasiyasının ikinci Qurultayına dəvət olunub. Rezenberqin nazirliyində Azərbaycan Milli Komitəsi yaradıblar. Bu Milli Komitə də əsir olan azərbaycanlılarla məşğul olmalı idi. Rəsulzadə Azərbaycan legionlarını təşkil etməklə məşğul olur. "NKVD"-nin sənədində daha sonra yazılır ki, 1943-cü ilin sonunda almanlar Rəsulzadəni Azərbaycan Milli Komitəsinin rəhbərliyindən uzaqlaşdırdılar". ***Ş.Hüseynov bunun səbəbini də izah etdi və elə bu arqument M.Ə.Rəsulzadənin xarici ölkələrdə hansısa öhdəliklər götürdüyü barədə iddialara tutarlı cavabdır:*** "Həmin dövrdə almanlar Mozdokda idilər. Rəsulzadə öyrənmək istəyir ki, almanlar Qafqazı alandan sonra müstəqil Azərbaycanın bərpasına razı olacaqlar, ya yox? Ona deyirlər bu məsələ gündəlikdə deyil. Rəsulzadə deyir onda mən sizinlə işləmək istəmirəm. ***Rəsulzadəni uzaqlaşdırıblar ki, bu, müstəqillik istəyir". Sənəddə daha sonra deyilir ki, bundan sonra Rəsulzadə Almaniyadan Buxarestə – Rumıniyaya gəldi. Sənəddə*** M.Ə.Rə***sulzadəni Rumıniyadakı türk səfirliyinin xətti ilə Türkiyə hökumətinin maliyyələşdirdiyi də əksini tapıb. Yeri gəlmişkən, bu ilginc məlumatları Ş.Hüseynova Cümhuriyyət dövrünün araşdırmaçısı, professor Cəmil Həsənli gətirib:*** "Mən Cəmil Həsənlidən xahiş etmişdim, o da bu materialı mənə gətirib. Yeri gəlmişkən, onun qədər heç kəs Cümhuriyyət tarixini belə mükəmməl öyrənməyib. O, mükəmməl şəkildə Cümhuriyyətin daxili və xarici siyasətini yazıb. Mən siyasətçi Cəmil Həsənlini yox, alim Cəmil Həsənlini daha yaxşı tanıyıram".

"Məhəmməd Əminin 4 yox, 5 övladı olub". Bu məlumatı da Ş.Hüseynov bizə açıqladı: "Heç kim bilmir ki, Məhəmməd Əmin Rəsuizadənin 4 yox, 5 övladı olub. Xəlil İbrahim onun haqqında məqaləsində yazır ki, 1918-ci ilin əvvəllərində Məhəmməd Əmin Rəsulzadənin başı o qədər qarışıq idi ki, hətta öz oğlunun vəfatı ilə bağlı mərasimlərin hamısında iştirak etmək imkanı yox idi. Deməli, onun oğlu ölübmüş və Məhəmməd Əminin 5 övladı olub. Onun-bunun yazdığından götürüb nəsə demək, hazırlamaq bir şeydir, o sənədlərin orijinalını oxuyub öyrənmək ayrı şeydir. Məhəmməd Əmin Rəsulzadənin Azərbaycanda göstərdiyi fəaliyyət **hələ** sözün geniş mənasında tam əksini tapmayıb. Baxmayaraq ki, mən **hələ** onun əsərlərinin 5-ci cildini nəşrə hazırlayıram..."

Elşad PAŞASOY
"Yeni Müsavat", № 6(5715), 11 yanvar 2014

183 YAŞLI MƏKTƏBDƏ GÖRÜŞ

2014-06-20 17:05:26

Təhsil Nazirliyinin təşkilatçılığı ilə 50-dək jurnalistin Şəki şəhərinə səfəri çərçivəsində 1831-ci ildən fəaliyyət göstərən Şəki şəhər 5 nömrəli tam orta məktəbində bu məktəbin yetirməsi, Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovla görüş keçirilib. Movqe.az xəbər verir ki, görüşdən öncə 183 yaşlı məktəblə bağlı jurnalistlərə geniş bilgi verilib. Şəki Şəhər Təhsil Şöbəsinin (ŞTŞ) müdiri Südabə İsmayılova bildirib ki, Şəki şəhər 5 nömrəli tam orta məktəb ilk dəfə Şəkidə (Nuxada) rus-tatar qəza məktəbi kimi fəaliyyətə başlayıb: "Bu işə böyük rəğbətlə yanaşan yerli əhali kirayə məktəb binası üçün vəsait də toplayıb. İlk vaxtlar iki sinifdən ibarət olan qəza məktəbində üç müəllim çalışıb. Onlardan biri məktəb müdiri, biri fənn müəllimi olub. Üçüncü müəllim isə Azərbaycan dili və şəriətdən dərs deyib. Sonralar digər fənləri Rusiyada təhsil almış məzunlar tədris ediblər. Məktəb fəaliyyətə başlayandan iki il sonra şagirdlərin sayı 29-a çatıb. Bunların da 21 nəfəri tacir övladları olub. 1835-ci ildə Zaqafqaziya məktəblərinin nizamnaməsi təsdiq ediləndən sonra ikisinifli mövcud qəza məktəbləri üçsinifli məktəblərə çevrilib. Tədris olunan fənlərin sayı artırılıb. Zaqafqaziyada ən çox işlədilən Azərbaycan dilinin tədrisinə isə diqqət artırılıb. Bu zaman qəza məktəbində artıq 5 müəllim çalışıb. Siniflərin və şagirdlərin sayı artdıqca məktəb üçün yeni bina tikmək zərurəti yaranıb. Yerli əhalinin məktəbə maddi yardımı artıb. Yığılan vəsait barədə Zaqafqaziyanın o zamankı baş hakimi baron Rozenə məlumat verilib və yeni məktəb binasının tikilməsi üçün xahiş olunub. Tezliklə bu barədə müvafiq sərəncam imzalanıb. Şəki qəza məktəbində ilk kitabxana da yaradılıb. 1845-ci ilin məlumatına görə, burada 360 adda kitab və tədris vəsaiti olub. 1867-ci ildə yeni nizamnaməyə əsasən üç əsas sinifdən əlavə hazırlıq sinifləri də açılır və ilk dəfə olaraq təhsil haqqı tətbiq olunub. Tədris planına yeni fənlər, latın və Avropa dilləri də daxil edilib. 1877-ci ildə Şəki qəza məktəbi üçsinifli şəhər məktəbinə çevrilib. Məktəbdə Azərbaycan və rus dilləri, hesab, həndəsə, rəsm, rəsmxət, tarix, coğrafiya, təbiətşünaslıq, şəriət və digər fənlər tədris olunub.

Artıq 1890-cı ildə məktəbdə 136, beş il sonra isə 167 şagird təhsil alır. Həmin vaxta qədər 12 buraxılış üzrə məktəbin 125 məzunu olur. Həmin dövrdə musiqi sinfi ancaq Şuşa və Şəki məktəblərində fəaliyyət göstərib. Şəki şəhər məktəbi nəzdində ayrıca bazar günü məktəbi (kursu) də təşkil edilib. Əsasən yaşlı insanların qəbul edildiyi bu məktəb əhali arasında böyük rəğbət qazanıb. Bu məktəbin məzunları arasında çox məşhur şəxslər olub. Mirzə Fətəli Axundzadə, Rəşid bəy Əfəndiyev, Salman Mümtaz, Heydər Əfəndiyev, Cəlil Hüseynov, Sabit Rəhman, Əbdüləzəl Dəmirçizadə, Əlövsət Sadıqov, Şirməmməd Hüseynov və digər tanınmışlar məhz bu məktəbin yetirmələri olublar. 1981-ci ildə məktəbin 150 illiyi respublika səviyyəsində qeyd edilib və məktəb Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunub. Müəllimlərdən

Diləfruz Axundova və Ruqiyyə Hüseynova əməkdar müəllim adına layiq görülüb. 1988-ci ildən məktəb Şəki şəhəri, Füzuli küçəsi, 4 ünvanında yerləşir".

Məktəblə tanışlıqdan sonra bu məktəbin yetirməsi, Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovla həmkarlarının görüşünə start verilib. Ş.Hüseyenov 5 nömrəli orta məktəbdə təhsil aldığı illərin xatirəsindən danışaraq, gənc ikən jurnalist kimi çalışdığı vaxtlardan söz açıb: "Jurnalist sözün düzünü yazmağı, haqq-ədalət öz yerini tapana qədər qələmini yerə qoymamalıdır. Bu gün elə bir dövrdə yaşayırıq ki, informasiya texnologiyalarının köməyindən istifadə edərək informasiyanı yaymaq daha da asanlaşıb. Xarici ölkələrdə jurnalistə informasiyanı vətəndaşlar da verirlər. Çox arzulayıram ki, bizim ölkədə də cəmiyyət özü jurnalistin informasiya mənbəyinə çevrilsin. Xarici ölkələrdə belədir ki, hər hansı hadisə baş verən an istənilən vətəndaş həmin kadrı lentə alıb mətbuata ötürür. Bizdə isə çox təəssüf ki, bu cür vətəndaş mövqeyi olan insanlar azdır".

Ş.Hüseynovla görüşə maraqlı diskusiyalarla son vuruldu.

ELMƏ, TƏHSİLƏ VƏ MƏTBUATA HƏSR OLUNAN ÖMÜR

Dekabrın 22-də Bakı Dövlət Universitetində (BDU) bu ali məktəbin professoru, görkəmli alim və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü Şirməmməd Hüseynovun 90 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

Müvafiq qurumların nümayəndələrinin, Milli Məclis deputatlarının, tanınmış alim və mütəxəssislərin iştirak etdikləri tədbirdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov, jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Şamil Vəliyev professor Şirməmməd Hüseynovun mənalı ömür yolundan, səmərəli elmi və pedaqoji fəaliyyətindən, qazandığı uğurlardan danışıblar.

Prezident İlham Əliyevin 2014-cü il 16 dekabr tarixli Sərəncamına əsasən professor Şirməmməd Hüseynovun "Şərəf" ordeni ilə təltif olunduğunu bildirən natiqlər alimi təbrik edib, ona yeni nailiyyətlər arzulayıblar.

Qeyd olunub ki, görkəmli mətbuatşünas, professor Ş.Hüseynov çoxşaxəli elmi yaradıcılığa, zəngin həyat təcrübəsinə malik alimdir.

Ş.Hüseynov 1924-cü ildə Şəkidə anadan olub. 1940-cı ildə Şəki şəhərindəki 2 nömrəli orta məktəbi bitirib, Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxuyub. 1943-cü ildən 1944-cü ilədək Zaqatalada və Şəkidə orta məktəblərdə müəllim işləyib. 1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin (ADU, indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alıb. Bir müddət "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri vəzifəsində işləyib. 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) jurnalistika fakültəsinin aspiranturasında təhsil alıb. 1954-cü ildə MDU-nun jurnalistika fakültəsinin Elmi Şurasında namizədlik dissertasiyasını müdafiə edib.

Daha sonra Ş.Hüseynov ADU-da müxtəlif vəzifələrdə çalışıb, 1970-1976-cı illərdə jurnalistika fakültəsinin dekanı olub. Alim Bakı Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətini uğurla davam etdirir.

Professor Ş.Hüseynov "Həqiqət və ədalət carçısı", "M.Ə.Rəsuizadə", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr" və digər dəyərli kitabların, əsərlərin, məqalələrin, həmçinin çoxsaylı dərslik və dərs vəsaitinin müəllifidir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının irsinin araşdırılmasında alimin xüsusi rolu var.

Ş.Hüseynov daim həqiqətin, haqqın, ədalətin, azad sözün tərəfdarı olub. Alim millət, Vətən təəssübkeşidir. Buna görə də onun üçün ümummilli dəyəri və elmi-tarixi statusu olan sözün və doğruluğun qiyməti çox böyükdür. Ş.Hüseynov elmi axtarış və yaradıcılıq fəaliyyətində tarixin dərslərinə ardıcıl maraq göstərib, ayrı-ayrı fakt, hadisə, problem və şəxsiyyətin barəsində məhz doğruların ortaya qoyulmasına, ictimaiyyətə çatdırılmasına üstünlük verib. Onun çoxsaylı və müxtəlif janrlı əsərləri bu fikirləri təsdiqləyir.

Tədbirdə professor Cahangir Məmmədlinin "Professor Şirməmməd Hüseynovun publisistik fəaliyyəti" mövzusunda məruzəsi dinlənilib.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Tofiq Hacıyev professor Ş.Hüseynovun elmi nailiyyətlərindən, cəmiyyətdə qazandığı böyük nüfuzundan bəhs edib.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov alimin Azərbaycan mətbuatının, jurnalistikasının inkişafındakı mühüm rolundan danışıb.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov professor Ş.Hüseynovun elmə, təhsilə verdiyi töhfələri, yüksək ixtisaslı kadrların hazırlanmasındakı xidmətlərini qeyd edib.

Milli Məclisin deputatı Fazil Qəzənfəroğlu, Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi və başqaları professor Şirməmməd Hüseynovun elm və təhsil sahəsində əldə etdiyi uğurlardan söz açıb, yubilyara xoş arzularını çatdırıblar.

Sonda professor Şirməmməd Hüseynov çıxış edərək Vətən, torpaq sevgisinin müqəddəsliyini vurğulayıb, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

AzərTAC

"Azərbaycan" qəzeti,
23 dekabr 2014-cü il

ELMƏ, TƏHSİLƏ VƏ MƏTBUATA HƏSR OLUNAN ÖMÜR

Dekabrın 22-də Bakı Dövlət Universitetində (BDU) bu ali məktəbin professoru, görkəmli alim və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü Şirməmməd Hüseynovun 90 illik yubiley mərasimi keçirilib.

Milli Məclis deputatlarının, tanınmış alim və mütəxəssislərin iştirak etdikləri tədbirdə BDU-nun rektoru, Milli Məclisin üzvü, akademik Abel Məhərrəmov, jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Şamil Vəliyev Şirməmməd Hüseynovun mənalı ömür yolundan, səmərəli elmi və pedaqoji fəaliyyətindən, qazandığı uğurlardan danışıblar.

Kafedra müdiri Cahangir Məmmədlinin "Professor Şirməmməd Hüseynovun publisistik fəaliyyəti" mövzusunda məruzəsi dinlənilib.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Tofiq Hacıyev yubilyarın elmi nailiyyətlərindən, cəmiyyətdə qazandığı böyük nüfuzundan bəhs edib.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov alimin Azərbaycan mətbuatının, jurnalistikasının inkişafındakı mühüm rolundan danışıb.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov öz müəlliminin elmə, təhsilə verdiyi töhfələri, yüksək ixtisaslı kadrların hazırlanmasındakı xidmətlərini qeyd edib.

Milli Məclisin deputatları Fazil Qəzənfəroğlu, Sabir Rüstəmxanlı, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi və başqaları professor Şirməmməd Hüseynovun elm və təhsil sahəsində əldə etdiyi uğurlardan söz açıb, yubilyara xoş arzularını çatdırıblar.

Sonda Şirməmməd Hüseynov Vətən, torpaq sevgisinin müqəddəsliyini vurğulayıb, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

AzərTAC

"Xalq" qəzeti, 23 dekabr 2014-cü il

DÖRD QOŞA SAAT VƏ BÜTÖV ÖMÜR YOLU

Şirməmməd müəllimlə bağlı yazacağım yazını düşünəndə Mətbuat Şurasının sədri Əflatun Amaşovun bu yaxınlarda mənə yazdığı yubiley təbrikindən bir məqamı xatırladım:

"Mətbuat Şurasının ofisi adi iş axarında idi. Baş redaktorlar, ictimai xadimlər Şuraya toplaşmışdılar. Rəşad da gəlib çıxdı və kabinetə girəcəkdə gördüyü şəxs həmkarımı ənənəvi olaraq hamı ilə görüşmək fikrindən bir anlığa daşındırdı. Birbaşa ona doğru yön aldı. Qarşısında dayandı, əyilərək əlindən öpdü. Azərbaycan jurnalistikasının canlı əfsanəsi Şirməmməd Hüseynov... sözün yaxşı mənasında çaşqınlıq içərisindəydi. Sonradan Rəşad "mən millətimizə, xalqımıza xidmət edən dəyərli insanların əllərindən öpməkdən heç vaxt çəkinmədim. Otağıma gələndə ayağa sıçradım, qabaqlarına yüyürdüm..." yazacaqdı..."

Sonra yadıma düşdü ki, düz on beş il qabaq – 1999-cu iidə professor Şirməmməd Hüseynovun 75 yaşı tamam olanda "525"də onun haqqında kiçik bir təbrik yazısı yazmışdım. Qəzetin cildlədib saxladığımız köhnə nüsxələri içərisindən yazını tapıb bir də baxdım:

"Dörd qoşa saat və yaxud haçansa yazılacaq məqalə haqqında anons

BDU-nun keçmiş Kommunist küçəsində yerləşən korpusunda Jurnalistika fakültəsində təhsil aldığım vaxtlar yadımda qalan çoxlu hadisələr var. Amma ən yadımda qalanı professor Şirməmməd Hüseynovun bizim qrupa dörd qoşa saat dediyi mühazirələriydi ki, elə o mühazirələrə qulaq asa-asa haçansa Şirməmməd müəllim haqqında mütləq yazacağımı qət eləmişdim. Və həmin o yazının adını da dəqiqləşdirmişdim: "Dörd qoşa saat".

Hələ məşhur yenidənqurmanın başlanğıcında dörd qoşa saatda "Burjua jurnalistika"sının mahiyyətini anladan Şirməmməd müəllim həm də bir az ezop diliylə, bir az sətiraltı sözlərlə, bir az mimikayla Sovet mətbuatıyla burjua mətbuatı arasındakı fərqi bizə çox aydınca başa salmışdı. Və bu sətirlərin müəllifinin dünyagörüşündə ilk dəyişik çalarlar, demokratik cücərtilər də, deyəsən, elə o vaxt oyanmağa başlamışdı.

... Sonra 88-ci il gəldi. Burulğanlardan, təlatümlərdən adlaya-adlaya keçdiyimiz hər ilin müəyyən məqamlarında mən o yazını yazmağa ehtiyac duydum və elə o təlatümlər də düşündüklərimi kağıza köçürməyə imkan vermədi.

Dünən isə Şirməmməd müəllimin 75-i haqladığını eşitdim.

Təbrik edirəm, bütün tələbələri adından Şirməmməd müəllimi bağrıma basıram, böyük xidmətlərinə görə çox sağ ol deyirəm.

P.S. "Dörd qoşa saat"ı isə mütləq yazacağam".

Xatırladığım üçüncü məqam isə istedadlı, iti müşahidə qabiliyyətinə malik gənc jurnalistimizin dedikləri oldu: "İlk dəfə mən hələ 2010-cu ildə sizin Şirməmməd müəllimlə danışığınıza heyrətlənmişdim. Sonsuz sayğıyla, ehtiramla, ən adi sözü belə möhkəm deməkdən ehtiyatlanaraq, sözlərə nəvaziş qataraq, yumşaq, qayğıkeş danışırdınız".

İndi oturub düşünürəm, nədi axı, 30 il məni bu insana, müəllimə, jurnalista, şəxsiyyətə qarşı belə sayğıda saxlayan bu hiss?

Şirməmməd müəllimin haqqında hələ özünü görməzdən, dörd qoşa saat mühazirəsini dinləməzdən öncə eşitmişdim; adı gələndə çayxanalarda, jurnalist dairələrində mif kimi, əfsanə kimi, işlədiyim "Elm və həyat" jurnalında isə can-

lı, doğma, hamının ehtiramla adını çəkdiyi bir insan kimi danışılırdı.

Səksəninci illərdə "Elm və həyat" jurnalında korrektor kimi işə başlamışdım, tanınmış, səmimi iş yoldaşlarım içərisində Ülkər xanım Hüseynova da vardı. Ülkər xanım jurnalın Elm şöbəsinə rəhbərlik edirdi, ciddi, qəliz, çətin mövzulardan yazırdı, fərqli insanlar barədə danışırdı. Mən indi hamımızın qürur duyduğu, məşhur həmyerlimizin – Lütfi Zadənin adını da ilk dəfə Ülkər xanımdan eşitmişdim. Cavan jurnalistlərin dilindən ciddiliyi, sərtliyi barədə müxtəlif hadisələr eşitdiyim Şirməmməd müəllimin adı Ülkər xanımın dilində sadəcə, "Şirməmməd" deyə səslənirdi. Ülkər xanım Şirməmməd müəllimin həyat yoldaşı idi və əlçatmaz müəllimimizin həm də real bir insan olduğunu bizə xatırladırdı. Ülkər xanımın dilində indi bütün ölkədə tanınan, musiqimizə, mədəniyyətimizə böyük xidmətlər göstərən Lalə Hüseynovanın, Fərəh Əliyevanın adları da sadəcə, "Lalə", "Fərəh" kimi deyilirdi. Belə müraciət bu insanları da "Elm və həyat" ailəsinin doğma üzvlərinə çevirmişdi.

Bugünlərdə Şəkidə Mətbuat Şurasının təşəbbüsü ilə Azərbaycanın ilk xanım redaktoru Xədicə xanım Əlibəyova ilə bağlı çəkilən filmə baxdıq. Mən Ülkər xanımın Xədicə xanım barədə, onun Şəkidə gördüyü işlər haqqında söhbətinə baxıb yenə "Elm və həyat" ailəsini xatırladım.

Gərək ki, Şirməmməd müəllimin özü ilə ilk dəfə, əslən Şəkidən olan, görkəmli türkoloq alim Aydın Məmmədovla birlikdə oturmuşduq. Mən uzaqdan ehtiram bəslədiyim müəllimimlə birinci dəfə yaxından görüşür, söhbətlərini dinləyirdim.

Sonralar Şirməmməd müəllimlə tez-tez görüşmək imkanımız oldu – Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində, "525"in redaksiyasında, mətbuatla bağlı tədbirlərdə.

Şirməmməd müəllim Məhəmməd Əmin Rəsulzadəni, Üzeyir Hacıbəyovu "525"in müəlliflərinə çevirdi, "Həyat"ın, "İrşad"ın ilk sayları, "Azərbaycan" qəzetinin Cümhuriyyətin 1 yaşına aid sayı latın qrafikasıyla, "525"ə əlavə kimi çap olundu. Cümhuriyyət tariximizlə, mətbuat tariximizlə bağlı ən ciddi məsələlərə Şirməmməd müəllimin münasibətini, tapdığı yeni faktları, üzə çıxardığı yazıları məmnuniyyətlə çap etdik.

Şirməmməd müəllim bizim üçün, bizdən sonrakı nəsillər üçün diqqətin, məsuliyyətin, dəqiqliyin, gördüyü işə hədsiz sevginin simvoludu. Dəfələrlə olub ki, ya özünün təqdim etdiyi, ya da qəzetdə çıxan başqa materiallarda yalnız onun diqqətini çəkə biləcək, yalnız onun sezəcəyi hansısa rəqəmlərə, faktlara aid qeydlərini, düzəlişlərini dərhal telefonla çatdırıb. Əksəriyyətimizə çox xırda, əhəmiyyətsiz görünə biləcək həmin məqamlara son dərəcə həssas münasibəti əslində ona Ustad adı qazandıran müstəsna cəhət, nadir keyfiyyətdir.

Son illər bir neçə dəfə Şirməmməd müəllim qəfildən redaksiyamıza qonaq gəlib. Mən də, redaksiyanın əksər əməkdaşları da onun – Müəllimimizin hüzurunda sayğıyla dayanmışıq, Şirməmməd müəllimlə birlikdə çəkdirdiyimiz şəkillərimizi sosial şəbəkələrdə paylaşmaq fürsətini də fövtə verməmişik.

Təxminən on il qabaq, yaşlı nəslin nümayəndələri hələ yeni texnologiyalara müqavimət göstərdiyi bir vaxtda Jurnalistika fakültəsində, Mətbuat Tarixi kafedrasında Şirməmməd müəllim, Cahangır müəllım və mən – üçümüz söhbət

edirdik. Birdən cib telefonu zəng çaldı. Mən, ilk ehtimal kimi, Cahangir müəllimə baxdım. Qımıldanmadı. Şirməmməd müəllim əlini pencəyinin cibinə atıb telefona cavab verdi. Güldüm və zövq aldım. Yaşıdları içərisində mobil telefonla ən tez dostlaşanlardan biri olduğuna heyrətlənib sevinmişdim.

İki il öncə Bəstəkarlar İttifaqında Lalə xanımın kitabının təqdimatı keçirilirdi. Tədbirin sonunda Şirməmməd müəllimlə söhbət edirdik. Birdən qayıtdı ki, Rəşad, mən bu səhnədə 1938-ci ildə Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin qarşısında çıxış etmişdim. Tədbir sonunun qələbəliyinə, hay-küyünə görə deyilən fikri tam anlaya bilməmişdim. Bir an duruxandan sonra təəccüblə "Neçənci ildə?" deyə soruşdum. Hadisəni danışdı: "Bugünlərdə Milli Kitabxananın direktoru Kərim müəllim 1938-ci ilin "Bakraboçi"qəzetindən bir məlumatın surətini çıxarıb göndərib mənə. Yazılıb ki, tədbirdə 14 yaşlı Şəki məktəblisi Ş.Hüseynov çıxış edib. O məktəbli mən idim. Onda bura Pionerlər eviydi. Mən də böyük bəstəkarların münsif olduğu müsabiqədə muğam oxumuşdum".

Hərdən bu epizodları dostlara danışır, Şirməmməd müəllimin bizim üçün örnək olmalı bir çox keyfiyyətlərindən söz açıram. O bizim üçün bir Nümunə, gerçək Əfsanə, həm də gözümüzün qarşısında olan canlı Tarixdi!

Belə adamların hüzurunda sayğıyla dayanmaq, əllərindən öpmək isə ümumən mətbuatımıza, tarixi şəxsiyyətlərimizə, müəllimimizə sayğı və hörmətdi!

Əflatun Amaşovun yazının başlanğıcında verdiyim müşahidəsi isə dəqiq və məncə, hamımızın edə biləcəyi, etməli olduğu hərəkətdi!

Elə böyük Müəllimimizin 90 yaşına ehtiramın və minnətdarlığın ifadəsi olan bu yazı da məhz bu sözlərlə bitməlidi – Əllərinizdən öpürəm, Şirməmməd müəllim!..

Rəşad MƏCİD,
"525-ci qəzet"in baş redaktoru,
Mətbuat Şurasının İdarə Heyətinin üzvü
"525-ci qəzet", 29 noyabr 2014-cü il, şənbə

KLASSİK PUBLİSİSTİKAMIZIN YENİ TƏDQİQAT FAKTI

Tarixdə elə şəxsiyyətlər və elə yaradıcılıq nümunələri var ki, o şəxsiyyətləri və o yaradıcılıq nümunələrini tədqiq etmək, qiymətləndirmək və yeni nəslə ötürmək səlahiyyətini də tale elə onların səviyyəsində olan insanlara-alimlərə qismət edir. Vətən, millət, dövlət kimi müqəddəs anlayışlara bağlı tarixi şəxsiyyətlər barədə söz demək səlahiyyəti isə daha çox mənəvi təmizlik, insani böyüklük tələb edir. "Bütün şüurlu həyatını vətənin müstəqilliyi, millətin azadlığı, səadət və xoşbəxtliyi uğrunda mübarizəyə həsr etmiş vətən övladı, istiqlal fədaisi" (Ş.Hüseynov) Məhəmməd Əmin Rəsulzadə haqqında söz deməyə, onu tədqiq etməyə girişən adamın da buna gərək ikiqat mənəvi haqqı olsun. Mənəvi dünyasına, vətən sevgisinə, milli təəssübkeşliyinə, elmi cəsarətinə (!), publisist ustalığına, öyrətmək bacarığına və neçə-neçə vətəndaşlıq keyfiyyətinə hələ tələbəlik illərindən bələd olduğum, uzun illərdən bəri birgə çalışdığımız, amma özümüzü yanında həmişə və fəxrlə onun tələbəsi hesab etdiyimiz professor Şirməmməd Hüseynov bu haqqın, bu səlahiyyətin sahibidir. Ən qatı müxalif personaldan tutmuş ölkənin Prezidentinədək hər kəs Şirməmməd müəllimin bu haqqa sahib olduğunu dilə gətirir. Ötən il noyabrın 24-də Azərbaycan Prezidentinin jurnalistlərlə səmimi görüşünü telekanallardan izlədim və qəzetlərin geniş hesabatlarına diqqət yetirdim. Cənab Prezident o görüşdə mənim müəllimimə – professor Şirməmməd Hüseynova müraciətlə dedi: "Şirməmməd müəllim! Sizin fəaliyyətinizi mən çox yüksək qiymətləndirirəm". Sonra Prezident əlavə etdi: "Sizin fəaliyyətinizi Azərbaycan xalqı yüksək qiymətləndirir". Prezidentin bu sözləri Şirməmməd müəllimi tanıyanların hamısında və xüsusi olaraq onun ömrünü həsr etdiyi Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin kollektivində qürur hissi yaşatdı. Əlbəttə, Azərbaycan Respublikasının Prezidenti bu böyük tədqiqatçıya verdiyi o yüksək qiymətində alimin daha çox M.Ə.Rəsulzadə irsi üzərindəki tədqiqatlarını nəzərdə tuturdu. Azərbaycanın müstəqillik uğrunda mübarizəyə başladığı 1980-ci illərin ikinci yarısından bəri professor Ş.Hüseynovun əsas tədqiqat hədəfləri Azərbaycan Xalq Cümhuriyyəti kimi möhtəşəm bir demokratik dövlətin yaranması uğrunda mübarizə aparmış klassik mətbuatımız, klassik publisistikamız, klassik ədiblərimiz olmuşdur. Bu sırada alimin "Müstəqilliyin çətin yolu...", "Mətbu irsimizdən səhifələr", "Milli haqq və ədalət axtarışında", "Mənəvi irsimiz və gerçəklik"... kimi bir neçə fundamental monoqrafiyası nəşr olunmuşdur. Bu kitabların həcmi təxminən 200 çap vərəqindən çoxdur. Bütün bunlar və üstəgəl Üzeyir Hacıbəylinin nəşrlərinə əvvəllər

qəsdən daxil edilməmiş "Nəşrlərindən kənarda qalan əsərləri" (35 çap vərəqi), Cümhuriyyət dövrü ilə bağlı bir sıra tarixi əsərləri yenidən çap etdirməsi, klassik publisistikamızın müasirlik kəsb edən yüzlərlə nümunəsini arxivlərdən çıxarıb xüsusi şərhlərlə bugünkü qəzetlərimizdə dərc etdirməsi və s. kimi titanik yaradıcılıq işi xalqa, millətə yanan bir ürəyin müqəddəs məhsuludur.

Və... bütün bu titanik fəaliyyətin fövqündə isə müəllimimizin M.Ə.Rəsulzadənin yaradıcılıq irsi ətrafında apardığı tədqiqatlar dayanır. İndiyə qədər M.Ə.Rəsulzadənin 5 cildlik əsərlərini arxivlərdəki qəzetlərdən toplamaq, transliterasiya etmək, xronoloji tərtibat qaydası ilə nəşrə hazırlamaq, bu nəşrlərdə müasir oxucuya qaranlıq qala biləcək məqamların şərhini vermək, ərəb-fars lüğət tərkibli və dilin müasir işlək fondundan çıxmış söz və ifadələrin lüğətini təqdim etmək... kimi mühüm tədqiqatçı vəzifələrini yerinə yetirmək və nəhayət, bu cildlərin bir çoxunu alimə "verilən təqaüdündən qənaət etdiyi vəsaitlə nəşr etdirmək", sözün həqiqi mənasında böyük hərflə yazılacaq VƏTƏNDAŞIN işi ola bilərdi. Bu cildlərin də hər birinin təxminən 40 çap vərəqi həcmində olduğunu nəzərə alsaq, Ş.Hüseynov təkcə M.Ə.Rəsulzadənin 200 çap vərəqi həcmində əsərinə tədqiqatçı əməyi sərf etmişdir. İndi onun özünün son 30 ildəki yaradıcılığını və tərtibatçılıq işini həcm etibarı ilə bir yerə toplasaq, 500 çap vərəqi kimi möhtəşəm bir rəqəm alınacaq. Belə bir işi yerinə yetirmək üçün yəqin ki, bütöv bir elmi-tədqiqat institutunun əməyi lazım gələrdi. Professor Ş.Hüseynov bu işi təkbaşına (bəzi texniki məsələlərdə göstərilən köməyi nəzərə almasaq) aparmışdır.

Ən maraqlı faktlardan biri budur ki, Ş.Hüseynov M.Ə.Rəsulzadə əsərlərinin III cildini 2012-ci ildə – özünün 87 yaşında, IV cildini 2013-cü ildə – özünün 88 yaşında və nəhayət V cildini 2014-cü ildə – özünün 89 yaşında ərsəyə gətirib çap etdirmişdir. Mən bu yaş məsələsini qəsdən qabardıram və diqqəti bu ilin sonunda 90 yaşı tamam olacaq tədqiqatçıya Allahın verdiyi vətəndaşlıq gücünə yönəltmək istəyirəm.

Budur, indi M.Ə.Rəsulzadə əsərlərinin V cildi əlimizdədir. İftixar duyduğum bir də ondandır ki, deyəsən müəllimim doğma fakültəsində kitabın isti nüsxəsini ilk olaraq mənə verdi. Hər şeydən əvvəl bu möhtəşəm cildin – nəşriyyatçılar demiş – buraxılış məlumatlarına baxıram. Çildin transliterasiya redaktorları professor Ş.Vəliyev, Şirməmməd müəllimin seçib fakültədə elmi işçi kimi saxladığı Samir Xalıdoğludur. Texniki redaktorları fəlsəfə doktoru Aygün Əzimova və yenə də Samir Xalıdoğludur. Kitab Qanun nəşriyyatının hesabına nəşr olunub. Kitabı araşdırıb toplayan, ərəb qrafikalı Azərbaycan əlifbasından latın qrafikalı Azərbaycan əlifbasına çevirən, müasir oxucuya tanış olmayan söz və ifadələrin lüğətini hazırlayan Ş.Hüseynovdur. M.Ə.Rəsulzadənin V cildində onun Zaqafqaziya Seyminin iclaslarındakı çıxışları, İstanbul həyatının bəzi ədəbi nümunələri, "Azərbaycan", "İstiqlal", "Naş put" və s. qəzetlərdəki yazıları əksini tapıb. Ş.Hüseynov bu əsərlərin təqdim olunması prinsipində müasirliyi əsas metod kimi qəbul edib. Bu əsərlərin hər biri indiki nəslə vətən, millət, yurd sevgisi aşılamaqla, dövlət və dövlətçilik, demokratik idarəetmə prinsiplərini təlqin edir. Qəribə orasıdır ki, bu məqamlarda M.Ə.Rəsulzadə idealları tədqiqatçının idealları ilə üst-üstə düşür.

Professor Ş.Hüseynov bütün cildlərdə olduğu kimi V cildə də mükəmməl bir ön söz yazıb. Dörd səhifəlik bu ön sözdə bir tərəfdən M.Ə.Rəsulzadə şəxsiy-

yəti və onun publisistik irsinin qiyməti, digər tərəfdən kitabın ümumi məzmunu barədə yığcam məlumat verilib. Mənə elə gəlir ki, M.Ə.Rəsulzadənin bu cilddə toplanan əsərlərinin ən maraqlı müasirlik tutumunu Şirməmməd müəllim özü daha yaxşı verib:

"Məlumdur ki, 23 ay fəaliyyət göstərmiş Azərbaycanın müstəqil dövlət hakimiyyətinin fəaliyyəti çox kəskin daxili və xarici şəraitdə cərəyan edirdi. Müstəqillik düşmənləri həddindən artıq çox idi. Müstəqilliyin ilk 6 ayında Azərbaycan hökuməti Qafqaz İslam Ordusunun varlığı şəraitində fəaliyyət göstərirdi. 1918-ci il noyabrın birinci yarısında Qafqaz İslam Ordusu Azərbaycanı tərk etdikdən sonra, noyabrın ikinci yarısında müttəfiq qoşunları Vətənimizə gəldi və 1919-cu ilin avqustunadək burada qaldı. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ayın yalnız 8-ni xarici hərbi qüvvələrsiz fəaliyyət göstərmişdir. Bir cür mürəkkəb şəraitdə dövlətin müstəqilliyini qorumaq, onun 1920-ci ilin yanvarında Paris sülh konfransında müttəfiq dövlətlər tərəfindən tanınmasına nail olmaq M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan istiqlalçılarının nə qədər savadlı, dərin təfəkkürlü, vətənə sədaqətli fəaliyyət göstərmələrinin nümunəsidir".

Ön sözdə daha sonra oxuyuruq: "M.Ə.Rəsulzadə 71 il ömür sürmüşdür. Onun yalnız 32 ilini bilavasitə vətənində yaşamışdır. Bu müddətdə onun göstərdiyi nəhəng fəaliyyət Azərbaycan tarixinin qızıl səhifələrini təşkil edir. Bu dövr haqqında çox yazılıb, xeyli dissertasiya işləri müdafiə edilib. Əlbəttə, sovet dövründə yazılanların hamısı məlum ideoloji və siyasi amillər səbəbilə düşmənçilik, saxtakarlıq, böhtan və iftira ilə müşayiət olunub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə Rəsulzadə irsinə münasibət tam olmasa da dəyişib. Məqsədim M.Ə.Rəsulzadənin vətənindəki fəaliyyətini, xüsusilə onun dövri mətbuatda dərc edilmiş məqalələrini, imzası ilə dərc olunmuş sənədləri toplamaq və nəşr etdirməkdir. M.Ə.Rəsulzadənin Cümhuriyyət dövrünü əhatə edən əsərlərinin əlavə 2 cildini də hazırlayıram. 6-cı cild onun parlamentdəki çıxışları, 7-ci cild isə ədəbi-bədii və tərcümə əsərlərindən ibarət olacaqdır".

Bu son sətirlərdəki öhdəlik M.Ə.Rəsulzadə yaradıcılığı ətrafında professor Ş.Hüseynovun böyük arzusunun ifadəsidir. Bu arzusunu gerçəkləşdirməsi üçün də Tanrıdan müəllimimə məhsuldar yaradıcılıq ömrü diləyirəm.

Könül NİFTƏLİYEVA,
BDU-nun, Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru
"525-ci qəzet", 07 iyun 2014-cü il, şənbə

"DAŞ HEYKƏLLƏRİ ZAMANIN KÜLƏYİ APARA BİLƏR, MƏNƏVİ HEYKƏLLƏR İSƏ MİLLƏTİN QANINA, RUHUNA İŞLƏYİR"

Dekabrın 7-də Azərbaycan parlamentinin 95 illiyi tamam olacaq. Ardınca daha 10 gün keçəcək və 17 dekabrda Cümhuriyyət, Rəsulzadə, Üzeyir bəy sevdalı Şirməmməd Hüseynov ömrünün 90-cı ilinə adlayacaq. Bakı Dövlət Universitetinin müəllimi, professor, Azərbaycan tarixinin görkəmli araşdırmaçısı olan nəhəng şəxsiyyət bu yaşında da araşdırmalarını davam etdirir. Böyük araşdırmaçı ilə söhbətimizi təqdim edirik:

- Azərbaycan Xalq Cümhuriyyətinin birinci bayrağı 1918-ci ilin 21 iyununda qəbul olunub. Fətəlixan Xoyski hökuməti qərar verdi ki, Azərbaycan bayrağı qırmızı rəngdə, üzərində ay və səkkiz guşəli ulduz olsun. Bu, 1299-cu ildən başlamış türk, Osmanlı bayrağı idi. Hələ o zaman İstanbul xilafət mərkəzi deyildi, xilafət hələ Bağdadda idi. Hələ türkləşmək, müasirləşmək, islamlaşmaq, söhbəti yox idi. 1918-ci il 16 iyunda AXC hökuməti Tiflisdən Gəncəyə köçdü. Məhəmməd Əmin də Batumda, türklərlə danışıq aparırdı, 4 iyunda müqavilə bağladılar. Oradan Gəncəyə gəldi. Nuru Paşa Azərbaycanı yaxşı tanıyan, həm də burada nüfuzu olan Əlibəy Hüseynzadə və Əhməd Ağaoğlu ilə gəlmişdi. Nə Əli bəy, nə Əhməd bəy, nə Əlimərdan bəy, nə Fətəlixan Xoyski Məhəmməd Əminə, müsavatçılara qədər Azərbaycan istiqlalı söhbətini eləyən adamlar olmayıb. Bunlar rus demokratları, ziyalıları ilə əlbir olublar. Elə ki, oktyabr inqilabı oldu, bolşeviklər hakimiyyətə gəldi, dedilər ki, mülkədarları, kapitalistləri, keçmiş ziyalıları bir sinif kimi ləğv edək, Əlimərdan bəy və digərləri Rusiyada olan dayaqlarını itirdilər. Bildilər ki, bolşeviklər gəlsələr, bunları qıracaqlar, necə ki, Rusiyada ziyalıları qırmağa başladılar. Bunların yeganə yolu Azərbaycanın müstəqilliyi, Məhəmməd Əminin yolu idi, odur ki, onunla birləşdilər. İyunun 17-də Gəncədə dedilər ki, Milli Şuranın fəaliyyəti dayansın. Ayın 18-də Məhəmməd Əmin Qafqazda yaranan yeni hökumətlərin konfransında iştirak etmək üçün İstanbula getdi. 21 iyunda türk bayrağı qəbul olundu, çünki Nuru Paşa Gəncədə oturmuşdu və onun yanında türk bayrağını dəyişmək olmazdı. İkincisi də Nuru Paşanın ordusu Qafqaz İslam Ordusu idi, gərək türk bayrağı olaydı. Bu bayraqla gəlib Bakını azad etdilər. Məhəmməd Əmin bir də noyabrın 7-də İstanbuldan Bakıya qayıtdı. Oktyabrın 30-da Mudrosda müqavilə bağlandı, türklər məğlub oldular. Məhəmməd Əmin gələndə bildi ki, türk ordusu burdan gedəcək, ingilislər gələcək. Noyabrın 9-da, Məhəmməd Əmin gələndən iki gün sonra onun təkidi və təklifi ilə bayrağı dəyişdilər. Deməli, üçrəngli bayrağın müəllifi Məhəmməd Əmin Rəsulzadədir. Ona görə də Üzeyir bəy parlamentin ilk iclasında Məhəmməd Əminin çıxışı ilə bağlı təəssüratlarını belə bölüşürdü: deyirdi Məhəmməd Əmin Rəsulzadə deyəndə ki, bir kərə yüksələn bayraq bir daha enməz, bütün zal ayağa qalxdı, təəssüratımdan başımın tükləri biz-biz durdu. Odur ki, biz bayraq gününü qeyd edəndə o bayrağın yaradıcısının adını deməliyik. Təsadüfi deyil ki, hətta Gürcüstan prezidenti Saakaşvili gəlib çıxış etdi, de-

di, Məhəmməd Əmin Rəsulzadə demişkən, "Bir kərə yüksələn bayraq bir daha enməz". Atatürk nə desə yaxşıdır: "Mən dünyaya səndən üç sənə erkən göz açmışam. Ancaq bütün türk aləmində türkün istiqbal bayrağını sən qaldırmısan və bayraq enməsin deyə, mən sənin əlindən alıb Türkiyə üzərində dalğalandırmışam. "Enməz" demisən, bu bayraq enməyəcəkdir". Bu sətirləri müəllifi olduğu kitabdan oxuduqdan sonra məmnun-məmnun "nə təhərdir" deyə, sual edir... Mən siyasətlə məşğul olmuram. Amma tarixi həqiqəti bilmək lazımdır.

- Şirməmməd müəllim, 7 dekabrda milli parlamentimizin yaradılmasının 95 illiyi tamam olacaq. Həmin günlə bağlı təklifiniz nədir?

- Parlamentin 80 illiyində 7-8 kitab çıxdı. Bəs bu vaxta qədər nə iş görmüşük? 1998-ci ildə çıxan kitablar kiril əlifbası ilə çıxıb. 15 ildə bizim imkanımız var idi ki, bu kitabları latın qrafikasına çevirək, camaat oxusun. Özü də prezident İlham Əliyev sərəncam verdi ki, kirillə olan 100-ə yaxın kitab latın qrafikası ilə çıxsın və müftə paylansın. Bu siyahıya parlament, cümhuriyyət sənədlərini də daxil etmək lazım idi. Amma bircə şey var. Məsələn, Üzeyir bəyi latın qrafikası ilə çap etdilər, lakin eynilə sovet dövründə nə var idisə, o şəkildə. Hətta şərhlər də eyni, yenə də onların haqqında "pantürkist" ittihamı yer alır. Axı prezident deməyib ki, olduğu kimi çap eləyin. Gərək desin ki, gedin, normal yoxlayın, sonra çap edin? Bunu çap eləyən də gərək bilsin. Qarşıdan cümhuriyyətin 100 illiyi gəlir. Elə şey var ki, o, bir-iki ilin işi deyil. Cümhuriyyət parlamentinin fəaliyyətini, stenoqramını ən azı 3-4 cilddə latın qrafikası ilə dəqiq yoxlayıb, işləyib çap eləmək lazımdır. İkincisi, mətbuat tarixçiləri gərək o dövrün mətbuatını... Məsələn, "Azərbaycan" qəzetinin 443 nömrəsi çıxıb, dövrün salnaməsidir. Tarixçi Solmaz Rüstəmova Tohidinin dediyinə görə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva "Azərbaycan" qəzetinin bütün saylarını latın qrafikasında çıxartmaq təşəbbüsü göstərib. Belə fikir varsa, sağ olsunlar. Elə etmək lazımdır ki, bu iş cümhuriyyətin 100 illiyinə töhfə olsun. Yaxud Yaqub Mahmudov dəvət etsə də, mən Cümhuriyyət Ensiklopediyasının hazırlanması işində iştirak etmədim. Çünki cümhuriyyət tarixini şəxsiyyətlərə baxaraq yazmaq olmaz. Obyektiv cümhuriyyət tarixi yazmaq lazımdır ki, hər gəlib-gedən cümhuriyyət tarixini dəyişməsin. Bizdə məsələ qoyan çoxdur, iş görən az. Mən ikinci qanaddayam.

***

Gələn il Məhəmməd Əminin anadan olmasının 130 illiyidir. Mən indi çalışıram ki, onun 5-ci cildini hazırlayım. Rəsulzadənin parlament fəaliyyəti 500-600 səhifəlik bir cilddir. Çünki bütün iclaslarda çıxış və qeydləri var. Türklər bunu nəşr ediblər, ancaq orda düzəliş olunası məqamlar çoxdur. Kənan Aslan Üzeyir bəyin əsərlərini çap edib, sağ olsun. Amma orda elə şeylər var...Redaktorlar oxumurlar. (Bunu deyib Cümhuriyyət tariximizlə bağlı ciddi yanlışlıqların yer aldığı kitabı, orda etdiyi yüzlərlə düzəlişi göstərir, sadəcə, ad çəkməyə ehtiyac duymur – E.P.)

***

- Rəsulzadəyə heykəl qoyulması ilə bağlı məsələ illərdir həll olunmamış qalıb...

- Bakıxanovun "Gülistani-İrəm" əsəri var. Orda giriş yazısı var ki, tarix nədir? Yazır ki, tarix bir hökmi-rəbbanidir, Allah yazısıdır. Heç kəs tarix üzərində hakimlik edə bilməyib. Tarix, zaman hər şeyi, hər millətin tarixindəki şəxsiyyətləri öz yerinə qoyur. Narahatçılığa əsas yoxdur. Tadeuş Svyatoxovski Azərbaycan tarixinin, xüsusən 20-ci əsr, Cümhuriyyət dövrü tarixinin Amerikada tədqiqatçısıdır. Deyir Corc Vaşinqton amerikalılar üçün kimdirsə, Məhəmməd Əmin Rəsulzadə azərbaycanlılar üçün həmin şəxsdir. Ona görə də tarix hər şeyi yerinə qoyacaq. Amma bircə şey var. Bir var mənəvi heykəl qoyasan, bir də var daş heykəl. Daş heykəlləri zamanın küləyi apara bilər. Mənəvi heykəllər isə millətin qanına, ruhuna işləyir, onları heç kəs ordan çıxara bilməz.

- Siz Məhəmməd Əminin məzarının da toxunulmaz olaraq qalmasının tərəfdarısınız...

- Bəs necə? Amma bir şey var... Bəxtiyarın (Vahabzadə-E.P.) Məhəmməd Əminə həsr olunmuş məşhur bir şeiri olub. Deyir, sən bu millətin, bu torpağın azadlığı yolunda özünü qurban verdin. Amma biz bu torpaqda sənə bir məzarlıq yer verə bilmədik. Məşhur Azərbaycan şairi Mustafa Yazıçı Məhəmməd Əmin öləndə ona bir şeir həsr edib. Müraciətlə yazır ki, biz səni Anadolu torpağına əmanət edirik, aparacağıq. Sən burda əbədi deyilsən, biz səni burda əmanət edirik, yiyəsi gələcək aparacaq. Başqa məsələ də var. Bir var elə Məhəmməd Əmin deyəsən, bir də var onu oxuyasan, öyrənəsən.

- Professor, gənc nəsil Rəsulzadəni, onun haqqında yazılanları oxuyurmu?

- Ortaya əsəri qoymamış tələb etmək ki, "oxuyun", bu, düzgün deyil. İndi sən görəsən ki, bu kitabları (M.Ə.Rəsulzadənin kitablarını göstərir - E.P.) cavanlar necə oxuyurlar. Cümhuriyyət dövründə Azərbaycanın 2 milyon əhalisi olub. Məhəmməd Əmin yazırdı ki, bu 2 milyonun içində Bakıda cəmi 100 nəfərə yaxın ali təhsilli adam vardı. Onun 62-si cümhuriyyətin tərəfdarı, 38-i əleyhinə idi. Rəsulzadə deyir belə vəziyyətdə biz cümhuriyyəti yaratdıq. Cümhuriyyət, istiqlal ideyası camaatın qanına, canına birdən-birə hopmur. Bir təbəqənin canına hopur.

- Yenə də Rusiyadan soyuq küləklər əsməyə başlayıb. Bu gün "rusun vaxtında yaxşı idi" deyənlərimiz də az deyil. Belə arqumentlərə bəraət qazandırmaq olarmı?

- Qətiyyən! Fransa alimləri hesablayıblar ki, dünyada təxminən 2755 tayfa, qəbilə, xalq, millət var. Bunun cəm 230 müstəqil dövlət qurub ki, onların da 196-sı BMT-nin üzvüdür. Biz onlardan biriyik. Bu, təsadüfi deyil. Mustafa Yazıçının 1990-cı ildə İstanbulda kitabı çıxıb: "Tarixdə 128 türk dövləti". O 128 türk dövlətinin 26-sını Azərbaycan türkləri yaradıb. Məhəmməd Əmin deyirdi ki, müstəqillik, azadlıq, dövlətçilik istedadı, qabiliyyəti bizim qanımızda, tarixi yaddaşımızdadır, amma zaman-zaman o ideyanı, o odu, müstəqillik ruhunun üstünü toz basırdı. Müsavatçıların ən böyük xidməti o oldu ki, üfürdülər, o odun üstündəki külü götürdülər, od qaldı, dövlətimizi yaratdıq.

***

Milli hiss, vətənpərvərlik hissi insanlara gen vasitəsilə keçir. Şərait yarananda Şıxlinski və digərlərində də milli, vətənpərvərlik hissi oyandı. Amerikada ermənilər var ki, heç Ermənistanı görməyib, amma ermənipərəstdirlər, Yəhudilər 2 min il qabaq dövlətlərini itirdilər. Ancaq bu 2 min ildə yəhudilər bir-biri ilə salamatlaşanda "Yerusəlimdə görüşənə qədər" deyirdi. Heydər Əliyev Kommunist Partiyasının 1-ci katibi idi və təpədən-dırnağa qədər kommunist idi. Amma situasiya dəyişdi, o adamda millətçilik, vətənpərvərlik hissi kommunist hissinə üstün gəldi. Yəni adamlara qiymət verərkən - xüsusilə hərbçilərə - gərək bunu biləsən. Çünki zaman, şərait yetişməlidir. Məhəmməd Əmingil deyirdi 20-ci əsr millətlər, milli azadlıq əsri olacaq. 1916-cı ildə Vilsonun məşhur 14-cü maddəsi "Millətlərə hüquq, millətlərə istiqlal" idi. Məhəmməd Əmin deyirdi "İnsanlara hürriyyət, millətlərə istiqlal". Bu, dövrün şüarıdır e, aparıcıdır.

***

İndi də yüz məsələni qarışdırırlar, İlham Əliyev də istəyir ki, vətənini gözəl görsünlər. Çünki adamların mədəsi görünmür. Amma küçə görünür. Bu da var ki, siyasət insanın mədəsindən keçir. Bir var yazılmış hüquqlar, bir də var Allahın verdiyi hüquqlar, insanın təbii hüquqları. İnsan görməli, nəfəs almalı, yeməli, eşitməli, düşündüyünü danışmalıdır. İngiltərə parlamenti 1640-cı ildə mətbuat üzərinə senzura tətbiqi haqqında qərar qəbul edir. 3 ildən sonra o qadağanı ləğv edirlər. Özü də Con Miltonun çıxışından sonra. Deyir, biz Allahın yaratdığı adamlarıq, onun əleyhinə gedə bilmərik. Allah insana görmək, danışmaq, yazmaq, fikirləşmək, eşitmək hüququ verib. Əgər bu hüquqlar üzərində nəzarət qoyursansa, demək, Allahın üzərində nəzarət qoyursan... Amma gərək insanların mədəsini də görəsən. Təkcə şəhərin gözəl görsənməsi ilə iş bitmir. Üzeyir bəy 19-cu ildə yazırdı ki, bu vətən də, bu millət də, bu dövlət də bizimdir. Bu, onların əqidələri idi, ona qulluq edirdilər. Üzeyir bəy yazırdı ki, bilirsiniz mən redaktoru olduğum bu qəzetin səhifələrini kimə açmışam: vətən abadlığı, millət səlamətliyi, camaat tərəqqisi, dövlət intizamı, istiqlal və yenə də istiqlal. Kim bunlardan yazırsa, qəzetimizin səhifələri onun üzünə açıqdır. (məmnunluqla gülür) Bizim o kişilərdən öyrənəcəyimiz şey çoxdur. Cümhuriyyət haqda məqalələrdə deyilir Allah bizə hər şey verib. Üzeyir bəy deyirdi bizim bu millətə imkan yaransa, bunun Bethoveni də, alimi də olacaq, millət hamısını yetişdirmək iqtidarındadır. Bu millətə sahib olmaq lazımdır.

***

İndi ictimai formasiya dəyişib. Amma camaatımız sovet dövründən qalandır. Hələ bizdə demokratik dövlətin ziyalısı yetişməyib. Millət ayrı-ayrı fərdlərin məcmusudur.

Təbii, hava Azərbaycanda müəyyənləşmir. Şimal küləyi əsir, soyuq gətirir, cənub küləyi əsir, isti gətirir. Azərbaycan ərazisinin cəmi 9 faizini meşə təş-

kil edir. Burda öz istehsal etdiyimiz oksigenə qalsa, biz qırılarıq. Oksigen bura o küləklərlə gəlir. Biz küləklər şəhərindəyik. Özü də burada təkcə təbiət küləyi deyil, həm də siyasət küləyi əsir. Rusiyadan bir cür, İrandan, Türkiyədən, Avropa, Amerikadan bir cür külək əsir. Bu küləklər şəhərində, ictimai-siyasi küləklər şəhərində yol keçmək asan deyil. Təsəvvür edin ki, dövlət başçısı gəminin kapitanıdır. O gəmi bata da bilər, sahilə çıxa da bilər, cəhənnəmə də, cənnətə də gedə bilər. Cəhənnəmlə cənnət arasında bir keçid var - ora Əraf deyirlər. Farslar deyir cənnətdən gələnə Əraf cəhənnəm, cəhənnəmdən gələnə cənnətdir. İndi biz müstəmləkəçilikdən gəlmişik indiki vəziyyətə, ona baxanda cənnətdəyik. Amma cənnətə baxanda cəhənnəmik. Demokratik ölkələrə baxanda biz cəhənnəmdəyik, avtoritar rejimlərə baxanda cənnətdə. Çünki keçiddəyik, Ərafda. Cəmi 20 il keçib. İndi Fransada 5-ci respublikadır. Fransa, Fransa olana qədər...Elə şey var ki, biz bəzən öküzdən süd umuruq.

Bunları deyib gülür. Mən bu dəyərli insanın, gözəl ziyalı, böyük araşdırmaçının vaxtını daha artıq almamaq üçün onunla dahi Üzeyir bəyin adını daşıyan küçədə yerləşən mənzilindəki söhbətimizi bitirib ayrılıram. Allah sizin kimi ziyalımızı var eləsin, Şirməmməd müəllim!

Elşad PAŞASOY
"Yeni Müsavat", dekabr 2014

Redaktordan:
Şirməmməd Hüseynovun bu yazısı "Yeni Müsavat" qəzetində çox kobud surətdə təhrif olunmuş sərlövhə ilə çap olunmuşdu. Ona görə Ş.Hüseynov "525-ci qəzet" vasitəsilə "Yeni Müsavat"çılara irad məktubu yazdı.

"Yeni Müsavat" qəzetinin redaksiyasına

Jurnalist həmkarlar! Müsahibə alanda müəllifin fikrini təhrif edib, ona uydurma sərlövhə çəkməyə nə hacət var? Hansı vicdansız deyə bilər ki, biz cəhənnəmdə yaşayırıq? Müstəqil dövlətdə cəhənnəm olmaz. Keçid dövründə çətinlik olar, nöqsan olar, çatışmazlıq olar, bunu cəhənnəm kimi təqdim etmək yaramaz.

Elşad Paşasoy mənim ona dediyim fars atalar misalını yaxşı başa düşməyib. Niyə yazıda mənim dediyim "Vətən də bizimdir, millət də bizimdir, dövlət də bizimdir" sərlövhəsini qoymur? Jurnalistin, redaksiyanın müəllifin fikrinin ümumi ruhunu öz istədiyi kimi dəyişməyə haqqı yoxdur.

Hörmətlə,

Şirməmməd HÜSEYNOV
"525-ci qəzet", 21.12.2014

TƏQAÜDÜNÜ MİLLƏTİNƏ XƏRCLƏYƏN KİŞİ...

Biz necə etməliyik ki...

...İnsanlarımız ziyalılığı, Vətən qarşısında məsuliyyəti Şirməmməd müəllim obrazında şəxsiyyətlərdən öyrənə bilsinlər.

Millət vəkili **Fazil Mustafa** ictimaiyyətə sual ünvanlayıb; necə edək ki, insanlarımız ziyalılığı, Vətən qarşısında məsuliyyəti öyrənsinlər?

Bu sual elə-belə, boşuna ortaya çıxmayıb. Dəyərli ziyalımız, professor Şirməmməd Hüseynovun timsalında səslənib. F.Mustafa Feysbuk səhifəsində Şirməmməd Hüseynovla telefon söhbətinin məzmununu paylaşıb. İctimaiyyəti düşündürəcək sual da məhz bu danışıq fonunda boy göstərir:

"Bu gün qocaman və dəyərli Azərbaycan aydını Şirməmməd Hüseynova zəng vurmuşdum. "Azərbaycan" qəzetindəki parlament müzakirəsini əks etdirən iki cildlik kitabı mənə göndərdiyinə görə təşəkkür etdim. Bu barədə ayrıca status yazdığıma görə üzərində çox da durmaq istəmirəm. Artıq Şirməmməd müəllim 3-cü cildi də tamamlamaq üzrədir.

Sadəcə vacib bir məqama toxunmaq istəyirəm ki, biz necə etməliyik ki, insanlarımız ziyalılığı, Vətən qarşısında məsuliyyəti Şirməmməd müəllim obrazında şəxsiyyətlərdən öyrənə bilsinlər. Diqqət yetirin, adam Prezident təqaüdü alır, o vəsaiti şəxsi yaşamı üçün xərcləmir. Cümhuriyyət tariximizə aid bütün kitabları öz vəsaiti hesabına kompüterdə yazdırır, redaktə etdirir, nəşr etdirir. Sonra da satışa da vermir, ayrı-ayrı insanlara pulsuz-parasız göndərir ki, oxuyub aydınlansınlar. Yəni ölkə Prezidentinin verdiyi təqaüdü millətin maariflənməsi üçün xərcləytr. Bir çox insanlar tanıyıram ki, hətta imkanları, övladlarının vəzifə gəlirləri ən yüksək formada olsa da, bu təqaüdü alırlar. Cəmiyyətə, millətə verdikləri, üç badam bir qozdan artıq deyil. Bu kişiyə, yəni Şirməmməd müəllimə həmin təqaüdün beş qatını, on qatını da versən halaldır. Bu cür fədakarlıq nümunəsi etməyə həqiqətən də çətinlik çəkirəm. Danışdıqca aydın, diri, modern təfəkküründə heyran qalırsan.

Qeyd edim ki, tarixə, dəyərlərə baxışlarımız əsasən üst-üstə düşür və bu yeni düşüncəni arıq vücudunda daşıyan dəyərli bir azərbaycanlını görəndə bizi nadanlıqları ilə işimizdən ayıran bır çox əzbərçi və vətənşivənçi məxluqlara ürəyim acıyır. Bu kişi əsl cümhuriyyət tarixini ortaya qoyur, gedib külli miqdarda dövlət vəsaiti hesabına təhrif olunmuş iki cildlik Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası nəşr etdirmir. Bu kişi böyük Məhəmməd Əmin bəyi şüar olaraq təqdim etmir, əməl olaraq, əsər olaraq təqdim edir. Üzeyir bəyi də, Zərdabini də, başqa millət fədailərini də eləcə... Nə deyim, Allah qorusun. Bu həftə içi ayrıca görüşüb

fikir mübadiləsi aparmağımızı istədi, söylədim ***ki,*** fikir mübadiləsinə deyil, sizdən bir çox şeyləri öyrənməyə gələcəyəm. Ziyalı borcunu, peşəkarlığı, vətəndaş məsuliyyətini hər dəfə bu kimi insanlardan öyrənmək vacibdir məncə..."

"Ziyalının qayğısına qalınmalıdır..."

Millət vəkilinin fikirlərinin ardınca digər ziyalılarımızın düşüncələrini də öyrənməyə çalışdıq.

Türkoloq-alim, professor Firudin Cəlilov "Şərq"ə açıqlamasında qeyd etdi ki, dövlət dura-dura ziyalıların korluq çəkməsi yaxşı hal deyil:

- Şirməmməd müəllim tək deyil. Onun kimi bir çox ziyalılarımız, aydınlarımız var ki, ömrünü-gününü, həmçinin də varını Azərbaycan tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin qorunmasına, təbliğinə və tariximizin gələcək nəsillərə çatdırılmasına sərf edib.

Prezident təqaüdü alanlar var, amma mən almıram.

Qeyrətli oğullarımız sayəsində nəşr olunub (qeyd edək ki, F.Cəlilov 9 cildlik "Doqquz bitik" – "Azərbaycan türklərinin islamaqədərki tarixi" əsərinin müəllifidir – red.).

Ziyalının qayğısına qalınmalıdır. Dövlət dura-dura ziyalı korluq çəkir, əsərlərini nəşr etdirə bilmir. Amma bu ziyalılar dövlətçilik üçün, millət üçün, çalışırlar. Şəxsi iddiaları da yoxdur. Prezidentin sərəncamı ilə Elmin İnkişafı Fondu yaradılıb. Ora dövlət vəsaiti köçürülür. Bu fond dövlətçilik maraqlarımızdan çıxış edən, tariximizin öyrənilməsinə yönəlmiş əsərlərin nəşrini həyata keçirməlidir. Bu yaxınlarda Azərbaycan Elm Festivalı keçirildi. Yaxşı işdir. Amma hər bir işin məramı, məqsədi bilinməlidir. Festival bizə nə verdi, orda kimlər təmsil olundu, nəticəsi nə oldu?!

Bunları bilmirik. Ziyalılar təmənnasız çalışır, həyatlarını xalqa, dövlətə sərf edirlər. Bunun əvəzində gərək lazım olan diqqəti, qayğını da görsünlər.

"Heç kim təqaüdünə kitab nəşr etmir..."

Azərbaycan-Avropa Hərəkatının prezidenti Ramin Hacılı isə belə hesab edir ki, ziyalı şəxs təqaüdünə kitab nəşr etdirməməlidir:

- Normal ölkələrdə heç kim şəxsi təqaüdünə kitab nəşr etdirmir. Bu işlə nəşriyyatlar, dövlət, ya da konkret adamlar məşğul olur və kommersiya fəaliyyəti göstərirlər. Tələb təklif yaradır. Nəşriyyatlar oxunan, satılan kitabların nəşrində maraqlı olur. Azərbaycanda isə inkişaf o səviyyəyə çatmayıb. Necə ki, Mirzə Cəlil həyat yoldaşının varidatı hesabına əsərlərini nəşr etdirirdi, biz elə indi də o səviyyədə qalmışıq. Maarifçiliyin başa çatmadığı ölkə kimi buna məcburuq.

Elmin İnkişafı Fondunun bu işdə hansı yardımı ola biləcəyinə gəlincə, R.Hacılı qeyd etdi ki, sözügedən fond bir sıra addımlar atır:

- Yəqin ki, bu Fondun yaradılmasında bir məqsəd var. Və addımlar da atılır. İstər "Elm" Fondu olsun, istərsə də dövlətin təsis etdiyi hansısa digər ictimai institutlar, hər birinin qarşısında konkret dövlət proqramı qoyulur. Yəni, bu istiqamətdə proses gedir. Amma hələ sona çatmayıb. Ona görə mən hazırkı vəziyyəti maarifçiliyin başa çatmaması kimi xarakterizə edirəm.

"Şərq", 15 noyabr 2015

ŞİRMƏMMƏD HÜSEYNOVUN BƏXTİYAR VAHABZADƏ İLƏ BAĞLI XATİRƏLƏRİ

"Mənim rejimə qarşı yazdığım bir sıra əsərlərin, o cümlədən "Bağışlayın, səhv olub", "Mərziyə", "Ləyaqət", "Dan yeri" və s. yazılmasının səbəbkarı Şirməmməd müəllim olub. Daha doğrusu, mövzunu o seçib".

Bəxtiyar VAHABZADƏ,
"İstiqlal" kitabı, 1999-cu il

- **Mən Bəxtiyarın şəxsiyətindən daha çox əqidəsinin aşiqiyəm. İndi də bəzi məsələlərdə mövqelərimiz düz gəlmir. Hərəmiz bir cəbhədəyik. Amma bizi birləşdirən bu torpağa, bu vətənə, onun istiqlalına olan məhəbbətdir.**
- **1975-ci ildə Şəkidə idik. Bəxtiyarın 50 illik yubileyi idi. Mərkəzi Komitədən Heydər Əliyevin köməkçisi zəng etdi ki, Bəxtiyar müəllim, Heydər Əliyev sizinlə danışmaq istəyir.**
- **Çingiz Aytmatov, Oljas Süleymenov Bəxtiyarı əsrin şairi, türk dünyasının böyük şairi adlandırırdı.**
- **Normal iş və istirahət rejiminə əməl etmirdi. Gecə saat 12-dən səhər saat 6-ya qədər işləyirdi. Gərək o yazanda yanında heç kim olmayaydı.**
- **Sonuncu gün Dilarə xanım mənə zəng etdi ki, Şirməmməd müəllim, Bəxtiyar getdi, gəl.**

Bu dəfə rubrikamızda Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə ömrünün gizli səhifələrindən söz açılacaq. Yaxın dostu, Bakı Dövlət Universitetinin professoru, "Şərəf" ordenli Şirməmməd Hüseynov böyük şairin keşməkeşli həyatı ilə bağlı maraqlı xatirələrini bizimlə bölüşəcək.

- Bəxtiyar müəllimlə tanışlığınız nə vaxta təsadüf edir?

- Mən Bəxtiyarla 1945-ci ildə tanış olmuşam, Bakıya oxumağa gələndə. Hər ikimiz Şəkidən olsaq da, orada tamşlığımız olmayıb. Universitetə Bəxtiyar məndən 3 il qabaq daxil olmuşdu. Jurnalistika ixtisası da filologiya fakültəsinin nəzdində idi. O zaman fakültədə "Ədəbiyyat" dərnəyi var idi. Bir dəfə dərnək üzvləri getdik Yazıçılar İttifaqına. Hərə yazdığı bir şeiri oxudu, elə Bəxtiyar da. Səməd Vurğun onu saxladı, dedi, o şeiri bir də oxu. Oxudu. Dedi, ay arıq bala (çox arıq idi) yaxşı yazmısan. Bəxtiyarı o zamandan tanıdım.

- Hər ikiniz şəkili idiniz, amma Bakıda tanış olmusunuz?

- Bəli. Onun doğma anası ilə mənim anam bir yerdə Şəkidəki 3 nömrəli ipək fabrikində işləyiblər. Amma tanışlığımız olmayıb. Bəxtiyar Vahabzadənin tərcümeyihalını hələ dəqiq yazan çox azdır. Bir zaman Bəxtiyara böhtan kampaniyası başladılmışdı. 1952-ci ildə bir şeir yazmışdı, şeirin məzmunu belə idi ki, oxucu gedir kitabxanaya deyir ki, sizdə Şirvanzadənin "Namusu" var? Aleksandr Şirvanzadənin "Namus" əsəri nəzərdə tutulur. Ermənilər götürüb yazırlar ki, Bəxtiyar Vahabzadə erməni yazıçısı Aleksandr Şirvanzadəni namussuz hesab edir. Namus sözünü dırnaq içində yazmadığı üçün ona hücum çəkdilər. "Kirpi" jurnalı onun karikaturasını verdi... Hətta 5-6 il bundan əvvəl də bizim bəzi qəzetlər onunla bağlı böhtan kampaniyasını iyrənc formada davam etdirirdilər. O zaman mən mətbuatda çıxış etdim və ona qarşı olan hücumlara tutarlı cavablar verdim. Bəxtiyarı yaxından tanıyan adam kimi, onunla bağlı yazılan bəzi qaranlıq məqamlara da aydınlıq gətirdim.

- Bəxtiyar müəllim özü yazır ki, onun bir çox əsərlərinə Siz ideya vermisiniz...

- 1993-cü ildə "Əkinçi" qəzetinin "Körpü çaydan uzaq düşüb" məqaləsinə əsaslanaraq "Körpü çaydan yenə uzaq düşüb" adlı bir yazı yazdım. Bəxtiyar mənə zəng elədi ki, o nədir yazmısan, şərh elə. Mən də ona izah etdim. Gecə saat 4-ün yarısında ev telefonuna zəng gəldi. Açdım telefonu, dedi ki, al gəldi. Bu sözlərə şeir yazmışdı. Səhər gördüm "Kommunist" qəzetində də dərc olunub. "Dostum Şirməmməd Hüseynova "Körpü çaydan uzaq düşüb". Bəzən mən ideya verirdim, amma sənəti o yaradırdı. Bəxtiyarın hər poeması bir fakta əsaslanır. Məsələn, elə götürək "Ləyaqət" poemasını. "Komsomolskaya pravda" qəzetində böyük bir səhifə "Saşa" adlı yazı verilmişdi. Mən də oxudum, demək, 13 yaşında bir oğlan uşağı mağazaya gedir, kəsmik alır, pulu qoyur, amma mağazadakılar elə bilir ki, ödəməyib. Uşağı tuturlar ki, oğrusan, kəsmiyi oğurlamısan. Uşağın anası da xəstəxanada imiş. Uşaq oğru olmadığını onlara inandıra bilmir, gedir axşam özünü asır ki, mən bu adı daşıya bilmirəm. Mən də bunu Bəxtiyara oxudum. O da poemanı yazdı.

Mən oxuduqlarımı ona şərh edəndə, həmişə qarşısında kağız-qələm olurdu, qeydlər aparırdı. O zaman bir qəzetdə "Bağışlayın, səhv olub" adlı yazını onun üçün oxudum. Gördüm həmin yazıya bir poema yazıb. Verdiyim bütün mövzulara yazılan əsərlərin ilk oxucusu mən idim. Deyirdi "fitvanı vermisən, gəl götür". Bəxtiyar həmişə deyirdi ki, Şirməmməd, mənə dayaq nöqtəsi ver, gör neynəyirəm.

- Söhbətinizdən çıxardığım nəticə o oldu ki, sizin əqidəniz eynidir. Bəs fərqli olan nə idi?

- Mənimlə heç kimin işi yox idi. Hələ bir dəfə də olsun məni DTK çağırmamışdı. İmkan verməmişəm ki, bir adam mənə nəsə eləsin. Amma Bəxtiyarı laxlatmaq, tərpətmək istəyənlər çox idi. O nüfuz adamı idi, onu millət tanıyırdı. Müstəqilliyin ilk illərində xalq onu əlləri üstündə "Azadlıq" meydanında tribunaya çıxarmışdı. İstedadı həmişə qorumaq lazımdır. Elə şəxslər var ki, onlar tarixdə qalır. Şirməmməd Hüseynovlar gəlib gedəcək, Bəxtiyar Vahabzadələr isə əbədi olaraq tarixdə qalacaq.

- Bəxtiyar Vahabzadə şair, müəllim və alim kimi – onun bu sahələrdə fəaliyyətini necə qiymətləndirirsiniz?

- Burda düzəliş lazımdır. Bəxtiyar müəllimdir, şairdir, sonra alimdir. Çünki özü də yazırdı "Qoyar dizinin altına, alim Bəxtiyarı şair Bəxtiyar". Bəxtiyar müəllimlikdən başqa heç bir yerdə işləməyib. 1947-ci ildən müəllim idi. Özü işdən çıxana qədər heç kim ona deməmişdi ki, çıx.

- Amma onun universitetdən uzaqlaşdırılması barədə məlumatlar da var idi...

- Bəxtiyar bir gün də olsun universitetdən uzaqlaşdırılmayıb. Mən filologiya fakültəsinin partiya komitəsinin katibi olanda, 70-ci illərin əvvəlində iki professor açıq imza ilə Mərkəzi Komitəyə 9 bənddən ibarət məktub göndərmişdi ki, onu universitetdən uzaqlaşdırmaq lazımdır. Mərkəzi Komitədən də məktubu tədbir görülməsi üçün universitetə göndərmişdilər. Mən də həmin o məktubda göstərilən bəndləri sənədlərlə

təkzib edən dəlilləri toplayıb verdim Bəxtiyara. Çalışırdılar ki, onu auditoriyadan uzaqlaşdırsınlar. Amma biz buna imkan vermədik. Bəxtiyar bir gün də olsun universitetdən çıxarılmayıb.

- Bəxtiyar Vahabzadənin sevimli yazıçısı kim idi?

- Bəxtiyar Səməd Vurğunun aşiqi idi. Namizədlik və doktorluq dissertasiyasının hər ikisinin də mövzusu Səməddir. Hətta 1952-ci ildə Mircəfər Bağırov Səməd Vurğunu "İnsan" poemasına görə cəzalandırmaq istəyirdi. Bəxtiyar da Səməd Vurğun haqqında dissertasiya yazırdı. "Kirpi" jurnalı da vermişdi ki, Bəxtiyar məddahlıqla məşğuldur. Ona da hücum vardı. 1953-cü ildə Stalin ölməsəydi, Bağırov Səməd Vurğunun axırına çıxacaqdı.

- Özü ən çox hansı əsərini sevirdi?

- Adamın çox uşağı ola bilər. Amma mən görməmişəm ki, desin bu uşağımı çox istəyirəm.

- Amma Bəxtiyar Vahabzadə oğlu Azərdən daha ağızdolusu danışırdı...

- Yox, yox. Əgər övladın, ya da sənin işlədiyin yerdə kimsə dediklərini qəbul edirsə, onu çox istəyəcəksən. Kimsə sən deyənə qulp qoyursa acığın tutur.

- O nə vaxt ailə qurmuşdu?

- 1952-ci ildə.

- Necə ailə başçısı idi?

- O nəinki ailə ilə, on pillə uzaq olan qohum-qardaşlarla da məşğul idi. Məsələn, gedib Şəkidə otururduq. Görürdük ki, biri gəldi: "Bəxtiyar müəllim, mənə çörəkpulu ver". Bu da pulları paylayırdı. Dedim, gözlə, onların nəfəsini kəsəcəyəm. Şoferə dedim ki, 20 dənə çörək al, qoy stola, üstünü ört. Kim gəlirdi çörəkpulu üçün, bir çörək verib yola salırdıq.

- Bir az da 90-cı illərdə xalqın önündə gedən Bəxtiyar Vahabzadədən danışaq. O zaman Milli Məclisdə Ümummilli liderimiz Heydər Əliyevə böhtan atanlara Bəxtiyar Vahabzadənin məşhur bir cavab çıxışı olmuşdu. Xatırlayırsınızmı?

- Bəli, yaxşı xatırlayıram. Bəxtiyar demişdi ki, vaxtilə Heydər Əliyevə çay aparmaq üçün növbə gözləyənlər, indi onun əleyhinə çıxış etmək üçün növbə gözləyirlər. Bəxtiyar siyasətçi deyildi, şair idi. Amma mənəvi dəyərlərə çox yüksək qiymət verən adam idi.

- Ancaq Heydər Əliyev də Bəxtiyar Vahabzadəyə həmişə diqqətlə yanaşıb. Hətta şair özü də "Gülüstan" poeması və digər əsərlərinə görə təqib olunanda, sovet rejiminin qanlı pəncəsindən qurtulmağında Heydər Əliyevin əvəzsiz rolunu dəfələrlə qeyd edib...

- Yaxşı xatırlayıram, 1975-ci ildə Şəkidə idik. Bəxtiyarın 50 illik yubileyi idi. Mərkəzi Komitədən Heydər Əliyevin köməkçisi zəng etdi ki, Bəxtiyar müəllim, Heydər Əliyev sizinlə danışmaq istəyir. Heydər Əliyev Bəxtiyarın yubileyini təbrik etdi. Dedi ki, səni "Şərəf nişanı" ordeninə təqdim etmişəm, veriblər. Təbrik edirəm.

- Onun türk dünyasında da böyük hörməti var idi...

- Əlbəttə. Təsəvvür edin ki, Çingiz Aytmatov, Oljas Süleymenov Bəxtiyarı əsrin şairi, türk dünyasının böyük şairi adlandırırdı. Axı Bəxtiyar da təpədən dırnağa qədər türk idi.

- Sizin ona bu qədər köməkliyiniz dəyib, dəfələrlə onu dardan qurtarmısınız. Onun necə, sizə köməkliyi olubmu?

- Mən ki, Bəxtiyarla durub-otururdum, onun ətrafı geniş idi. O zaman yaxşı xatırlayıram, Sadıq Murtuzayev Şəki Rayon Partiya Komitəsinin birinci katibi idi. Bəxtiyara ev tikmək üçün yer verəndə, mənə də verdi. Mənim ətrafımı genişləndirən Bəxtiyar idi. Bəxtiyarla məsləkdostu idik, yemək yox.

- Necə dost idi?

- Dahi adamlar hər şeydə istedadlı olur. Məsələn, bizim heç bir zaman boş söhbətimiz olmayıb. Məni görən kimi dünyada nə var, nə yoxla maraqlanırdı. Moskvada hansı qəzet çıxırdısa və bizim tariximizi, mədəniyyətimizi təhqir edən yalançı pəhləvanların hamısına Bəxtiyarla birlikdə cavab yazırdıq. Böyük istedadlarda maqnit var, eyni əqidəni bölüşdükləri adamları özlərinə cəlb edirlər. Mən Bəxtiyarın şəxsiyyətindən daha çox əqidəsinin aşiqiyəm. İndi də bəzi məsələlərdə mövqelərimiz düz gəlmir. Hərəmiz bir cəbhədəyik. Amma bizi birləşdirən bu torpağa, bu vətənə, onun istiqlalına olan məhəbbətdir.

- İncidiyiniz zamanlar olub?

- Əqidəyə sadiq adamdan incimək olmaz. Həm də Bəxtiyar heç kimin sözünə baxmırdı məndən başqa.

- Onunla hardasa səfərdə olmusunuz?

- Ağdam və Şəkidə olmuşuq. Ölkə xaricində yox.

- Onun bir müsahibəsini oxumuşdum. Deyirdi ki, "Füyuzat" jurnalı yenidən dərc olunanda ağlayıb...

- Yox, qızım, ağlamayıb. Burda ağlamalı nə var ki? Amma Bəxtiyarın ağlamaq xasiyyəti var idi. Onu 4-5 dəfə ağlayan görmüşəm. Şairlər hiss, alimlər zəka adamıdır. Ağlamaq hisslə bağlıdır.

- Bəxtiyar müəllimin son günlərini xatırlayırsınız?

- Xəstəlik həyatla mübarizədir. Şairlərdə maraqlı aludəçilik olur. Məsələn, siqareti tərgitmədi. Deyirdi ki, şair gərək siqaret çəkə ki, şeir yazsın. Siqareti atmadı, ciyəri xərçəng oldu. Normal iş və istirahət rejiminə əməl etmirdi. Gecə saat 12-dən səhər 6-ya qədər işləyirdi. Gərək o yazanda, yanında heç kim olmayaydı. Həyat yoldaşı Dilarə xanım yeməkləri bişirib qoyurdu soyuducuya. Gecə həm işləyirdi, həm də yeyirdi.

- Onun ölüm xəbərini kimdən eşitdiniz?

- Son günlərində onlara həftədə üç dəfə gedirdim. Dururdu, gəzirdi, amma hiss olunurdu ki, bədəni çox zəifləyib, əsir. Təzyiqi çox yüksək idi. Sonuncu gün Dilarə xanım mənə zəng etdi ki, Şirməmməd müəllim, Bəxtiyar getdi, gəl.

Söhbətimiz elə burdaca yekunlaşır. Şirməmməd müəllim gətirdiyi kitabları, qəzet materiallarını mənə təqdim edir. Sonda Bəxtiyar Vahabzadənin onun barəsində dediyi sözləri oxuyuram:

- Şirməmmədi yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil.

Rüfanə GÜNƏŞ,
r.qurbanova@muallim.edu.az
"Azərbaycan müəllimi" qəzeti, 14 mart 2015-ci il

ŞİRMƏMMƏD HÜSEYNOV TƏRCÜMƏ MƏRKƏZİNDƏ

Görkəmli tədqiqatçı alim, BDU-nun jurnalistika fakültəsinin professoru Şirməmməd Hüseynov Tərcümə Mərkəzində olub. Aprelin 7-də Mərkəzin direktoru Afaq Məsud və mərkəzin əməkdaşları Yaşar Əliyev, Mahir Qarayev, İlqar Əlfioğlu, Fərid Hüseyn və Feyziyyə Sultanmuradova professor, görkəmli tədqiqatçı Şirməmməd Hüseynovla görüşüb.

A.Məsud qonağı salamlayaraq, Mərkəzin yarandığı gündən Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində gördüyü işlərdən danışıb: "Mərkəz, Qarabağ həqiqətləri, erməni vəhşilikləri, ermənilər tərəfindən törədilən tarixi qətliamlarla bağlı sənədli məlumatları, oçerk və məqalələri həftəlik mətbu orqan olan "Aydın yol" qəzeti, həmçinin, 8 dildə yayımlanan rəsmi saytı vasitəsilə ictimailəşdirilməsi istiqamətində mühüm işlər görür. Bununla yanaşı, Mərkəzdə Azərbaycanın tarixi əraziləri, etnogenezi, Qarabağın tarixi, erməni qəsbkarlığı ilə bağlı bu vaxta qədər işıq üzü görməyən müfəssəl məlumatlı mətn və materialların, tarixi sənədlərin toplanması, kitab, toplu şəklində dünya dillərinə tərcümə olunması prosesinə hazırlıq işləri də gedir. Yəni artıq əlimizdə olan materiallar arxivləşdirilir, tərcümə mərhələsinə çatdırılır".

A.Məsud, həmçinin bu sahədə ölkə ictimaiyyəti, ayrı-ayrı alimlər və tarixçilər tərəfindən kifayət qədər işlər görülsə də, problemlə bağlı dünya ictimaiyyətindən gözlənilən nəticənin hələ də əldə olunmadığı barədə danışaraq, bu istiqamətdə daha təsirli və işlək vasitələrin aranıb-axtarılmasının vacibliyini vurğulayıb.

Şirməmməd Hüseynov öz növbəsində ən dəqiq tarixi həqiqətlərin hansı mənbələrdə aranıb-axtarılması, bu mənbələrlə necə işləmək barədə geniş məlumat verərək, min bir çətinliklə əldə olunan mənbələrin də, həm tərcümə edilərkən, həm ana dilində nəşr olunarkən xətalarla tərtib olunduğu barədə danışıb: "Əvvəla bundan başlayaq ki, Azərbaycanda olan məlum mənbələrin çoxu səhv tədqiq olunur. Bunun da əsas səbəbi odur ki, tədqiqatçılar tərəfindən yol verilən yanlışlıqlar redaktorlar tərəfindən düzəldilmir və buna görə də təhriflər qaçılmaz olur. Rəsulzadə deyirdi ki, türklər tarix yaradırlar, ancaq yazmırlar. Bizim tariximizi isə həmişə düşmənlərimiz yazıb. Türklərin qəhrəmanlığını vəhşilik kimi, öz vəhşiliklərini qəhrəmanlıq kimi göstəriblər. Tarixi faktların araşdırılması zamanı mənbələrlə iş zamanı olduqca həssas və diqqətli davranmaq lazımdır.

Sovet illərində Üzeyir bəyin 1905-ci ildə "Həyat"dan başlayıb, 1915-ci il oktyabrına qədər yazdığı əsərlər çap olunub. 1915-ci ildən sonrakı əsərlərini çap eləmirdilər, çünki artıq Müsavat dövrü başlayırdı. 1920-ci ilin aprelində Rus Ordusu gələndə Hacıbəyov bir neçə məqalə yazıb, amma öz imzasıyla dərc etdirməyib. Yazının sərlövhəsində "Soran", sonunda isə "çı" yazıb. Cümhuriyyət haqda müstəqillik illərində çap olunan kitablarda yazırlar ki, Hacıbəyovun gizli imzalarından biri də "çı" olub. "Çı" imza ola bilməz, sadəcə Üzeyir bəy başlıqdakı sözün şəkilçisini aşağıda yazıb. Sorançı, yəni soruşan adam mənasında işlədib. Buna görə də Cümhuriyyət tarixi ilə bağlı yazdığım kitabda bütün mənbələr

göstərilib, kitab orijinal sənədlərlə birlikdə çap olunacaq".

Tərcümə Mərkəzinin isə bütün bu işləri mükəmməl şəkildə, təhrifsiz, səhvsiz görməyə gücü və intellektual potensialı var deyən professor məsələnin qoyuluşundan və işin gedişatından razı olduğunu deyib: "Məsələni düzgün qoyursunuz. Bu işlərə nədən başlamaq çox önəmlidir. İlk növbədə, mütləq əsas mənbələri tapmaq və onlarla işləmək lazımdır. Azərbaycanla bağlı həqiqətlər, real tarixi faktlarla zəngin mənbələr var. Biz o qiymətli mənbələri – o dəyərli inciləri tapa bilərik və onları, ermənilərə havadarlıq edən dövlətlərin dilinə tərcümə edib yaya bilərik. Bundan başqa, rus və ya başqa dillərdə olan mənbələr də Azərbaycan dilinə çevrilməlidir. Lakin Azərbaycan həqiqətlərini dünyaya çatdırmazdan əvvəl, dediyiniz həmin güclü təbliğat işi Azərbaycanın özündə aparılmalıdır. Rəsulzadə yazırdı ki, "Biz istiqlaliyyətimizi, dövlətçiliyimizi əvvəl daxildə bərqərar etməliyik, sonra xaricdə". Vətəndaş həmrəyliyi, vətən və vətəndaşlıq hissi xalqa aşılanmalıdır.

Rəsulzadənin sözlərilə desək, İslamı yaradan ərəblər, ən yaxşı təbliğatçısı farslar olub. Çünki fars ədəbiyyatı, fəlsəfəsi, tarixi olduqca zəngin və qədimdir. İslamı ən yaxşı qoruyan isə türklərdir. Təsadüfi deyil ki, doqquz Səlib yürüşünün qarşısını məhz türklər alıb. Erməni məsələsinin köklərinin olduqca dərinlərə getdiyini unutmaq olmaz. Beynəlxalq güclər həmişə Türkiyəni zəiflətmək, arxadan bıçaqlamaq üçün erməni faktorundan istifadə ediblər. İngilislər daşnakların qulağına oxuyublar ki, siz Osmanlını daxildən dağıdın, biz də sizə "Böyük Ermənistan" yaratmaqda kömək edək. Birinci Dünya müharibəsi zamanı da ermənilər türklərə qarşı vuruşur, ölkəni daxildən dağıtmağa çalışırdılar.

Bilirsiniz, biz planlı işləməyi sevmirik. Gündəliklə yaşayırıq və gələcəyimizi təminat altına almaq barədə düşünmürük. Amma biz özümüzdə bu məsuliyyət hissini yaratmalı, planlı işləməyi bacarmalıyıq. Çünki hər nəsil qarşısında həmişə bu sual dayanır – "nə etməli?" və "nədən başlamalı?". Biz dünya ölkələrinin, xüsusilə də Qarabağ münaqişəsinin həllində iştirak edən dünya dövlətləri-

nin bu məsələyə hansı aspektdən yanaşdığını öyrənməliyik. Hamıya yaxşı məlumdur ki, erməni məsələsi ermənilərin məsələsi deyil. Ermənilər böyük dövlətlərin əlində, sadəcə bir vasitədir. İngilis-erməni, ingilis-fransız, ingilis-Amerika-fransız münasibətlərinin, dostluğunun tarixini araşdırmadan bu düyünü açmaq qeyri-mümkündür. Böyük Britaniya ensikpolediyasındakı materiallar əsasında erməni məsələsi öyrənilməli, fransız mənbələrində, rus müəlliflərin kitablarındakı faktlar ortaya qoyulmalıdır", – deyə professor vurğulayıb.

Ermənilərin bu məsələdə daha həssas olduğunu deyən Şirməmməd Hüseynov bir neçə mühüm tarixi faktları sadalayıb: "1857-ci ildə ermənilər bir alman səyyahını Qafqaza çağırıblar ki, onlar haqda kitab yazsın. Qonağı yaxşıca gəzdirib, yedirdib-içirdib yola salıblar. Səyyah da ölkəsinə qayıdandan sonra Ermənistan haqda bir kitab yazıb. İndi o kitabı müxtəlif dillərə tərcümə edir, tarixi fakt kimi ortaya qoyurlar. Ermənilər əsrlərdir ki, bu müharibəyə hazırlaşırlar. Omər Faiq Nemanzadə yazır ki, beş əsrdir 25 yaşına çatan hər bir erməni, erməni kilsəsinə millət vergisi verir. Buna görə də 1990-cı ildə ermənilər Ermənistanda və Azərbaycanda 140 min adamı silahlandırmışdılar. 1 milyon adamı qovmaq üçün bu qədər mütəşəkkil qoşun yaratmışdılar. Bu silahlar erməni kilsəsinə yığılan pullar hesabına alınmışdı.

1872-ci il ermənilər xeyriyyə cəmiyyətlərinin ayırdığı vəsait hesabına "Mşaq" qəzetini nəşr edirdi. Zərdabi araşdırıb ki, qəzetin nəşri üçün ən çox pul Şuşadan və Qarabağdan gəlib. Həsən bəy də bir xeyriyyə cəmiyyəti yaradıb, yollanıb Qarabağa. Böyük məclis qurulub, bütün bəylər yığışıblar. Elə ki, Zərdabi dəftəri çıxardıb, "O olmasın , bu, olsun"dakı HAmam səhnəsi kimi hərə qaçıb bir tərəfə. 1906-cı ildə "Əkinçi"nin 30 illiyindən sonra yazdığı məqalədə Həsən bəy daha bir maraqlı hadisəni xatırlayıb. Deyir ki, 1870-ci illərdə Mkrtıç adlı bir erməni İsa bulağından su gətirib satırmış. Günlərin bir günü ailəsi, uşağı olmayan bu qoca gəlir "Mşaq" qəzetinin redaktoru Arsruninin yanına və ona 997 manat rus pulu verir. Deyir ki, mən bu gün-sabah öləcəm. Düzdür, övladım yoxdur, amma erməni uşaqlarının hamısı mənim övladımdır. Zərdabi yazırdı ki, bir erməni suçusunda olan qeyrət bütün Qarabağ bəylərində yoxdur".

Görüşün sonunda Şirməmməd Hüseynov uzun illər araşdırdığı, əski əlifbadan çevirib tərtib etdiyi M.Ə.Rəsulzadənin əsərlərindən ibarət beşcildliyi Mərkəzin kitabxanasma hədiyyə edib.

L.ƏLİYEVA

"Aydın Yol" qəzeti, № 13(22), 10.04.2015

ŞİRMƏMMƏD HÜSEYNOVDAN BƏXTİYAR VAHABZADƏ İLƏ BAĞLI İLGİNC AÇIQLAMALAR...

"Bəxtiyarın şeiriyyatı bəzən adi sözlərlə izah olunmazdır..."

Gərək tənqidçinin intellektual bazası, fəlsəfi düşüncəsi Bəxtiyarın yarısı qədər ola ki, onu açа bilə"

Avqustun 16-da Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 ili tamam olur. **Moderator.az** avqust ayını Bəxtiyar ayı elan edib və Bəxtiyarsevərlərin yazılarını, xatirə və düşüncələrini məmnuniyyətlə saytda oxuculara təqdim edir.

İndi də Azərbaycanın canlı ensiklopediyası hesab olunan qocaman professor, Cümhuriyyət dövrümüzün yorulmaz tədqiqatçısı Şirməmməd Hüseynovun Bəxtiyar Vahabzadə ilə bağlı "Hürriyyət" qəzetinə müsahibəsini təqdim edirik:

- Şirməmməd müəllim, Bəxtiyar Vahabzadə bu millət üçün kim olub? Biz onu yetərincə tanıya bildikmi?

- Cənubi Afrikada okeanın dibindən elə nadir almazlar tapıblar ki, bəşəriyyət hələ onlardan böyüyünü tapmayıb. O almazları təbiət yaradıb. Amma onu tapanlar əslində heç özləri də bilməyib ki, tapdıqlarının nə qədər qiyməti ola bilər. Yəni o almazın qiymətini onu tapanlar yox, onun təbiətini bilənlər müəyyənləşdirirlər. Vaxtilə belə bir maraqlı hadisə olub. Ən nadir bir brilyant Hindistana gətirilib və bir hind zabiti həmin brilyantı gətirən adamdan alıb. Həmin brilyantı Avropaya aparıb baha qiymətə satmaq üçün onu baldırını əməliyyat etdirib ora yerləşdirməklə ölkədən çıxarmağa müvəffəq olub.

Deməyim odur ki, hər millətin də bu cür almazları, brilyantları var və çoxları onun doğru-dürüst qiymətini bilmir. Allah yaratdığı hər millətə və onun fərdlərinə müəyyən istedad və qabiliyyət verir. Amma bəzən o toplumların içərisindən dediyim bu cür almazlar, brilyantlar da yaradıb. Min illər boyu tanıdığımız, adını eşitdiyimiz peyğəmbərlər ki, var, hansı ki, milyardlarla adam onlara səcdə edir, onlar da qeyd etdiyim həmin o brilyantlardır, yəni nadir beyin sahibləridir.

Hər bir insan çəkisinin 1-1,5 faizini beyin təşkil edir. Ən ağır çəkili beyin iki kilo olub. Ən dahi adamların beyinlərini də çıxarıb saxlayırlar. İllər boyu alimlər tədqiqat aparırlar ki, dahilərin beyinlərinin digər insan beyinlərindən fərqi nədədir. Hətta Rocers Speys adlı amerikan alimi bu məsələyə görə Nobel mükafatı alıb. Bilirsiniz nəyə görə? Fikirləşiblər ki, insanlıq dövlət yaratmaq işini hardan kəşf edib? Dövlətin 3 ayağı var – qanunverici, icraedici və məhkəmə nəzarəti. Görəsən bunu hardan tapıblar? Həmin Rocers Speys kəşf edib ki, Ulu Yaradan hər bir insanın beynində bunun hər üçünü də yaradıb. Məsələn, tutaq ki, bədən su istəyir. Bu qanundur, İcra aparatı həmin suyu təmin edir və sən içirsən.

- Bəs o zaman məhkəmə nədir?

- Məhkəmə ağıl, zəkadır. Səni həddini aşmağa qoymur. Yəni ürəyin yanır, amma sənə deyir ki, bu qədər içməlisən, artığı ziyan edə bilər. Bu bir ilahi nəzarətdir. Yəni dövlət hər insanın beyninə Allahın hədiyyə etdiyi bu 3 prinsip əsasın-

da yaranıb – qanunverən, icra edən, nəzarət edən.

Tutaq ki, sən yolu keçmək istəyirsən və maşın gəlir. Qanun deyir ki, sən özünü qorumalısan. İcraçı da odur ki, sən gələn maşının sürətini ölçürsən görüm mən keçənədək o gəlib çatarmı? Nəzarət də odur zəka səni səhv etməyə qoymasın, maşının altına düşməyəsən. Kim ki, düşür, deməli nəzarət zəifdir.

Dövlətdə də belədir. Nəzarət zəif olan kimi aləm qarışır. Bəzən millət də o cür nadir talantlar yaradır, amma öz dövründə onun qiymətini bilmirlər.

Bəxtiyarı da Allah bu millətə hədiyyə kimi göndərib, amma biz hələ günü bu gün də nəyi qazanıb nəyi sonadək itirdiyimizi bilmirik. Bilirsiniz, əslində biz iki Bəxtiyar tanıyırıq. Biri məişətdən bizə tanış olan Bəxtiyardı, bir də şair, mütəfəkkir Bəxtiyar var. Bəxtiyar öz ailəsində sadəcə atadır və davranışı da digər ataların davranışından fərqlənmir. Amma elə ki, gecə yarıdan keçir və ailə-uşaq yatandan sonra o biri otağa keçib yazmağa başlayanda bambaşqa Bəxtiyar olur.

- Bəxtiyar deyirdi ki, qatlayıb dizinin altına qoyar, alim Bəxtiyarı şair Bəxtiyar.

- Təbii ki, onda şairlik təkcə alimliyə deyil, hər şeyə qalib gəlir. Orda o ayrı aləmdir. Çünki bayaq dediyimiz kimi, o, yazmağa başlayanda beyninin şairlik istedadı olan hissəsi hərəkətə keçərək heyrətamiz fəlsəfə fışqırır.

Bəxtiyarın şeiriyyatı bəzən adi sözlərlə izaholunmazdır. Adama elə gəlir ki, onun sözlərində ilahi bir ovsun, yüz il, min il sonraya hesablanmış mesaj var.

Mən Azərbaycanın gəlib-getmiş şairlərinin şeiriyyətini aşağılamaq istəmirəm, yəni almazın da karatı olduğu kimi, şeirlərin də karatı olur məncə. Məsələn, bir var nadir şair olasan, bir var sadəcə yaxşı şair olasan.

İkinci minilliyin sonunda – 2 mininci illərin sonunda Amerikada, Avropada jurnalistlər belə bir sorğu keçirdilər ki, ikinci minilliyin ən böyük ixtirası və ixtiraçısı kimdir? Rəyi soruşulanların 82 faizi minilliyin ən böyük kəşfinin kitab nəşri, ən böyük ixtiraçısının da Quttenberq olduğunu dedilər. Yəni əsrlərlə insanlar əliylə yazırdılar, amma maşınla yazmaq elmin qarşısını açdı, fanatizm səddini dağıtdı.

Bayaq da dedim dahilər öz zəmanəsində dərk edilməyib heç zaman. Bu təkcə Bəxtiyarla bağlı gerçəklik deyil ki. Məsələn, Belinski olmasaydı, Puşkini kim tanıyırdı ki. Gərək dahinin özünü də araşdıran, onun dünyasındakı hər şeyi üzə çıxarıb təhlil edən bir adam, bir tənqidçi ola. Amma bu tənqidçinin intellektual bazası, fəlsəfi düşüncəsi Bəxtiyarın yarısı qədər ola ki, onu aça bilə.

- Bəs Bəxtiyarın Bellnskisi nə vaxt zühur edəcək, 100 il sonramı?

- Onu demək çətindir. Amma bəzən təhlil bir yana, təhrif olunmuş məlumatlar da narahatçılıq yaradır və camaatı çaşdırır.

İTV-də Flora Xəlilzadə var, Bəxtiyarın oğlu İsfəndiyarla oturur və atası haqqında müsahibə aparırlar. İsfəndiyar nə desə yaxşıdır? Deyir ki, "Gülüstan" poemasından sonra atamı partiyadan, universitetdən çıxardılar. Mən də dedim ki, İsfəndiyar Vahabzadə, millətə yanlış informasiya vermə. Sənin atanı nə partiyadan, nə də universitetdən çıxarıblar. Həmin vaxt universitetin filologiya fakültəsinin partiya təşkilat katibi mən idim.

Özü də vaxtilə yazmışdı ki, mənə partiya töhməti verdilər. O haqq dünyada, biz nahaq, o da yalandı.

- Bəxtiyar da yalan yazarmış...

- Onu yazan məişət Bəxtiyarıdır, şair Bəxtiyar belə şey yazmazdı.

- Doğrudanmı o boyda "Gülüstan"a görə onu incitmədilər?

- Bu məsələdə hələ də camaatımızın bilmədiyi məqamlar var.

1999-cu ildə Həsən Həsənov Bəxtiyarın "İstiqlal" kitabını buraxdırdı. Bəxtiyar o kitabda 6 poemasının adını çəkir ki, bunların mövzusunu mənə Şirməmməd Hüseynov verib. Bu barədə bir qədər sonra danışacam.

Nizami dövründə nə qədər şair-yazıçı olub, onlardan birinin adı qalıbmı? 870 ildir Nizami babamız bizimlə bir yerdədir. Tarix bax budur. Niyə qızıl qiymətlidir? Bütün metalların canını oksigen alır. Amma qızıla girişə bilmir. Ona görə də Səməd Vurğun deyirdi ki,

Qızılı udsa da qara torpaqlar
Yenə qiymətini özündə saxlar.

İnsan metallar içərisində ona görə qızılı meyar seçib ki, heç bir şey onun təbiətini dəyişə bilmir.

- Bəxtiyar da bu millətin qızılı və brilyantıdır...

- Bunun zamana ehtiyacı var ki, zaman Bəxtiyarı saxlaya biləcək, ya yox.

- Bəxtlyarın Şəkidəkl o balaca büstünü ziyarətə getdinizmi bu dəfə?

- Hər dəfə gələndə birinci ora gedirəm.

- O büstü mən də ziyarət elədim. Mənə elə gəidi Bəxtiyar az qala dil açıb demək istəyirdi ki, mən boyda kişiyə bu büst yaraşırmı heç? Yəqin o Sizə də oxşar gileyi edib...

- Burda bir şey də var. Bilirsiniz necədir? Bəxtiyarın Məmməd Əmin Rəsulzadəyə həsr etdiyi bir şeiri var. Onun 1990-cı ildə yazıldığı deyilir. Amma həmin şeir bizim dövrümüzdə yazılıb. Bilirsiniz niyə? Tarixi elə qoyub ki, kimsə özünə götürməsin. Bəxtiyar yazırdı ki,

Bu torpağın özü boyda
Bu torpağa məhəbbətlə doluydun.
Bu torpağın yolunda da can qoydun
Borclu ikən Vətən sənə, xalq sənə,
Hər şey döndü tərsinə...
Qoymurlar ki, biz də verək
bu torpaqda bir məzarlıq yer sənə...

- Bu millət, bu Vətən Bəxtiyara sağlığında qiymət verdimi?

- Bilirsən nə təhərdi? İstedad çox böyük olanda onu yaradan elə yaradır ki, tarixin bütün keşməkeşlərindən qoruyur. Əgər yerin altında almazın formalaşmasına mane olan qüvvələr Yaradan tərəfindən dəf olunmasaydı, o dönüb brilyant olmazdı. İstedadı yaradanda onu qorumaq vərdişini də yaradır. Bax Bəxtiyarı da qoruyan ilahi qüvvə var. İkincisi də onu onilliklər boyu yaxından tanıyan bir dostu kimi deyirəm ki, Bəxtiyarın özü də ən böyük diplomat idi...

- Yəni özünü qorumağı bacarırdı...

- Ay sağ ol. Yanına da elə adamları yığmışdı ki, az-çox Bəxtiyarın istedadını qananlar idi. Məsələn, tarixçilərdən Süleyman Əliyarov, Mahmud İsmayılov, Ziya Bünyadov idi. Dəqiq elmlər sahəsində Xudu Məmmədov, Azad Mirzəcanzadə idi. Məsələn, birlikdə gedərdik Mirzəcanzadənin kabinetinə. Saatlarla onunla elmi yeniliklərlə bağlı söhbət edərdik.

Demək istəyirəm ki, onun ətrafında belə adamlar vardı. Amma indi başqa bir məqama da fikir verin. Şəkiyə gəlirdi, istəyirdi ki, beyni bir az istirahət eləsin. Bu zaman o başına kimləri yığırdı? Əhlikefləri. Sən tanımazsan, amma adını çəkən kimi şəkililər tanıyır, Əhmədiyyəni, Kazım doktoru, daha kimləri, yəni Şəkinin lətifə uzmanlarını, yaxud əhlikef adamlarını. Mən bəzən o məclislərdə oturmaqdan imtina edirdim, oturmurdum onlarla. Deyirdim sən bu avaraların söhbətlərinə nəyə qulaq asırsan? Deyirdi indi "atkluçatsa" olmuşam, o biri Bəxtiyara enerji yığıram. Yəni Bəxtiyarda belə şeylər vardı. Özünü də müdafiə etməyi bacarırdı, onu da müdafiə edənlər çox idi.

İndi gəlirəm bayaq dediyin "Gülüstan" poemasına. Mənə deyirdi ki, mənə bir dayaq ver, nə deyirsən yazım. Yəni tutacaq yer ver ki, mənə irəli bilməsinlər. Mən də verdim.

1958-ci ildə "Azərbaycan Kommunist Partiyasının tarixi" kitabı çıxdı. Bizim tarixçilər ilk dəfə olaraq sözün həqiqi mənasında isbat elədilər ki, Bakı bu millətin özünün yetişdirdiyi şəhərdir. Stalinsə deyirdi ki, yuxarıdan qurulub, Bakı Azərbaycanın içindən çıxmayıb. Yəni bu millət formalaşmayıb, kapitalizm mərhələsini keçməyib, feodal patriarxal ölkəsidir, biz qurmuşuq bunu. Amma o kitab çıxanda Moskvada narahat olmağa başladılar. Tökülüşüb gəldilər Azərbaycana. Məqalələr çap edərək bizi ifşa etməyə balşadılar. Hətta ermənilər axtarıb ortaya çıxarmışdılar ki, o kitabda Nərimanovun adı 260, Şaumyanın adı isə 210 dəfə çəkilir. SSRİ KP MK-nın şöbə müdiri Snastin və bütün müttəfiq respublikaların partiya tarixi arxivlərinin direktorları gəlmişdi. İstəyirdilər bizə sübut eləsinlər ki, boyunuzdan yuxarı tullanmısınız. Yəni siz kimsiniz ki, olsa-olsa Sov. İKP MK-nın bir təşkilatısınız. Deyirdilər siz hardan çıxardınız ki, vaxtilə müstəqil partiyanız olub?

Deyim ki, bütün bunları da Şıxəli Qurbanov təşkil etdmişdi. Stalin 56-cı ildə ifşa olundu, Beriya həbsə atıldı, Bağırov getdi və camaatda qorxu xofu xeyli azaldı. Amma məngənə öz işindəydi və insanları, ideyaları əzməkdə, üyütməkdə idi.

Görmədinizmi Şeyx Şamil məsələsinə görə yazıq Heydər Hüseynovun başına nə oyun gətirdilər? Nədi-nədi yazmışdı ki, Şeyx Şamil xalq qəhrəmanıdır və onun savaşı milli azadlıq hərəkatıdır. Stalinsə vaxtilə böyük rus xalqının sağlığına dedi ki, kim rusun əleyhinə çıxırsa Sovet İttifaqının düşmənidir. Şeyx Şamil də Rusiyanın əleyhinə çıxdığı üçün o qəhrəman ola bilməz.

Yəni bircə sağlıqla münasibət 180 dərəcə dəyişdi. Həmin dediyim kitabın da 59-cu ilin noyabrında müzakirəsi oldu. Şıxəli Qurbanov mənə dedi ki, bunlar bizi ifşa etmək üçün fürsət axtarırlar. Sən cavanların nümayəndəsi kimi çıxış edə bilərsənmi? Dedi ki, bu kitabı yazanlar indi cürət edib danışmayacaqlar. Amma sən danışa bilərsən.

Bunu da nəyə görə deyirdi? Mən 54-cü ildə Moskvada müdafiə etmişdim, 4 il orada oxuyub qayıtmışdım, odlu-alovlu vaxtlarım idi. Stalinin ifşasıyla əlaqədar

universitetin partiya konfransı oldu. Birinci katib İmam Mustafayev universitetə gəlmişdi. Stalini və Bağırovu ifşa edirdilər. Halbuki bunu bir neçə il əvvəl heç kəs yuxusunda görə bilməzdi. Hətta Stalin öləndə milyonlarla insan oturub zülüm-zülüm ağlayırdı.

Çünki şəxsiyyətə pərəstiş narkotik kimi bir şeydir. Məmməd Əmin deyirdi ki, şəxsiyyətə pərəstiş ictimai şüurun xərçəngidir. Sən indi görürsən ki, Şimali Koreyada nə oyun çıxarırlar?

- *Qıra baxanda bizə şükür...*
- Bax onları o qədər inandırıblar ki...
- *Beynini yeyərək manqurdlaşdırıblar da...*
- Bəli. Bu xəstəlik dünyada yayılıb. Özü də bu xəstəlik Şərqdə kök salıb.

Məmməd Əmin niyə prezident respublikası deyil, cümhuriyyət respublikası yaratdı? Məmməd Əmin yazırdı ki, biz min illər boyu şəxsiyyətə pərəstişlə böyümüşük, padşahlara, sultanlara, xanlara, bəylərə baş əymişik. Demişik ki, bir Allah var, bir peyğəmbər, bir padşah var. İndi də əgər biz prezident respublikası yaratsaq, o prezident bir neçə ildən sonra öz yerlilərini, öz dost-aşnasını başına yığacaq, adı olacaq prezident, özü olacaq sultan. Özü də bu zaman heç yerdə işlənməyən bir ifadə də dilə gətirib – seçkili monarxiya yaranacaq. Necə ki, Nazarbayev 5-ci dəfə seçildi, Qəddafi 42 il idi ki, guya hər 5 ildən bir seçilirdi.

- *Qayıdaq SSRİ-də Stalindən sonrakı dönəmin azadlıq havasından yaranan "Gülüstan"a.*

- Ona gəlirəm indi. Həmin iclasda mənim çıxışım oldu. Cəmil Həsənlinin "Azərbaycanda milli məsələ 1954-59-cu illər" kitabında mən deyənlərin hamısı var. Mən çıxış edərək dedim ki, burda bir məsələ qoyulub, amma müzakirəyə çıxarılan bu kitab ona görə yaxşı kitabdır ki, biz burda öz tariximizi yazmışıq. Amma bu vaxta qədər bizim tariximizi bizi bilməyənlər, heç əlifbamızı belə oxuya bilməyənlər yazıb. Biz nə qəbahət etmişik ki, sadəcə özümüz öz tariximizi yazmışıq.

Mən qəsdən Məmməd Əminin o sözünü çəkmədim ki, vaxtilə deyirdilər türklər tarix yaradandırlar, amma tarix yaza bilmirlər. Deyirdi ona görə də türklərin qəhrəmanlığını türk tarixini yazanlar vəhşilik, işğalçılıq kimi, öz işğalçılıqlarını isə qəhrəmanlıq salnamsəi kimi yazıblar. Ona görə də bu gün də Avropada türklərin obrazı cəngavər, vuran, dağıdan, yıxan bir quldur kimi qalmaqdadır.

Bu çıxışım şok effekti yaratdı. Snastin Mərkəzi Komitəyə hesabatında yazırdı ki, vızıvaet udivlenie naqloye vıstupleniye molodoqo prepodavatelya universiteta Şirmammeda Quseynova. Niyə belə yazmışdı? Çünki mən çıxışımda "qara məni basınca mən qaranı basım" prinsipiylə dedim ki, Azərbaycan niyə İrana və ya Rusiyaya birləşməlidir, niyə Azərbaycan müstəqil dövlət olmasın ki? Dedim ki, məsələnin bu cür qoyuluşu düzgün deyil. Siz niyə bu millətin müstəqil dövlət qurmaq ideyasını əlindən alırsınız? Niyə gərək biz hökmən harasa birləşək, niyə müstəqil olmayaq? Hətta bir az qabaqdangəlmişlik edib kitab yazanları da tənqid etdim ki, niyə məsələni bu cür qoymayıblar ki, Azərbaycanın cənubu ilə şimalı birləşməsin, niyə müstəqil olmaq haqqına sahib olmayaq?

Bax bu ovqat artıq "Gülüstan"ın yazılmasını şərtləndirirdi. 1963-cü ildə Gülüstan müqaviləsi imzalanmasının 150 illiyi idi. Bəxtiyar da indi dediyim bu

söhbətlərin içindəydi. Bir gün söhbət edirdik, qayıtdı ki, mən "Gülüstan" poemasını yazmaq qərarına gəlmişəm. Mən məsələni belə qoymaq istəyirəm ki, bizi parçalayıblar və müstəqilliyimizi əlimizdən alıblar.

Burda bir haşiyə də çıxım. Məmməd Əmin deyirdi ki, nə təhər oldu İslam-Türk aləmində cümhuriyyət məhz Şimali Azərbaycanda yarandı? Yəni rus Azərbaycanında. Səbəbini də deyir. Deyir ki, bizim ruslarla bir millət kimi tarixən ortaq olan heç nəyimiz olmayıb. Nə dilimiz, nə dinimiz, nə adət-ənənəmiz, nə məişətimiz, nə əxlaqımız – yəni bizi bir-birimizə yaxınlaşdıran heç nə yoxdur. Rus da ona görə bizi işğal edir ki, var-yoxumuzu talayıb aparsın. Milli simamızla işi isə yoxdur. Daha doğrusu, milli simamızı da udmuşdu, amma əridə bilmirdi. Yəni islam dini, milli ruh güclü idi, tarixin özü də hətta ruslardan güclü idi. Türklər 15 imperiya yaradanda hələ rusların dövləti yox idi. Məmməd Əmin də deyirdi ki, biz həmin nəsildənik. Ona görə də cümhuriyyətin yarandığını deyir. Deyirdi ki, ən dəhşətlisi İrandır. Məişətimiz, dinimiz, musiqimiz, şeirimiz, ədəbiyyatımız eynidir, bizi farslardan ayıran bircə şeyimiz var, o da dilimiz.

Mən Moskvadan bax Məmməd Əminin bu cür qiymətli əsərlərinin hamısını köçürüb gətirmişdim. Bəs Məmməd Əminin 5 cildini hardan buraxmışam? Bax bunların hamısını indi sənə söhbət eləyən kimi saatlarla Bəxtiyara da etmişəm. Danışardıq, söhbətləşərdik, sonra qayıdardı ki, daha nə var, nə yox?

- *"Gülüstan" üçün sanballı mənbə üçün hazırlıq görürmüş...*

- Hələ dalına qulaq as. Bütün bunlardan sonra qayıtdı ki, mənə bir tutacaq ver. Dedim ki, bax ən etibarlı tutacaq budur, deyim, sən də eşit. 1901-ci ildə Lenin "İskra" qəzetini buraxıb. 1901-ci ildə gürcülər hazırlaşırdılar ki, Gürcüstanın Rusiya tərəfindən işğalının 100 illiyini bayram etsinlər. Lenin də "İskra" qəzetində yazırdı ki, "Stoletiye ruskoqo ştıka v Qruzii". Lenin deyirdi ki, siz nəyi bayram edirsiniz, sürgünün və işğalın bayramını qeyd edərlərmi? Bunu sovet dövlətinin banisi Lenin yazırdı. Bunu çıxarıb verdim ki, bundan böyük tutacaqmı istəyirsən? Dedim bax Lenin deyir ki, rusların Gürcüstanı işğalının yüz illiyidir. Bizdə də rus ştıkının 150 illiyidir.

- *Dövlətin banisinin sözlərindən böyük silah olarmı heç?*

- Qurtardı getdi. "İskra"dakı həmin məqalənin kopyasın çıxarıb verdim Bəxtiyara, dedim kim səni çağırsa ki, bu nədir yazmısan? Heç nə demə, elə bunu göstərsən susacaqlar. Ona daha bir tutacaq da verdim. Lenin Rusiyanı xalqlar həbsxanası adlandırırdı. Elə isə tarixdə öz xoşuyla həbsxanaya girən olubmu bu vaxtadək? Yəni biz könüllü gedib girmişik rus boyunduruğuna?

- *Sən demə, "Gülüstan"ın mövzusunu elə bu Lenin veribmiş ki...*

- Bunu bu günədək təhlil edib ortalığa çıxaranlar yoxdur...

"Anadan olduğu evə bir dənə lövhə də yapışdırmayıblar ki, Bəxtiyar Vahabzadə burada anadan olub"

- *Bəxtiyarla mübahisə edirdinizmi?*

- Yox, qətiyyən. Hərənin bir kliçkası vardı. Məsələn, tarixçi deyəndə bilirdik ki, Süleyman Əliyarovla Mahmud İsmayılovdan söhbət gedir. Qəhrəman deyəndə bilirdik ki, bu Ziyadır. Bilirsən mənim kliçkam nə idi?

- *Bilmirəm.*

- Kisincer. Siyasi icmalçı idim axı. Bu günlərdə jurnalistlərlə görüşəndə

gördün prezident nə dedi? Dedi ki, Şirməmməd müəllimi hələ tələbə ikən tanıyıram. Həm siyasi icmalçı, həm də mətbuat tarixçisi olduğuma görə mən 1917-20-ci illər Azərbaycan mətbuatı haqqında heç kəs cürət edib nəsə yaza bilmirdi, amma mən bütün o mətbuat orqanlarını əzbərləmişdim. Moskvada olduğum həmin 4 ildə (1950-1954) gecə-gündüz Məmməd Əminin məqalələrini yazırdım, altına da Üzeyir Hacıbəyovun imzasını qoyurdum. Çünki arxivdə qoyub gedəndən sonra oxuyurdular. 1965-ci ildə Üzeyir bəyin 80 illik yubileyi olanda əsərlərini çap elədilər. Yəni Mərkəzi Komitənin qərarı qəbul olundu ki, Üzeyir bəyin 10 cildlik əsəri buraxılsın. Hazırladılar. Sual olunur, nə vaxta qədər olan əsərlərini hazırladılar? Məsələ də elə bundadır. 1915-ci ilin oktyabrına qədər iki cild buraxdılar. Ondan o biri tərəfə keçmədilər. Keçsəydilər gərək yazaydılar ki, Üzeyir bəy 1920-ci ilin aprelin 28-də onlara od qoyub. Qəzetin axırıncı nömrəsində bilirsən nə yazırdı? Yazırdı ki, bu vaxta qədər bizi idarə eləyənlər rus zadəganlarının balaları idi, onlar "svoloç" deyib bizim atamıza söyərdilər. İndi Leninin mujikləri gəlir.

- *Bəxtiyarın kliçkasını demədiniz.*

- Ona şair deyirdilər. 1962-ci ilin oktyabr ayında Bəxtiyarla gəldik Şəkiyə. Bəxtiyar "Gülüstan" poemasını Bakıda çap etmək istədi, yaxına qoyan olmadı.

Gəldik Şəkiyə Məhyəddin Abbasovu çağırdıq. Dedik, ayə, Bəxtiyar bir əla poema yazıb, verək "Nuxa fəhləsi" qəzetində çap elə. O da gözünə döndüyüm qəzetin iki nömrəsində "Gülüstan"ı çap elədi. Sensasiya baş vermədimi? Akademiyada Mərkəzi Komitənin ideologiya üzrə katibi Xasay Vəzirov çıxıb nə desə yaxşıdır? Bəxtiyar Vahabzadə belə bir poema yazıb və bunu gizli mətbuatda çap elətdirib. Görün MK katibi nə danışırdı ey? Guya "Nuxa fəhləsi" gizli mətbuatdır. Amma poema əl-əl gəzdi və camaata çox ləzzət elədi. Hətta sizə bir faktı deyim. Mən fakültə partiya təşkilat katibiydim, əsgərlikdən KQB-yə yazırdılar ki, bu Bəxtiyar Vahabzadə kimdir, hər bir azərbaycanlı əsgərin qoltuq cibindən onun "Gülüstan" poeması çıxır. Amma bayaq dediyim kimi, ona elə bir tutacaq vermişdim ki, zaval yox idi. Çağıran kimi Leninі əldə bayraq edirdi. Ondan sonra kimin duxu idi ki, Leninin dediyinin əleyhinə gedə. Amma bərk eşələdilər ki, görəsən bu poemanın ideyasını kim verib və hansı məqsəd güdülüb.

Bir dəfə Yusif Məmmədəliyev dərs dediyim yerdə qəflətən başının dəstəsiylə girdi auditoriyaya. Mətbuat tarixindən dərs deyirdim. Hər iki 45 dəqiqəni oturub qulaq asdı. Çıxandan sonra məni otağına apardı. Ordan götürüb "Baksovet"in sədrinə zəng elədi ki, Moskvadan cavan bir müəllim gəlib, onun mühazirəsinə getdim, mənə ləzzət elədi. Xahiş edirəm ona mənzil verilsin.

- *Sizi dolaşdırmağa gəlmişdilər, amma əksinə oldu hər şey...*

- Bilirsən necədir? O vaxt nə qədər xof var idisə, amma gənclik də var idi və ondan çəkinirdilər. Qızışdırmaq yox, sakitləşdirici yol tutmaq göstərişi verilmişdi yuxarıdan.

- *Bəxtiyarın ən çox sizə ləzzət verən şeiri hansıdır?*

- Bu suala mən necə cavab verim? Elə bil soruşasan ki, övladlarından hansını çox istəyirsən?

- *Adətən övladla bağlı belə sual verilir də...*

- Bəxtiyar hər bir şeirində Bəxtiyar idi. Amma məhəbbət şeirini-zadı kənara qoyaq, onun fəlsəfi məzmun daşıyan şeirləri ayrı aləmdir. Mən bir məqalə yazmı-

şam və o çap olunub. Onun adı belədir: Bəxtiyarı Suslov xilas edib. Bəxtiyar özü bəzən deyir ki, məni Heydər Əliyev xilas edib. Amma mən yazdım ki, Bəxtiyarı Suslov xilas edib. Niyə? 1967-ci ildə bizim KQB-nin sədri Heydər Əliyev idi. Andropova bir məktub yazılmışdı ki, Bəxtiyar Vahabzadə adlı bir millətçi var, auditoriyada belə şeylər danışır, icazə verin ya bunu cəmiyyətdən təcrid edək, ya da tutaq. Andropov da bizim KQB-nin yazdığı məktubu göndərir ideologiya məsələləri üzrə MK katibi Suslova. Suslov da məktubun üstünə yazır ki, milli respublikalardan dissident yaratmağa ehtiyac yoxdur. Əksinə, belə adamlara imkan yaradın, qabağa çəkin, olsun bizim adam. Nəticədə Bəxtiyarı "Baksovet"ə deputat elədilər. Sonra Azərbaycanın deputatı elədilər.

1975-ci ilin avqust ayında Şəkidəyik yenə. Zəng oldu ki, birinci katib Heydər Əliyev Bəxtiyarla danışmq istəyir. Bəxtiyar dəstəyi götürdü. Heydər Əliyev təbrik elədi ki, sənin 50 illiyini "Şərəf Nişanı" ordeni ilə təbrik edirəm. Özü də dedi ki, səni mən təqdim etmişəm, Yazıçılar İttifaqı təqdim etməyib.

Bilirsən, Bəxtiyar heç vaxt sovet sisteminin əleyhinə sərt danışmayıb. O həmin poemada da tarixdən, hüquqdan bəhs edib, dünya xalqlarının müstəqilliyindən, parçalanmasından danışıb. Ona görə də həmin məqalədə yazmışam ki, mən Bəxtiyarla əqidə və məsləkdostuyam. Amma bir çox məqamlarda bizim mövqelərimiz ayrı idi.

- Bəxtiyar Vahabzadəni cəmiyyət Heydər Əliyevçi kimi tanıyır...

- Belə demək olar ki, Heydər Əliyevçi idi. Milli əqidə və məsləkin o məsələyə dəxli yox idi.

- Yaşlı və orta nəsil onun 1991-ci ildə parlamentdəki tarixi çıxışını və tribunaya əlini döyərək Heydər Əliyevi az qala məngənədən xilas etməsini yaxşı xatırlayır...

- Bəxtiyar deputat idi. Axşam mənə zəng elədi ki, gördün nə oyun çıxartdılar? Mən də oralarda idim. Dedim gördüm. Amma bir kişi lazımdır çıxa deyə ki, bu millət hakimiyyətdə olanın quludur, hakimiyyətdən gedənin qənimi. Dedi sən öl, sabah çıxıb onu deyəcəm.

Bircə şeyi hamı yadda saxlamalıdır. 20-ci əsrdə bizim millət iki nəhəng siyasi xadim yetişdirib, əsrin əvvəllərində Məmməd Əmini, əsrin sonlarında Heydər Əliyevi. Amma onların hərəsi tamam fərqli təbiətdə olan adamlar idi. Heydər Əliyev hakimiyyəti idarə etmək ustası idi. Dövlət yaratmaq yox ha. Bəzən bunu qarışdırırlar. Heydər Əliyev dövlət yaratmayıb, hakimiyyət yaradıb. Dövləti Məmməd Əmingil yaratmışdılar. Bu dövlətin adı Azərbaycan Xalq Cümhuriyyəti idi, süqutundan sonra dövlətin adı dəyişərək oldu Azərbaycan Sosialist Respublikası, yəni dövlət qaldı, hakimiyyət dəyişdi.

Mən ANS-də bu barədə danışmışam və Süleyman Dəmirəldən də misal gətirmişəm ki, o deyirdi dövlət başdır, hakimiyyət şapka. Başla şapkanı dəyişik salmayın. Təsəvvür edin ki, Azərbaycan Sovet Sosialist Respublikası olanda da Azərbaycan guya kağız üzərində olsa belə öz müstəqil dövlət statusun saxlayırdı. Sərhəddi də vardı, parlamenti də, bayrağı, himni, konstitusiyası da vardı.

Bəzən belə deyirlər ki, guya sovet dövründə biz dövlətçiliyimizi itirmişik. Biz dövləti yox, hakimiyyəti itirmişik. Bunu bəziləri başa düşmürlər, ona görə də qaş düzəltmək istədikləri yerdə vurub göz çıxarırlar.

Müstəqilliyimizin 20 illiyi münasibətilə bir rəsmi çıxış oldu, bizim adamlardan biri çıxış elədi ki, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevdir. Həmin axşam "Mir" televiziyası həmin çıxışı göstərdi və bir erməni çıxaraq dedi ki, gördünüzmü? Baxın, Azərbaycan dövlətini Heydər Əliyev dünən yaradıb, bunlar da deyir ki, bizim əvvəldən dövlətimiz olub. Dedi ki, Arsax-ın min illik dövlət tarixi var, bunların 20 illik.

Dövləti ki, hakimiyyətlə qarışdırdılar, qəza qaçılmazdır. Rusiyada vaxtilə 51 quberniya olub və onların əksəriyyətinin başçısı generallar olub. Niyə? Çünki onlar əmr etmiş və əmrə sözsüz tabe olmuş adamlar idi, yəni qərarı müzakirə etmək olmaz, icra etmək lazımdır. Dövləti də bu cür idarə edirdilər.

- Bəxtiyarın 90 illik yubileyinə sayılı günlər qalıb. Ortada prezident sərəncamı ola-ola niyə o dediyiniz icraçılar əllərini əllərinin üstünə qoyub mürgüləyirlər?

- Milləti şəxsiyyətə pərəstişə öyrədiblər. Ona qarşı ikinci bir pərəstiş ünvanı yaratmağa qoymazlar.

- Kim qoymaz?

- Aşağıdakılar.

- Axı ən yuxarıdakı sərəncam verməklə ona qarşı qısqanmadığını ifadə etmiş olub...

- Xeyr, elə deyil. Məmməd Əminin 130 illiyi münasibətilə prezident İlham Əliyev bir sərəncam verdi. Nə təhər icra etdilər? Girdik dram teatrına, bir iclas elədilər, mən etdiyim çıxışı nə qəzetlər verdi, nə televiziyalar.

Məmməd Əminin adını eşitmək, üzünü görmək istəməyənlərin başında Azərbaycan televiziyası gəlir. Bax bu yaxınlarda Həsən bəy Ağayev haqqında bir veriliş verdilər. Tarixçiləri yığmışdılar ora, biri Məmməd Əminin adını çəkmədi ki, Milli Məclisin sədri budur. Belə çıxdı ki, guya bu dövləti Həsən bəy Ağayev yaradıb.

- Axı həmin AzTV-nin də öz rəhbəri var da, görünür ona belə tapşırıblar...

- Kimin tapşırmasını kənara qoyaq. AzTV Məmməd Əminin bir nömrəli düşmənidir. Bunu açıq demək lazımdır ki, millət də bilsin. Yəni sən Həsən bəy Ağayev haqqında bir saatlıq veriliş verəsən, onun adını çəkməyəsən, halbuki onu da Məmməd Əmin gətirib.

Hətta dəhşət bu idi ki, Tarix İnstitutunun direktoru Yaqub Mahmudov nə desə yaxşıdır? Guya İstiqlal Bəyannaməsinin yazılmasında Həsən bəy Ağayev iştirak edib. Halbuki onun bu bəyannamədən heç xəbəri olmayıb. Adama deyərlər ki, hardan götürmüsən onu, mənbəni de görüm? Mənsə yazmışam ki, onu 1918-ci ilin mayın 25-də Məmməd Əmin yazıb Nəsib bəyə verib, Nəsib bəyi göndərib ki, get, gürcülər çıxacaq, seym dağılacaq, sən də orda mənim məktubumu oxu, bu da bizim istiqlal bəyannaməmiz olsun. Ay Yaqub Mahmudov, bəs sən hardan çıxarırsan ki, bunun redaktəsində Həsən bəy Ağayev iştirak edib?

- Bizimkilər tarixi saxtalaşdırmaq üzrə uzmandır...

- Gözəl ifadədir. Özü də sovet dövründən qalma tarixçilər.

- Bəxtiyar Vahabzadəyə qayıdaq. Onun doğulduğu Şəkidə adına yalandan bir balaca park salıblar, onu da ediblər çayxana. Adamın dili gəlmir ora park desin, Bəxtiyar Vahabzadə adına çayxana desək, daha doğru olar...

- Mən hər il bura gələndən sonra iki yerə baş çəkirəm. Mənim üçün iki müqəddəs məkan var. Bunlardan biri Axundovun evidir, o biri də Bəxtiyarın anadan olduğu, indi uşaq bağçası olan evidir. Keçən il mən getdim ora, gördüm ki, pis gündədir. "Billur İlham" deyilən bir iş adamı var – İlham Hacıyev, onu dəvət elədim, o həmin bağçanı öz hesabına təmir etdirdi. Təsəvvür edirsinizmi? Anadan olduğu evə bir dənə lövhə də yapışdırmayıblar ki, Bəxtiyar Vahabzadə burada anadan olub. Gedin baxın, indi də yoxdur. Respublikada da bircə yer yoxdur ki, ora yazıla ki, Bəxtiyar Vahabzadə burada anadan olub və ya burada yaşayıb.

- *Təkrar sual verməyə məcburam. Bu qısqanclıq nədən qaynaqlanır axı?*

- Bəxtiyar Vahabzadə bir vaxt bir şeir yazmışdı. Şeirin adı "Utanıram" adlanırdı. Deyirdi k, istiqlaliyyət qazanmışıq, amma hər şey köhnə hamam, köhnə tasdır. Mən də ona bir cavab yazdım – Şair, utanılası zamandır. Sən də qısqanclıqdan danışırsan...

- *Yəni hamısını saf-çürük edirlər ki, şuluq yazılarla nəyəsə eyham vurur...*

- Dalına qulaq as. Bir dəfə Həsən bəy Zərdabi ilə əlaqədar Bəxtiyarla aramızda bir söhbət oldu. Dedim Bəxtiyar, Sabirin ki, bir şeiri var ey:

Dindirir əsr bizi dinməyirik
Atılan toplara diksinməyirik.

Dedim Zərdabi yazırdı ki, körpü çaydan uzaq düşüb. Bir vaxt bəşərin inkişafının məcrası Şərqdən başladı. Bütün elmlərin mərkəzi də Şərqdədir. Bir vaxtlar Avropa vəhşi idi, amma əsrlər sonra vəziyyət dəyişdi. Bu gün bəşəri inkişafın məcrası Şərqdən deyil, Qərbdən axır.

Bunu söhbət edəndə axşam saat 11 idi. Gəldim evə yatdım. Gecə saat 3-də Bəxtiyar zəng elədi. Dedim niyə qoymursan yataq? Dedi al gəldi. Dedi "Körpü çaydan uzaq düşüb" şeirini yazıb redaksiyaya göndərdim ki, çap eləsinlər. Başlığı da belə qoydum ki, dostum Şirməmməd Hüseynova.

- *Heç Sizdə Bəxtiyarın çap olunmamış "sandıq ədəbiyyatı"ndan nələrsə qalıbmı?*

- Bəxtiyar ikiüzlü adam olmayıb. Hərdən eşidirəm ki, guya onun orda-burda, gizlində şeirləri olub və ya hansılarısa nəyə görəsə çap etməyiblər. Bəxtiyar nəyi doğru bilibsə yazıb.

- *Onun sirdaşı olmusunuz. Elə mövzu olubmu ki, yazmaq istəsin, amma hansısa səbəbdən yaza bilməsin?*

- O hər zaman mənimlə məsləhətləşərdi. Sənə bir faktı deyim. 1986-cı il idi. Dekabrın 17-də Qazaxıstanda o məlum hadisələr baş qaldırdı. Kunayevi çıxarıb Kolbini qoyublar Qazaxıstana birinci katib. Tələbələr də qazaxı çıxarıb rus millətindən rəhbər qoyulmasına etiraz olaraq meydanlara çıxdılar, aləm qarışdı, iğtişaşlar baş qaldırdı. Bəxtiyarla mən o hadisələrə necə münasibət bildirdik? Bilirdik ki, evdə telefonumuzu da dinləyirlər, hətta "juçok" da qoya bilərdilər. Ona görə də belə söhbət olanda gedərdik Dağüstü parka, həm gəzirdik, həm söhbətləşirdik. Ordan-burdan danışandan sonra məndən soruşdu ki, o Qazaxıstanda nə hadisə baş verib? Məndə daha çox məlumat olduğunu bilirdi. Çünki siyasi icmalçı idim və çap olunmayan çoxsaylı materiallar da mənə gəlirdi. Mən Mərkəzi Komitənin beynəlxalq icmalçısı olduğumdan çoxlu məxfi materaillar verilirdi. Mən də Bəxti-

yara orda nə baş verdiyini danışdım. Dedim ki, hətta bir şeir də yaza bilərsən. Sanki dik atıldı, dedi nə şeir? Dedim 17 dekabr şeiri. Qayıtdı ki, bəs mən adını nə qoyum yazım bu şeiri? Pasportumu cibimdən çıxarıb dedim oxu, mən 17 dekabrda anadan olmuşam. Şeirin adını qoyursan 17 dekabr, döşəyirsən gəlir, qardaş burdan gəldi, burdan getdi, belə oldu, biz nə biləydik ki, nələr var, nələr olacaq və s. Bəxtiyar da bir dənə əla şeir yazdı və "Kommunist" qəzetində çıxdı.

1987-ci ildə Oljas Süleymenov Bakıya gəldi. Bu şeiri rus dilinə tərcümə edib verdilər ona. Mən də "Şairin fəhmi, zamanın hökmü" adlı bir məqalə yazıb "Bakraboçiy" qəzetində çap elətdirdim. Nə isə o görüşdə Oljas Süleymenova dedim ki, sovetlərin dağılmasının ilk zəngi Qazaxıstanda çalındı. Sonra həmin 17 dekabr şeirini ona verdik, şoka düşdü.

Bəxtiyar xatirələrində yazır ki, Xudu Məmmədov, Nurəddin Rzayev mənə zəng elədilər ki, doğrudan Şirməmməd 17 dekabrda anadan olub, yoxsa bu sizin növbəti qurmanızdır, yoxsa özünə yeni tutacaq yer tapmısan? Rəhmətlik də deyir ki, siz öləsiniz, Şirməmmədin pasportuna özüm baxmışam.

Bilirsən, bu işləri bilən yoxdur. Çoxlu belə xatirələr var. O adamların hamısı dünyasını dəyişib. Nə Xudu var, nə Nurəddin, nə Şahmar, nə Ziya var, nə Süleyman Əliyarov, nə Mahmud İsmayılov, nə də Mirzəcanzadə var.

- *Amma Şlrməmməd Hüseynov ki, var. Bəlkə Bəxtiyarın 90 illiyinə məxsusi bir şey yazasınız, bizi feyziyab eləyəsən.*

- Mən zamanında hər şey yazmışam.

- *90 illikdə bir şey yazmamısınız axı...*

- Bilirsən nə var? Qanan olmayan yerdə yazmazlar.

- *Bu məmləkət başdan ayağa cahildirmi, heç qanan yoxmu?*

- Sənə deyim. Firidun bəy Köçərlinin 1906-cı ildə çap olunmuş "Yarımçıqlıq" adlı bir məqaləsi var. Yazır ki, dünyanın heç bir yerində, heç bir xalqında bizdəki qədər yarımçıqlıq yoxdur. Müəllim də yarımçıqdır, həkim, məmur da.

- *Hətta Nizami babamız da deyir ki, Kamil bir pinəçi olsa da insan Yaxşıdır yarımçıq papaqçılıqdan.*

- Bax indi biz də həmin yarımçıqlıq dövrünü keçiririk. Niyəsini də deyim. Cümhuriyyət təzə, adamlarsa sovet adamı. Hələ bu cümhuriyyətin əsl vətəndaşı yetişməyib. Bu cümhuriyyətdə doğulmuş insanların hələ 20 yaşı var. Hələ buna tərbiyə verən də sovetdən qalandır.

- *Belə çıxır ki, heç olmasa hələ iki yüz il də lazımdır ki, yarımçıqlıq mərəzindən qurtulaq.*

- Mən bax dediyin bu sualı Çingiz Aytmatova verdim. Dedim ki, siyasi sistem dəyişib, amma əhali köhnə əhalidir. Çingiz qayıtdı ki, bilirsən nə var, cümhuriyyətin əsl vətəndaşının yetişməsi üçün ən azı 5-6 nəsil dəyişməlidir.

- *Bəxtiyar Vahabzadə ilə bağlı bu günədək ən sanballı yazını, araşdırmanı, yaxud tənqidi kim yazıb?*

- Bəxtiyar haqqında kim nə yazıbsa hamısına təşəkkür eləmək lazımdır. Onların içərisində Yaşar Qarayev daha sanballı yazıb. Məsələn, Çingiz Aytmatov Bəxtiyarın 60 illik yubileyinə gəlmişdi. O vaxt onun "Mı v odnom korable" adlı bir kitabı Moskvada rusca çıxmışdı.

Orda Bəxtiyarın Şəki haqqında bir şeiri var. Bəxtiyar yazırdı ki, Şəkidə şə-

hərin mərkəzindən bir çay axır. Sağında camaatın getdiyi bir ziyarətgah, solunda isə bir daxma var. Sağdakı Xan sarayıdır və ağlı gözündə olanlar ora gedir. Amma solda Axundovun anadan olduğu bir daxma var. Bu zavallılar bilmirlər ki, Azərbaycan xalqının taleyi, bəşəri inkişafın məcrası saraylardan yox, ən çox daxmalardan keçir. Deyir hələ biz o daxmaların qədrini bilmirik.

"Elə şeylər var ki, hələ yazılmayıb, deyilməyib"

"Tarixçilərimizin çoxu ərəb əlifbasını bilmirlər, rusca oxuyub tarix yazırlar"

"Abdulla Gülə dedim ki, şəkililər Nuru Paşanın gəldiyi yola 3 kilometr xalça döşəyiblər"

- İndi kim gedir Axundovun evinə? Heç kəs – nə prezident, nə baş nazir – getmir. Amma millətin taleyinin məcrasını dəyişən Axundovdur. Çingiz Aytmatov da Bəxtiyarın həmin şeirinin yanına 3 dənə nida işarəsi qoyub altdan da "velikolepno" yazmışdı. Mən həmin qeyd olan kitabı onun əlindən aldım.

- Avqustun 16-da harada olacaqsınız, Bakıya qayıtmırsınız ki? (müsahibə avqustun əvvəllərində götürülüb – Z.H.)

- Yox hələ, burdayıq.

- 16 avqustda Şəkidə dövlət səviyyəsində bir tədbir keçirilməyəcək ki? Hər halda keçiriləsi olsa Sizə də xəbər edərdilər...

- Mən heç yerə gedən deyiləm. Mən hələ bu icra başçısının pilləkəninə ayaq basıb içəri girməmişəm.

- Yaxşı bəs o necə, bu piliəkənə ayaq basıb Sizi yoluxmağa gəlibmi?

- Yox. Heç gözləmirəm də. 3 il bundan qabaq Türkiyə prezidenti Abdulla Gül Şəkiyə gəldi. Onu Abid Şərifov müşayiət edirdi. Təyyarə ilə Zaqatalaya gəldilər, ordan da Şəkiyə. Abid Şərifov mənə zəng etdi ki, Şirməmməd müəllim, xahiş edirəm gedin Bəxtiyar Vahabzadəyə abidə qoyulan yerə, biz Şəkiyə çatıb Heydər Əliyevin heykəli önünə gül qoyduqdan sonra Abdulla Gülü ora gətirəcəm. Bildirdi ki, Abdulla Gül özü deyib ki, Bəxtiyarı ziyarət etmək istəyirəm. Mən də gedib orda gözlədim. Abdulla Gül başının dəstəsi ilə gəldi, tək mən idim orda dayanan, təbii ki, ətrafı təhlükəsizlik baxımından tam təmizləmişdilər. Gəldi, məni ona təqdim etdilər, görüşdük. Dedi ki, mənə şairin ən yaxın adamı, könül dostu olduğunuzu deyiblər. Dedim həm ruhən, həm cisman çox yaxın olmuşuq. Qayıtdı ki, həm ruhən? Bu söz onu tutmuşdu. Bundan sonra getdi girdi məscidə, namaz da qıldı orada. Bilirsən, böyük dövlət yaradan adamların böyük başları, mütəfəkkirləri olur. Türkiyədə Bəxtiyar Vahabzadə cəmi türk coğrafiyasının ən böyük şairlərindən biri kimi qəbul edilir. Bəxtiyara türklərdə olan məhəbbət bizdə yoxdur. Məsciddən sonra getdik karvansaraya. Orucluq ayı idi, yemək yox, içmək yox. Boş stollar qoyulub, ziyalılar hamı oturub. Yaqub Mahmudov bir az Şəki haqqında danışdı, sonra Abdulla Gül məni göstərib dedi ki, buyurun, nə sözünüz var deyin. Dedim tarixdə şəkililər bir neçə dəfə türkləri qəbul ediblər. 1918-ci ildə şəkililər Nuru Paşanı qəbul ediblər. Onun gəlişi münasibətilə ayaqları altına 3 kilometr xalça döşəyiblər. Nuru Paşa sizinlə bayaq getdiyimiz həmin o məsciddə camaata müraciət edib. Bu günki izdiham yadıma həmin vaxtları saldı. İndi də Türkiyə prezidenti Şəkiyə gəlub, xoş gəimisiniz. Dedim sizinlə gələn jurnalistlərin burda olmasından istifadə edib bir şey demək istəyirəm, onlar bəzən bir səhv yazırlar,

onu düzəltsinlər. Dedim tez-tez "bir millət iki dövlət" deyirlər. Soruşdum ki, cənab prezident, bəs siz qazaxları, türkmənləri, özbəkləri, qırğızları türk hesab etmirsiniz? Axı bir millət, yeddi dövlət deyilikmi? Abdulla Gül heyrətlə yanındakılara baxaraq "eşitdinizmi hocam nə dedi" söylədi. Yəni bunu Heydər Əliyev haqlı olaraq ikili münasibətdə deyib. Amma türk coğrafiyasının maraqları naminə bir millət, yeddi dövlət deyilməsi daha doğru olardı.

- Tutaq ki, avqustun 16-da Bakıdam tökülüşüb gəldilər və dedilər ki, Şirməmməd müəllim də gəlsin söz desin. Sirr deyilsə bu dəfə nə deyəcəksiniz?

- Çağırmasalar heç yana gedən deyiləm.

- Bəs çağırsalar?

- Onda mən bilirəm nə deyəcəm. *(gülüşürük)*

- Burda Bakıya nisbətən hava və insanlar daha safdır. Yazı-pozuyla məşğul ola bilirsinizmi?

- Kitab hazırlayıram.

- Bəxtiyarla bağlı?

- Xeyr. Məmməd Əminin 5 cildliyini buraxmışam. İndi də 6-cı cildini hazırlayıram.

Başqa bir irihəcmli kitabımı da hazırlayıram, adı da "Milli varlığımızın keşiyində" adlanır.

Bakıda olanda da işə taksiylə gedib-gəlirəm. Bilirsən niyə? Çünki o qədər ömrüm qalmayıb ki, onu da avtobusda keçirəm. Bilirsən, bu qədər yaşamışıq, bu qədər yazmışıq. Amma elə şeylər var ki, hələ yazılmayıb, deyilməyib. Düşünürəm ki, bunlar kiməsə deyilməlidir. Tariximizlə bağlı məndə olan informasiya kimsədə yoxdur. Tarixçilərimizin çoxu ərəb əlifbasını bilmirlər. Rusca oxuyub tarix yazırlar. Bu haqda da mənim ANS-də verilişim var. Orda da demişəm ki, bu dövlətin adı Azərbaycan Xalq Cümhuriyyətidir. Bunu o vaxt rusca səhv olaraq Azərbaydjanskaya Demokratiçeskaya Respublika yazıblar. Amma gərək bu səhvi düzəldək. Çin Xalq Respublikası var, ona rusca Kitayskaya Narodnaya Respublika deyirlər. Kim ona Kitayskaya Demokratiçeskaya Respublika deyir?

Mən 98-ci ildə bir məqalə yazmışdım. Həm də bir çıxışım oldu ki, bu dövlətin adını düz deyin. Azərbaycan Demokratik Respublikası adında dövlət olmayıb. Azərbaycan Xalq Cümhuriyyəti adında dövlətimiz olub.

Heydər Əliyev 1998-ci ildə Cümhuriyyətin 80 illiyi ilə bağlı sərəncam hazırlamaq göstərişi vermişdi. Milli Arxiv İdarəsinin müdiri Ataxan Paşayevi çağırır ki, Şirməmməd Hüseynovun çıxışına baxmışam, siz sənədlərə dəqiq baxın görək bu dövlətin adı nədir. Prezident təkzibolunmaz arxiv sənədləri tələb edir. Bu da ərəb əlifbasıyla yazılmış rəsmi sənədləri aparıb qoyur prezidentin stolunun üstünə ki, cənab prezident, bu dövlətin adı İstiqlal Bəyannaməsində 4 dəfə yazılıb – Azərbaycan Xalq Cümhuriyyəti. Prezident Heydər Əliyev bundan sonra Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi ilə bağlı sərəncam verdi. Amma yenə də bu dövlətin adını ADR yazırlar. Çünki bayaq dediyim kimi bizim tarixçilərin əksəriyyəti ərəb əlifbasını bilmirlər, ona görə də belə natamamlıq yaranır. Məsələn, sənin xəbərin var ki, mən Üzeyir bəyin ikicildliyini buraxmışam? Bilirsən o kitabın adı necə adlanır? "Nəşrlərdən kənara qoyulmuş əsərləri". Təbii ki, sovet dövrü nəzər-

də tutulur və nə az, nə çox, 161 məqalədir. O qədər məqalə çap olunmayıb. Yəni yazılarında harda ermənini, rusu söyüb, həmin yazıların çapına imkan verməyiblər. Üzeyir bəyin birinci cildi "nəşrlərdən kənarda qalmış əsərləri" adlanır, ikinci cildi isə, "nəşrlərdən kənarda qalmış və redaktə olunmuş məqalələri". Yəni bircə sözü dəyişiblər, yazı mənasını itirib. Yaxud elə yazı olub ki, onu ixtisar edə bilməyiblər, onu da nəşr olunmağa qoymayıblar. Məsələn, Üzeyir bəy yazırdı ki, ruslar və ermənilər Allahdan istəyirlər Qarabağda bir rus öldürsünlər, əvəzində gedib 100 müsəlman öldürsünlər. Burda rus sözün çıxarıblar, məna tamam itib. Mən bunların hamısını toplayıb sinxron hazırladım. Həmin dövrə aid bütün mətbuatı və arxivləri axtardım və 1909-1910-cu illərə aid iki cild buraxdım. Bu da mənim Üzeyir bəyə töhfəm oldu.

Zülfüqar HÜSEYNZADƏ,
2015



Şirməmməd Hüseynov Bəxtiyar Vahabzadənin Şəkidəki büstü önündə.
16 avqust 2011-ci il



Bakı Dövlət Universitetində Şirməmməd Hüseynovun 90 illik yubileyi qeyd olundu

Dünən Bakı Dövlət Universitetində görkəmli alim və mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, Prezident təqaüdçüsü, BDU-nun mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru, Azərbaycan jurnalistikasının görkəmli simalarından biri Şirməmməd Hüseynovun 90 illik yubileyinə həsr olunmuş mərasim keçirilib. BDU-nun Jurnalistika fakültəsinin tələbə-müəllim heyətinin və müxtəlif qonaqların iştirak etdiyi tədbiri giriş sözü ilə universitetin rektoru, akademik Abel Məhərrəmov açıb. O, yubilyarı təbrik edərək, ona uğurlar arzulayıb. Ş.Hüseynovu Azərbaycan jurnalistlərinin müəllimi kimi xarakterizə edən cəhətlərdən söz açan rektor qeyd edib ki, Azərbaycan mətbuat tarixinin patriarxı Ş.Hüseynov hamının müəllimidir. Bu yubileydə iştirak etmək elmə, jurnalistikaya qiymət vermək deməkdir. Rektorun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla Şirməmməd Hüseynovun "Şərəf" ordeni ilə təltif edilməsi qürurverici hadisədir.

BDU-nun Jurnalistika fakültəsinin dekanı Şamil Vəliyev çıxış edərək Ş.Hüseynovun həyat və yaradıcılığı ilə bağlı məlumat verib. O bildirib ki, Şirməmməd Hüseynov son 30 ildə mətbuat tədqiqatçılığında çox mühüm və maraqlı bir üsulu yaradıb. Şirməmməd Hüseynovun vətənpərvərliyi, demokratizmi, düzlük və cəsarəti haqqında fikirlərini bölüşən Şamil Vəliyev qeyd edib ki, görkəmli alim 800-dən çox elmi-publisistik məqalənin, 25-dən çox kitab və monoqrafiyanın müəllifidir. Sovet senzurasının ən qatı nəzarət çağında belə o, öz tədqi-

qatlarında Azərbaycan vətəndaşı olduğunu, bu əsərlərin gələcək nəsillərə ünvanlandığını heç vaxt unutmayıb.

Jurnalistika fakültəsinin kafedra müdiri Cahangir Məmmədli çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin tarixi şəxsiyyətləri ilə bağlı tədqiqatlardakı spesifik məqamlardan, onları səciyyələndirən milli təəssübkeşlik xüsusiyyətlərindən, dövlətçilik ənənələrimizə sədaqət ruhunu yaşatmalarından söz açıb, tariximizin zənginləşməsinə layiqli töhfə olan Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadənin irsinin öyrənilməsi sahəsində xidmətlərinə toxunub. Azərbaycan jurnalistikasında müəllimliyi, tədqiqatçılığı və publisistikanı yeni məktəb səviyyəsinə yüksəldən Şirməmməd Hüseynov yaradıcılığı peşəkar jurnalist nəslinin söykəndiyi ən etibarlı mənbə kimi qiymətli olduğunu deyən Cahangir Məmmədli ölkə ictimaiyyətinin də Şirməmməd müəllimin yaradıcılıq fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib.

Sonra təbrik nitqi ilə çıxış edən qonaqlar Ş.Hüseynovun həyat və yaradıcılığından, Azərbaycan mətbuat tarixinin tədqiqində əvəzedilməz rolundan danışdılar. AMEA-nın Dilçilik İnstitutunun direktoru, akademik Tofiq Hacıyev, Mətbuat Şurasının sədri Əflatun Amaşov, "Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov, xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı, millət vəkili Fazil Mustafa, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı Solmaz Rüstəmova-Tohidi, İctimai Televiziyanın əməkdaşları adından Flora Xəlilzadə, Şirməmməd müəllimin tələbələri adından professor Zöhrab Zeynalov, Krım azərbaycanlıları adından Rəhim Əliyev Şirməmməd Hüseynov haqqında maraqlı fikirlər söyləyib, təbrik nitqi ilə çıxıb ediblər.

Tədbirin sonunda Şirməmməd Hüseynov çıxış edərək apardığı tədqiqatlardan danışıb, tədbirdə iştirak edən qonaqlara təşəkkürünü bildirib.

525-ci qəzet

"NARAHAT OLMAYIN, O, BABANIN BİZƏ YADİGARIDIR..."



Adətən, Ülkər xanımın özü və yaxud Şirməmməd müəllim xəstə olanda hər gün ona zəng vurub hal-əhval tutmağa adət etmişik. Bu il iyun ayının əvvəlindən Şirməmməd müəllim xəstə olduğuna görə, işə çıxmayan Ülkər xanımla yenə də hər gün telefon əlaqəsi saxlayırdıq. Ancaq həmin gün – iyun ayının 24-ü işin axırına yaxın Ülkər xanıma zəng edəndə, mənim "alo" deməyimlə, onun ağlaya-ağlaya dediyi, "**Maral, daha zəng vurmayın**", – deməsi məni bir anlıq çaşdırdı. Nə edəcəyimi bilmədiyimdən elə otağın küncündəki stula oturdum. Bir az özümə gələndən sonra Ülkər xanımın "qeyri-adi" xahişini şöbəmizin əməkdaşlarına çatdırdım. Doğrusu, 2-ci dəfə zəng etməyə cürət etmədim...

Amma evə çatandan sonra eşitdiyim ağır xəbəri adi qarşılamaq çox çətin idi. "525-ci" qəzetin tanınmış əməkdaşı Şəhanə xanımın yazdığı – "**Daha redaksiyada "Şirməmməd müəllimin səhifələri hazırdır?** sualını eşitməyəcəyik" mesajı ilə birlikdə Şirməmməd müəllimin əlində açıq kitab olan fotoşəkli sözün həqiqi mənasında nekroloq əvəzi bir mesaj idi...

Hər həftəsonu "525"-də çıxan yazıların həmişə bizim yanımızda hazırlanması səhnələri bir anlıq gözlərim önündən kino lenti kimi keçməyə başladı. Bu yazıları Şirməmməd müəllim evdə yazıb qurtaran kimi, aparıb qoyurdu Ülkər xanımın iş çantasının üstünə. Bu isə o demək idi ki, bunları kompüterdə yazdırıb qəzetə göndərmək lazımdır. Və Ülkər xanım gəlib işə çatandan 1-2 dəqiqə sonra telefonu zəng çalan kimi götürür və "hə, Baba gəlib çatmışam, yazıları da vermişəm Rəşidə yazır", – deyəndən sonra iş stolunda yerini rahatlayırdı.

Sonra isə həmin yazılar "525"ə – Şirməmməd müəllimin sevimli tələbəsi Yusifə göndərilirdi. Bildiyimizə görə, hələ bundan sonra Şirməmməd müəllim yenidən Yusifə zəng vurur, yazının çatıb-çatmadığını öyrənirdi... Və beləliklə, hər həftə hamıya tanış olan yazılar işıq üzü görürdü...

Hörmətli həmkarım Yusif Rzayev yazır ki, Şirməmməd müəllimin tələbəsi olduğuna görə, özünü çox xoşbəxt hesab edir. Həqiqətən bu, belədir. Şirməmməd müəllimi tanıdığım vaxtdan artıq 51 il keçməsinə baxmayaraq, elə bizim nəslin nümayəndələri də bu cür fikirləşir və hər yerdə onun adı ilə fəxr edirlər.

Mən də özümü o cərgədə olanlardan biri hesab edərək, demək istəyirəm ki, mənim bəxtim bir qədər də çox gətirib. Artıq 40 ilə yaxındır ki, müəllim-tələbə yaxınlığından başqa, Şirməmməd müəllimin ömür-gün yoldaşı Ülkər xanımla çiyin-çiyinə işləmək məni bu ailəyə daha da yaxınlaşdırıb. Bu ailənin ən xoş günlərinin iştirakçısı kimi, onlarla bir yerdə olmaq, ailə üzvlərini və onların simasında hörmətli müəllimimizi daha yaxından tanımaq şansı da düşüb bəxtimə.

Əvvəllər övladlarının, sonra nəvələrinin ən xoşbəxt günlərində bu ailənin üzvləri ilə birlikdə olmaq, ən mötəbər tədbirlərdə Şirməmməd müəllimin çıxışlarını ləzzətlə dinləmək özü böyük bir universitetdir, - desəm, səhv etmərəm.

Doğrusunu deyim ki, hələ təhsil aldığım 1968-1973-cü illərdə təkcə Jurnalistika fakültəsində təhsil alan tələbələrin deyil, hətta ağsaqqal müəllimlərin də Şirməmməd müəllimdən çox çəkinib, qorxduqlarının dönə-dönə şahidi olmuşam. Amma sonralar başa düşdüm ki, bu "qorxu"nun arxasında çox böyük bir məsuliyyət hissi dayanır...

Vətəninə, millətinə, dilinə və öz ailəsinə qarşı həmişə vicdanla xidmət edən professor Şirməmməd Hüseynov həqiqətən hər bir azərbaycanlıya örnək ola biləcək əsl ziyalı olduğu üçün, ailəsində də bu ənənə həmişə davam etdirilmişdir. Şirməmməd müəllimlə Ülkər xanım Azərbaycan üçün özləri kimi vətənpərvər və zəhmətkeş övladlar yetişdirməklə bərabər, həm də savadlı, imkansız və köməyə ehtiyacı olan gənclərin himayədarları kimi də böyük nüfuz sahibidirlər. Mayası zəhmətdən tutulmuş bu insanlar ünsiyyətdə olduqları hər kəsə öz vəzifəsinə can yandırmağı, zəhmətdən zövq almağı, vicdanlı olmağı, vətən və millət mənafeyini şəxsi mənafedən üstün tutmağı var qevvələri ilə aşılamağa çalışıblar həmişə.

Son vaxtlar keçirilən tədbirlərdə cavan jurnalistlər Şirməmməd müəllimə "**işləməkdən yorulmamısınız ki**?" sualını verəndə, onun "*Bilirsiniz, indi mənim nə istirahətə, nə də xəstələnməyə ixtiyarım yoxdur, çünki hələ görüləsi vacib işlərim var*" cavabı hər kəsi təəccübləndirdi. Şirməmməd müəllim hər kəsdən də belə işləməyi tələb edirdi, deyirdi ki, hər insan öz işi ilə məşğul olarsa, lazımsız işlərə də vaxt qalmaz.

Uzun illər müşahidələrimə əsasən deyə bilərəm ki, Şirməmməd müəllimin ailəsində bəlkə də dünyanın heç bir yerində, heç bir ailəsində olmayan, yalnız onlara xas olan qəribə bir xoşbəxtlik çırağı yanıb həmişə. Onların birgə yaşadıqları 60 il müddətində bu çırağın işığı nəinki öləzimiş, əksinə, onları bölünməz bir varlığa çevirmişdi. Tanıdığım illər ərzində bir dəfə də olsun Ülkər xanımın hansısa bir iş barədə sərbəst qərar verməyini görməmişdim. Çünki Şirməmməd müəllimin uzaqgörənliklə söylədiyi fikirlər, verdiyi məsləhətlər həmişə xeyirli nəticə ilə sona çatırdı.

Məlum 20 Yanvar hadisələrindən sonra Ülkər xanımla birgə çalışdığımız "Elm və həyat" jurnalının "ölüm", ya "qalım" məsələsi ortaya çıxan dövrlərdə Şirməmməd müəllimin "**öz hüquqlarınızı müdafiə etmək üçün mübarizə aparmaqdan qorxmaq lazım deyil**" məsləhəti jurnalın cəmi 4-5 nəfərlik kollektivinin şüarına çevrildi. Və nəhayət, Ülkər xanım ön cərgədə olmaqla, aparılan "mübarizə" nəticəsində Azərbaycanın yeganə elmi-populyar jurnalı kimi tanınan "Elm və həyat" yaşamaq hüququnu bərpa etdi...

Son illər Ülkər xanım nəvələrin dili ilə Şirməmməd müəllimə Baba deyə müraciət edən zaman bəzən cavanların təəccüblü baxışlarını hiss edəndə, köhnə əməkdaşların açıqlamasından sonra yaranan qibtə və həsəd hissi açıq-aydın hiss olunurdu...

25 iyun 2019-cu il. Ömrünün çox hissəsini keçirdiyi Bakı Dövlət Universitetinin böyük zalında keçirilən vida mərasiminə gələnlər əvəzolunmaz müəllimimiz, böyük Ustad, yorulmaz tədqiqatçı alim, alovlu vətənpərvər, bir çox fəxri adların, orden və medalların sahibi olan bir ziyalıya – professor Şirməmməd Hüseynova son borclarını qaytarmaq üçün toplaşmışdılar. Əvəllər bu zalda keçirilən bütün möhtəşəm tədbirlərdə Şirməmməd müəllimin qürurla dayandığı səhnədə indi onun yaşıl qumaşa bürünmüş səssiz-səmirsiz cənazəsi qoyulmuşdu. Şirməmməd müəllimin çıxış etdiyi kürsüdə isə onun haqqında xatirə söyləyən insanlar tez-tez bir-birlərini əvəz edirdilər...

Zalda 1-ci sırada əyləşmiş qara geyimli 3 qadının və digər doğmalarının simasına çökmüş qəm yükünü çəkə biləcək elə bir qüvvə isə mövcud deyildi. Zala daxil olanlar həmin sıranın önündən keçərək, Ülkər xanımın, Fərəh xanımın və Lalə xanımın qarşısında dayanaraq, başsağlığı verməyi, onların əllərindən öpməyi özlərinə borc bilirdilər... Ülkər xanımın "**mən 2 yaşım olanda anadan yetim qalmışdım, indi 82 yaşımda yenə yetim qaldım**" sözləri bəlkə də çoxlarına qəribə görünə bilər. Amma bu, Ülkər xanımın ağır itkiylə barışmazlığının sözlə idafə olunmuş əks-sədası idi. Fəxri Xiyabanda dəfndən sonra isə "**mən onu burada qoyub necə gedim evə, axı, mən evə gedəndə, həmişə liftin yanında məni o qarşılayırdı**", – dedi Ülkər xanım...

İnanıram ki, hər birimizin çox cəsarətli və dözümlü insan kimi tanıdığımız Ülkər xanım şəxsi həyatında yaranmış bu boşluğu Şirməmməd müəllimin yarımçıq qalmış işlərini tamamlamaqla, onun haqqında olan xatirələrini yazıb gələcək nəsillərə hədiyyə etməklə, həm Şirməmməd müəllimin ruhunu şad edəcək, həm də sağlam nəslin yetişməsində böyük rolu ola biləcək nəşrlər hazırlamaqla, daha xeyirli işlər görə biləcəkdir.

Mərasimin sonunda Toğrula müraciətlə "Nənədən muğayat olun, onu fikir eləməyə qoymayın" deyəndə, onun çox inamla, "**Narahat olmayın. O, bizə Babanın yadigarıdır**", söyləməsi Toğrulun lap uşaq yaşlarından çox zəhmətkeş və yanımcıl, istiqanlı uşaq olması barədə Ülkər xanımın söhbətlərini yadıma saldı. Ailə qurandan sonra baba və nənəsi ilə birlikdə yaşayan Toğrulun ailəsi və onun balaca balası Camal yəqin ki, Ülkər xanımı qəm çəkməyə qoymayacaqlar...

Maral POLADOVA

"525-ci qəzet", 3 avqust 2019

BİZ ONU NECƏ SEVİRDİK?

Düzlüyün, mərdliyin, böyüklüyün, əsl müəllimliyin simvolu kimi... Mən bu yazımda o unudulmaz şəxsiyyətin nə yaradıcılığından, nə də elmi fəaliyyətindən danışmaq istəyirəm. Qoy bu barədə həmkarları, mütəxəssislər sözlərini desinlər. Əslində alim olmağa nə var, insan olmaq çətindir. Mən bu ali insanın qeyri-adi məziyyətlərini yada salmağa üstünlük verirəm. Həmişə tələbəlik illərini xatırlayanda sevinc və qürurla deyirəm ki, bizim çox yaxşı, cəsarətli müəllimlərimiz olub, bizə məhz kitablarda, dərsliklərdə olmayanları, pünhan saxlanılan mətləblərdən danışıblar. Adlarını da qürurla çəkirəm...

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi bizim çoxumuz üçün ən doğma, müqəddəs məkan, arzularımızın ünvanı sayılır. İndi mətbuatda çalışan peşəkar jurnalistlərin əksəriyyəti məhz bu fakültənin məzunlarıdır. Harada işləməyimizdən, hansı vəzifəni tutmağımızdan, yaşımızdan, eləcə də sosial durumumuzdan asılı olmayaraq bu fakültənin adı çəkiləndə varlığımıza xoş hisslər yayılar, üz-gözümüzə təbəssüm qonar. Çünki bu fakültə jurnalist kimi yetişməyimizdə, formalaşmağımızda və nəhayət, mətbuat aləminə peşəkarlıqla qədəm qoymağımızda mühüm rol oynayıb. Beş ildə bizə dərs deyən müəllimlərimizin qəlbimizdə yaşatdığımız adlarını xatırladıram: Qulu Xəlilov, Mir Cəlal, Nurəddin Babayev, Əzizə Cəfərzadə, Nəsir İmanquliyev, Famil Mehdi, Tofiq Rüstəmov, Nəriman Zeynalov, Şamil Qurbanov... Təbii ki, mən məhz sevdiklərimizin adlarını çəkirəm. O gözəl kollektivdən yadigar qalan (Allah ömür versin) Cahangir Məmmədli, Akif Rüstəmov, Mahmud Mahmudov... Və bizim oxuduğumuz dövrdə bu gözəl heyətlə birlikdə qəlbimizə hakim kəsilmiş, sevdiyimiz, həm də qorxduğumuz, çəkindiyimiz dekanımız Şirməmməd Hüseynov. Etiraf edim ki, onun dekan olduğu dövrdə jurnalistika fakültəsi bütün fakültələrdən seçilirdi. Təkcə gözəl kollektivinə, nüfuzuna görə yox, burada ədalət, düzlük hökm sürürdü. Məkkə-Mədinə müqəddəsliyində idi. Tələbə-müəllim arasında elə doğmalıq, səmimi ünsiyyət var idi. Biz buranı bitirib gedəndə çox kədərlənmişdik ki, əzizlərimizdən ayrılırıq. Təbii ki, bu isti münasibətin yaradıcısı Şirməmməd Hüseynov idi.

Yadımdadır ali məktəbə qəbul olduqdan sonra yuxarı kurs tələbələri bizə müəyyən məsləhətlər vermişdilər. Mühazirələrini dinləmədiyimiz müəllimlərin çoxunu tanıtmışdılar. Hətta onu da başa salmışdılar ki, nəbada filan müəllimə bilə ki, tanınmış qohumunuz, kimsəniz var, sizi mütləq incidəcək ki, ona ağız

açdırasınız. Nəhayət, bu hal baş verdi. Növbə mənə çatanda "nəslimizdə yeganə adamam ki, bu fakültədə oxuyuram" dedim. Bir qədər üzümə müəmmalı baxıb "yaxşı" dedi. Bizə Azərbaycan dilindən mühazirələr oxuyurdu. Seminar müəllimimiz ayrı pedaqoq idi. Əməlli-başlı bizi öyrədirdi. O, isə əsasən gecikən "məhəbbət"ilə bağlı şeirlər deyirdi. Haqqında da yaxşı fikirlər səslənmirdi. Günlərin birində filologiya fakültəsində təhsil alan qohumum qapını döyüb ondan icazə alaraq mənimlə çox vacib işi olduğunu söylədi. "Flora sənin nəyindi?" – sualına aldığı cavabın bombasını yay imtahan sessiyasında başımda çatlatdı: "Sən özünə bu qədər arxayınsan, tapşırılmamış imtahana girmisın?" Seminar müəllimim nə qədər məni tərifləsə də, əhəmiyyəti olmadı. Axırda onun tənələrinə dözməyib: "Qeyri-kafi yazın, gedim" dedim. "Yox, sənin qohumlarını yandıracam, bilsinlər, adamı saymamaq, nə deməkdir." Qiymət kitabçama kafi yazaraq məni əlaçılıqdan saldı. Dəhlizə çıxanda artıq məni şiddətli ağlamaq tutmuşdu. Haqsızlıq ürəyimi partladırdı. Qəflətən Şirməmməd müəllimlə rastlaşdım. "Nə olub, qızım" deyərək qolumdan tutdu. Dilim kilidləndi. Məni iş otağına apardı, su gətizdirdi. Handan-hana müəllimənin əməllərindən danışdım. Ağlıma da gəlməzdi ki, Şirməmməd müəllim də nitqində nəsə kobud səslənə bilən ifadə işlədər. Amma "xanım"ın əsl adını dedi və növbəti sessiyada artıq o müəlliməni fakültəyə qoymadı.

Bir hadisəni də heç unutmuram. Deyəsən IV kursda idik, bizə Avakyan adlı birisi "Xaricdə erməni mətbuatı"ndan mühazirələr oxuyurdu. Özümü elə pis hiss edirdim ki, qətiyyən ona qulaq asmaq istəmirdim. Rəfiqələrimi də sövq edirdim ki, bu dərs bizə lazım deyil. Əməlli-başlı mühaziranı pozmaq istəyirdim. Şuluq salırdım, açıqca özünə deyirdim ki, biz səni eşitmək istəmirik. Nəhayət, məni dekanlığa çağırdılar. Şirməmməd Hüseynov "Nə olub, niyə nadinclik edirsən?" – soruşdu. Çəkinə-çəkinə dedim:

- Nadinclik yox, etiraz edirəm.
- Nəyə?
- "Xaricdə erməni mətbuatı" adlı mühazirələri dinləməyə.
- Nəyi pisdir, gələcəkdə jurnalist olacaqsan, bilməlisən.
- Onda xaricdə Azərbaycan mətbuatını da öyrətsinlər. Türk mətbuatından danışsınlar, Cənub mətbuatından...

Sözümü kəsərək "Qızım, mən səni yaxşı anlayıram, amma sən... O arzuların da çin olar, indi sakit ol, hər şeyin öz zamanı gələcək. Mühazirəyə sakitcə qulaq as, demirəm, sən haqsızsan, amma belə etmə. Mən özüm də bəzi məsələləri düşünürəm. Çalışacam onun ayağını bu fakültədən kəsim. İndi get, dərsinlə məşğul ol, bir də səndən şikayət gəlməsin". Görünür, erməni nəsə deyibmiş. Həqiqətən sonrakı illərdə o ermənini bir daha fakültəmizdə görmədik.

Tələbəlik illərimdə ali məktəbdə bizə dərs deyən bütün müəllimlərim haqqında xüsusi dəftərçədə öz fikirlərimi qələmə almışam. İndi bu balaca bloknot mənə elə əzizdir ki, çünki düzü düz, əyrini əyri yazmışam. Ən maraqlısı da odur ki sonda çox sevdiyim 5 müəllimin də adını xüsusi qeyd etmişəm və bu siyahıda Şirməmməd Hüseynov da var. Əlbəttə, gənc bir tələbənin düşüncələridir. Onunla bağlı olan qeydlərim mənə də maraqlı gəldi: "Şirməmməd Hüseynov. Dekanımız. Mən indi bildim ki, niyə dekan kəsilən tələbələrin qənimi imiş. Niyə onları haqlı-

haqsız incidir, danlayır, hətta qovur. Sən demə, özü zır savadsızların qənimiymiş deyin, "kəsilmiş"lər haqqında pis fikirdə olurmuş. Bu, səhv fikirdir. Bəzən elə yaxşı, savadlı tələbələr haqsızlığa məruz qalırlar ki... Şirməmməd Hüseynov həm də beynəlxalq icmalçıdır. Xarici ölkə mətbuatından dərs deyirdi. Savadlı, məlumatlı, bilikli, olduqca məntiqli insandır. Danışığı da əsl şəkili ləhcəsi...Di gəl belə dərsdə darıx. Heç yorulmazdıq. Əksinə vaxt bitəndə heyifsilənərdik..."

Sonuncu kursda idik Famil Mehdi mənə dedi ki, gəl get bu kafini düzəlt, təzədən imtahan ver, sən qırmızı diplom ala bilərsən. Mən etiraz etdim. Söhbətimizə Şirməmməd Hüseynov da qoşuldu. "Sən narahat olma, biz sənə kömək edəcəyik ki, səndən fərq imtahanını başqa müəllim götürsün, sən o ifritənin üzünü də görməyəcəksən". "Yox, Şirməmməd müəllim, istəmirəm", – dedim. "Yaxşı, qızım, onsuz da yaxşı jurnalist olmaq üçün diplomun hansı rəngdə olması fərq etməz. Mən sənin bacarıqlı jurnalist olacağına inanıram", söyləyərək mənə yeni həyat üçün ilk xeyir-duasını verdi. Ömrüm boyu onun etimadını doğrultmağa çalışdım.

Təyinatla "Azərbaycan müəllimi" qəzetində işləyirdim. Artıq ailə də qurmuşdum. Elnur adlı bir oğlum da var idi. Bir gün onu özümlə işə gətirmişdim. 3-4 yaşı olardı. Şirməmməd Hüseynov redaksiyamıza gəlmişdi. "Dəyirmi masa" ətrafında söhbətimiz var idi. Sonra iş otağımıza gəldi, Elnuru görəndə "bu kimdir, təzə jurnalistdir?" – deyə zarafatla soruşdu. Mən utandığımdan dinmədim. Şöbə müdirimiz şair Cavad Cavadlı şən halda "tələbənizin – Flora xanımın oğludur", – dedi. Üzündə qəribə bir təbəssüm yarandı və dərhal da söylədi "Denən ki, nəvəmdir". Bir qəribəliyi də unutmuram ki, o, Elnuru öpərək çox uzaqgörənliklə dedi: "Sən də anan kimi jurnalist olarsan, indidən bu qələmdaşların arasındasan." Xoşbəxtliyə bax ki, bu şəkil də o görüşdən yadigar qaldı və həqiqətən də sonralar Şirməmməd müəllim Elnurun da müəllimi oldu.

2014-cü ildə Bakı Dövlət Universitetində Şirməmməd Hüseynovun 90 il-

lik yubileyi keçirilirdi. Çalışdığım İctimai televiziyanın adından sevimli müəllimimizi təbrik etməyə məhz mən getməli oldum. Gözəl, yaddaqalan bir mərasim idi. Bütün çıxış edənlər çox səmimiyyət və ehtiramla yubilyarı təbrik edir və xoş sözlər deyirdilər. Mən özümü çox xoşbəxt sanırdım. Bilirsinizmi niyə? Çünki həmişə çəkindiyim, sözünün önündə söz deməyə cəsarət etmədiyim bir şəxsin önündə və eləcə də yüzlərlə insanın qarşısında istəkli müəllimimin üzünə baxaraq ürəyimi boşaldaraq, ehtiramımı, məhəbbətimi, diləklərimi bildirəcəkdim. O gün yadıma düşəndə çox kövrəlirəm. Bu unudulmaz şəxsiyyətin indi 95 yaşı tamamlanacaq. Gücüm ötənləri vərəqləməyə çatdı. Bir təsəllim də var ki, bu ali şəxsiyyətin ömür-gün dostu Ülkər xanım Hüseynova mükəmməl bir jurnalist və xeyirxah insan, sədaqətli dost, mehriban anadır. Məktəbdə heç bir saat da müəllim işləməyib. Bu yaşımda onu özümə müəllim və ana bilirəm. Hər dəfə onunla söhbət edəndən sonra özümü qəlbən elə rahat hiss edirəm ki... Yadımdadır, mətbuatla bağlı bir tədbirə getmişdim. Onları qoşa gördüm, dərhal yaxınlaşdım və Ülkər xanımı qucaqladım. Şirməmməd müəllim həmişəki kimi atmacasından qalmadı: "Ay bala, sənin müəllimin mənəm, bir mənə sarı da bax..." Hələ də anlamıram ki, niyə belə dedim: "İnciməyin, Şirməmməd müəllim, mən Ülkər xanımı daha çox istəyirəm". Mənalı-mənalı gülümsədi. Hətta evlərinə zəng edəndə də təsadüfən telefonu özü götürəndə səsimi eşidən kimi deyərdi: "Hə, bilirəm, Ülkəri istəyirsən..." Bir dəfə onu "Yadıgarlar" verilişinə dəvət etdim. Xeyli üzümə baxdı və dedi: " Flora, məni sağlığımda ölənləri yad etməyə çağırma. Onlardan danışan çox olacaq. Məni elə şəxsiyyətləri anmağa dəvət et ki, tamamilə unudulublar..." Əvvəl təəccübləndim, sonra isə bu tövsiyənin mənasını anladım, bəli, Şirməmməd Hüseynov yenə də mənə öz müəllimlik missiyasını xatırlatdı. Unudulmuş unudulmazları yad etməliyik. Unutmayaq ki, bizi də unutmasınlar.

Nə hər müəllim tələbə qəlbinə iz sala bilir, nə də hər tələbə müəlliminin yadında qalır. Sizi bütün tələbələriniz sevirdi, Şirməmməd Hüseynov. Yoxluğunuzla barışa bilmirik. Biz əslində fədakar bir öncülümüzü, müdrik müəllimimizi, örnəyimizi itirdik. Amma... Amması budur ki, sizi sevənlərin hər birinin ürəyində Şirməmməd Hüseynov adlı əbədi bir abidə var. Görün neçə evdə, məktəbdə, redaksiyada, radioda, televiziyada... sizdən dərs alanlar cəmləşib. Bu yaşamaqdı, bu əbədiləşməkdi.

Flora XƏLİLZADƏ,
Əməkdar jurnalist
"Kaspi" qəzeti, 15 may 2020

MƏNƏVİ ATAMIZ

Ötən il iyun ayının 24-ü idi, televiziyanın xəbərlər proqramında eşitdim ki, bizim ağsaqqalımız, mənim yaxın qohumum, Azərbaycan jurnalistlərinin mənəvi atası, böyük alim, zəngin mənəviyyatı və əxlaqi dəyərləri ilə milyonlara nümunə olan Şirməmməd Hüseynov dünyasını dəyişib. Həmin gecə səhərə qədər yata bilmədim. Şirməmməd Hüseynov bütün Türk dünyasının nadir, müdrik şəxsiyyətlərindən biridir. Onun tövsiyyələri, nəsihətləri ömrümüz boyu bizim həyatımızı işıqlandırıb. Şirməmməd müəllim 95 yaşında dünyasını dəyişib.

Sağdan: *Çingiz Nağıyev, Şirməmməd Hüseynov, Ülkər Hüseynova, Dilbər Nağıyeva. Şəki, 2014-cü il*

Həmişə yay aylarında Şirməmməd müəllim Şəkiyə gələndə də bizim evimizə qonaq gəlib. Mən onların ailəsində bir dəfə də olsa biri-birinə qarşı nəinki kobudluq, heç laqeydlik görməmişəm. Onları da bu yaşa çatdıran qarşılıqlı hörmət, səmimi ünsiyyət və böyük sevgi olub.

Mən onların qarşılıqlı hörmət və ehtiramının həmişə şahidi olmuşam. Şirməmməd müəllim bizimlə söhbətlərində həmişə deyərdi.

"- İnsanda ilk sevgi ana, ata, bacı, qardaş, əmi, dayı, bibi, xala, sonra məktəbdə sənə diqqət, qayğı göstərən müəllimlərinə yaranır. Sonra tanıdığın yaxşı insanlara sevgin olur. Yaş artdıqca ailə, övlad, nəvə, nəticə sevgisini yaşayırsan.

Həyatında qarşılaşdığın yaxşı, ali insanlara, dostlara, heç vaxt üzünü görmədiyin, əsərlərindən tanıdığın müdrik insanlara da adamda sevgi yaranır. Həmin sevgilər toplusu insanı kamilləşdirir və insan daha ali – Tanrı sevgisini dərk edir. Bu sevgiləri yaşamasan kamilləşib Tanrı sevgisinə yüksələ bilməzsən. Qəbrin nurla dolsun, Allahdan sənə sonsuz rəhmətlər diləyirik. Biz həm qəlbində, həm də beynində böyük sevgi ilə yaşayan əvəzsiz bir şəxsiyyəti itirmişik.

Ona görə Şirməmməd müəllimə ağlı və qəlbi ilə sevməyi bacaran deyirəm ki, min illər yaşadıqca cəmiyyət kamilləşir, insan primitiv duyğularla, hisslərlə yaşamaqdan uzaqlaşır. Kamil insanlar hisslərin yox, şüurun, ağılın göstərdiyi istiqamətdə getməyə üstünlük verirlər. Hələ 19-cu əsrdə yaşayan böyük şair Mirzə Şəfi Vazeh yazıb ki,

Ağlımla qəlbimin özgə yolu var,
Hər biri bir yolda puç edər məni.
Birisi sevdadan uzaqlaşdırar,
Birisi sevdaya tuş edər məni!

Şirməmməd müəllim kamil insan idi, o, zəmanəmizdən çox qabağa getmişdi. Şirməmməd müəllim sevgiyə layiq olan insanlan həm ağlı, həm də ürəyi ilə sevirdi və ona görə də milyonlarla insanlar onu böyük şəxsiyyət kimi sevib və sevəcək!

Mən ötən il Ramazan bayramında Şirməmməd müəllimlə əlaqə saxladım, onu bayram münasibəti ilə təbrik etdim. Son üç ildə səhhəti ilə əlaqədar Şəkiyə gəlməmişdi.

Mənə dedi ki, bu il 4-5 günlük də olsa gəlmək istəyirəm. Şəkinin havasından ötrü darıxmışam. Bəlkə də dünyaya göz açdığı Şəkinin havası, evində içdiyi Taclıq bulağının suyu onu bir neçə il də yaşadardı.

O insanda sonsuz həyat eşqi, yazmaq, yaratmaq şövqü var idi. Bu fikirlərin fonunda Şirməmməd müəllimin ən yaxın məslək, əqidə dostu olan böyük şair Bəxtiyar Vahabzadənin bir şeirini xatırladım.

Həyat sən nə şirinsən,
Səndən doymaq olarmı?!
Ancaq hamının deyil,
Sən həyatın qədrini
Yalnız bilənlərinsən!
Həyat sevincin qədər,
əzabın da şirindir,
Səni mənalandıran,
o keşməkeşlərindir!...
Həyat qışın da şirin,
həyat yazın da şirin.
Gürbəcür yazılar var,
ömrün varaqlarında.
Həyat sən nə şirinsən,

Kim səndən doydu getdi!?
Həyat sən nə şirinsən!?
Ancaq hamının deyil,
Sən həyatm qədrini,
Yalnız bilənlərinsən!...

Doğrudan da həyat sevə-sevə və sevilə-sevilə yaşayanlarındır! Bu xoşbəxtlik isə hər insana nəsib olmur. Şirməmməd müəllim öz yaşam tərzi, mükəmməl və kamil əsərləri, bir çox müsbət əməlləri ilə Türk dünyasında özünə əzəmətli bir abidə ucaltmışdır.

Abidə demişkən, bu günlərdə Ülkər xanımla telefonla danışanda çox böyük iftixar hissi ilə Ülkər xanım mənə dedi ki, Dövlətimiz tərəfindən Şirməmməd müəllim həmişə yüksək qiymətləndirilib, indi də Dövlət sifarişi ilə qəbri üstündə gözəl bir abidə ucaldılıb.

Çox təəssüf ki, indi dünyada və ölkəmizdə yaşanan COVİD-19 pandemiyası səbəbindən bizlər rayondan gedib onun qəbrini ziyarət edə bilmirik.

Sağlıq olsun yollar açılan kimi bu missiyamızı mütləq yerinə yetirəcəyik və həmin məkan bizlər üçün müqəddəs ziyarətgah olub və olacaqdır. Vətən torpağı vətəndaşlar üçün ona görə müqəddəsləşir ki, orada əzizləri uyuyub. Ora vətəndir.

Allah bizə qeyrət versin, kamil bir şəxsiyyət olan Şirməmməd Hüseynovun əsərlərində qarşıya qoyulan vətənpərvərlik əqidəsini yaşadaq, uyuduğu vətən torpağını da qoruyub saxlaya bilək!

Şirməmməd Hüseynov Türk dünyasında böyük şəxsiyyət kimi tarixdə qalacaq.

Çingiz ƏNVƏROĞLU,
"Qızıl Qələm" mükafatı laureatı
"Ədalət" qəzeti

NƏSLİN DAVAM EDƏCƏK

Yer kürəsi insanla məskunlaşandan, sonra dünyamıza milyardlarla insan övladı gəlib-gedib. Milyardların sayını heç bir alim, heç bir riyazi nəzəriyyə dəqiq təyin edə bilməyəcək. Ancaq bu milyardların ikisi biz olduq. Sən işıqlı dünyada 95 ilə yaxın ömür yaşadın, sonra əbədiyyətə qovuşdun. Mən isə 82 il ömür sürdüm. Sənin lə çox xoşbəxt, sakit 60 il bir ömür. 75 yaşın tamam olanda dost-tanışlarınla söhbət edəndə həmişə bir cümləni tez-tez təkrarlayırdın: Mənim yaşamaq limitim qurtarmaq üzrədir. Səhhətində bəzi problemlər vardı. Bu məni sarsıdırdı. Odur ki, sənə nəzmlə bir məktub yazdım və kitablarından birinin arasına qoydum. Bir müddətdən sonra həmin şeiri axtaranda tapmadım, ancaq əvəzində kitabın səhifələri arasında mənim sənə həsr etdiyim mənzum məktubu öz əlinlə, öz xəttinlə köçürtdüyünü gördüm. Haqqında o qədər yazıblar ki, ancaq mənim yazdıqlarım görünür, sənə çox qiymətli imiş ki, onu öz dəst-xəttinlə köçürmüşdün.

Bu sənin mənə həyatımızdakı ən böyük "hədiyyən" idi. Hələ gənclik illərində gündəliyimdə yazmışdım ki, biz həyatdan Pol Lafarq və Laura kimi gedəcəyik. Sən bu sətirləri oxuyub mənə irad tutdun, dedin ki, mən getsəm, bəs mənim qızlarım necə olsun?! Belə hərəkət etmək olmaz, bildin".

Mən də sənin dediyinə əməl edirəm. İki qız övladımız, dörd nəvəmiz və dörd nəticəmiz var, onların qəm yükünü, kədərini, ağır itkisini artırmaq istəmirəm. Ancaq mənim işıqlı dünyada həyatım 24 iyunda bitdi. Təsəllim odur ki, nəslimizi davam etdirəcək ləyaqətli davamçıların var.

ÜLKƏR,
"Sizdən bir də olmayacaq. Əlvida"
"AfPoliqrAF", 2019

Б. Вагабзаденин Ш. Гусейновой həср etdiyi "17 декабр" şerinə Ülkər xanımın 75 illik yubileyi münasibətilə "Əlavə"

Вар-dövlət fəxmayıq bu dünyada çək
O, çəkə, mənə də kərək deyil dur.
Yağmurlu sərvətin kəvərgimdir,
Nəvə, kəmkəşf yağmalın sərvət.
Sənin müjgətli ömrünə, qardaş!
Ömründən beş mil əlavə uzat,
Beş milə Təbriz'in xətrinə kəlsə!
Qarabağ leyləcə nə bərcən azdır,
Kəbrət Nilufərin çıxarma yaddan
Bütə bir ömürdür, yaşayaq qardaş!
Tənəssən bunları Ülkərə bəsdir,
Türkü ömründə bizə sərvətdir.

UCALIĞA QOVUŞAN İLLƏR

Əlinə qələm aldığı gündən könlünü sözə elə bağladı ki, illər gəncliyini qocalığa – əslində, ucalığa qovuşdursa da, şehli arzularına zərrəcə qırov da düşmədi. Həmişəki şövqlə, həvəslə, əqidə və amalla, ən başlıcası, peşəkarlıqla, jurnalistikaya böyük sevgi ilə yazıb-yaratdı. Min bir diqqət və zəhmətlə hördüyü söz mülkünün hər bir "kərpic"ində ömrünün mənasını naxışladı. Yazılarının coğrafiyası da çox genişdir. Müsahibə aldığı, yaxud da haqqında yazdığı insanların adları bəs edər ki, biz müəllifinin hansı zəkaya, biliyə malik olduğundan, maraq dünyasından, mövzu seçmək qabiliyyətindən, sual vermək səriştəsindən, qəhrəmanını danışdırmaq məharətindən xəbər tutaq. Fərəhlidir ki, bu şəxsiyyətlər həm də elmin hər kəsə nəsib olmayan zirvəsini fəth ediblər. Məsələn, dünya kosmonavtikasını yeni mərhələyə qovuşduran Kərim Kərimov, texnika elmləri doktoru Tofiq İsmayılov, neftçi-alim Həsən Abdullayev, akademiklərdən İmam Mustafayev, Nəriman Quliyev, Akif Əlizadə, İzzət Orucova, oftalmoloq Ümnisə Musabəyova, unudulmaz Hüseyn Cavid, xalq artisti Hökümə Qurbanova və onlarla başqalarını bu məqalələrdə həm yaxından tanıyır, həm də müəllifin üslubuna, özünəməxsus yazı tərzinə bələd oluruq. Bu mənada, Azərbaycan milli mətbuatının yaranmasında, inkişafında xidməti olan qadın jurnalistlərimizin iftixar doğuran fəaliyyətinin sırasında öz yeri var Ülkər xanım Hüseynovanın...

O, 1937-ci ildə Şəkidə anadan olub. 1955-ci ildə Bakıdakı Hüseyn Cavid adına 132 nömrəli orta məktəbi gümüş medalla bitirib. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alıb. 1966-cı ildən bu günədək "Elm və həyat" jurnalında çalışır. Ötən illər ərzində şöbə müdiri, redaktor müavini, baş redaktor vəzifələrini ləyaqətlə yerinə yetirmiş Ülkər xanım hazırda jurnalın redaktor müavinidir. Bu müddət ərzində elmin müxtəlif sahələrindən bəhs edən yüzlərlə yazının müəllifi olan Ülkər Hüseynova həm də müntəzəm və səmərəli şəkildə tərcümə ilə məşğuldur. Bütün varlığı ilə bağlandığı jurnalın səhifələrində onun tərcüməsi ilə işıq üzü görən elmi yazılar həmişə aktual və gərəkli mövzulardan bəhs edir.

Azərbaycanın mətbuat və maarifçilik tarixində özünəməxsus yeri olan "Elm və həyat" jurnalının bu il 50 yaşı tamam oldu. Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin maarifçilik ənənələrini uzun illər və ləyaqətlə davam etdirən bu gərəkli nəşrin yaşamasında Ülkər Hüseynovanın əməyi böyükdür. Bu faktdır ki, jurnalın bütün ağırlığı demək olar ki, bu xanımın zərif çiyinlərindədir. Məhz onun əməyinin sayəsində jurnalda tarix, ədəbiyyat, etnoqrafiya ilə bağlı məqalələrlə yanaşı, fizika, kimya, kibernetika, astronomiya və s. elm sahələrinə aid yazılar da oxucuların müzakirəsinə təqdim edilməkdədir. Filologiya elmləri doktoru, professor İfrat Əliyeva vaxtilə bir məktəbdə oxuduğu sinif yoldaşı barəsində qələmə aldığı məqalədə yazır: "Ülkər xanım özünün savadı, mühakiməsi, qavrama qabiliyyəti ilə çoxumuzdan fərqlənirdi. O, bütün fənləri eyni məhəbbətlə sevir, sinif yoldaşlarından fərqli olaraq, çoxlu bədii və tarixi əsərlər oxuyardı... Ülkərin iti qələminə məktəb illərindən bələd idim. Sevinirəm ki, uzun illər "Elm və həyat" jurnalında müxtəlif vəzifələrdə çalışan uşaqlıq rəfiqəm gözəl tərcüməçi, böyük dünyagörüşə və intellektə malik olan jurnalist kimi bir zirvəyə yüksələ bildi".

Ülkər xanımla ilk dəfə müsahib olanlar öncə onun insanlarla davranış mədəniyyətinə, nəzakətinə, mehribanlığına diqqət kəsilirlər. Yaradıcılığına bələd olanlar isə zəhmətkeşliyinə, hünərinə, gecə-gündüz yorulmadan çalışmağına vurğundurlar. Bu illər ərzində təvazökar şəkildə yazıb-yaradan, yalnız öz işi ilə məşğul olan Ülkər Hüseynova Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Heydər Əliyev və Azərbaycan kimya sənayesi", "Qeyri-səlis məntiqin atası ilə həyatım və səyahətlərim" adlı kitabları rus dilindən Azərbaycan dilinə tərcümə edib. "Elm və həyat"ın işığında", "Mənim fəxrim – məktəbim" kitablarının müəllifidir. 1999-cu ildə Açıq Cəmiyyət İnstitutunun keçirdiyi müsabiqənin qalibi olmuş və həmin institut ilə Rusiya Federasiyası Təhsil Nazirliyinin birgə layihəsi əsasında hazırlanan yeni nəsil üçün tədris ədəbiyyatlarının tərcüməçisi və redaktorlarından biri olmuşdur. "Qızıl qələm" mükafatçısı Ülkər Hüseynova "Elm və həyat" jurnalındakı səmərəli fəaliyyətinə görə də bir sıra fəxri fərman və diplomlarla təltif olunub.

Maraqlı cəhət odur ki, Ülkər Hüseynova mətbuat xadimi, çoxumuzun müəllimi olmuş, bu gün də tədqiqatçılığını yorulmadan davam etdirən Şirməmməd Hüseynovun həyat yoldaşıdır. 1959-cu ildən qoşa ömrün qanadına çevrilmiş bu fədakar insanlar bütün hallarda örnəkdirlər. "Şirməmməd mənim müəllimim olub. Moskvada ali təhsil alıb gəlmişdi. Yarım əsrdən çoxdur ki, bir yerdəyik. İki gözəl övladımız var. Bütün bunlara baxmayaraq, Şirməmməd mənim üçün həmişəlik müəllim olaraq qalıb. Həyat yoldaşlığından çox mən ona mətbuat cəfakeşi, müəllimim kimi rəğbət bəsləyirəm. Çox çalışqan və fədakardır", – söyləyən Ülkər xanımın fikrini davam etdirmək üçün "siz, əslində, mətbuatımızın qoşa qanadısınız", – dedim. Qəribə bir gileylə, amma səmimiyyətlə cavab verdi: "Nə danışırsınız? Mənim Şirməmmədin səviyyəsinə çatmağım mümkün deyil! Bizim əməyimizi eyniləşdirməyin. O çox böyük və fədakar mətbuat xadimidir". Bu, həm həyat yoldaşının - qadının, ananın, həm də uzun illər mətbuatda cəfakeşlik etmiş peşəkar bir jurnalistin öz müəlliminə verdiyi dəyərli qiymət və səmimi etiraf idi.

Ülkər Hüseynovanın insanı valeh edən məziyyətləri çoxdur. Hər şeydən əvvəl milli təəssübkeşliklə yazıb-yaradan, sözün həqiqi mənasında, qələmə bağlı olan bir xanımdır. Azərbaycan mətbuatında zəhmətləri olan qadın jurnalistləri məhəbbətlə xatırlayır. Xədicə Əlibəyovadan, Şəfiqə Əfəndizadədən, Sona Tağıyevadan, Umgülsümdən, Həmidə Cavanşirdən, Xalidə Hasilovadan, Əzizə Cəfərzadədən... özünəməxsus məhəbbət və ehtiramla danışır. Bu gün jurnalda onunla çiyin-çiyinə çalışan həmkarlarından Mehparə Axundovanın, Maral Poladovanın fədakarlığından söz açır. Bütün varlığı ilə "Elm və həyat" jurnalına bağlanan Ülkər xanım söyləyir: "Mən jurnalda əməkdaşlığa başlayanda "Elm və həyat" demək olar ki, artıq öz mövqeyini, üslubunu müəyyənləşdirmişdi. Jurnala həmin illərdə Rza Şahvələd rəhbərlik edirdi. İlk redaktoru akademik Abdulla Qarayev olub. Sonrakı illərdə Həsən Mehdiyev, Aydın Səlimzadə, arada mən, indi akademik Mahmud Kərimov rəhbərlik edirlər. Jurnal həmişə alimlərimizin

tribunası olub. Yadımdadır, akademik Həsən Əliyevin coğrafiyaşünas-alim kimi ilk yazısı da məhz bizim jurnalımızda çap olunub. O, ildə iki-üç dəfə jurnalda aktual mövzularda çıxış edərdi. Tez-tez də xarici ölkələrə elmi ezamiyyətlərə gedər və qayıtdıqdan sonra öz təəssüratını jurnalımızın oxucuları ilə bölüşərdi. Təsəvvür edirsiniz, bizim jurnalın bədii tərtibatını uzun illər SSRİ xalq rəssamı Mikayıl Abdullayev verib. Biz onun dəst-xəttini bu gün də saxlamağa çalışırıq. Hətta bu unudulmaz rəssamın çəkdiyi bir sıra portretlər – Cəlil Məmmədquluzadənin, Molla Pənah Vaqifin, İmadəddin Nəsiminin və başqalarının portretləri ilk dəfə "Elm və həyat"ın üz qabığında çap olunmuşdur. Şair Bəxtiyar Vahabzadə də jurnalımızla fəal əməkdaşlıq edərdi. Dövlət müstəqilliyimizi qazandıqdan sonra rəhmətlik Mahmud İsmayılovun və Məmməd Cəfərin silsilə yazılarını dərc etdik. Jurnalımızın səhifələrində alimlərlə yanaşı, Azərbaycanın bir çox tanınmış jurnalistləri də öz qələmlərini sınayaraq xeyli müddət bizimlə bir redaksiyada çalışıblar. Rasim Səfərov, Ələsgər Cabbarov, Rafiq Əhmədov, Aqil Abbas, Eldar Nəsibli, Rəşad Məcid, Arif Quliyev, Məhəbbət Hüseynova və başqalarının adlarını qeyd edə bilərəm. Nəşrə başladığı vaxtdan bu günədək 5 minə qədər Azərbaycan aliminin məqaləsini dərc etmiş "Elm və həyat"ın 445 sayı işıq üzü görüb. Artıq 50 yaşını arxada qoyan jurnal yenidən dirçəliş dövrünü yaşayır. Biz jurnalın yaşaması, əvvəlki kimi sevilməsi üçün əlimizdən gələni edirik" – deyən Ülkər xanımın gözləri nəmləndi.

O, bir məsələni də qeyd etməyi unutmadı. Belə ki, Ülkər Hüseynova hələ 1969-cu ildə "Elm və həyat" jurnalında təmiz hava problemi ilə bağlı həyəcan təbili çalmışdı. Bəşəriyyəti hava çatışmazlığından xilas etmək üçün elmin qarşısında duran ən mühüm problemlərə toxunmuşdu. Məsələ budur ki, vaxtilə Ülkər xanımın vətəndaş yanğısı ilə diqqətə çatdırdığı problem bu gün də aktualdır. İndi havanın çirklənməsinə qarşı mübarizəyə bütün dünya diqqət yetirməkdədir. Paytaxtımızı ürəkdən sevən həmkarımızın bir fikri də riqqət doğurdu: "Bakı çox dəyişib. Elə gözəlləşib ki, tanımaq olmur. Bunu qeyd etməmək, görməmək insafsızlıqdır, amma..." Müsahibimiz sussa da, ürəyindən keçənləri duymamaq mümkün deyildi. Şəhərimizi bütövlükdə tikinti meydanına bənzətmək olar. Burada küçələrin adlarını çəksək, uzun bir siyahı yaranar. Müxtəlif təşkilatlar, qurumlar eyni vaxtda qazıntıya başlayıblar. Ünvanlar müxtəlif olsa da, görünən abadlıq işlərinin ümumi mənzərəsində məsələ eynidir: sistemsizlik və məsuliyyətsizlik. Dünyanın çox yerində tikinti işləri gedir. Amma planlı və səliqəli şəkildə. Ən azından müxtəlif örtüklər, qoruyucular olmalıdır ki, ətrafda narahatlıq yaratmasın. Bir yeri düzəldəndə, başqa bir ərazinin çirklənməsinə, ətrafın toza bürünməsinə səbəb olmasın. Ekologiyaya zərbə belə dəyir.

O bu redaksiyanın qapısını açanda çox gənc, jurnalın də cəmi beş yaşı var idi. İndi "Elm və həyat" da yaşlanıb, Ülkər xanım da. Amma fərəh doğuran fakt budur ki, mətbuat tariximizdə də, həyatımızda da ən yüksək mərtəbədə, halal yerlərində ləyaqətlə dayanıblar.

Flora XƏLİLZADƏ
Azərbaycan. 2011, 22 iyul

VƏTƏNİN DAŞINI ÜRƏYİNDƏ DAŞIYAN VƏTƏNDAŞ

Vətənin daşını çiynində yox, ürəkdə daşıyarlar!
Vətənin daşını çəkə bilmək üçün ilk növbədə böyük hərflərlə VƏTƏNDAŞ olmağın vacibdir.

Şirməmməd HÜSEYNOV

Görkəmli tədqiqatçı alim, jurnalistikamızın ağsaqqalı Şirməmməd Hüseynovun vəfatından bir il ötür

Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Azərbaycanın dilbər guşələrindən biri olan Şəki şəhərində anadan olmuşdur. 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi bitirmiş, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxumuşdur. O, 1945-1950-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində ali təhsil almışdır. Universiteti fərqlənmə diplomu ilə başa vuran Şirməmməd Hüseynov Lomonosov adına Moskva Dövlət Universiteti Jurnalistika fakültəsinin aspiranturasına daxil olmuş, 1954-cü ildə təhsilini tamamlayıb dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır.

1954-cü ildən indiki Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayan Şirməmməd Hüseynov həyatını universitetə bağlayaraq ömrünün sonunadək burada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olmuş, 1988-ci ildən isə həmin kafedranın professoru vəzifəsində çalışmışdır.

Elmi fəaliyyətini, əsasən, Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti vardır.

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəltmişdir. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olmuşdur. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nə-

sil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Bu gün də onun tələbələri Bakı Dövlət Universitetində, eləcə də digər elm və təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində öz müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Şirməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra mükafatlara layiq görülmüş, Azərbaycan Respublikasının "Şərəf" ordeni və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

Görkəmli alim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar jurnalist, Bakı Dövlət Universiteti Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru, sağlığında həmişəyaşarlığı qazanmış böyük ziyalımız Şirməmməd Ağaməmməd oğlu Hüseynov 2019-cu il iyunun 24-də, ömrünün 95-ci ilində dünyasını dəyişib və Bakı şəhərində, II Fəxri xiyabanda dəfn olunmuşdur.

Yusif RƏHİMOV,
"Mədəniyyət qalası" qəzetinin baş redaktoru,
Şəki Regional Elmi Mərkəzin şöbə müdiri

Şirməmməd Hüseynov:
"Araq içən deyiləm, papiros çəkən deyiləm, rüşvət alan deyiləm!"

Səhifəmizin bugünkü qonağı, BDU-nun jurnalistika fakültəsinin "Mətbuat tarixi" kafedrasının professoru, fərdi prezident təqaüdçüsü, müəllimiər müəllimi Şirməmməd Hüseynovdur.

MÜƏLLİFDƏN: İlk dəfə Şirməmməd müəllimi 34 il öncə auditoriyada görmüşəm. Tələbəsi olmuşam, mühazirələrini dinləmişəm. Şirməmməd müəllim dərs dediyi tələbələrə deməzdi ki, mənə qulaq asın, dərsimdən qalmayın, dediklərimi qeyd eləyin. Onun böyük anlamda DƏRSİNİN cazibəsinə düşən biz tələbələri qoşa saatların nə vaxt bitdiyini hiss etməzdik. Şirməmməd müəllimin mühazirələri hələ oxumağa macal tapmadığımız dəyərli bir kitabın içindəkilər deməkdi... O mühazirələr həm də immunyaradıcı peyvənd kimiydi, beynimizi lüzumsuz ideologiyalara yoluxmaqdan qoruyurdu.

Şirməmməd müəllim bizə doğru düşünməyi, doğru yazmağı öyrədib. Müxtəlif kurslarda "Partiya-sovet mətbuatı tarixi", "Burjua mətbuatının tənqidi" fənnlərini tədris edən tanınmış pedaqoq, əslində öz mühazirələri ilə həmişə daha çox milli mətbuatımızın qaranlıq səhifələrinə işıq tutub.

Jurnalistlər ordusunda onun yetirmələrini məhz eyni cəhət birləşdirir, doğmalaşdırır: Milli ruh, milli təəssübkeşlik.

Unudulmaz müəllimimizlə hal-hazırda çalışdığı Bakı Dövlət Universitetində, jurnalistika fakültəsinin "Mətbuat tarixi" kafedrasında görüşdük. Özünəməxsus həmişəki təbəssümü üzündə... göstərdiyi mənbələri eynəksiz oxuyurdu...

* * *

- 17 dekabr 1924-cü ildə Şəkidə anadan olmuşam. Atam əvvəllər Şəki İpək fabrikində işləyib. Sovet hökuməti gələndən sonra xırda ticarətlə məşğul olub.

...Nəsil şəcərəm barədə kitablarımda da yazmışam. Mənim ata nəslimin də, ana nəslimin də nümayəndələri çox namuslu, qeyrətli, sanballı, bir sözlə, düz adamlar olub.

Üç yaşım hələ tamam olmamış, 1927-ci ildə atam vəfat edib. Üç qardaş, üç bacı qalmışıq anamın ümidinə. Heç bir təhsil görməyən, evdar qadın olan anamın məşəqqətli günləri atamın ölümündən sonra başlayıb. O vaxta qədər çöl işi nədir bilməyən anam gedib ipək fabrikində baramaaçan fəhlə işləyib, baramaların vaxtı çatanda onları saf-çürük edib yaxşıya-pisə ayırıb... Fabrikdən aldığı halal maaşıynan bizi böyüdüb... Çalışıb ki, hər bir ehtiyacımızı ödəsin. Oxumağımızın da qeydinə qalıb, ali təhsil ardınca getməyimizdə də özünün zəhmətli işi, alın təri bahasına dayağımız olub...

...Anam işdə olanda ailənin ilk övladı – böyük bacım bizim tərbiyəmizlə, dərslərimizlə məşğul olub, yeməyimizi-içməyimizi hazırlayıb. Bəlkə də elə bu səbəbdən, altı bacı-qardaşdan beşimiz ali təhsil almışıq, bircə o bacım oxuya bilməyib.

...Çox zəhmətkeş olub böyük bacım da...

...Həm bizə baxardı, həm də vaxt tapan kimi qış corabları toxuyardı. O corabların satışından gələn qəpik-quruş ehtiyac, qayğı yükü ağır olan ailə büdcəmizə əvəzsiz bir kömək idi...

Yuxarıda dediyim kimi, anam özü evdar qadın olsa da, tanınmış, savadlı nəsildən idi. Bir vaxtlar Qafqazın Şeyxülislamı Molla Fərəc Pişnamazzadə olub haa... Anam Sara xanım onun bacısı qızıdı. Dayılarım da təhsilli adamlardı...

Biz rayon mərkəzində yaşayırdıq. Valideynlərimin beşinci uşağı idim. Ailəmizdə düzlük o qədər əsas şərt idi ki, qonşumuzun alça və ya gavalı ağacının budaqları çəpərin üstündən aşıb bizim tərəfə əyilsə də, ixtiyarımız olmayıb ki, meyvələrdən birinə əl uzadaq. Hətta özü qopub yerə düşənləri də anam bizə yığdırar, deyərdi ki, aparın verin sahibinə. Əgər qonşu apardığınız meyvələrdən sizə verərsə, yeyərsiz, verməzsə, haramdı, toxunmazsız...

...Bax, beləcə halallığa öyrətməklə böyüdüb anam bizi...

Altı yaşım olanda birinci sinfə getmişəm. Orta təhsil illərim Şəkidə keçib.

O illərdə kasıb-kusubun, fəhlə-kəndli balalarının savadlanmasına böyük qayğı ilə yanaşılırdı. Əslində, bu özü də imperiya siyasətinin bir tərkib hissəsiydi.

Məktəb üzrə fərqlənən şagirdlərdən sayılırdım. Keçirilən respublika olimpiadalarında iştirak edər, həmişə müvəffəqiyyət qazanar, məktəbimizin, müəllimlərimin başını uca edərdim.

...Bax, bu şəkli görürsən? Ön cərgədə sağdan dördüncü dayanan mənəm. 30 iyul 1940-cı ildə Soçidə çəkilib. Mənim üçün çox qiymətii fotoşəkildi. Bu gün də dəyərli bir xatirə kimi qoruyub saxlayıram.

1940-cı ilin yayında on beş müttəfiq respublikanın olimpiadalarda yer tutmuş əlaçı şagirdlərini seçib Soçiyə dincəlməyə göndərmişdilər.

Olimpiadada fəxri yer tutduğuma görə, Azərbaycan Respublikasından Soçiyə göndərilmiş beş nəfər azərbaycanlı şagirdin biri mən idim. O günlərin yadigarıdı bu şəkil...

Oxuduğum Şəki şəhəri, Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi on altı yaşımda əla qiymətlərlə başa vurmuşam. Məktəbimizin birinci buraxılış məzunlarındanam.

...1941-1943-cü illərdə Şəki ikiillik müəllimlər institutunun fizika-riyaziyyat fakültəsində oxudum və bitirdim. Bu məktəbin də birinci buraxılış məzunlarından oldum.

- Bəs nə əcəb Sizi müharibəyə aparmadılar?

- O vaxt müəllimlərin orduya getməkdən möhlət hüququ vardı.

...Bir müddət Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük, Oxud kənd orta məktəblərində fizika-riyaziyyat müəllimi, "Nuxa fəhləsi" qəzetində ədəbi işçi işlədim.

1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil aldım, universiteti fərqlənmə diplomu ilə bitirdim. Yenə də birinci buraxılış...

Hər yerdə birinci buraxılış məzunu olmağım da sırf taleyin qismətidi haa... Adam hətta özü bilərəkdən istəsə belə, birinci olmaq tarixlərini bu cür ardıcıllıqla düzə bilməz..

* * *

- Qələm əhli adətən vaxt qıtlığından şikayətlənir...

- Mənim vaxt qıtlığı problemim olmayıb. Jurnalistika şöbəsində oxuya-oxuya, tələbəsi olduğum universitetin "Lenin tərbiyəsi uğrunda" qəzetində redaktor müavini, daha sonra "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri işləmişəm.

...Vaxtımı elə bölürdüm ki, dərslərimi də yüksək səviyyədə oxuyurdum, mənə həvalə edilən işi də axsamağa qoymurdum.

- Universitet illəri arxada qaldı...

- Bu dəfə təhsilimi Rusiyada davam etdirdim. 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil aldım. Moskva dövrü ömrümün qızıl hərflərlə yazılan ən səmərəli dövrü olub.

Mənim dissertasiyamın mövzusu 1917-1920-ci illəri əhatə edirdi. Bütün mənbələr əski əlifbaynan, ərəb dilindəydi. Hələ Bakıda tələbə olduğum illərdə öz respublikamızın kitabxanalarında, arxivlərində elmi işim üçün lazım olan materialları əldə edə bilmirdim. Nədənsə, onların istifadəsinə imkan yaradılmır, icazə verilmirdi. Amma Moskvada bu qadağa ilə üzləşmədim... Orada oxuduğum dövrdə sərasər dörd il kitabxanaları, arxivləri araşdırdım, Azərbaycan mətbuatına dair mənbələri tapıb üzə çıxardım.

Bu sırada məqam tapdıqca, Üzeyir Hacıbəyovun, Soltan Məcid Əfəndiyevin, Nəriman Nərimanovun, Məhəmməd Əmin Rəsulzadənin... vaxtilə qadağan edilmiş əsərlərinin üzünü köçürüb nüsxələyirdim. Moskvada oxuduğum illərdə bir dəqiqəmi də boş yerə sərf etmirdim. O dövrdəki arxiv araşdırmalarımın, qeyd dəftərlərimin hamısını bu günə kimi saxlamışam. Atalar deyib, saxla samanı, gələr zamanı...

İndi də əlimdə elə materiallar var ki, onları araşdırmaq, bərpa edib millətə tanıtmaq, geniş oxucu auditoriyasının ixtiyarına vermək gərəkdir.

- Elmi araşdırmalarınızın əsas mövzusu?..

- Mən milli mətbuat tariximizin 1917-1920-cı illər dövrünün və Məhəmməd Əmin Rəsulzadə irsinin araşdırıcısıyam. Ötən əsrin birinci qərinəsində ilk müstəqil Azərbaycan Dövlətinin bayrağını Məhəmməd Əmin Rəsulzadə qaldırıb. "Bir kərə ucalan bayraq bir kərə enməz!" şüarını da ilk dəfə o səsləndirib. Kimsənin haqqı yoxdur ki, dövlətimizin, millətimizin tarixini əks etdirən faktları təhrif etsin. Mətbuatımızı təmsil edən hər bir qələm əhli nədən yazdığına və necə yazdığına ciddi yanaşmalıdır.

Mənim vurğulamaq istədiyim odur ki, 1917-1920-ci illər dövrünün mətbuatı itib-batır, qəzetlər də arxivlərdə çürüyüb gedir. Milli mətbuatımızın tarixini əks etdirən o qiymətli materiallar dərindən öyrənilməli, tədqiq və təbliğ olunmaqla yanaşı, həm də hifz edilib qorunmalıdır. İndi daha qadağalar da yoxdur. Sağ olsun arxiv əməkdaşları da, işləmək istəyənə hər cür şərait yaradırlar. Əsas odur ki, araşdırıcının özünün həvəsi, şövqü ola...

Tarixlə məşğul oldunsa, gərək hər şəraitdə obyektiv olasan, səhvsiz işləməyi bacarasan.

- Moskvada heç senzura səddi ilə qarşılaşmadınız?

- Bu cəhətdən, doğrudan mənim bəxtim gətirmişdi. Moskvada – "Qlavlit" adlanan idarədə azərbaycanlı senzor vardı – Əlihüseyn Əliyev. Rus qadınla evlənmişdi, həmişəlik Moskvada yaşayırdı.

Əlihüseyn əslən şəkiliydi, üstəlik də orta məktəb yoldaşım idi. Yazılarımı senzor kimi o yoxlayırdı. Baxdığı materiallarımın da çapına şəxsən özü icazə verirdi. Əlihüseynin qoyduğu dərkənardan sonra, kimin ixtiyarı vardı ki, ağzını açıb bir kəlmə söz desin. Mən də Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin üzünü köçürürdüm, sonda müəllifin adının yerində yazırdım "Üzeyir Hacıbəyov"... "Nəriman Nərimanov"... "Soltan Məcid Əfəndiyev"... Onlar bolşevik yazarlar sayıldığından, problem yaranmırdı. Əsl müəllifin də adının altından xətt çəkib işarələyirdim ki, sonradan baxanda özüm də müəyyən edə bilim ki, əsər əslində hansı müəllifindir?

- Vətənə döndükdə, Moskvada araşdırdığınız materialların aqibəti necə oldu?..

- Hamısını Bakıya gətirdim. Bu illər ərzində 26 adda kitab hazırlayıb nəşr etdirdim. Oxuculara təqdim etdiyim bu nəşrlərdəki materialların hamısı ilk dəfə çap olunur.

Hələ yorulmamışam. İndi də imkan düşdükcə arxivləri araşdırıb yeni mənbələr tapır, əski əlifbadan yeni əlifbaya köçürür, kompüterdən çıxartdırır, nüsxələdirəm... Sonra aparıram şərqşünaslıq fakültəsinə... göstərirəm ərəbşünaslara, farsşünaslara... onlar da öz qeydlərini edirlər. Ərəbcəni Vasim Məmmədəliyev yaxşı bilir. Dediyim odur ki, mən şərqşünaslarla əlaqəli çalışıram. Kitablarımı da sovet dövründən üzübəri heç vaxt dövlət və ya sponsor hesabına maliyyələşdirməmişəm. Öz halal maaşımdan, təqaüdümdən etdiyim qənaət hesabına demək olar ki, ildə bir kitabım işıq üzü görür. Bütün bu proseslərin hamısı zəhmət, vaxt və vəsait tələb edir. 1954-cü ildən bü günə qədər BDU-da pedaqoq kimi çalışıram.

- Siz, tələbələri tərəfdən həmişə rəğbət və ehtiramla xatırlanan əvəzsiz pedaqoqsunuz...

- Bu, sizin fikrinizdir. Mən bu barədə bir söz deyə bilmərəm. Ancaq bildiyim odur ki, dərsimə gecikən deyiləm – bu bir. Hazırlıqsız əsla auditoriyaya girmərəm – bu da iki.

Baxmayaraq ki, eyni sahədə çalışdığım əlli səkkiz ildən artıqdı, hətta bütöv auditoriyaya deyil, ikicə nəfərə belə dərsim olsa, yenə də sabahkı dərsə irəlicədən hazırlaşıram.

Amma yenə də iddia edə bilmərəm ki, tələbələrim məndən razıdı, ya narazıdı... Öyrənirlər, ya öyrənmirlər. Bilirsiz, tələbəni mühazirə nə qədər öyrədirsə, bir o qədər də əsər öyrədir. Gərək nə yazmısansa, qoyasan tələbənin qarşısına, o da oxuya... Müəllim özü nümunə olmaqla tələbəsini tərbiyələndirə bilər, sözlə bu, mümkün olan şey deyil... Yoxsa, cəmiyyətdə o qədər düz danışan əyrilər var ki...

* * *

- Şirməmməd müəllim, 88 yaşın özəllikləri...

- Bir şey deyim də... Bu 88 illik ömrümdə hansısa bir iş üçün kimsənin qapısını döyməmişəm, kimsədən bircə kəlmənin belə xahişini etməmişəm.

- Uzun və sağlam yaşamağın bir sirri varmı, sizcə?

- Araq içən deyiləm, papiros çəkən deyiləm, rüşvət alan deyiləm.

Bir neçə müddət bundan əvvəl ermənilər "Mir" studiyasına çıxıb dedilər ki, "azərbaycanlılar iddia ediriər ki, müstəqil Azərbaycan dövlətinin cəmi 20 illik tarixi var. Amma Qarabağın – Arsaxın 1000 illik tarixi var. Ermənilər qədim xalqdır, azərbaycanlılar dünənki millətdir" və s. Biz hətta danışanda belə ehtiyatımızı əldən buraxmamalıyıq. Duşmən bəzən bizi öz silahımızla vurur.

- Neçə övlad böyütmüsünüz?

- İki qızım var. Fərəh və Lalə Bizim şəcərədə ümumiyyətlə elmə, təhsilə maraq həmişə üstün olub. Böyük qızım Fərəh Əliyeva (həyat yoldaşının soyadını daşıyır) sənətşünaslıq elmləri doktoru, Bakı Musiqi Akademiyasının professorudur. Mədəniyyət və Turizm Nazirliyində incəsənət şöbəsinin müdiridir.

Yaxınlarda Fransada Azərbaycan günləri keçirilirdi, Fərəh də getmişdi.

Qızlarımın ikisi də Bülbül adına musiqi məktəbində oxuyub. Birincisi, onları musiqi sahəsinə ona görə qoydum ki, o sahədə nə oğurluq var, nə də rüşvətxorluq. İkincisi, gördüm ki, konservatoriyada Azərbaycan musiqişünaslığı ilə məşğul olanlar cuhudlardı... ermənilərdi, bir də ruslaşmış azərbaycanlılar... nə dilimizi bilirlər, nə də musiqi mədəniyyətimizi...

...Dörd-beş yaşları olanda apardım qızlarımın ikisini də bəstəkar Süleyman Ələsgərovun yanına (Allah ona rəhmət eləsin), musiqi qavrama qabiliyyətlərini yoxlatdırdım. Süleyman Ələsgərov hər iki qızımın musiqi duyumundan razı qaldı.

Çalıb-oxumaq üçün, oynamaq üçün yox ey, musiqişünaslıq elmi ilə, musiqi tariximizlə məşğul olmaq üçün uşaqlarımı musiqi sahəsinə yönəltdim....

O biri qızım Lalə Hüseynova (bu qızım mənim soyadımı daşıyır) da sənətşünaslıq elmləri namizədidi, dosentdi. Bəstəkarlar İttifaqının məsul katibi işləməklə bərabər, həm Konservatoriyada, həm də Heydər Əliyev adına məktəbdə mədəniyyət tarixindən dərs deyir.

- Həyat yoldaşınızın ixtisası nədir?

- Həyat yoldaşım Ülkər Hüseynova "Elm və həyat" jurnalında redaktorun müavinidir. Bizim dördümüzün – mənim, yoldaşımın və iki övladımızın son on ildə 24 kitabımız çıxıb. 13 kitab mənimdi, 4-ü yoldaşımındı. Yeri gəlmişkən, Lütfi Zadə haqqında Azərbaycan dilində ilk kitabın müəllifi Ülkər xanımdı. 132 nömrəli məktəbin tarixinə dair kitabı da Ülkər xanım hazırlayıb...

Dörd nəvəm var: iki oğlan, iki qız. Dördü də ali təhsil alıb, dördü də magistratura bitirib. Ən kiçik nəvəmin 23 yaşı var: Nilufər Rəhimova. Bu saat Yaponiyada məşhur Kioto Universitetində əczaçılıq üzrə magistratura təhsili alır. Özü öz biliyi hesabına keçən il gedib daxil olub. Onun Yaponiyadakı elmi rəhbəri ötən il Nobel mükafatı aldı. Nilufər ingilis, yapon, fransız, türk, rus dillərini sərbəst bilir. Elmi rəhbəri deyir ki, mən dünyada azərbaycanlılar kimi istedadlı millət görməmişəm, biz yaponlar cəmi iki dil bilirik – yapon dili, bir də ingilis dili, amma azərbaycanlılardan hansı gəlirsə, ən azı beş dil bilir. Təvazökarlıqdan kənar olmasın, nəvələrim də hamısı zəhmətkeşdirlər, gecəni-gündüzə qatıb oxuyublar. İlk nəvəm Əhəd Əliyev Amerikada təhsil alıb. İngiliscə təmiz bilir. Əhədin qardaşı Toğrul Əliyev isə stomatoloqdu. O da təcrübəni Türkiyədə keçib. Oğlanlar Fərəhin uşaqlarıdı, qızlar Lalənin.

Nilufərin böyük bacısı Leyla Rəhimova Heydər Əliyev Fondunda işləyir. İngilis dilini, incəsənət sahəsini çox gözəl bilir. O da həm Bülbül adına məktəbi,

həm də Konservatoriyanı bitirib. İndi xaricdən gələnləri respublika incəsənəti ilə o tanış edir.

...Milləti bəzən onun ayrı-ayrı nümayəndələri də təmsil edə bilir. İntellektual səviyyəsi, davranışı, dünyagörüşü, dil bilmək qabiliyyəti və digər məziyyətləri ilə...

- Şirməmməd müəllim, nəticələriniz də varmı?

- Hələ yox. İki nəvəm ailə qurub, biri nişanlıdı. Oğlan nəvəmin də biri mənə çəkib. Mən də gec evlənmişəm. 1959-cu ildə – otuz beş yaşımda. Fikirləşirdim ki, adam əvvəl kişi olar, sonra evlənər. Bir də var, evlənib sonra kişi olasan. Bunlar ayrı-ayrı şeylərdi ha...

Evlənəndə də gərək işin ola, müstəqilliyin ola, evi, ailəni dolandırmağı, uşaqlarını tərbiyə edib vətəndaş kimi yetişdirməyi bacarasan. Mənim tezisim budur.

Amerikada prezidentlərin hamısı 30 yaşdan sonra evləniblər. Çünki, əvvəl gərək oturuşasan, özünə bir mövqe qazanasan, sonra evlənmək məsuliyyətinin altına çiynini verəsən...

Layiq görüldüyü mükafatlar

Şirməmməd Ağaməmməd oğlu Hüseynov elmi fəaliyyətinə görə 1948-ci ildə "Nizami" təqaüdünə, iki dəfə: 1966-1972-ci ildə "Qızıl qələm" mükafatına, 1988-ci ildə "Respublikanın Əməkdar jurnalisti" adına, 1991-ci ildə "Zərdabi mükafatı laureatı" adına, 1992-ci ildə "Yusif Məmmədəliyev adına mükafat"a, 1998-ci ildə "Məhəmməd Əmin Rəsulzadə adına mükafat"a layiq görülmüşdür.

Bioqrafiyasından seçmələr

Şirməmməd Hüseynov 1954-1961-ci illərdə ADU-nun filologiya fakültəsi, jurnalistika kafedrasının baş müəllimi, sonra dosenti, 1962-1969-cu illərdə filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə ADU-nun jurnalistika fakültəsinin dekanı, 1976-1980-ci illərdə mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri vəzifələrində çalışmışdır.

1988-ci ildən indiyə kimi BDU-nun jurnalistika fakültəsində "Mətbuat tarixi və ideoloji iş metodları" kafedrasının professorudur.

2005-ci ildən Prezident təqaüdçüsüdür.

Şirməmməd müəllimin zəngin yaradıcılığının məhsulu olan 26 adda kitab (əslində, bunların hamısını dərslik adlandırmaq daha doğru olar), 80-ə yaxın toplu və jurnal məqalələri, 750-dən çox qəzet məqalələri gərəkliliyi, aktuallığı və dəyəri ilə hər zaman gündəmdədir.

Hazırladı: **Ellada UMUDLU**
"Elimiz. Günümüz", dekabr 2012

SİRMƏMMƏD HÜSEYNOV RƏSULZADƏNİN ƏSƏRLƏRİNİN NÖVBƏTİ CİLDİNİ CAP ETDİRDİ

Professor bu ağır işi öz təqaüdü hesabına görüb

Ömrünün ahıl çağında mətbuat tariximizi yorulmadan araşdıran professor Şirməmməd Hüseynov Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin növbəti 3-cü cildini nəşr etdirib.

Kitab haqqında ətraflı məlumat almaq üçün müəlliflə görüşdük. 1992-ci ildə Rəsulzadənin əsərlərinin 1-ci cildini (1903-1909), 2001-ci ildə 2-ci cildini (1909-1914) çap etdirən müəllif bildirdi ki, 3-cü cilddə Rəsulzadənin 1914-1915-ci illərdə "İqbal", "Yeni İqbal", "Açıq söz'' və "Qurtuluş" məcmuələrində dərc olunmuş 200-ə yaxın əsəri çap olunub. "Elm" nəşriyyatında çıxan və 595 səhifə həcmində olan kitaba müəliif qısa ön söz yazmış, müqəddimə əvəzinə isə o, Rusiya Elmlər Akademiyasının Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, professor Salavat Midhətoviç İsakovun "Voprosı İstorii" jurnalında M.Ə.Rəsulzadəyə həsr etdiyi məqaləsini çap etdirmişdir. Ş.Hüseynovun şəxsi təqaüdündən qənaət etdiyi vəsait hesabına çap olunan kitab müəllif tərəfindən 200 nüsxə sifariş olunub. Lakin sonradan bu məsələdən xəbər tutan professor Cəmil Həsənli kitabın əlavə 200 nüsxəsini, "Elm" nəşriyyatının direktoru Şirindil Alışanov isə 100 nüsxəni öz hesablarına çap etdirməyi üzərlərinə götürüblər. Müəllif bildirdi ki, bu və daha əvvəl nəşr edilmiş kitabın iki cildini əldə etmək üçün ona Yaponiya, Almaniya, Amerika, Rusiya, Fransa, İrandan pedaqoqlar, elm adamları müraciət edirlər: "Əgər Rəsulzadənin yaradıcılığındakı bütün əsərlər çap olunsa, bu, 14-15 cild olacaq. Mən 3-cü cildi hələ ki, tarixçi-alimlərə, təşkilatlara pulsuz paylamışam, bir müddətdən sonra kitabın qalan hissəsi də çap olunub, maraqlanan şəxslərə paylanacaq. Artıq Rəsulzadənin yaradıcılığına həsr edilmiş kitabların 4-cü cildinin də təxminən 85 faizi hazırdır və bu ilin sonunda həmin kitab da çap olunacaq".

İzolda HEYDƏRQIZI
"Şərq" qəzeti, № 72 (3323), 26 aprel 2012-ci il (cümə axşamı)

BÖYÜK ÖMRÜN VƏ PARLAQ ZƏKANIN MİSİLSİZ BƏHRƏLƏRİ: ŞİRMƏMMƏD HÜSEYNOV

Böyük tədqiqatçı, ustad alim, görkəmli pedaqoq, jurnalistikamızın ağsaqqalı Şirməmməd Hüseynov uca Allahın ona bəxş etdiyi parlaq zəkadan, tükənməz istedaddan olduqca səmərəli istifadə edib və 95 illik ömrünün bütün şüurlu hissəsinin bir dəqiqəsini də boşa verməyib, hədər yaşamayıb. Nə maldövlətdə, nə rütbədə gözü olub, nə vəzifədə, nə bir mükafatda. Gecəsini-gündüzünə qataraq çalışıb, xalqı və vətəni üçün misilsiz işlər görüb.

Şirməmməd müəllim Şəki şəhərində doğulub, atası o hələ üç yaşında ikən vəfat edib, anası Sara xanım altı övladını təkbaşına böyüdüb. Əsl müsəlman-azərbaycanlı qadınlara, bütün mənəvi keyfiyyətlərə malik olan bu ismətli ana övladlarına, o cümlədən, Şirməmməd müəllimə çox gözəl tərbiyə verib. Şirməmməd müəllim isə onun ümidlərini doğruldaraq gecə-gündüz oxuyub, çalışıb.

Şəkidə orta məktəbi bitirəndən sonra o, 1941-1943-cü illərdə Şəkidə 2 illik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində təhsil alır. 1943-cü ilin mart ayından 1944-cü ilin iyun ayınadək Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük və Oxut orta məktəblərində fizika-riyaziyyat müəllimi işləyir. 1945-ci ilin avqustuna qədər "Nuxa fəhləsi" qəzetində ədəbi işçi kimi çalışır və 1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin Jurnalistika şöbəsində təhsil alır. 1947-ci ilin aprel ayından 1950-ci ilin sentyabr ayına qədər ADU-nun "Lenin tərbiyəsi uğrunda" qəzetində redaktor müavini işləyir. Eyni zamanda, 1948-1950-ci illərdə "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri vəzifəsində çalışır.

1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil alan Ş.Hüseynov 1954-cü il iyun ayının 25-də həmin universitetin jurnalistika fakültəsinin Elmi Şurasında, MDU Mətbuat tarixi kafedrasının müdiri, professor A.Portyanskinin rəhbərliyi ilə namizədlik dissertasiyasını müdafiə edir.

Şirməmməd müəllimin sosializm ideologiyası dövründə, rejimin acı zəhərinə qarşı özünəməxsus çarələri, üsulları var idi. Bildiyimizə görə, o, hələ Sovetlərin tüğyan etdiyi vaxtlarda ən yaxın dostları Bəxtiyar Vahabzadə, Xudu Məmmədov, Nurəddin Rzayevlə birlikdə Novxanı kəndində Məhəmməd Əmin Rəsulzadənin atası Hacı Ələkbər ağanın məzarını ziyarət eləməyə gedirmiş.

Şirməmməd müəllim xalqımızın iki böyük oğlunun – M.Ə.Rəsulzadənin və Üzeyir bəyin irsinə xüsusi münasibəti barədə fikirlərini "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" adlı kitabının III cildinin təqdimatında bu

cür ifadə edib: "Biz onlara borcluyuq. Mən 50 ildir o kişilərlə ünsiyyətdəyəm. Mənim ən yaxşı vaxtım o kişilərin yazdıqlarını oxumaqdır. Onlardan biri dövlətimizi, o biri isə musiqimizi yaradıb".

"Maarifçilik" termini dünya dillərində müxtəlif şəkildə izah olunur. Lakin onun əsl mənası "işıq" deməkdir. Maarifçilər əsasən milli oyanışa xidmət edərək öz xalqlarını maarifləndirməklə onların zəkasının işığını artırırlar. Bu baxımdan Azərbaycan maarifçiləri xalqın zəkasının işıqlanmasında çox işlər görmüşlər. Xalqın zəkasını işıqlandıran insanlardan biri də məhz Şirməmməd Hüseynovdur. Publisist-alim Rafael Hüseynov, Şirməmməd Hüseynov haqqında 2018-ci ildə "Elm və təhsil" nəşriyyatında nəşr etdirdiyi kitabının adını "Millət yaddaşının keşikçisi" qoymuşdur. Bu, həqiqətən də belədir. Şirməmməd müəllim millət yaddaşının keşikçisidir. O, yaradıcılığa başlayandan millətin qabaqcıl ziyalılarını, millət uğrunda canlarını, ailələrini fəda edənləri, millətin istiqlalı, istiqbalı üçün hər cür zillətlərə, məşəqqətlərə qatlaşmış insanlarını, eyni zamanda, daim millətin ayağının altını qazıyan, ona arxadan zərbələr endirən, böhtan atan, ona qarşı qətliam törədən düşmənlərini öz kitablarında, məqalələrində, çıxışlarında bir ayna kimi göstərərək millətin yaddaşının keşiyində durmuşdur və durmaqdadır.

Uzun illərdir, Şirməmməd müəllim milli Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin həyat və yaradıcılığına işıq tutur. Onun 1920-ci ilə qədərki yaradıcılığını əhatə edən beşcildliyini nəşr etdirib. Lakin bununla kifayətlənmir, Rəsulzadənin mühacirətdə yaşadığı dövrlərdə də yazdığı əsərləri, məqalələri tapıb üzə çıxarmaq, bütünlüklə nəşr etdirmək fikrindədir. Həmin əsərləri uzun zamandan bəri "525-ci qəzet"in şənbə saylarında dərc etdirən Şirməmməd müəllim deyir ki, Rəsulzadənin xaricdə buraxdığı məcmuələrdə Azərbaycan milli istiqlal hərəkatına, gerçək tarixinə dair o qədər dəyərli sənədlər, yazılar, məqalələr var, bunların burda olması bizim tariximizi öyrənmək üçün vacibdir.

Bir sözlə, Şirməmməd müəllim Məhəmməd Əmin Rəsulzadənin bütün irsini çap etdirib xalqa çatdırmaq fikrindədir. Onu da qeyd etmək mütləq lazımdır ki, Şirməmməd müəllim Məhəmməd Əmin Rəsulzadəyə aid bütün yazıları öz şəxsi vəsaiti hesabına çap etdirib.

Şirməmməd müəllim sözün yüksək mənasında mühafizəkardır, onun kimi dəyərli insanlarımız gerçək tariximizin yorulmaz mühafizləridir.

Yəqin ki, çoxlarının xatirindədir, 1988-ci ildə erməni cəlladları xalqımıza qarşı növbəti qətliam planı həyata keçirməyə hazırlaşarkən, Şirməmməd müəllim Azərbaycan xalqını bu barədə məlumatlandırmaqdan ötrü, ermənilərin nə qədər riyakar, minsifətli, qəddar, təxribatçı və yalançı olduqlarını olduqca ətraflı, mənalı çıxışları ilə bəyan edirdi. Şirməmməd müəllim öz publisistik çıxışları ilə istər ermənilərin, istər onlara arxa duranların iç üzünü açıb göstərir, xalqımıza ayıq olmağı, düşmənin işğalçı siyasətinə qarşı səfərbər olmağı tövsiyə edirdi. O vaxt bir sıra "beynəlmiləlçilər" Şirməmməd müəllimi araqızışdıran adlandırırdı. Lakin çox keçmədən o adamlar Şirməmməd müəllimin nə qədər uzaqgörən, nə qədər dərin düşünən bir ziyalı olduğunu gördülər.

Son illər ərzində Şirməmməd müəllimin "Milli haqq və ədalət axtarışında", "Mətbu irsimizdən səhifələr", "Publisistik miras və müasirlik", "Müstəqilli-

yin çətin yolu... Reallıqlar, düşüncələr", "Üzeyir Hacıbəyli. Nəşrlərdə kənarda qoyulmuş mətbu əsərləri", "Məhəmməd Əmin Rəsulzadə. Əsərləri", "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" (Üç cilddə) kimi sanballı, qiymətli kitabları çapdan çıxıb.

Şirməmməd müəllim həm də uzun illərdir ki, nümunəvi bir pedaqoq kimi çalışır. O, 1954-cü ildən, yəni M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin Elmi Şurasında həmin universitetin mətbuat tarixi kafedrasının müdiri, professor A.Portyanskinin rəhbərliyi ilə namizədlik dissertasiyasını müdafiə edərək alimlik dərəcəsi alıb doğma vətənə dönəndən sonra Azərbaycan Dövlət Universitetində filologiya fakültəsinin jurnalistika kafedrasının baş müəllimi kimi çalışmağa başlamış, sonra dosent kimi işləmiş, 1962-1969-cu illərdə ADU-da filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə jurnalistika fakültəsinin dekanı, 1976-1980-ci illərdə mətbuat tarixi və ideoloji metodları kafedrasının müdiri olmuşdur. Şirməmməd müəllim hal-hazırda da Bakı Dövlət Universitetində professor kimi çalışmaqdadır. O, bu illər ərzində vətənə, torpağa, xalqa, millətə, dövlətə ləyaqətlə xidmət edən yüzlərlə elm adamı yetişdirib.

60-cı illərdə Şirməmməd müəllimin tələbəsi olmuş, hal-hazırda BDU-nun professoru Həmid Vəliyev, Şirməmməd müəllim haqqında maraqlı bir tarixçə nəql edir: "Günlərin bir günündə mühazirəsini oxuyub başa çatdırdıqdan sonra mövzu ilə heç bir əlaqəsi olmadan söylədiyi fikir hələ də qulaqlarımda səslənir: "Stepan Şaumyan haqqında, 26-lar haqqında ağızdolusu danışırlar. Onların fəaliyyətini şişirdirlər. Azərbaycana vurduqları ziyan barəsində isə heç nə demirlər. Çünki bunları demək hakimiyyətə əl vermir. Arxivlərdə Şaumyanın bəd əməlləri haqqında çoxlu materiallar vardır. Böyük Sovet Ensiklopediyası baş redaktorunun müavini vəzifəsində çalışan, tarix elmləri doktoru Levon Şaumyan SSRİ-nin bütün arxivlərinin qapılarını qıfıllayıb açarları cibində gəzdirir. İstəmir ki, azərbaycanlılar arxivə girib atası barəsində mövcud olan materialları görsünlər. Elə buna görə də azərbaycanlılardan tarix elmləri doktoru alimlik dərəcəsi alanlar son dərəcə azdır. Olanlar isə kolxoz quruculuğunun tarixini, sosializmin nailiyyətlərini və sair bu kimi mövzuları araşdırırlar".

Şirməmməd müəllimin başqa bir tələbəsi Cahangir Məmmədlinin də bununla bağlı bir xatirəsi var: "Sovet dövründə "Kollektiv sosializm yarışını genişləndirərək dövlət planını ikiqat yerinə yetirmişdir" tipli dəbdə olan basmaqəlib jurnalist cümləsinə qarşı Şirməmməd müəllim hələ o zaman tez-tez deyirdi: "Bu sosializm yarışını çox genişləndirib, axırda partladacaqlar". Auditoriyada "Sovet adamı" anlayışının absurdluğunu sübut edirdi. Ədəbi ictimaiyyətin, tarixçilərin vəsf etdiyi "26-lar"ın Azərbaycana vurduğu zərbələri üstüörtülü eyhamlarla bizə çatdırırdı. Mətbuat tarixini, mədəniyyət tarixini Təbrizdən başlayırdı, mühacirət mətbuatının yaradıcılığından söz açırdı".

Azərbaycan musiqisinin sərkərdəsi olan Üzeyir bəy Hacıbəylini xaqımızın böyük bir qismi sadəcə olaraq bir bəstəkar-dramaturq və musiqi pedaqoqu kimi tanıyır. Lakin Üzeyir bəyin məziyyətlərini saymaqla qurtarmaz. Əslində, Üzeyir bəy sözün əsl mənasında vətən fədaisi idi və bütün həyatını vətənə təmənnasız xidmətlə keçirmişdi. Təsadüfi deyil ki, 1918-ci ildə başlarında Stepan

Şaumyan olmaqla ermənilərdən ibarət daşnak-bolşevik neofaşist hərbi birləşmələri xalqımıza qarşı qətliam törədəndə Üzeyir bəy Fransa mətbuatında bu qırğınlar haqqında silsilə məqalələr dərc etdirmişdi.

Şirməmməd Hüseynov Məhəmməd Əmin Rəsulzadə irsinə təmənnasız əmək verdiyi kimi Üzeyir Hacıbəyli irsini də ardıcıl təbliğ etməkdədir. O, Üzeyir bəyin 120-yə yaxın məqaləsini 19 çap vərəqi həcmində "Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri" adıyla öz şəxsi hesabına çap etdirdiyi kitaba salmışdır.

Şirməmməd müəllimin fəaliyyəti olduqca çoxşaxəlidir. O, həqiqətləri üzə çıxartmaqdan ötrü təkcə bizim özümüzə məxsus, eyni zamanda, hər tarixi hadisəyə obyektiv qiymət verən xarici mənbələrdən topladığı tarixi sənədlərlə, arxiv materialları ilə kifayətlənmir. Azərbaycan və türk xalqının qatı düşməni olan ermənilərin arasındakı tarixə əksər ermənilər kimi yox, düzgün qiymət verən insanların qələmə aldığı həqiqəti əks etdirən yazılarını tapıb bir arxiv sənədi kimi informasiya vasitələrinə təqdim edir.

Şirməmməd müəllim 95 yaşında da tariximizlə bağlı lazımlı, maraqlı, indiyədək gizli qalan həqiqətləri üzə çıxarmaqdan ötrü bütün qüvvət və bacarığını ortaya qoyur. O, sözün həqiqi mənasında Azərbaycan xalqının sərvətidir və xalqımız üçün son dərəcə dəyərli bir şəxsiyyətdir. Şirməmməd müəllimə, ustadımıza, ağsaqqalımıza möhkəm cansağlığı, fəaliyyətində yeni uğurlar və əlbəttə ki, 100 illiyini özünün iştirakı ilə təntənəli şəkildə qeyd edilməsini arzulayıram.

Vüqar ƏHMƏD,
filologiya elmləri doktoru, professor
"525-ci qəzet", 25 iyun 2018

BAKIDA JURNALİSTLƏR SÜLALƏSİ

Bizim kütləvi informasiya vasitələrində əvvəllər neftçi, həkim, hüquqşünas və digər ixtisas sahiblərindən, onların peşələrinin nəsildən-nəsilə ötürülməsindən yaznuıq xoş ənənəyə çevrilmişdi. Artıq 100 ildən çoxdur ki, əmək qəhrəmanı usta Piri Quliyevin neftçilər sülaləsi ölkəmizdə neft quyuları qazır, istismara verir, emal edir. Onun iki oğlu atalarının ənənələrini davam etdiriblər. Məhəmməd Paşa Milli Elmlər Akademiyasının akademiki, İsrafil Lenin mükafatı laureatıdır. Qızı Validə neftçi-kimyaçıdır. Hazırda isə nəvələri də babalarının və ulu babalarının ailə ənənələrini davam etdirirlər.

Azərbaycanın tibb aləmində isə Əziz Əliyevin təməlini qoyduğu həkimlər sülaləsi böyük nüfuz və hörmət sahibidir. Onun oğlu Tamerlan uzun illər Tibb İnstitutunda kadefraya rəhbərlik edib, qızı Zərifə xanım tibb sahəsi üzrə akademik olub, digər oğlu Cəmil də akademikdir, onkologiya üzrə elmi tədqiqat mərkəzinin direktorudur.

Və yaxud əfsanəvi Mustafa bəy Topçubaşovu, onun oğlu istedadlı cərrah və gözəl bəstəkar İbrahimi xatırlayaq. Mustafa bəyin oğlu Ceyhun isə hazırda Mərkəzi Kliniki Xəstəxanaya rəhbərlik edir.

Bu sətirləri yazdıqca öz-özümə fikirləşirdim ki, nəyə görə Bakıda formalaşmış, yetişmiş jurnalistlər sülaləsini də xatırlamayaq.

Və mən mövzuya bu yaxınlarda təntənəli şəkildə 80 illiyi qeyd edilmiş Azərbaycan jurnalistikasının patriarxından başlamağa qərar verdim.

Professor Şirməmməd Hüseynov. O, kifayət qədər yetkin yaşda olmasına baxmayaraq, hər şənbə mütləq "Günay" qəzetində Azərbaycan jurnalistikasının tarixindən bəhs eden yazı ilə çıxış edir. Şirməmməd müəllim Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində çalışdığı on illər ərzində, eləcə də "Təfəkkür" Universitetinin jurnalistika kafedrasında fəaliyyəti dövründə çoxsaylı peşəkar jurnalist ərsəyə gətirib. Onun yetirmələrinə Azərbaycanın bütün qəzet və jurnallarında, radio və televiziya kanallarında rast gəlmək mümkündür. Deyirlər ki, BDU-nun jurnalistika fakültəsinin hazırki müəllim heyəti bütünlüklə onun yetirmələridir.



Öz jurnalistlik karyerasına isə Şirməmməd Hüseynov "Nuxa fəhləsi" adlı rayon qəzetində başlayıb. Hələ universitetin II kursunda oxuyarkən o, bu təhsil ocağında nəşr olunan "Kadrların leninçi tərbiyəsi naminə" adlı qəzetin redaktor müavini vəzifəsinə təyin olunmuşdu. Universiteti bitirdikdən sonra "Azərbaycan müəllimi" qəzetində işləyib. Ancaq Ş.Hüseynov təbiəti etibarilə daima elmi axtarışlara can atdığından tale onu Moskva Dövlət Universitetinin aspiranturasına çəkib gətirir. O, buranı bitirərək "Azərbaycan mətbuatı 1917-1918-ci illərdə" adlı namizədlik dissertasiyasını böyük müvəffəqiyyətlə müdafiə edir. 1954-cü ildə Bakıya döndükdən sonra Şirməmməd müəllim universitetə dəvət alır və bu təhsil ocağının jurnalistika kafedrasında ilk elmlər namizədi olur. Artıq burada çalışdığı on illəri əhatə edən dövr ərzində Şirməmməd müəllim müxtəlif vaxtlarda jurnalistika fakültəsinin dekanı olmuş, bir sıra kafedralara rəhbərlik etmiş və hazırda öz doğma təhsil ocağının ən adlı-sanlı professorlarındandır. Şirməmməd müəllim öz ömrünü milli jurnalist kadrlarının yetişdirilməsinə həsr edib və eyni zamanda bir çox qəzetlərdə sistemli şəkildə bir publisist kimi də çıxışlar edib. Bu qəzetlər "Bakı", "Sovet kəndi", "Kommunist", "Azərbaycan gəncləri", "Azərbaycan", "Mədəniyyət", "Həyat", "7 gün", "Bərəkət", "Xalq qəzeti", "525-ci qəzet"lərdir. Son beş ildə isə o, mütəmadi olaraq "Günay" qəzetinin səhifələrində çıxış edir. Ümumiyyətlə isə biblioqrafik sorğu kitabında mən Şirməmməd müəllimin dövri mətbuatda, radio və televiziyada 700-dən yuxarı publisistik çıxışını sadaladım. Bundan əlavə Ş.Hüseynov 15 kitabın, eləcə də 1972 və 1975-ci illərdə "Mısl" (Düşüncə) və Moskva Universitetinin birgə nəşri olan "Çoxmillətli sovet jurnalistikası" iki cildliyinin, fundamental elmi-tədqiqat əsəri olan "Müstəqilliyin çətin yolu. Biz hara gedirik" (1996), "Jurnalistikanın problemləri" (1966), "Həqiqət və ədalət carçısı" (1988) kitablarının müəllifidir. 2004-cü ildə isə onun iki işi – "Milli haqq və ədalət axtarışında" və "Mənəvi irsimiz və gerçəklik" kitabları işıq üzü görüb.

Ş.Hüseynov Azərbaycanın əməkdar jurnalistidir. "Qızıl qələm", Y.Məmmədəliyev, H.Zərdabi, M.Rəsulzadə, Vorovski adına mükafatlar laureatıdır. Şirməmməd müəllimin ailəsində onun həyat yoldaşı və iki qızı da jurnalistika yolunu seçib.

Şirməmməd müəllimin həyat yoldaşı Ülkər xanım BDU-nun jurnalistika fakültəsini bitirib və onun tələbəsi olub. Ülkər xanım 1966-cı ildən "Elm və həyat" jurnalında işləyib. O, bu yeganə elmi-kütləvi nəşrdə şöbə müdiri, redaktor müavini, 1995-1997-ci illərdə isə baş redaktor işləyib. Hazırda isə maddi vəsaitin çatışmazlığından jurnal ildə 2-3 dəfə işıq üzü görür. Ülkər xanım elmin müxtəlif sahələri üzrə çoxsaylı məqalələr müəllifidir. Onun Azərbaycan dilinə tərcümə etdiyi və çapa hazırladığı "6, 7, 8 və 9 yaşlı uşaqlarda intellektin inkişafı" adlı kitab Təhsil Nazirliyinin və "Soros" fondunun keçirdiyi açıq müsabiqənin yekunlarına əsasən qəbul edilib. Ülkər xanım "Kimya sənayesi üzrə rus-azərbaycan-ingilis lüğəti"ni nəşr edən nəşriyyat qrupunun redaksiya heyətinin üzvüdür. O, "Elm və həyat" jurnalında Azərbaycan gəncləri arasında elmi və texniki biliklərin təbliğatına görə, Jurnalistlərin Həmkarlar İttifaqının "Qızıl qələm" mükafatına və "Vətən" diplomuna layiq görülüb. Ülkər xanım həmçinin "Heydər Əliyevin neft-kimya sənayesinin inkişafında rolu" kitabını rus dilindən Azərbaycan dilinə tərcümə edib çapa hazırlayıb, hazırda isə dünya şöhrətli alim Lütfi Zadənin həyat yoldaşının kitabının tərcüməsi üzərində işləyir.

Şirməmməd müəllimin və Ülkər xanımın iki qızı var. Fərəh, Bakı Musiqi Akademiyasının tarixi nəzəriyyə fakültəsini bitirib. O, hələ tələbəlik illərində müxtəlif elmi konfranslarda musiqişünaslıq üzrə maraqlı tədqiqatlarla çıxış edərək bir sıra diplomlara layiq görülüb. Hazırda Musiqi Akademiyasında musiqi tarixi kafedrasının professoru və elmi katib vəzifələrini daşıyır. "Musiqi dünyası", "Elm və həyat", "İrs", "Azərbaycan interneşl" və bir sıra dərgilərdə tez-tez Fərəh xanımın yazıları dərc olunur. O, ikicildlik "Musiqi tarixinin səhifələri", "XX əsr Azərbaycan musiqi mədəniyyətinin tarixi qaynaqları", "Azərbaycan musıqisində üslub axtarışları" kitablarının müəllifidir. Fərəh xanım həmçinin Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, H.Sarabski və mədəniyyətimizin digər korifeyləri haqqında tarixi araşdırmaların müəllifidir.

Digər qızı Lalə də Bakı Musiqi Akademiyasının tarixi nəzəriyyə fakültəsini fərqlənmə diplomu ilə bitirib. İxtisasca musiqi tənqidçisidir. O, 1982-ci ildə incəsənət üzrə respublika olimpiadasında qalib gəldikdən sonra Leninqrada ümumittifaq olimpiadasına göndərilmişdi. 1995-ci ildən isə Lalə xanım Bəstəkarlar İttifaqında çalışır. O, vaxtaşırı "Sovet musiqisi", "Mədəniyyət və həyat" dərgilərində, "Bakı", "Musiqi dünyası", "Ədəbiyyat və incəsənət" və digər qəzetlərdə yazılarla çıxış edib. Lalə xanım hazırda Bəstəkarlar İttifaqının məsul katibidir. Bu yaxınlarda isə o, "XX əsrdə respublikamızda mədəniyyətin inkişafında Azərbaycan Bəstəkarlar İttifaqının rolu və yeri" adlı namizədlik dissertasiyası üzərində işi başa vurub.

Azad ŞƏRİF,
1959-1962-ci illərdə "Molodyoj Azerbaydjana" qəzetinin redaktoru
"525-ci qəzet", 19 noyabr 2005

Şirməmməd müəllimin 95 illiyini tələbələri qeyri-ənənəvi yolla qeyd etdilər.

"525-ci qəzet"in dekabrın 17-də Şirməmməd Hüseynova həsr olunmuş xüsusi nömrəsini buraxdılar.

Mətbuat tariximizdə belə analoqlar nadir olduğundan "525-ci qəzet"in həmin nömrəsini bütünlüklə veririk.

USTAD 525-ci qəzet
Xüsusi buraxılış
17 dekabr 2019-cu il çərşənbə axşamı

Professor Şirməmməd Hüseynovun 95 illiyinə həsr olunur

LƏYAQƏT VƏ HƏQİQƏT SİMVOLU: ŞİRMƏMMƏD HÜSEYNOV

Elçin Babayev
Bakı Dövlət Universitetinin rektoru



Bu dünyada Vətən və millət sevgisini qazanmaq hər adama qismət olmur. Vətənin öz övladına sevgisi övladın vətəndaşlıq borcundan doğur. Millətin öz övladına sevgisi o millətin fədaisi, cəfakeşi olmaq statusundan yaranır. Professor Şirməmməd Hüseynov ömrünün bütün şüurlu həyatını Vətənə, xalqına borcunu ödəməyə həsr etdi. Ömrünün bütün çağlarında düz danışdı, cəsarətlə danışdı, obyektiv oldu. İlk növbədə ömrünü həsr etdiyi Bakı Dövlət Universitetində yetişdirdiyi jurnalist ordusunu peşəkarlıqla birgə vətəndaşlıq, millət, xalq sevgisi aşıladı. Onun peşəkar jurnalist kimi böyütdüyü tələbələri öz peşələrini vətəndaşlıq borcu ilə birləşdirib parlaq etdikləri müəllimlərinin yolunu tutdular. Şirməmməd müəllim elm və təhsili, tədqiqatçılığı və peşəkarlığı tələblərinə sinxron öyrətmək prinsipini əsas götürdü. O, eyni vaxtda həm müəllim oldu, həm yenilməz mətbuat tədqiqatçısı oldu, həm də tələbələrinə nümunə kimi praktik jurnalist oldu. Onun hələ 1960-1970-ci illərdə televiziyada siyasi icmalçı kimi çətin bir vəzifənin öhdəsindən necə gəldiyini cənab Prezidentimiz İlham Əliyev bələ xatırlayır və jurnalistlərlə görüşündə professora münasibətlə belə qiymətləndirdi:

"... Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 1970-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. O vaxt sovet televiziyasında belə bir veriliş var idi - "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı, xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatının təqdim edilməsi mərasimindəki çıxışından. 24 noyabr 2013)

Əsl ziyalı gələcəyi, tərəqqi və inkişaf yolunu görməklə yanaşı, xalqın yaşadığı real vəziyyəti görüb təhlil və tənqid etməklə çıxış yolunu müəyyən etməyi bacaranlar hesab edilir.

+++

Əlimə qələm alıb müstəqil yaradıcılığa başladığım andan ən böyük arzum gördüklərimi, düşündüklərimi, həqiqəti yazmaq arzusu olub. Mətbuat tariximizi tədqiq edib qüdrətli qələm sahiblərinin XX əsrin ilk onilliklərində dövri mətbuatda dərc olunmuş müxtəlif janrlı yazılarını heyranlıqla oxuduqca bu istək yaşamaq qayəmə çevrildi.

+++

Mətbuat fəaliyyət göstərdiyi cəmiyyətlə sıx bağlıdır, onun övladıdır. Cəmiyyətdə baş verən bütün proseslər, naqisliklər, mübarizələr və kataklizmlər mətbuatda öz əksini tapmalıdır. Mətbuatın saf olması üçün cəmiyyətin durulması gərəkdir. Bir çoxları ölkədə qayda-qanun yarandıqdan sonra demokratiyanın, demokratik mətbuatın bərqərar olacağını göstərir. Mənim fikrimcə isə, cəmiyyətdə sivil qaydaların yaranması üçün ən əvvəl demokratiya və demokratik mətbuat gərəkdir.

Azərbaycanın yeni müstəqillik uğrunda mübarizə dövründə Şirməmməd Hüseynovun publisistikası çox böyük məsrifliyi ilə gördü. Azərbaycan klassik publisistikasının dərindən tədqiqi, klassik publisistlərimizin məsrifilik məktəbi fonunda bu böyük alim öz məktəbini yaratdı. Onun bu sahədəki titanik fəaliyyətini görmək istəyən gələcək əsil professorun faal müəllifləri-ndən biri olduğu "525-ci qəzet"in arxiv podşivkalarını oxusun. Bu qəzetin hər nömrəsində Ş.Hüseynov patriotizminin aydın manzərəsi var. Onun Həsən bəy Zərdabi irsinə yeni və orijinal münasibəti müasir mətbuatımızın demokratik dəyərlərin formalaşmasındakı rolunu reallaşdırdı. Şirməmməd Hüseynov Ümummilli liderimiz Heydər Əliyevin demokratik mətbuat konsepsiyasının reallaşmasında misilsiz xidmət göstərdi. Onun müəyyədə ideallarından biri Azərbaycan dövlətçiliyinin qorunması, milli maraqlar və milli dəyərlər sistemini mədəsdə yüksək zirvəyə qaldırmaq olmuşdur. Şirməmməd Hüseynov bu sahədəki xidmətlərinə görə Onnokdar jurnalist adını almışdır. Prezident İlham Əliyev hələ 2005-ci ildə Şirməmməd Hüseynova Prezidentin fərdi təqaüdünün verilməsi barədə Sərəncam imzalamışdır. Vətənə, xalqa xidmət missiyasının layaqət nümunəsi kimi bu tədqiqatçı alimi "Şərəf" ordeninə layiq görülmüşdür.

Mən Şirməmməd müəllimə əsl xalq sevgisinin onun BDU-da təşkil etdiyimiz vida mərasimində bir daha şahidi oldum. O gün bizim böyük salonumuzda onunla vidalaşmağa gələn insan selini müşahidə etdim. Yaradıcılıq xətlərindən asılı olmayaraq bütöv bir xalqa ordunu bu salonda toplamışdı. Azərbaycanın kütləvi informasiya vasitələrinin nümayəndələri olaraq hamısı bu vida mərasimini işıqlandırmağa idi. O gün biz bu insanı - elmi, obasına, xalqına, millətinə, dövlətinə misilsiz xidmət göstərmiş bu alim və müəllimi haqq dünyasına yola salırıq. Haqq dünyasına qovuşan layaqətli övladını isə Vətən heç vaxt unutmur.

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

Professor Şirməmməd Hüseynovun 95 illiyinə həsr olunur

Şirməmməd müəllimin çıxışı mənim üçün çox böyük maraq doğurdu... Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 1970-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi – "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı, xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatının təqdim edilməsi mərasimindəki çıxışından. 24 noyabr 2013)

Əsl ziyalı gələcəyi, tərəqqi və inkişaf yolunu görməklə yanaşı, xalqın yaşadığı real vəziyyəti görüb təhlil və tənqid etməklə çıxış yolunu müəyyən etməyi bacaranlar hesab edilir.

***

Əlimə qələm alıb müstəqil yaradıcılığa başladığım andan ən böyük arzum gördüklərimi, düşündüklərimi, həqiqəti yazmaq arzusu olub. Mətbuat tariximizi tədqiq edib qüdrətli qələm sahiblərinin XX əsrin ilk onilliklərində dövri mətbuatda dərc olunmuş müxtəlif janrlı yazılarını heyranlıqla oxuduqca bu istək yaşamaq qayəmə çevrildi.

***

Mətbuat fəaliyyət göstərdiyi cəmiyyətlə sıx bağlıdır, onun övladıdır. Cəmiyyətdə baş verən bütün proseslər, naqisliklər, mübarizələr və kataklizmlər mətbuatda öz əksini tapmalıdır. Mətbuatın saf olması üçün cəmiyyətin durulması gərəkdir. Bir çoxları ölkədə qayda-qanun yarandıqdan sonra demokratiyanın, demokratik mətbuatın bərqərar olacağını göstərir. Mənim fikrimcə isə, cəmiyyətdə sivil qaydaların yaranması üçün ən əvvəl demokratiya və demokratik mətbuat gərəkdir.

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

LƏYAQƏT VƏ HƏQİQƏT SİMVOLU: ŞİRMƏMMƏD HÜSEYNOV

Elçin Babayev,
Bakı Dövlət Universitetinin rektoru

Bu dünyada Vətən və millət sevgisini qazanmaq hər adama qismət olmur. Vətənin öz övladına sevgisi övladın vətəndaşlıq ləyaqətindən doğur. Millətin öz övladına sevgisi o millətin fədaisi, cəfakeşi olmaq statusundan yaranır. Professor Şirməmməd Hüseynov özünün bütün şüurlu həyatını Vətəninə, xalqına ləyaqətlə xidmətə bağladı. Ömrünün bütün çağlarında düz danışdı, cəsarətlə danışdı, obyektiv oldu. İlk növbədə ömrünü həsr etdiyi Bakı Dövlət Universitetində yetişdirdiyi jurnalist ordusuna peşəkarlıqla birgə vətəndaşlıq, millət, xalq sevgisi aşıladı. Onun peşəkar jurnalist kimi yetişdirdiyi tələbələri öz peşələrini vətəndaşlıq ləyaqəti ilə birləşdirib pərəstiş etdikləri müəllimlərinin yolunu tutdular. Şirməmməd müəllim elm və təhsili, tədqiqatçılığı və peşəkarlığı tələbələrinə sinxron öyrətmək prinsipini əsas götürdü. O, eyni vaxtda həm müəllim oldu, həm yenilməz mətbuat tədqiqatçısı oldu, həm də tələbələrinə nümunə kimi praktik jurnalist oldu. Onun hələ 1960-1970-ci illərdə televiziyada siyasi icmalçı kimi çətin bir vəzifənin öhdəsindən necə gəldiyini cənab Prezidentimiz İlham Əliyev belə xatırlayır və jurnalistlərlə görüşündə professora müraciətlə belə qiymətləndirir:

"... Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 1970-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi - "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı, xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir".

Bu sitatın son cümləsindəki fikir təsadüfən deyilməyib: Cənab Prezident Şirməmməd Hüseynovun xidmətlərinə öz qiymətindən sonra ona Azərbaycan

xalqının necə qiymət verdiyini xatırladır.

Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəkidə doğuldu. Şəki ikiillik Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsini bitirdi. Sonra Bakı Dövlət Universitetini – Filologiya fakültəsinin Jurnalistika şöbəsini bitirdi. Moskva Dövlət Universitetinin aspiranturasında oxuyub, 1954-cü ildə elmlər namizədi alimlik dərəcəsi aldı və dərhal doğma Universitetinə qayıtdı. Mən bu bioqrafiyada onun əvvəlcə fizika-riyaziyyat ixtisası almasına diqqət edirəm və yəqin ki, Şirməmməd müəllimin bütün ömrünün dəqiq, obyektiv, ölçülü faktları həm də onun həyata dəqiq elmlərdən ayaq basması ilə bağlıdır. O, Universitetimizdə çox müxtəlif məsul vəzifələrdə oldu: kafedra müdiri, Filologiya fakültəsində dekan müavini, Jurnalistika fakültəsində dekan, kafedra müdiri və s. Bu vəzifələrin hər birində hamı onu obyektivlik, dürüstlük nümunəsi kimi tanıdı. Universitetdə Qəbul Komissiyası kimi məsuliyyətli və qəliz bir vəzifədə oldu, xalq, dövlət, Universitet qarşısında məsuliyyətini heç nəyə dəyişmədi. Bütün bu keyfiyyətlər – Vətənə sevgi, millətə, xalqa xidmət missiyası, ədalət və dürüstlük, təmizlik keyfiyyətləri ona öz səcərəsindən və öyrəndiyi, öyrətdiyi milli və dünya klassikasından gəldi. O, sovet ideoloji kanonlarının hökm sürdüyü dönəmlərdə AXC qurucuları kimi millət fədailərinin irsini öyrəndi, təhlükəli anlarda belə öz tələbələrinə təlqin etdi.

Azərbaycanın yeni müstəqillik uğrunda mübarizə dövründə Şirməmməd Hüseynovun publisistikası çox böyük maarifçilik işi gördü. Azərbaycan klassik publisistikasının dərindən tədqiqi, klassik publisistlərimizin maarifçilik məktəbi fonunda bu böyük alim öz məktəbini yaratdı. Onun bu sahədəki titanik fəaliyyətini görmək istəyən gələcək nəsil professorun fəal müəlliflərindən biri olduğu "525-ci qəzet"in arxiv podşivkalarını oxusun. Bu qəzetin hər nömrəsində Ş.Hüseynov patriotizminin aydın mənzərəsi var. Onun Həsən bəy Zərdabi irsinə yeni və orijinal münasibəti müasir mətbuatımızın demokratik dəyərlərin formalaşmasındakı rolunu reallaşdırdı. Şirməmməd Hüseynov Ümummilli liderimiz Heydər Əliyevin demokratik mətbuat konsepsiyasının reallaşmasında misilsiz xidmət göstərdi. Onun müqəddəs ideallarından biri Azərbaycan dövlətçiliyinin qorunması, milli maraqlar və milli dəyərlər sistemini mediada yüksək zirvəyə qaldırmaq olmuşdur. Şirməmməd Hüseynov bu sahədəki xidmətlərinə görə Əməkdar jurnalist adını almışdır. Prezident İlham Əliyev hələ 2005-ci ildə Şirməmməd Hüseynova Prezidentin fərdi təqaüdünün verilməsi barədə Sərəncam imzalamışdır. Vətənə, xalqa xidmət missiyasının ləyaqət nümunəsi kimi bu tədqiqatçı alim "Şərəf" ordeninə layiq görülmüşdür.

Mən Şirməmməd müəllimə əsl xalq sevgisinin onun BDU-da təşkil etdiyimiz vida mərasimində bir daha şahidi oldum. O gün bizim böyük salonumuzda onunla vidalaşmağa gələn insan selini müşahidə etdim. Yaradıcılıq xəttindən asılı olmayaraq bütöv bir media ordusu bu salonda toplaşmışdı. Azərbaycanın kütləvi informasiya vasitələrinin istisnasız olaraq hamısı bu vida mərasimini işıqlandırmaqda idi. O gün biz bu insanı - elinə, obasına, xalqına, millətinə, dövlətinə misilsiz xidmət göstərmiş bu alim və müəllimi haqq dünyasına yola saldıq. Haqq dünyasına qovuşan ləyaqətli övladını isə Vətən heç vaxt unutmur.

USTAD 525-ci qəzet

Xüsusi buraxılış

RİYAZİYYATÇI JURNALİST

Professor Şirməmməd Hüseynov ali təhsilini riyaziyyat müəllimi kimi almış, bir müddət Şəkidə ixtisası üzrə müəllim işlədikdən sonra Moskvada aspiranturaya daxil olub mətbuat tarixi üzrə ixtisaslaşmışdı. Beləliklə, o, özündə riyazi dəqiqliyi, tarixə və tarixi həqiqətlərə sonsuz sədaqəti, eyni zamanda jurnalist peşəsinə, sözə, millətə, vətənə və dövlətə vətəndaşlıq xidməti borcunu birləşdirmişdi. Bütün fəaliyyəti boyu da tarixi fakt və həqiqətlərə münasibətdə riyazi dəqiqliklə vicdanlı yanaşmağı, vətənə əsl vətəndaşlıq xidməti missiyasına sadiq qalmağı bacardı. Çünki əsl elmi fikrin, məntiqi mühakimənin gücünün onun mükəmməl, dəqiq mətnə nə dərəcədə dayanmasında olduğunu çox gözəl bilirdi. Ona görə tarixi və elmi, ədəbi publisistik mətnə münasibətdə riyaziyyatçı dəqiqliyini, vicdani saflığını, jurnalist sədaqətini həmişə rəhbər tuturdu. Yenə də bilirdi ki, istinad olunan mətnin təhrif olunması ilə söylənən fikir dolaşıq və yanlış şəkildə üzə çıxaraq, nəticədə oxucunun şüurunun aşınmasına, yanlış istiqamətdə formalaşmasına gətirib çıxarır. Bu tarixi elmi həqiqəti uzun müddət içərisində sovet imperiyasının Vətəni Azərbaycanda da planlı və məqsədyönlü şəkildə inadla həyata keçirdiyi siyasi-ideoloji siyasətin nəticəsi olaraq soydaşlarının şüurlarında, milli-mənəvi sərvətlərinin mayasında nə cür mənəvi-psixoloji aşınmalar açdığını bütün qabarıqlığı və dəhşəti ilə görürdü. Bütün bunlar onun vətəndaş -alim vicdanını ağrıdır, qarsırdı. Ona görə Şirməmməd Hüseynov Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsindən, daha doğrusu, XX əsrin 80-ci illərindən başlayaraq öz fəaliyyətini soydaşlarının imperiya siyasəti ilə təhrif və aşınmalara məruz qoyulmuş, düşüncə və şüurun bərpası üzərində qurdu. Bu niyyətlə sovet imperiyasının adları və tarixi siyasi ideoloji irsləri üzərinə qalın qara yasaq örtüyü çəkdiyi şəxsiyyətlərin milli müqəddəratımıza, dövlət müstəqilliyi və dövlətçilik ənənələrimizin bərpasına və milli tarixi taleyinin dayanıqlığına əsas verən, onun ideoloji əsaslarının möhkəmliyinə xidmət edən siyasi və publisistik irslərini dəqiq, təhrifsiz və bütöv şəkildə oxuculara çatdırılması işinə başladı. Azərbaycan Cümhuriyyət fikrinin formalaşdırılmasında xüsusi xidmətləri olub, onun qurucularının öncüllərindən birinin – Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin tam külliyyatının nəşri ilə yanaşı digər müəlliflərin keçmişlə bugünümüz arasında işıqlı körpü, yaddaş kodu bağları rolunu oynayan əsərlərinin uzaq və yaxın keçmişin qaranlıqlarına buraxılmış əsərlərini də işığa çıxardıb soydaşlarının siyasi-tarixi düşüncə gözünü açmağa çalışdı.

Azərbaycan Cümhuriyyətinin parlament iclaslarının materiallarını, Üzeyir Hacıbəylinin həmin iclasların şərhinə həsr etdiyi məqalələrini və digər yazıların yenidən gündəmə gətirilməsinə nail oldu. Bundan başqa Üzeyir bəyin sovet dövründə nəşr edilmiş kitablarında onun publisistik irsinin məqsədli şəkildə təhriflərə məruz qoyulmuş və ya kənara atılmış mətnlərinin bərpası məqsədi ilə iki kitab nəşr etdirdi. Onlardan birincisi Üzeyir Hacıbəyli. "Nəşrlərdə kənara qoyulmuş əsərləri" (Bakı, Elm, 2009), ikincisi isə Üzeyir Hacıbəyli. "Nəşrlərdə kənara qoyulmuş, ixtisar və redaktə edilmiş əsərləri" (Bakı, Elm, 2010) adlanır. Bu kitabların adları da ictimaiyyətə kifayət qədər aydın elmi-ideoloji mesajlar verir.

Qeyd edim ki, Şirməmməd Hüseynov nəşr etdiyi bu kitabları, özünün dediyi kimi, aldığı Azərbaycan Respubilkası Prezidentinin fərdi təqaüdü hesabına çap etdirirdi.

Professor Şirməmməd Hüseynov fəaliyyəti boyu şəxsi marağından çox içtimai-milli marağı, dövlərçiliklə bağlı dəyərləri rəhbər tutmuşdu. Hansısa bədxahları onun tutduğu dekanlıq və ya kafedra müdirliyinə "xitam verilməsi" qəsti ilə fakültənin və ya kafedranın ləğvi məsələsinə çalışanda Şirməmməd Hüseynov həmin kafedra və ya fakültənin qalması naminə tutduğu vəzifədən imtina etmişdi. Çünki mütləq əksəriyyətdən fərqli olaraq üz dəyərini (çəkisizliyini) tutduğu vəzifə stolunda yox, özündə, bütöv şəxsiyyətində görürdü. Qəti əmin idi ki, tutduğu vəzifə stolu Şirməmməd Hüseynovu yox, Şirməmməd Hüseynov həmin vəzifə stolunu dəyərə mindirir. Həm də bu fikirdə idi ki, bir vəzifədə hər hansı şəxsin uzun müddət (ömürlük) qalması həmin sahənin inkişafına mane olur. Tərəqqi və inkişaf dinamikası yeni düşüncə sahiblərinin vəzifələrə irəli çəkilməsini tələb edir. Cəmiyyət daima yenilik ehtiyacındadır. Şirməmməd Hüseynovun fəaliyyəti kimi fikir və qənaətləri də riyazi dəqiqliyi, vətəndaş müdrikliyi ilə həmişə gərəklidir.

Alxan BAYRAMOĞLU,
filologiya elmləri doktoru, professor

USTAD 525-ci qəzet

Xüsusi buraxılış

MİLLİ TARİXİMİZİN İSTİQLAL SƏHİFƏLƏRİ

Tale elə gətirdi ki, mən Şirməmməd müəllimin həm tələbəsi olmuşam, həm də bu böyük alim, tədqiqatçı, vətəndaş insanla bir yerdə işləmişəm. Birgə iş yerində – fakültədə yaranan bir problemin həllinə necə girişdiyinin canlı şahidi olmuşam. Bu bir sıra önəmli klassik publisistlərimizin əsərlərinin əvvəllər yarımçıq çap edilməsi, onlarda yol verilən ciddi təhriflərlə bağlı hər gün yeni məqalələr hazırlayırdı. Bu sırada Ş.Hüseynovun ən çox narazı qaldığı Üzeyir Hacıbəylinin bundan əvvəlki nəşrlərində özünü göstərən xətalar idi. Xeyli müddətdir ki, bu və ya digər səbəbdən Üzeyir bəyin əsərləri ilə bağlı kitablarına salınmayan, yaxud təhriflərlə çap edilən məqalələrini toplayıb, nəşrə hazırlayan tədqiqatçı öz məqsədinə çatdı. O, Üzeyir Hacıbəylinin "Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri" adı altında çox maraqlı bir kitabını öz şəxsi hesabına çap edib oxuculara ünvanladı.

Çox güman ki, elmi yaradıcılığa müəyyən qədər dəxli olan hər kəsin kitabxanasında inandığı, elmi məktəbini, yaradıcılığını sidq-ürəkdən, şəksiz-şübhəsiz qəbul etdiyi alimlərdən birinin əsərləri yerləşən ayrıca kitab rəfi olur. Mənim də kitabxanamda professor Şirməmməd Hüseynovun əsərləri yerləşən ayrıca bir kitab rəfi var. Onun 1950-ci illərin ortalarından ta bu günə qədər nəşr olunmuş kitablarını bu rəfə yığmışam. Kitablar bir rəfi doldurub. Amma onların əsas və ən qiymətli hissəsi Azərbaycanın yeni müstəqillik çağının payına düşür. Etiraf edim ki, Şirməmməd müəllimin mənə daha doğma, daha əziz kitabları məhz bu dövrün nəşrləri sırasındadır. Bunun səbəblərindən biri həmin kitabların mənim də gözümün qarşısında meydana gəlməsidir. Azərbaycanın müstəqilliyi uğrunda başlanan qəti mübarizə illərinin lap əvvəllərində tale məni də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə gətirdi. Və mən Şirməmməd müəllimi ilk dəfə elə burda gördüm. Dərslərindəki səmimiyyəti, heç nədən, heç kimdən çəkinmədən hər şeyə obyektiv prizmadan yanaşması onu bizə çox tez sevdirdi. Və o illərin müstəqillik uğrunda mübarizə prosesində bu cəsarətli müəllimimizin göstərdiyi böyük hünər: düşmənə çevrilmiş Ermənistana səfəri, müstəqillik hərəkatının liderləri ilə görüşləri, demək olar ki, hər gün mətbuatda bu mövzuda dərc olunan yazıları gözümüzün qarşısında baş verirdi. Amma bütün bunların qarşısında onun mətbuat tariximizin şanlı səhifələrini üzə çıxarması, tədqiqatçılıq fəaliyyətinə bağlı kitabları dayanırdı. O dövrdə ilk kitabını "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?" adlandırmışdı. Bu kitab müstəqilliyin şirin dadını bizə bildirdi və doğurdan da millətin hara getməli olduğu jurnalistikada proqram sənədinə çevrildi. Mənim rəfimdə Ş.Hüseynovun yeni dövr əsərlərinin başında məhz bu kitab dayanır. Azərbaycan mətbuatının tarixi dərslərini ifadə edən yüzlərlə yazını öz təhlilləri ilə yenidən millətə ta-

nıtmaqla, onların əsərlərini müxtəlif mətbuat orqanlarında yenidən dərc etdirməklə – M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli kimi azadlıq mücadiləsində publisistika qəhrəmanlığı göstərən onlarca klassik ziyalımızı xalqa qaytardı. Sovet dönəmində əsərlərinə arxivlərdə belə baxılmasına qadağa qoyulmuş Azərbaycan publisistlərinin Ş.Hüseynov tərəfindən üzə çıxarılması və yeni cəmiyyətə çatdırılması müstəqillik uğrunda mübarizənin tərkib hissəsi oldu. "Günay", "525-ci qəzet" və digər mətbuat orqanlarının səhifələrində işıq üzü görən bu əsərlər və tədqiqatçının onlara publisistik şərhi Ş.Hüseynovun "Mənəvi irsimiz və gerçəklik" (2004), "Milli haqq və ədalət axtarışında" (2004), "Publisistik irs və müasirlik" (rus dilində-2007), "Mətbu irsimizdən səhifələr" (rus dilində-2007), "Müstəqilliyin çətin yolu... reallıqlar, düşüncələr" (təkmilləşmiş yeni nəşri-2009) və s. kitablarında oxucuya çatdırıldı. Tədqiqatçılıq və məhsuldarlıq keyfiyyətinə hamımızın heyrət etdiyimiz bu alim-publisistin son 15 ildəki əsərlərinin ümumi həcmi 200 çap vərəqi həcmindədir. Nəzərə alsaq ki, kitab nəşriyyatı termini kimi qəbul edilən 1 çap vərəqi 16 səhifə deməkdir, onda 200-ü 16-ya vurmalı olacağıq. Və heyrətamiz bir rəqəm alınacaq: 3200 səhifə. Bir alim ömrünün təkcə 15 ilinin çap məhsulu. Bu çap məhsulunun necə meydana gəldiyini isə onun iş yoldaşları və bir də müxtəlif arxivlərdə müntəzəm çalışan bu adamı hər gün orada görənlər yaxşı bilir.

Və... ən təəccüblüsünü indi demək istəyirəm. Bütün bunların başında Ş.Hüseynovun ayrıca bir tədqiqat obyekti dayanır. Azərbaycan Xalq Cümhuriyyətinin ideya rəhbəri, onun praktik yaradıcısı Məhəmməd Əmin Rəsulzadənin publisistik irsinin tədqiqi. Bu irsin tədqiqi üçün ərəb qrafikalı Azərbaycan əlifbasını mükəmməl bilməkdən tutmuş, arxiv sənədlərində nəyi axtarmaq və nəyə diqqətlə yanaşmağa qədər, Azərbaycan arxivlərindən tutmuş Türkiyə, Polşa, Rusiya arxivlərinədək axtarışlar aparmaq tələb olunur. Bu axtarışların nəticələrini, ayrı-ayrı cümhuriyyət qurucusunun ayrı-ayrı əsərlərini qəzet səhifələrinə çıxarmaq tələb olunur. Və nəhayət, bu əsərləri "Məhəmməd Əmin Rəsulzadənin əsərləri" şəklində kitab kimi nəşr etdirmək vəzifəsi durur. Bu titanik vəzifəni Şirməmməd Hüseynov yerinə yetirmişdir. M.Ə.Rəsulzadənin indiyədək beş cildlik əsərlərini nəşr etdirmişdir. Bu yerdə mən həmin kitabların da ümumi həcmini qeyd etmək istərdim. I cild-30, II cild-33, III cild-38, IV cild-26, V cild - 28 çap vərəqi. Cəmi 155 çap vərəqi. Bayaqkı heyrətamiz rəqəmə qayıdaq və M.Ə.Rəsulzadə cildlərinin 2480 səhifəsini Ş.Hüseynovun son 15 ildə nəşr etdiyi kitabların ümumi səhifəsinin üstünə gəlsək belə bir rəqəm alınacaq: 5664 səhifə. Niyə M.Ə.Rəsulzadənin cildlərini də Ş.Hüseynovun müəllifi olduğu kitablara bərabər tuturuq? Çünki Azərbaycanın müstəqilliyini bizə miras qoyub getmiş M.Ə.Rəsulzadənin hər bir məqaləsini o dövrün qəzet səhifələrindən tapmaq (hətta fars dilində belə), onlara şərh vermək və onları bir-bir əvvəlcə qəzet səhifələrində dərc etdirmək bir adamın deyil, bütöv bir tədqiqat institutunun gücü olmalıydı. Şirməmməd müəllim bunu tək bacardı.

Qəzetimizin bu səhifəsində əziz müəllimlərimizin titanik tədqiqatçılıq zəhmətini əks etdirən kitabları yer alıb. Bu kitablar bugünkü və gələcək nəsillərə milli tariximizin səhifələrini vərəqləməyə imkan yaradacaq.

Konül NİFTƏLİYEVA,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

MİLLİ YADDAŞIN VƏ MİLLİ RUHUN SİMVOLU: ŞİRMƏMMƏD HÜSEYNOV

Elə şəxsiyyətlər var ki, öz zəmanəsini düşüncələrində, əməllərində yaşatmaqla tarixin yaddaşına həkk olaraq qalırlar. Belə şəxsiyyətlərdən biri də tələbələrinə jurnalistikanın sirlərinə layiqincə yiyələnə bilmələrində-peşə yollarını aşmaqda bələdçilik edən Şirməmməd müəllimdir. O, jurnalist ordusunun sərkərdəsi kimi öz əsgərlərinə hər bir fakta, hadisəyə prinsipial mövqedən yanaşmağı öyrətdi.

Özünün yazdığı kimi, əlinə qələm alıb müstəqil yaradıcılığa başladığı andan ən böyük arzusu gördüklərini, düşündüklərini, həqiqəti yazmaq olub. Mətbuat tariximizi tədqiq edib qüdrətli qələm sahiblərinin XX əsrin onilliklərində dövri mətbuatda dərc olunmuş müxtəlif janrlı yazılarını heyranlıqla oxuduqca bu istək onun yaşamaq qayəsinə-amalına çevrilib. Kim idi bu qələm sahibləri – H.Zərdabi, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşov, M.Şaxtaxtlı, İ.Qaspralı, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, Ö.F.Nemanzadə, M.B.Məhəmmədzadə, X.İbrahim və başqaları.

Şirməmməd müəllimin ömür yoluna nəzər salsaq görərik ki, o, bütün varlığını milli haqq, ədalət və həqiqət axtarışında mübarizəyə həsr edib. Tarixin qaranlıq qalan, açılmamış səhifələrinə işıq salaraq, onun mənəviyyatında böyük rol oynayan mənəvi dəyərləri xalqın, millətin sərvəti kimi özünə qaytarmaq kimi böyük bir missiyanı yerinə yetirməyi vətəndaşlıq borcu bilən alim-tədqiqatçının "Müstəqilliyin çətin yolu...reallıqlar, düşüncələr", "Milli haqq və ədalət axtarışında", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr"i oxuduqca bir daha təsdiqləyirsən ki, o, əsərlərində tarixi və tarixi prosesləri, fakt və hadisələri olduğu kimi təqdim olunmasını zəruri hesab edərək gerçəkləri dəlil-sübutlarla elmi dövriyyəyə gətirməyi bugünkü mətbuatşünaslıqda həlli vacib bir vəzifə kimi qarşıya qoymuşdur.

Klassiklərin ədəbi irsi haqqında sovet dövrünün ideoloji maneələrindən irəli gələn qeyri-obyektivlik Şirməmməd müəllimin bu tədqiqatlarında yeni istiqamətdə, yeni yanaşma tərzi ilə tədqiq və təhlil olunuraq öz həqiqi qiymətini almaqla gələcək nəsillərin araşdırmaları üçün də bir cığır açdı. Bir mətbuat tarixçisi kimi özünü tanımamağı böyük təhlükə hesab edən Şirməmməd müəllim millətin tarixi inkişaf yolunu və səmtini düzgün müəyyənləşdirməkdə bu faktorun vacibliyini göstərirdi.

Həyatın hər bir üzünü görən Şirməmməd müəllim bu qənətə gəlir ki, ədalət hissi, həqiqət hissi insanın qanına ictimai ədalətsizliklərlə daxil olur: "Kim ictimai ədalət uğrunda mübarizə aparmırsa, deməli, yel dəyirmanları ilə mübarizə aparır". Bəli, Şirməmməd müəllimin həyatının qayəsini məhz bu mübarizə təşkil edirdi. Bütün böhranların ictimai-siyasi və milli ədalətsizlik zəminində meydana gəldiyini bir həqiqət kimi göstərən alim 1988-ci illərin sonunda xalqını artıq öz gələcək taleyini müəyyən etməyə çağırır: "Biz öz yolumuzu müəyyənləşdirmək üçün haradan gəldiyimizi və harada olduğumuzu müəyyənləşdirməliyik... Nəsillər arasında ideya, siyasi, mənəvi, mədəni bağları nəinki tapmaq, müəyyənləşdirmək, hər cəhd ilə möhkəmlətmək lazımdır. Faktla, sənədlə, həqiqətlə, elm və məntiqlə".

Şirməmməd müəllimin həyat yolu da bir məktəbdir. Bu məktəb yorulmaq bilmədən xalqın başını uca edən, onu yaşadan, tərəqqi və təkamülünü istiqamətləndirən, mühafizə və müdafiəsini təşkil edən millət fədailərini yorulmaq bilmədən öyrənmək və öyrətməkdir. Hər bir yazısı keçmişimizi sorğu-suala çəkməklə bu günümüzü izah etməyə və gələcək yollarımızı müəyyənləşdirməyə xidmət edir, bir sözlə, keçmişimizdən bu günümüzə və gələcəyə körpu salır.

Aygün ƏZİMOVA,
Jurnalistika fakültəsi
Mətbuat tarixi kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

BÖYÜK JURNALİST VƏ YORULMAZ TƏDQİQATÇI-ALİM

Mətbuat tarixçilərinin və jurnalistlərin özlərinə ustad və ağsaqqal hesab etdikləri Şirməmməd Hüseynov təkcə peşəkar jurnalist deyil, eyni zamanda, böyük vətənpərvər ziyalı, elm xadimi və tədqiqatçıdır. Onun böyüklüyü həm də jurnalist və tədqiqatçı kimi məktəb yaratmasındadır. Bu elmi məktəbin əsasını klassik ənənələrə söykənən maarifçilik xətti təşkil edir. Şirməmməd müəllimin elmi fəaliyyətində bir neçə istiqamət önə çıxır:

- Azərbaycanda jurnalistika təhsilinin səmərəliliyinin artırılması;
- Klassik publisistik irs və müasirlik;
- Klassik Azərbaycan publisistikası və mətbuatı nümunələrinin transliterasiyası, tekstoloji bərpası və tədqiqi məsələləri;
- Azərbaycan mühacirət mətbuatının tədqiqi.

Azərbaycanda ali jurnalistika təhsilinin formalaşması və inkişafında Şirməmməd müəllimin xidmətləri böyükdür. Təhsilin elmi zəminə, elmi bünövrəyə söykənməsini vacib amil hesab edən Ş.Hüseynov, jurnalistika sahəsində ilk elmlər namizədi olmaqla bu yolda həmkarları üçün nümunə oldu. O, pedaqoji fəaliyyətilə jurnalistika təhsilinə ciddiyyət, prinsipiallıq gətirdi. Bundan başqa bir sıra ixtisas fənlərini təkmilləşdirməklə predmetə əyanilik və yeni yanaşma üslubu gətirməklə həmin fənlərin əhəmiyyətini xeyli dərəcədə artırdı. Bu cəhətdən "Xarici ölkələrin jurnalistika tarixi"ni xüsusilə vurğulamaq olar. Vaxtilə dərs dediyi tələbələrinin Şirməmməd müəllimin adı çəkilən fənni necə maraqla və özünəməxsus səviyyədə tədrisi ilə bağlı xatirələri deyilənlərə əyani sübutdur. Qeyd edək ki, bu fənn indi də jurnalistika ixtisası üzrə tədris bazasında əsas ana fənlərdən biri kimi tədris edilməkdədir.

Şirməmməd Hüseynov böyük bir ənənənin davamçısı idi. Bu, XIX əsrin sonu XX əsrin əvvəllərində yaranan və formalaşan, klassik mətbuat xadimlərimizin milliliyə, vətənpərvərliyə əsaslanan ənənəsi idi. Şirməmməd müəllimin elmi və publisistik yazıları klassik mətbuat xadimlərimizlə müasir dövrümüz arasında mənəvi bir körpü rolunu oynadı. Klassik publisistik irsimizin toplanması və yenidən nəşri sahəsində Ş.Hüseynovun fəaliyyəti məzmun, xarakter və miqyasına görə digərlərindən əhəmiyyətli dərəcədə seçilir. O, hələ sovet dövrünün kəskin qadağalarının hökm sürdüyü illərdə klassik mətbuat və ictimai-siyasi fikir xadimlərimizin yaradıcılığı ilə tanış olmuş, onların bir çox yazılarının üzünü köçürərək özündə saxlamışdır. Onun əlyazması halında olan bir çox köhnə dəftərlərində bu qəbildən olan külli miqdarda material vardır. Şirməmməd müəllim böyük səbir və təmkinlə öz zamanını gözləmiş, 1980-ci illərin sonlarından etibarən yaranmış münbit şəraitdən istifadə edərək illərlə yığıb topladığı mənəvi irsin nəşrinə başlamışdır. Ş.Hüseynov elmi fəaliyyətində hər zaman klassik dövrlə günümüz arasındakı sələf-xələflik əlaqələrinə əhəmiyyət vermişdir.Tədqiqatçı-alim müasir dövrün bir sıra aktual və taleyüklü problemlərinə münasibət bildirərkən hər zaman klassik mətbuat nümunələrinə də müraciət etmiş, həmin problemlərlə səsləşən məqalə və felyetonlarla öz fikirlərinə qüvvət qatmışdır. Ş.Hüseynov klassik irsə müraciət edərkən hər zaman elə materiallara diqqət yönəltmiş, elə əsərləri üzə çıxarmışdır ki, həmin yazılarda qoyulan problemlərin aktuallığı oxucularda dərin təsir buraxmışdır. Onun bu qəbildən olan araşdırmaları, məqalələri müxtəlif vaxtlarda "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?", "Milli haqq və ədalət axtarışında", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr" və digər kitablarında toplanmışdır.

Ş.Hüseynov yaradıcılığında Azərbaycan Xalq Cümhuriyyəti dövrü ayrıca yer tutur. O, Azərbaycanın müstəqilliyi üçün zərrə qədər də olsa pay sahibi olan bütün aydınlarımız və onların yaradıcılığı haqqında davamlı olaraq tədqiqat aparmışdır. Xalq Cümhuriyyətinin əsas ideoloqlarından biri M.Ə.Rəsulzadənin əsərlərinin beş cilddə toplayaraq nəşr etdirməsi, dahi bəstəkar olduğu qədər böyük publisist olan Ü.Hacıbəylinin redaktə və ixtisar olunmuş, nəşrlərdən kənarda saxlanılmış yazılarını iki cilddə ictimaiyyətə təqdim etməsi, həmçinin Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.B.Məhəmmədzadə, X.İbrahim və digər mütəfəkkirlər barədə elmi məqalələri bu qəbildən diqqətəlayiqdir. Tədqiqatçı-alimin "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər" adlı üçcildliyi isə Xalq Cümhuriyyəti və onun dəyərlərinə verilən tarixi qiymətin ən parlaq nümunəsi hesab oluna bilər.

Bütün bunlarla yanaşı, Ş.Hüseynov həm də bir müəllim idi. Dərs deyib-deməməsindən asılı olmayaraq hər kəs onu özünə müəllim hesab edirdi. O, pedaqoji fəaliyyətə 1954-cü ildə, Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin Elmi Şurasında müdafiə etdiyi namizədlik dissertasiyasından sonra başlamışdı. Həmin ildə Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin Filologiya fakültəsinin jurnalistika kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmış, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini olmuşdu. Jurnalistika fakültəsi müstəqil fakültəyə çevrildikdən sonra, 1970-1976-cı illərdə o, fakültənin dekanı seçilmişdir. Şirməmməd müəllim 1976-1982-ci illərdə öz təşəbbüsü ilə yaradılan Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri vəzifəsində çalışmış, ömrünün sonunadək həmin kafedranın professoru olmuşdur. İstər fakültə, istərsə də kafedra hər zaman onun dəyərli məsləhətləri, tədris metodikası və elmi tədqiqatları ilə fəaliyyət göstərmiş, bu gün də həmin ənənələri əldə rəhbər tutmaqdadır.

Böyük tədqiqatçı-alim yazdığı 30-dan yuxarı kitab və dərs vəsaitləri, 800-dən çox elmi və publisistik yazıları ilə mətbuat tariximizin qaranlıq səhifələrinə işıq salmış, klassik jurnalist və publisistlərimizin əsərlərinin geniş ictimaiyyətə

çatdırılmasında müstəsna rol oynamışdır. Onun bu istiqamətdəki sistemli fəaliyyəti və milli mətbuatımızın inkişafındakı xidmətləri istər ölkə rəhbərliyi, istərsə də geniş ictimaiyyət tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Ş.Hüseynov müxtəlif vaxtlarda "Qızıl qələm", Zərdabi mükafatı, Y.Məmmədəliyev adına mükafat, M.Ə.Rəsulzadə adına mükafat, I dərəcəli Ali Media mükafatı, Z.Xəlilov adına mükafatlara,"Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür.

Ş.Hüseynovun jurnalistika və mətbuat tariximizin öyrənilməsi sahəsindəki elmi, publisistik fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir. O, 2005-ci ildə Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdünə layiq görülmüş, 2014-cü ildə "Şərəf" ordeni, 2019-cu ildə isə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdir.

Ömrünün 65 ilini Jurnalistika fakültəsinə, onun inkişafına, tələbələrin milli ruhda tərbiyələnməsinə həsr edən Şirməmməd müəllimin adı hər zaman böyük ehtiram və sayğı ilə anılacaqdır. O, Azərbaycan mətbuatı tarixində hörmətlə yad edilən klassiklərimizin mənəvi davamçısı, həm də böyük ziyalı, həqiqi pedaqoq, vətənpərvər insan, yorulmaz tədqiqatçı və peşəkar jurnalist kimi daim yaddaşlarda yaşayacaqdır.

Vüqar ZİFƏROĞLU,
Jurnalistika fakültəsinin dekanı

Samir XALİDOĞLU,
"Jurnalistika" elmi-tədqiqat laboratoriyasının elmi işçisi

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

AZƏRBAYCAN ZİYALILARI ŞİRMƏMMƏD HÜSEYNOV HAQQINDA

Əzizim Şirməmməd müəllim!

80 illik ömür yolunun 50 ildən çoxunu bir yerdə çiyin-çiyinə keçdik. Ömür yollarımızın 50 ildən çoxunu, necə oldu ki, fasiləsiz, zədəsiz, bərabər keçə bildik? Bunun sirri ondadır ki, bizim ömür yolumuz adicə ömür yolu deyildi. Bu, əqidə, amal yoluydu. Bizim ömür yollarındakı birliyimiz də fikir, düşüncə və əqidə birliyi idi.

Əziz dostum. Sən vətənpərvərlik, düzgünlük, haqsevərlik, gözütoxluq kimi bir çox mənəvi xüsusiyyətlərinlə mənə həmişə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış böyük əqidəli ziyalılarımızı xatırlatmısan. H.Zərdabi milli mətbuatımızın təməl daşını qoydusa, sən bu böyük işin davamçısı kimi bir neçə jurnalist nəslinin müəllimi olmusan.

Əziz qardaşım, məndən "Şirməmməd kimdir?" – deyə soruşsalar, mən 2 misra ilə belə cavab verərdim:

Şirməmməd – əxlaqın, haqqın öz səsi
Ləyaqət, dəyanət mücəssəməsi!

BƏXTİYAR VAHABZADƏ,
Xalq şairi, akademik

***

Əzizim Şirməmməd!

Sənin şəxsində, hərəkət və əməllərində öz istək və arzumun təcəssümünü görürəm. Axı indiki şəraitdə bu cür bütöv və saf xarakterə malik olmaq Suvorovun Alp dağlarını yarmasından heç də asan deyildir. Mənə elə gəlir ki, bu cür xarakterə sahib olmaq böyük qəhrəmanlıqdır, xüsusi istedad əlamətidir, insanlığın nəcib arzularına çatması üçün uzaq-uzaq məsafəsini xeyli ixtisara salmaqdır. Burada Çernışevskinin Raxmetovu yadıma düşür. Böyük mütəfəkkir yazır ki, Raxmetov kimi adamların yolu şəxsi sevinclər üçün kasıb olsa da, şərəflidir: "Bəli, onlar pis adam deyillər. Onlar azdır, lakin bütün insanların həyatını çiçəkləndirən onlardır. Onlarsız bu həyat çürüyərdi, turşuyardı. Onlar azdır, lakin onlar bütün insanlara nəfəs verirlər, onlarsız insanlar boğulardılar. Namuslu və xeyirxah insanlar kütləsi böyükdür, Raxmetov kimi adamlar isə azdır. Lakin namuslu və xeyirxah insanların arasında onlar çayın ətri, gözəl şərabın atəşidir. Kütlənin qüvvəsi və gözəlliyi onlardır. Onlar ən yaxşı insanların yaxşısıdır, mühərriklərin mühərrikidir, dünyanın canının canı, cövhərinin cövhəridirlər". Mən heç mübaliğə etmədən, qəlbimə heç bir qara hiss yaxın qoymadan sən, Şirməm-

məd Hüseynovu da tərəddüdsüz, bu cür adamlardan, müasir raxmetovlardan biri sayıram. Madam ki, belədir, onda yalançılığa, riyakarlığa, dələduzluğa, çirkaba, üfunətə, ikiüzlülüyə, yaltaqlığa...qarşı mübarizədə məni də özünlə çiyin-çiyinə gör. Arzu edirəm ki, bu şərəfli işdə sevinc və xoşbəxtlik, nəşə və müvəffəqiyyət daimi yol yoldaşın olsun!

QULU XƏLİLOV
Yazıçı-publisist,
filologiya elmləri doktoru, professor

***

BƏXTİYAR VAHABZADƏYƏ

Əziz müəllim!

Qəzet vasitəsilə Sizin məktubunuzu, uzaqgörən şeirlərinizi və Şirməmməd müəllimin ürəkdən gələn şərhini alıb oxuyanda çox sevindim. Bütün bunlar mənə 87-ci ilin noyabrındakı görüşümüzü xatırlatdı:

"Bir anın içində uçub məhv olur,
Yüz illik, min illik imperiyalar"

Bu misralarınızı dəfələrlə təkrar oxudum. Qazaxıstan gənclərinin 1986-cı ildəki məğzi etibarilə SSRİ-də ilk demokratik aksiya olan dekabr etirazlarının əhəmiyyətini Sovet İttifaqında heç bir şair belə ucadan və aydınlıqla deməmişdi.

Bu yaxınlarda Sizi və Bakıdakı başqa dostlarımı görməkdən çox məmnun qaldım. Heydər Əliyevlə görüş məndə xoş ovqat yaratdı. Allah onu salamat elə-sin. Onunla görüşdən sonra Azərbaycanın çətinliklərin öhdəsindən gələcəyinə məndə dərin inam yarandı.

Bir daha Sizi, yaxınlarınızı, Şirməmməd müəllimi bərk-bərk bağrıma basıram.

OLJAS SÜLEYMENOV,
Qazaxıstanın xalq şairi

***



Şirməmməd Hüseynov "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?" adlı kitabında həqiqətpərvərliyi, demokratizmi, düzlük və cəsarəti, vətənə, xalqa məhəbbəti ilə birlikdə həqiqi təhsil görmüş müəllimlərindən - ziyalılardan əxz etdiyini bildirir. 1954-cü ildə Moskva universitetində aspirantura təhsilini başa vurub namizədlik dissertasiyasını müdafiə etdiyi və Bakı Dövlət Universitetinin jurnalistika şöbəsində fəaliyyətə başladığı gündən indiyə kimi öz tələbələrinə dərin milli-demokratik təsirini qeyd etmək yerinə düşərdi.

O, son illərdə xüsusilə gərgin işləyir. Universitetdə pedaqoji işlə yanaşı, qəzet-jurnallarda beynəlxalq

həyatın, milli hərəkatın, milli müstəqillik və dövlətçiliyin, klassik demokratik publisistika ənənələrinin problemləri ilə əlaqədar çıxış edir, böyük öndərimiz Məhəmməd Əmin Rəsulzadənin çoxcildlik əsərlərinin tərtibi və nəşri ilə məşğul olur. Şirməmməd müəllim elmdə, siyasətdə havayı güllə atanlardan deyildir. O zaman söz silahına sarılır ki, ürəyində deməmək mümkün olmayan sözü, zirehi dəlib keçən gülləsi hədəfi sərrast seçir. Haqqında söz gedən kitab da hər şeydən əvvəl vətəndaş, alim-pedaqoq və publisistin uzun illər elmi-siyasi axtarışlarının, müxtəlif, rəngarəng formalı, üsullu demokratik mübarizəsinin, milli xalq hərəkatında fəal iştirakının yekunları kimi ortaya çıxmış və böyük rəy doğurmuşdur.

Bu kitab hansı janrdadır: sənədli siyasi roman və ya povestdir? Dərslik, yoxsa monoqrafiyadır? Bəlkə ayrı-ayrılıqda bunların heç biri deyildir, hamısının birgə sintezidir, desək səhv etmərik. Buna görə də oxucunun əqlinə və hissinə hakim kəsilir, onu düşünməyə, təkrar düşünməyə vadar edir. Müəllifin seçdiyi forma orijinal olduğu qədər də cəlbedicidir. Böyük fikir və ideyaların, ağıllı mülahizə və mübahisələrin hərtərəfli və əhatəli ifadəsi üçün geniş imkan yaradır.

FAMİL MEHDİ,
Şair-publisist,
filologiya elmləri doktoru, professor

***

Əgər məndən xəbər alsaydılar ki, son əsrin ən yüksək bəşəri və milli şüurlu, vicdanlı Azərbaycan jurnalisti kimdir, bir an belə düşünmədən Şirməmməd müəllimin adını çəkərdim.

Əsrimizin jurnalistikası əsasən siyasətin carçısı və nökərləri səviyyəsinə "yüksəldilmişdir". Bir-birini gah təsdiqləyən, gah inkar edən böyük və kiçik, uzun və qısa ömürlü jurnalistlərimiz olmuşlar və vardırlar. Amma Şirməmməd müəllim kimilərini tapmaq çox çətindir.

NURƏDDİN RZAYEV,
Tibb elmləri doktoru, professor

***

Yaxşı müəllim millətin xoşbəxt gələcəyi deməkdir.

...Şamil müəllimin seçdiyi və bu kitabı ilə yenidən tarixə saldığı şəxsiyyətlər hamısı tarixə düşəsi adamlardır. Onlar böyük alim, pedaqoq və qayğakeş insanlar olmuşdur. Qalanları da həmçinin. Bunlardan professor Pənah Hüseynov, Əzizə Cəfərzadə, Şirməmməd Hüseynov, Gülhüseyn Hüseynoğlu mənim hörmət etdiyim adamlardır.

(Ş.Qurbanovun "Müəllimlər" kitabına yazılmış giriş məqaləsindən)

MİSİR MƏRDANOV,
AMEA-nın müxbir üzvü

***

Şirməmməd müəllim elm fədaisidir. Xüsusən milli məfkurəmizin-azərbaycançılığın banisi, milli istiqlalımızın "böyük mürşidi" Məhəmməd Əmin Rəsulzadənin irsinin öyrənilib təbliğ edilməsində Şirməmməd müəllim misilsiz xidmət göstərir.

"Türk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilib yazılmışdır... Bu xüsusda biz azərbaycanlılar hamıdan çox işıqlanmaq ehtiyacındayız" (M.Ə.Rəsulzadə). Sənədlər və digər tarixi mənbələr tarixin tədqiqinin təməl daşını təşkil edir.

M.Ə.Rəsulzadənin əsərləri milli tariximizin bütöv bir dövrünü öyrənmək üçün qiymətli mənbədir, etibarlı bələdçidir.

TOFİQ KÖÇƏRLİ,
Tarix elmləri doktoru, akademik

***

"Sənin hər gəlişini bayrama çevirərdik, oktyabr!"... Onda biz uşaq idik, gənc idik, bəs böyüklərimiz? Yəni zamanın tarixini yazan jurnalist müəllimlərimiz də bilmirdirlər ki, bu bayram tamaşasında öz köləliyimizə, hüquqsuzluğumuza, əsarətdə olmağımıza hurrey deyib əl çalırıq? Bu gün yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyimiz ziyalılar o vaxt bizə partiyalı mətbuatdan dərs deyirdilər. Yeganə bir inqilabçı müəllimimiz vardı ki, o zaman adı ancaq universitetlə bağlı adamlara və yəqin ki, DTK əməkdaşlarına məlum idi - indi ən yaxşı şərhçilər sırasında tanınan Şirməmməd Hüseynov. Beş illik tələbəlik dövründə təkcə o bizi inqilaba, azadlığa, müstəqilliyə səsləyirdi. Təkcə o, düzə düz, əyriyə-əyri deyirdi. O, bütün inqilabi dəyişiklikləri irəlicədən görürdü və öz inamını, öz arzularını qətrə-qətrə bizə də yeridirdi. Bax beləcə gözümüz açılırdı onda...

AFAQ MƏSUD,
Xalq yazıçısı

***

Şirməmməd Hüseynovla keçən əsrin altmışıncı illərinin əvvəlində Azərbaycan radiosunun "Son xəbərlər" redaksiyasında çalışdığım zaman tanış olmuşam və o zamandan bu günə kimi onu vətənpərvər və prinsipial, istedadlı və orijinal jurnalist, alim və müəllim kimi tanıyıram.

O vaxt biz radioya nə isə bir yenilik, bir nəfəs gətirmək fikrinə düşmüşdük və heç kəsdən icazə almadan xəbərlərin içində beynəlxalq mövzuda şərhlər vermək qərarına gəldik. Bu sahədə mütəxəssis isə yox idi. Şirməmməd müəllimin "Son xəbərlər"də çalışan tələbələrinin məsləhətilə bu işə onu dəvət etdik və yanılmadıq.

O zamanlar belə işə başlamaq asan məsələ deyildi. Çünki beynəlxalq mövzu Moskvanın monopoliyasında idi. Biz isə təhlükəli bir işə girişmişdik. Nəticəsi pis olmadı. Şirməmməd müəllimin fəal iştirakı ilə "Dünya həftə ərzində" daimi proqram efirə getməyə başladı və bu sahədə fəaliyyətimiz genişləndi.

Şirməmməd müəllim daimi əməkdaşımız oldu və onun beynəlxalq mövzuda şərhləri və xülasələri tez bir vaxtda radiodinləyicilərin rəğbətini qazandı.

Şirməmməd Hüseynovun bir jurnalist və bir tədqiqatçı kimi ən böyük xidmətini Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdırmasında görürəm. O heç bir yardım almadan bu Cümhuriyyətin banisi M.Ə.Rəsulzadənin irsini böyük çətinliklərlə axtarıb tapmış və onun əsərlərini çap etməyə başlamışdır.

Bu, əvəzedilməz fədakarlıqdır.

HACI HACIYEV,
Azərbaycan Jurnalistlər birliyinin sabiq sədri

***

Bəzən düşünürəm ki, mən də dəfələrlə Şirməmməd Hüseynov məktəbinin müdavimləri ilə bir sırada əyləşib onun şirin ləhcəli düzümlü-biçimli, həm də cəsarətli mühazirələrini, valideyn nəsihətlərinə bənzər söhbətlərini dinləmişəm. Bütün bunlar romantik təxəyyülün təsvirləri olsa da, müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə dana bilməz. Bu məktəbin sonadək müdavimi olmaq, necə deyərlər, hər jurnalistin işi deyil. Dərs yükü də ağır, əməl yükü də. Bunu mən demirəm, dünənki və bugünkü tələbələri etiraf edir. Elə mənim özüm də onun fikir dünyasından nələrisə əxz etməkdə həmişə maraqlıyam. Çünki bu böyük insanı tutduğu yoldan döndərmək, tapındığı əqidədən sapdırmaq mümkün olmayıb, onun inancı da, nifrəti də, məhəbbəti də sonadəkdir.

ƏFLATUN AMAŞOV,
Mətbuat Şurasının sədri

***

BDU-nun jurnalistika fakültəsi bəlkə də yeganə yerdir ki, heç bir müəllim heç bir tələbə qarşısında gözükölgəli deyil. Bunu məzunlar da təsdiq edə bilər, bugünkü tələbələr də. Və bu halallıq ənənəsinin müəllifi məhz uzun illər fakültədə müxtəlif rəhbər vəzifələrdə işləmiş professor Şirməmməd Hüseynovdur.

Bu gün jurnalistika fakültəsinin müəllimləri ağır iqtisadi durum qarşısında əyilməmək, sınmamaq üçün öz əsas iş yerləri ilə yanaşı, ya bir neçə özəl universitetdə də dərs deyir, ya da müxtəlif informasiya vasitələrində çalışaraq başlarını əvvəlki kimi yenə də dik tuturlar. Buna görə də harada işləmələrindən asılı olmayaraq fakültə məzunları öz müəllimlərinə halallıq nümunəsi kimi baxır, həmişə onların yolunu saxlayırlar. Və bütün bunlar Şirməmməd müəllimin böyük xidməti kimi qiymətləndirilməlidir.

NƏSİR ƏHMƏDLİ,
Filologiya elmləri doktoru, professor

***

BDU-nun keçmiş Kommunist küçəsində yerləşən korpusunda jurnalistika fakültəsində təhsil aldığım vaxtlar yadımda qalan çoxlu hadisələr var. Amma ən yaddaqalanı professor Şirməmməd Hüseynovun bizim qrupa dörd qoşa saat dediyi mühazirələriydi ki, elə o mühazirələrə qulaq asa-asa haçansa Şirməmməd müəllim haqqında mütləq yazacağımı qət eləmişdim. Və həmin o yazının adını da dəqiqləşdirmişdim: "Dörd qoşa saat".

Hələ məşhur yenidənqurmanın başlanğıcında dörd qoşa saat "Burjua jurnalistikası"nın mahiyyətini anladan Şirməmməd müəllim həm də bir az ezop diliylə, bir az sətiraltı sözlərlə, bir az mimikayla sovet mətbuatıyla burjua mətbuatı arasındakı fərqi bizə çox aydınca başa salmışdı. Və bu sətirlərin müəllifinin dünyagörüşündə ilk dəyişik çalarlar, demokratik cücərtilər də, deyəsən, elə o vaxt oyanmağa başlamışdı.

RƏŞAD MƏCİD,
"525-ci qəzet"in baş redaktoru

***

Onun haqqında mən ancaq belə yaza bilərəm. "O" hərfindən sonra mütləq defis qoymaqla. Çünki O-ndan başlanan hər şey, O-nunla bitən hər şey Şirməmməd müəllimə aid olsa da həm də O-ndan bir defis qədər aralı, əlçatmazdır.

İdeallaşdırıram? Ola bilər.

İfrata varıram? Ola bilər!

Müqəddəsləşdirirəm? Ola bilər.

Ona görə ki, O İdealdır, İfratdır, Müqəddəsdir.

Şirməmməd Hüseynov məndən ötrü təpədən dırnağa Dövlətə, Cümhuriyyətə, Respublikaya oxşayan insandır.

MİRŞAHİN AĞAYEV,
Real Təhlil İnformasiya Mərkəzinin direktoru

***

Nə gizlədim, çox olub, ən müxtəlif məclislərdə Onun haqqında söhbət düşəndə, ya da təsadüfən televiziya ekranında görəndə ətrafımdakılara xüsusi əda ilə, qürrələnə-qürrələnə "Şirməmməd müəllim mənə dərs deyib" - deməyim. Aydındır ki, bu hərəkətin məğzində bir özümü öymək duyğusu gizlənib həmişə. Yəni mən elə-belə adam deyiləm, baxın görün kimdən dərs almışam! Və bu davranışı müxtəlif illərdə jurnalistika fakültəsində oxumuş, Şirməmməd müəllimdən dərs almış başqa çox adamdan da, həm də dəfələrlə görmüşəm.

YUSİF RZAYEV,
Əməkdar jurnalist

***

Hamı onu "ustad" adlandırır. Onu "canlı tarix", "yeriyən əfsanə", "dövrümüzün Zərdabisi", "bizim Şirməmməd müəllim" deyə çağıranlar da az deyil. Çünki o, indi də Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Abdulla Şaiq kimi klassik müəllimlərin fəaliyyətini bütün ruhu ilə bir məktəb olaraq yaşatmaqdadır. Bu mənada müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə inkar edə bilməz. Bu məktəbin müdavimi olmaq da hər jurnalistin gücü çatası bir iş deyil. Çünki bu məktəbin dərs yükü də ağırdır, əməl yükü də!

BƏXTİYAR QARACA,
Jurnalist-tədqiqatçı

***

Mənim üçün Şirməmməd müəllim böyük alim, böyük müəllim və böyük vətəndaş idi. Həmişə ustadi-əzəm deyə müraciət edirdim. Rəsulzadə irsinin millətin ruhuna hopmasında müstəsna xidməti oldu ustadı-əzəmin. Allah ona uzun ömür verdi və hələ heç kim Allahın verdiyi uzun ömürdən Şirməmməd müəllim kimi millət üçün, xalq üçün, milli yaddaş üçün belə səmərəli istifadə etməmişdi. İşıq axtarışında idi. Axtardığı işığı Rəsulzadədə tapmışdı. Məmməd Əmin sevdalısı idi. Zərrə-zərrə böyük qurucunun irsini toplamaqla özü də millətin zərrəsinə çevrildi.

RAMİZ ABUTALIBOV,
İctimai xadim

***

Azərbaycanda ali jurnalistika təhsili inkişafının 50 illik bir dövrü professor Şirməmməd Hüseynovun adı və məhsuldar elmi-pedaqoji fəaliyyəti ilə bağlıdır. Bu dövrün yetirmələri olan Bakı Dövlət Universitetinin 3 minə qədər jurnalist diplomlu məzunu Şirməmməd müəllimi öz ustadı bilmiş və yeni gələn jurnalist tələbə nəsli də belə bir ustaddan dərs almaları ilə fəxr edirlər.

Şirməmməd müəllim, bizlərə keçdiyiniz vətəndaşlıq, milli təəssübkeşlik, mənəvi-əxlaqi saflıq, jurnalistikamıza, mətbuat tariximizə dərin ehtiram və məhəbbət dərslərinə görə çox sağ olun.

YALÇIN ƏLİZADƏ,
Əməkdar jurnalist, professor

***

Şirməmməd Hüseynov, əlbəttə, hər kəsdən öncə universitet müəllimidir. Universitet sözünün dövlətə, millətə, xalqa bağlılığını lap cavan çağlarından diqqətdə saxlayan bu müəllim ömrünün bütün şüurlu dövrünü tələbələrinin, deməli, gənc nəslin Azərbaycan və azərbaycançılıq, milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, azad fikirlilik, yaradıcılıqda dəqiqlik, obyektivlik, vicdanlılıq keyfiyyəti ilə böyüməsinə xüsusi tələbkarlıqla yanaşmış, təkcə işlədiyi kollektivin – Bakı Dövlət Universitetinin deyil, bütövlükdə Azərbaycan ictimaiyyətinin hörmətini qazanmışdır.

ABEL MƏHƏRRƏMOV,
Akademik

***

Mən Şirməmməd müəllimin universitet qəzetinə redaktor olduğu illərinin də, filologiya fakültəsində müxtəlif rəhbər vəzifələrdə olduğu çağlarının da, Jurnalistika fakültəsinin dekanı kimi fəaliyyətinin də, uzun müddət bu fakültədəki ciddi bir kafedranın müdiri vəzifəsində işlədiyinin də, universitetə qəbul imtahanları kimi son dərəcə məsuliyyətli bir prosesə rəhbərlik etdiyinin də canlı şahidi olmuşam. Bu vəzifələrin hamısında Şirməmməd müəllim özünün elmi qabiliyyəti, pedaqoji bacarığı, ən ümdəsi isə bəzən zamana, şəraitə sığmayan təmiz bir dünyası, mənəviyyatı ilə hər kəsə nümunə olmuşdur. Mən onun təmiz dünyasını xüsusi vurğulamaq istəyirəm. O təmiz dünya onun nəfsinə sahiblik etməsi ilə, məşğul olduğu mətbuat tarixi sahəsinə namuslu alim münasibəti ilə, böyüdüb, peşəkarlıq öyrədib yola saldığı minlərlə tələbəsinə aşıladığı vətəndaşlıq keyfiyyəti ilə və ümumiyyətlə, bu həyata, bu dünyaya təmənnasız xidməti ilə ölçülür. Şirməmməd müəllim seçdiyi ixtisasın – jurnalistikanın müəllimi və tədqiqatçısı ixtisasının şərəfini şərəflə qoruyan bir mütəxəssisdir. O, ömrünü həsr etdiyi müəllimlik peşəsində heç vaxt – heç vaxt müəllimlik şərəfinə xələl gətirən nöqsana yol verməyib. Heç kim inciməsə deyərdim ki, bu gün işlədiyi jurnalistika fakültəsinin təmiz dünyası da birbaşa onun təmizliyə, təmənnasızlığa bağlı xarakteri ilə formalaşıb.

VASİM MƏMMƏDƏLİYEV,
Akademik

***

Azərbaycan mətbuat tarixinin tədqiqi sahəsində mühüm xidmətləri olan qocaman jurnalist, professor Şirməmməd Hüseynov Üzeyir bəyin məqalələrini toplayıb iki cilddə nəşr üçün hazırlamışdır. 115 məqalədən ibarət birinci cild 2009-cu ildə, vaxtilə zədələndiyi üçün tam mətni bərpa olunmuş məqalələr isə ikinci cild kimi 2010-cu ildə "Elm" nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılmışdır.

BƏKİR NƏBİYEV,
Akademik

***

Şirməmməd müəllimə mən ilk növbədə jurnalistikamızın patriarxı kimi, bu çətin və şərəfli peşənin neçə-neçə dəyərli nümayəndəsini yetişdirdiyi üçün minnətdaram. ... Şirməmməd Hüseynov əsl vətənpərvərdir və vətənpərvərliyi sözdə yox, əməli işdə meydana çıxır. Elmi fəaliyyətinin mühüm sahəsi böyük Məhəmməd Əmin Rəsulzadənin irsini nəşrə hazırlaması, "525-ci qəzet"in səhifələrində, ayrıca kitablar kimi yeni nəsillərə çatdırmasıdır.

ANAR,
Xalq yazıçısı

***

Bəli, mən o fikirdəyəm ki, hər bir yazıçı, alim ictimai-siyasi müstəvidə epizodik missiyasını dərk etməlidir. Məsələn, Şirməmməd Hüseynov kimi. O, Azərbaycan ziyalısı üçün ciddi bir örnəkdir. Öz epizodik rolunu gözəl bilir. Heç vaxt pisliyə xidmət etmir. Arada bir çıxıb anladığı həqiqətləri deyir və çəkilib yenidən peşəkar fəaliyyətini davam etdirir. Və bütöv Azərbaycan intelligensiyasını, mədəniyyət daşıyıcısını bu tendensiyaya gətirmək lazımdır.

FAZİL MUSTAFA,
Fəlsəfə doktoru, millət vəkili

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

ŞİRMƏMMƏD HÜSEYNOVUN TƏDQİQATLARI

"Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920), I, II, III cild. Bakı, "Qanun" nəşriyyatı, 2015, 2016, 2017

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

Neçə minillik dövlətçilik tarixi və ənənəsi olan Vətənimizdə ilk dəfə "Azərbaycan" adlı müstəqil Xalq Cümhuriyyətinin ilk parlamanı – Məclisi-Məbusanının fəaliyyətinə dair "Azərbaycan" qəzetində dərc olunmuş hesabatlar və şərhlərdən bəhs edən bu kitab Cümhuriyyətin qarşıdan gələn 100 illik yubileyinə həsr olunur. Məlumdur ki, "Azərbaycan" qəzeti 23 ay fəaliyyət göstərmiş müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin salnaməsi olmuşdur. Qəzetin 443 nömrəsində xüsusilə parlament həyatına aid dəyərli hesabatlar və şərhlər vardır. Tariximizin bu mötəbər mənbəyini öyrənmək və müasir oxuculara təqdim etmək bizcə faydalı olar.

Rəsulzadə M.Ə. Əsərləri, I cild, Bakı. "Elm", 2014

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

"Əsərlər"in I cildinə Azərbaycanın milli istiqlal hərəkatının ideoloqu və lideri, Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin yaradılması işinə başçılıq etmiş görkəmli ictimai-siyasi və dövlət xadimi, istedadlı alim, jurnalist və publisist Məhəmməd Əmin Rəsulzadənin 1903-1909-cu illərdə "Şərqi-Rus", "Hümmət", "Dəvət", "İrşad", "Təkamül", "Yoldaş", "Tərəqqi" qəzetlərində, "Füyuzat", "Volna" jurnallarında çıxan 280-ə yaxın yazısı daxil edilmişdir. Bu əsərlər azadlıq və demokratik hərəkata qoşulan inqilabçı sosial-demokrat, hümmətçi gəncin I Rusiya inqilabı və ondan sonrakı illərdə siyasi xadim, jurnalist və publisist kimi formalaşdığını, yetkinləşdiyini nümayiş etdirir.

Rəsulzadə M.Ə. Əsərləri, II cild, Bakı. "Elm", 2014

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

"Əsərlər"in II cildinə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına başçılıq etmiş, 20-ci yüzilliyin görkəmli ictimai-siyasi və dövlət xadimlərindən olan istedadlı alim, jurnalist və publisist, türk dünyasının tanınmış şəxsiyyətlərindən M.Ə.Rəsulzadənin 1909-1914-cü illərdə Tehran, İstanbul və Bakıda qələmə aldığı, dövri mətbuatda və ayrıca kitabça halında dərc olunmuş 140-a yaxın əsəri daxil edilmişdir.

Rəsulzadə M.Ə. Əsərləri, III cild, Bakı. "Elm", 2014

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

Oxuculara təqdim olunan "Əsərlər"in III cildinə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına başçılıq etmiş, 20-ci yüzilliyin görkəmli ictimai-siyasi və dövlət xadimlərindən olan istedadlı alim, jurnalist və publisist, türk dünyasının tanınmış tarixi şəxsiyyətlərindən M.Ə.Rəsulzadənin 1915-1916-cı illərdə qələmə aldığı, dövri mətbuatda dərc olunmuş 200-ə yaxın əsəri daxil edilmişdir.

Zənnimizcə, bu əsərlər Azərbaycan tarixi və bütövlükdə I Dünya müharibəsi dövrü tarixi ilə maraqlananlar üçün faydalı olacaqdır

Rəsulzadə M.Ə. Əsərləri, IV cild, Bakı. "Elm", 2014

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

"Əsərlər"in IV cildinə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına başçılıq etmiş, XX yüzilliyin görkəmli ictimai-siyasi və dövlət xadimlərindən olan M.Ə.Rəsulzadənin 1917-ci ilin yanvar – 1918-ci ilin aprelinə qədərki mürəkkəb və gərgin, işıqlı və faciəli dövründə qələmə aldığı yazıları, qurultay, yığıncaq və mitinqlərdəki nitq və çıxışlarının, məruzələrinin mətbuatda dərc olunmuş mətnləri daxil edilmişdir.

Rəsulzadə M.Ə. Əsərləri, V cild, Bakı. "Elm", 2014

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

Neçə minillik dövlətçilik tarixi və ənənəsi olan Azərbaycanda ilk dəfə "Azərbaycan" adlı müstəqil, demokratik Xalq Cümhuriyyəti dövlətinin banisi, istiqlal hərəkatının bayraqdarı, "Müsavat" partiyasının lideri və ideoloqu M.Ə.Rəsulzadənin əsərlərinin V cildinə onun 1918-ci il fevral - 1920-ci il aprel aylarında mətbuatda və rəsmi sənədlərdə dərc edilmiş 100-dən artıq əsəri daxil edilmişdir.

Mənəvi irsimiz və gerçəklik.

Bakı, "Adiloğlu" nəşriyyatı, 2004

Kitabda müəllifin 2001-2004-cü illərdə "Günay" qəzetində dərc olunmuş 150-yə yaxın müxtəlif janrlı yazısı daxil edilmişdir. Müasir oxuculara təqdim olunmuş bu yazılar müəllifin yarım əsrdən artıq bir müddətdə apardığı araşdırmaların nəticəsidir. Mütəxəssis oxucular bu yazıların elmi dəyərini, tariximizin öyrənilməsi və anlaşılması baxımından faydalılığını nəzərə alaraq onların ayrıca kitab halında nəşr olunmasını arzu etmişlər.

Milli haqq və ədalət axtarışında.

Bakı, "Adiloğlu" nəşriyyatı, 2004

Kitabda müəllifin 1988-2000-ci illərdə yazdığı və respublikanın müxtəlif mətbuat orqanlarında dərc olunmuş ictimai və tarixi əhəmiyyət daşıyan, dövrün çox mühüm problemlərinə həsr olunmuş məqalə, müsahibə, çıxış və s. daxil edilmişdir. Burada həmçinin vaxtilə işıq üzü görməmiş, adları və yazdıqları qa-

dağan edilmiş istiqlal mücahidlərinin, görkəmli qeyrət və qələm sahiblərinin bir sıra əsərləri ilk dəfə oxuculara təqdim edilmişdir. XX əsr Azərbaycan ictimai-siyasi və ədəbi-mətbu tarixini tədqiq edib öyrənmək istəyənlər üçün kitabın çox böyük faydası vardır.

Mətbu irsimizdən səhifələr.
Bakı, "Çənlibel" NPM, 2007

Kitabda müəllifin 2005-2006-cı illərdə dərc olunmuş məqalələri, əlavələr və xatirələr bölməsində müxtəlif illərdə onun haqqında yazılmış rəylər və digər materiallar, həmçinin öz qısa xatirələri daxil edilmişdir. Bu kitab əvvəllər nəşr olunmuş "Müstəqilliyin çətin yolu...biz hara gedirik?" (1996), "Milli haqq və ədalət axtarışında" (2004) və "Mənəvi irsimiz və gerçəklik" (2004) məqalələr külliyyatının davamıdır. Müəllifin yarım əsrdən artıq bir müddətdə apardığı araşdırmaların nəticəsi olan bu yazılar tariximizin öyrənilməsi və anlaşılması baxımından faydalıdır.

Нравственное наследие и современность
Баку, "Чанлибел" ИПЦ, 2007

В книге собрано около 150 статей и разных других материалов, опубликованных в газете "Гюнай" в 2001-2004 годах. Они являются результатом многолетнего терпеливого и тщательного труда автора, исследовавшего азербайджанскую дореволюционную печать. Автором высказывания таких мыслителей как Г.Зардаби, М.Э.Расулзаде, А.Агаев, А.Гусейнзаде, У.Гаджибеков, О.Ф.Неманзаде и многих других. Все эти публикации сопровождаются обобщающими материалами и комментариями автора.

Публицистическое наследие и современность.
Баку, 2007, "Элм"

В книге собрано около 100 статей и разных других материалов, опубликованных в газете "Гюнай" в 2004-2006 годах. Она является продолжением вышедшей на русском языке сборника статей автора "Нравственное наследие и современность" (2007 г.). Деятельность автора в области сбора, переиздания, исследования и популяризации нашего классического публицистического наследия своим содержанием, характером и масштабом значительно отличается от аналогичной деятельности других ученых. Автор, хорошо видя коды и нити между предшественниками и преемниками, обращается к классическому публицистическому наследию с целью оживления наследственных и национально-нравственных взаимосвязей между прошлым и настоящим.

"KURTULUŞ"
Azərbaycan Milli Kurtuluş Hereketinin Orqanı
Aylık mecmua
Almaniyada nəşr olunan "Qurtuluş" məcmüəsi 1934-cü il №2
Toplayanı və tərtibçisi:
Şirməmməd Hüseynov

Müstəqilliyin çətin yolu... reallıqlar, düşüncələr.
Bakı, "Elm" nəşriyyatı, 2009

Kitabda müəllifin 1988-1993-cü illərdə, həmçinin 2007-2009-cu illərdə yazılmış və respublika mətbuatında dərc olunmuş yazılarının bir qismi daxil edilmişdir. Son illərə qədər qadağan edilmiş və açıqlanmamış tarixi sənədlərə, görkəmli ictimai-siyasi və mədəniyyət xadimlərinin, jurnalist və publisistlərin əsrin əvvəllərində mətbuat səhifələrində dərc olunmuş əsərlərinə istinadən müasir həyatımız və hadisələrlə səsləşən, onların tarixi əlaqəsi və köklərini anlamağa yardım edən bu yazıların oxucular üçün faydalı olacağı şübhəsizdir.

Kitabda keçdiyimiz məşəqqətli illərin bir sıra mühüm hadisələrinə siyasi şərhçi münasibəti də maraq doğurur.

Ö.F.Nemanzadə. Nəşri-asarə dəvət (Əsərlər nəşrinə dəvət) Bakı, "Qanun" nəşriyyatı, 2013
Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

Ö.F.Nemanzadənin 1905-ci ilin aprelində Tiflisdə "Qeyrət" mətbəəsi tərəfindən çapdan çıxmış "Nəşri-asarə dəvət" ("Əsərlər nəşrinə dəvət") kitabçası transliterasiya olunaraq oxuculara çatdırılır.

Məhəmməd Əmin Rəsulzadə. Azərbaycanda Milli hərəkat
Национальное движение в Азербайджане
Bakı, "Elm" nəşriyyatı, 2009

Kitabda "Voprosı istorii" ("Tarix məsələləri") jurnalının 2002-ci il 2-ci sayında çap olunmuş M.Ə.Rəsulzadənin 1933-cü ilin noyabrında yazmış olduğu "Azərbaycanda milli hərəkat" əsəri və müəllif barədə irihəcmli "Məhəmməd Əmin Rəsulzadə" məqaləsi təqdim olunur.

Üzeyir Hacıbəyli
Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri.
I hissə, Bakı, "Elm" nəşriyyatı, 2009
Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

Kitabda Üzeyir Hacıbəylinin 1904-1912-ci illərdə "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında dərc edilmiş, bu vaxtaqədərki nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri toplanmışdır.

Üzeyir Hacıbəyli
Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri.
II hissə, Bakı, "Elm" nəşriyyatı, 2010
Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

Kitabda Üzeyir Hacıbəylinin 1915-1917-ci illərdə "Yeni İqbal", "Sovqat", "Açıq söz", "Doğru söz", "İttihad" qəzetlərində dərc edilmiş mətbu əsərləri top-

lanmışdır. Bu yazıların bir qismi onun əsərlərinin biblioqrafiyasında, "Həyat və yaradıcılıq salnaməsi"ndə və ensiklopediyasında belə göstərilməmişdir. Kitabda həmçinin 1918-ci il noyabrın əvvəllərində "Azərbaycan" (rus dilində) qəzetində dərc olunmuş "Pisma o Persii" sərlövhəli çox mühüm bir əsəri də daxil edilmişdir.

İstiqlal
1918-28 Mayıs-1919
Bakı, "Qanun" nəşriyyatı, 2014

Məcmuə çoxminillik dövlətçilik tariximizdə ilk dəfə "Azərbaycan" adlı dövlətimizin bir yaşının tamam olması münasibətilə 1919-cu il Mayın 28-də işıq üzü görmüşdür. Cəmi 4 ildən sonra Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Müstəqil Cümhuriyyətimizdə bayram edəcəyik. Bu məcmuəni həmin yubileyə hazırlığın ilk töhfəsi hesab edin! Bir yaş – 100 yaş! 100 yaşın töhfələrini görmək arzusu ilə – Şirməmməd Hüseynov

M.Ə.Rəsulzadənin Bakı və Azərbaycan tarixinə dair əsərləri (1918-1919). Bakı, "Qanun" nəşriyyatı, 2013

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, ön sözün müəllifi və lüğətin tərtibçisi: Şirməmməd Hüseynov

M.Ə.Rəsulzadənin oxuculara təqdim etdiyimiz bu kitabına onun Bakı və Azərbaycan tarixi ilə əlaqədar Cümhuriyyətin varlığının ilk ilində yazdığı əsərləri daxil edilmişdir. Onlardan biri Bakı hələ azad edilməmişdən, 1918-ci ilin sentyabrından əvvəl İstanbulda nəşr olunan "Tərcümani-həqiqət" qəzetində Bakı ilə əlaqədar verdiyi bəyanat, 1918-ci il noyabrın əvvəllərində İstanbuldan vətənə döndükdən sonra, 1918-ci il dekabrın 2-dən başlayaraq "Azərbaycan" qəzetində "Azərbaycan paytaxtı" sərlövhəsi ilə dərc olunan elmi araşdırmaları, habelə müstəqil dövlətimizin Azərbaycan adlanması ilə əlaqədar İran iddialarına cavab olaraq yazdığı "İran və biz", "Azərbaycan və İran", "İran-Azərbaycan" sərlövhəli məqalələri, həmçinin Cümhuriyyətin bir illiyi ilə əlaqədar "İstiqlal" məcmuəsində dərc olunmuş "Azərbaycan Cümhuriyyəti" adlı əsəri daxil edilmişdir.

Zənnimizcə oxucular üçün faydalı olacaqdır.

Həqiqət və ədalət carçısı.
Bakı, Azərnəşr, 1988

Kitab Azərbaycan mətbuatı tarixinin bu vaxtadək az öyrənilmiş 1903-1907-ci illər dövrünün tədqiqinə həsr edilmişdir. Müəllif geniş ədəbiyyat, zəngin faktik material və tarixi sənədlərə istinad edərək Azərbaycanda yeni tipli mətbuatın yaradılması üçün vacib olan obyektiv və subyektiv amilləri nəzərdən keçirir, "Hümmət" təşkilatının nəşr etdiyi ilk vərəqə, intibahnamə və mətbuat orqanlarını geniş təhlil edir.

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

ŞİRMƏMMƏD HÜSEYNOV HAQQINDA KİTABLAR

İstiqlalın işığında (Professor Ş.Hüseynovun 90 yaşına). Bakı, "Zərdabi LTD" MMC, 2014

Kitabda görkəmli pedaqoq, mətbuatımızın əvəzedilməz tədqiqatçısı, publisist, professor Şirməmməd Hüseynovun həyatı, ictimai fəaliyyəti barədə Azərbaycanın elm və ictimai xadimlərinin məqalələri və müxtəlif fikirləri toplanmışdır. Kitab Ş.Hüseynovun nəsillərə örnək olan elmi və publisistik yaradıcılığının təhlili baxımından Azərbaycan elmi mühiti və praktik jurnalistləri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Rafael Hüseynov. Millət yaddaşının keşikçisi. Bakı , "Elm və təhsil" nəşriyyatı, 2018

Görkəmli pedaqoq, publisist, mətnşünas, milli mətbuat tarixinin misilsiz araşdırıcısı Şirməmməd Hüseynov uzun ömrü boyu layiq görüldüyü çoxlu təltif və mükafatların sırasında "Qızıl qələm" də var. Əslində qızıl qələm ifadəsi və anlayışı bu mükafatsız da Şirməmməd müəllimin bütün yaradıcılığına aid edilə bilər. O, Azərbaycan istiqlal tarixinin qızıl səhifələrini və parlaq şəxsiyyətlərini dərindən öyrənərək bütövlüyü ilə xalqa təqdim etmək yolunda genişmiqyaslı fəaliyyət göstərir. Araşdırmaları və nəşrləri ilə o, Həsən bəy Zərdabi, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və digər millət fədailərinin şəxsiyyəti və irsinin daha yaxşı tanınması və bilinməsi üçün mötəbər təməllər yaratmış, cümhuriyyət dövrü milli parlamentimizin şanlı səhifələrini müasir və gələcək nəsillərə çatdıran qiymətli kitablar silsiləsi doğurmuşdur. Azərbaycanın elmi və ədəbi mühiti, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab tanınmış alim və pedaqoq, Əməkdar jurnalist, professor Şirməmməd Hüseynovun ömür və yaradıcılıq yoluna həsr edilir.

Şirməmməd Hüseynov. Biblioqrafiya.
Tərtib edənlər: Aygün Qubad qızı Əzimova,
Samir Xalid oğlu Mirzəyev

Biblioqrafiyada Bakı Dövlət Universiteti Jurnalistika fakültəsi Mətbuat tarixi kafedrasının professoru, Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Prezident təqaüdçüsü, "Qızıl qələm" və Birinci dərəcəli Ali Media mükafatçısı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun həyatı, elmi-pedaqoji və ictimai fəaliyyəti barədə materiallar toplanmışdır.

"Sizdən bir də olmayacaq" Əlvida. Bakı, 2019
Tərtib edəni: Ülkər Hüseynova

Hələ sağlığında canlı əfsanə, ləyaqət mücəssəməsi, jurnalistikamızın patriarxı, mətbuatşünaslıq elminin babası, Azərbaycan mətbuatının pərvanəsi, ay-

dın görünən aydın, təqaüdünü millətə xərcləyən kişi, jurnalistikamızın sərkərdəsi, mərdlər içərisində mərdliyi ilə seçilən insan, dövrün, zamanın salnaməsi, dövrümüzün Zərdabisi, talisman, istiqlal işığı, müasir Rahmetovlardan biri və s. kimi tanınan Şirməmməd Hüseynovun vəfatı Azərbaycanda bu gün nəşr olunan mətbuat orqanlarının səhifələrində çox geniş işıqlandırıldı.

İyun ayının 25-dən başlayaraq, bir neçə gün qəzetlərimizdə, internetdə, televiziya kanallarında Şirməmməd Hüseynova məhəbbətini bildirənlər Cümhuriyyət adamı haqqında yeni sözlər yazdılar, həmkarları, tələbələri onlar üçün də çox ağır olan bu itkini xalqımızla bölüşmək üçün ürək sözlərini yazdılar, internet səhifələrində bölüşdülər. Kitabda həmin yazıların bir qismi toplanmışdır.

Ramiz Orsər. "Haqqın səsi". Bakı, "Elm və təhsil", 2019

Kitabda milli-mənəvi irsimizin görkəmli tədqiqatçısı, əsərlərində tarixi yaddaş problemlərini daim öndə saxlamış, xüsusən Azərbaycan Cümhuriyyəti ilə bu gün arasında mənəvi körpü yaratmış böyük alim və publisist professor Şirməmməd Hüseynovun həyat və yaradıcılığı haqqında söhbət açılır.

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

ŞİRMƏMMƏD HÜSEYNOV JURNALİSTLƏRİN XATİRƏLƏRİNDƏ

Nadir ziyalılarımızdan biri

Məndə Şirməmməd Hüseynovla bağlı ilk unudulmaz təsəvvürü 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) jurnalistika fakültəsində oxuyan və o vaxt bizimlə eyni yataqxanada qalan tələbə dostlarımız yaradıb. Biz – filologiya fakültəsinin tələbələri oturub-durub Bəxtiyar Vahabzadə, Abbas Zamanov kimi müəllimlərimizdən danışanda jurnalistika fakültəsinin tələbələri daha çox Şirməmməd müəllimdən danışırdılar. Keçilən dərsə, oxunan mühazirəyə "qulp qoymağı" xoşlayan, ətrafda baş verən hadisələrə nihilistcəsinə yanaşan gələcək jurnalistlər və filoloqların Bəxtiyar Vahabzadə, Abbas Zamanov və Şirməmməd Hüseynov kimi müəllimlərə xüsusi hörmət və ehtiram bəsləməsi təbii idi; bu müəllimlər auditoriyada "xatalı" suallara cavab verməkdən çəkinmirdilər, nihilist tələbələrin ürəyincə olan ana dili, milli varlıq, milli mənafe və s. kimi məsələlərə imkan daxilində toxunmağı özlərinin vətəndaşlıq borcu bilirdilər.

Şirməmməd Hüseynovla bağlı ilk və unudulmaz təsəvvürüm sonralar onun elmi-pedaqoji fəaliyyətini izləməklə daha da dolğunlaşdı. Atdığı addımlara, yazdığı əsərlərə baxıb bir daha inandım ki, Şirməmməd Hüseynov sovet dövründə Azərbaycan Xalq Cümhuriyyəti ilə bugünkü dövlət müstəqilliyimiz arasında mənəvi körpü rolunu oynayan, milli istiqlal atəşinin ürəklərdə öləziməsinə imkan verməyən nadir ziyalılarımızdan biridir.

Muxtar KAZIMOĞLU,
akademik, AMEA Folklor İnstitutunun direktoru

Qaranlıqdan görünən bir ovuc işıq

Cəmi 23 ay yaşamış bir dövlətin, onun ideoloji əsaslarının, təməl prinsiplərinin qan yaddaşımıza, genetik kodlarımıza həkk olunmasının, nəsildən-nəslə ötürülməsinin sirrini uzun müddət çözə bilməmişəm. Hələ kiçik yaşlarımdan mavi, qırmızı, yaşıl rənglərin harmoniyası mənə rahatlıq gətirirdi. Rəsm dəftərimdə bu üç rəng həmişə dominantlıq edirdi – təbiət mənzərəsindən başlamış, insan portretinə qədər...

1988-ci ildə, 21 yaşımda, "Azadlıq" marşını, İstiqlal bayrağımıza xitabən "Qalx ayağa millət, boğmasınlar səsimizi, Bir bayraq altında birləşdir bizi" söz-

lərini yazanda da Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, ilk dünyəvi dövlətimizin tarixi, onun dövlət atributları, məfkurəsi haqqında böyüklərimin qorxa-qorxa danışdığı, uşaqlıq xatirələrimin toranlığından boylanan bir neçə kəlməlik tarixçədən başqa heç nə bilmirdim.

Hətta düşündüyümdə belə içimi saran, qanımı oynadan Cümhuriyyət sevdasının səbəbini anlaya bilmirdim... Şirməmməd Hüseynovu tanıyanadək.

Şirməmməd Hüseynov Cümhuriyyətlə aramızdakı canlı bağlardan biri idi... Tanrı xalqımızı çox sevdiyi üçün onu 95 il yaşatdı. Tanrı Şirməmməd Hüseynovu çox sevdiyi üçün ona Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini görməyi nəsib etdi...

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin, işıqlı ideyalarının daşıyıcısı kimi şərəfli bir missiyanın canlı əfsanəsini – Şirməmməd Hüseynovu daha yaxından Mirşahin Ağayevin "Milli Metr" layihəsindən tanımışam və həmin proqramın "Şirməmməd Hüseynov" buraxılışı bugünədək kompüterimin yaddaşındadı. Hər dəfə CÜMHURİYYƏT DƏRSİ almaq istəyəndə təkrar izləyirəm.

...Məni yaxından tanıyanlar Şirməmməd müəllimin çıxışlarını telefonumun yaddaşına köçürdüyümü yaxşı bilirlər. Onun hər kəlməsini necə heyranlıqla, nəfəs almadan, göz qırpmadan dinlədiyimi də həmçinin...

Onu hər dəfə görəndə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini seçmədiyimə görə özümü lənətləyirdim. Amma sonradan anladım ki, Şirməmməd Hüseynovun tələbəsi olmaq heç də önəmli deyil... Önəmli olan Böyük Ustadı öz müəllimin hesab etmək, daşıdığı dəyərləri düşüncənə, atdığın hər addıma daşımaq, onun işıqlı zəkasından doğan ideyaların tələbəsi, müridi olmaqdır.

Mənim üçün Şirməmməd Hüseynov, böyük Mövlananın sözləri ilə desək, olduğun kimi görünməyin, göründüyün kimi olmağın az-az rast gəlinən, bu forma və məzmunun vəhdəti ilə simvolizə olunan nümunələrindən biridir!

Mənim üçün Şirməmməd Hüseynov Azərbaycan Xalq Cümhuriyyətinin işıqlı ideyalarını, İstiqlal məfkurəsini, milli zadəgan əxlaqını öz işıqlı zəkasında daşıyaraq istibdad dönəminin dolanbaclarından keçirən, bir müəllim kimi səbrlə, təmkinlə, inadla ilk cümhuriyyətimizin şərəfli mirasının dərk və qəbul olunmasına çalışan və son nəticədə bunu bacaran BÖYÜK AZƏRBAYCANLIDIR!

Mənim üçün Şirməmməd Hüseynov qaranlıqdan görünən bir ovuc işıqdır – azdığın bütün istiqamətlərdən səni özünə doğru çəkəcək. Təbii ki, əgər sən özün bunu istəsən!

Elçin MİRZƏBƏYLİ,
Mətbuat Şurası İdarə Heyətinin üzvü

Böyük mükafat...

Əvvala onu qeyd edim ki, "Azərbaycanın böyük müəllimi" olan, professor Şirməmməd Hüseynov haqqında "ləyaqəti, əqidə və məsləki ilə sevilən, seçilən şairimiz" Bəxtiyar Vahabzadədən, görkəmli və dəyərli alimlərimiz Şamil Qurbanovdan, Famil Mehdidən, Cahangir Məmmədlidən, Qulu Xəlilovdan, Nə-

sir Əhmədlidən, Yalçın Əlizadədən, Abid Tahirlidən sonra söz demək böyük məsuliyyətdir. Ona görə də bu məqaləmdə "ömrünü mətbuata xərcləyən" Şirməmməd müəllimlə bağlı xatirələrimdən bəhs etmək istərdim.

Şirməmməd müəllimlə ilk dəfə auditoriyada görüşdüm. Partiya mətbuatı tarixindən dərs deyirdi. (Sonralar dərk etdim ki, o bizə yalnız jurnalistikanın sirlərini öyrətmədi, həm də milli mətbuatımızn tariximizdə və taleyimizdə oynadığı rolu, iftixar edə biləcək səhifələrini öyrətdi). Mən də minlərlə tələbələrindən biri idim. Axırıncı kursda diplom işi yazmaq üçün mövzu götürdüm. Rəhbərim Şirməmməd müəllim oldu. Mövzum 20-ci yüzilliyin əvvəlləri Azərbaycanda çap olunan dövri mətbuatla bağlı olduğu üçün Şirməmməd müəllim məni ilk dəfə Marksizm-Leninzim İnstitutunun arxivinə (səhv etmirəmsə, o zaman adı belə idi, indi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi-Siyasi Sənədlər arxivi adlanır) apardı. Beləliklə, bir neçə ay dərsdən sonra arxivə gedərək mövzumla bağlı material topladım və bir gün elmi işimi yekunlaşdırıb Şirməmməd müəllimə təqdim etdim. Doğrusunu deyim ki, həmin an keçirdiyim hiss, həyəcan bu gün də yadımdan çıxmayıb, nədənsə o zaman əksər tələbə ona yaxınlaşmağa cəsarət etməzdi.

Bir neçə aydan sonra müdafiəyə gəldim. Həyəcanım birə-beş artmışdı. Müdafiə komitəsinin sədri Azərbaycan Jurnalistlər Birliyinin sədri Hacı Hacıyev idi. Kürsüyə qalxdım. Mövzum haqqında yenicə məlumat vermək istədim ki, Şirməmməd müəllim üzünü Hacı müəllimə tutaraq dedi: "Hacı, bu iş xoşuma gəldi. Gələcəkdə davam etdirsə çox yaxşı olar. Mən işi əla qiymətləndirirəm!". Hacı müəllim məmnun halda "əgər belədirsə, mən Sizinlə həmrəy".

Min bir həyəcanla, tələşlə keçirdiyim 4-5 ay, 4-5 dəqiqəyə qiymətləndirildi; Əla! Bu mənim üçün böyük mükafat oldu!

Qərənfil DÜNYAMİNQIZI,
Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının dosenti

Banilərin sırasında...

Zənginliyin çox göstəricisi, işartısı var. Müxtəlif yanaşmalarda onlar şaxələnir, bir mətləbdən digərləri boylanır. Ən çətin məsələ isə əsas cəhəti önə çıxarmaqdır.

Şirməmməd müəllimin təcrübəsi və timsalı düşüncələrdə elə rəngarəng vəziyyət yaradır ki, istər-istəməz "bu çətin məsələdir" qənaətinə gəlirsən. Amma elə keyfiyyət göstəriciləri var ki, onlar təməl rolunu oynayır.

Yaxşı yadımdadır, Şirməmməd müəllim tələbələrlə işləyərkən mühazirədən çox dialoq formatına söykənirdi. Sovet dövründə universitet aləmində bu, son dərəcə nadir və hətta unikal hal idi. Ustadın rahat, sərbəst ünsiyyət tərzi olduqca ürəkaçan atmosfer yaradırdı və fikrini bildirəndən sonra dərhal əks reaksiyalar başlayırdı. Bu, əsl demokratiyanın təzahürü idi.

70-80-ci illərin kəsişməsində belə metodikaya üstünlük verən müəllimlərimizin sayı bir əlin barmaqları qədər olsa da, həm gələcəyə ümid körpüsü, həm

də cəsarətliyin göstəricisi idi.

Şirməmməd müəllim bütün tədris boyu hər tələbə barədə ayrı-ayrılıqda öz fikrini toplayır, ona görə də imtahan onun üçün formal prosedura çevrilirdi. Halbuki bunu heç kəs deyə bilməzdi. Məsələlərə olduqca məsuliyyətlə yanaşan Ustad heç vaxt formallığa varmazdı.

O, universitet divarlarında əvvəlcə vətəndaş, sonra isə jurnalist yetişdirirdi. Bu da onun daxili mənəvi aləminin sərhədsizliyindən irəli gəlirdi.

Mənən zəngin adamlar həmişə dəyərli tərəf-müqabil axtarışında olur, qarşısındakı əgər uşaq olsa belə. Çünki onlar üçün insanda mənəvi sütunun olması hər şeydən üstündür. "Sən jurnalist olmaya da bilərsən, amma layiqli vətəndaş olmağa borclusan" məfkürəsi Ustadın müəllimlik missiyasında başlıca yer tuturdu.

Ustadın pafosdan uzaq olması üstün cəhətlərindən idi ki, bu da onu cəmiyyətdə fərqləndirirdi, kütlənin parçası deyil, üzdə olan fərdinə çevirirdi. Kommunist dövrü üçün bu cəhət xüsusilə əhəmiyyətli idi, çünki SSRİ-də "uravnilovka" deyilən standart vardı. Ona etinasız yanaşanları, uyğun olmayanları ya damğalayırdılar, ya da ictimai proseslərdən təcrid edirdilər.

Yalnız Şirməmməd müəllim kimi dərin zəka sahibləri özlərini çirkin oyunlardan, kommunizm dövrünün dəbdəbəli dəstəkləmə kampaniyalarından uzaq durmağı bacarırdılar.

Bu qəbildən olan nəhənglər heç vaxt vakuuma məruz qalmırdılar. Onların daxili aləmi həmişə dolğun və mübarizə enerjisi ilə döyünürdü. Söhbət vətəndaş cəhbəsinin mücahidlərindən gedir.

Hələ Sovet sisteminin çökməsindən heç əsər-əlamət olmadığı vaxtda Şirməmməd müəllim silahdaşı və həyat yoldaşı Ülkər xanımla SSRİ Jurnalistlər İttifaqının xətti ilə Türkiyəyə səfər edərkən Ankarada qrupdan məharətlə ayrılaraq qardaş ölkənin paytaxtındakı "Cebeci Asrı" məzarlığına yollanıb, Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin məzarını ziyarət etmişdilər. Əlbəttə, səfərdə olanların hamısına KKB məmurları göz qoyurdu, ancaq bu, heç nəyi dəyişə bilməzdi. Məzarlığa ziyarət olmalı idi və oldu!

Azərbaycan müstəqilliyini bərpa etdi və bəziləri dərhal mübarizlik imitasiyasına vararaq, özlərini Məhəmməd Əminin varisi sayaraq addımlar atmağa başladılar. Proses Şirməmməd müəllimin gözləri önündə cərəyan edirdi. Heç ola bilərdi ki, Ustad baş verənləri diqqətdən kənarda saxlasın? Əlbəttə, yox, amma onun münasibəti yenə pafosdan uzaq, alicənab və tarixi idi.

Özünü ölkədəki kitabxanaların könüllü dustağına çevirmiş Ustad milli mücadilə səngərini tərk etməyib sırada qaldı. Şirməmməd müəllim mübarizədə həlledici rol oynayan milli ideyanın ən öncül təbliğatçısına, yeri gələndə qalxanına çevrildi, Vətən təəssübü necə çəkilər sualı qarşısında tarixi nida oldu.

Ustad Azərbaycan Xalq Cümhuriyyətinin banilərinin, ölməz Üzeyir bəyin, bütün klassiklərimizin itirilmiş sayılan irsinə yeni həyat verdi.

Desəm ki, Şirməmməd müəllim milli tarixin zühurunu öz üzərinə götürdü, yanılmaram. Çünki o, yalnız özünün, müasirlərinin deyil, bir neçə nəslin mənəvi borcunu təkbaşına çiyinlərində daşıdı, bu ağır tarixi missiyanın öhdəsindən fenomenal şəkildə gəldi.

Klassiklərin davamçısı, xalq hərəkatı ideyasını həmişə ürəyində yaşadan Ustad tək müəllim deyil, özünü həm də vətəndaşlıq universitetinin parlaq siması kimi təsdiqlədi. Onu ucaldan tək savadı, bilik və intellekti, orijinal yanaşmaları, ideya zənginliyi deyildi, bu işdə möhtəşəm tarixi işləri səssiz-səmirsiz üzərinə götürüb ustalıq və məharətlə həyata keçirməsi həlledici oldu.

Budur pafosdan uzaq faydalı işlərə rəvac vermək!

Tarix bizə qədər olub və bu gün də davam edir. Onun nəbzini tutmaq faydalı olduğu qədər də son dərəcə məsuliyyətlidir. Çünki nəbzin döyüntüsüdür müasirləri həyat yollarında istiqamətləndirən.

Əgər bu elmdirsə, onun adı tarixi yaşayıb yaşatmaqdır. Çox şərəfli missiyadır banilərin cərgəsində olmaq. Şirməmməd müəllim də oradadır – banilərin sırasında...

Tofiq ABBASOV,
politoloq

Əbədiyaşar böyük insan!

Bir tələbənin öz müəllimi haqqında danışmağa həmişə sözü olur. Əgər o müəllim qeyri adi insan, böyük əməl və düşüncə sahibidirsə onda təkcə xatirələr təzələnmir, qəlbimizin dərinliyində əbədiləşən sevgi və məhəbbət hissi bizi yenidən duyğular aləminə aparır. Şirməmməd müəllim hər bir tələbəyə doğma bir insan idi. Biz onun simasında həyata baxışlarımızı dəyişmişik, vicdanlı, səmimi olmağı, mübarizliyi öyrənmişik. Şirməmməd müəllim Azərbaycan jurnalistikasında məktəb yaradan bir ustad idi. Onun hər sözü, hər fikri tələbələrinin düşüncəsində dəyişikliklər yaradır, jurnalistika peşəsinə bağlılığı artırırdı. Təbii ki, hələ gənc yaşlarımızda biz Şirməmməd müəllimi prinsipial bir dekan, olduqca məntiqli danışığa malik bir müəllim kimi tanıyırdıqsa zaman keçəndən sonra başa düşdük ki, Şirməmməd müəllim Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabidən sonra mətbuatımızın tarixində ən yüksək mərtəbəyə ucalan ikinci bir dahi ustadımız imiş. Şirməmməd müəllimin Azərbaycan Xalq Cümhuriyyətinin, mətbuat tariximizin cəfakeş və yorulmaz tədqiqatçısı kimi gördüyü işlər ölçüyəgəlməz fədakarlığın bir nümunəsidir.

BDU-nun 100 illik yubiley tədbirində BDU tarixində qalan professor-müəllim heyətinin şəkilləri içərisində əziz müəllimimiz Şirməmməd Hüseynovun şəklini görmək də bizim üçün qürurverici idi. O, tələbələr üçün sadəcə bir müəllim deyildi, tələbələrin böyük hamisi, savadlı tələbənin yol göstərən mayakı, haqq-ədalət mücəssəməsi idi. Universiteti bitirməyimizdən 40 il keçməsinə baxmayaraq biz onu daim xatırlayır, fürsət düşdükcə onunla görüşür, müdrik yaşındakı odlu-alovlu çıxışlarını, müsahibələrini nəfəs dərmədən dinləyirdik. Çünki, Şirməmməd müəllim hər dəfə yeni bir söz deyir, yeni fikirlər söyləyir, öz dedikləri ilə də jurnalistikamıza yeni nəfəs, yeni ab-hava gətirirdi.

Şirməmməd müəllim Azərbaycançılıq ideologiyasının alovlu tədqiqatçısı

idi. O, bizim milli ruhda, ləyaqətli jurnalist kimi yetişməyimizdə, tələbələrdə milli təəssübkeşlik, azadfikirlilik, yaradıcılıqda obyektivlik kimi keyfiyyətlərin formalaşmasında əvəzsiz rol oynayıb.

O, Cümhuriyyətimizin qurucularının fəaliyyətini məqalələrində, monoqrafiyalarında yorulmadan tədqiq edirdi. Nə yaxşı ki, Xalq Cümhuriyyətinin 100 illiyini görmək ona nəsib oldu. Şirməmməd müəllim cismən bu gün aramızda olmasa da ruhən hər zaman bizimlədir. O, əbədiyyətə qovuşdu. Şirməmməd müəllimin yeri jurnalistikamızda və tariximizdə həmişə görünəcək.

İbrahim İBRAHİMOV,
"Zaqatala" qəzetinin redaktoru

Elmira MEHDİYEVA,
"Zaqatala" qəzetinin redaktor müavini,

Şirməmməd müəllimi xatırlarkən...

...Qələmi əlimə götürüb fikirləşirəm. Hardan, nədən başlayım? Düşünürəm, Şirməmməd Hüseynov haqqında nə yazmaq olar ki, ona layiq olsun. Nəhəng insan haqqında yazını oxuyandan sonra onu tanımayanlar biz tələbələr üçün doğma saydığımız əziz müəllimimizin necə bir şəxsiyyət olduğunu açıq-aydın görə bilsinlər.

Şirməmməd müəllim haqqında, onun mətbuat tariximizdə xidmətləri barədə çox yazırlar. Qərara gəldim ki, bu mövzuya toxunmayım. Odur ki, yaddaşıma ilişib qalan bir xatirəni qələmə almaq qərarına gəldim. Diqqətli oxucu üçün bu xatirədə hər şey var. Müəllim şəxsiyyəti də, tələbəyə məhəbbət də, orta məktəb partasından yenicə ayrılıb gələn, gələcəyə böyük ümidlərlə baxan gənclərə inam da...

Şirməmməd müəllim bizə mətbuat tarixindən dərs deyirdi. Onun oxuduğu mühazirələrə qulaq asmaqdan doymazdıq. Elə maraqla danışırdı ki, elə maraqlı söhbətlər edirdi ki, dinləməkdən həzz alırdıq. Gizlətmirəm, Şirməmməd müəllim xaraktercə ciddi adam idi və ondan əməlli-başlı çəkinirdik.

Nə isə, semestrin sonu gəldi və biz mətbuat tarixindən yoxlama verəsi olduq. Şirməmməd müəllim həmişəki qaydada ağır addımlarla auditoriyaya daxil oldu, üzünü biz tələbələrə tutub dedi: "Kim yoxlamaya hazırdısa əlini qaldırsın". Hamımızın ürəyi düşdü. Çünki, belə bir sualı heç bir müəllim bizə verməmişdi. Auditoriyaya sükut çökmüşdü. Şirməmməd müəllim sualı bir də təkrar elədi. Dönüb ətrafa baxdım. Hamı əlini qaldırmışdı. Və təbii ki, mən də əlimi qaldırdım. Amma, tələbələrin ürəyindən nə keçdiyini gözlərindən oxuyan, bu gün də bizə dərs deməsi ilə fəxr etdiyimiz Şirməmməd Hüseynov çoxlarının yalandan əlini qaldırmasını hiss etdi. Və məhz buna görə universitetdə baş vermiş bir hadisəni söylədi. Söylədi ki, universitetin hansısa kafedra müdirlərindən biri kəsilən, göndəriş alan tələbələrdən təkrar imtahanı özü götürərmiş. Tələbə bilet çəkəndən sonra onu otaqda tək qoyan professor düşüb aşagı mərtəbədə yerləşən yeməkxanada çay içərmiş. Bu fürsəti əldən verməyən tələbə isə rahatca kitabdan köçürər və müəllimə cavab verərmiş. Tələbənin gözəl cavabını eşidən professor təəccüblənər və deyərmiş: Mənim müəllimlərim

nə qədər vicdansızdılar, heç belə tələbəni də kəsmək olar?: Ölən günə qədər həmin kafedra müdirini inandıra bilməyiblər ki, sən aşağı yeməkxanaya düşəndə tələbə kitabdan köçürür. Belə deyənlərə professorun bir cavabı var imiş. Deyərmiş: "Mən inanmıram ki, tələbələrim məni aldatsınlar".

Bu əhvalatı danışan Şirməmməd müəllim üzünü bizə tutub: "cəsarətinizdən xoşum gəldi", – dedi, "Mən də bu gün inanmaq istəmirəm ki, siz məni aldadırsınız. Odur ki, yoxlama kitabçasını verin, hamınıza soruşmamış qiymət yazacam".

Bu da müəllim kimi professional olan Şirməmməd Hüseynovun böyüklüyü, ucalığı. Aradan illər keçib. Xeyli yaşlaşmışıq. Amma, o, bizim gözümüzdə, yaddaşımızda bax belə qalıb...

İlqar HƏSƏNOV,
Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin 1981-ci il məzunu

Nəsillərə örnək bir müəllim haqqında söz

Yaşasaydı ömrünün 95-ci qışında olardı Şirməmməd Hüseynov. Bütöv bir ömür yolu olan böyük Azərbaycan mütəfəkkiri, Azərbaycanın yeni dövr jurnalistikasının parlaq siması. Bu ömür yolunda elə bir an, elə bir gün yoxdur ki, O, gördüyü işin, etdiyi əməlin qarşısında hesabatlı olmasın. Xalqının, millətinin, dövlətinin qarşısında başını dik tutan, məfkurəçi bir şəxsiyyət. Əsl Azərbaycan kişisi. O, Cümhuriyyət irsini, xalq azadlıq mücadiləsi dövrünü, jurnalistika tarixini, istiqlal mübarizlərinin ictimai-siyasi görüşlərini, milli məfkurəni dərindən araşdıran bir alim, bir pedaqoq idi. Azərbaycan ictimai fikir tarixində xüsusi yeri olan Şirməmməd müəllimin müasir dövrün milli məfkurəsinin formalaşması üçün bəyan etdiyi fikirlər, araşdırmalar və zəngin ömür yolu illər uzunu müstəqillik tariximizin şanlı səhifəsinə yazılacaq. O, "cümhuriyyətçilərlə oturub durmaqdan" usanmayan, onların həyat fəaliyyətini araşdırmaqdan yorulmayan bir tarixçi jurnalist idi. Təkcə millət, xalq, bəşər haqda söylədiyi fəlsəfi fikirlər, geniş elmi təhlillərin, araşdırmaların aparılması üçün bir ip ucudur, başlanğıcdır. Onun yaradıcılıq fəlsəfəsinin qayəsində Azərbaycan xalqının varlığını, onun dünya xalqları arasındakı mövqeyini səciyyələndirən cəhətlər dayanır. Xalqımızın harda bir ağrı-acısı oldusa, orda onun yarasına məlhəm olan bir Şirməmməd Hüseynovu gördük. O, xalqın maarifpərvər ziyalısı, ədalətsizliyə qarşı barışmaz bir haqq adamı idi. Tale elə gətirdi ki, onunla ömrünün son illərində sıx-sıx ünsiyyətdə oldum. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində keçirilən sonuncu yubileyində də iştirak etdim. Onun milli məfkurə, vətənpərvərlik, azərbaycançılıq mövzusunda çıxışı, müqayisəli təhlili nəsillərə bir örnəkdir. Şirməmməd Hüseynov yaşamaq, çalışmaq, yaratmaq və həyat eşqi bitib tükənməyən bir insan idi. Sözünün dürüstlüyü, milli xarakteri, mütəfəkkir düşüncəsi onun yaradıcılığının qayəsini təşkil edir. Bu böyük ziyalı ilə münasibətlərimin qurulmasında, Şirməmməd Hüseynovun şagirdi, jurnalistikamızın böyük müəlli-

mi, yaradıcılığı ilə qürurlandığımız, Cahangir müəllim Məmmədliyə minnətdaram. Bu gün minlərlə insan onun jurnalistika fakültəsində dərs dediyi auditoriyasında olmadan belə Şirməmməd Hüseynovu özünə müəllim hesab edir, ustad bilir. Mən də onlardan biriyəm. O, həm də mənim ustadımdır.

Umud MİRZƏYEV,
Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti

Jurnalistikamızın Şirməmməd Hüseynov dərsləri

Ömrünün 95-ci ilində yurd sevgisini və jurnalistika sahəsində qiymətli irsini tələbələrinə və ardıcıllarına əmanət edərək Haqq dünyasına qovuşan professor, məfkurə ustadı Şirməmməd Hüseynovun adı professional jurnalistikamızın ən dəyərli və nüfuzlu xadimlərinin sırasında həmişəlik yer aldı.

Şirməmməd müəllim Yaradanın ona bəxş etdiyi sağlam ruh və saf imanla, Əcdadlarından gəlmə sabit və təmiz kimliklə, Həyatda qazandığı faydalı bilik və bacarıqla yalnız göründüyü kimi oldu, axıradək də olduğu kimi göründü. Düz 80 il davam etmiş ictimai-məfkurəvi bir bioqrafiya göstərir ki, Şirməmməd müəllim dünyaya təhsili və jurnalistikanı, müəllimliyi və jurnalistliyi bənzərsiz bir ahəngdarlıqla qovuşdurmaq missiyasını ləyaqət və çalışqanlıqla yerinə yetirmək üçün gəlibmiş.

Milli jurnalistikamızın xəlqi özəlliyi və məfkurə mübarizəsi fonunda professor Şirməmməd Hüseynovun tale yolu işıqlı, mənalı və cazibəli bir örnək biçimində seçilir. Anadilli jurnalistikamız aşağıdan-xalqın ictimai düşüncə tələbatını cavablandırmaq zərurətindən qaynaqlandığı kimi, Şirməmməd Hüseynovun müəllim-jurnalist taleyi də məhz jurnalistikamızın əzəli milli idealını yaşatmaq və kama çatdırmaq ehtiyacı ilə yönlənmişdir. Böyük Həsən bəy Zərdabi kimi, ustadımız Şirməmməd Hüseynov da jurnalistika aləminə müəllimlikdən-xalqa gərək olan bilik və bacarıqları daha böyük auditoriya olan mətbuat vasitəsilə çoxluğun duyğu-düşüncələrə çatdırmaq amalı ilə gəlmişdir.

Professor Şirməmməd Hüseynovun 1 əsrə yaxın mənalı ömrünün, ali jurnalistika təhsili və aspirantlıq illərini də götürsək, 75 ili professional jurnalistikamızın ən yaxşı ənənələrinin yaşadılıb-zənginləşdirilməsi ilə bağlı olmuşdur. O, milli jurnalistikamızın son iki epoxasında-- kommunist jurnalistikası daxilində milli təmayülün qorunub saxlanmasına və müstəqillik ərəfəsindən başlayaraq ömrünün sonunadək demokratik mətbuatın əsaslarının dirçəldilib möhkəmləndirilməsinə bacardığı qədər kömək etmiş və təkan vermişdir.

Bütün bunlar Şirməmməd Hüseynovun xalqın böyük kişilərinin yolu ilə gedərək cəmiyyətdə formalaşdırdığı və birmənalı qəbul edilən şəxsi-ictimai kimliyinin ümumi görüntüləridir. Bəs onun minlərlə yetirmələrindən, milyonlarla heyranlarından və sayı daim artan davamçılarından biri olaraq nə demək olar?

1977-ci ilin sentyabrında Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qədəm basan I kurs tələbəsi kimi mənim və qrup yoldaşlarımın bu divarlar

arasında ilk ciddi bilgilərimizdən biri burada Şirməmməd Hüseynov kimi "öz prinsipləri olan", "tələbənin savadsızlığına və avaralığına dözməyən", "ədalətsizliyi, saxtakarlığı, əyintiləri qəbul etməyən", "düzlüyü və doğrunu sevən", "bilik-bacarığı olan, çalışqan köməksizə arxa-dayaq oan", "heç kəsin yanında gözükölgəli olmayan", "yuxarıların konyuktur xahişlər etməyə çəkindiyi" bir müəllim barədə yuxarı kurs tələbələrinin yaratdığı əfsanələrlə və bu "səddi" aşa bilməyin heç də asan olmadığı barədə xəbərdarlıqlarla çevrələnmişdi.

Tezliklə görmüşdük ki, yaxşı tələbə Şirməmməd müəllimin gözünün işığıdır. O da məlum olmuşdu "çətin" müəllim istedadlı və yurdsevər gəncliyi öz balası qədər istəyir və qoruyur. Çox keçməmişdi yəqin etmişdik ki, cəmiyyətdə və ziyalılıqda gedən aşınmalarla davamlı savaşda olmuş Şirməmməd müəllim, heç olmasa, vəzifə və söz sahibi olduğu jurnalistika sahəsində yaxşının pisin ayağına verilməsinin qarşısını almaq istəyir. O nüfuzlu jurnalist ixtisasının çox gərəkili diplomunun kiminsə himayə etdiyi başgirləyənə, bir cümləni doğru yaza bilməyən kəmsavada, sabahın yaramaz karyeristinə verilməsini Azərbaycanın gələcəyinə xəyanət səviyyəsində qiymətləndirirdi.

Şirməmməd müəllim bizə yuxarı kurslarda dərs demişdi. Biz onda görmüşdük ki, əsl müəllim nəyi və necə öyrədər. Onun dərslərinin bir adı var idi: jurnalistə həyatda və fəaliyyətdə lazım olan faydalı və əməli bilik. Onun jurnalist üçün bir başlıca tələbi var idi: düzü öyrənmək, doğrunu yazmaq. Onun bir hədəfi var idi: tələbələri yalan pərdələrinin arxasındakı həqiqətlərdən xəbərdar etməklə gözüaçıq yetişdirmək. Onun bir öyüdü var idi: istəyə çatmaq üçün iddiasız və təmənnasız olmaq. Bütün bunları o qədər məharət və şövqlə edirdi ki, tələbələr hamılıqla onun dərslərinə gəlir, hər dəfə də yuxudan ayılmış insanlar kimi ətrafa daha ayıq və fərqli nəzərlərlə baxırdılar. Onun növbəti dərsini buraxmaq ən qiymətli kitabın bir neçə vərəqini ağ buraxmağa bərabər tutulurdu.

Şirməmməd müəllim o vaxt çiddi qaydaya çevrilmiş qaydanın--tələbəyə uzun ədəbiyyat siyahıları yazdırıb onları kitabxanalarda çürütməyin tam əleyhinə idi. O öz fənni ilə bağlı nə lazımsa tələbəyə elə çatdırırdı ki, asanlıqla hamının yaddaşına həkk olurdu. O deyirdi ki, savadsıq və bacarıqsız tələbə biliksiz və məsləksiz müəllimin məhsuludur. Bunun nəticəsidir ki, bizim qrupumuzda oxuyanların hamısı Şirməmməd müəllimin dərslərini bu gün də canlı və dramatik bir tamaşa kimi xatırlayır. Ən başlıcası isə biz o dərslərdən həmişə əsgər döyüşdə silahdan istifadə etdiyi kimi yararlanmışıq.

Sonralar anladıq ki, Şirməmməd müəllim bizi gələcəyə necə hazırlayırmış. Zaman gəldi ki, biz Şirməmməd müəllimin bu "gələcəyi" illər boyu qəlbində inamla yaşatdığının şahidi olduq. Bu o gələcək idi ki, "millətin kəsilmiş başı" öz yerinə qoyulmalı və bu işi görənlərin ilk sırasında millətsevər, azadlıqsevər jurnalistlər olmalı idilər. Meydan hərəkatı başlayanda biz artıq 6 il idi ki, fakültəni bitirib müxtəlif redaksiyalarda çalışırdıq. Şirməmməd müəllimlə harada görüşürdüksə, deyirdi ki, sizə dediyim "kəsilmiş başın bədənə birləşdirilməsi" vaxtı çatıb.

Müstəqillik illərində professor Şirməmməd Hüseynov demokratik mətbuatımızın sovet zamanı deyilə, yazıla bilməyən bir çox mətləblərini, nümunələrini işindən-davranışından razı qaldığı yetirmələrinin çalışdıqları qəzet-jurnallar-

da çap etdirdi. Bununla o, tələbələrinə vaxtilə verə bilmədiklərini də bu yolla onlara çatdırdı. Sonra bu yazılar bir neçə kitab şəklində çap olundu və geniş yayıldı...

...Bütün bunlar isə Şirməmməd Hüseynovun ayrıca bir kitabın mövzusu olan jurnalistika dərsləridir.

Tahir AYDINOĞLU,
Əməkdar jurnalist,
"Həsən bəy Zərdabi" və "Ali media" mükafatçısı

ŞİRMƏMMƏD HÜSEYNOV İŞ YOLDAŞLARININ XATİRƏLƏRİNDƏ

Şirməmməd fenomeni mənim yaddaşımda

Mən Şirməmməd müəllimin tələbəsi olmuşam. Jurnalistika fakültəsində mənə dərs deyib. Təcrübə rəhbərim olub. Hələ tələbə ikən qəzetlərdə dərc olunan yazılarımı yüksək qiymətləndirib. Bununla bağlı xatirələrimi yazmağı düşünürəm...

Tale elə gətirib ki, Şirməmməd müəllimlə eyni fakültədə işləmək də mənə nəsib olub. Şirməmməd müəllimin təqvim planını şəxsən mən dəqiq bilirdim. Bilirdim ki, həftənin hansı günləri, hansı saatda fakültədə dərsi var. Həmin günü gözləyirdik. Çünki ya dərsdən əvvəl, ya da dərsdən sonra onunla söhbət edirdik. Gözləyirdik və söhbət edirdik ona görə deyirəm ki, mən tək deyildim. Fakültəmizin həmin gün, həmin saat dərsi olmayan müəllimlərindən bir neçəsi onunla görüşməyi lazımlı hesab edirdi. Niyə? Ona görə ki, Şirməmməd müəllimlə söhbətdən öyrənirdik, zənginləşirdik. Şirməmməd müəllim erudisiyalı insan idi, əsl pedaqoq idi, nüfuzedici bir şəxsiyyət idi. Tariximizi, ədəbiyyatımızı, görkəmli şəxsiyyətlərimizi gözəl bilirdi. Xüsusilə, siyasi tariximizin bilicisi idi. Şirməmməd müəllimlə söhbət təkcə söhbət deyildi, usdad dərslərini dinləmək idi. Bu usdad söhbət-dərslərin detalları haqqında çox danışmaq olar... Sağlıq olsun. Hələlik bu qədər.

Allahverdi MƏMMƏDLİ,
Televiziya və radio jurnalistikası
kafedrasının müdiri, professor

Əsl alim, görkəmli araşdırmaçı idi...

Mən əvvəlcə universitetdə Şirməmməd müəllimin tələbəsi olmuşam, sonra müəllim həmkarı, daha sonra isə dostu. Və bu dostluğun da əsası Azərbaycan televiziyasında "7 gün" proqramında çalışdığım (1993-1996) vaxtda qoyulmuşdu. Auditoriya dərsləri professor Ş.Hüseynovu mənə dərin bilikli, həqiqəti deməkdən çəkinməyən vicdanlı bir müəllim kimi tanıtmışdı, amma televiziyadakı birgə işimiz və həyat dərsləri mənə bu müəllimin daha böyük miqyasını göstərdi. Onu ictimai ölçülərlə yaşayan böyük düşüncə sahibi, işıqlı məslək və həqiqi millət adamı kimi tanıdım. Artıq ona universitet müəllimi kimi yox, millət MÜ-

ƏLLİMİ kimi baxırdım. Yazdıqlarını oxuyur, danışdıqlarını dinləyib yaddaşıma köçürürdüm.

Bir millət müəllimi kimi onun əsas missiyası xalqın gözünü açmaq, onu maarifləndirmək, topluma doğru yol göstərmək idi. Onunla ötəri təmas da, yaxınlıq və dostluq da həmişə insanı zəngin mənəviyyat aləminə çəkib aparırdı. Şirməmməd müəllim bir dərya idi, onunla ünsiyyətdə olub nə isə öyrənməmək sadəcə, mümkün deyildi. Bu mənada mən Şirməmməd müəllimdən çox şey öyrənmişəm. Əsl alim və görkəmli araşdırmaçı kimi onun heyrətamiz elmi təfəkkürü var idi. Peşəkar tədqiqatçılığı, araşdırma meyarları, mənbələrlə işləmək metodu, yazı üslubu, müqayisə və paralellər aparmaq tərzi bir məktəb idi. Ona görə elmi işlərə, kitab və dissertasiyalara tamam başqa tələblərlə yanaşardı, layiq olmayana, başgirləyənlərə ömründə yaşıl işıq yandırmazdı. Yalana, ikiüzlülüyə, diletantlığa, yaltaqlığa nifrət edərdi. Bizi də o cür tərbiyə etməyə çalışardı.

Mən Şirməmməd müəllimin köksündə həmişə millətin qiymətli insanlarına tükənməz sevgi, dostlarına böyük sədaqət görürdüm. Məslək dostu Bəxtiyar Vahabzadə xəstə olanda zəng edirdi ki, "gəl, məni də götür, gedək Bəxtiyara baş çəkək". Ramiz Abutalıbovun Bakıya gəlişindən xəbər tutanda "mütləq görüşək" deyirdi. Solmaz Tohidinin, Firdovsiyyə xanımın, Cəmil müəllimin, Mamulia və başqalarının Cümhuriyyət mövzusunda yeni tədqiqatlarına reaksiya verərdi. Yetirmələrinin uğurlarına çox sevinər, onlarla fəxr edərdi.

Şirməmməd müəllimin güclü zaman hissi varıydı, vaxtının üstündə əsirdi. Bir neçə il əvvəl əhvalının yaxşı vaxtında təklif etdim ki, gəlin sizi aparım Gəncəyə, 28 Mayı orda keçirək, Cümhuriyyət hökumətinin müvəqqəti yerləşdiyi binanı ziyarət edək, yaxud İsmayıllıya - Lahıca gedək, Rəsulzadə yaşadığı evi görək. Təklifim çox xoşuna gəldi, gözləri güldü. Sonra ciddi görkəm alıb qayğı ilə:

- Mən ora getsəm, azı bir gün itirəcəm, bəs bu işləri kim görəcək? – deyə soruşdu.

Onda Şirməmməd müəllim "Azərbaycan" qəzetində parlament hesabatlarını hazırlayırdı. Və artıq kitabın iki sanballı cildi çapdan çıxmışdı...

Qulu MƏHƏRRƏMLİ,
Televiziya və radio jurnalistikası kafedrasının professoru

Şirməmməd müəllimin ciddiliyindən olmazdı

Məşhur Şərq məsəli var: "Müəllimin ciddiliyi ata nəvazişindən daha yaxşıdır". Bu baxımdan Şirməmməd Hüseynovun tayı-bərabəri yox idi. Ötən əsrin 60-cı illərində Azərbaycan Dövlət Universiteti filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alanlar bunun əyani şahidi idilər.

Şirməmməd müəllim tələbələrlə çox istiqanlı və mehriban münasibətdə olsa da, ciddiliyini qoruyub saxlayır, biliklərin əsaslarını öyrətmək üçün var qüvvəsini əsirgəmirdi. Çalışırdı ki, gənc nəslin nümayəndələri keçilən mövzuları

dərindən öyrənsinlər, hər şeyə son dərəcə ciddi yanaşsınlar. Bizə dərs deyənlər arasında yeganə müəllim idi ki, davamiyyət jurnalını özü yoxlayır, qaibləri yazır, hər bir tələbəni nəzarətdə saxlayırdı. Onun bu xüsusiyyəti tələbələrin nizam-intizamına müsbət təsir göstərir, dərslərin yüksək elmi-pedaqoji səviyyədə keçməsini təmin edirdi. Məhz bunun nəticəsində imtahanların da yüksək səviyyədə aparıldığı müşahidə edilirdi. Bütün bunlar Şirməmməd müəllimin tələbələr arasında nüfuz qazanmasına, gənclərin tədris etdiyi fənləri daha yaxşı qavramalarına kömək edirdi. Hamı onun tədris etdiyi fənləri dərindən öyrənir, göstərdiyi əlavə ədəbiyyatdan da bəhrələnməyə çalışırdı. Biz onun ciddiliyində ədalət görürdük. Ədalətlilik isə hamı kimi, bizim də ürəyimizcə idi.

1999-cu ildən onunla birlikdə işlədiyim dövrdə də Şirməmməd müəllimin daim ciddi insan kimi, ədalət vurğunu kimi qaldığını gördüm. O, ali təhsil sahəsi, elmi araşdırmalar üçün sözün həqiqi mənasında tapıntı idi.

Həmid VƏLİYEV,
Beynəlxalq jurnalistika kafedrasının müdiri, professor

Millətinə faydalı işlər gördü

Tanınmış pedaqoq və tədqiqatçı Şirməmməd Hüseynov ömrünün son günlərinədək araşdırmalar apardı. Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərinin zəngin irsinin toplanılmasında və nəşrində, geniş oxucu auditoriyasına çatdırılmasında onun böyük xidmətləri vardır. M.Ə.Rəsulzadənin, Ü.Hacıbəylinin, Ə.Ağaoğlu və digər görkəmli şəxsiyyətlərin çoxlu sayda məqalələrini ilk dəfə oxuculara çatdıran Ş.Hüseynov olmuşdur.

Qeyd edim ki, o, bu zəngin irsdən seçmələri sadəcə təqdim etmirdi, eyni zamanda çağdaş dövrümüzlə əlaqələndirib özünün qısa şərhləri ilə oxuculara çatdırırdı. Klassiklərin yazılarının müasir problemlərimizlə əlaqəli formada təqdimatı oxucuları çox maraqlandırırdı. Əslində bu özünü doğruldan üsuldan Şirməmməd müəllim məharətlə faydalanırdı.

Onun sonuncu çalışmalarından olan 3 cildlik "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" kitabı Cümhuriyyət dövrü tariximizin öyrənilməsinə çox layiqli bir töhfədir. Bu, həm də ilk parlamentimizin və ilk millət vəkillərimizin fəaliyyətinin öyrənilməsində ciddi mənbədir.

Düşünürəm ki, araşdırdığı və tətbiq etdiyi insanlar kimi, o da millətinə faydalı işlər gördü.

Nəsiman YAQUBLU,
Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru

Açıq sözlü, açıq qəlbli müəllimim

Azərbaycan jurnalistlərinin ağsaqqalı, mətbuatımızın yorulmaz tədqiqatçısı, zəhmətkeşliyi ilə çoxlarına nümunə olan Şirməmməd müəllim yaşasaydı dekabrın 17-də 95 yaşı olacaqdı.

Mən həmişə özümü Şirməmməd müəllimin tələbəsi sayıram. Onun xeyirxahlığını heç vaxt unutmaram. Amerika yazıçısı və filosofu Henri Devid Toqonun təbirincə desək, yaxşılıq yeganə libasdır ki, heç vaxt köhnəlmir. Bəli, ustad müəllimin yaxşılıq libası heç vaxt köhnəlməyəcək, çünki bu libas vicdan, ləyaqət və xeyirxahlıqdan biçilib.

Şirməmməd müəllim sözündə bütöv adamdır. Onun ən çox nifrət etdiyi şey yalan danışmaqdır. Həmişə deyərdi ki, yalanın ən böyük düşməni var, o da həqiqətdir.

"Əqidəsi yolunda qələmi ilə çarpışan" (Bəxtiyar Vahabzadə) Şirməmməd müəllim həmişə haqq yolunu tutub, düzu-düz, əyrini-əyri deyib. Onu tutduğu yoldan çəkindirmək mümkün deyil.

Ustad müəllim həmişə sevimli tələbələrinə vicdanlı, obyektiv, qərəzsiz olmağı tövsiyə edirdi. Öz üzərində çalışan tələbə onun gözünün işığı idi.

Deyərdim ki, Şirməmməd müəllimin dekanlığı dövründə fakültədə polad qayda-qanun vardı. Onun nəticəsi idi ki, fakültəmiz həmişə rektorluğun hesabatlarında tərifləndirdi, yalançı faiz dalınca qaçmırdı.

Mən Şirməmməd müəllimin müavini olanda demək olar ki, tədris məktəbi keçdim. Tədrisin incəliklərini məhz həmin dövrdə öyrəndim. Dekan işlədiyim vaxt öyrəndiklərimin çox böyük köməyi oldu.

Bu gün Azərbaycan jurnalistikasının iftixarı, bizim çoxumuzun müəllimi olmuş Şirməmməd müəllim haqq dünyasındadır. Allah rəhmət eləsin, qəbiri nurla dolsun!

Akif RÜSTƏMOV,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının professoru

Tələbələrini "mültəfit" edən müəllim

Şirməmməd müəllimi başqa müəllimlərdən fərqləndirən bir çox cəhətlər var idi. O, oxuduğu mühazirələrdə, çıxışlarında, fikirlərində hökm-fərma idi. Yəni, dediklərini qətiyyətlə söyləyirdi. O özu deyirdi ki, normal insanın, alimin həm elmi, həm də helmi olmalıdır, dediklərini isbat eməyi, onları qarşısındakına tələqin etməyi bacarmalıdır.

Şirməmməd müəllim mühazirə oxuyarkən tez-tez tələbələrə müraciət edər, onların deyilən fikirlərə nə dərəcədə diqqət yetirdiyinə əmin olmaq üçün soruşardı: "Mültəfit oldun?!" Bununla o, tələbə ilə özü arasında dialoq qurmağa səbəb olurdu.

Tələbələrin bilik və istedadını yoxlamaq üçün Şirməmməd müəllim maraqlı forma və metodlardan istifadə edərdi. Hələ 30-40 il bundan qabaq o imtahan verən tələbələri auditoriyaya dəvət edər, onlara imtahan biletlərini çəkdirər və suallara yazılı şəkildə cavab verməyi xahiş edərdi. Sonra həmin yazılı cavabları elə tələbənin yanındaca qiymətləndirərdi.

Şifahi şəkildə imtahan götürərkən tələbəni çox bərkə-boşa salmaz, onun bilik və istedadını bir neçə cümlədən sonra çox dəqiq müəyyənləşdirərdi. Bəzən tələbənin səviyyəsini müəyyənləşdirmək üçün ona bir cümlə də kifayət edərdi.

Şirməmməd müəllim öz tələbələrinin uğurlarına həmişə sevinərdi. Onların nailiyyətlərini təbliğ edər, qayğısına qalar, bir çətinə düşəndə onları müdafiə edərdi. Onun üçün talant, qabiliyyət insanlara dəyər verməkdə xüsusi əhəmiyyət kəsb edirdi.

Məhəmmədismayıl MEHDİYEV,
Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının dosenti

Şirməmməd Hüseynov – haqq-ədalət carçısı

Şirməmməd müəllim haqqında yazmaq, fikir söyləmək böyük məsuliyyətdir. Elə bilirəm ki, ruhu məni izləyir və əgər nəyisə düz deməsəm, o dəqiqə düzəliş edəcək. Bəli, onun haqqında danışanda ilk ağlıma gələn Şirməmməd müəllimin düzgünlüyü, haqq-ədaləti sevməyi, nizam, intizam, haqqı nahaqqın ayağına verməməyidi. Müəllimim olub. Sonralar isə həmkar olduq. Amma yenə də müəllimliyi birinci yerdəydi. Onun sevimli tələbəsi olmağı hamı bacarmırdı, amma mən bacardım. Bir dəfə "Təfəkkür" universitetinə dərs deməyə getməkdən imtina etdim. Bəhanə də gətirdim ki, maaşım yaxşıdı, əlavə pula ehtiyacım yoxdu. Şirməmməd müəllimin o zaman dediyi sözlər qulağımda sırğa oldu. O dedi ki, "Pula ehtiyacın olmaya bilər, amma Allahın sənə bəxş etdiyi savadı və bacarığı xalqın balalarından əsirgəməyə mənəvi haqqın yoxdu. Bildiklərini onlara öyrətməlisən, bu sənin vətəndaşlıq borcundu! Ona qalsa mənə Prezident təqaüd verir, indi mən neyniyim? Dərs deməyim?". Bəli, belə bir İNSAN idi bizim Şirməmməd müəllim. Məsuliyyətli olmaq, hüquq və vəzifələrini bilib, haqqını tələb etməyi bacarmaq, elmi biliklərini tez-tez yeniləmək, dünyada baş verən hadisələri izləmək, ən əsası isə Vətəni sevmək, Milləti sevmək kimi xüsusiyyətləri aşılayırdı bizlərə Şirməmməd müəllim! Azərbaycan mediasında sayılıb seçilən, imzası olan imzalar icində jurnalistlərin əksəriyyəti məhz Şirməmməd müəllimin şinelindən çıxıb və düşünürəm ki, bununla da qürur duyurlar.

Sevinc ƏLİYEVA,
Jurnalistika fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent

Unudulmazlıq haqqı

Görkəmli mətbuat tədqiqatçısı, jurnalistika elminin cəfakeşi, professor Şirməmməd Hüseynovun böyüklüyü sağlığında sübut olunmuş bir həqiqətdir. Tanrı Şirməmməd müəllimə uzun bir ömür nəsib etmişdi. Bu mənalı ömrün illəri isə bütünlüklə nəcib və ülvi bir məqsədə – klassik mətbuatımızın öyrənilməsi, tədqiqi və təbliği işinə həsr edildi. İndiyə qədər Şirməmməd müəllimin qələmindən nə çıxıbsa, indi bizim üçün irsdir. Ş.Hüseynovun bütün adlarından, elmi dərəcələrindən başqa, fəth etdiyi daha yüksək və ali bir zirvə də var. O, böyük hərflə yazılan yorulmaz və vicdanlı Pedaqoq idi.

İllər keçəcək, ustadın miras qoyduğu əsərlər klassik irsimizin öyrənilməsi yolunda gənc nəsillərə bələdçi olacaq. Bu nəsillər mətbuatımızın tarixini xatırladıqda, ilk növbədə Şirməmməd Hüseynovun adını çəkəcəklər.

Şirməmməd müəllimlə bir dövrdə yaşamaq, onunla həmsöhbət olmaq, eyni ali məktəbdə, eyni fakültədə işləmək böyük xoşbəxtlik idi. Ş.Hüseynov jurnalistikamızın umacaqsız, təmənnasız və xeyirxah fədaisi idi. Ustadın əziz xatirəsi onu tanıyan bütün insanların, həmkarların, tələbələrin qəlbində daim yaşayacaq, böyük alimin yeri isə elmi meydanlarda həmişə görünəcəkdir. Çünki o, şüurlu fəaliyyətini və qüvvəsini əzəmətli mətbuat bahadırlarına və onların sənət abidələrinə həsr etməklə, özü də unudulmazlıq haqqını qazandı. Allah Şirməmməd müəllimə qəni-qəni rəhmət eləsin. Ruhu şad olsun!

Ayaz MUSAYEV,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının baş müəllimi

O günləri xatırlayarkən

Seçilmiş insanlar milləti üçün müəyyən missiyanı yerinə yetirmək məqsədi ilə həyata göz açırlar. Bunlardan biri də ustadımız Şirməmməd müəllim idi.

Şirməmməd müəllimin qəlbimizdə xüsusi yeri var. O, jurnalistika sahəsində çalışan peşəkar, fədakar jurnalistlərin ustadı sayılır.

Peşəkar jurnalistə xas olan səlist ifadə tərzini, şirin, çəkici ləhcəsini saatlarla auditoriyalarda, elmi seminarlarda, elmi konfranslarda dinləmək olardı. Həssas bir insan idi. Danışarkən onu diqqətlə dinləyəni hiss edib söylədiklərini göz-gözə ünvanlayardı. Onlardan biri də mən idim. Zəhimli, eyni zamanda yüksək yumor hissinə malik idi. Məncə müəllimlik peşəsində zəhmin önəmi var.

Artıq fakültəmizin qırx illik əməkdaşı idim, lakin Şirməmməd müəllimi dəhlizdə görərkən çəkinirdim, hörmətlə yanaşaraq nə isə soruşub öyrənmək istəyirdim. Fikirləri isə həmişəki kimi, məntiqli, maraqlı, ətraflı olardı. Bəli, xəyalımda ustadımı sanki "canlı arxiv", "canlı ensiklopediya" cildində görürdüm.

Dünyasını dəyişən əziz olan yaşlı insanlar üçün "neçə yaşı var idi?" sualı məni sarsıdır. Doğmaları yaşından asılı olmayaraq itirmək istəmirsən – yeri boş

qalır. Fakültəmizdə də Şirməmməd müəllimin yeri boş qaldı. Üzərinə düşən missiyanı ustadımız artıqlaması ilə yerinə yetirməsinə baxmayaraq...

Gülnarə SADIQOVA,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti

Cümhuriyyət boyda adam

Nədənsə mən həmişə Şirməmməd müəllimi ruhən 1918-ci ildə, o dövrün adamlarının yanında görmüşəm. Düşünmüşəm ki, Rəsulzadə aşiqi, Üzeyir vurğunu bir adam necə bu dünyada yaşamağa can ata bilər ki?! Hətta bir dəfə bu sualı ona verməkdən özümü güclə saxladığımı da yaxşı xatırlayıram.

Ona sonuncu dəfə mayın 28-də zəng eləmişdim. Cümhuriyyətin 101 yaşında təbriki ən çox Şirməmməd müəllim haqq edir deyə. Səsimi eşidəndə sevinmiş, telefonun o başında özünəməxsus gülüşlə məni salamlaşmış, bir-iki ürəkaçan cümlə ilə könlümü xoş etmişdi. Necəsiz, nə edirsiz sualıma isə cavabı belə olmuşdu. "Hər şənbə "525-ci qəzet" üçün bir səhifə yazı yazıram, al oxu, bax gör neynirəm?" Bunu 95 yaşlı ixtiyar deyirdi. Üstəgəl biixtiyar və eyhamla deyirdi. Yəni, "bu mənəm, görürsüz 95 yaşımda da dayanmıram, boş oturmuram, dedi-qodu yapmıram, iş görürəm, iş!"

Bəli, onun gördüyü iş tarixə yazılacaq iş idi. Bəlkə də elə bunun adına tarixin dissertasiya işi də demək olar. Və o işi müdafiə edən adam idi Şirməmməd Hüseynov... Yadımdadır, 90 illiyində Bakı Dövlət Universitetinə onunla müsahibəyə getmişdim. Rəsulzadənin məqalələrindən ibarət kitabı mənə göstərib, "bax, pensiyamla çıxartmışam bu kitabı" demişdi. Mən qarşımdakı qırmızı cildli kitaba və bir də tarixin bu üzüağ tədqiqatçısına baxıb qəribə hisslər keçirmişdim. İnsan öz boğazından kəsib necə kitab çıxara bilər? – kimi hiss deyildi bu hiss. Bu hiss bir insan öz tarixini, öz millətini necə bu qədər sevə bilər? – kimi bir hiss idi. O cümhuriyyəti, cümhuriyyətçiləri tarixin arxivindən günümüzə daşıyan, onları sevən və millətə sevdirməyə çalışan adam idi. Bu işi o qədər gözəl bacarırdı ki...

Əminəm ki, o öz cənnətindən – Cümhuriyyətindən çox məmnundur. Çünki ruhu böyük kişilərin ruhu ilə görüşüb. Bizsə çox darıxırıq, ustad!

Pərvanə İBRAHİMOVA,
Beynəlxalq jurnalistika kafedrasının dosenti

Ömrümüzün nur çırağı

Xatirə yazmaq özgə bir işdir. Bunun üçün qələm-kağızdan daha vacib olan – ürək lazımdır, elə ürək ki, ağı qaradan, yaxşını yamandan seçməyi bacarsın.

Müdriklikdən, müqəddəslikdən don geyən, əməli, işi, saf niyyəti ilə millətin

işıq gələn yerinə dönən, adı tarixə XX əsrin görkəmli publisisti, jurnalist alimi, mətbuat qurucusu kimi yazılan professor Ş.Hüseynov dünyanı haqqın işığında dərk edən, ona sözdən don biçən isdedad sahiblərindən idi. Bütün tələbkarlığına, zəhminə baxmayaraq, kövrək qəlbli insan idi. Onun xatirəsi mənim üçün unudulmazdır.

Deyirlər dağın yanında dayanarkən onun böyüklüyünü, əzəmətini bir o qədər görüb-duya bilmirsən. Ondan uzaqlaşdıqca, necə əzəmətli, nəhəng olduğunu hiss edirsən. Şirməmməd müəllim mənim üçün belə Dağ timsalı şəxsiyyətlərdən olub. O, bizə necə yaşamağı, milli və ictimai mənafe naminə yaşamağın düsturunu öyrədib. Şəxsiyyəti, yaradıcılıq yolu şərəfli tariximiz, canlı yaddaşımızdır ki, bu gün biz onu qürurla anıb, yada salırıq. Bütün insani keyfiyyətləri, güclü xarakteri, zəngin mənəvi aləmi ilə əsl vətəndaş idi.

Əgər bu gün Universitetin Jurnalistika fakültəsində işgüzar mühit, tələbkarlıq, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və bizə miras qoyanlardan biri də məhz Şirməmməd müəllimdir.

Heyif, çox heyif ki, bu gün həyatda yoxdur. Amma atalar demiş: "Ölüm ömrün sonu deyil". Şirməmməd müəllimin adı bu gün də onu yaxından tanıyan minlərlə insanın yaddaşında, saysız-hesabsız tələbələrinin xatirəsində yaşamaqdadır. Onu dəqiq bilirəm ki, tələbələri olmuş jurnalistlər öz peşəsinə heç vaxt etinasızlıq etməyəcəklər, çünki onların hər birinin qəlbində Şirməmməd müəllimin klassik ənənələrindən yoğrulmuş müəllim sözü, müəllim həqiqəti var.

Fəxri adlara layiq görüldüyü yüksək titullar olsa da, o, daha böyük qiymətə mənsub olan milli mətbuatımızın inkişafındakı əvəzsiz xidmətlərinin rəsmi təsdiqidir.

Tarix boyu işıqlı simalarımız yollarımıza nur çiləyiblər, bizim də borcumuz onları unutmamaqdır.

Bu günümə görə o dəyərli ziyalıya ürəyimdə minnətdarlıq hissi keçirirəm. Onu heç vaxt dünyasını dəyişmiş doğmalarımdan ayırmayacağam.

Rəhilə KƏSƏMƏNLİ,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti

"Qadası, radionu söndür..."

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir yaradıcılıq zirvəsinə yüksəltmişdir. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olmuşdur. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərinin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Bu gün də onun tələbələri fakültəmizdə, eləcə də digər elm və təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində öz müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Həm BDU-da, həm də "Təfəkkür" universitetində Şirməmməd müəllimlə birgə işləyirdik. Eyni gündə hər birində dərsimiz olanda, mən maşınla işə gəlirdim.

Maşının radiosu daimi qoşulu olardı. Bu da tıxaclarda bir "məşğuliyyət" idi. Şirməmməd müəllim maşına əyləşən kimi "Qadası, radionu söndür.." deyərdi. "Qulaq da istirahət etməlidir... məlumat almağın da öz vaxtı var..... Hər bir şeyin öz vaxtı var...

Piyada gəzməyi xoşlayardı, vərdiş etmişdi.. Havalar yaxşı olanda universitetdən evlərinə qədər söhbət edə-edə piyada gedərdik.....

Zaur BABAYEV,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti

Dərsdən sonrakı dərslərin həsrətində

Şirməmməd müəllimin dərsdə bizə dediyi fikirlərin hər biri yaddaşımda kök salıb. Biz ondan Cümhuriyyət qurucularının real həyatını, Vətənə, millətə bağlı yaradıcılığını öyrəndik. Biz ondan Vətən, millət sevgisi kimi müqəddəs dərs aldıq. Onun mühazirələrinin proqramı, rəsmi "sillabusu" yox idi. O, audiyoriyaya girən kimi özü olurdu və bizə bütöv bir dünya öyrədirdi. Zaman keçdi və mən taleyimi bitirdiyim fakültəyə bağladım. Əmək fəaliyyətimə Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında başladım. Şirməmməd müəllimdən uzaq düşdüyümü güman elədim. Amma elə olmadı. Bu böyük müəllim professoru olduğu Mətbuat tarixi kafedrasında magistratura dərslərindən çıxanda hər dəfə bizim kafedraya dönürdü. Professor Cahangir müəllimi görmədən, onunla daha bir saat söhbət etmədən çıxıb getməzdi. Taleyim beləcə gətirmişdi. Özümə müqəddəs məkan seçdiyim kafedrada mənim elə onun qədər sevdiyim Cahangir müəllimimlə Şirməmməd müəllimin söhbətini dinləmək mənə də qismət olmuşdu. Bəlkə bu söhbət bəzən dərsdən də maraqlı alınırdı: müzakirələr, mübahisələr, min-min informasiya. Hərdən bir Şirməmməd müəllimin üzünü mənə tutub üzündəki xoş təbəssümü ilə "bildin nə deyirəm?" ritorik sualı... Hamısı yadımdadı. Hətta əziz müəllimimizin bizim kafedraya son gəlişi də yadımdadı. Yenə gəldi Cahangir Məmmədli, Alxan Məmmədovla söhbətləri oldu... və getdi. Bu son söhbət Məhəmməd Əmindən başlayıb Üzeyir bəydə bitdi. Əziz müəllimimiz getdi. Səhərisi gün Cahangir müəllim kədərli halda işə gəldi, Şirməmməd müəllimlə xəstəxanada görüşüb gəlmişdi. Bu xəbərlə kafedramıza ağır bir sükut çökdü...

Esmira RÖVŞƏNOVA,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının əməkdaşı

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

ŞİRMƏMMƏD HÜSEYNOV MƏKTƏBİNİN MƏZUNU OLMAQ BÖYÜK FƏXARƏTDİR

Görkəmli alim və pedaqoq, mətbuat fədaisi Şirməmməd Hüseynov. O, tələbələrinin yaddaşında həm də tələbkar və qayğıkeş müəllim kimi qalıb. Doğma universitetin divarları arasında milli jurnalistikamızın tarixi barədə maraqlı mühazirələri, cəlbedici və şirin təhkiyəsi, açıq söhbətləri hələ də qulağımızdan getməyib. O vaxt dərsliklərdə, kitablarda, qəzetlərdə yazılması qadağan olunmuş tarixi hadisələr barədə məlumatları biz onun dilindən eşidirdik. Bu mənada Şirməmməd müəllim tələbələri üçün canlı ensiklopediya idi. Onun mühazirələrini yazdığım dəftəri indi də saxlayır, lazım gələndə yenidən vərəqləyirəm. Çünki bu mühazirələr həm də ən etibarlı mənbədir.

Şirməmməd müəllimdə tükənməz axtarış həvəsi, yorulmaz tədqiqatçı enerjisi var idi. O, özündən sonra zəngin bir irs, məktəb qoyub. Bu məktəbin məzunu olmaq həqiqətən fəxarətdir.

Mənalı ömrünü Azərbaycanda gənc jurnalistlərin yetişməsinə həsr etmiş Şirməmməd müəllim həm də yorulmaz tədqiqatçı idi. Arxivlərdə milli mətbuatımızın qatı açılmamış səhifələrini vərəqləyir, üzə çıxararaq nəşr etdirirdi. Onun müəllifi olduğu hər bir kitab sanballı mənbə, ensiklopediya səviyyəsində olan əsərdir.

Professor Şirməmməd Hüseynovun Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə dekan təyin olunması bizim tələbəlik dövrümüzə (1970-1975-ci illər) təsadüf etmişdi. O, fakültəyə ədalət, düzgünlük, nizam-intizam gətirmişdi və hamı bundan danışırdı. Gördüyü işlər təkcə univesitetdə deyil, bütün təhsil ictimaiyyəti arasında böyük əks-səda doğurmuşdu.

Adı Azərbaycan jurnalistikasının tarixinə qızıl hərflərlə həkk olunan Şirməmməd Hüseynovu biz bu gün də hər bir sahədə özümüzə nümunə hesab edirik. Ölkə mediasında sayılıb-seçilən, nüfuz və karyera sahibi olan bir çox jurnalistlər məhz onun yetirməsidir. Biz bu gün də Şirməmməd Hüseynov məktəbindən öyrənir, həyatda və cəmiyyətdə tutduğumuz mövqeyə görə özümüzü ona borclu bilirik.

Aslan ASLANOV,
AZƏRTAC-ın İdarə Heyətinin sədri

Şirməmməd müəllim REAL TV-də

Müəllimlərimdən öyrənmişəm ki, Şirməmməd Hüseynov hələ 1960-cı illərdən Azərbaycan televiziyasında ilk siyasi şərhçilərdən biri olub. Prezidentimizin bu barədə mətbuatda səslənən bir fikrini də oxumuşam. Cənab Prezident bir dəfə Şirməmməd müəllimə müraciətlə demişdir: "Yadımdadır ki, 1970-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi – "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm".

Tarixi hadisələrdən məlum olur ki, Şirməmməd müəllim 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində – müstəqillik uğrunda mübarizə illərində çox fəal televiziya şərhçisi olmuşdur. Lakin hansı səbəblərdənsə, sonralar televiziyalarda görünməmişdir. Son zamanlar meydana çıxan "Real-TV" Şirməmməd Hüseynovu yenidən teleefirə qaytardı. Onun bu kanalda klassik Azərbaycan ziyalıları, Cümhuriyyət qurucuları, azad söz uğrunda mübarizə aparmış klassik mətbuat orqanlarımız haqqında müntəzəm və silsilə söhbətləri müasir maarifçiliyin ən mükəmməl nümunələri oldu. Bu proqramı onun çox sevdiyi, yeganə jurnalist kimi etibar etdiyi Mir Şahin aparırdı.

Bu anda mən sözü Şirməmməd müəllimlə proqram söhbətlərinə bağlı dəqiq fikir söyləmiş Mir Şahinin özünə verirəm "O-nun haqqında mən ancaq belə yaza bilərəm. "O" hərfindən sonra mütləq defis qoymaqla. Çünki O-ndan başlanan hər şey, O-nunla bitən hər şey Şirməmməd müəllimə aid olsa da həm də O-ndan bir defis qədər aralı, əlçatmazdır.

İdeallaşdırıram? Ola bilər.

İfrata varıram? Ola bilər!

Müqəddəsləşdirirəm? Ola bilər.

Ona görə ki, O İdealdır, İfratdır, Müqəddəsdir.

Şirməmməd Hüseynov məndən ötrü təpədən dırnağa Dövlətə, Cümhuriyyətə, Respublikaya oxşayan insandır.

Şirməmməd Hüseynov Azərbaycanın ölçülərindən, tələblərindən, milli ağ ciyəri, ürəyi və beyni tutumundan dəfələrlə artıq bir varlıqdır. Yəni təkcə özü deyil, bir az Məhəmməd Əmin, bir az Üzeyir Hacıbəylidir, bir az Fətəlixan Xoyski, bir az Əlağa Şıxlinskidir, bir az Həsənbəy Zərdabi, bir az Mirzə Ələkbər Sabirdir. Bir az daha kimdir... daha kimdir... daha kimdir... Və hamısı bir yerdə, bir küll halında Şirməmməd Hüseynovdur. O-nunla iki telelayihə həyata keçirmişik. Əslində daha doğru olar demək ki, O həyata keçirib, mən isə Şirməmməd Müəllimin dedikləri üçün bir jurnalist-keçirici olmuşam. Mən O-ndan müsahibə almamışam, sadəcə hüzurunda dayanmışam. O isə mənə baxıb və danışıb. Məni seçilmişə çevirib. Minlərin arasından birinci və sonuncu edib. Seçilmişliyim onda olub ki, Ş. Hüseynov öz ustad dərlsərini məhz mənə danışmaq,

mənə diqtə etmək istəyib.

Həyat və ömür yoldaşı, dostu Ülkər xanım hər dəfə qapıdan girəndə də, çıxanda da xahiş edib ki, O-nunla hətta çəkilişdən əvvəl və sonrakı söhbətlərimizi belə videoya alaq. Qənimətdir. Mütləq tarixdə qalmalıdır. Mən isə həyatımın olduqca vacib işi kimi O-nun mühazirələrinin tarixə köçürülməsində iştirak etmişəm.

...Və mənim ola bilsin ki, ən şərəfli qələm adım budur:

Mir Şahin

"Şirməmməd Hüseynovun Mirzəsi".

Şirməmməd müəllimin Real TV-də Mir Şahinlə silsilə söhbətlərinə mən də çox baxmışam (o proqramın vaxtını hər dəfə mənə Cahangir müəllim xatırladırdı). Proqram Şirməmməd müəllimin öz evində çəkilirdi. Mir Şahinlə söhbət çox aydın və çox səmimi alınırdı. Müəllimimiz "525-ci qəzet"də çap etdirdiyi yazıların – Cümhuriyyət qurucularının həyat və yaradıcılıqlarının televariantını bizə təqdim edirdi. Bu unudulmaz söhbətlər millətə öz tarixini, bu tarixi yaradanların dahilik şəxsiyyətlərini yaxından duymağa və qiymətləndirməyə imkan yaratdı. Və Şirməmməd Hüseynov özü də o şəxsiyyətlərə qovuşdu.

Günel MEHDİZADƏ,
magistr

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

HAQQIN ÖZ SƏSİ

Həyatda insanın öz doğmaları və əzizləri haqqında danışmağın, yazmağın, hisslərini və duyğularını ifadə etməyin nə qədər çətin, ağır və ağrılı olduğunu bu sətirləri yazanda bir daha yaşayıram.

Bu çətinliyi və ağırlığı ilk dəfə 2014-cü ildə Şirməmməd əmimin 90 yaşına həsr etdiyim yazımı yazanda hiss etmişdim. Elə o vaxt da təkcə və ya sadəcə əmim haqqında yox, Azərbaycan vətəndaşlığının sevinc və sevgisini, şərəf və ləyaqətini öz çiyinlərində vüqar və fəxrlə daşıyan, ömrünü-gününü xalqının istiqlalı yolunda şam kimi əridən, azadlıq və müstəqillik sevər yurddaşlarının qəlbində özünə əbədi yurd-yuva salan bir azərbaycançı, bir müəllim, bir tədqiqatçı alim, bir publisist, bir vətən aşiqi haqqında danışmağın və yazmağın məsuliyyəti indi də adamı var qüvvəsini toparlamağa səfərbər edir. Donub qalırsan, nədən başlayasan, harada qurtarasan?! Əlbəttə, Şirməmməd əmim haqqında bildiklərim, gördüklərim, haqqında eşitdiklərim və onunla bağlı dərk etdiklərim bir yazıya sığan və ya bir kitabla çevrələnən deyil.

Əmimin 90 illiyi ərəfəsində Allahımdan güc və qüvvət diləyi ilə mən belə yazmışdım: "... Şirməmməd əmim təkcə mənim yox, bütövlükdə nəslimizin taleyində böyük önəmi olan insandır. Mən bu dünyanı dərk etməyə başladığım anlardan onun hər addımını həyatıma örnək kimi qəbul etmişəm. Şirməmməd əmim heç vaxt mənə birbaşa-didaktik tərbiyə verməyib. Ancaq o, görüb ki, biz hamımız onun yolunu tuturuq, ona bənzəmək istəyirik. Mən özüm hər addımda ona oxşamaq istəmişəm. Hətta ixtisas seçimimdə də onun peşəsini seçmişəm".

İndi bütöv həqiqəti tam anlayıram. Şirməmməd əmim təkcə nəslimizin taleyində yox, bir neçə jurnalistlər nəslinin taleyində, onların yetişməsində, formalaşmasında, bütövlükdə Azərbaycan jurnalistikasının tarixi taleyində və Azərbaycan ictimai fikir tarixində həqiqətlərin gündəmdə yer almasına özünü həsr edən milli, milli olduğu qədər də cəfakeş, fədaidir.

Əmim Şəkidə kasıb bir ailədə dünyaya göz açsa da, o, yoxsul ailədə həyat universitetini bitirib: halallıq, düzlük, təmizlik və qeyrət məktəbini bitirib. Bakı Dövlət Universitetində o vaxt respublikanın ən tanınmış adlı-sanlı müəllimlərin-

dən – Məmməd Arif, Mir Cəlal Paşayev, Əli Sultanlı, Mikayıl Rəfili, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Cəfər Xəndan, Məmmədağa Şirəliyev, Hadi Mirzəzadə, Həbib Səmədzadə, Feyzulla Qasımzadə və başqalarından dərs almış, sonra Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasında oxumuşdur. Sonralar bütün həyatı boyu müəllimlik fəaliyyətindən ayrılmamışdır. Əlbəttə, Şirməmməd əmimin yaratdığı bir publisistika məktəbi onun tədqiqatçılıq ömrünü həsr etdiyi klassiklərimizin yoluna sədaqət və sevgidən qaynaqlanır. Ömrünü və yaradıcılığını H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli və digər onlarca böyük publisistlərin, müstəqillik və Demokratik Cümhuriyyət mücahidlərinin yaradıcılıqlarının yenidən üzə çıxarılmasına həsr etmiş bir insanın məktəbinin bu ənənədən qidalanmağı ilə qiymətli və dəyərlidir.

Şirməmməd əmim böyük Azərbaycan aydınları Bəxtiyar Vahabzadə, Nurəddin Rzayev, Xudu Məmmədov, Qulu Xəlilov və başqaları ilə əqidə-məslək dostu olmuş, həmişə gəncliyin, düzlüyün, haqqın və ədalətin yanında olmuş, ictimai həyatda özünü belə də təsdiqləmişdir.

Yadıma milli dəyərlərimizin kamil daşıyıcısı, həmişəyaşar şairimiz Bəxtiyar Vahabzadənin 1999-cu ildə "525-ci qəzet"in 22 dekabr tarixli sayında 75 illik yubileyi münasibətilə çap etdirdiyi məqaləsi düşür. Arxivimdən həmin qəzeti tapıb o yazını oxudum. Ağlın, səbrin və dözümün təzyiqi kəllə-çarxa qalxsa da, qayıdıb o yazını bir də təkrar oxudum. Allahdan gizlin olmayan bəndələrindən niyə gizlin qalsın ki?! Böyük şairin ömrü boyu dostluq etdiyi, məsləhətlərindən, tövsiyələrindən bəhrələndiyi əqidə və məslək dostu Şirməmməd Hüseynov şəxsiyyətinə həsr etdiyi bu yazının son sətirləri sanki əmimlə vida mərasimində səslənən hiss və duyğuların kövrək notlarına çevrilərək məni bir daha nostalji hisslərə köklədi:

- Əziz dostum, sən vətənpərvərlik, düzgünlük, haqsevərlik, gözütoxluq kimi bir çox mənəvi xüsusiyyətlərinlə mənə həmişə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış böyük əqidəli ziyalılarımızı xatırlatmısan. H.Zərdabi milli mətbuatımızın təməl daşını qoydusa, sən bu böyük işin davamçısı kimi bir neçə jurnalist nəslinin müəllimi olmusan.

Anan səni sözün həqiqi mənasında müəllim doğub. Çünki sən yalnız auditoriyada yox, həyatda da müəllimsən, öyrədirsən. Buna görə də mən burada "müəllim" sözünü yalnız lüğəti mənasında deyil, daha geniş örnək, nümunəvilik mənasında işlədirəm. Sən öz əxlaqın, ləyaqətin, dönməzliyin, təmizliyin, bütövlüyün, mərdliyin və kişiliyində həm öz yaşıdlarına, həm də çağdaş gəncliyə nümunəsən.

Əmim haqqında yazdığım və haqqında yuxarıda söhbət açdığım "Tanrının bizə bəxş etdiyi insan" adlı yazımın sonunu belə tamamlamışdım: Balaca Şəki həyətində bəzən ətrafına yığılan doğmaları arasında onu çox xoşbəxt, taleyindən razı bir insana – bir ata, bir əmi, bir baba və nəhayət uca millətimizin yüksək qiymətləndirdiyi bu adama baxıram və ürəyimdəki duamı bir daha Tanrıya ün-

vanlayıram: "Allahım, bu insanı bizə bəxş etdiyinə görə sənə şükürlər olsun!"

Əmimlə vida mərasimində insanların axın-axın gələrək kədərimizi, ağrı və acılarımızı bölüşdüklərini, urəyi daim vətən eşqi ilə çırpınan, müəllim, alim, publisist və vətəndaş oğlunun dəfnində dəniz kimi dalğalanan insan dənizinin içində də ürəyimdə dualarımı edib, ulu Tanrıya belə pıçıldayıb, belə də ünvanladım: "Allahım, mənim xalqımı qoru, ona bəxş etdiyin, indi də dərgahına apardığın bu insanın son məkanını behiştlik elə, rahat yatsın, qoy ruhu da şad olsun! Amin!".

Onun haqq dünyasından sonra da, əvvəllər də haqqında çoxlu sayda məqalə, məktub, ağrı və kədərlə dolu materiallar yazıldı.

Onları oxuduqca əmimin həm pedaqoji, həm təbliğatçı alim həm vətəndaş həm də ziyalı kimi fəaliyyəti bir anlıq gözlərimin önündən keçdikcə bir daha əmin oldum ki, o həqiqətən çox mənalı bir ömür yaşayıb. O şərəfli xalqımızın azad demokratik əsaslarda inkişafı xoşbəxt gələcəyi üçün öz ömrünü şam kimi yandırıb, ürəyini xalqının işiqlı sabahlara gedən yolunda bir məşələ döndərib, onun yaratdığı irs, qoyub getdiyi yol bundan sonra da gərəkli olacaq və millətimizə, xalqımıza zaman -zaman xidmət edəcək.

Yusif HÜSEYNOV

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

Şirməmməd Hüseynovun Cümhuriyyət qurucuları ilə bağlı silsilə yazıları müntəzəm olaraq "525-ci qəzet"in hər şənbə buraxılışında dərc edilmişdir. Biz "525"-in Ustadımıza həsr olunmuş xüsusi buraxılışında həmin silsilədən imzaladığı son səhifələri dərc edirik.

İlk Cümhuriyyətimiz: olmuşlar və düşüncələr

Neçə min illik dövlətçilik tariximizdə ilk dəfə "Azərbaycan" adlı müstəqil dövlətimizi – Xalq Cümhuriyyətini yaratmış, qısa müddətdə olsa da şərəflə yaşatmış və dünyaya tanıtmış istiqlal mücahidlərimiz məcburi fasilə dövründə mühacirətdə nələr yazmış, nə düşünmüş, bizlərə nəyi vəsiyyət etmişlər – oxuyaq, düşünək, onlarla və bu günümüzlə fəxr edək!

Şirməmməd HÜSEYNOV

"ODLU YURD" ÇIXARKƏN
A.Ergün Çinar

XIX yüz ilin başlarında Azərbaycanı istilaya başlayan ruslar, yüz ilin ilk çərəyində Azərbaycan güneyi İran-Qacar dövlətində qalmaq üzrə feilən ikiyə ayırmışlardı. Zəif Azərbaycan xanlıqlarının müqavimətlərini qolayca alt edən Çarlıq Rusiyası mövcud durumu Osmanlı dövləti ilə yapdığı Ədirnə anlaşması (1829) və İranla yapdığı Türkmənçay anlaşması (1828) ilə rəsmiləşdirdi və İrəvan və Naxçıvan xanlıqları da daxil olmaq üzrə Azərbaycan Araz nəhri ilə Talış dağları sınır olmaq üzrə ikiyə ayrıldı.

Çarlıq idarəsi bu tarixdən etibarən İrana rus kolonizasyonunu təmin üçün çeşidli tədbirlərə baş vurdu. Özəlliklə Qarabağa köçürülən İran ermənilərı ilə bu məntəqənin etnik tərkibi dəyişdirildi. Yüz il boyunca yapılan dəmir yolları, limanlar, Bakı neftinin Avropa sərmayəsinin yardımı ilə işlətməyə başlaması ilə Azərbaycanda modern anlamda bir tacir sinfi ortaya çıxdı. Genişlənən təhsil müəssisələri vasitəsilə də batılı fikirlər yayılmağa, ədəbiyyat, sənət və mətbuat sahəsində fikirlər gəlişməyə, ədəbiyyat, sənət və basın sahəsində özünü göstərməyə başladı.

Azərbaycanda çıxan ilk türk qəzetəsi Həsən bəy Zərdabi tərəfindən 1875-1877 illər arasında yayınlanan "Əkinçi" qəzetəsidir. "Əkinçi" çarlıq idarəsincə qapadıldıqdan sonra Hacı Səid Əfəndi Ünsizadə yaxşı qeyrət etdikdən sonra "Ziya" ("Ziyayi-Qafqasiyə") ünvanlı qəzet Tiflisdə nəşr edilməyə başladı. 1879-1884 illəri arasında çıxan qəzetə Azərbaycan aydınlarını təmin etməsə də yazarları arasında S.Ə.Şirvani, N.Vəzirov, S.Vəlibəyov kimi önəmli aydınlara da təsadüf olunmaqdadır. Yenə Tiflisdə 1883-1891 illəri arasında 123 sayı çıxan "Kəşkül" də ehtiyatlı dilinə, "siyasətdən" uzaq durmasına baxmayaraq, digər Azərbaycan mətbuat orqanları kimi qapadılmaqdan qurtaramamışdı. 1905 inqilabı öncəsində çıxan son türk qəzetə "Şərqi-Rus" qəzetəsi olub. M.Şaxtaxtinskinin redaktorluğu altında 1905 ilinə qədər davam etmişdir. 1906 ilində nəşrə başlayan və 1931 ilinə qədər Cəlil Məmmədquluzadə tərəfindən nəşr olunan mizah ağırlıqlı "Molla Nəsrəddin" məcmuəsi sadəcə Azərbaycan üçün degil, İran həyatını anlamaq üçün də mühüm bir dərgidir. "Molla Nəsrəddin" sahib ola gəldigi din qarşıtı təvrini sovet idarəsində çox qaba bir hala gətirəcək əski təsirini qeyb etmişdir.

1905 rus inqilabına qədər Azərbaycan mətbuat həyatı ağır senzor şərtləri qəzetələrin sıxca qapadılması daima ehtiyatlı bir lisan qullanması kibi səbəblərlə çox verimli olmamışdır. Qəzetə çıxarmaq üçün yapılan pək çox təşəbbüs isə Çarlıq idarəsincə qəbul görməmişdir. Çarlıq Rusyanın Yaponiya ilə yapılan savaşdan məğlub olaraq çıxması ilə 1905 ilindən etibarən Rusiya Azərbaycan türklərinə nisbi bir mədəni sərbəstlik vermək zorunda qaldı. Qəzetə çıxarmaq, xeyriyyə cəmiyyətləri qurmaq, okul açmaq kibi xüsuslarda bəlli ölçülərdə qolaylıqlar sağlanmağa başlandı. 1905 sonrası çıxan "Həyat", "İrşad", "Tərəqqi" və "Füyuzat" kibi qəzetə və məcmuələrdə nisbi hürriyyət havasında daha dolğun və daha qəlitəli yazılar görülməyə başlandı. Bu mətbuat orqanlarında özəlliklə İran inqilabı və jöntürk hərəkatı ilə ilgili çox sayda yazı və yoruma yer verildiyi görülməkdədir. İstanbul türkcəsinin və Osmanlı imlasının hakim olduğu Azərbaycan mətbuatı sıx-sıx Osmanlı elm və fikir həyatından və ədəbiyyatından bəhs edərək iqtibaslarda bulunurdu. Tağıyev kibi bir petrol zəngini xeyirsevərcə dəstəklənən Azərbaycan mətbuatında Əhməd Kəmal Bəy kibi önəmli bir isim də boy göstərmiş, müəllim Cövdət Bəy kibi önəmli bir egitimçi də Tağıyevin dəvətilə Bakıya gəlib Azərbaycan maarifinə hizmət etmişdi.

1905 Rus inqilabından Azərbaycan Xalq Cümhuriyətinin yıxıldığı 1920 tarixinə qədər Azərbaycan mədəniyyət və ədəbiyatında Osmanlı təsiri belirgin bir şəkildə hiss edilmişdir. XIX yüz ilin 2-ci yarısından etibarən artan rus nüfuzu və tənəzzülə uğrayan şiə-fars mədəniyətinin 1905 rus inqilabı sonrasında təbii bir nüfuzedici gücü olan Osmanlı-Türk mədəniyyətilə yarışmayacaqları görülüyordu.

Ekim (oktyabr) 1917 Rus inqilabının Azərbaycan tarixində önəmli bir dönüm nöqtəsi olmuşdur. İxtilal sonrası təsis edilən Qurucu Məclisin 1918 ocağında (yanvarında) bolşeviklərcə dağıdılması Rusiyada parlamentar bir demokratisinin qurula biləcəginə olan ümidləri söndürmüş və Qafqas xalqlarında bağımsızlıq fikrini alovlandırmışdı. 28 Mayıs 1918-də elan edilən və 27 nisan 1920-dəki rus işğalına qədər yaxlaşıq 2 il sürən bağımsızlıq dönəmində Azərbaycanda siyasi, iqtisadi və mədəni sahələrdə önəmli atılımlar yapılmış, Türkiyədən öyrətmənlər və dərs kitabları gətirərək, İstanbul türkcəsi yayğınlaşdırılmışdır. Bolşevik işğalından sonra isə Müsavat Partiyası mənsublarına yönəlik təqiblər başlamış, çox sayda müsavatçı və aydın tutuqlanmışdır. Pək çox Azərbaycan ziyalıları mövcud durum dolayısı ilə başda Türkiyə olmaq üzərə İran, Almanya, Fransa və Finlandiya kibi ölkələrə sıxınmışlardır. Azərbaycan mühacirləri Azərbaycan içində II Dünya Savaşına qədər sürən və zaman-zaman silahlı üsyan və müqavimətə dönüşən mücadiləyi Azərbaycan dışında mətbuat və siyasət sahəsində icra etməyə başlamışlardır.

Azərbaycan istilası vaxtı və daha sonra Azərbaycandan qaçmağa müvəffəq olan müsavatçılar başda İstanbul olmaq üzərə müxtəlif mərkəzlərdə toplanmağa və mücadiləyə başladılar. İstanbulda bulunan müsavatçılar Məhəmməd Əmin Rəsulzadənin də aralarına qatılmasını mütəaqib Azərbaycan davasının mühacirətdəki ilk dərgisi olan "Yeni Qafqasya" çıxarmağa başladılar. "Yeni Qafqasya" türk qamuoynunda böyük ilgi gördü. Türk Ocaqları bütün şöbələri naminə dərgiyə əbunə oldu. Dərgi İran, Misir, Hindistan, Afqanistan kibi Şərq ölkələrində də ilgi ilə qarşılanarkən Azərbaycandakı Sovet mətbuat orqanlarında isə ağır tənqidlərə və qaralamalara məruz qalmışdır. "Yeni Qafqasya" Sovet Rusiyasının basqısı ilə 1927 ilində baqanlar qurumu qərarı ilə müzur nəşriyatda bulunduğu gərəkçəsilə qapadılmışdır. "Yeni Qafqasya"nın qapadılmasından çox qısa bir sürə sonra "Azəri Türk" dərgisi yayınlanmağa başladı. 1 şubat (fevral) 1928-dən 1 mart 1931-ə qədər toplam 32 sayı yayımlanan dərgi "Yeni Qafqasya"nın davamıdır.

"Odlu Yurd" dərgisi isə "Azəri Türk"ün yayınını davam edərkən başlamışdır. "Odlu Yurd"u Məhəmməd Əmin Rəsulzadə və Mirzə Bala 1929-1931 illəri arasında 31 sayı çıxarılmışdır.

"Odlu Yurd" zəngin yazar kadrosu və geniş bir fəxri müxbir dəstəsilə başda Türkiyə, Azərbaycan və İran olmaq üzərə çox etkili olmuşdur. Dərgi mövcud yasağa rəğmən qaçaq yollarla Azərbaycana daxil olmuşdur. "Odlu Yurd" və digər mühacir dərgiləri haqqında kommunist Azərbaycan mətbuatında ağır və atəşli tənqidlər yapılmasının bir səbəbi də bu durumdur. "Odlu Yurd" İranda anti-türk pəhləvi rejimini kəndincə haqlı sayıla biləcək səbəblərlə açıqca tənqid etməkdən çəkinməsinə rəğmən İrana girişi yasaqlanmışdır.

"Odlu Yurd"da Azərbaycan istiqlal mücadiləsi tarixi, Müsavat Partisi, Azərbaycanın içində bulunduğu mövcud durum, Azərbaycan mühacirləri və fəaliyyətləri, Azərbaycanda icra olunan kollektifləşdirmə hərəkatı, Azərbaycan petrolu, dünya siyasəti içində Azərbaycanın vəziyyəti, Azərbaycan tarixi, Azərbaycanda maarif həyatı, Azərbaycan və Rusya basınından iqtibaslar, İran, Türkmənistan, Əfğanıstan və Qafqasya xəbərləri, kitab və qəzetə tanıtımları kibi mövzularda ağırlıqla yer verilmiş pək çox ölkəyə yayılmış bulunan Azərbaycan kolonisi ilə ilgili xəbərlər yanında Dərgi Türk siyasi həyatı ilə ilgili yorum və xəbər verməkdən genelliklə qaçınmamışsa da, zaman-zaman Türk mətbuatından iqtibaslar yaparaq Mustafa Kamal Paşa və devrimləri dəstəkləyən hərarətli bir dil qullanmışdır.

"Odlu Yurd" böyük bir gücə qarşı ciddi bir himayə görməkdən çox sıxıntılı və zor bir yayın həyatı sürmüşdür. Bu durumla bağlantılı olaraq da dərgidə müstəcar isimlər və rümuzlara (rəmzlərə) sıxca raslanılmaqdadır. Dərginin 2 ana yazarından biri olan M.Ə.Rəsulzadənin M.Əmin, Azəri, Mirzə Balanın Daşdəmir, Kamal, M.B.Məhəmmədzadə kibi müstəcarlar isimlər qullandığı görülməkdədir.

Mühacir Azərbaycan mətbuatı Türkiyə kamu oyununda da etkili olmuşdur. M.Ə.Rəsulzadə, Mirzə Bala, Abdullah Battal (Taymas), Mir Yəqub, Əhməd Cəfər oğlu Mustafa Çokayoğlu, Məhməd Ağaoğlu, Şəfi Bəy Rüstəmli, Nağı Keykurun, Hüseyin Baykara, Hilal Münşi kibi zəngin və qəlitəli bir yazar kadrosu olan mühacir Azərbaycan mətbuatı məaləsəf Sovet Rusyanın Türkiyəyə qarşı yapdığı ağır təzyiqlər nəticəsində çox uzun ömürlü olamamış və sıx-sıx qapatılmışdır. Eyni aqibətə "Odlu Yurd" da uğramış və 31 sayından sonra tətil edilmişdir. Bu tarixdən

sonra yurd dışına qoyulan Müsavat nəşriyyatı zaman-zaman Türkiyəyə giriş yasaqlarına məruz qalmış və özəlliklə Türkiyədəki oxucu kütləsinə uluşamamaqdan dolayı ciddi maddi sıxıntılara uğramışdır.

1923-də "Yeni Qafqasya" ilə İstanbulda başlayan və Avropanın müxtəlif şəhərlərində davam edən Azərbaycan mühacir mətbuatı, kəndisi ilə eyni sırada yürüyən qardaş Türkistan, İdil-Ural və Krım mətbuatı ilə birlikdə Türk ürfanına Sovet Rusya məhkumu millətlərin tarixinin araşdırılması və öyrənilməsi üçün misilsiz bir xəzinə buraxmışdır. Bu fədakar insanlar hər zaman təqdirlə və şükranla anılacaqlardır. Nə acıdır ki sadəcə dərgi və qəzetələrlə deyil yayınlanan çox sayda kitab, broşur, bəyannamə və s. ilə müəzzəm bir yekuna ulaşan bu zəngin müqtəsabat təkrar mədəniyyət həyatımıza qazandırılmamışdır. Gündən-günə uzaqlaşdığımız bu böyük mizas təkrar mədəni həyatımıza qazandırılmalı və yeni çalışmalara ilham qaynaqlığı etməlidir.

"Odlu Yurd" yayına hazırlanarkən tibqibasını yapılması üçün bilgisayar ortamına axtarılaraq mümkün olduğunca təmizlənmişdir. Bu konuda əməyini əsirgəməyən sayın Musa Sarıqayaya təşəkkür edirəm. Tibqibasının sonuna eklənən indeksin istifadəyi kolaylaşdıracağı aşikardır. Yolumuza bir digər "M.Ə.Dərgisi" olan "Bildiriş" ilə davam edəcəyiz. Oxucuların göstərəcəyi ilgi və həssasiyatın bu yola davam etmək üçün əlzəm olduğunu söyləməyə bilməm lüzum varmı? Son olaraq böylə bir yükü də yüksəlmədən qəbul etdiyi üçün Məhməd Varış Bəyə Türk ürfanı adına təşəkkür etmənin bir vacibə olduğunu söyləməliyəm.

A.Ərgün Çinar,
"Məhəmməd Əmin Rəsulzadənin doğumunun 130 ili xatirəsinə"
"Odlu Yurd" (1929-1931), cild I,
Kitab evi, İstanbul, 2014

"QAFQASYA DAĞLILARI"

Qafqasya Dağlılar firqəsinin fikirlərini nəşr etmək üzərə Parisdə çıxmaqda olan "Qafqasya Dağlıları" məcmuəsinin kanuni-sani (yanvar) - şubat (fevral) nüsxəsi intişar eyləmişdir.

Bu nüsxə əksəriyətlə polemik məqalələrə həsr edilmişdir. "Dağlılardakı ayrılma hərəkatı və onun mənşələri" ünvanlı məqalədə keçənlərdə Milyukovun qəzetəsində "Qafqasyalılar İttihadı" namına bəyanatda bulunaraq Qafqasya separatizminin əsassız olduğundan bəhs edən zata cavabən yazılan müfəssəl məqalədə Qafqasyadakı milli hərəkatların əsaslı və ciddi olduğu əsaslı surətdə isbat və Qafqasya Dağlılar firqəsinin ideolojisi şöyləcə təsbit olunuyor:

"Rusya ilə nə lisan, nə adət, nə irq, nə hars, nə də əqrəbalıq bağları ilə bağlı olmayan biz qafqasyalılar toprağımızın məhsulatına bizzat malik olmaq istəriz. Bizim bu adilanə arzumuz "biz sizi qüvvətlə ram edəriz!" seyhasına məruz qalıyor. Biz bunu bərayi məlumat işidir, fəqət bununla bərabər qafqasyalıların

adilanə istəklərinə hizmətdən geri qalmıyoruz".

Şamilin qeyb etdiyi davayı hanki qüvvətlə şimdi siz qazanacaqsınız? sualına məcmuə atidəki sətirlərlə cavab veriyor:

"Avropa şərqindəki millətlərin böyük inqilabı hala davam etməkdədir. Moskva ilə Qafqasya arasında dərin bir uçurum açılmışdır. Rusya ilə Qafqasyayı tutan yeganə bağ kommunist firqəsidir. Bunun xaricindəki digər bütün bağlar çoxdan qopmuşdur. Moskva Qafqasyadan alıyor, fəqət müqabilində oraya bir şey vermiyor. Gələcək fırtınalarda isə bu bağ – Kommunist firqəsi dəxi sabun köpüyü kibi bir ləhzədə partlıyacaqdır".

Bundan başqa mühərrir milli vəhdəti formula edən münəvvər zümrə ilə, Cenevrədəki Cəmiyyəti Əqvam mövcudiyətini də mühüm birər qüvvət kibi tələqqi ediyor.

Məcmuənin tədqiqinə görə Milyukovun qəzetəsində Qafqasya istiqlal hərəkatını şübhəli görən "Qafqasya İttihadı"nın 2-3 osetinlə bir inquş və 2-də dəmiryolçu ermənidən ibarət imiş.

"Rus imperyalizminin könüllüləri" ünvanlı məqalə erməni Kuqasov tərəfindən Parisdə rusca olaraq nəşr edilən "Vozrojdeniye" qəzetəsinə bir cavab təşkil etməkdədir.

Bu məqalə aşağıdakı cümlə ilə bitiyor:

"Bütün Qafqas Şimalını soyuk və zülmətilə qəti əlaqə etmiş günəşlə işıqlanan Ağ Dənizə doğru üz çevirmiş, Avropa mədəniyyət, hürriyyət və səadətinə doğru istiqamət almışdır. Bu andan etibarən Qafqas sadə coğrafi deyil, eyni zamanda siyasi bir fikir məfhumudur. Qafqasya istiqlalı günün məsələsidir. Bu hadisənin böyüklüyü qarşısında beynəlmiləl yağma, əsarət və qırbac idarəsinin gönüllü ajanlarına düşən vəzifə ancaq susmaqdır".

Rusya millətlərindəki ayrılma hərəkatına qarşı düşmənanə vəziyyət alan rus siyasilərindən birisi də sabiq müvəqqəti hökumət rəisi bulunan Kerenskidir. Kerenskinin Parisdə nəşr etməkdə olduğu "Dni"də yazdığı bir məqaləsinə cavabən digər bir məqaləsində "Qafqasya Dağlıları"nın, yəni Kerenskinin "Rusyanın daha ziyadə parçalanmasını İngiltərə kəndisi üçün müzurr və qeyri-məqbul görüyor", deyə yazdığını istihza etdikdən sonra:

"Xayır əfəndilər, sizin bilməm nərədə isə eşitdiyiniz böyük "imperyalist" dövlətlərin "dur!" demələri milli həyat dərinliyindən gələn bir istəyi dura-maz!

Bu istək isə – milli istiqlala doğru getməkdən və istər qızıl, istərsə bəyaz olsun Moskvaya qarşı ittihad etməkdən ibarətdir".

Bu məqalələrdən maəda (başqa) məcmuədə "Rusyanın Ermənistan siyasəti", "Türküstanda beynəlmiləl münasibət" və sairə kibi məqalələr vardır.

"Odlu Yurd", Nisan (aprel) 1929, №2

DİQQƏT EDİLƏCƏK BİR İXTİFAL (MƏRASİM)

24 həziranda İstanbul milli istiqlal uğrunda mücadilə edənlərin diqqətlərini bilxassə cəlb edəcək bir ixtifalə şahid oldu. Lehistan əskəri heyəti tərəfindən Hələbdən alınaraq, Lehistana götürülən lehli (polyaq) Murad Paşanın kəmiklərini təşyi üçün Sirkəci stansyonunda səmimi bir ixtifal tərtib edildi.

Murad Paşanın Türk və Leh bayraqlarına sarılı bulunan tabutu üzərinə Türk ordusu, Lehistan, Macarıstan, Fransız, Misir səfarətləri ilə digərləri naminə birər çələng qoyulmuşdu.

Tabut Lehistan Rəisi Cümhuruna məxsus salon-vaqona qoyulmadan əvvəl Lehistan səfiri Müsyo Olşevski, Türk Ordusu naminə Emin paşa və sairləri tərəfindən nitqlər irad edilmişdir.

Leh səfirinin gözəl və mənidar nitqindən atidəki cümləyi alıyoruz:

"... Vətənini tərkə icbar edilən bu qəhrəman Türkiyə toprağında müsafirpərvərliyə nail olmuş və bu məmləkətdə təqdir edildiyindən kəndisinə yüksək bir əskəri rütbə tövcih edilmişdir. Bundan dolayı Türkiyə toprağına hörmətlər...".

Emin Paşanın nitqindən daha atidəki sətirləri qeyd ediyoruz:

"Ana vətənindən cüda olaraq ölən bu müqəddəs ölüyü milli bir istiqlal qəhrəmanı olaraq təbcil edərkən Türk ordusunda bir Türk kibi hizmət və böyük rütbələr qazanan əziz Fəriqimizin ifa etmiş olduğu iyi hizmətlərini Türkiyə Cümhuriyyəti Ordusu naminə təqdirən bir daha təzkər etməyi vəzifə biliriz".

Macarıstan səfiri ilə Lehistan əskəri heyəti naminə dəxi birər nitq söyləndikdən sonra böyük tabutu möhtəvi (aparan) tren Türk əskəri qitəsinin təzim mərasiminin ifasından sonra hərəkət eyləmişdir.

Lehistan mültəcisi möhdəti Murad Paşanın əsil ismi general Bemdir. Lehistan tarixində pək mühüm bir rol oynayan bu general bütün həyatını mücadilə içərisində keçirmişdir.

Rusya, Avstriya və Almaniya tərəfindən təqsim edilən Lehistan, bir aralıq Napalyon tərəfindən qurtarılmışdı. O zaman Bem, yüzbaşı rütbəsində bulunmuş və lehli legionunda böyük yararlıqlar göstərmişdir.

1830 sənəsində Lehistanın Rusyaya qarşı qiyam etdiyi zaman Bem bu qanlı mücadilədə böyük qəhrəmanlıqlar göstərmiş və general rütbəsini almışdır.

İstiqlal hərəkatı əqim (nəticəsiz) qaldıqdan sonra hürriyyətpərvər general vətənindən uzaqlaşmağa məcbur olmuşsa da, Vətəni üçün çalışmaqdan xali qalmamışdır.

1848 sənəsində istiqlal mücadiləsinə atılan Macar qüvvətlərinin başına keçərək, Macarıstan istixlasını təminə müvəffəq olmuş, fəqət Rusyanın Avstriya yardımına göndərdiyi 200 min kişilik ordu ilə pək qəhrəmananə hərb etdikdən sonra Türkiyəyə iltica eyləmiş, Avstriya və Rusyanın müdaxilələrinə baxmayaraq Türkiyə tərəfindən himayə görmüşdür. General Bem Türkiyədə islamiyəti qəbul ilə Murad Paşa ismini almış və Türk əskəri hizmətinə alınaraq orduda böyük rütbələr qazanmış və nəhayət Hələb Valeliyində ikən vəfat etmişdir.

Böyük istiqlal mücahidi şimdi mütəşəkkir vətəndaşları tərəfindən hür və müstəqil Lehistana götürülüyor. Nə Məsud ölü!... Nə Məsud Vətən!...

"Odlu Yurd", temmuz (iyul) 1929, №5

ONUNCU İLDƏ!...

(Azərbaycan "Çeka"sının ildönümü münasibətilə)

1929 mayın 20-də Azərbaycan "Çeka"sının təşəkküründən 9 il keçdiyi üçün "Çeka"nın indiki rəisi Novruz Rzayev bu münasibətlə Bakıda türkcə nəşr olunan "Kommunist" qəzetəsində (№ 114) "Doqquz illik fəaliyyət" haqqında uzun bir məqalə yazmışdır. Rzayev məqaləsində "Çeka"nın tarixi təşəkküründən bu vaxta qədər Azərbaycan daxilində "Müsavat" firqəsinin gizli surətdə çalışan təşkilatı ilə vaqe olan mücadiləsindən, "Müsavat" firqəsinin 1922 sənəsindən 1929 sənəsinə qədər "əskiyi (köhnəni) iadə və kommunist diktatorluğunu yıxmaq" üçün göstərdiyi inaddan bəhslə bilxassə 1928 sənəsi üzərində duruyor, diyor ki:

"1928 sənəsində Azərbaycan Fövqəladə Komisyonu - "Çeka" "Müsavat" firqəsinin yeni mərkəzini (?) kəza və Bakı şöbələrini, əskəri və terror qrup və təşkilatlarını kəşf və təsviyə etdi (?)".

"Kəşf və təsviyə olunan (yəni Sibiryaya sürülən, qətl olunan və s.) "Müsavat" v.s. kontrrevolisyon təşkilatları hüdud xaricində olan əksi-inqilab idarə və təşkilatları ilə münasibətdə bulunmuş, onlardan yardım və direktiv almışlardı..."

Fəqət bolşeviklərin "Çeka" mütəxəssislərinə məxsus raporlarında bir lisan vardır. Daima "Müsavat" aradan qaldırıldı, "gömüldü" deyən və böylə deməyə alışqan olan, "Müsavat"ın əbədi olaraq məhv edildiyini iddia edən çekistlər bu dəfə yalnız "təsviyə" təbirilə iktifa ediyor, eyni zamanda böyük bir qorxu içərisində bulunduğuna bir əlamət olaraq diyor ki: "Məhəmməd Əmin Rəsulzadələr, Sovetlər İttifaqını içərisindən dağıtmaq istiyorlar. Şübhə yoxdur ki, bu təşəbbüslər nəticəsiz qalacaqdır. Çünki proletar diktatorluğunun lazımı orqanları ("Çeka", Qızıl Ordu) Sovet hökumətini sarsıtmaq istəyən hər təşkilatın kökünü vaxtlı-vaqtında yandırmaqdadır".

"Azərbaycan çekistləri, Azərbaycan "Çeka"sı 10 ilinə daxil olarkən kəndi sıralarını bir qat daha möhkəmlədəcək və fəaliyyətini artıracaqdır".

İstilanın 10-cu ilində və "Çeka" fəaliyyətinin 10 ildən bəri 10 minlərlə milliyətçini imha (məhv) və dəfələrlə "Müsavat"ı kəşf "təsviyə" və "ilğa" eyləmədikdən sonra, yenə "sıralarını möhkəmlətmək" ehtiyacını hiss eyləməsi, "Müsavat" və müsavatçı adı qarşısında Azərbaycan kommunistlərinin nə böyük bir qorxu duyduqlarını göstərməkdədir. Bu əndişə müsavatizmin və bu təbirin ifadə etdiyi Azərbaycan İstiqlalçılığının nə dərin bir kökə malik olduğuna dəlil ola bilir.

9 ildən bəri qətiyyən sönmədiyini, getdikcə alovlandığını və Sovet hökumətindən ötrü, harsı, ədəbi, iqtisadi, ictimai-siyasi və əskəri cəbhələrdə böyük bir təhlükə təşkil eyləməyə başladığını, gəncliyin bilxassə məktəbli və darülfünunların, hətta komsomolların belə, bu dərin milli hərəkatda iştirak etdiklərini, həbslərin, sürgünlərin, qətllərin Milli Hərəkatda iştirak etdiklərini, həbsləri, sürgünləri, qətlləri sövq və idarə edən "Müsavat"ın kəndi fəaliyyətini durdurmadığını rəsmi "Çeka" reportlarından öyrəniyoruz. Öyrəniyoruz ki, Rzayevin təbirilə "ümumi Rusiya "Çeka"sının direktiv və rəhbərliyi ilə" Rusiyanın istila və imperyalizmi ilə mücadilə edən və Azərbaycanın istiqlal və qurtuluşu üçün "Çeka"nın qanlı bodrumlarında canlarını sevə-sevə verən Azərbaycanın həqiqi övladını imhayə məmur bulunan Azərbaycan "Çeka"sı, qanlı və vəhşi fəaliyyətinin 10-cu ilində bu qüvvətli və şanlı Milli Hərəkata qarşı daha hızlı bir surətdə mücadilə yürütmək məcburiyyətini hiss edir.

"Çeka"nın bu "daha qüvvətlənmək" ehtiyacı, bizim daha ziyadə qüvvətli olduğumuzdan ileri gəlir. Bu da Sovet rejimi və bolşevik hakimiyyətinin zəifliyini, milli istiqlal hərəkatının canlılığını və təbii bir xalq hərəkatı olduğunu göstərməkdədir.

Bu, istiqlal hərəkatının və rus istilası ilə olan mücadilənin davam eyləməkdə olduğuna şəhadət edər. Göstərir ki, verdiyimiz minlərcə qurbanlar üzərinə yeni qurbanlar əlavə etmək qarşısındayız.

"Çeka"nın bu 9 sənəlik vəhşətini xatırlarkən vermiş olduğumuz böyük istiqlal qurbanlarının müqəddəs xatirələri önündə diz çökəlim! Onlara, o Pirilərə, Məhəmməd Bağırlara, Dadaşlara, Ağa Kərim və Ağa Səlimlərə minlərcə rəhmətlər göndərəlim. Verdiyimiz qurbanların və verəcəyimiz yeni şəhidlərin izlərilə o böyük istiqlal qayəsinə doğru yürütməkdə davam edəlim. Sıralarımızdan Rəhimlərin, Əli Yusiflərin, Nəsrullah və Əbülfəzlərin Məhəmməd Həsən və Vahabların buzlu cəhənnəmlərə göndərilməsi, Piri, Dadaş və Qasımların qanlı bodrumlarda şəhadəti əzmimizi sarsıtmasın, biz yeni qurbanlar verəcəyimizdən qətiyyən qorxmuyalım. Yalnız verəcəyimiz və verdiyimiz qurbanlardır ki, bizi hürriyyət və istiqlala qovuşduracaqdır.

Böyük ölülərimizin, "Çeka"larda uğrunda can verdikləri müqəddəs Azərbaycan istiqlalına, yenə böyük ölülərimizin mübarək vücudlarına basaraq ilərləməliyiz.

Zalım və vəhşi "Çeka"nın varlığına olan nifrət və lənətlərimizi yalnız bu surətdə izhar edəlim! İstiqlal mücadiləsindəki inadlarımızla...!

M.B.MƏHƏMMƏDZADƏ,
"Odlu Yurd", temmuz (iyul) 1929, №5

"MÜSAVATÇI" KOMSOMOLLAR

Martın 6-da (1929) Bakıda Azərbaycan Kommunist Firqəsinin ümumi qurultayı açılmış. Qurultayda Azərbaycan Kommunist Firqəsi katibi-ümumisi Əli Heydər Qarayev 2 gün davam edən bir rapor vermişdir. Bakıda çıxan "Kommunist" qəzetəsi ilə Tiflisdə nəşr olunan "Zarya Vostoka" qəzetələri 7, 8, 9, 10 mart tarixli nüsxələrində Qarayevin raporunu təfsilatı ilə dərc ediyorlar. Məzkur raporun "Zarya Vostoka"nın 10 mart tarixli və 2024 nömrəli nüsxəsində dərc olunan və Azərbaycan gənc kommunistlər təşkilatına aid qismində Qarayev demişdir ki:

"Azərbaycanda 178.000 gənc kommunist və 70 min namizəd vardır. Fəqət bu kommunist gənclər ideoloji cəhətdən nə haldadırlar? Bu yaxın günlərdə gizli

bir "Müsavat" təşkilatı kəşf olunmuşdu. Məzkur "Müsavat" təşkilatının əza (üzv) və aktiv təşkilatçılarının gənc kommunistlərdən ibarət olduğu meydana çıxmışdır. Bu surətlə görüyoruz ki, kommunist gənclik ufaq (kiçik) burjua nüfuzuna düşmüşdür.

Azərbaycan gənc kommunist təşkilatı içərisində "Müsavat" kəşfi şimdi 2-ci vaqeədir. 1-cisi 1928 sənəsi avqustunda vaqe olmuşdu.

"Odlu Yurd", nisan 1929, № 2

MİLLİ BAYRAĞIMIZA!

Türküstan yelləri öpüb alnını,
Söylüyor dərdini sana bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən,
Ərmağan yolla, sən, yara bayrağım!

***

Gedərkən Turana, çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başıma.
İzn ver, gözümdə coşan yaşıma,
Dinlətsin dərdini aha, bayrağım!

***

Qayı Xan soyundan aldığın rəngi,
Qucamış Elxanla müsəlman bəgi.
Elxanın övladı dinin dirəgi,
Gətirdin könlümə səfa bayrağım!

***

Köksümdə tufanlar gəldim iləri,
Öpüm kölgən düşən mübarək yeri.
Allahın yıldızı o gözəl pəri,
Sığınmış qoynunda aya, bayrağım!

CAVAD

Bir Turan yolçusu diyor ki:
Çox dolaşdım əski Şərqin ölü hissiz yurdunu,
Sübh olmuşdu, fəqət yenə bir oyanıq görmədim.
Anlamazdı kimsə onun o şübhəli dərdini,
Ağlamazdı ona kimsə, qəlbi yanıq görmədim.

Dedilər ki, öksüz Şərqin xəzan görmüş bağında,
Yeni başdan qızıl güllər, yasəmənlər açacaq.
Bu qaranlıq gecələrin ıssız, tutqun çağında,
Almas yıldız doğacaq da üfüqə yıldız saçacaq.

Dedilər, Azərbaycan türklərinin elində,
Əski atəş yeni başdan alovlanmış, coşmuşdur.
Vəhşi Qafqas dağlarının o bükülməz belində,
Bir Türk oğlu taleyinin arxasınca koşmuşdur.

Əvət, əvət bu gün Şərqə kəbə olan bu ölkə,
Yenə bir gün atəşilə-alovuyla yanacaq.
Bütün Turan oğuz nəsli, hətta bütün Şərq bəlkə,
Yenə onu təqdis ilə ziyarətgah sanacaq.

Ey Türk oğlu, səni tanrın Şərqə hadi göndərdi,
Yatmış yurdu qardaş kibi titrət, qaldır, oyandır.
Yeni, məsud bir həyata dəvət elə hər fərdi,
Ürəyində sönməyəcək bir təbii od yandır...

Əli YUSİF

USTAD 525-ci qəzet
Xüsusi buraxılış

"GÖZÜMDƏN SİLİNMƏYƏN XATİRƏLƏR"

Fakültəmizin sayılıb-seçilən müəllimlərindən biri-professor Cahangir Məmmədli professor Şirməmməd Hüseynovu özünün talismanı hesab edir. Onu tanıdığımız gündən indiyə kimi Şirməmməd müəllimin yanında görmüşük. Şirməmməd müəllim sevimli tələbələri içərisində onun adını birincilər sırasında çəkirdi. Müəllimimizin 95 illik yubileyi ərəfəsində Cahangir Məmmədli ilə söhbət etdik.

- Cahangir müəllim, Şirməmməd Hüseynov bu fakültədə hər kəsin müəllimi olub. Onun itkisi hamımızın qəlbini ağrıdır. Amma siz hər dəfə onun adını çəkəndə kövrəlirsiniz, göz yaşlarınızı saxlaya bilmirsiz.

- Mənim avtomobilimin maqnitofonunda dinləməkdən doymadığım bir türk mahnısı var: "Silinmiyor gözlerimden o hatıralar..." Məni ağladan gözlərimdən silinməyən o xatirələrdir.

Mən Rusiyanın Kamçatkasından əsgərlik illərinin sonunda bu Universitetə qəbul üçün sənəd göndərmişdim. O vaxt jurnalistika ixtisası Filologiya fakültəsində bir şöbə idi. Filologiya fakültəsinin dekanı Əlövsət Abdullayev, məndən qəbul imtahanı götürüb ədəbiyyat yazıdan və ədəbiyyat şifahidən "əla" lar yazan Ağamusa Axundov, Firidun Hüseynov bu universiteti sevgi ilə qucaqlamağıma səbəb oldular. Jurnalistikada dərsə başlayan gündən isə Şirməmməd müəllimlə rastlaşdım. Məni seminar məşğələlərindən bəyəndi. Dövlət imtahanında cavabımdan sonra mənim Universitetdə saxlanmağım haqqında təklifini protokola saldırdı. Doğrudur, onun bu qərarının reallaşmasına mane olmaq istəyən "güclü" bir müdir də çıxdı ortaya, amma Şirməmməd müəllimi öz qərarından heç bir qüvvə döndərə bilməzdi. Və mən bu gün həyatımın bütün məzmununu ifadə edən bu yüz yaşlı Universitetdə olduğuma görə o böyük insana -Şirməmməd müəllimə borcluyam.

- Şirməmməd müəllim bu fakültənin dekanı, kafedra müdiri olub. O günləri necə xatırlayırsınız?

- Şirməmməd müəllim lap gənc yaşlarından Universitetdə sayılıb, seçilib. Onun heç bir sözünə etinasızlıq olmayıb. Çünki tribunalardan, teleproqramlardan elə dəqiq, bəzən nöqsanlara qarşı elə sərt çıxışlar edirdi ki, onun obyektivliyi qarşısında Universitet rəhbərliyi başqa cür ola bilmirdi.

Şirməmməd müəllimin dekanlıq günlərində Universitet rektoru bütün dekanlara zəng edir ki, bəs, Mərkəzi Komitədən göstəriş var: Kəsiri olan bütün tələbələrə – imtahana gəldi, gəlmədi – bir saat müddətində müsbət qiymət yazılmalıdır. Rektorun bu tapşırığını istisnasız olaraq bütün dekanlar yerinə yetirir. Bircə Şirməmməd Hüseynov MK-nın bu tapşırığı ilə bağlı rəsmi sənəd tələb

edir və "tapşırığa" əməl etmir. Bir saat da keçir və məlum olur ki, MK-nın bu "tapşırığını" kəsiri olan bir tələbə saxta teleqramla özündən göndərib. Bax, bu da o dövrün "xakeri!"

- Tələbələrə münasibəti necə idi?

- Yaxşı tələbəni balası qədər sevən idi. Bir dəfə filfakın bizdə dərs deyən bir müəllimi qrupdakı 25 tələbədən 23-nə qeyri-kafi yazmışdı. Şirməmməd müəllim onu çağırıb sual vermişdi: "Bu qrupa necə dərs demisən ki, 25-dən 23-ü kəsilib?" Və heç cavab gözləmədən demişdi: "Çıx get və bir də bu fakültədə dərs deməyə gəlmə!"

O zaman Azərbaycanda Nevton Qriqoryan adlı bir kamança ustası vardı. Onun peşəkar bir ansamblı vardı. Bütün respublika bu erməni kamançaçını tanıyırdı. Bir gün bu kamançaçı Şirməmməd Hüseynova zəng edib ondan kəsiri olan bir tələbəyə qiymət yazmasını xahiş etdi. Şirməmməd müəllim rus bölməsində oxuyan bu erməni tələbənin çox savadsız olduğunu Nevtona anlada bilmədi və kamançaçı xahişində çox israr etdi. Onda Şirməmməd müəllim də ondan xahiş etdi ki, bəs, mənim bir qohumumu öz ansamblına işə götür. Nevton sevincək halda qohumunun nədə ifa etdiyini soruşdu. Şirməmməd müəllim cavab verdi ki, bu qohum heç bir musiqi alətində çala bilmir. Nevton təəccüblənir: "Bəs heç bir alətdə çala bilməyən adamı ansambla necə qəbul edim?" Şirməmməd müəllim gülə-gülə: "Bax, Nevton- dedi- sənin mənə tapşırdığın tələbə də elə mənim qohumumun günündədi. Ona görə də mən ona qiymət yaza bilmərəm. Getsin, oxusun, gəlsin"

- Şirməmməd müəllimlə bu qədər doğma münasibətdə olmusunuz. Ailədə necə adam idi?

- Mənim bu böyük müəllimimin ailədə necə olduğunu anlamaq üçün onun sədaqət nümunəsi, klassik Azərbaycan qadını adını daşıyan ömür-gün yoldaşı Ülkər xanıma və xalqa, millətə xidmətin ata yolunu tutan qızlarına-Fərəhə və Laləyə (mən onlara xanım demirəm, ögey görünə bilərəm) bələd olmaq kifayətdir. Hamımızın ağır günümüz idi. İyunun 24-ü, axşamdan itirdiyimiz bu böyük insanın yoxluğuna yanırdıq.

- Şirməmməd müəllimin dostları vardımı?

- Mənim müəllimim hər adamla dostluq etməzdi. Fakültəmizdə Qulu Xəlilov, Famil Mehdi. Ömrünün sonuna yaxın Qulu Xəlilov özünün vəsiyyət məktubunu ancaq Şirməmməd müəllimə yazmışdı.

Universitetin Hüquq fakültəsinin uzun müddət dekanı olmuş Məmməd (Mamed) Xələfov Şirməmməd müəllimin ən yaxın dostlarından idi. Hətta, bəzən mənim elə problemlərim olurdu ki, onu Məmməd müəllim dostundan xahiş edirdi.

Bəxtiyar Vahabzadə Şirməmməd müəllimin məsləkdostu idi. Onun "Leninlə söhbət" poemasının bütün epiqraflarını şairə Şirməmməd müəllim vermişdi. Təkcə bu epiqraflara baxmaq kifayətdir ki, poemanın Leninə aid deyil, daha çox milli düşüncəyə həsr olunduğu aydın görünsün.

Azərbaycan milli düşüncəsinin Tanrı səviyyəsi Xudu Məmmədov, Qırğızıstandan Çingiz Aytmatov, Qazaxıstandan Oljas Süleymenov, Rusiyadan Yasen Nikolayeviç Zasurski (MDU-da Jurnalistika fakültəsinin 50 ilə yaxın dekanı, bu gün həmin fakültənin prezidenti) onun yaxın məsləkdaşları idilər.

Bilirsiz, dostu həm adam özü seçir, həm də Allah verir. Məsələn, bizim Universitetdə bu gün də sayılıb-seçilən bir insan var: Akademik Vasif Babazadə. O da hər adamla dostluq edən deyil. Amma Şirməmməd müəllimi həmişə Tanrı sevgisi ilə qarşılayırdı. Qəribədir, iyunun 24-də Vasif müəllim mənə zəng etdi ki, bəs mən dünən Şirməmmədlə telefonla danışdım, nəsə səsi xoşuma gəlmədi, bir zəng elə gör nə var, nə yox. Mən də dünən müəllimin yanında-xəstəxanada olmuşdum. Amma onun səhhətindən şübhələnməmişdim. Vasif müəllimin deməsi ilə dərhal zəng elədim. Telefonu Fərəh götürdü. Və hönkürtü ilə bircə kəlmə dedi: "Cahangir əmi, elə yatıb ki, ayılana oxşamır". Mən bu xəbəri Vasif müəllimə çatdıran kimi dərhal ikilikdə onun evinə yollandıq...

- Şirməmməd müəllim sizi öz tələbəsi hesab edirdi. Siz bu adı doğrulda bildinizmi?

- Yox. Səmimi deyirəm, yox! Çünki ona bənzər müəllim olmağa heç kimin, o cümlədən mənim də gücüm çatmadı. Amma bir dəfə...

Bütün kafedra üzvləri ilə qəflətən mənim Rus jurnalistikası tarixi fənnindən dərsimə gəldi. Bu, mənim çox sevdiyim, dünyanı, klassikanı xeyli öyrəndiyim bir fənn idi. Hətta Şirməmməd müəllimin öz dəstəsi ilə qəfil gəlişi də məni qorxutmadı. O zaman Soljenitsın "Arxipelaq QULAQ", "Odin den İvana Denusoviça", "İ telyonok bodalcə dubom" və s. antisovet əsərlərinə görə SSRİ vətəndaşlığından məhrum edilmişdi. Nobel komissiyası dərhal onu Nobel mükafatına layiq gördü. Bilirsiz də, Fransız yazıçısı-Nobel mükafatı Laureatı Sartr bu mükafatın təqdimat mərasiminə getməməyini bir neçə faktla izah edir və faktlar sırasında onun belə bir fikri də var: Nobel komissiyası bu mükafatı Qərbdə əsl sənətkara, Şərqdə isə qiyamçılara verir.

Mən bu fikri dərsdə dedim və Soljenitsının Nobel mükafatı təqdimatındakı bir fikri üzərində dayandım. Dedim ki, "Pravda" qəzeti Soljenitsının nitqindən belə bir fikri kontekstdən çıxararaq dərc edib: "Dünyada rus olmaqdan böyük faciə yoxdur". Və qəzet bu sitatla oxucuya Soljenitsını qəsdən rus millətini sevməyən bir yazıçı kimi təqdim edir.

Mən kəskin şəkildə tələbələrə dedim ki, Soljenitsın belə bir fikri havayıdan deməz. Gərək "Pravda" onun çıxışını bütöv verəydi ki, biz də yazıçının niyə bu qənaətə gəldiyini biləydik.

Dərs bitdi və tələbələr fasiləyə çıxmaq istəyəndə Şirməmməd müəllim onlara "oturun" göstərişi verdi. "Dərsi tələbələrlə birgə müzakirə edəcəyik"-dedi. Doğrusu, mən "Pravda" ilə bağlı mülahizələrimə görə bərk qorxdum və bir də ki, pedaqoji təlimata görə müəllimin dərsini tələbələrlə müzakirə etmək olmaz. Bu müzakirə ancaq kafedrada olmalıdır.

Gördüm ki, dərsi dinləmiş müəllimlər də narahatdırlar. Şirməmməd müəllim əvvəlcə kafedra üzvlərinin fikirlərinə qulaq asdı. Onlar dərsi bəyəndiklərini bildirdilər. Və sonda Şirməmməd müəllim özü danışdı. Mənim ideoloji aspektdən narahat olduğum Soljenitsın, Nobel komissiyası və "Pravda" qəzeti ətrafındakı mülahizələrimə toxunub onu necə bəyəndiyini dedi və 1950-ci illərdə MDU-dakı aspirant illərində ona dərs demiş müəllimlərlə məni müqayisə etdi və bu anda heç dözə bilmədim və tələbəli-müəllimli hər kəs bu cavan müəllimin sevincdən, qürurdan dolmuş gözlərinin şahidi oldu.

Amma yenə də yox! Auditoriyada sosializm yarışının saxta rəqəmlərini lağa qoyan, Sov.İKP MK Baş katiblərinin qocalığının gətirəcəyi faciələrdən danışan, klassiklərimizin əsərlərinin nəşrlərində milli baxışları ixtisar edən tədqiqatçıların, ermənilərin düşmənçilik mövqeyini açıq-aydın dərc edən rus qəzet, jurnal, teleproqramlarını ifşa edən bu müəllimi, bu öncəgörəni heç kim əvəz edə bilmədi.

- Şirməmməd müəllim ödüllərə, dövlət mükafatlarına necə baxırdı?

- Müəllimim xalqa, millətə, mətbuat tarixinə göstərdiyi xidmətlərə görə heç vaxt, heç bir mükafat ummayıb. Onun 50, 60, 70 yaşında Universitet rəhbərliyi nə illah elədi layiq olduğu bu yubileylərin qeyd olunmasına icazə vermədi. Çox böyük insanlığı ilə seçilən o zamankı dekanımız Yalçın Əlizadə Şirməmməd müəllimin 75 yaşında ona belə bir fikirlə müraciət etdi: "Şirməmməd müəllim, indiyə qədər bir dəfə də olsun yubiley ilinizi qeyd etməyimizə icazə vermə-misiniz. Yaxşı, fakültə əhli bilir ki, siz icazə vermirsiniz, biz də bu tədbiri keçirmirik. Bəs bunu bilməyənlər necə? Elə düşünməzlərmi ki, bunu biz istəmirik?" Yadımdadı, Şirməmməd müəllim gülümsəyib heç nə demədi və çıxıb getdi. Onda Yalçın müəllimin başçılığı ilə, respublikanın sayılıb-seçilən jurnalistlərinin iştirakı ilə fakültədə onun 75 yaşını qeyd etdik.

Qaldı dövlət mükafatları, bu barədə bütün təşəbbüslər Prezident İlham Əliyevin özündən gəlir. Ümummilli liderimizin dövründə Əməkdar jurnalist, İlham Əliyevin dövründə "Şərəf" ordeni, Prezident təqaüdü kimi dövlət mükafatlarına layiq görüldü.Yeri gəlmişkən, deyim ki, müəllimimlə birlikdə eyni gündə İlham Əliyev məni də Prezident təqaüdünə layiq görmüşdür.

Şirməmməd müəllimin ömür yolu haqqında yüzlərlə xatirə danışmaq olar. Məncə, bu ömrün elə bu qısa akkordları da onu tanımağa bəs edər.

Söhbətləşdi
Günel MEHDİZADƏ

O, ÇOX ELMLİ VƏ CƏSARƏTLİ MÜƏLLİM İDİ!!!

(Müdrik müəllimim Şirməmməd Hüseynovun əziz xatirəsinə)

Bakı Dövlət Universitetinin məzunları onu universitetlərin "şahı" adlandırırlar. Azərbaycan elminin ən qüdrətli kəşfçilərinin təhsil aldığı, həm də pedaqoji fəaliyyətlə məşğul olduqları bu universitetin yetirməsi olduğuma görə mən də bu fəxr hissini hər gün yaşayıram. Bir də fəxr edirəm, həm də çox minnətdarlıq hissi yaşayıram ki, belə qüdrətli şəxsiyyətlərdən sayılan Şirməmməd Hüseynov kimi müəllimdən dərs almışam. O, çox elmli və cəsarətli müəllim idi!!!

Hələ sovetlər ölkəsinin qan-qan dediyi bir vaxtlarda Şirməmməd müəllim auditoriyada cəsarətli çıxışları ilə bizi heyrətə salırdı. Bizim nəzərimizdə o, qorxmaz bir qəhrəman idi. Biz III kursda təhsil alarkən partiya sovet mətbuatı fənnini tədris edirdi. Buna baxmayaraq, elə sovetlər birliyinin partiya-sovet mətbuatının daxilindəki bir sıra ədalətsizliyi, xoşagəlməz nüansları, mərkəzin (o zaman paytaxt Moskva şəhəri idi) əyalətlərdəki qəzetlərə çox ciddi siyasi tələblərini, lakin bunun müqabilində az maliyyə vəsaiti ayrılmasını da qeyd edirdi. Şirməmməd müəllimin belə bir cəsarəti bizi heyrətə salırdı.

Mənim müəllimim bütün düşüncəsi, ağlı və fəaliyyəti ilə demokratik ruhlu, demokratik düşüncəli idi. Az qala, Xalq Cümhuriyyəti ilə həmyaşıd olan müəllimim bir azadlıq mücadiləsi aparırdı. Deyim ki, bu gün bizim müasir qüdrətli ölkə rəhbərlərimizin misilsiz xidmətləri nəticəsində müstəqil, azad düşüncə ilə yaşayırıqsa, bu çətin və mürəkkəb yolda dəstək verənlərdən, mücadilə edənlərin cərgəsindəki ilk sırada mənim əziz müəllimim Şirməmməd Hüseynov dayamrdı və onun böyük xidmətləri vardır!

Mənim müəllimim tələbələrinin Azərbaycan jurnalistikası korifeylərinin həyat ve yaradıcılığını mənimsəməsindən ötrü çox ciddi və tarixi araşdırmalar aparmış və bu irsin mənimsənilməsi üçün bütün istedad və bacarığını sərf etmişdir. Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli kimi Azərbaycan klassik jurnalistikasının tarixində özlərinə layiq yer tutmuş şəxsiyyətlərin publisistik və bədii-publisistik janrlarda yazdıqları əsərlərinin, onların bədii-estetik dəyərinin, eyni zamanda ideya istiqamətinin öyrənilməsində misilsiz xidmət göstərmişdir və bu sahədə çox sayda elmi məqalələr və elmi-nəzəri təhlillər əsasında kitablar yazmışdır. Şirməmməd müəllimin xoşuma gələn ən gözəl insani və təvazökar xüsusiyyətlərindən biri də bu idi, o, heç vaxt tələbələrinə "kitablarımı, məqalələrimi" oxuyun demirdi.

Şirməmməd müəllimin mənim həyatımda rolu

Mən hələ ali təhsil almadan redaksiyaya işə dəvət olunmuş, yeddi il korrektor kimi fəaliyyət göstərmiş, qəzet işinin incəliklərinə bələd olduqdan sonra tələbə adını qazanmışdım. II kursu bitirdikdən sonra yay tətilində hələ yeniyetmə çağlarından ara-sıra yazdığım, bəzilərini isə çap etdirdiyim mənsur şeir nəzəriyyəsi üzərində işləməyə başladım. III kursun ilk dərs günlərində hələ ali təhsil almadan çalışdığım redaksiyada tanış olduğum professor Nurəddin Babayevə şeir nəzəriyyəmi verdim ki, fikrini söyləsin. Bir neçə gündən sonra Nurəddin müəllim bildirdi ki, "sənin elmi işini Şirməmməd müəllimə təqdim etmişəm. Müdafiə məsələlərini o, daha yaxşı bilir, səni lazımi qaydada istiqamətləndirər".

Ciddiliyində və qətiyyətindən çəkindiyim Şirməmməd müəllim məni çağırıb, heç gözləmədiyim səmimiyyətlə dedi:

Sən tələbə kimi böyük inqilab eləmisən. Onu da bilməlisən ki, bizdə tələbəyə namizədlik dərəcəsi almaq üçün elmi müdafiəyə icazə verilmir. Ümumiyyətlə, bizim müdafiə işlərimiz filologiya fakültəsində həll olunur. Buna baxmayaraq, sən tələbəlik illərində bu tarixi və nəzəri təhlillərini daha da təkmilləşdirə bilərsən. Bu maraqlı işi ölkəmizdə bu sahədə xüsusi uğurları olan Gülhüseyn Hüseynoğluna verdim. Haqqında fikrimi dedim. Get onunla görüş.

Gülhüseyn müəllim, elecə də filologiya fakültəsinin dekanlığında olan digər pedaqoqlar məni çox hörmətlə qarşıladılar. Əlbəttə, bu Şirməmməd müəllimin hörmətinə görə idi. Hamı bilirdi ki, Şirməmməd müəllim hər tələbəni tapşırmaz, ümumiyyətlə, "tapşırıq" məsələlərindən zəhləsi gedirdi.

Gülhüseyn müəllim bildirdi ki, sən dövlət imtahanından sonra gələrsən, nə edəcəyimizi danışarıq. Çox maraqlı bir iş yazmısan, biz o işi lazımi qaydada püxtələşdirərik.

Artıq universiteti bitirərkən dövlət imtahanından sonra dəhlizdə dayanmışdım. Laborantlardan biri mənə yaxınlaşdı. Bildirdi ki, Gülhüseyn müəllim filologiya fakültəsində məni gözləyir. Həmin vaxt Şirməmməd müəllimi də kənardan məni müşahidə etdiyini görmüşdüm. Bu qədər dəqiqlik, qarğıkeşlik hər müəllimə xas deyildi. Gülhüseyn Hüseynoğlu ilə yenidən görüşdük...

Bu əhvalatları geniş şəkildə yazmaq istəmirəm. Bir müəllimin tapşırıqsız, heç bir qohumluq əlaqəsi olmayan lənkəranlı balasına bu cür qayğısı qəlbimi riqqətə gətirdi. Gəlib ona təşəkkürümü bildirdim. Müdafiədən imtina etməyimin səbəbini açıqlayanda dedi: "Çox təəssüf! Gərək belə olmayaydı!.."

Müəllimim məni sınadı...

Jurnalistika fakültəsində bizə ixtisas fənni tədris olunurdu. Bu fənni dosent Yalçın Əlizadə tədris edirdi. IV kursda – 11 yanvar 1988-ci il tarixdə bu fəndən imtahan salınmışdı. Dəhlizdə müəllimi gözləyirdik. Bir də gördük ki, Şirməmməd müəllim gəldi. Bu vaxta qədər də Şirməmməd müəllim haqqında qəribə fikirlər eşitmişdik: "O, heç kəsi eşitmir... Kəsdiyi tələbənin daydayı ÇK-da olsa da, ondan qiymət ala bilməz" və s.

Dəhlizdə dayanan digər qrupların uşaqları da Şirməmməd müəllimi görüb qorxu mənasında bizə qaş-göz etdilər. Düzü, mən çaşdım: "Axı, bu müəllim – o cür elm sahibi, elə cəsarətli çıxışları olan bir şəxsiyyət yəni tələbənin qiymətini kəsər?"

Biz auditoriyaya daxil olduq. Həmişə olduğu kimi, yenə də mən birinci bilet çəkib oturdum. Şirməmməd müəllim ara-sıra dərədən-dağdan danışsa da, əslində bilet çəkib oturanları nəzarətdə saxlayırdı ki, görsün nə ilə məşğuldurlar. Səsinə də bir mərhəmlik qatmışdı. Həmişə ciddi görünən, ona yaxınlaşmağa belə qorxduğumuz bu müəllimin üzündə təbəssüm vardı. Cəmi üç-dörd dəqiqədən sonra mən hazır olduğumu bildirdim. Bu, qrup üzrə ilk tələbə demək idi. "Yox, dedi – sən bir az da hazırlaş. Şirməmməd müəllimə cavab verməyi bir elə də asan bilmə." Hardasa imtahan başlayandan təqribən on dəqiqə sonra icazə verdi ki, suallara cavab verim.

Mən imtahan biletində olan iki suala cavab verdikcə onun üzündə az sezilən təbəssüm vardı. Cavabımdan razı qaldığını imtahanın sonunda bildim, bu barədə sonra.

Üçüncü sual reportaj janrı haqqında idi. Mən təcrübədə – rayon qəzetində və radioada öyrəndiklərimlə yanaşı, verilən bütün ədəbiyyatdakı janra dair elmi şərhləri oxumuşdum. Nə bilirdimsə, danışdım. Şirməmməd müəllim məni çox diqqətlə dinləyirdi. Axırda bu janra aid elə fikirlər söyləməyə başladı ki, mən təəccüb qaldım. Axı, janr üçün həm Azərbaycan, həm də rus mətbuatından verilən elmi mənbələrdə belə bir məlumat yox idi. Soruşdu:

- Bəs, bunları niyə oxumamısan?
- Verilən heç bir ədəbiyyatda sizin dediklərinizə rast gəlməmişəm.
- O da Şirməmməd müəllimin kəşfidir, – deyib gülümsədi.

Üstümdən sanki bir yük qalxdı. Mən də gülümsəyib dedim:

- Siz də bu janr barədə kitabınızı çap elətdirərsiniz, onu da oxuyub cavab verərəm.

Şirməmməd müəllim üzünü tutdu auditoriyaya:

- Baxın, uşaqlar, Rafiq başqa tələbələrdən fərqli olaraq, demədi ki, elə bir kitab görmüşəm, oxumuşam, amma həyəcandan unutmuşam. Çünki o, verilən bütün ədəbiyyatla tanış olub, yaxşı da cavab verdi. Mən bu əhvali-ruhiyyəmizi pozmaq istəmirəm. Kim Rafiq kimi cavab verəcəksə, gəlsin, əks təqdirdə hamınıza "yaxşı" yazacağam.

O, qiymət kitabçamda "əla" yazdı. Məndən sonra heç kəsdən soruşmadı. Beləliklə, imtahan on-on bes dəqiqə ərzində bitdi. Biz dəhlizə çıxanda hamı təəccüb qaldı. "Hamınızı kəsdi?" – deyə soruşdular.

Bu zaman mənim daxilimdə fərəhimlə yanaşı bir qənaətim də vardı: **"Heç bir vicdanlı müəllim bilikli tələbəsini kəsməz (hərçənd ki, belə pis hadisə iki başqa müəllimin simasında mənim başıma gəlmişdi), əksinə ona dayaq olar".**

Bir daha əmin oldum ki, mənim ən yaxın dostum elmdir. Həqiqi elmli insanlar istedadlı tələbələrini övladları kimi sevirlər. Şirməmməd müəllim hələ bura qədər elmi işimlə əlaqədar heç kəsi olmayan bir tələbənin qəlbində sənətinə, alicənablığına böyük məhəbbət hissi oyatmışdı. Bu hərəkəti ilə onu bir ata kimi sevdim. Tələbəlik illərində ölkənin bütün mətbuat orqanlarında çıxış edir, radioda verilişlər aparır, ara-sıra televizorda görünürdüm. Dekanlıqdan eşidirdim ki, Şirməmməd müəllim də haqqımda yaxşı fikirdədir, mənim çıxışlarımla maraqlanır. Bu da mənə çox ciddi məsuliyyət, özünə inam hissi aşılayırdı.

Bax, o inamın və məsuliyyət hissinin nəticəsidir ki, bütün janrları daha həssaslıqla, daha səylə öyrəndim. Şirməmməd müəllim kimi müəllimlərimin alicənablığının nəticəsidir ki, iyirmi ildir teatrda ədəbi-dram hissə rəhbəri (ədəbi hissə müdiri) vəzifəsində çalışıram. Bu, o deməkdir ki, mən bütün janrları yaxşı bilməli, təqdim olunan dramaturji materiallarda onun dəqiqliyinə dəyər verməyi bacarmalıyam. Hələ indiyə qədər kimsə deyə bilməyib ki, mən istedadsızam, bu vəzifəyə yaramıram!

***

64 yaşım var. Müəllimlərimi xatırlayanda hələ də canımdan gizilti keçir. Bu böyük elm fədailəri təkcə elm tarixində deyil, həm də öz tələbələrinin taleyində silinməz dərin izlər qoyublar.

Elmlə məşğul olanlar və elm öyrədənlər Uca Dərgahda xüsusi mərtəbə və hörmət sahibidirlər. Əminəm ki, əziz müəllimim, ORADA da yeriniz hörmət və mərhəmət qatındadır. Fəthiniz mübarək! Vətəninə sədaqət, xalqına hörmət, yetirmələrinə tələbkar və humanist olan bir şəxsiyyətin mükafatı məhz belə olmalıdır! Əvvəlcə müəllimimi yerdə müdrik dövlət rəhbərlərimiz tərəfindən, sonra da Öz Ucalıq Zirvəsində dəyərləndirdi. Bir müəllimin vida mərasimində ölkənin ən hörmətli, mötəbər xanımının – Birinci xanımın, Azərbaycanın I Vitse-Prezidenti Mehriban xanım Əliyevanın iştirakı Sizə İlahi Mükafat deyilmi? Halal olsun!

Solmaz xatirəniz həmişə qəlbimdə yaşayacaq, mənim bəyaz saçlı, müdrik baxışlı müəllimim!

***

Əziz müəllimim! Siz mənə mənsur şeir elmi-nəzəri yaradıcılığımda dəstək oldunuz. Mən də bu mənsur şeiri Sizə həsr edir, Uca Allahdan Rəhmət diləyirəm, əziz müəllimim!

GÖZƏL NEMƏT

(Mənsur şeir)

Könül evimdə bir bağ var. Oradakı təravətli çiçək kimi ətrinizi duyuram. Sizin ətrinizi, müəllimim!

O bağçanın bülbülünə çevrilərəm. Elə bir nəğmə oxuyaram ki, ana laylası tək pak olar. Bu paklığı siz öyrətmisiniz mənə.

Yollarıma nur çiləmisiniz ziyanızdan. O nura doğru yol gedirəm, müəllimim. Onu qorumuşam həmişə. Sizə hörmətimi qoruduğum kimi!

Yer üzünə bol nemətlər gətirən yağış tək yağarsınız üstümüzə – ziyanızı üstümüzə səpmək üçün.

Günəşə qoşulub nurunuzdan pay səpərsiniz üstümüzə – nurumuz bol olsun deyə.

Qərar tutduğunuz səmadan xeyir-dua səpərsiniz üstümüzə – elminizi, elimizi yaşatmaq üçün.

Könül evimizdə yaşarsınız bir xoş xatirə kimi!

Uca Dərgahdadır yeri elmlilərin, elm öyrədənlərin. Elmimiz üçün Yaratmışdı sizi. Bizim üçün yaratmışdı sizi! Onun yaratdıqlarında qüsur varmı? Onun verdiklərindən gözəl nemət varmı? Nəzəri həmişə üstünüzdə Olsun! Məzarınız nurla dolsun!

Rafiq RƏHİMLİ,
Əməkdar mədəniyyət işçisi
"Azad Azərbaycan" qəzeti, 23 iyul 2019-cu il, №90 (3479)

REDAKTORDAN

Dilqəm ƏHMƏD
Baş redaktor

Onunla cəmi bir dəfə görüşmək nəsib olub. Tədbirlərin birində qısa açıqlama almışdım. Daha geniş söhbət etməyə fürsət olmamışdı. Sonrakı illərdə nə qədər cəhd etsəm də, yenə də baş tutmamışdı. Bəzi dostlarımdan görüş üçün vasitəçilik xahişi etsəm də, yenə də qismət olmamışdı. Qədərə boyun əyib əsərlərini oxumağa davam etməyə başlamışdım.

Bir dəfə tənqidçi İradə Musayeva "Facebook"da yazmışdı ki, Cümhuriyyət tədqiqatçıları xaraktercə Cümhuriyyət xadimlərinə oxşamağa başlayır. Səbəbi var. Cümhuriyyət liderlərinin həyatını oxuduqca, onların fədakarlığını gördükcə, adamda onlara oxşamaq istəyi yaranır. Şirməmməd müəllim də bu cür şəxsiyyət idi.

... Bir dəfə yağışlı və küləkli havada BDU-nun önündən keçərkən Şirməmməd müəllimi görmüşdüm. Paltosuna bürünmüş, başında papağı, gözlərini qıyaraq, harasa gedirdi. Mən ilk dəfə bir adamın hərəkətini izləyirdim. Çünki yoldan təkcə bir insan deyil, şanlı bir tarix də bərabər keçirdi. Şanlı tarix. Mənə görə bu, 23 aylıq Cümhuriyyət tariximizdir. Şirməmməd müəllim də onu yaşadanlardan biri idi...

Şirməmməd müəllim yaşına baxmayaraq, "Azərbaycan" qəzeti əsasında parlamentimizin üç cildlik tarixini yazdı. Həmin qəzetin redaktoru Üzeyir bəy Hacıbəylinin senzuradan keçməyən, nəşrlərdən kənarda qalan məqalələrini iki cildlik kitabda topladı. Eləcə də, uzun illər "525-ci qəzet"də tarixi, publisistik yazılarla çıxış etdi.

Ən əsası, Şirməmməd müəllim Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmmədəmin Rəsulzadənin 1920-ci ilədək olan bütün məqalələrini dövrün mətbuatından zəhmətlə topladı, əski əlifbadan transliterasiya edərək, milləti- mizə təqdim etdi. Beş cildlik bu əsər Rəsulzadənin düşüncə yolunun öyrənilmə- si üçün əvəzsiz mənbədir.

Şirməmməd müəllim iyun ayında aramızdan ayrıldı.

Cümhuriyyət xadimləri ilə eyni məqama ucalmaq üçün.

"Çapar" heyəti olaraq mərhum ustadımıza Tanrıdan rəhmət diləyirik.

"Çapar" dərgisi, № 5-6, 2019

CÜMHURİYYƏTİN MÜHAFİZİ VƏFAT ETDİ

İyun ayının 24-də Azərbaycanın görkəmli alimi, mətbuat tədqiqatçısı, Bakı Dövlət Universitetinin mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru Şirməmməd Hüseynov vəfat edib.

Ömür yolu

Ş.Hüseynov 1924-cü ildə Şəkidə anadan olub. 1941-1943-cü illərdə bu şəhərdəki iki illik Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsində, 1945-1950-ci illərdə o vaxtkı Azərbaycan Dövlət Universitetində filologiya-jurnalistika şöbəsində, 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Jurnalistika fakültəsinin aspirantura şöbəsində təhsil alıb. 1954-cü ildə MDU-nun Jurnalistika fakültəsində namizədlik dissertasiyası müdafiə edib.

O, 1954-1961-ci illərdə BDU-nun Filologiya fakültəsinin Jurnalistika kafedrasında müəllim və dosent vəzifələrində çalışıb, 1962-1969-cu illərdə həmin fakültənin dekan müavini olub, 1961-1971-ci illərdə BDU-nun Jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrasının dosenti, 1971-1976-cı illərdə BDU-nun Jurnalistika fakültəsinin dekanı, 1971-1988-ci illərdə BDU-nun Mətbuat tarixi kafedrasının dosenti, 1976-1988-ci illərdə həmin kafedranın müdiri vəzifəsində işləyib, 1988-ci ildən kafedranın professoru olub.

***

İyunun 25-də Bakı Dövlət Universitetində Şirməmməd Hüseynovla vida mərasimi keçirilib. Vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərhumun cənazəsi Bakı Dövlət Universitetinin mətəmsayağı bəzədilmiş böyük akt zalında postament üzərinə qoyulmuşdu.

Alimin tabutu önünə Azərbaycan Respublikasının Prezidenti adından əklil qoyulmuşdu. Cənazənin ətrafına hökumət təşkilatları və müxtəlif kollektivlər adından da əklillər düzülmüşdü. Şirməmməd Hüseynovun həmkarları, dostları, tələbələri, tanınmış elm xadimləri axın-axın universitetin binasına gəlir, görkəmli alimə və gözəl insana son borclarını verirdilər.

"Bu gün Azərbaycan elmi, təhsili, ziyalı təbəqəsi üçün çox ağır gündür. Hamının yaxşı tanıdığı, hörmət bəslədiyi, sevdiyi Şirməmməd Hüseynovla vidalaşırıq. Azərbaycan mətbuat tarixinin yorulmaz tədqiqatçısı, müasir jurnalistikamızın inkişafında misilsiz xidmətləri olan Ş.Hüseynovun zəngin yaradıcılıq yolu hamıya yaxşı məlumdur", – vida mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev deyib.

Rektor vurğulayıb ki, Ş.Hüseynovun həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olub:

"1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universite-

tinin jurnalistika fakültəsinin aspiranturasında təhsil alan Şirməmməd Hüseynov Vətənə ilk azərbaycanlı alim-jurnalist kimi dönüb. Gənc jurnalistlərin yetişməsində, püxtələşməsində böyük xidmətləri olan Şirməmməd müəllim elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, yorulmadan davam etdirib. O, hər zaman tələbələrlə müəllimləri bir komanda kimi ətrafında birləşdirə bilib".

Şirməmməd Hüseynovun azərbaycançılıq ideologiyasının sadiq keşikçilərindən biri olduğunu bildirən rektor vurğulayıb ki, o, Azərbaycan Cümhuriyyəti qurucularının irsinin araşdırılmasında xüsusi xidmətlər göstərib. Daim həqiqətin, ədalətin, azad sözün tərəfdarı olub. Buna görə də təkcə elmi ictimaiyyətin deyil, sadə insanların da böyük hörmətini qazanıb.

Şirməmməd Hüseynov "Həqiqət və ədalət carçısı", "M.Ə.Rəsulzadə", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr", "Parlament hesabatları" və digər dəyərli kitabların və əsərlərin, həmçinin çoxsaylı dərslik və dərs vəsaitlərinin müəllifidir. Çoxsaylı kitabları içərisində "Parlament hesabatları" onun şah əsəri hesab edilir. Şirməmməd müəllim milli yaddaşımızın daşıyıcısı idi, öz əsərləri ilə Azərbaycanın dünəni və bu günü arasında mənəvi körpü yaradıb.

Xüsusi olaraq qeyd edilib ki, Prezident İlham Əliyevin 2014-cü il 16 dekabr tarixli sərəncamına əsasən professor Şirməmməd Hüseynovun "Şərəf" ordeni ilə təltif edilməsi onun bu və digər xidmətlərinə verilən yüksək qiymətdir.

Ailəsi adından çıxış edən Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Bakı Dövlət Universitetinin atası üçün müqəddəs məkan olduğunu və BDU-nu evi qədər sevdiyini söyləyib. Qeyd edib ki, Ş.Hüseynovun ömrünün 60 ili universitetlə bağlı olub. O, Bakı Dövlət Universitetini Azərbaycanın kiçik modeli hesab edirdi.

Vida mərasimi başa çatandan sonra görkəmli alimin ruhuna dualar oxunub və cənazəsi son mənzilə yola salınıb. Mərhum İkinci Fəxri xiyabanda torpağa tapşırılıb.

"Çapar" dərgisi, № 5-6, 2019

ŞİRMƏMMƏD HÜSEYNOVUN

ARXİVİNDƏN

50 il əvvəl

Ali təhsilli jurnalistlərin ilk buraxılışı

1945-ci il sentyabrın 1-də ADU-da filologiya fakültəsində jurnalistika şöbəsi fəaliyyətə başladı. Müharibə yenicə qurtarmışdı. 1941-1945-ci illər müharibəsi dövründə Azərbaycan mətbuatı və jurnalistikası xeyli geri düşmüşdü, böyük itkilər vermişdi. Şöbənin yaradılması bununla əlaqədar idi.

Mənim də daxil olduğum qrupda aşağıdakılar vardı:

Kərim Rəfizadə
Əmrah Balaoğlu
Hamid Rasizadə
Hacıağa Cümşüdov
Qurban Məmmədov
Rəşid Mahmudov
Saleh Tahirov
Böyükağa Aydəmirov
Cavad Cavadlı
Emin Mahmudov
Yusif Yusifov
Şirməmməd Hüseynov
Rəfiqə Hüseynova
Şəfiqə Mirbağırova
Raziyə Əliyeva
Vera Qavrilova
Aişə Cəmilova

1945-1950-ci illərdə jurnalistika şöbəsində dərs deyən müəllimlər

İxtisas üzrə:

Həsən Şahgəldiyev (Mətbuat tarixi)
İsrafil Nəzərov (Nəzəriyyə və təcrübə)
Nəsir İmanquliyev (Nəzəriyyə və təcrübə)
Rza Quliyev (Qəzet janrları)
Məlik Məlikov (Mətbəə işi)
Cümşüd Əzimov (Tərcümə)
Qılman Musayev (Nəşriyyat işi)
Dmitrov (Tərcümə)

Ədəbiyyat və Azərbaycan mətbuatı tarixi

Mir Cəlal (Ədəbiyyat nəzəriyyəsi)
Həmid Araslı (Qədim Azərbaycan ədəbiyyatı)
Feyzulla Qasımzadə (XIX əsr Azərbaycan ədəbiyyatı)
Məmməd Arif (Rus ədəbiyyatı)
Əli Sultanlı (Qərb ədəbiyyatı)
Mikayıl Rəfili (XX əsr Azərbaycan ədəbiyyatı)
Məhəmmədhüseyn Təhmasib (Şifahi xalq ədəbiyyatı)
Hidayət Əfəndiyev (Ədəbi tənqid)
Abbas Zamanov (Azərbaycan mətbuat tarixi)
Məmməd Cəfər (Azərbaycan mətbuat tarixi)
İsmayıl Əlizadə (Qərb ədəbiyyatı)

Dilçilik və dillər

Muxtar Hüseynzadə (Azərbaycan dili)
Hadi Mirzəzadə (Dil tarixi)
İlyas Hacıyev (Müasir Azərbaycan dili)
Muxtar Əfəndizadə (Ərəb dili)
Mirqasımov (Fars dili)
Nazim Qədimbəyov (İngilis dili)
İsmayıl Əfəndiyev (Azərbaycan dilçiliyi)

Tarix, Fəlsəfə, Siyasi iqtisad

Həmid Əfəndiyev (Fəlsəfə, Sov.İKP tarixi)
Məmməd Səlimov (Sov.İKP tarixi)
Mehbalı Qasımov (Fəlsəfə)
Bəhmən Axundov (Siyasi iqtisad)
Həsən Dadaşov (Siyasi iqtisad)
Məmməd Qazıyev (Diplomatiya tarixi)

Universitetin rəhbərliyi

Abdulla Qarayev – rektor
Məqsud Cavadov – prorektor (tədris)
Arzumanov – prorektor (elm)
Məmməd Məmmədov – (partkom)
Sabir Qasımov – (komsomol)
Aydın Vəlixanov – (profkom)
Cəfər Xəndan
Əziz Mirəhmədov

1945-1950-ci illərdə universitetdə tanış olduğum tələbələr və aspirantlar

Yazıçılar:

Bəxtiyar Vahabzadə
Qasım Qasımzadə
İsa Hüseynov
Hüseyn Hüseynzadə
Bayram Bayramov
İslam Səfərli
Əlfi Qasımov
Əhəd Hüseynov
Gülhüseyn Hüseynoğlu
Novruz Gəncəli
Qulu Xəlilov
Pənah Xəlilov

Universitetdə yadda qalan görüşlər:

Üzeyir Hacıbəyovla – 1945 – 60
Səməd Vurğun – 1946 – 40
M.S.Ordubadi – 1947 – 75

1948-ci ildə Nizaminin 800 illik yubileyilə əlaqədar olaraq M.Arifgildə gördüyüm tanış olduğum rus yazıçıları:

A.Fadeyev, K.Simonov, N.Tixonov, A.Antokolskiy, V.İnber

İlk Nizami təqaüdü alanlar: 1948

Əhəd Hüseynov – filoloq
Əbdülhəmid Bağırov – filoloq
Ağadadaş Dadaşov – şərqşünas
Şövqiyə Əfəndiyeva – filoloq
Şirməmməd Hüseynov – jurnalist

CƏFƏR MÜƏLLİM HAQQINDA QƏZETDƏ YAZDIQLARIMIZ, YADDAŞIMDA QALANLAR

Azərbaycan Sovet Ensiklopediyasında (C.X. – səh. 430, 1987) Cəfər Xəndan (yəni – Cəfər Zeynal oğlu Hacıyev) haqqında 33 xətlik bir məlumat verilmişdir. Onu oxuculara: "Ədəbiyyatşünas, tənqidçi, şair" kimi təqdim etmişlər. Bəs görəsən qeyri-adi, geniş dünyagörüşlü, sinəsi dolu, ədəbiyyatımızı dərindən tədqiq və tədris edən, sözün geniş mənasında müəllim olan Cəfər müəllimi niyə görkəmli pedaqoq titulundan məhrum ediblər. Axı mən Cəfər müəllimi Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsi, jurnalistika şöbəsinin tələbəsi kimi 1946-cı ildən ilk əvvəl fakültənin ən nüfuzlu, xeyirxah müəllimi kimi tanıyırdım. O, biz gələcək jurnalistlərə xüsusilə yaxın idi. Cəbhə qəzetlərində redaktor müavini kimi səmərəli fəaliyyət göstərdikdən sonra universitetə dönmüşdü, filologiya elmləri namizədi, dosent idi. Azərbaycan ədəbiyyatı tarixindən çox maraqlı məzmunlu mühazirələr oxuyurdu.

1947-ci ilin yanvarından universitetdə rəsmi çoxtirajlı "Lenin tərbiyəsi uğrunda" qəzetinin nəşrinə başlandı. Mən II kurs tələbəsi olmağıma baxmayaraq, təhsildən əvvəl "Şəki fəhləsi" qəzetində işlədiyim, yəni qəzetçilik sahəsində təcrübəm olduğu üçün bu qəzetdə işə dəvət edildim. Elə bu vaxtdan Cəfər müəllimlə də bilavasitə təmasda olmağa başladım. Qəzetin ilk redaktoru filologiya fakültəsinin dekanı, dosent Həbib Səmədzadə idi. Sonralar dilçi alim Rəsul Rüstəmov redaktor oldu. Cəfər müəllim elmi-pedaqoji işlə yanaşı, həm də ədəbiyyat dərnəyinin rəhbəri idi. 1947-ci il dekabrından Cəfər müəllim filologiya fakültəsinin dekanı oldu. İşlədiyim qəzetin ilk illərinin nüsxələri qarşımdadır. İndi həmin qəzetdən Cəfər müəllimin fəaliyyəti ilə bağlı bəzi faktları nəzərə çatdırmaq istəyirəm.

Ədəbi-bədii gecə

"Bu günlərdə darülfünunun filoloji fakültəsinin təşəbbüsü ilə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan, qocaman ədibimiz M.S.Ordubadinin anadan olmasının 75 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir.

Ədəbi-bədii gecədə ədibin özü və şair Süleyman Rüstəm iştirak etmişdir. Gecəni filoloji elmlər namizədi, dosent H.Səmədzadə açmışdır. M.S.Ordubadinin həyat və yaradıcılığı haqqında filoloji elmlər namizədi, dosent Cəfər Xəndan məruzə etmişdir..." (№ 5, 13 aprel 1947)

Səmimi görüş

"Ağdam Müəllimlər İnstitutunun salonu adamla dolu idi. Rayonun partiya, sovet və kənd təsərrüfat işçiləri, kolxoz və kənd soveti sədrləri, adlı-sanlı kolxozçuları, manqa başçıları, briqadirləri buraya toplaşmışdılar... Ağdam rayonuna kömək üçün darülfünunun hamiliyə götürməsini bildirdikdə yığıncaqdakılar bu xəbəri sevinc hissi ilə qarşıladılar. Darülfünun nümayəndə heyətinin rəhbəri Cəfər Xəndan çıxış edərək darülfünununun Ağdam rayonunu hamiliyə götürməsi şərtlərindən, öhdəyə götürülən vəzifələrdən danışdı..." (№ 12, 19 iyun 1947)

Qeyd edim ki, Ağdama universitetdən ən tanınmış professor-müəllim heyəti gəlmişdi. Tələbələri Nizami təqaüdçüsü və universitet qəzetinin əməkdaşı kimi mən təmsil edirdim. İlk gündə xatirimdən heç vaxt çıxmayan bir əhvalatla qarşılaşdım. Müəllimlərə partiya komitəsinin qonaq evində, mənə isə mehmanxanada yer ayırmışdılar. Nümayəndə heyətimizin sədri Cəfər müəllim bunu bildikdə Rayon Partiya Komitəsinin 1-ci katibi Yusif Yusifova üzünü tutub yarızarafat, yarıdoğru dedi: buraya gələn 6 nəfər professor-müəllim 600 nəfəri təmsil edir, bu tələbə isə 4 min nəfər tələbəni. Onu nümayəndə heyətindən ayırmaq, mehmanxanada təkləmək doğru olmaz. Biz harda, Şirməmməd də orda. Qonaq evində mənə də yür düzəltdilər. Bizim nümayəndə heyətində riyazıyyatçı, sonra akademik olan Əşrəf Hüseynov, türkoloq, sonra professor olan Hadı Mirzəzadə, fizik Kərim Köçərli və b. vardı.

Nizamiyə həsr edilmiş elmi konfrans sentyabrın 17-də Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə darülfünunun filoloji və şərqşünaslıq fakültələrinin elmi konfransı açılmışdır... Filoloji elmlər namizədi, dosent Cəfər Xəndan "XIX əsr Azərbaycan ədəbiyyatında Nizami surətləri" mövzusunda mühazirə oxumuşdur.

Göstərim ki, yazıda H.Araslı, H.Səmədzadə, M.Əlizadə, M.A.Sultanov və Ə.Mirəhmədovun məruzələri də qeyd edilmişdir. (№ 19, 18 sentyabr 1947)

Cəfər müəllimin universitetin filologiya fakültəsinin dekanı kimi ilk yazısı 1947-ci il dekabrın 18-də qəzetin 31-ci nömrəsində dərc olunmuşdur. "Diplom işlərini vaxtında təhvil verək!" sərlövhəli yazıda təqdim olunan keyfiyyətli diplom işləri içərisində Əziz Əfəndizadənin "Molla Nəsrəddin" məcmuəsinin ədəbi dilimizin inkişafı uğrunda mübarizəsi", Pənah Xəlilovun "Od gəlini", Məryəm Axundzadənin "Sabir əsərlərinin nəşri" və b. adları çəkilir. Bu tələbələrin sonrakı fəaliyyətləri sizə məlumdur.

1947-1950-ci illərdə Cəfər müəllimin filologiya fakültəsinə rəhbərliyi döbründə fakültə çox güclü bir tədris-təlim elmi, ədəbi-bədii fikir mərkəzinə çevrilmişdi. Dekan olmağına baxmayaraq, Cəfər müəllim ədəbiyyat dərnəyinə rəhbərlik edirdi. Universitetin qəzetində həmin illər ilk şeirlərini dərc etdirənlərdən Hüseyn Hüseynzadə, Qasım Qasımzadə, İslam Səfərli, Aslan Aslanov, Vidadi Şıxlı, Novruz Gəncəli, Əlfi Qasımov və b. adlarını göstərə bilərəm.

"Arzu" poemasının müzakirəsi

Filoloji fakültəsi nəzdindəki ədəbiyyat dərnəyi gənc şair Hüseyn Hüseynzadənin "Arzu" poemasının açıq müzakirəsini təşkil etmişdir. Filoloji fakültəsinin IV kurs tələbəsi Əhəd Hüseynovun məruzəsindən sonra dərnək üzvlərindən A.Aslanov, M.Vəliyev, İ.Səfərli, A.Əlisultan, K.Rəfizadə əsərin müsbət və nöqsan cəhətlərini göstərmişlər.

Sonra ədəbiyyat dərnəyinin rəhbəri şair C.Xəndan çıxış edərək müzakirəyə yekun vurmuş və H.Hüseynzadəyə əsərdə olan nöqsanları düzəltmək üçün bir sıra faydalı məsləhətlər vermişdir. (№ 11, 18 mart 1948)

Jurnalist-tələbənin cəsarəti, dövlət imtahan komissiyası sədri və dekanın prinsipiallığı

Universitet qəzetinin 1948-ci il martın 5-i tarixli 9-cu nömrəsində 1-ci səhifədə Ş.Hüseynov imzası ilə "Dövlət imtahanı ciddi məsuliyyət tələb edir" sərlövhəli məqalə dərc olunmuşdur. Elə bu səhifədə "İmtahanlardan ciddi nəticə çıxarmalı" sərlövhəli baş məqalə də verilmişdir. Söhbət 1948-ci il fevralın 28-də filologiya fakültəsində Azərbaycan dili tarixi fənnindən aparılan dövlət imtahanından gedirdi. Mən qəzet əməkdaşı kimi imtahanda iştirak edirdim. Dövlət imtahan komissiyasının sədri F.Qasımzadə, üzvləri fakültənin tanınmış alim-müəllimləri idi. İmtahan axşam keçirilirdi. Məqalədə oxuyuruq: "Dövlət imtahanı aşkar etdi ki, bəzi diplomçu tələbələr respublikamızın ali, orta məktəbləri və elmitədqiqat müəssisələrində dil və ədəbiyyat mütəxəssisləri kimi işləmək bacarığına malik deyillər, nəzəri cəhətdən çox səthi bir biliyə malikdirlər".

Qeyd edim ki, qrupun yadımda qalan 19 tələbəsindən 7-ci dil imtahanından qeyri-kafi qiymət almışdı. Belə bir vəziyyətin üzə çıxmasına səbəbkarlardan biri mən idim. Belə ki, bisavad tələbələr şparkalka ötürmək üçün müxtəlif hiylələrə əl atırdılar. Hətta imtahan gedən auditoriyanın işığını söndürdülər. Mən dövlət imtahan komissiyasının sədri F.Qasımzadəyə bu barədə məlumat verdim. O, bu cür nalayiq hərəkət edən tələbələrin əlindən şparkalkaları aldı, işıq söndürənləri auditoriyadan çıxartdı. 7 nəfər beləliklə "2" qiymətə layiq görüldü. Nəticə elan olunandan sonra həmin qrupun tələbəsi, universitet komsomol komitəsinin katibi mənə etirazını bildirdi, oğrulara haqq qazandırmağa çalışdı. Mən onun bu ləyaqətsiz hərəkəti haqqında "Молодеж Азербайджана" qəzetinə "Ziyanlı kömək" (Вредная помощь) sərlövhəli yazı verdim. Redaksiya faktları yoxlayıb dərc etdi. Bu böyük bir hay-küyə səbəb oldu. Məni ittiham edənlər də az deyildi. "Молодеж Азербайджана" qəzeti "yoldaşlıq köməyi necə olmalıdır" mövzusunda geniş bir diskussiya açdı. Hətta SSRİ Elmlər Akademiyasının müxbir üzvü, universitetin kafedra müdiri A.O.Makovelski əsl dostluğun, köməyin nədən ibarət olması barədə qəzetdə yazı da dərc etdirdi. Hər şeyi ört-basdır etmək, yalana, oğurluğa, təhsili kökündən sarsıdan şparkalkaya göz yummaq istəyənlər mənə qarşı, hətta universitetin partiya komitəsində hücuma keçdilər. Lakin deka-

nımız Cəfər Xəndan, F.Qasımzadə və fakültənin və universitetin sağlam qüvvələri buna imkan vermədilər. Fakültədə və universitetdə bu bəlaya qarşı mübarizə başlandı.

Cəfər müəllim fakültədə tədrisin elmi səviyyəsini, elmi işlərin keyfiyyətini yüksəltmək üçün çox geniş tədbirlər həyata keçirirdi. Məsələn: 1948-ci ilin oktyabrında SSRİ Elmlər Akademiyasının müxbir üzvü, məşhur türkoloq N.K.Dmitrev universitetə dəvət edilmişdi. O, bir ay müddətində biz jurnalistlərə də rus dilində tərcümənin əsas prinsiplərindən mühazirə oxuyur, praktik məşğələlər aparırdı. Hətta bu dərslərdə respublikanın tanınmış tərcüməçiləri C.Əzimov, S.Məlikov və b. iştirak edirdilər. Prof. N.K.Dmitrev bizim qəzetin redaktoru P.R.Rüstəmovun elmi rəhbəri idi. (№ 31, 28 oktyabr 1948)

Qəzetin 1948-ci il 11 dekabr tarixli nömrəsində "Ədəbiyyat və ədəbiyyatşünaslığa dair elmi konfrans" sərlövhəli iri bir yazı dərc olunmuşdur. Universitetin filologiya fakültəsində dekan Cəfər Xəndanın təşəbbüsü və rəhbərliyi ilə təşkil olunmuş konfransda qəzetdə yazıldığı kimi "yazıçılar, ədəbiyyatşünaslar, müəllimlər və respublikanın müxtəlif rayonlarından dəvət edilmiş ədəbiyyat müəllimləri və tarixçilər iştirak" edirdilər. Konfransda ədəbiyyat tarixi və ədəbiyyatşünaslığımız qarşısında duran vəzifələr haqda məruzələr edilmişdi. Tarix elmləri namizədi Əliövsət Quliyev "Azərbaycan ədəbiyyatı tarixi" kitabında tarixi təhriflər haqqında məruzə etmişdir.

Dosent Cəfər Xəndan "XX əsr Azərbaycan ədəbiyyatı haqqındakı məruzəsində qeyd etdi ki, birinci növbədə bu dövr ədəbiyyatının proqramı nəzərdən keçirilməlidir...

C.Xəndanın məruzəsinin əsas tezisləri və cəhətləri qəzetdə çox geniş verilmişdir. Həmin iri həcmli yazıdan sətirlər:

"Rus ədəbiyyatının ən zəngin dövrü hesab olunan XIX əsr ədəbiyyatında nəzərə çarpan intibah, Azərbaycan ədəbiyyatında XIX əsrin sonu və XX əsrin əvvəllərində özünü göstərmişdir... Biz XX əsr ədəbiyyatı dedikdə 1900-cü ildən sonrakı ədəbiyyatı nəzərdə tutmuruq. Bu dövrün görkəmli sənətkarlarının hamısı demək olar ki, ədəbi fəaliyyətə keçən əsrin 90-cı illərindən başlamışlar".

Tədris proqramlarında Cənubi Azərbaycan ədəbiyyatı məsələlərinin unudulduğunu qeyd edən C.Xəndan göstərdi ki, "Molla Nəsrəddin" məcmuəsinin təsiri altında 1906-1907-ci illərdə Təbrizdə nəşr olunan satirik "Azərbaycan məcmuəsi, inqilabi ədəbiyyatımızdan ilham alan Səid Səlmaşkin yaxından iştirakı ilə Urmiyədə nəşr olunan "Fəryad" qəzeti, Xazi, Səid Səlmas, Möcüz kimi öz dövrünün qabaqcıl sənətkarları tədris proqramlarına daxil edilməlidir".

"XX əsr ədəbiyyatı proqramında... teatr, rəssamlıq, musiqi və ümumən mədəniyyət məsələləri də zəif işıqlandırılmışdır".

Elmi konfransda filoloji elmləri doktoru M.C.Paşayev, dosent M.Arif, dos. M.C.Cəfərov, dos. F.Qasımzadə və b. çıxış etmişdilər. (№ 35, 11 dekabr 1948)

Cəfər müəllim qısa bir müddətdə universitetin ən nüfuzlu, işgüzar, prinsipial dekanlarından oldu. Digər tərəfdən o, respublikanın ədəbi həyatının ən fəal xadimlərindən biri kimi tanınmağa başladı. Onun rəhbərlik etdiyi fakültədə M.Arif, F.Qasımzadə, H.Araslı, Ə.Sultanlı, M.Cəlal, M.Cəfər, M.H.Təhmasib,

H.Əfəndiyev, M.Rəfili kimi korifey alim-müəllimlər çalışırdı. Bütövlükdə professor Abdulla Qarayevin rəhbərlik etdiyi universitet ittifaqın görkəmli təhsil-elm ocaqlarından biri idi. Təsadüfi deyildi ki, tədris və elm sahəsindəki müvəffəqiyyətlərinə görə SSRİ ali təhsil naziri S.V.Kaftanov və universitetlər baş idarəsi rəisi, professor K.F.Jiqaç kollektivə xüsusi təbrik teleqramı göndərmişdilər. (bax.: № 26-27, 7 noyabr 1947)

1950-1954-cü illərdə Cəfər müəllim universitetin rektoru oldu. 1950-ci il universitetdə jurnalistlərin də ilk buraxılış ili idi. Respublikamızın tarixində ilk dəfə ali təhsilli jurnalist kadrları hazırlanırdı. Məni və Rəşid Mahmudovu aspiranturada oxumağa saxladılar. Mənə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsilimi davam etdirməyi məsləhət gördülər. Bu təşəbbüsün müəlliflərindən biri Cəfər müəllim idi. Çünki 1946-cı ildən fəaliyyət göstərən Jurnalistika kafedrasında çox təcrübəli və savadlı müəllimlər olsa da elmi dərəcəsi olan yox idi. Moskvada oxuduğum müddətdə də rektorumuz Cəfər müəllimin – o artıq elmlər doktoru və professor idi – qayğısını hımişə hiss etmişdim. Həm də təkcə mən yox. O illər Moskvanın ali məktəblərindən universitetimizdən ezam olunmuş, köçürülmüş xeyli tələbə, aspirant və hətta doktorantlar oxuyur, dissertasiya üzərində işləyirdilər. Cəfər müəllim hər dəfə Moskvaya gələndə rəsmi və qeyri-rəsmi görüşlər keçirərdi. MDU-nun və aid fakültə və kafedraların nümayəndələri də iştirak edərdi. Belə bir qayğını bizim hər birimiz öz üzərimizdə hiss edirdik. Bu gözəl və faydalı təcrübə unudulmasın gərək!

Cəfər müəllim və onun həyat yoldaşı Məhbubə xanım Məmməd Arif müəllim və onun həyat yoldaşı universitetin dekanı Zümdür xanım Axundova ilə dost idilər. Mən də M.Arif müəllimgildə tez-tez olardım. Odur ki, Cəfər müəllimin necə mehriban ailə başçısı, səmimi dost olduğuna da şahidlik edə bilərəm. Mən 1954-cü ildə yayda namizədlik dissertasiyası müdafiə edib doğma universitetə qayıtdım. Cəfər müəllim Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri idi. Çox heyflər olsun ki, Cəfər müəllim cəmi 51 yaşında gözlənilmədən dünyasını dəyişdi. Bu bizim hamımız, elmimiz, təhsilimiz, mədəniyyətimiz üçün ən böyük itkilərdən idi. İndi təsəllimiz budur ki, onun namuslu, qeyrətli övladları və tələbələri xalqa, vətənə, millətə xidmət etmək nümunəsi olan irsini öyrənir, yolunu davam etdirirlər.

BİR XATİRƏYƏ DAİR KİÇİK BİR XATİRƏ

2002-ci ildə M.Ə.Rəsulzadənin əsərlərinin 2-ci cildi doğma vətənində işıq üzü gördü. Mən onun bir nüsxəsini çoxdan bəri tanıdığım və "Təfəkkür" Universitetində Jurnalistika kafedrasında birgə fəaliyyət göstərdiyimiz Azad müəllim Şərifova da verdim. Məmnun oldu və dedi ki, sənə 1966-1969-cu illərdə Türkiyədə Moskvanın dövlət qəzeti "İzvestiya"nın xüsusi müxbiri işlədiyim illərdə M.Ə.Rəsulzadənin və Azərbaycan mühacirləri və onların övladları haqqında maraqlı xatirələrimi danışaram. Əlbəttə, məni ən çox M.Ə.Rəsulzadə ilə əlaqədar faktlar maraqlandırırdı. Dedi ki, mən onları hazırlayıram, yəqin ki, "Zerkalo" qəzetinə verəcəm oxuyarsan. Verdi, mən də məmnuniyyətlə oxudum. Tarixi sənədlər "Ankaranın "Əsri" məzarlığına gedən yolu heç vaxt ot basmayacaq".

Əziz oxucular "Zerkalo" qəzetinin 2003-cü il 24 may nömrəsində dərc olunmuş, qüdrətli qələm sahibi, vətəni Azərbaycanı candan sevən 2009-cu ildə dekabrın 24-də 79 yaşında dünyasını dəyişən Azad Şərifovun bu xatirəsini siz də oxuyun. Əmin olun ki, "Əsri"yə, o cümlədən Üzeyir Hacıbəylinin "Vətən övladı" adlandırdığı M.Ə.Rəsulzadənin anadan olduğu Novxanı kəndinin də yolunu heç vaxt ot basmayacaq. Xalq şairi Süleyman Rüstəmin "Əsri" məzarlığında diz çöküb, göz yaşı tökdüyü məzar müqəddəs ziyarətgahdır.

Arzu edirəm ki, xalq şairi Bəxtiyar Vahabzadənin vaxtilə yazdığı şeirindəki

Bu torpağın özü boyda
Bu torpağa məhəbbətlə doluydun.
Bu torpağın yolunda da,
Sən öz canını qoydun.
Borclu ikən Vətən sənə, xalq sənə.
Hər şey döndu tərsinə.
Verəmmədik bu torpaqdan
Bir məzarlıq yer sənə.

"verəmmədik" sözü "verdik"lə əvəz olunsun.

Şirməmməd HÜSEYNOV
2003

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Süleyman TATLIYEV yoldaşa

Mühüm saydığım bir məsələ ilə əlaqədar Sizi narahat etmək istəyirəm. Əgər mənim tənqidi mülahizələrim Sizin əqidə və dünyagörüşünüzə uyğun deyilsə, əvvəlcədən üzr istəyirəm.

Azərbaycanın xalq şairi Səməd Vurğunun 80 illik yubiley məclisinin təşkili, yekun təntənəsinin keçirilməsi gedişi məni və həmfikirlərimi çox maraqlandırırdı. Böyük razılıq və minnətdarlıq hissilə Azərbaycan KP MK-ya, respublikanın və xalqımızın ağsaqqalları K.M.Bağırova, Sizə, MK katibi R.Mehdiyevə və başqa yoldaşlara dərin təşəkkür və razılığımızı bildiririk. Lakin bir cəhəti xatırlatmaya bilmərəm. Nə üçün Siz, respublika dövlətinin başçısı, prezidentimiz məclisi heç olmasa bir cümlə ilə Səməd Vurğunun yazıb-yaratdığı ana dilində açmadınız? Deyə bilərsiniz ki, məclisə kənardan və xaricdən xeyli qonaq gəlmişdi, odur ki, məclisi hamının başa düşdüyü dildə aparmaq məqsədə uyğun idi. Bir anlığa fərz edək ki, bu belədir. Olsun! Lakin bu halda belə Sizin məncə ilk cümləniz (məsələn, "Yoldaşlar! İcazə verin Azərbaycanın xalq şairi Səməd Vurğunun anadan olmasının 80 illiyinə həsr edilmiş yubiley məclisini açıq elan edim") Azərbaycanın Konstitusiyasında (73-cü maddə) dövlət dili kimi təsdiq olunmuş dildə olmalı idi. Axı əgər Səməd Vurğun Azərbaycan sovet ədəbiyyatının başçısıdırsa, Siz bizim bu gün milli dövlətimizin başçısısınız. Əgər Siz bizim dilimizi saymasanız, onu rəsmi yerlərdə heç kəs saymayacaqdır, həm də səhv etmirəmsə, bu, Sizin respublikamızın yeni dövlət başçısı kimi geniş auditoriya qarşısında (mən məclisin radio və televiziya ilə verilməsini də nəzərdə tuturam) ilk çıxışınız idi. Ona təkcə bizim respublikamızın deyil, qonşu respublikaların, o cümlədən İran və Türkiyənin milyonlarca xalq kütləsi tamaşa edir, radio ilə qulaq asırdı.

Mən arzu edərdim ki, gələcəkdə Siz bunu nəzərə alasınız!

Hörmətlə: **Ş.HÜSEYNOV**
Bakı, M.A.Əliyev, 229
Mart 1986

İyulun 22-si Azərbaycan jurnalistikası günüdür.

ZƏRDABİ MÜKAFATININ İLK LAUREATLARI

Azərbaycan jurnalistlərinin yaradıcılıq fəaliyyətini mükafatlandırmaq üçün respublika Jurnalistlər İttifaqı milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin adını daşıyan mükafat təsis etmişdir. Bu mükafat Azərbaycan cəmiyyətində geniş yeniləşməni və demokratik prosesi, habelə aktual problemləri yüksək sənətkarlıq məharəti ilə əks etdirən jurnalistlərə verilir.

Azərbaycan Jurnalistlər İttifaqı idarə heyətinin katibliyi 1991-ci il üçün Zərdabi mükafatını aşağıdakı jurnalistlərə vermişdir:

Elmira Əkrəm qızı Əskərovaya – respublikanın iqtisadi problemləri barədə Azərinform-un verdiyi və Azərbaycan mətbuatında dərc olunan bir sıra məqalələrinə görə;

Ələddin Qurban oğlu Əsədova – Qarabağ xeyriyyə telemarafonuna görə;

Şirməmməd Ağaməmməd oğlu Hüseynova – Azərbaycanın unudulmuş jurnalistlərinin ədəbi irsi haqqında respublika mətbuatında dərc olunmuş məqalələrinə görə;

Mövsüm Əli oğlu Əliyevə – Azərbaycan Demokratik Respublikasının dövlət xadimləri haqqında dərc olunmuş məqalələrinə görə;

Təranə Sərdar qızı Muxtarovaya ("Şuşa" qəzeti), Hüseyn Məmmədxan oğlu Həsənova ("Laçm" qəzeti) – doğma torpağın müdafiəçiləri barədə dərc edilmiş məqalələrinə görə;

Sona Bəhrəli qızı Bağırovaya ("Azərbaycan gəncləri" qəzeti, Qərib Qasım oğlu Mehdiyevə ("Gəncənin səsi" qəzeti) – publisistik məqalələrinə görə.

(Azərinform).

"Həyat" qəzeti, 20 iyul 1991

Bolqarıstanın paytaxtı Sofiyadan Ş.Hüseynova və jurnalistlər fakültəsinə

MƏKTUB

Sayın yoldaşlar,

Sizden çok büyük bir ricam var: Ben, İsmail Ahmedov Çavuşev, Sofyada BKP MK yayını olarak çıkarılan "Yeni ışık-Nova svetlina" gazetesinde redaktor və aynı zamanda üniversitenin gazetecilik fakültesinde iki yıllık mükemmelleştirme öğretimimi tamamlamak üzereyim.

Bu maksatla seçtiğim diplom tezimin konusu 1947 yılında bizde Sovyet ordu birlikleri grup komutanlığı tarafından çıkarılan "Dostluk" gazetesidir.

Tahminimce gazeteyi iyi türkçe bilen Azerbaycanlı gazeteci yoldaşlar çıkarmış olacaklardır. Bu itibarla orada çalışmış redaktör ve yazarları bulmak, onların hatıralarını okumak benim için çok mühimdir.

Sizden ricam, bu yoldaşların kimliklerini tespit edebilirseniz mektubumu kendilerine lütfen tevdi etmeniz olacaktır. Varsın bu yoldaş yüce dostluğumuzun ilk yıllarına ışık tutacak hatıralarını, gazeteyi nezaman, nasıl, kimle ve hangi şartlarda çıkardıklarını anlatsın. Sofya ve Bulgarıstanımızın o günlerine dair hatıralarını anlatması da bizim için büyük bir ilgi teşkil etmektedir.

Biz bu hatıraları ayrıca gazetemiz sayfalarında yayınlayacağız. Elinde o günlere ait resimler, buyruklar, dokumanlar vs. varsa lütfen yollasın. Kendisine aynen iade edeceğim.

Bu konunun açıklanması kardeş halklarımız arasındaki en samimi ve sıcak dostluğumuza bir katkı olacağı gibi şahsen benim tezimde özel bir yer tutacaktır. En azından bana "Dostluk" gazetesinde çalışmış yoldaşın adını ve adresini yollayabilirsiniz.

Bu mektubuma gereken dikkatı göstereceğinize olan derin inancımı belirtirken 15-20 gün gibi gayet kısa bir zaman içinde beklediğim malümatları alabileceğimi zannediyorum.

En samimi ve yoldaşça selamlarımı sunar, Sizlere önceden teşekkürler ederim.

İsmail A.ÇAUŞEV,

Sofya, 8 kasım 1978 s.

İKİ MƏKTUB, DOSTLUQ DÜŞÜNCƏLƏRİ, ƏZİZ XATİRƏLƏR

Dünyagörmüş, keşməkeşli, mənalı və fəal ömür sürmüş yaşlıları həyata bağlayan ən güclü amillərdən biri də tarixi yaddaşdır. Bu qiymətli mənəvi xəzinəyə zaman-zaman kövrək hissiyyatla baş vurmalı, yaddaş dəftərini vərəqləməli olursan. 40 ilə yaxın bir müddət dostluq etdiyim, halal çörək kəsdiyim, əqidəsinə, məsləkinə, cəsarətinə, məntiqinə, alimliyinə hədsiz məhəbbət və hörmət etdiyim Qulu müəllimin də yaddaş dəftərimdə xüsusi yeri və mövqeyi var.

Qulu məndən 6 yaş kiçik idi. Mən universitetin jurnalistika şöbəsini qurtaran ili o, birinci kursa qəbul olunmuşdu. 1954-cü ildə mən Moskva Dövlət Universitetində aspiranturanı bitirib namizədlik dissertasiyası müdafiə edib universitetə qayıdan ili Qulu təhsili başa vurmuşdu. O vaxtkı filologiya fakültəsində jurnalist tələbələrdən söhbət gedərkən bir neçə nəfərin adını çəkərdilər. Bunların sırasında Qulu Xəlilov və Xəlil Rza vardı. Məni onların hər ikisi maraqlandırdı. Qulu ilə yaxın münasibətlərimizin əsas səbəbkarlarından biri məşhur alim-tənqidçi, Səməd Vurğunun "Ədəbiyyatımızın vicdanı" adlandırdığı akademik Məmməd Arif Dadaşzadə, onun həyat yoldaşı, universitetin sayılan, istedadlı və yiyəsiz gənclərinə analıq məhəbbəti göstərən pedaqogika kafedrasının dosenti Zümrüd xanım Axundova oldular. Hər ikisi Qulunun çox böyük istedad və ən əsası vətəndaşlıq və milli qeyrət sahibi olduğunu dəfələrlə şəxsi, ailə çərçivəsi söhbətlərində qeyd edirdilər. 1963-cü ilə M.Arif müəllimi Ağcabədidən Azərbaycan SSR-nin Ali Sovetinə namizədliyini irəli sürmüşdülər. Arif müəllimi Ağcabədiyə seçicilərlə görüşə kimlər müşayiət edirdi; indi çoxlarına təəccüblü gələ bilər: Nizami adına Ədəbiyyat İnstitutundan baş elmi işçi Qulu Xəlilov və universitetin dosenti Şirməmməd Hüseynov. Bizi rəsmi dairələr yox, M.Arif müəllim özü seçmişdi. Mən Ağcabədidə Qulunun ata-anası, qardaş-bacıları ilə də tanış oldum. Bu barədə Qulu müəllim ətraflı yazdığından təfərrüata varmıram.

Bu səfərdən sonra eyni ictimai zümrədən olduğumuz üçün Qulu mənim üçün doğmalaşdı. Çox böyük vuruşdan, çəkişmələrdən sonra Qulunu jurnalistika fakültəsinə dəvət etdik. Mən onun simasında fakültəyə yeni milli ruh, vətənpərvərlik ehtirası və məsuliyyəti gəldiyini, sıralarımızın gücləndiyini gördüm. Qulu mənalı ömrünün sonunadək də bu kollektivin əzizi, sevimlisi oldu.

Qulu müəllimin mənə qardaşcasına yazdığı, görüş və düşüncələrini bölüşdüyü bir neçə məktubu var. Mən onları qayğı hifz edib saxlamışam. 1968 və 1972-ci illərdə yazılmış bu şəxsi məktublarda dövrün səciyyəsi, ictimai-siyasi

problemləri, Qulunun ailə və övlad qayğılarına həsr olunmuş sətirlər var. Azərbaycan ziyalısı, alim və yazıçısının qələmindən, qəlbindən süzülən bu sətirləri həyəcansız oxumaq olmur. Hörmətli və unudulmaz dostumun 70 illik yubileyi ilə əlaqədar bu məktubların işıq üzü görməsini də vacib sayıram.

Professor **Şirməmməd HÜSEYNOV**
7.VII.2000

ƏN ÇƏTİN YAZILAN MƏKTUB

Əzizim Qasım, Kamran, Şirməmməd, Aslan, Ziyəddin müəllim və başqa dostlar. Dünyada mən heç bir məktubu bu qədər çətin yazmamışam. Elə bil ilhamımın odu tamam sönüb, qollarım süstləşib, beynim-ağlım kütləşib, gözlərim tükənməz-qurumaz bulağa dönüb. Nədəndir, bilirsiniz. Bəlkə də mən sağalıb gələndən sonra bu məktubdakı sözləri yada salıb məni zəif iradəli bir adam kimi lağa qoyacaqsınız. Allah eləsin. Az qala bir aya yaxındır ki, sizi özümə həddən artıq yaxın bilib ürəyimin bir neçə gizlin sözünü sizə çatdırmaq istəyirdim. Bu məktubu bir siz, bir də mən bilirəm. Adamın taleyi tükdən asılı olanda məktub yazmaq yaman çətin olurmuş. Bəlkə vəsiyyət səciyyəli bu məktub da bir yüngüllükdür – mənim üçün.

"Gedirəm, yamandır ayrılıq dərdi". Müvəqqətimi? Əbədimi? Onu heç kim deyə bilməz. Bıçaq müalicədə son çarədir. Mənim taleyim isə elə gətirib ki, yalnız bıçaqlara pənah aparmaqla yaşaya bilirəm. Burada – bu mürəkkəb və örtülütəhlükəli, sürüşkən aləmdə hər şey ola bilər. Mən bunları çox görmüşəm. Bu mənada həyat və ölüm, – bu bir-birinə zidd iki qüvvə insana həm çox yaxındır, həm də uzaq. Lakin mənim kimi 7 qabırğasız, dalaqsız, ciyərləri on-on beş yerdən doğranmış və iki yeni əməliyyat qarşısında dayanmış yarımcan üçün daha çox yaxındır və bunun üçün heç bir həkimi danlamazlar. Çünki "ölüm haqdır, çıxmaq olmaz əmrdən". Mən heç zaman operasiyadan indiki qədər qorxmamışdım. Məni yanvarın 5-də yaracaqdılar. Lakin ürəyimə damdı ki, stolda qalacam. Çünki kəsiləcək yerlərin əti indidən titrəyirdi. Mən birinci dəfə gedəndə balalarımı öpməmiş getmişdim. Gəldim ki, onları öpüm və yeni döyüşə hazırlaşan əsgər kimi özümü bir az hazırlayım, operasiya təlimi keçim. Körpə uşaqlarım olmasa və sizin kimi nəcib insanlarla, bir çox təmiz nəfəsli adamlarla yaxınlaşmasam, dostlaşmasam heç cür ölümdən qorxmaram... Tale mənim bədənimi lap uşaqlıqdan əzab-əziyyətlə yoğurubdur. Mən yaşayanda da əziyyət çəkirəm, həm artıq adətkar olduğum bədənimdəki ağrılardan, həm də namərd, kəmfürsət adamların törətdikləri haqsızlıqlardan. İndi mənim gözlərim yaman sulu olub. Deyirəm yəqin uşaqlıqdan bədənimə dolan yağış-qar suyudur, indi gözlərimdən süzülüb-durulub çıxır. Allah kömək olmuş Ziyəddin müəllim də sübut etmək istəyir ki, (marksist kimi) bəşəriyyətin inkişafında həzz iztirabdan çox olub! Ay oldu ha?! Təkcə mənim çəkdiyim iztirabı varlı-firavan-xoşbaxt ailələrin iki nəsli çəkə bilməz... Nə isə, bu ayrı mövzudur...

Hər bir namuslu ata kimi, mən də balalarımı çox sevirəm. Onlar körpədir və hamısının ataları kimi qayğıya böyük ehtiyacları vardır. Mən sizin hamınızdan, həmçinin adlarını çəkməyə imkan olmadığı dostların-yaxınların hamısından xahiş edirəm ki, başıma bir iş gəlsə, qəza məni sizinlə bir də görüşməyə, dərdləşməyə, həmməsləkləşməyə imkan verməsə, o uşaqların ali məktəb qurtarmaları üçün əlinizdən gələn qayğını əsirgəməyin. Məktəb bitirsələr özlərini bir təhər dolandıracaqlar. Mənim aman-güman bir oğlum var – AZƏR! Mən ona ata deyirəm, o da mənə. Həm körpədir, həm də səhhəti normal deyildir. Amma hər şeyi

yaman başa düşəndir. O da xəstəxanada mənimlə birlikdə yatarkən mənə deyir ki, ata sənə qan lazım olsa mən qanımın hamısını sənə verərəm, təki sağal. Görünür, o, atasızlığın faciəsini indidən başa düşür. Mənim xatirimə düşəndə ona xüsusi qayğı göstərin. Mən bilirəm ki, sizin hamınızın boynunuzda yükünüz çoxdur. Lakin mən sizdən, həm də bir çox gözəl insanlardan o qədər qayğı görmüşəm ki, bütün bunları qiymətləndirməkdə acizəm və bunlar da mənə əziyyət verir. Siz mənim qəm yükümü qayğı və məhəbbət yükü ilə əvəz eləmisiniz. Mənə təskinlik verən sizin böyük qayğınızdır və buna görə də operasiyaya indi qorxmadan gedirəm və inanıram ki, sağ çıxacam...

Mənim Allahdan tutmuş V.Axundova, H.Əliyevə qədər gizli məktublarım var. Ümumiyyətlə mənim yazdıqlarımın çoxu, demək olar ki, çap olunmayıb. Çap olunanların isə əksəriyyəti nadan, cahil, qorxaq redaktorlar, ədəbi işçilər tərəfindən bıçaqlanıb, yaralanıb, qanına qəltan olunmuş vəziyyətdə çıxıbdır. Mənim qəlbimin böyük bir parçası, həyatımın şüurlu hissəsi o yazılarda səpələnibdir. Əsrimiz yaman mürəkkəb və amansız əsrdir. Sahibsizi, kimsəsizi, köməksizi qarışqa kimi ayaqlayıb keçirlər, hətta nəhəngləri də bəzən gedər-gəlməzə göndərir, yüz min tonlarla su tutumu olan gəmilər kimi dəryalarda batırıb qərq eləyirlər. Gəl gör mənim kimi ayağı təzəcə yer tutanlar ola. Siz əli qələmli-hünərli adamlarsınız. Mən arzu edərdim ki, düşəndə o yazı-pozunun da işıq üzü görməsi taleylə maraqlanasınız, onların insanlara lazım olanlarını itib-batmağa qoymayasınız. Bu, həm mənim balalarıma maddi və mənəvi kömək olar, həm də oxuyanlar görərlər ki, mən bu torpağa sadəcə yük olmamışam. Amma onu da bilin ki, sinəmdə yazı-pozuya köçürtdüyümdən həm daha çox şey var...

Sizin hər biriniz əli silahlı döyüşçüsünüz. Namərd adam sizin hər hansı birinizə diş qıcayanda sizin hamınız süngünüzü ona qarşı tuşlasanız heç bir şey eləyə bilməz. Təəssüf ki, bəzən bizim birimizi təkləyib az qala təngnəfəs eləyirlər, biz əlimizdəki o kəskin silahdan istifadə etmirik. Arzu edərdim ki, süngünüz-silahınız həmişə iti olsun, canınız sağ, həyatınız xoşbaxt.

Daha göz yaşlarım imkan vermir qəlbimdən keçənləri yazam. Dünyanın bu saat ən köyrək və gözü yaşlı adamı mənəm... Allah amanatı! Balaları amanatı! Bir-birinizin amanatı... Sizin Qulu Xəlilov.

Bakı, 7/II-72

В РЕДАКЦИЮ ГАЗЕТЫ "ПРАВДА"

Многоуважаемые товарищи! Почти 40 лет я – постоянный читатель Вашей газеты. Роль "Правды" в жизни каждого коммуниста неоспорима. Мы радуемся, когда на страницах "Правды" публикуются принципиальные, наполненные жизненной правдой материалы. Огорчаемся, когда по чьей-то вине появляются досадные ошибки, неточности, иногда, как нам кажется, серьёзные пробелы. Вот примеры:

1. В номере "Правды" от 24 ноября 1985 года на 6-й странице напечатан фотоснимок "Час досуга". Снимок хороший, приятный, но слова под ним вызывают недоразумения. Там читаем:

"Азербайджанская государственная консерватория им.Узеира Гаджибекова за своё столетнее существование воспитала большую плеяду известных певцов...".

Известно, что консерватория в Азербайджане была создана не сто лет назад, а в советское время, т.е. в 1921 году.

2. В номере от 15 октября 1985 года в заметке из Еревана под названием "Эребуни–Ереван" читаем:

"Традиционный красочный праздник "Эребуни–Ереван" состоялся вчера в столице республики. В нём приняло участие около миллиона человек".

В тот же день, т.е. 15 октября 1985 года, в газете "Комсомольская правда" опубликована заметка А.Саркисяна "Салют, Ереван!". В ней читаем:

"Полмиллиона ереванцев приняли участие в этом традиционном празднике".

Если учесть, что в Ереване проживает всего миллион человек, вторая цифра (полмиллиона) выглядит более вероятной. Признаться, разница в цифрах фантастическая, на все 500 тысяч. Может быть, это армянская шутка со стороны Ю.Аракеляна?!

3. В номере от 25 ноября 1985 года в газете опубликована статья доктора исторических наук, профессора Г.Куманева "Боец ленинской гвардии. К 90-летию со дня рождения А.И.Микояна". Автор приписывает А.И.Микояну невероятные заслуги. Например, в статье говорится, что "будучи членом Президиума Бакинского комитета, он редактирует большевистскую газету "Социал-демократ" на армянском языке". Между тем, редактором данной газеты был С.Г.Шаумян, а А.И.Микоян членом редколлегии. Об этом говорится во всех источниках (см.: Х.А.Барсегян. История армянской большевистской периодической печати. Ереван, 1958, с.192). Автор статьи утверждает, что после встречи с В.И.Лениным в октябре 1919 года А.И.Микоян, как будто, возвращается в Баку, "здесь он целиком отдаётся подготовке вооружённого восстания".

Известно, что с октября 1919 года до конца апреля 1920 года он не

был в Баку и в Азербайджане вообще. Он не участвовал на I Учредительном съезде Компартии Азербайджана (февраль 1920 г.), не вошёл в состав ЦК Компартии Азербайджана, не был в составе ревкома, осуществлявшего вооружённое восстание. По автору выходит, что А.И.Микоян возглавлял борьбу азербайджанского народа за победу советской власти. Досадно то, что такое же мнение распространяют в течение 60 лет наши недруги, утверждая, что не азербайджанцы руководили установлением Советской власти в Азербайджане.

Все эти вопросы подробно освещены в исторической литературе. Автору следовало хотя бы познакомиться с "Очерками истории компартии Азербайджана".

С уважением:

Гусейнов Ш.А.

Баку–370014, ул.М.А.Алиева, дом 229, кв.19.

1985

В РЕДАКЦИЮ ГАЗЕТЫ «ПРАВДА»

Многоуважаемые товарищи!

Газета «Правда» пользуется большим спросом, уважением и всеобщим авторитетом. Это и естественно, ибо революционная перестройка, гласность, новое мышление, ленинский стиль работы охватывает все стороны нашей жизни, а газета «Правда» как орган ЦК КПСС ведёт активную борьбу за реализацию решений XXVII съезда КПСС и последующих пленумов ЦК партии.

Характерными особенностями материалов газеты является то, что они вызывают творческий настрой, оптимистический дух, уверенность в будущем, столь необходимые в революционное время. Это нас радует.

На этом общем фоне нас удивила статья члена-корреспондента АН СССР О.Трубачева, опубликованная в номере от 28.III.1987 г., «Славяне. Язык и история». Конечно, в статье местами ставятся очень интересные и актуальные вопросы, связанные с историей России, межнациональных отношений, вопрос об улучшении изучения русского языка и т.д. Но в ней много и неясного, загадочного, а порой, на наш взгляд, затуманенности.

Статья начинается в публицистическо-чувствительных нотках: неизвестная читателю женщина из одной неуказанной автономной республики Северного Кавказа в одном случае «добралась», в другом «прибыла» в Москву, в том числе и к автору статьи. «Добралась старая женщина до Москвы с длинным письмом о нынешних судьбах русского народа». «Старая русская женщина прибыла в Москву из одной автономных республик Северного Кавказа, и её беспокоило более чем скромное положение русских в этих национальных краях».

В чём «тревоги простой русской женщины из Северного Кавказа?» –

спрашивает автор и сам же отвечает, – «в содержании её письма, и, если не принимать во внимание наивных мест, там содержащихся, её основная мысль не расходится с научно-фундированными представлениями экономистов и социологов».

Давай и разгадывай, в чём суть мысли научно-фундированных представлений экономистов и социологов.

И дальше в статье читаем:

«Мне приходилось слышать о случаях, когда приглашавшийся на заседание республиканский научный работник вёз с собой переводчика, через которого объяснялся с экспертами».

Автор пишет, что «в наших филологических кругах для обсуждения упорно требуют говорить о паритетности взаимовлияний не только русского языка на национальный, но и наоборот». Опять анонимка, опять загадка; непонятно, кто и где ставил вопрос «о влиянии чукотского языка на весь русский». Складывается впечатление, что данная статья написана на основе письма неизвестной пожилой женщины, сообщения неизвестной читательницы, подслушавшей что-то на шумном перекрёстке, на случаях, связанных с неизвестным научным работником, везшим с собой переводчика, услышанного самим автором. Неужели исходя из всего этого можно ставить такие важнейшие вопросы, как «судьба русского народа», о «протатаринности русского языка», о «престиже русского языка» и т.п.? Если не во всём, но местами мысли автора как бы созвучны мыслям дореволюционной пресловутой организации «Союз русского народа».

Вызывает недоумение, что автор статьи, посвящённой глубоко научному, актуально-политическому вопросу, нигде даже не упоминает о принципах ленинской национальной политики, на высказываниях В.И.Ленина; даже выражение «дружба народов» в ней отсутствует. Создаётся впечатление, что автор умышленно избегает их.

Вся страна, все народы нашей необъятной Родины строят своё светлое будущее, готовятся достойно встретить 70-летие Великого Октября. Победа Октябрьской революции была и победой ленинской национальной политики, победой пролетарского интернационализма над великодержавным шовинизмом и местным буржуазным национализмом. Те, кто стремятся мутить воду, должны осознать, что возврата к прошлому нет и не будет!

Б.Вагабзаде
член-корреспондент АН Азерб.ССР

Ш.Гусейнов
кандидат исторических наук, доцент
Апрель 1987.

В РЕДАКЦИЮ ГАЗЕТЫ "ПРАВДА"

Многоуважаемые товарищи! Нам нечего распространяться о роли и значении органа ЦК газеты "Правда". Всё время страницы "Правды" для нас были голосом правды, защитницей правды. Ибо на первой странице газеты написано: "Газета основана В.И.Лениным".

Но в последнее время по непонятным нам причинам почему-то "Правда" часто нарушает ленинский принцип верности к правдам жизни. Конечно, нам непонятно, что мы живём в эпоху революционной перестройки, плюрализма мнений. Но это ни в коем образе не даёт повода для искажения фактов и событий, имеющих важное значение для жизни и судеб народа. Взять хотя бы номер газеты за 27 сентября с.г. В этом номере напечатано два материала из жизни нашей республики: "Драма на шоссе" (что произошло близ города Агдама). Автор А.Петрушов в течение нескольких дней побывал в Ереване, Баку и Степанакерте, как видно из материала, не только в качестве спецкора "Правды", но и в качестве "неуполномоченного следователя", что вошло в моду, прежде чем писать о событиях, которые происходят в суверенной Азербайджанской Республике на её территории: корреспонденты центральных газет обязательно выезжают в Ереван, узнать мнение соседей. По какому праву руководство соседней республики имеет право вмешиваться во внутренние дела Азербайджана? Это относится и к событиям в Нагорном Карабахе. Газета "Правда" сама выступает против вмешательства во внутренние дела других стран. Как можно события, произошедшие близ города Агдам, представлять читателям "Правды", вернее говоря, общественности страны и мировому сообществу в таком извращённом, однобоком виде, когда нет достоверного юридического исследования? Удивительно, что среди опрошенных нет местного жителя-очевидца. Это же не очерк и не рассказ. Неужели в редакции газеты считают, что оперативность исключает достоверность? Конечно, у нас нет <...>, чтобы заставить дать опровержение или извиниться перед жителями Агдама и республики в целом. Раздувать националистический психоз, поддержать претензии дашнаков не требует особого ума. Разделяем высказывание на днях на сессии Верховного Совета СССР одного народного депутата СССР о том, что своими выступлениями газета "Правда" не помогает разрядить обстановку в межнациональной сфере, а, наоборот, разжигает её.

Между прочим, в том же номере газеты И.Антонович, доктор философии, в статье "Все цвета спектра" разглагольствует, будто Нагорный Карабах был сначала отдан в распоряжение одной республики, а потом другой. Наверно, И.Антонович никогда не был в Азербайджане и Нагорном Карабахе и даже не знаком ни с одной научно-исторической работой Азербайджана. Ибо он узнал бы, что фактически никогда Нагорный Карабах не был в составе ни одной республики, кроме

Азербайджана. А вы распространяете такую ложь и чушь.

В том же номере есть материал под заголовком "Финал закономерен", где говорится, как реагировали на вашу критику в Азербайджане. Даже есть примечание от редакции, где говорится: "Партийные органы с заинтересованностью реагируют на критические выступления в печати, проявляют принципиальность не на словах, а на деле". Интересно, как вы сами отреагируете на принципиальную критику в ваш адрес.

Думаем, что перестройка в самой редакции газеты "Правда" идёт медленно, с перебоями. А жаль! Ведь именно Вы должны были перестроиться первыми. Не пора ли освободиться от давления обосновавшейся в Москве армянской мафии, от её широко разветвлённой пропагандистской сети.

Читатели вашей газеты
преподаватели Азгосуниверситета им.С.М.Кирова:

проф. Б.Вагабзаде – депутат Верховного Совета Азерб.ССР
проф. Гусейнов Ш.
проф. Мехтиев Ф.
доц. Рустамов А.
доц. Ахмедов Н.
доц. Мехтиев М.
ст. преп. Бабаев З.
ст. преп. Мамедов З.

1988

В редакцию газеты «Правда»

НЕЛЬЗЯ УПРОЩАТЬ!

Дорогие товарищи! В вашей газете 16 января с.г. под рубрикой «Мы – интернационалисты» была опубликована статья корреспондента газеты С.Романюка. «Без аргументов – прозвучали обвинения в адрес известного поэта на одной из научно-практических конференций». До этого мы были знакомы с другим материалом того же автора – интервью с Героем Социалистического труда, народным поэтом Киргизии Аалы Токомбаевым под заголовком «Всё держится на правде!».

Но что же! Всё ли держится на правде в обоих материалах?

Если присмотреться в глубину обсуждаемого вопроса, суть, по нашему мнению, заключается в следующем:

а) изучение русского языка нерусскими, проживающими в нашем Союзе;

б) изучение национальных языков представителями некоренных национальностей в республиках;

в) изучение коренными национальностями своего родного языка.

По первому вопросу всё ясно. Русский язык является языком межнационального общения и надо стремиться к тому, чтобы граждане нашей страны, независимо от национальной принадлежности, владели этим языком. Это бесспорно и нет необходимости в его широкой интерпретации. Со временем так и будет, сама жизнь ведёт к этому, диктует его необходимость. Но и здесь настораживает вот что:

Как писала недавно «Правда» в статье «Это святое слово – Родина» (4 января 1988 г.), когда речь заходит о двуязычии, само собой разумеющимся было бы понимать под этим владение языком межнационального общения – русским языком. А изучение языка национальной республики людьми некоренной национальности упускалось из виду. В связи с этим нас удивило вот что:

И в первой, и во второй публикации содержатся следующие неимоверные утверждения:

«Двуязычие должно быть делом сугубо добровольным, в то время как знание русского, государственного языка в масштабе всей страны уже по этой причине обязательно для всех» (здесь и далее подчёркнуто нами. – *Ш.Г.*).

Во второй статье это утверждение повторяется со слов Токомбаева: «русский язык остаётся средством межнационального общения, является общегосударственным языком в СССР». Выходит, что русский язык является обязательным государственным языком.

Нам интересно узнать, в каком законодательном акте, партийном и государственном документе оно зафиксировано? В Конституции СССР

такое положение не содержится. Там, в статье 36-й написано:

«Граждане СССР различных рас и национальностей имеют равные права. Осуществление этих прав обеспечивается политикой всестороннего развития и сближения всех наций и народностей СССР, воспитанием граждан в духе советского патриотизма и социалистического интернационализма, возможностью пользоваться родным языком и языками других народов СССР». Как видно, ни слова о государственном языке или о его обязательном изучении.

Как известно, стремление сделать русский язык государственным языком, обязательным для всех, было в период царизма. Но лучшие прогрессивные люди выступали против этой пагубной политики. Когда в 1913 году, в связи с 300-летием дома Романовых, этот вопрос опять всплыл на поверхность, В.И.Ленин и большевики первыми выступили на защиту принципов пролетарского интернационализма и равноправия языков народов России.

В.И.Ленин в статьях «Рабочий класс и национальный вопрос» (ПСС, т.23, с.149-150), «Либералы и демократы в вопросе о языках» (ПСС, т.23, с.423-426) дал достойную отповедь великодержавным шовинистам. Он писал:

«Национальная программа рабочей демократии: никаких безусловно привилегий ни одной нации, ни одному языку».

Далее:

«Ни одной привилегии ни для одной нации, ни для одного языка».

В.И.Ленин поддержал даже выступления тех органов либеральной печати, которые писали:

«О судьбе русского языка беспокоиться нечего. Он сам завоюет себе признание по всей России».

Эти высказывания газеты «Русское слово» В.И.Ленин считал справедливыми, верными. Выходит, дореволюционные либеральные газеты по этому вопросу выступали более компетентно, чем некоторые публицисты наших дней. Используя авторитет старейшего киргизского поэта Аалы Токомбаева, автор стал нападать без аргументов, с придирками, на всемирно известного советского писателя Ч.Айтматова. А это не делает чести ни ему самому, ни такой авторитетной газете, какой является «Комсомольская правда».

Недавно на страницах газеты «Правда» эстонский писатель Тээт Каллас пишет:

«Понятие Родины включает в себя не только землю и воду, леса и луга, окружающие тебя, но и язык, который с детства звучит возле тебя и в тебе» (4.I.1988).

Чтобы понять боль истинного патриота-интернационалиста Ч.Айтматова, приведём только один пример из самой беседы Романюка:

«Во Фрунзе только одна школа, где обучение ведётся по-киргизски другие национальности в Киргизии не знает киргизский язык и сколько процентов киргизов не знает своего родного языка».

В заключение скажем, что в этих публикациях вольно-невольно прослеживается влияние пресловутой организации «Память» с её махровым шовинизмом. Жизнь будет брать своё! Никакая демагогия, никакие «сверхинтернационалисты» с их покровителями не могут остановить поступательное движение истории. Народы начинают хорошо понимать и различать истинных друзей и патриотов-интернационалистов от мнимых, под какими бы масками они ни выступали, какими званиями и почестями они бы ни прикрывались.

Гусейнов Ш.А.,
Вагабзаде Б.,
январь 1988 г.

Кишинев, Пушкина 22
Редакция газеты «Ана сезу»

Многоуважаемые товарищи! Самым большим подарком на Новый год было для нас знакомство с первым номером вашей газеты. В дружной семье многонациональной печати появилась новая газета. Очень и очень рады за Вас. Без родного языка нет народа, без печати язык обречен. Думаем, что никогда никому больше не позволите отнять у вас материнское слово.

Желаем братскому гагаузскому народу, коллективу редакции газеты больших успехов и благополучия.

Бахтияр Вагабзаде, народный поэт Азербайджана
Ширмамед Гусейнов, профессор Азгосуниверситета
370014 – Баку, М.А.Алиева 229, кв.19
Гусейнов Ш.А.

P.S. Həmin təbrik teleqramı Moldaviyanın paytaxtı Kişinyov şəhərində qaqauz türkcəsində nəşr olunan "Ana sözü" qəzetinin 1989-cu il 29 yanvar tarixli 3(13)-cü nömrəsində birinci səhifədə dərc olunmuşdur.

Москва. Съезд Народных депутатов
Депутатской группе Азербайджана
тов. Везирову

Мы внимательно и с большой озбаченностью следим за работой съезда. Нам непонятно, почему так робко и некомпетентно ведут себя наши депутаты. Разве с такой командой можно было идти на такое ответственное политическое государственное мероприятие, имеющее эпохальное значение? Послушные, покорные, думающие только о своей карьере люди, к тому же некоторые из них слабо владеют русским языком, разве в состоянии защитить интересы, честь и достоинство азербайджанского народа на всесоюзном форуме. Создатели и организаторы такой некомпетентной, неполноценной, послушной и покорной команды, мыслящей критериями вчерашнего дня, несут огромную ответственность перед азербайджанским народом, перед историей за то унизительное положение, в каком оказался на съезде перед страной и всем миром народ Азербайджана.

Ш.Гусейнов
Б.Вахабзаде
1988

Баку, ул. М.А.Алиева, 229, кв.19
Гусейнову Ш.А.

Уважаемый тов. Гусейнов!

Мы познакомились с Вашим письмом и выражаем Вам признательность за сообщение о решении коллегии Госкомиздата Армянской ССР.

В связи с поднятым Вами вопросом об упоминании в журнале рецензии В.Мнацаканяна хочу пояснить, что даваемая нами библиография носит не рекомендательный, а информационный характер, поэтому мы включаем в неё все рецензии на детские издания, опубликованные в советской прессе (за исключением районной и городской периодики).

Что касается конкретной оценки данной книги, редакция оставляет за собой право вернуться к этому вопросу, изучив его.

Главный редактор журнала «Детская литература»
С.Алексеев
31 октября 1985 г.
Исх.№ 230-VI.

II DÜNYA MÜHARİBƏSİ VƏ M.Ə.RƏSULZADƏNİN MÖVQEYİ

1941-ci ilin iyununda Alman-SSRİ müharibəsi başladı. M.Ə.Rəsulzadə Rumıniyada idi. Müharibənin başlanması ilə Rusiyanın işğal etdiyi ölkələrin məhkum millətlərinin xarici mühacirət nümayəndələri hətta dəvətsiz Berlinə axışmağa başladılar. Onlar ümid edirdilər ki, almanlar onları bolşevizmdən azad edəcəklər. M.Ə.Rəsulzadə tələsmədən hadisələrin gedişini izləyirdi. Almanlar SSRİ xalqlarının bolşevizmdən azad edilməsi barədə danışır, lakin onlara nə verilləyəci, gələcək taleləri barədə əməlli-başlı bir şey demirdilər. Almanların Şərq siyasəti, yəni Rusiyanın məhkum xalqlarına nə verəcəkləri də məlum deyildi.

M.Ə.Rəsulzadə iki dəfə almanlar tərəfindən Berlinə dəvət edilmişdisə də yayınmışdı. 1942-ci ildə prof. Fon Mende və qraf Fon Şulenburqun İspari və Nuri Killigil Paşanın aracılığı ilə alman məmurları ilə görüşmək üçün Berlinə gəlmişdi.

Azərbaycan Milli Mərkəzi başqanı və "Müsavat" partiyasının lideri M.Ə.Rəsulzadə Berlində əvvəllər qurduğu "Azərbaycan İstiqlal Komitəsi" nümayəndələrinə almanlarla danışıqlar aparmaq tapşırığı vermişdi. Qafqaz millətlərinin siyasi məsələlərinə almanların yanaşmasını aydınlaşdırmaq lazım idi. Bunların zəminində o, Almaniyanın rəsmi nümayəndələrilə danışığa başlamışdı. Lakin məlum oldu ki, almanlar nəinki istiqlal, hətta "Milli Komitə" adını belə eşitmək istəmirlər.

Almanların Sovet İttifaqı xalqları haqqında müharibə sonrası siyasəti açıq bir şəkildə şərh edilmirdi, açıq deyildi. "Sizləri bolşeviklərdən qurtaracağıq" şüarından başqa bir şey yox idi. M.Əmin "qeydsiz-şərtsiz Azərbaycanın milli müstəqillik və istiqlalı" idi.

Almanlar Azərbaycanın xarici mühacirəti ilə yanaşı, Sovet ordusunun əsir tutulmuş azərbaycanlılardan yeni mühacirət təşkil etmişdilər, onlardan M.Əmin müxalifət düzəltmişdilər.

M.Əmin 6 ay danışıqlardan sonra istiqlal məsələsində bir irəliləyiş olmadığını gördü. 1942-ci il oktyabrın 7-də verdiyi bir müsahibədə demişdi: "Alman ordusu, Xarici İşlər Nazirliyi və Şərq İşləri Nazirliyi ilə işbirliyi yapmağa hazır olduğunu, fəqət Azərbaycanın müstəqilliyinin elanı olan hədəfinin alman siyasəti ilə razılığa gəlmək mümkün olmadığını ifadə edərək görüşmələri buraxmış, ancaq 1943-cü il avqustuna qədər Berlini tərk etməmiş, Azərbaycanın könüllü hərbi birləşmələrində iş aparmış, 1943-cü il noyabrın 6-9-da Berlinin "Kayserhof" mehmanxanasında "Müsavat" partiyası və onun lideri M.Əminin "milli ruhda" yetişdirilən azərbaycanlıların konqresi oldu. Konqres Azərbaycanın istiqlalını tanımaq istəməyən almanları tənqid etdi".

1943-cü il avqustun 5-də M.Əmin almanlara bir "Yaddaş Memorandumu" verərək Berlini tərk edib Buxarestə gəldi.

"Kayserhof" mehmanxanasında azərbaycanlılarla vida görüşündə M.Əmin demişdi: "Mənim igid balalarım, sizlər əllərinizdə silah düşmənlərimizə qarşı

mübarizəni davam etdirin, zira sizlər siyasi deyil, əsgəri gücsünüz. Mən isə Azərbaycanın müstəqillik mübarizəsinin yükünü üzərimdə daşıyan bir siyasət adamı olduğumdan, milli istiqlal məsələmizdə almanlarla anlaşamadıq. Mən bu gün sizlərə vida edərək Almaniyanı tərk edirəm. Ancaq getmədən qabaq sizlərə, almanların milli məsələlərimizdə bizə olan münasibətlərini söyləmək istəyirəm. "Balalarım, azad və müstəqil bir dövlət həyatı yaşamaq ikən, onları işğal edərək istiqlallarını əllərindən alan almanlar, kommunist işğalı altındakı Azərbaycana heç bir zaman istiqlal haqqı tanımayacaqdır".

M.Əmin Buxarestə gəlir. Sovet qoşunları Buxarestə yaxınlaşanda oranı tərk edir, 1945-ci ilin aprelində Almaniyanın Amerika işğal zonasına keçir. 1945-ci il mayın 8-də almanlar təslim olur. M.Əmin bu vaxt Münhen yaxınlığındakı Mühlheim şəhəri kənarında kiçik bir kənddə olduğundan xəbər xəbər tutan azərbaycanlılardan doktor Bədəl və Milli Mərkəz üzvü N.Atak tərəfindən Münhenə gətirilir, ev tutub yerləşdirirlər.

Bu zaman onun 61 yaşı vardı.

3 ay Amerika İşğal Qüvvələri əsir düşərgələrində əsir olaraq qaldıqdan sonra 1945-ci ilin avqustunda sərbəst buraxılır.

Əsirlərin qayıtmaması, yerləşdirilməsi məsələsi ilə məşğul olur. O vaxt KQB onu Almaniyada izləyirdi. Ancaq tez-tez yer dəyişir, türklər qoruyurdu.

1947-ci ilin sentyabrında Türkiyəyə gəlir.

1930-da Türkiyədən ayrılmışdı.

Müharibə başlayanda M.Əminin 57 yaşı vardı, qurtaranda 61 yaşı vardı. II Dünya müharibəsi başlayanda, yəni 1939-cu ilin sentyabrında M.Ə.Rəsulzadə Varşavada idi. Alman işğalını gözü ilə görən M.Əmin Fransaya getmişdi. Ordan sonra İsveçrəyə, oradan Londona, sonra təkrar Rumıniya Buxarestə dönmüşdü. Ukrayna Radası, Belorusiya Kansedi, Krım, Ural tatarları, Türküstan təşkilatları, Gürcüstan Milli Mərkəzi, Şimali Qafqaz Milli Mərkəzi və digər məhkum millətlərin nümayəndələrilə görüşüb danışıqlar aparmışdı.

Ş.Hüseynovun arxivində çox kiçik səhifələrə yazılmış bir yazı diqqəti cəlb edir. 7 səhifəlik bu materialın təəssüf ki, birinci səhifəsi yoxdur. Lakin məqalə maraqlı olduğundan onun da çapını bu kitaba salmağı məsləhət bildim (Ü.H.).

..... girişmiş, tarixi şəxsiyyətlərə böhtan yağdırmaq, hədyanlar yazmaq və bu yolla iqtidarın rəğbətini qazanmaq kimi ləyaqətsiz yola üz tutmuşlar.

Qəlbən saf, niyyətcə xeyirxah olub eşitdiklərini, ara sözlərini və heç bir elmi əsası olmayan bir növ nağılvari əhvalatları qələmə alanlar da az deyil. M.Ə.Rəsulzadə haqqında, xüsusilə onun İ.V.Stalinlə əlaqələri barədə belə əsassız müddəalar və əhvalatlar yazılmaqda, yayılmaqdadır.

Lakin milli istiqlal tariximiz, milli iftixar mücahidlərimiz barədə tədqiqat və axtarışlar ləng də olsa davam etməkdədir.

Göstərək ki, Azərbaycan tarixi və tarixi şəxsiyyətlərimiz barədə cümhuriyyətimizdən kənarda da xeyli faydalı işlər görülməkdədir. "M.Ə.Rəsulzadə və Şərq" mövzusunda elmi-tədqiqat işi hazırlayan yapon türkoloqu Katsumi Tokumasi bu yaxınlarda Bakıya gəlmişdi. Onunla görüş və fikir mübadiləsi məni heyran etdi. Eyni sözləri kazanlı tatar tədqiqatçısı Bulat Sultanbəyov haqqında da demək olar. Bir neçə ay bundan əvvəl Kazanda onun "Stalin və "tatar izləri" («Сталин и «татарский след») adlı irihəcmli monoqrafiyası çap olunmuşdur. Bu sanballı əsərdə Stalinin və stalinçilərin türk-müsəlman xalqları və onların görkəmli siyasət və dövlət xadimlərinə qarşı apardıqları böhtan və təqib siyasəti və kampaniyası tutarlı faktlar və sənədlərlə ifşa edilir.

Monoqrafiyada "demokratik Azərbaycanın ilk cümhur başqanı" kimi təqdim edilən M.Ə.Rəsulzadəyə xeyli yer verilmişdir. Müəllifin tədqiqatında nəzər diqqəti cəlb edən bir sıra yeni faktlar və sənədlər vardır. Onlardan biri İ.V.Stalinin 1923-cü il sentyabrın 16-da partiyanın baş katibi kimi Musabəyov, Mirzoyan, Axundov, Kirov, Orexelaşviliyə yazdığı məktubdur. Bu məktub təsadüfi yazılmamışdı.

Stalinin təşvişi

1923-cü ilin birinci yarısında, İstanbulda M.Ə.Rəsulzadənin iki mühüm əsəri işıq üzü görmüşdü. Onlardan biri Türkiyənin İzmir şəhərində keçirilən "Kitab bayramı"nda Atatürk mükafatına layiq görülmüş "Azərbaycan Cümhuriyyəti" kitabı, ikincisi milli istiqlal mücahidlərinin nəşr etdikləri "Yeni Qafqasiya" məcmuəsinin 5-ci nömrəsində dərc olunmuş "Stalinə məktub"dur.

Hər iki əsər Türkiyədəki Sovet Səfirliyi tərəfindən rus dilinə tərcümə edilib Moskvaya göndərilmiş və məktubdan göründüyü kimi, Stalin tərəfindən oxunmuşdu.

M.Ə.Rəsulzadə "Stalinə məktub"unda onu həbsxana və ölümdən xilas edən "köhnə dostu"na minnətdarlığını bildirir, həmçinin açıqcasına yazır ki, "hazırda Rusiyada hüsula gələn hadisələr bundan 100 il əvvəl cərəyan edən hadisələrdən başqa bir şey deyildir. Yüz il əvvəl olduğu kimi, indi də Rusiya müstəmləkələri bir yerə toplamaqdadır".

"Azərbaycan Cümhuriyyəti" əsərində isə Azərbaycan xalqının, Rusiyanın digər müstəmləkə xalqlarının milli istiqlal mübarizəsi, bu mübarizənin mərhələləri, uğur və nöqsanları qısa, lakin tutarlı şəkildə təhlil edilirdi. Rusiyada baş qaldırmış "qızıl imperializm"i qətiyyətlə ifşa və rədd edir və yazırdı ki, "müasir Rusiya imperializmini qızıl sözlərilə deyil, qara əməlləri ilə" qiymətləndirmək lazımdır, "milliyyətpərvər Azərbaycan isə hal-hazırda fəci bir dövr keçirir". Lakin "hazırda istiqlal və hakimiyyəti-milliyə sövdası ilə yaşayan bir Azərbaycan gəncliyi vardır ki, ÇK-nın amansız edamlarına baxmayaraq, gecə-gündüz çalışır, ilk fürsət və imkanı bəkləyib duruyor. Bu fürsət gəlincə o, meydana çıxacaq və o zaman yanıq könlündə atəşin cizgilərlə mənən mənquş bulunan bayrağı maddətən yüksəldərək deyəcək ki: – Əvət, bir kərə yüksələn bayraq bir daha enməz!"

Xəstə Leninin yerini tutmaq uğrunda Partiya Siyasi Bürosunda və ölkə rəhbərliyi daxilində gedən kəskin hakimiyyət davası şəraitində hər iki əsərdən, xüsusilə M.Ə.Rəsulzadəni Bakıdan həbsdən azad etdirib Moskvaya gətirən, sonra gözündən buraxıb xaricə qaçmasından bixəbər olan Stalinin əleyhinə istifadə edə bilərdilər. Hadisələri qarşılamaq üçün min bir işlə məşğul olan Stalin ən

yüksək səviyyədə bir müəllif kollektivi müəyyən edib, Rəsulzadə əleyhinə bir kitabça hazırlanması barədə göstəriş verir, hətta onun tezislərini və ümumi istiqamətini də müəyyənləşdirir.

Stalinin tezisləri

"Rəsulzadənin mürtəce kitabçası barədə Musabəyov, Mirzoyan, Axundov, Kirov, Orexelaşvili yoldaşlara mənim məsləhətim:

Rəsulzadə əleyhinə ümumi ruhu hücum xarakteri daşımalıdır. Heç bir halda təmizə çıxarmaq lazım deyil, onu aşağıdakılarda ittihamla hücuma keçmək:

1. Dönüklükdə. O bolşevik idi, sonra onlara xəyanət etdi;
2. Türklərin özlərinin mənafelərinə xəyanətdə: çünki Rəsulzadə özü və onun "Müsavat" partiyası Qızıl Ordunun türklərə yardım göstərməsi və Bakının alınmasına maneçilik törədirdilər;
3. Azərbaycan xalqına xəyanətdə: torpağın kəndlilərə verilməsinə və bəylərin mülklərinin ləğv edilməsinə maneçilik törədirdilər;
4. Bütün Şərq xalqlarının mənafeyinə xəyanətdə: müsəlmanlar üzərində İngiltərənin müstəmləkəçilik hökmranlığını saxlamaqda ona yardım göstərməkdə;
5. Erməni-tatar qırğınının təşkilində: Rəsulzadəni Azərbaycan Purişkeviçi kimi "lağa qoymaq";
6. Şamxor talanının təşkilində ittiham etmək: onu "Azərbaycan talançısı" kimi damğalamaq.

Mənim fikrimcə, əgər bu tezislər nəzərə alınsa, kitabça tamamilə qənaətbəxş olacaq.

Salamlar: İ.Stalin
16 sentyabr 1923"

M.Ə.Rəsulzadə əleyhinə kitabça yazmağı Q.Musabəyova həvalə edirlər. Moskvada İnqilab Muzeyinin direktoru Ratqauzerə müraciətlə Musabəyov yazırdı: "Yoldaş Ratqauzer, xahiş edirəm yoldaş Stalinin tezislərinə əsasən kitabça hazırlamaq üçün İnqilab Muzeyindən mənə lazımlı materiallar verəsiniz".

Tədqiqatçılar Azərbaycan partiya təşkilatına başçılıq edən Kirovun Məmmədəmin əleyhinə açıq çıxış etməkdən, o cümlədən Stalinin tapşırığını yerinə yetirməkdən yayınmasını şərh edərək yazırlar ki, "Kirov Rəsulzadə ilə polemikadan yayınmaqda fayda görürdü. Zira onun hamıya məlum olan parlaq dili və opponentini "sürümək" bacarığını Kirov da bilirdi".

Qeyd edək ki, İ.V.Stalinin müraciət etdiyi kommunist rəhbərlərdən heç biri onun tapşırığını yerinə yetirə bilmədi. Sonralar Əliheydər Qarayev bu ləyaqətsiz işə girişdi və böhtancı bir şey yazdı.

Stalin iqtidarı dövrünün məddah böhtançılarından törəmələr indi də ara-sıra M.Ə.Rəsulzadəyə hücum çəkməyə cəhd göstərirlər. Amma "köhnə dostunun" təbirilə "kommunist dininin bir peyğəmbəri sayılan", "şəxsiyyəti allahlaşdırılan, totalitarlar totalitarı", "Neronlara, Çingizlərə rəhmət oxutduran bir tiran"

M.Ə.Rəsulzadənin adını və əməllərini tarixdən və xalqın yaddaşından poza bilmədisə, teleekran zamanın və tarixin güzgüsü, cızmaqaraçıları və məddahları da eyni aqibət gözləyir.

M.Ə.Rəsulzadə bütün varlığı ilə sevdiyi və əvəzsiz xidmət etdiyi Azərbaycanla bütövləşib, milli istiqlal ruhu və məfkurəsi, müstəqil Azərbaycan var olduqca, o da yaşayacaq.

Onu hər il yanvarın 31-də, anadan olduğu gün bir daha yad etmək bizim vicdani borcumuzdur.

Şirməmməd HÜSEYNOV

Многоуважаемый тов. ДЕМИРЧЯН!

Мы с большим интересам и болью в сердце прочитали книгу З.Балаяна «Очаг» (изд. «Советакан Грех», Еревен, 1984 г.). До сих пор нам казалось, что буржуазные националисты-дашнаки, стремившиеся создать «Великую Армению» от моря до моря, сеющие вражду между народами были разбиты, что все это осталось в прошлом. Не ознакомившись с книгой З.Балаяна, в котором он объявляет уже в 1984 году Нагорной Карабах, Нахичевань и др. территории соседней республики армянскими, призывает армянскую молодежь к борьбе за «Великую Армению», объезжав почти всю территорию Армении не видите ни одного азербайджанца – труженика, коммуниста, гражданина а их около 200 тысяч проживающих веками там, нам стала ясно, что дашнаки все еще живы, живы не только за границей но и в Советской Армении. З.Балаян – таму живой, наглядный пример.

Мы выражаем свою «благодарность» З.Балаяну, и тем кто дает ему возможность печататься, за то, что, он и «нам открыл» глаза. Теперь у нас есть возможность показать всем живого буржуазного националиста, дашнака прикрывающегося именем советского журналиста и публициста.

Гусейнов Ш.А.,
кандидат исторических наук, доцент
1984



Tarixin və taleyin əsrarəngiz qanunları, təzadları var. Hər nəsil bu intəhasız, əvvəl-axır bilinməyən, əbədi və müvəqqəti həyat adlanan məkanda öz rolunu oynayır, köçüb gedir. Lakin hələlik daimi görünən vətən torpağıdır, xalqdır, maddi və mənəvi mirasdır. Hər kəsdən qalan isə, məncə, inam və inancdan doğan vətəndaş ad-sanı, doğruluq və dürüstlük-həqiqi milli qeyrətvə namusdur.

Şirməmməd HÜSEYNOV

Əlirza XƏLƏFLİ,
"Kredo" qəzetinin baş redaktoru

USTAD HAQQINDA NƏĞMƏ, ƏBƏDİYYƏT QARŞISINDA DÜŞÜNCƏLƏR

Tarixi xronoloji ardıcıllıq məsələsi olmasaydı, bu yazını lap əvvələ çəkərdim. Ancaq bəlkə elə bunun özündə də bir qanunauyğunluq var. Qulu Məhərrəmlinin *"Gələcəyə ön söz"* kitabı da, demək olar ki, Şirməmməd Hüseynov haqqında yazı ilə bitir. Bəlkə də, bu özü də bir rəmzdir. Axı Şirməmməd Hüseynov ictimai fikir tariximizin bütöv bir mərhələsi idi. Aparıcı sima olaraq yaşadığı dövrdə cəmiyyəti istiqlal ideyaları ilə çulğamaq üçün enerji mənbəyinə çevrilmişdi. İndi onun cismən dünyasını dəyişməsi ilə ictimai fikir tariximizin bütöv bir mərhələsi başa çatır.

Bundan sonra yeni dövr başlanır. Ş.Hüseynovun öyrəndiklərini öyrənmə ilə bərabər onun özünün həyatını və yaradıcılığını yenidən öyrənmə dövrü. O, orijinal düşüncə tərzi ilə bütöv bir müstəqil düşüncə sisteminə malik jurnalist nəsli yetirmişdi. İndi həmin nəsil Şirməmməd Hüseynovun mənəvi irsinin tədqiqinə daha geniş aspektdə yanaşacaq. Müstəqil düşüncə tərzinin yeni zamana uyğun təbiəti Şirməmməd Hüseynov məktəbinin tələqin etdiyi dərslərlə silahlanacaq.

Səmada ulduzlann parlayıb-sönməsi haqqında əvvəl də demişdim. Elə indi də deyirəm ki, heç bir ulduz izsiz-soraqsız itib-batmır, yox olmur. Müəyyən olunmuş cazibə qanununa görə həmin ulduzun yeri başqa bir ulduz tərəfindən tutulur. Bu qayda üzərində düşüncələrimizi cəmiyyətə doğru yönəltsək, qəti inamla demək olar ki, heç bir insan cismən əbədiyyətə qovuşmaqla izsiz-soraqsız yox olmur. Əgər bir qədər də dini-mistik düşüncə ilə yanaşma göstərsək, deməliyik ki, hər bir insanın ruhunun daşıyıcısı öz zamanında formalaşır. Dəsti-xətti, təbiəti, bilikləri, düşüncə tərzi öz yetirmələrində yenidən üzə çıxır. Necə ki, *"Nəsimi"* filmində Nəiminin dilindən deyilir: *"Gedən cismimdir, ruhum çoxdan sizə köçiib"*. Professor Qulu Məhərrəmlinin yazı tərzi, həqiqəti ifadə üslubu, ən baş-lıcası, zaman doğruluğuna az qala pedantcasına - sərt bir inadkarlıqla özünü tabe tutması həmişə məndə Şirməmməd Hüseynovun həyatının mənən davamı təsəvvürünü yaradıb.

Qulu Məhərrəmlinin *"Gələcəyə ön söz"* kitabında xüsusi diqqət və həssas yanaşma ilə qələmə alınmış son yazılardan biri artıq qeyd etdiyimiz kimi Şirməmməd Hüseynov haqqındadır.

Professorun ömrünün son günlərini əhatə edən həmin yazı *"Tarixə qovuşan tarixi şəxsiyyət"* (25.06.2019) adlanır. Bu yazının şəxsiyyəti yaddaşda əbədiləşdirən istəyindən başqa bir keyfiyyəti də diqqəti cəlb edir. Bu-rada tarixi şəxsiyyətin ictimai fikir tariximizdəki yeri məsələsinə də epizodik olsa da, sərrast motivlərlə işıq tutulur.

Aydın məsələdir, bir gün dünyaya gələnin vaxtlı, ya da vaxtsız bir gün də dünyadan getməyi var. Bütün hallarda insanın ölümü həyatın davamlılığında əsas şərt olsa da, həmişə ağrı ilə qarşılanır. Şübhəsiz, Şirməmməd Hüseynov kimi müdrikin də həyatdan gedişi onu tanıyanların, cəmiyyətdə yerini bilənlərin düşüncəsində kifayət qədər ağrı izi buraxdı. Professor Qulu Məhərrəmli öz yazısına elə Şirməmməd Hüseynovun ölüm xəbəri ilə başlayır: *"Onun vəfatı xəbəri mürgülü cəmiyyətimizdə göy gurultusu kimi səs saldı. Dünəndən bəri media bu məlumatı yayır, xəbar başlıqlarına ən cazibədar epitethr çıxarılır. Görkəmli tədqiqatçı alim və pedaqoq, ziyalı və millət fədaisi Şirməmməd Hüseynovun haqq dünyasına qovuşması sosial şəbəkələrin də əsas mövzusuna çevrilib. Vida sözlərini ən məhrəm ifadələrə hopduran insanlar onun vəfatına təəssüflənir, mütəəssir olduqlarını dilə gətirirlər, çünki hamı Ş.Hüseynov çəkidə bir şəxsiyyət itkisinin miqyasını anlayır, bu itki ilə mənəvi mühitdə dərinləşəcək boşluğu görür, gələcək təhlükələri duyur... "*. Bəli, təəssüf ki, belədir. Hər hansı bir müdrikin yerinin boş qalması cəmiyyətdə dayaz düşüncənin qol-qanad açması deməkdir. Bu itkinin təhlükəsindən danışarkən Qulu Məhərrəmli məhz elə bunu nəzərdə tutur. Şübhəsiz, Şirməmməd Hüseynov düşüncə tərzi, cəmiyyətdəki prosesləri izləmək və şərh etmək baxımın-dan fərqli adam idi. Hansı məsələyə

müdaxilə edirdisə, həmin məsələnin mahiyyətindəki qaranlığı qovub dağıdırdı. Hətta əks qütbdə dayananların belə varlığına öz işığı ilə təsir göstərə bilirdi, elə bu səbəbdən də ona ya bilərəkdən, ya da bilməyərəkdən etiraza demək olar ki, kimsə cürət et-mirdi.

Şirməmməd Hüseynov cəmiyyətin uzaqvuran silahı idi. Fikir döyüşlə-rində həmişə qalib gəlməyə öyrəşmişdi. Elə başqaları da onun hər hansı bir mübahisə zamanı nəticədə qalib gələcəyinə inanırdı. Çünki o, mənəvi mühitinə xalqın bütün potensial imkanlarını cəmləyə bilmişdi.

Professor Qulu Məhərrəmli Ş.Hüseynovu məhz bu yöndən xarakterizə edir, ona görə də onun yenilməzliyi daha qabarıq görünür: *"Üzeyir Hacı-bəyli deyirdi ki, bir millət qüdrət sahibi olmaq istəyirsə, mütləq iqtisadi, hərbi və mənəvi gücə yiyələnməlidir. Şirməmməd müəllimə xalq sevgisinin kökündə onun parlaq şəxsiyyəti, millət üçün gördüyü qiymətli işlərlə yanaşı, məhz mənəvi gücə sahib olması dayanır.*

Hərdən mənə eh gəlir ki, Allah-taala Ş.Hüseynovu bu millətin mənəvi gücünü artırmaq, onu qorumaq üçün Yer üzünə xüsusi missiya ilə göndərib. O özünü dərk edəndən həqiqət uğrunda çarpışıb, haqq söz deyib, ədalətin yanında olub, millətin marağını, ictimai marağı üstün tutub. Amma bir şey var ki özün dürüst olmasan, nəfsinə hakim kəsilməsən, bu yolla gedə bilməzsən. Həyatı bizlərə bir örnək olan Şirməmməd müəllim bütün ömrü boyu bu yolla gedib. Heç vaxt gücün, haqsızlığın və nadanlığın qarşısında susmayıb, başı ağrısa belə həmişə sözünü deyib. Təkcə iclas salonlarında yox, mətbuatdakı yazılarında ekran və efirdəki çıxışlarında da həqiqətin üzərində olub.

Əlbəttə, bu çətin yolu qət etməkdə parlaq həyat prinsipləri ilə yanaşı dərin biliyi, iti ağlı, parlaq zəkası, qeyri adi düşüncə tərzi də ona kömək edib". Müəllifin yazdığı kimi, əslində Ş.Hüseynovun mənəvi yenilməzliyinin gücünü şərtləndirən keyfiyyətlər parlaq həyat prinsiplərinə əsaslanır. Parlaq həyat prinsipləri dedikdə isə, biz, təkzib olunmayan həqiqəti başa düşürük.

Qulu Məhərrəmli publisistik üslubuna uyğım olaraq, mətn daxilinə ədəbi-fəlsəfi pritça üslubunu gətirir. Xəyalən öz ustadını mifik obraz kimi qavrayır. Və bu qavrayışın mistik mahiyyət daşıdığını yox, həqiqi real insan taleyinin mahiyyətini ifadə etdiyini bildirir. Müəllifin qeydlərində Ş.Hüseynov hərəkətdə olan işıq kimi görü-nür: *"Mənə həmişə elə gəlirdi ki, Şirməmməd müəllim dayanmadan daim harasa yol gedir. Və üz tutduğu bütün yollar da qaranlıqdan işığa doğrudur. O bütün ömrü boyu yorulmadan, büdrəmədən ilahi bir işığın izini tutub gedir və insanları da bu aydın yola tərəf çəkir, çünki özünün mayası işıqdan yoğrulub. Əslində, bu həyatda onun üçün yalnız yolları aydınladan işıq var, belə insanlara görə, qaranlıq yalnız işığın yoxluğudur".* Çox maraqlı yanaşmadır. Qaranlıq

bizim təsəvvürümüzdə şər işlərin məkanıdır. Bütün oğurluqlar, xəyanətlər, şərlər, böhtan-lar qaranlıq mühitin bəhrəsidir. Müəllif də təqribən bunu deyir. Yəni, qaranlıq deyilən bir məfhum yoxdur, sadəcə işığın olmadığı yer qaranlıqdır. Qulu Məhərrəmlinin bu düşüncələri, şübhəsiz, ən durğun düşüncə adamına belə təsirsiz ötüşmür.

Qulu Məhərrəmli tarixlə tarixi şəxsiyyəti bir-birindən ayırmır. Bu anlamların bir-birinə yaxınlığını, qohumlu-ğunu, doğmalığını göstərmək istəyir. Və bu zaman onun üçün elə ən güclü istinad Ş.Hüseynovun həyatıdır: *"Şirməmməd Hüseynovun xarakterini nəsildən, gendən gələn həqiqət duyğusu formalaşdırır. O, 18-20 yaşlarında əyalətdə riyaziyyat müəllimi işləyəndə də, "Nuxa fəhləsi" qəzetinin müxbiri kimi çalışanda da, Moskvada aspiranturada oxuyanda da, yetkin yaşlarında universitet müəllimi olanda da öz xarakteri ilə, düzlüyü və prinsipiallığı ilə fərqlənir. O az qala mentalitetə çevrilmiş mütiliyin, Şər qarşısında susmağın, danışmaq lazım gəldikdə "abırlı" olmağın və bütün başqa saxta (həm də zərərli) davranışların əleyhinə gedib. Elə buna görə də Şirməmməd müəllimin bəzilərinə bir az qəribə görünən sərtliyi, prinsipiallığı, yalana və ictimai əxlaqsızlığa qarşı durması çoxları üçün ideal qəhrəman davranışı kimi qəbul edilib. Məsələn, özü də parlaq xarakter və cəsarət sahibi olmuş professor Qulu Xəlilov vaxtilə Şirməmməd müəllimin şəxsində öz istək və arzularının təcəssumünü görmüş və onu N.Çernışevskinin məşhur Raxmetovuna bənzətmişdi. Böyük alim və ədəbiyyat tənqidçisi həm də "yalançılığa, riyakarlığa, dələduzluğa, çirkaba, üfunətə, ikiüzlülüyə, yaltaqlığa... qarşı mübarizədə" Ş.Hüseynovla çiyin-çiyinə olmağı arzulayırdı".* Burada Qulu Xəlilov xatırlanır. Rus klassiklərindən Çernişevskinin məşhur Raxmetovu xatırla-nır. Maraqlıdır ki, Qulu Xəlilov Ş.Hüseynovun obrazında hələ 40 il bundan əvvəl Raxmetov gücü görürdü. Şirməmməd onun üçün həqiqi mübariz obrazı idi.

Qulu Məhərrəmli Şirməmməd Hü-seynovu təkcə nəsil fenomeni kimi görmür, onu həm də cəmiyyətin yetir-məsi kimi görür. Cəmiyyət əslində özünü hifz etmək üçün müəyyən za-manlarda Şirməmməd kimilərinə ehti-yac duyur. Elə bu səbəbdən də zama-nın tələbi ilə cəmiyyətin bətnindən məqamı gələndə qanunauyğun olaraq Şirməmmədlər dünyaya gəlir. Elə bu yolla Axundov dünyaya gəlmişdi, Zər-dabi yaranmışdı. Elə mətləbi Q.Mə-hərrəmlinin özünün qeydlərindən də görə bilərik: *"Mən əminəm ki, Şirməmməd müəllimin bu xasiyyəti təkcə nəsil şəcərəsindən, genindən qaynaqlanmır, həm də mənəvi irsini araşdırıb öyrəndiyi Azərbaycan maarifçilərindən, bu xalqı azad və xoşbəxt görmək istəyən millət fədailərindən gəlir. Yəni onun düşüncə və davranışları zülmətdə işıq axtaran Mirzə Fətəlidən, "Əkinçi" qəzeti ilə xalqımıza ictimai göz vermis Həsən bəy Zərdabidən, millətin tərəqqisi yolunda ömürlərini şam kimi ərit-*

miş Üzeyir bəydən, M.Rəsulzadədən və ruhən bağlı olduğu digər mütəfəkkirlərdən gəlir". Həqiqətən müəllətin qeyd etdiyi kimi biz də təsəvvürümüzdə həmin adlan sıralaya bilərik. Və nəhayət, zəmanəmizə gəlib çatanda, yəni 20-ci əsrin ikinci yarısından bəriki dövr üçün həmin adların zaman sırasında Şirməmməd Hüseynovun möhtəşəm adı mübahisəsiz olaraq öz yerini alır.

Ş.Hüseynov bütün həyatını ən faydalı işlərə sərf etmişdi. Əgər diqqət etdinizsə, biz "faydalı" yox, *"ən faydalı"* dedik. Tariximiz üçün ən faydalı iş Cümhuriyyət dövrünün tədqiqidir.

Müstəqil Azərbaycan Cümhuriyyəti Azərbaycan tarixinin ən parlaq səhifəsidir. Ş.Hüseynov da bunu yaxşı bildiyindən həyatını həmin dövrə sərf edir. Maraqlıdır ki, biz həmin dövrün ən maraqlı səhifələrini, fikirlərdə, düşüncələrdə həqiqət işığı yandıracaq səhifələrini Ş.Hüseynovun tədqiqatlarında işığa çəkilmiş görürük: *"Millət yaddaşının keşikçisi olan Şirməmməd müəllim XX əsr tariximizin mürəkkəb olaylarını, paradokslarını aşkara çıxaran çox qiymətli tədqiqatlar aparıb. Amma tarix üçün onun ən misilsiz xidməti hər bir vicdanlı azərbaycanlının qürur yeri olan Məhəmməd Əmin Rəsulzadənin irsini öyrənib təbliğ etməsi, əsərlərini toplayıb nəşr etməsidir. Bu baxımdan mübaliğəsiz demək olar ki, 1990-cı ildən bu yana Ş.Hüseynovun apardığı araşdırmaların şah əsəri Azərbaycan istiqlalının ideoloqu, Xalq Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadənin çoxcildlik əsərləridir".* Həqiqə-tən, bir insan ömründən çox artıq zaman istəyən işdir. Qulu Məhərrəmli bu faktları təkcə müəlliminə hörmət və ehtiram məqsədi ilə gətirmir, həm də onun gördüyü işlərin miqyasını göstərməyə çalışır.

Bəlkə də, professor Q.Məhərrəmli bununla öz yetirmələrinə çatdırır ki, insan öz ömrünü xalqının, millətinin yolunda sərf edəndə enerjisi tükənmir, gücü qurtarmır, qüdrəti birə-beş artır. Q.Məhərrəmli yeri gəldikcə xalq, millət, vətən, türk tarixi ilə bağlı düşüncələrini oxucusuna Ş.Hüseynov obrazının fonunda təqdim edir. Məqamdan ustalıqla yararlanır: *"Vaxtilə M.Ə.Rəsulzadə deyirdi ki, "Turk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilib yazılmışıdır... Bu xüsusda biz azərbaycanlılar hamıdan çox işıqlanmaq ehtiyacındayız".* Şirməmməd müəllim bu dahi şəxsiyyətin əsrin qaranlıqlanndan qopub gələn ibrətamiz tövsiyəsi ilə həmin ehtiyacı ödəmək missiyasını yerinə yetirirdi. O, böyük M.Ə.Rəsulzadənin əsrin əvvəllərində müxtəlif qəzetlərdəki məqalələrini toplayıb ictimaiyyətə çatdırmaqla elminəzəri baxımdan üç mühüm prob-lemi həll edib. Əvvəla, onun zamanın sınaqlarına tab gətirmiş ideyalarını üzə çıxarmaqla ictimai fikir tariximizi zənginləşdirib. İkincisi, ulu öndərin fırtınalarda keçmiş həyatının ayrı-ayrı epizodlarını bütöv bir xətdə birləşdirərək onun elmi bioqrafiyasını yaradıb və nəhayət, bu ölməz əsərlərlə milli tariximizin bütöv bir dövrünü öyrənmək üçün qiymətli və etibarlı bir mənbə ərsəyə gətirib. Eyni sözləri ölkə ic-

timaiyyətinin böyük heyranlıqla qarşıladığı üçcildlik *"Parlament hesabatları" haqqında da demək olar".* Yeri gəlmişkən, Q.Məhərrəmlinin bu düşüncələrinə, sözünə qüvvət olaraq deyim ki, Ş.Hüseynov parlament hesabatlarını hazırlayarkən oradakı dramatik məqamları xətləyir. Bütövlükdə hər kəsin diqqətinə çatdırmaq üçün barmağını məna üzərində gəzdirərək sanki milləti həqiqət qapısının ağzına aparırdı. Açılmayan sirlərin açarını göstərirdi. Onun həyatının həmin məqamları sözün həqiqi mənasına fədakar müəllim dərsinin ən işıqlı, ən ulduzlu məqamları idi.

Professor Q.Məhərrəmli yazı boyu müəlliminin həyatının başdanbaşa fədakarlıq tarixçəsi olan obrazında kölgəli heç nə qoymur. O, insan və tədqiqatçı, insan və müəllim, insan və ustad... obrazları ən müxtəlif tərəflərdən görünmək üçün səmimi ifadə tərzi ilə lövhələr yaradır. Səmimi insan tipi olaraq Ş.Hüseynovun obrazını həm də belə görürük: *"Son 2-3 ayda dərsi olmadığına görə Şirməmməd müəllim universitetə gəlmirdi, biz arada gedib evdə ona baş çəkirdik. Təzə tapıntılarından, bir də yaxın illər üçün yaradıcdıq planlarından söz açırdı, nəyi necə edəcəyini xırdalayırdı, mən də heyran-heyran qulaq asırdım. Söhbət dərinləşdikcə sanədlər kara gəlirdi, mövzuya aid olan əlyazmaların surətini götürüb vərəqləyir, məzmununu danışır, hərdən şəhadət barmağını yazıdakı bəzi cümlələrin üzərində saxlayaraq onları xüsusi vurğu ilə oxuyur, arada başını qaldırıb ənənəvi "bildin, nə deyirəm" sualını verirdi".* Bəlkə də, Ş.Hüseynovun nadir adam olduğunu "bildin, nə deyirəm?" ifadəsi qədər başqa heç bir söz göstərə bilməz. Qulu Məhərrəmli də məhz həmin cizgi ilə müəlliminin nadir obrazını yaddaşlara yazır.

Və özü də həmin məqamlarda elə tələbə səmimiyyəti ilə müəllimini diqqətində saxlayır: *"Onun nə dediyini, nəyi vurğuladığını, nəyə işarə etdiyini çox gözəl bilirdim, çünki qırx ilə yaxındır ki, onu dinləyir, sözünün canını, çatdırmaq istədiyi fikrini, bütün dediklərini, hətta demədiklərini belə dərhal başa düşürdüm...".* Əlbəttə, müəllifin özünün dediyi kimi Şirməmməd Hüseynovun bu dünyadan köçü cəmiyyətin demək olar ki, azçox düşünən bütün təbəqələrində ağrılı bir iz buraxdı. Onu tanıyanlar, onu bilənlər üçün bu köçün nə demək olduğu həmin dövrdə açıq-aşkar hiss olunurdu. Köçün ağrı məqamlarını Qulu Məhərrəmli belə ifadə edir: *"Onun ölüm xəbərini eşitmək çox ağır oldu. İki gün əvvəl özü xəstəxanadan mənə zəng etmişdi. Hansısa qəzet məqaləsinin adını dəqiqləşdirmək istəyirdi. Bir saat sonra yenə zəngləşdik, ordan-burdan danışdıq və qorxa-qorxa səhhətini soruşdum. "Yaxşıyam, nigaran qalma" dedi. Amma çox nigaran qalmışdım, çünki səsi, danışığının qətiyyəti o deyiliydi. Ertəsi gün axşam bir də zəng et-dim, telefonu qızı Fərəh xanım götürdü, vəziyyətini soruşdum, "yaxşıdır" dedi. Amma onun qayğılt səsinddki dərin kədər min kilometr uzaqdan belə aydınca duyulurdu...".* Çətindir, sənə doğma

olanı, səsini eşidəndə həyata inamın çağlar duyğularını hiss etdiyin birinin birdən-birə yoxluğu varlığında, şübhəsiz, unudulmayacaq bir iz qoyur. Əslində elə Q.Məhərrəmli də öz ustadından ayrılmağın ağrılı anlarını yaşayır. Və bütövlükdə elə bu yazının özü həmin ağrının elegiya - nəğmə kimi yaranışından ibarətdir.

Cəmiyyətə işıq olan insanların xidmətlərini sadalamaq bəlkə də, gərəksizdir. O yerdə ki, söhbət bütövlükdə işıqdan gedir, demək, həyatın yaşarlığında vacib olan nə varsa, hamısı bu işığın içərisində təzahür edir: *"Şirməmməd müəllimin bu millət qarşısında tarixi bir missiyası var idi və həmin missiyanı şərəflə yerinə yetirdi, özündən sonrakılar üçün zəngin irs və mənalı yaşamaq örnəyi qoyub getdi. Kim nə deyir-desin, həyatı və yaradıcılığı həqiqət, ləyaqət və vicdan ölçüləri üzərində qurulmuş Şirməmməd Hüseynovun vəfatı ilə mətbuat tariximizdə, müasir jurnalistikamızda böyük epoxa sona yetdi".* Biz artıq Ş.Hüseynov epoxası haqda yuxarıda danışmışıq. Fikirlərimizin məğzində dayanan məna isə bundan ibarətdir ki, Şirməmməd Hüseynovdan sonra onun həyat və yara-dıclığının öyrənilməsi zaman-zaman ictimai fıkir tariximizə yeni çalar və rənglər gətirəcək. İnsanlar onun işıqlı obrazından həmişə ilham alacaqlar.

Sözünün sonunda professor Q.Məhərrəmli sanki öz müəllimi ilə vidalaşır: *"Əziz müəllimim, böyük ustad, Allah sənə rəhmət eləsin! Bu millət üçün etdiyin təmənnasız xidmətlər heç vaxt unudulmayacaq, yeriniz hər zaman görünəcək! Ruhun böyük Zərdabinin, Rəsulzadənin, Ağaoğlunun, Uzeyir bəyin müqəddəs ruhuna qovusur. O gözəl ruhun şad olsunr.* Ancaq bu vidalaşmada biz çox nikbin və dəyərli notlar görürük. Ən başlıcası, gələcəyə sonsuz inam görürük. Həyatımızın ən qaranlıq məqamlarında belə Şirməmməd Hüseynov işığının dadımıza yetəcəyinə inanırıq.

Bu işıq zaman-zaman yanacaq. Fikir işıqları sönmür. Dünyanın ən dəhşətli vulkanları sönsə belə...

18.10.2021

HAQQINDA YAZILAN

KİTABLAR


İSTİQLALIN
işığında

Rafael Hüseynov
Millət yaddaşının
keşikçisi


Ramiz
Orsər
HAQQIN SƏSİ


"SİZDƏN BİR DƏ OLMAYACAQ"
ƏLVİDA


Şirməmməd Hüseynov
BİBLİOQRAFİYA


Şirməmməd Hüseynov
BİBLİOQRAFİYA


Şirməmməd Hüseynov
BİBLİOQRAFİYA

Ülkər Hüseynova
CÜMHURİYYƏT
ADAMI



UZUN ÖMRÜN QISA ANLARI

Şirməmməd Hüseynov gənclik illərində.
1945-ci illər

Şirməmməd Hüseynovun gənclik illəri:
Ailə üzvləri və yaxın qohumları ilə

Şirməmməd Hüseynovun ömür gün yoldaşı Ülkər xanım,
övladları Fərəh və Lalə ilə. Litva, Kaunas. 1970

Şirməmməd Hüseynov övladları ilə.
Pyatiqorskda istirahət vaxtı. 1966-cı il

1933-cü ilin kövrək yadigarı.
Şirməmməd Hüseynov aşağıda-soldan birinci

Emin Sabitoğlu, Şirməmməd Hüseynov, Araz Dadaşzadə.
Kislovodsk, 11 avqust 1950-ci il

Şirməmməd Hüseynov ailəsi ilə Bolqarıstanda.
1971-ci il

Şirməmməd Hüseynov ailəsi ilə Moskvada.
1970-ci il.

Şirməmməd Hüseynov dostları və həyat yoldaşı Ülkər xanımla Türkiyənin Ankara şəhərindəki Əsri qəbirstanlığında M.Ə.Rəsülzadənin məzarı önündə

15-noyabr 1985-ci il B.Vahabzadənin 60-illik yubileyi şənliklərinə gəlmiş qonaqlarla (Ç.Aytmatov, Kamal Camal, Movçan, Latının və b.) fəxri xiyabanda bəstəkar Q.Qarayevin qəbri üstündə.



Şirməmməd Hüseynov auditoriyada mühazirə zamanı



Şirməmməd Hüseynov Azərbaycanın sadiq dostu, Qazaxıstanın böyük şairi Oljas Süleymanov, Bəxtiyar Vahabzadə və Ə.Məmmədovla

Şəkildə soldan sağa oturanlar Bəxtiyar Vahabzadənin qızı Gülzar Vahabzadə, Oljas Süleymanov, Bəxtiyar Vahabzadə, Nüreddin Rzayev. İkinci sıradan soldan Şahmar Əkbərzadə, İlham Rəhimli, Şirməmməd Hüseynov, Ziya, Xudu Məmmədov ilə

Şirməmməd Hüseynov Moskva Dövlət Universitetində Aspirant dostları V.Pelt və A.Kuxanovla. 1954

Şirməmməd Hüseynov BDU Filologiya fakültəsindəki müəllim dostları arasında. 1998

Şirməmməd Hüseynov AMEA-nın müxbir üzvü Tofiq Hacıyev və Xalq şairi Sabir Rüstəmxanlı ilə

BDU-1960-70- ci il müəllimlərin 1 May nümayişi zamanı sağdan sola Ağamusa Axundov, Nüsrət Bağırov, Ağaməli Həsənov, Yusif Seyidov, Əbdülhəmid Bağırov, Şirməmməd Hüseynov, Fərhad Zeynalov, Məmməd Tağıyev, S.Əsədullayev və Vəkil Hacıyev

BDU-nun Jurnalistika fakültəsinin müəllimlərindən bir qrupu soldan sağa: Nüsrət Bağırov, Famil Mehdi, Seyfulla Əliyev, Pənah Xəlilov, Şirməmməd Hüseynov, Qulu Xəlilov, İnayət Bəktaşi, Firuddin Hüseynov, Əliş Nəbiyev, A.Abbasov. 1978-ci il

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin yaradılmasının 225-illiyi ilə əlaqədar MDU-məzunlarının Universitetdə görüşü. 1980-cı il

Şirməmməd Hüseynov dostları N.İmanquliyev, Ə.Rüstəmov-Tohidi, Ə.Əmirovla birlikdə. Jeleznovodsk, 1968



Şirməmməd Hüseynov Azərbaycanın görkəmli alimləri – Lütfəli İbrahimov və Xəlil Əlimirzəyevlə. 1970

BDU (ADU)-nun filologiya fakültəsinin müəllimləri. 1960-cı illər

Şirməmməd müəllim Jurnalistika Fakültəsinin Dekanlığının iclasında. 1971-ci il

BDU Jurnalistika fakültəsinin müəllimləri. 1973-ci il

Djerzinski adına klubda Şirməmməd Hüseynov Azərbaycanın mətbuatının 98-ci ildönümünə həsr olunmuş rəsmi iclasın rəyasət heyətində. 04 may 1974-cü il

Şəkildə soldan Vahid Qəniyev, Şirməmməd Hüseynov, Həsən Həsənov, Bəxtiyar Vahabzadə və Hadi Rəcəbli ilə. Şəki, 1986-cı il



ABŞ-ın Azərbaycanda ilk səfiri Robert Fin, Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov, Süleyman Əliyarov, Teymur Xəlilov Şəki, Xan sarayı. 15 avqust 1992-ci il

Bəxtiyar Vahabzadənin 60-illik yubileyi münasibəti ilə məclis. Soldan sağa: Vilayət Rüstəmzadə, İsmayıl Şıxlı, Çingiz Aytmatov, Bəxtiyar Vahabzadə, Nürəddin Rzayev, Nazim İbrahimov. İkinci sıra arxadan sağdan sola: Xudu Məmmədov, Z. Məmmədov, Şirməmməd Hüseynov, Əhməd Şəmidə (Hans Afer) şair Movçan (Ukrayna), Latenin, Xəlil Rza və İ.Hüseynov. Bakı, 16 noyabr 1985-ci il

Çingiz Aytmatovun həyat yoldaşı, Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov, Toğrul Nərimanbəyov, Nurəddin Rzayev Toğrul Nərimanbəyovun emalatxanası yerləşən binanın damında. 1985-ci illər

Şəkildə Misir hümanitar yardım təşkilatının direktoru Əhməd Urabi, Şirməmməd Hüseynov və Bəxtiyar Vahabzadə ilə. Şəki, 1995-ci il

Yavuz Akpınar və Şirməmməd Hüseynov. 2011-ci il

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Bəxtiyar Vahabzadənin "İkinci səs" tamaşasından sonra. Əhməd Şəmidə (Hans AFR), Nürəddin Rzayev və bir çox tanınmış aktyor və aktrisalar ilə

Şəkildə Şirməmməd Hüseynov, Emin Sabitoğlu, Bəxtiyar Vahabzadə, Hikmət Ziya ilə. Şəki, 1970-ci illər

1983-cü il 14 noyabr SSR-i Ali Təhsil Nazirliyinin Jurnalistika üzrə metodik şurasının iclası iştirakçılarından Nəsir Əhmədli, ... Akif Rüstəmov, ... və Famil Mehdi.

Nurəddin Babayevin yubiley mərasimindən çəkilmiş şəkil. May, 1981 ci il

Professor Şirməmməd Hüseynovun 80 illik yubiley günü: BDU-nun rektoru, akademik Abel Məhərrəmov, dostları və yaxınları ilə

Əşrəf, Şirməmməd və Qüdrət. Şəki. 01 avqust 2010-cu il

Şirməmməd Hüseynova Zahid Xəlilov mükafatının verilməsi.
25 dekabr 2012-ci il



Şirməmməd Hüseynov nəvəsi Əhəd və həyat yoldaşı Ülkərlə.
1985-ci il

Şəki. Avqust 1976-cı il

Şəkildə Arzu Ələsgərov Fərəh Hüseynova, Bəstəkar Süleyman Ələsgərov, Lalə Hüseynova, Şirməmməd Hüseynov və Tariyel Əliyev. Şüşa, Cıdır düzü. 1980-cı il.

Şirməmməd Hüseynov ailəsi ilə. 2015-ci illər

Şirməmməd müəllim Nəvəsi Nilufər Rəhimova ilə. 2002-ci illər

Şirmməd müəllim ailəsi ilə nəvəsi Nilufərin nişan mərasimindən. 2015-ci illər

Şirməmməd müəllimin 93 yaşının ailəsi tərəfindən qeyd edilməsi. 17 dekabr 2018-ci il.

Şirməmməd müəllimin 85-illiyində çəkilmiş şəkil. 2009-cu il.

Şirməmməd Hüseynov nəvələri Nilufər, Leyla, Əhəd və Toğrulla

Şirməmməd müəllim nəvələri Nilufər, Leyla, Əhəd və Toğrulla

Şirməmməd Hüseynov nəvələri Nilufər və Leyla ilə. 1997-ci illər

Xüsusi baba

Xüsusi baba, can baba.
Təbrik edirəm səni baba.
Sənin 100 yaşın olsun
Əd günün gələcəyəm.
Xüsusi baba, can baba.
Çox sevirəm səni.
Əd günün mübarək.
Qoy sən cavan olasan.
Xüsusi baba, can baba.
Şir baba mənim qəşəng baba.

Əliyev
Toğrul

17 Dekabr 1993-ci il

Tibb elmləri doktoru Toğrul Əliyev bu şeiri 7-yaşında olarkən Babası Şirməmməd müəllimin ad gününə "Hədiyyə" etmişdir.

Ümüdvaram ki , o, arzuladığı kimi qəşəng babasının 100-illiyində iştirak edəcək.

Ülkər

Şirməmməd Hüseynov həyat yoldaşı Ülkər xanım, nəvəsi Nilufər və nəticəsi anasının adını daşıyan Sara ilə

BDU-Jurnalistika fakültəsinin müəllimlərindən Akif Rüstəmov, Cahangir Məmmədli və Əliş Nəbili ilə

Soldan sağa: Rəşad Məcid, V. Səmədov, Azad Şərif, Hacı Hacıyev, Şirməmməd Hüseynov, Misir Mərdanov, Yalçın, Qulu Məhərrəmli və Arif Əliyev. Mətbuatın 135-illiyində. 2010-cu il

Şirməmməd Hüseynov həmkarları ilə

Mətbuatın 135-illiyi. 2010-cu il

Mətbuatın 135-illiyi. 2010-cu il

Şirməmməd müəllim Şəki ziyalıları ilə. 2015-ci il

Şirməmməd Hüseynov Türkiyə prezidenti Abdulla Gül ilə Şəkidə məsciddə. 2008-ci il

Türkiyə prezidenti Abdulla Gül Şəki karvansarasında Şəki ziyalıları ilə

1962-ci il BDU-nun məzunları ilə

"Azərbaycan" qəzetinin redaksiyasında. 2017-ci il

2000-ci il dekabrın 15-də jurnalistika fakültəsində Respublika radio və televiziyai işçilərindən bir qrupu ilə. Şəkil mühazirədən sonra çəkilmişdir.

Şirməmməd Hüseynov və Abid Şərifov Şəki ziyalıları ilə. 2015-ci il



Jurnalistlərin IV qurultayından. 2018-ci il

Şirməmməd Hüseynov Bakı Slavyan Universitetində görüşdə



Akademik Kamal Abdulla və Şirməmməd Hüseynov
Bakı Slavyan Universitetində

Beynəlxalq Mətbuat Mərkəzində Ülkər Hüseynovanın
80-illik yubileyi mərasimimində. 16 aprel 2017-ci il.

Azərbaycan Mətbuat Şurasının Sədri Əflatun Amaşov Ülkər Hüseynovanı
80-illik yubileyi mərasimimində təbrik edərkən

Bakı Mətbuat Mərkəzində Ülkər Hüseynovanın 80-illik yubileyi mərasimimində. 14 aprel 2017-ci il

AMEA Ədəbiyyat İnstitutunda Ülkər Hüseynovanın 80-illik yubileyi zamanı İsa Həbibbəyli yubliyarı təbrik edərkən. 14 aprel 2017-ci il

Heydər Əliyev Sarayında tədbir zamanı

Şirməmməd müəllim Abid Şərifov ilə. Dekabr 2017-ci il

Şəkildə Bəxtiyar Vahabzadə Çexiyanın Marketinq İnstitutunun rektoru Odrix Şaşenko, Şirməmməd Hüseynov və Təfəkkür Universitetinin rektoru Mail Dəmirli. 2000-ci il

Süleyman Ələsgərov və Şirməmməd Hüseynov Şuşada İsa bulağında. 1971-ci il





Şirməmməd Hüseynovun portretini çəkən rəssam Pərviz Ələkbərli.
2020-ci il

Nəvəsi Toğrulun babası Şirməmməd müəllimin 90-illiyində toxutdurduğu xalça.
2014-cü il



Rəssam Adil Əsədlinin Şirməmməd Hüseynova həsr etdiyi "Cümhuriyyət adamı" qrafik əsəri.
2018-ci il



Rəssam Hüseyn Əlirza oğlu Əliyevin 1971-ci ildə Şirməmməd Hüseynova həsr etdiyi şəkil

Şirməmməd Hüseynov Cümhuriyyətin 100-illiyi ilə əlaqədar Xəzər Universitetində çıxış edərkən. Rektor Hamlet İsaxanlı ilə

Amerikanın Rusiyadakı səfiri Metlok Bakıda keçirilən jurnalistlərin press-konferensiyasında. May 1990-cı il

Şirməmməd Hüseynov Üzeyir Hacıbəyovun ev müzeyində çıxışı zamanı.
2010-cu il



Şirməmməd müəllim nəvələri Toğrul və Əhəd ilə.
1989-cu il və 2003-cü il



Şirməmməd Hüseynovun nəticələri: Sara Babazadə, Camal Əlizadə, Aydın Əlizadə, Ülkər nənə və Samir İsmayılov. İyun 2021-ci il

80

Şirməmməd Hüseynov

DƏVƏTNAMƏ

Hörmətli Əflatun müəllim!

Bakı Dövlət Universitetinin rektorluğu və jurnalistika fakültəsi Sizi Azərbaycanda ali jurnalistika təhsilinin təşkilatçılarından biri, tanınmış alim və pedaqoq, professor Şirməmməd Ağaməmməd oğlu Hüseynovun anadan olmasının 80 illiyinə həsr olunmuş yubiley mərasiminə dəvət edir.

Giriş sözü - Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor A. M. Məhərrəmov

Məruzələr:

1. Azərbaycanda ali jurnalistika təhsilinin inkişafında prof. Ş. Hüseynovun xidmətləri - jurnalistika fakültəsinin dekanı dos. Y. M. Əlizadə
2. Prof. Ş. Hüseynov alim, pedaqoq və publisist kimi - mətbuat tarixi kafedrasının müdiri dos. C. Ə. Məmmədli

Təbriklər

Yubiley mərasimi 2004-cü il dekabr ayının 18-də saat 11-də Bakı Dövlət Universitetində keçiriləcək.

Ünvan: Z.Xəlilov küçəsi 23, II korpus, VII mərtəbə, auditoriya 705.

Təşkilat komitəsi

...Şirməmməd müəllimi yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır.

Bəxtiyar Vahabzadə
Azərbaycanın xalq şairi

Dəvətnamə

YIĞINCAĞIN GÜNDƏLİYİ

Giriş sözü - BDU-nun rektoru, akademik A.M.Məhərrəmov

Məruzə: Görkəmli pedaqoq və mətbuat tədqiqatçısı professor Şirməmməd Hüseynovun həyat və yaradıcılıq yolu - mətbuat tarixi kafedrasının müdiri prof.Ş.Q.Vəliyev

Çıxışlar
Təbriklər

Hörmətli Vidadi müəllim

Bakı Dövlət Universitetinin rektorluğu Sizi görkəmli pedaqoq və tədqiqatçı-alim, mətbuat tarixi kafedrasının professoru, Prezident təqaüdçüsü Şirməmməd Ağaməmməd oğlu Hüseynovun anadan olmasının 85 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağa dəvət edir.

Tədbir 2009-cu il dekabrın 17-də saat 12.00-da BDU-nun Yeni tədris korpusunun Akt zalında keçiriləcək (R.Rəhimov küçəsi 23, 1 mərtəbə)

TƏŞKİLAT KOMİTƏSİ







Şirməmməd Hüseynovun 90-illik yubileyində Bəxtiyar Sadıqov, Ülkər Hüseynova, Yaqut Əliyeva və Lalə Hüseynova

Xalq şairi millət vəkili Sabir Rüstəmxanlı Şirməmməd müəllimi 90-illik yubileyi münasibəti ilə təbrik edir



Millət vəkili Fazil Mustafa yubilyarı təbrik edərkən

Yubiley iştirakçılarından Rəşad Məcid, Tofiq Hacıyev, Solmaz Rüstəmova-Tohidi

Solmaz Rüstəmova-Tohidi Şirməmməd Hüseynovu təbrik edərkən

Rəşad Məcid təbrik edərkən

Yubiley zamanı çəkilmiş şəkillər



Şirməmməd Hüseynov yubiley iştirakçılarına təşəkkür edir

9 mart 2012-ci il — AZƏRBAYCAN MÜƏLLİMİ — 3

“Müəllim özü nümunə olmaqla tələbəsini tərbiyələndirə bilər”

Səhifəmizin bugünkü qonağı BDU-nun jurnalistika fakültəsinin mətbuat tarixi kafedrasının professoru, Prezident təqaüdçüsü Şirməmməd Hüseynovdur

Sovyet gazeteciler YENİ ASIR'ı gezdi

Gazetemizin tarihi ve yayın politikası anlatıldı

Yeni Asır'ın doğrudan gazetecilik dışında sürdürdüğü sosyal etkinliklerin çokluğu ve düzenliliği, konukların ilgilerini çekti. Gazetecilerden biri, "Ben Yeni Asır'ı ilk defa ve geniş şekilde ülkemizde yayınlanan basın tarihi ile ilgili bir kitapta okumuştum" dedi.

● Baku ve Leningrat'ta görev yapan 31 gazeteci, yazışleri ve teknik servislerimizin çalışmalarını ilgiyle izledikten sonra, gazetemizi içerik ve teknik yönden çok modern bulduklarını söylediler

Sovyetler Birliği'nin Baku ve Leningrat kentlerinde yayınlanan gazetelerde görevli 31 gazeteci dün gazetemize gelerek inceleme yaptılar.

Baku Gazeteciler Cemiyeti Başkanı Paşa Bey'in de dahil olduğu gruba Yeni Asır'ın tarihi ve yayın politikası anlatıldıktan sonra yazışleri ve teknik servisler hakkında bilgi verildi. Haber ve fotoğrafların en gelişmiş elektronik sistemle gazetemizde yer alması konukların büyük ilgisini çekti.

№ 6 (176), İyun 2019 ŞƏKİ BƏLƏDİY

ŞİRMƏMMƏD HÜSEYNOV

Xalqımıza, eyni zamanda jurnalistikamıza ağır itki üz verib. Görkəmli alim, məşhur tədqiqatçı, BDU-nun Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru, mətbuatımızın ağsaqqalı ŞİRMƏMMƏD HÜSEYNOV iyunun 24-də, ömrünün 95-ci ilində dünyasını dəyişib.

Şirməmməd Ağaməmməd oğlu Hüseynov 1924-cü ildə Şəkidə anadan olub.

Orta məktəbi qurtardıqdan sonra o, 1941-1943-cü illərdə Şəki şəhəri 2 illik müəllimlər institutunun fizika-riyaziyyat fakültəsində təhsil alıb.

1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya-jurnalistika fakültəsində, 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspirantura şöbəsində təhsilini davam etdirib və 1954-cü ildə Moskva Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edib.

Görkəmli alim 1954-1961-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsi jurnalistika kafedrasının müəllimi, dosenti vəzifələrində, 1961-1971-ci illərdə isə Bakı Dövlət Universitetinin Jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrasının dosenti vəzifələrində çalışıb.

Böyük ustad 1962-1969-cu illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin dekan müavini, 1971-1978-ci illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1983-cü illərdə Mətbuat tarixi kafedrasının müdiri və 1988-ci ildən Mətbuat tarixi kafedrasının professoru vəzifələrində işləyib.

Şərəfli ömür yolu keçən Şirməmməd müəllim Azərbaycan tarixinin ən önəmli hadisələrinin canlı şahidinə çevrilib. Azərbaycan Cümhuriyyətinin, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində, təbliğində onun misilsiz xidməti var. Mətbuat tariximizin qaranlıq səhifələrinə işıq saçmaların sırasında Şirməmməd Hüseynovun adı ön cərgədə çəkilir.

Hələ sovet dönəmində, güclü kommunist rejimi şəraitində o, tələbələrinə millət sevgisi aşılayır, gah gizli, gah da açıq surətdə onlara xalqımızın başına gələn müsibətləri, əsl həqiqəti çatdırdı.

Şirməmməd Hüseynovun yazdığı bütün məqalələr, əsərlər Vətənimizin azadlığı, istiqlalı və milli dəyərlərimizlə bağlı olub. Alimlərimiz onun çoxsaylı kitabları arasında "Parlament həsabatları"nı şah əsəri adlandırırlar. Azərbaycan Cümhuriyyəti dövründəki parlamentimizin fəaliyyətindən bəhs edən bu üç cildlik kitab yarım əsrin məhsuludur.

Mətbuatımızın, Azərbaycan jurnalistikasının inkişafında, eləcə də media işçilərinin, jurnalistlərin yetişməsində, püxtələşməsində Şirməmməd müəllimin əvəzolunmaz rolu olmuşdur. Ömrünün təxminən 70 ilini yorulmadan çalışan, mətbuat tariximizə çox qiymətli töhfələr verən Şirməmməd Hüseynov hələ 1948-ci ildə, 24 yaşında "Nizami təqaüdü"nə, sonralar isə - 1966-cı ildə "Qızıl qələm" mükafatına, 1988-ci ildə "Əməkdar jurnalist" fəxri adına, 1991-ci ildə Zərdabi adına mükafata, 1992-ci ildə Y.Məmmədəliyev adına mükafata və 1998-ci ildə M.Ə.Rəsulzadə adına mükafata layiq görülüb. 2014-cü ildə isə Şirməmməd müəllim "Şərəf" ordeni ilə təltif edilib.

Şirməmməd müəllim həyat yoldaşı Ülkər xanımla və oğlu, professor Qüdrət Əbdüləlimzadə ilə Bextiyar Vahabzadənin doğum gününə şairin şəkilətli abidəsi önündə. Şəki, 10 avqust 2014-cü il

Şirməmməd Müəllim böyük alim, məşhur tədqiqatçı, tanınmış jurnalist olmaqla yanaşı, həm də sərrast alla başqa, qayğıkeş ata, sadiq dost və Azərbaycanı canından çox sevən bir vətənpərvər idi.

O, həmişə Vətən və millət sevgisi ilə yaşadı və bu sevgi ilə də dünyadan köçdü.

Şirməmməd Hüseynov haqqında çox danışmaq və yazmaq olar. Lakin dahilər haqqında dahilərin söz demeyi daha məqsədəuyğun olduğu üçün, biz öz sözümüzü bu qısa nekroloqla bitiririk. Onsuz da gələcəkdə Şirməmməd müəllim haqqında çox kitablar yazılacaq, onun üzünün fəaliyyəti tədqiqatçılar tərəfindən araşdırılacaq və "Şirməmməd Hüseynov məktəbi" yaradılacaq. Elə, qəzetimizdə mütəmadi olaraq dərc etdiyimiz, dostumuz Ramiz Orxanın böyük alim haqqında yazdığı məqalədəki kimi, və Şirməmməd müəllimin əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq.

Murad Nəbibəyov

...

Şəki Bələdiyyəsinin kollektivi, bütün şəkililərin Şirməmməd müəllimin vəfatından kədərləndiyini bildirir və böyük alimin ailəsinə, əzizlərinə, dostlarına dərin hüznlə baş sağlığı verir.

ALLAH RƏHMƏT ELƏSİN.
RUHU ŞAD OLSUN.

525-ci qəzet — 24 iyun 2020-ci il, çərşənbə — Anım — 7

www.525.az Facebook.com/525.az Instagram.com/525qazet

Cahangir MƏMMƏDLİ

Professor Şirməmməd Hüseynov bir müəllim kimi 1964-cü ildən - Bakı Dövlət Universitetinin birinci kursundakı təbabətlik çağından tanıyıram. Qırx yaşı vardı. Cəmi bir neçə aydakı dərslərindən bilə eləbilik ki, çox ciddi və sərt adamdır, oxumağa tənbəllik edən tələbənin "dərsini" elə verər ki, o tələbə tənbəlliyi birdəfəlik unudar. O qədər təmiz və obyektiv müəllimdir ki, ondan beş kim beş vaxt tələbəyə gilyeyi rəhbiyi etmaz. O qədər təvadlı və o qədər savişyolidir ki, ondan öyrəndiyin beş vaxt yadından çıxmaz və bütün həyatın boyu bu bilgilər sənin kömeyin olar. Bela bir müəllim dörd ilin tələbəliyindən sonra mənim təlisimimin oldu, məni özünün yaratdığı Jurnalistika fakültəsində saxladı. Bu gün elmi-pedaqoji və insanlıq məkanında noyim varsa, bu müəllimimə borcluyam.

Şirməmməd Hüseynovu yenidən oxumaq...

Şirməmməd müəllim kimsəni başlıqladığı kitablarını özünü çox nadir hallarda yazardı. Mənə bağışladığı kitablarının hamısının üstündə məni qürurlandıran qeydlər olubdu. 2004-cü ildə nəşr etdirdiyi "Mənəvi atamız və gerçəklik" kitabının ağ səhifəsində müəllifimizin mənə ünvanladığı belə bir cümlə var: "Onsuz Cahangir! Bil yaşın tamam olanda bu kitabı bir də vərəqləyərsən, elə bir tələbənə rast gələrsən ki, sənin kimi savadlı, istedadlı və kişi olsun!"

Olbətki, hər bir müəllif kimsə başlıqladığı kitabın üstündə o adamın xoş sözlər yazır. Bu, siz qalın, tobo bir gəldiyin. Amma Şirməmməd müəllimin mənə yazdığı bu cümlədə iki fikir mənaşdır. 1. Mənə bu kitabı 30 yaşım tamam olanda bir də vərəqləməyi məsləhət görür. 2. Yəqin tələbəmi görməyi və kəşf etməyi təşviq edir.

Mən Şirməmməd müəllimin bütün kitablarını dönə-dönə oxumışam, 30 yaşım tamam olanda bir də "vərəqləmişəm" məsləhət gördüm. Allahım, "vərəqləmək" nədir, mən bu "kitabnəvisi tədbirlər" günlərində müəllifimizin həyat və ömür təlisimimin bütün kitablarını yenidən oxuyuram. Kitablar sayısı-hesabsızdır. Müəssisilik eğrusunda çətin müəbirə illərinin ortaya qoyduğu onlarca cəsarətli məqalə və onlarla tədqiqat kitabı. "Müəssisiliyin çətin yolu... bir barə gedirik?" 1996-cı ildə nəşr olunur. Daha sonra eyniadlı kitab 2009-cu ildə çıxır. Bu kitabda 1968-1993-cü illərin keşməkeşli, çətin çağlarının əksəl mövzuları yer alıb. İlk dəfə Cümhuriyyət mövzusu, müstəqillik və demokratiya yolu, istiqlal mücahidləri, milli dəyərlər, milli mənəviyyat, tarixi yaddaş, dövlət bayrağı, bizi güləyən təbiət-kəlamları necə çoxmalıyıq, Sovet Moskvasının həyələri, qatıyyətin və cəsarətin məqamı və digər bu kimi onlarca məsələnlərdirici mövzular və onlara publisist yanaşmalar bu gün də bizi bizə, həm də yeni nəsilə qarşıkdılar. 2009-cu ildə həmin kitab yenidən və yeni-də dövrün ən aktual mövzuları ilə işıq üzü görür. 2004-cü ildə "Milli haqq və ədalət axtarışında", 2007-ci ildə "Mətbu irsimizdən səhifələr" kimi fundamental əsərləri kitab formatında oxucularə çatdırır.

Çox az bir hissəsinin adlarına çəkdiyim bu əsərlər bizə nə öyrədir:

- Tarixinizi obyektiv öyrənməyi və öyrətməyi;
- Vətənə sevgi hissi;
- Təkəçiliyə qarşı obyektiv olmağı;
- Hər hansı bir mövzunu qələmə alarkən və ya başqası yaz, ya qələmi yere qoy;
- İctimai işlərdə müəbirə münasibətini xalqa tanıtmağı;
- Cümhuriyyət fikrini publisistikada geniş təbliğ etmək;
- Vətəndaşlıq hüququ;
- Hər yerdə, bütün məqamlarda "Azərbaycan" sözünü müqəddəs saymağı;
- Müstəqilliyimizin keşikçisində dayanmağı;
- Ermənə xislətinin mahiyyətini hərtərəfli düşünüb savdlanmağı.

və yüzlərlə belə tapşırıqlar, təvsiyələr...

Şirməmməd müəllim oxumağı, öyrənmək, tarixinizi dərk etmək üçün Cümhuriyyətimizin banisi M.Ə.Rəsulzadənin əsərlərini mətbuat arxivindən toplayıb nəşr etdirdi. Bu böyük təşkilatçılıq bizə mənbə mümkün hörmətlə yanaşmağı öyrətdi. Təkcə Üzeyir Hacıbəylinin əsərlərinin müəyyən onun bir neçə daha vaxlı müəyyələrinin kitablarına səhvsizmaşına irad tutub nəşrlərdə kənara qoyulmuş və ya "redaktə" edilmiş əsərlərinə yenidən iki cildlik fundamental bir formada nəşr etdirərək ədalətçi bir təşkilatçılıq nümunəsi göstərdi.

Şirməmməd müəllimin əsərləri bizə həmçinin müəllim olmağı öyrətdi. Onun yanında ondan tərbiyə alıb savadlı, təhsmənli müəllim olmaq mümkün deyildi. Bu məsələdə beş kimi bağışlamazdı. Onun yaratdığı Jurnalistika fakültəsi müəllim-tələbə münasibətlərində ideal bir təmsilik nümunəsi oldu. Onun yanlığında da bu mövzu pəzmağa beş kimsə cürəti çatmaz, çünki o fakültənin bir nəşəsində bir Şirməmməd ruhu gəzir.

Mənim müqəddəsim, mənim təlisimim, Universitet dənizinin ata oxulu, qardaş oxulu Şirməmməd müəllim! Mənə bağışladığınız hər kitabın üstündə mənə vəndiyinə bot qıymat mənə bu yaşımda da bir əvəzsiz, sizin təşqinçimdir. Mənə aid o sətirlərinizi oxuyanda gör yaşlarına saxlaya bilmərəm.

Yenidən oxuduğum o kitablar və yenidən nəzər saldığım o sətirlər sizsiz gözlərimin önünə gəlir. Bu önnü məndən tələbələrinizə, məndən nəvələrinizə daima işıq saçacaq bir təsəllidir.

Patriarxla son görüş

Professor Şirməmməd Hüseynovun əziz xatirəsinə

Qulu MƏHƏRRƏMLİ
Professor

Ötəndə, yol uzaqdan başlayır. Mən ovvəlcə universitetdə Şirməmməd müəllimin tələbəsi olmuşam, sudioriyada məlumatlarını dinləmişəm, bir dekan kimi onun idarəçiliyini, mənəvi kamilliyini və sərtliyini görmüşəm. Sonra həmin universitetdə bir yerdə çalışmışıq, müəllim həmkarı və dost olmuşuq. Və bu dostluğun da onsuz bir vaxtlar (1993-1996) Azərbaycan televiziyasında çox bazılan "7 gün" analitik proqramını apardığım illərdə qovşulmuşdu.

+++

Auditoriyadakı dərsləri və dekanlığı prinsipial Şöhrəyovu mənə çox zəhmli və klassik pedaqoq, haqlıqsızı demokdan çəkinməyən vicdanlı bir müəllim kimi tanımışdı, amma televiziyadakı birgə işimizdə bu müəllimin daha böyük müşəmənə, xarakterindəki daha partaq çalarları gördüm. O vaxtdan Şirməmməd müəllimi təkcə böyük alim, araşdırmacı, yaxşı qohumi olan publisist kimi deyil, həm də ictimai ölçülərlə yanaşan mənlək sahibi, haqlıqsızı millət adamı təki hesabçı Artaq ona universitet müəllimi kimi yox, millət MÜƏLLİMİ kimi baxırdım. Bilər kəçdikcə onun da mənə on az təbəbə rəngindən bir pillə yuxarı tutduğunu hiss edirdim. Bir gün zəng elemeyəndə "bəs son haralarda qalmısan" deyə orkla soruşardı. Onun çox yazısında adım, məsləhətlərindən faydalanır, yanılışlarını ətrafa, dəmdəşlərinə dinləyib yaddaşımda köçürdüm.

Bir millət müəllimi kimi onun onun ənəmiyyətə xalq on az bir yaxın tarixi, bu şəxsiyyətin ortaya çıxardığı mənəvi irs barədə düşünməlimək, toplumu doğru yol göstərmək idi. Deyirdi ki, düşmən podşahlarını bilməsən, bu gün kor kimi qalacaqsan, gərək bundan gözlü hara gedəyini dəqiq bilasan. Şirməmməd müəllim bilik xəzinəsinin üstündə oturmuşdu, bədbir dərəcədə məhsuldeyib, keyli hadisələrə şahid və iştirakçı olmuşdu, çətinlərin bilməkdiyi, fərqinə varmadığı irili-xırdalı gizli axıntıdan xəbərdarıydı, buna görə də yeriyən ensiklopediya idi. Onunla ötəri tərnas da, yatan-tənyən də, dərin dərdləşə də həmişə ürəkə yeni gün məsuliyyət alanına çəkib gələrdi. Bu səhəngükdə həyat müəllimi ilə ünsiyyətdə olub ən ixo öyrənməmək sadəcə, mümkün deyildi.

Od alan və gürkəmdə araşdırmaçı kimi onun həyatımız elmi təfəkkürü, dərin məntiqi vardı. Peşəkar tədqiqatçılığı, araşdırma mənyərləri, mənbələrlə işləmək metodu, yazı üslubu, müqayisə və paralellər aparmaq tərzi bir məktəb idi. Ona görə elmi işlərə, kitab və dissertasiyalara tərnam başqa çiçəklərlərlə yanaşardı. Çəvarlı-qocalı dərin bilişi olmayanlar, beyninə kif basanlar, boşaltıcı dəmağı ilə işi yola vermək istəyənlər ondan çox çəkinərdilər. Çünki Şirməmməd müəllim savadsızlara, dili ilə baş girləyənlərə, layiq olmayanlara qimət etməzdi. Yalana, üçüzlüyə, dilətərliyə, yalbaçığa nifrət edərdi. Bunları sözdə elə-mədi, əməli ilə göstərdi, başqalarını da bu ruhda tərbiyə etməyə çalışardı.

Mən Şirməmməd müəllimin kökündə bu millətin qiymətli insanlarına həmişə tükənməz sevgi, dostlarına böyük sədaqət gördüm. Mərhum dostu Bəxtiyar Vahabzadə tənə olarda zəng edirdi ki, "gel, mənə də götür, gedək Bəxtiyara baş çəkək" Ramiz Abutalıbovun Bakıya gəlişindən xəbər tutanda "o kişi ilə mütləq görüşək" deyirdi. Səbhət Tofiqlərin, Aydın Balayevin, Firdovsiyyə Əlimədovanın, Cəmil Həsənlinin, Georgi Mamuliaşvili, Nəsib Nəsibzadənin, Oktay Tahirzadənin, Nəsiman Yaqubzadənin, Mehman Dəmirçinin və başqa tədqiqatçıların Cümhuriyyət mövzusunda yeni araşdırmalarına təşəbbüs verirdi. Yetirmələrinin uğurlarına çox sevinər, onlarla fəxr edər, sıradan olarda da inco şəkildə bildirərdi. Azərnin onlardan kömeyini də esirgəməzdi.

Şirməmməd müəllimin güclü zəman hissi vardı, zamanın havasını, gedişatını dəqiq duyardı. Bir də vicdanın önündə əsirdi. Bir neçə il əvvəl olmalıdır yəqin vaxtda-da təklif etdim ki, gəlin, Cümhuriyyət muzeyinə çıxaq, sizi aparım Gəncəyə, 28 Mayı ordə keçirək, Milli hökumətin mövcəqəti yerləşdiyi binanı, Nuru paşanın qədbgi evi ziyarət edək. Ertəsi gün də Göyçay və Qaramoryomdo Qafqaz İslam ordusunun döyüşdüyü yerlərə baxaq, ordan da qabaq İsmayıllıya - Lahıca gedək, Rəsulzadənin yaşadığı evə baş çəkək. Təklifim çox xoşuna gəldi, ürəkə bir-iqaq təbəssümü qondu, sifəti qəribə şəkildə işıqlandı, gözləri güldü. Sonra ciddi görkəmi alıb qayğı ilə:

- Mən oru gətsəm, azı iki-üç gün itirəcəm, bəs bu işləri kim görəcək? - deyə yazı stolunun üstündə qalaqlanmış materialları göstərib qayğı-qayğı sirnşdı.

Onda Şirməmməd müəllim növqbəti Cümhuriyyətin 100 illiyinin hazırlıqlarını, "Azərbaycan" qəzetində parlamentçi təbəbələri"ni toplayıb nəşr etdirdi. M.Ə.Rəsulzadənin "Əsərləri"nin 5 cildindən sonra bu "Hesabat"ların da iki sarbalı cildi çapdan çıxmışdı. Yaxşı da rəsmənə doğurmuşdu. Azərnər cildin üzərində ciddi-cəhdlə çalışardı. Ustad təbəmirdi.

+++

Hər il mayın 28-də Cümhuriyyət günü münasibətilə ilk olaraq Şirməmməd müəllimi təbrik edərdim. Keçən il də zəng elədim və telefonda səyli danışdıq. Gözəl əhvalı varmış və bura istiqlal günümüz xoş havasının yaratdığını səmimənə münəkkin dəyildi.

(Ardı 8-ci səh.)

Mənəvi atamız

Ötən il iyun ayının 24-ü idi, televiziyanın xəbərlər proqramında eşitdim ki, bizim ağsaqqalımız, mənim yaxın qohumum, Azərbaycan jurnalistlərinin mənəvi atası, böyük alim, zəngin mənəviyyatı və əxlaqi dəyərləri ilə milyonlara nümunə olan Şirməmməd Hüseynov dünyasını dəyişib. Hamin gecə səhərə qədər yata bilmədim. Şirməmməd Hüseynov bütün Türk dünyasının nadir, müdrik şəxsiyyətlərindən biridir. Onun təvsiyyələri, nəsihətləri ömrümüz boyu bizim həyatımızı işıqlandırıb. Şirməmməd müəllim 90 yaşında dünyasını dəyişib. Özü mənə danışmışdı ki, -mən 1923-cü il-

də anadan olanda çox zəif bir uşaq olmuşam. Bir il gözləyiblər ki, görək bu uşaq inkişaf edib yaşayacaq yoxsa tələf olacaq. Bir ildən sonra görüblər yavaş-yavaş inkişaf başlayır 1924-cü ildə qeydiyyata yazdırıblar. Mən heç vaxt fiziki güclü, iri bədənli, cüssəli olmamışam, mənə bu yaşa qədər yaşadan Ülkər xanım olub,,. Ülkər xanım Şirməmməd müəllimin həyat yoldaşı olub. Mən qohum kimi onların ailəsində çox olmuşam və həmin ailənin daxilindəki tərbiyədən, millilikdən, əxlaqi, mənəvi dəyərlərdən çox şeylər öyrənmişəm və öz həyatımda tədbiq etmişəm. Onun tələbələrindən çoxları, elə mən də Şirməmməd müəllimə özümüzün ideallı kimi baxmışıq. O, sözün həqiqi mənasında ideal bir şəxsiyyət idi.

Həmişə yay aylarında Şirməmməd müəllim Şəkiyə gələrdə də bizim evimizə qonaq gəlib. Mən onların ailəsində bir dəfə da olsa bir- birinə qarşı nəzikli kobudluq, heç laqeydlik görməmişəm. Onları da bu yaşa çatdıran qarşılıqlı hörmət, samimi ünsiyyət və böyük sevgi, olub.

Mən onlarin qarşılıqlı hörmət və etiramının həmişə şahidi olmuşam. Şirməmməd müəllim bizimlə söhbətlərində həmişə deyərdi.

- İnsanda ilk sevgi ana, ata, bacı, qardaş, əmi, dayı, bibi, xala, sonra məktəbdə sənə diqqət, qayğı göstərən müəllimlərinə yaranır. Sonra tanıdığın yaxşı insanlara sevgin olur. Yaş artdıqca ailə, övlad, nəvə, nəticə sevgisini yaşayırsan.

Həyatında qarşılaşdığın yaxşı, ali insanlara, dostlara, heç vaxt üzünü görmədiyin, əsərlərindən tanıdığın müdrik insanlara da adamda sevgi yaranır. Həmin sevgilər toplusu insanı kamilləşdirir və insan daha ali- Tanrı sevgisini dərk edir. Bu sevgiləri yaşamasın kamilləşib Tanrı sevgisinə yüksələ bilməzsən. Qəbrin nurla dolsun, Allahdan sənə sonsuz rəhmətlər diləyirik. Biz həm qəlbində, həm də beynində böyük sevgi ilə yaşayan əvəzsiz bir şəxsiyyəti itirmişik.

Ona görə Şirməmməd müəllimə ağı və qəlbi ilə sevimeyi bacaran deyiram ki, min illər yaşadıqca cəmiyyət kamilləşir, insan primitiv duyğularla, hisslərlə yaşamaqdan uzaqlaşır. Kamil insanlar hisslərin yox şüurun, ağılın göstərdiyi istiqamətdə getməyə üstünlük verirlər. Hələ 19-cu əsrdə yaşayan böyük şair Mirzə Şəfi Vazeh yazıb ki,

Ağlımla qəlbimin özgə yolu var,
Hər biri bir yolda puç edər məni.
Birisi sevdadan uzaqlaşdırar,
Birisi sevdaya tuş edər məni!

Şirməmməd müəllim kamil insan idi, o, zamanəmizdən çox qabağa getmişdi. Şirməmməd müəllim sevgiyə layiq olan insanları həm ağlı, həm də ürəyi ilə sevirdi və ona görə də milyonlarla insalar onu böyük şəxsiyyət kimi sevib və sevəgək!

Mən ötən il Ramazan bayramında Şirməmməd müəllimlə əlaqə saxladım, onu bayram münasibəti ilə təbrik etdim. Son üç ildə səhhəti ilə əlaqədar Şəkiyə gəlmamişdi.

Mənə dedi ki, bu il 4-5 günlük də olsa gəlmək istəyirəm. Şəkinin havasından ötrü darıxmışam. Bəlkə də dünyaya göz açdığı Şəkinin havası, evində içdiyi Tacliq bulağının suyu onu bir neçə il də yaşadardı.

O, insanda sonsuz həyat eşqi, yazmaq, yaratmaq gövqü var idi. Bu fikirlərin fonunda Şirməmməd müəllimin ən yaxın məslək, əqidə dostu olan Böyük şair Bəxtiyar Vahabzadənin bir şeirini xatırladım.

Həyat sən nə şirinsən,
Səndən doymaq olarmı?!
Ancaq hamının deyil,
Sən həyatın qədrini
Yalnız bilənlərinsən!
Həyat sevincin qədər,
əzabın da şirindir,
Səni mənalandıran ,
o keşməkeşlərincli!...
Həyat çışın da şirin,
həyat yazın da şirin.
Gürbəcür yazılar var,
ömrün varaqlarında.
Həyat sən nə şirinsən,
Kim səndən doydu gedi?
Həyat sən nə şirinsən!?
Ancaq hamının deyil,
Sən həyatın qədrini,
Yalnız bilənlərinsən!...

Doğrudan da həyat sevə- sevə və sevilə- sevilə yaşayanlarındır!

Sağdan Cingiz Nağıyev, Şirməmməd Hüseynov, Ülkər Hüseynova, Dilbər Nağıyeva. Şəki, 2014-cü il

Bu xoşbəxtlik isə hər insana nəsib olmur. Şirməmməd müəllim öz yaşam tərzi, mükəmməl və kamil əsərləri, bir çox müsbət əməlləri ilə Türk dünyasında özünə əzəmətli bir abidə ucaltmışdır.

Abidə demişkən, bu günlərdə Ülkər xanımla telefonla danışarda çox böyük iftixar hissi ilə Ülkər xanım mənə dedi ki, Dövlətimiz tərəfindən Şirməmməd müəllim həmişə yüksək qiymətləndirilib indi də Dövlət sifarişi ilə qəbri üstündə gözəl bir abidə ucaldılıb.

Çox təəssüf ki, ludi dünyəda və ölkəmizdə yaşanan COVID-19 pandemiyası səbəbi bizlər rayondan gedib onun qəbrini ziyarət edə bilmirik.

Sağlıq olsun yollar açılan kimi bu misilyarızı mütləq yerinə yetirəcəyik və həmin məkan bizlər üçün müqəddəs ziyarətgah olub və olacaqdır. Vətən torpağı vətəndaşlar üçün ona görə müqəddəsdir ki, orada əzizləri uyuyub. Ora vətəndir.

Allah bizə qeyrət versin kamil bir şəxsiyyət olan Şirməmməd Hüseynovun əsərlərində qarşıya qoyulan vətənpərvərlik əqidəsini yaşadaq, uyuduğu vətən torpağını da qoruyub saxlaya bilək!

Şirməmməd Hüseynov Türk dünyasında böyük şəxsiyyət kimi tarixdə qalacaq. Böyük deyim Vaqif Aslanın Ulu öndərə həsr etdiyi „Böyüklük„ şeirini xatırladım. Prezidentində, müəllimində, həkimində, əlimdə böyüyü xalq tərəfindən sevilən, seçilən böyükdür elə Şirməmməd müəllim kimi!

Vaqif Aslan Böyüklük alma
yazılan yazı.
Cahakeş doğulur böyük olan kəs.
Bu ağlı- qarlı dünyanın nazı
Böyüklük olmasa, çəkila bilmaz.
Təksək atmacası yer eylər ona,
Nadan güllüşündən sınar böyüklük.
Gah peşiman olar doğuluduşuna,
Gah da öz-özünü qınar böyüklük.
Ona əli çatmaz yalanın, sənin,
Dikəlinməz, soksanmaz yağı sənindən.
Sabrina güc verər, düşünər dərin,
Ənmaz öz böyüklük mərtəbəsindən.
Dəyər topuğuna pəxtin dəşi...
Bilər, üzə vurmaz...böyüklük, axi!
Sonra da kədərlə çəkər qəşi,
Kəsər qabağını böyük olmağı.
Böyüklük ilahi nurdur, işıqdır...
Neyləyə bilər ki, qaranlıq ona?
Böyüyün hər yerdə alnı açıqdır,
Yaxdır ətliyacı bəzəyə, dona.
Böyük - böyük fikir, böyük ürəkdir,
Haqq özü səs verir onun səsinə.
Dünya, Vaqif Aslan, baş əyəcəkdir
Daim böyüklüyün tantanasına.

Çingiz Ənvəroğlu.
"Qızıl Qələm" mükafatı laureatı

12 Cəmiyyət ÜSAVAT N 83 (7529) 24 iyun 2019

"Söz vermişəm, 100 illiyi bayram eləməmiş bu işdən əl çəkən deyiləm. Gündə ən azı 8 saat o tarixi öyrənməklə, yazmaqla məşğulam". Bu sözləri yaşı 90-ı adladığı zaman deyirdi. Təsəvvür edin, ömrün bu çağında bir an belə usanmadan, yorulmadan özü dediyi kimi, həm öyrənirdi, həm də tarix yazırdı...

Şirməmməd Hüseynov adlı "yüksələn bayraq" - ölümündən 1 il keçdi

Tanınmış ziyalılar Cümhuriyyət tariximizin və mətbuatımızın görkəmli araşdırmaçısını vəfatının ildönümü ərəfəsində xatırladılar; həyat yoldaşı alimdən bəhs edən ikinci kitabını çapa hazırlayır

Azərbaycan Demokratik Cümhuriyyətinin, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində və təbliğində, milli mətbuatımızın araşdırılıb çağdaş nəslə çatdırılmasında böyük xidmətləri olan Şirməmməd Hüseynov belə bir ömür yaşadı. Özü də qane olmurdu, deyirdi, yazmadıqlarım yazdıqlarımdan on qat çoxdur. "A kişi, Cümhuriyyətin 23 aylıq tarixinin hər günü bir əsrə bərabərdir! Məhəmməd Əmin yazırdı ki, 28 mayda Azərbaycan xalqı bir gündə qərinələrin sevincini yaşadı"-deyirdi ürəyində yanğı, gözlərində işıq olan ziyalımız... Həm də təmənnasız xidmət göstərirdi xalqına, nəinki qonorarsız, həm də cibindən xərcləyərək.

Yeni nəşrdən çıxmış kitabını nəvə-nəticəsi kimi əlində əzizləyərək göstərər, ön hissəsindəki qeydə işarə edərdi: "Yazmışam ki, kitab onu sifarişsiz və təmənnasız hazırlayan Şirməmməd Hüseynovun vəsaiti ilə də nəşr olunur. Mən heç vaxt gedib nə heç kəsin qapısını döyənəm, nə də heç kəsdən bir manat pul alan. Ayda 1000 manat Prezident təqaüdü alınıram? Həm də universitetdə tam ştatda işləyirəm. Ona görə də nə xərci var özüm verirəm. Mənim gündəlik yeməyim 6-7 manat tutur. Yerdə qalanı sərf edirəm Cümhuriyyətçilərə".

Bax, belə kişi idi Şirməmməd müəllim! "Mən Cümhuriyyətin 100 illiyinə 50 ildir hazırlaşıram". Bu da Şirməmməd müəllimin sözləri idi. Əhdinə sadiq qaldı, Cümhuriyyətin 100 illiyini bayram etdi, özü də necə? Xoşbəxtlikdən bu böyük ziyalı ilə vaxtaşırı evində görüşmək qismətim olub. Əski əlifba ilə nəşr olunmuş "Azərbaycan"ın nüsxələrini latın qrafikasına çevirəndə hər işarə üstündə əsdiyini görürdüm, sözün mənası dəyişər, deyə... 95 illik ömrünün 75 ilini bax belə, faal həyat keçirdiyini deyirdi həmişə. Ş.Hüseynov həm də fenomenal şəxsiyyət idi: 95 yaşında mükəmməl, çox güclü yaddaşa malik idi... Hər sözündə, söhbətində konkret mənbələrə, faktlara istinad edirdi, sitatlar gətirirdi. Elə bil ki, elektron beyinə sahib idi, yazdıqları heç vaxt silinmirdi. Hətta küçədə gedəndə tanıyanlar yaxınlaşıb onun əlindən öpürdülər. Şirməmməd müəllim o məhəbbəti qazanmışdı...

Belə əvəzolunmaz insan bir il öncə, 2019-cu ilin 24 iyununda həyata vida etdi... Ş.Hüseynova olan xalq məhəbbəti onun dəfn mərasimində yaşanan izdihamdan da bir daha aydın göründü. Hətta onun dəfn mərasimindəki izdihamı Həsən bəy Zərdabinin dəfn mərasimindəki izdihamla eyniləşdirənlər də oldu.

Bu itkidən hər kəs sarsıldı, amma ən çox sarsılan, hər zaman onu qoruyan ömür-gün yoldaşı Ülkər xanımdır. Qeyd edək ki, 45 il "Elm və həyat" jurnalında şöbə müdirliyindən baş redaktor vəzifələrinədək çalışmış Ülkər xanım hazırda AMEA-nın Ədəbiyyat İnstitutunda çalışır. Ülkər xanım Şirməmməd müəllimin vəfatından sonra ona həsr etdiyi 350 səhifəlik "Sizdən bir də olmayacaq. Əlvida" kitabını hazırlayıb nəşr etdirib. Kitabda iyunun 24-dən (Şirməmməd müəllimin vəfat etdiyi gündən-E.P.) avqustun 2-dək, 40 gündə Azərbaycan mətbuatında Ş.Hüseynov haqqında yazılmış məqalələr toplanıb. Şirməmməd müəllimin yaradıcılığından bəhs edən ikinci kitabı - "Haqqın səsi"ni Ramiz Övsər (BDU-nun Şəki filialının müəllimi) hazırlayaraq nəşr etdirib. Bu kitab tədqiqat işidir. Ülkər xanım "Yeni Müsavat"a dedi ki, hazırda Şirməmməd müəllimə həsr etdiyi ikinci kitabı hazırlayır. Deyir, virus imkan verməsə, yoxsa indiyə nəşr olunardı. "Cümhuriyyət adamı-olduğu kimi" adlanan 500 səhifəlik kitabda Ş.Hüseynov haqqında sovet dövründən başlayaraq yazılmış məqalələr toplanıb. Ülkər xanım özü də 60 illik ömür yoldaşı barədə düşüncələrini, avtobioqrafik məlumatları həmin kitabda, "Uzun ömrün qısa anları" bölümündə çap etdirəcək.

"Şirməmməd müəllim müdrik insan, böyük alim, müəllim və el ağsaqqalı idi". Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında birinci dərəcəli müşavir-diplomat, ictimai xadim, araşdırmaçı alim Ramiz Abutalıbov söylədi. Ramiz müəllim özü də böyük araşdırmaçı ziyalımız olduğu halda, Ş.Hüseynova yüksək dəyər verdi: "Mən şəxsən çalışmışam ki, onun xeyir-duasıyla iş görəm".

Deputat Fazil Mustafa dedi ki, Şirməmməd Hüseynov Azərbaycanın nadir rastlanan biliyə malik aydın və çalışqan şəxsiyyəti idi: "Həm də məqsədyönlü, sistemli çalışa bilən az sayda elm adamlarından sayılırdı". **Millət vəkili bir xatirəsini də bölüşdü:** "1998-ci ildə "Azadlıq" qəzeti redaktorunun təklifi ilə köşə yazıları yazırdım. Razılaşdıq ki, rahat yazmam üçün psevdoimza variantını seçək və bununla həm özümə, həm də qəzetə də hücumları azaldaq. "Toğrul Oruc" imzası ilə xeyli köşə yazılarım dərc olundu. Bir gün qəzetin baş redaktoru Gündüz bəy (Tahirli-E.P.) yanıma gəldi ki, bəs, Şirməmməd müəllim gəlmişdi, deyirdi Toğrul Orucu mənimlə tanış edin. Öncədən razılaşdığımız kimi kimliyimi bildirməmişdilər. Şirməmməd müəllim demişdi ki, arzuladığım publisistikanı onun qələmində sezdim, hər dəfə də yazılarını təkrar oxuyuram. Sonradan bunu Şirməmməd müəllimə xatırladarkən, təəccübləndi və o vaxt söylədiklərini təsdiq etdi. Vəfatından bir neçə ay əvvəl də evində ziyarət etmişdim, çox maraqlı söhbətimiz olmuşdu. Allah ruhunu şad etsin!"

"Keçmiş irslə müasirliyi sintez etməyi bacaran alim, görkəmli tədqiqatçı Şirməmməd Hüseynovla 20 ildən çox jurnalistika fakültəsində eyni kafedrada çalışmışıq".

Bu fikirləri tarix elmləri doktoru, BDU-nun professoru Nəsiman Yaqublu söylədi. Bildirdi ki, Şirməmməd müəllimdə diqqət etdiyi başlıca cəhət zəhmətsevərliyi, çalışqanlığı və daima öz üzərində çalışmağı idi: "Son illərdə isə öz fəaliyyətini bütövlükdə keçmiş irsin öyrənilməsinə, toplanılıb gənc nəslə çatdırılmasına həsr etmişdi. O, bu işin də maraqlı bir üsulunu tapmışdı, yəni keçmiş irsi müasirliklə əlaqələndirib oxuculara çatdıra bilirdi. Məsələn, Rəsulzadə o zaman nə yazıb və indi necədir? Ü.Hacıbəyli o zaman nə yazıb, indi necədir və s. Bu, çox vacib problemdir ki, Şirməmməd müəllim elmimizdə və jurnalistika tariximizdə sistemləşdirib insanlarımıza təqdim etdi".

N.Yaqublunun sözlərinə görə, onun bir üstünlüyü də auditoriyanı ələ almaq və diqqətli saxlamaq bacarığı idi: "Dövrün, çox zaman günün olduqca aktual bir məqamını tapıb söyləyirdi və auditoriyanı maraq dairəsində saxlayırdı. Dəyərli bir araşdırmaçımız idi".

"Professor Şirməmməd Hüseynovu bizdən ayıran bir illik zaman onun araşdırmaçı-alim, millət yaddaşının keşikçisi, pedaqoq və publisist kimi miqyasını, həm də dəyərini bir daha göstərdi".

Bu fikirlər isə professor Qulu Məhərrəmliyə məxsusdur. Şirməmməd Hüseynov haqda danışan həmsöhbətimiz dedi ki, o, ilk növbədə mətbuat tariximizin, bu mətbuata hopmuş milli məfkurə, ictimai düşüncə və istiqlal tariximizin araşdırmaçısı idi: "Gerçək elmi mühit görmüşdü. Moskva Dövlət Universitetinin aspiranturasını bitirmiş, peşəkar tədqiqatçılıq məktəbi keçmişdi, bu səbəbdən də fərqli idi. Tarixi bilikləri, bu tarixə aid olan milli problemləri ustalıqla populyarlaşdıra bilirdi. Ensiklopedik zəka sahibi olan Şirməmməd müəllimin bir üstünlüyü də araşdırmaçı-alim fəhmi ilə publisist məharəti ustalıqla birləşdirməyi bacarmasında idi. Onun bizə zəngin irs kimi qoyub getdiyi bütün əsərlərində bu keyfiyyət özünü göstərir. Bu gün internetdə tez-tez qarşılaşdığımız, ustadın canlı nəfəsinin duyulduğu televiziya-radio çıxışları da məhz bu səbəbdən xeyli populyardır".

Q.Məhərrəmli qeyd etdi ki, Şirməmməd müəllim bu xalqın yaddaşında həm də Cümhuriyyət tarixinin, onun qurucusu Rəsulzadə irsinin tədqiqatçısı və təbliğatçısı kimi qalıb: "Ona görə də professor Şirməmməd Hüseynovun adı həmişə Cümhuriyyətlə, istiqlal düşüncəsi ilə, öz əsərləri ilə həmin milli istiqlal düşüncəni qidalandırmış Zərdabi, Əli bəy Hüseynzadə, Əli bəy Ağaoğlu, Üzeyir Hacıbəylinin adları ilə birgə assosiasiya olunacaqdır".

Vəfatının birinci ildönümü ərəfəsində həmkarlarla birlikdə böyük müəllimimizin məzarı başındayıq, II Fəxri Xiyabanda. Mərmər sinə daşının üzərində ən çox sevdiyi fikirləri həkk olunub: "Ata-babalarımız bizə bu Vətəni - cənnət məkanı Azərbaycanı əmanət ediblər. Biz də onu göz bəbəyimiz kimi qoruyub gələcək nəsillərə əmanət etməliyik". Bu fikirlər həm də bizlərə nəsihətdir...

Qəbirüstü abidəsi o qədər canlıdır ki... (qəbirüstü abidəni Natiq Əliyev - Bəxtiyar Vahabzadə, Cavad Heyətin və digər nəhəng insanların da qəbirüstü abidələrinin də müəllifi odur hazırlayıb). Sanki adamla bu dəqiqə danışacaq, sonra da gözəl intonasiya ilə "bildin"-soruşacaq. Sağlığında "canlı əfsanə" deyərdik. İndi abidəsi də canlıdır elə bil...

Ruhun şad, məkanın cənnət olsun, böyük ustad!

❑ Elşad PAŞASOY, Musavat.com

Magistraturaya ixtisas seçimi başa çatdı

2020/2021-ci tədris ilində Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına proqram və ixtisaslaşma seçimi başa çatıb.

Dövlət İmtahan Mərkəzinin saytına istinadən xəbərinə görə, ümumilikdə təsdiq edilmiş ərizələrin sayı 11380 olub. Onlardan 10549-u Azərbaycan, 831-i rus bölməsidir.

Qeyd edək ki, 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün proqram və ixtisaslaşma seçiminə iyunun 8-dən başlanılıb.

Proqram və ixtisaslaşma seçiminə magistraturaya 23 fevral 2020-ci il tarixində keçirilmiş qəbul imtahanının (bəzi proqramlar üzrə həmçinin qabiliyyət imtahanının) nəticələrinə əsasən müəyyən edilmiş minimal tələbləri ödəyən və ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanan bakalavrlar buraxılıblar.

Tanınmış ekspertə ağır itki

Təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayılın bacısı oğlu Teymur Teymurov koronavirusdan (COVID-19) vəfat edib. Bu barədə məlumat sosial şəbəkələrdə yayılıb.

İlham İsmayıl yeni.sabah.az-a deyib ki, bacısı oğlu bundan əvvəl infarkt keçirib. "Həm də həddindən artıq kök idi. Bu tərəfdən də koronavirus infeksiyasına yoluxub və görünür ki, ilk gündən bunu bilməyib. Vəziyyəti ağırlaşandan sonra təcili yardımla apardılar. Heç bir gün çəkmədi ki, dünyasını dəyişdi", - deyə ekspert bildirib. Qeyd edək ki, 42 yaşlı Teymur Teymurov Goranboy rayonunun Xan Qərvənd kənd sakinidir.

525-ci qəzet PORTRET 23 4 noyabr 2017-ci il, şənbə

Millət yaddaşının keşikçisi

(Əvvəli 18-19-cu səh.)

Bəs o stenoqramlarla "Azərbaycan" qəzetində dərc edilən hesabatların fərqi nədədir?

"Azərbaycan" qəzetində dərc edilən parlament hesabatlarının mənası və dəyəri büsbütün başqadır. Bunlar hamısı Məhəmməd Əmin və Üzeyir bəylərin redaktə süzgəcindən keçərək dərc olunub. Yəni onlar, məlum stenoqramlardan fərqli olaraq, ağızdan çıxan hər sözü əks etdirməyiblər, yalnız ictimai məna kəsb edənləri saxlayıblar, müəyyən ixtisarlar aparıblar, bəzi parçaların məzmununu veriblər.

Və Şirməmməd Hüseynovun məharəti, materiallara yetərincə hündürdən, geniş miqyasda, panoramda baxa bilməsinin nəticəsi bundan ibarətdir ki, o, qəzetdə dərc edilən ayrı-ayrı iclaslar barədə hesabatları verir, amma bunun yanında bəzən əvvəldə, hərdən sonda həmin mətləblərə dayaq duran, elə o qəzetdəcə yer almış başqa yazıları da gətirir. Qəfildən qarşımıza bu məsələlər və mətləblərə həmahəng gələn, heç parlamentdə olmayan Fərhad Ağazadənin məqaləsi çıxır və sanki həqiqətlərə əlavə bir pəncərə taybatay açılır. Ya Məhəmməd Əmin Rəsulzadənin özünün, yaxud Üzeyir bəy Hacıbəylinin parlament divarları arasında səslənməmiş, müstəqil məqalə kimi işıq üzü görmüş yazıları parlament hesabatları kontekstinə qovuşur, həmin andaca mətnin ahəngi, ritmi dəyişir, yeni məna qatları ortaya çıxır, xeyli qaranlıq suallara aydınlıq gəlir.

Bunları edə bilməkçünsə, bu kompozisiyanı qura bilməkdən ötrüsə gərək o dövrün hadisələrinə, həmin dövrün ayrı-ayrı şəxsiyyətlərinin əqidəsinə, qələminə, düşüncə tərzinə dərindən vaqif olasan.

Şirməmməd Hüseynov kimi!

Bu yazılar silsiləsinin göstərdiyi parlament mənzərəsi, istiqlal uğrunda gedən mübarizəmizin gerçəkçi və dolğun fonu, ayrıca vurğulayıram ki, yalnız və yalnız Şirməmməd Hüseynov kimi həmin tarix kəsiyindən incəlikləri ilə agah olan müstəsna bələdçinin əməkləri ilə yaradıla bilərdi.

Hər halda bu gün həmin işi o cür səriştə və vurğunluqla yerinə yetirə biləcək ikinci şəxsi mən tanımıram.

Mən bayaq bu hesabatlara yanılaraq "dinləyirkən" dedim, bu dəfə isə artıq çaşaraq yox, elə qəsdən yanılaraq "oxuyuruq" əvəzinə "görürük" demək istəyirəm.

Şirməmməd müəllimin "Parlament hesabatları"nın cildlərini vərəq-vərəq çevirdikcə hadisələri yalnız oxumuruq, dinləmirik, həm də bütün əyanlığı ilə görürük.

Hesabatların ibtidasından son səhifəsinəcən mütaliə edəndə belə qənaətə gəlirsən ki, bu, nəhəng bir film kimidir, bir epopeya timsalıdır və oxuya-oxuya olmuşları sanki ilk kadrından son kadrınacan seyr edirsən.

Bu kitab həm də bir ölçüdür. 3 cild olsa da, onları bir bütöv sayaraq "kitablar" yox, sadəcə "kitab" deyirəm.

Birincisi, bu kitab bir daha əyan edir, nəşrindən bir əsr keçəndən sonra da nümunə göstərir ki, yaxşı qəzeti necə çıxarırlar.

Bu toplantıda mətbuat nümayəndələri iştirak edir. "Azərbaycan" adlı qəzet bu gün də var, digər dövlət qəzetlərimiz də çıxır, müstəqil mətbuatımız da fəaliyyətdədir. XX əsrin əvvəlindəki "Azərbaycan" qəzetinin nümunəsi işarə edir ki, millətin ola biləcək yaxşı qəzeti necə çıxarmaq lazımdır ki, üstündən zamanlar keçəndən sonra da salnamə sayılsın, tarixin bərpa olunması üçün mənbəyə çevrilsin, saralıb-solsa da, mahiyyətcə köhnəlməsin, yeni zamanla da ünsiyyətə girə bilsin. Və nəşr üçün istənilən məqaləni yazanda da düşünməlisən ki, 50 il ötəcək, mənim haqqımda bu yazıya görə nə deyəcəklər, 100 il sovuşacaq, mənə bu yazıma görə necə qiymət verəcəklər. Qələmi götürəndə, qəzet-jurnal buraxanda bir an belə vaxtı yetişincə hər suala cavab tələb edən tarix qarşısında məsuliyyətini unutmamalısan!

Kim bilir, bəlkə də o qüdrətli şəxsiyyətlər o zaman bütün bunlar barədə fikrə dalıblar. Məhəmməd Əmin Rəsulzadə də, Üzeyir bəy Hacıbəyli də, Şəfi bəy Rüstəmbəyli də, Ceyhun bəy Hacıbəyli də, ola bilsin, bu barədə ən azı təhtəlşüur düşünüblər, ona görə o təhər köhnəlməz, dəyərini itirməz qəzet yaradıblar. Həmin səbəbdəndir ki, "Azərbaycan" qəzetinin səhifələri vətən işığı ilə, millət atəşi ilə doludur.

Vətən işığı, millət atəşi elə əziz Şirməmməd müəllimin də bütün varlığında olduğundandır ki, bu cür mükəmməl bir əsəri ortaya çıxarmağa müvəffəq olub.

Bu cildləri yaratmaq əsnasında Şirməmməd Hüseynov dünənin dumanlarında əriyib-itmiş, bu günün insanlarına pünhan qalan bir sıra adları da aşkarlayıb, onlara təzədən həyat bağışlayıb. "Azərbaycan" qəzetində yazıları çıxan Əhməd Həmdi adlı şəxs diqqətini çəkib. Azərbaycanda çox soraqlaşsa, arxivlərə baş vursa da, bir məlumat əldə edə bilməyib. Amma ruhdan, həvəsdən düşməyib, ona cavanlığından xas olan inadkarlığı ilə yenə arayıb, yenə axtarıb, yenə soraqlaşıb və suallarına cavabı Türkiyə arxivlərində bulub. Və bu hərəkəti ilə də Şirməmməd müəllim növbəti dərsini, növbəti öyüdünü verib. Yəni istiqlal, müstəqillik bizim elə müqəddəs sərvətimizdir, səcdəyə layiq elə mirasdır ki, onun yolunda azacıq belə zəhməti olmuş hər insanı biz həmişə qədirbilənliklə, dualarımızla, sağollarımız, rəhmətlərimizlə anmalıyıq.

Şirməmməd müəllimin hər çıxışı, hər yazısı, hər kitabı və o sıradan bu cildlər abidələrdir.

Tanrı, talə, tarix Şirməmməd Hüseynov kimi nadir insanları millətə göndərir ki, cərəyan ötürən naqilə çevrilsinlər, qoymasınlar yaddaş qırılsın, imkan verməsinlər keçmişlə rabitələr kəsilsin.

Şirməmməd Hüseynov milli yaddaş daşıyıcısı, bir mənəviyyat körpüsüdür. Azərbaycanın dünəniylə indisi, istiqlalımızın qaynaqları ilə bu gün arasındakı körpü.

Milləti tarix sınaqlarından zədəsiz çıxaran, həmişə ayaq üstə saxlayan, güclü edənsə həmişə məhz tarixi yaddaş, belə sarsılmaz körpülər olub.

Azərbaycan bayrağı bu gün yenə yüksəklərdədirsə, Azərbaycan himni səslənəndə yenə biz iftixar qəhəriylə doluruqsa, bunun ümdə səbəbi odur ki, 70 ilin sovet qadağaları boyunca ayrı-ayrı insanlar bu sevdaya dönük çıxmadı, bu eşqi ürəyində yaşatdı, ziyalılarımız, düşüncə və duyğu adamlarımız sətirlərinin altında olsa da, həmin hissləri yurddaşlarımıza çatdırdı və qoymadı ki, istiqlal yanğısı sozalsın. Qürbətlərdə, mühacirətlərdə, zillətlərdə yaşaya-yaşaya bu hissiyyatı diri saxladılar və ən qəddar maneələrə rəğmən vətənlərinə bunu çatdırmağa səy elədilər, nail də oldular ki, vətəndaşlarımızın içərisində istiqlal ruhu, müstəqillik istəyi şölələnməkdə davam etsin.

İndi Şirməmməd müəllim də yeni əsrimizin, təzə minilliyimizin başlanğıcından bu üç kitabla elə bir ocaq qalayır ki, bu ocağın istisi və işığı Azərbaycanın çox uzaq gələcəklərinə səmt götürüb və söz yox, gələcəkdəki yurddaşlarımıza böyük faydalar da verəcək.

Bu gün, bu mübarək əsrin bayramına qatıldığımız anlarda Azərbaycan istiqlalının artıq başlanmış olan və 2018-ci ilin 28 mayında təntənəsini yaşayacağımız 100-cü yaşının 10-cu günüdür. O ülvi bayrama düz 355 gün qalır. Gərək biz hamımız dövlət müstəqilliyimizin 100 illiyinə qədər olan hər günün hər saatında o şərəfli tarixə xidmət üçün hansısa yeni, əhəmiyyətli, qalıcı işlər görməyə köklənək.

Sözlərimə son verməzdən öncə müstəqilliyimiz, parlament tariximiz, istiqlal yolumuz və elə cazibə dalğasında olduğumuz, haqqında düşüncələr bölüşdüyümüz cildlərlə birbaşa bağlantısı olan bir diləyimi ifadə etmək istərdim. 1918-ci ilin 7 dekabrında yaradılmış Məclis-i Məbusan bütün tariximizçün fəxr qaynağı olan milli hadisə idi.

Mən Azərbaycanın ilk parlamentinin həyatını əks etdirən akademik nəşri görməyi çox istərdim.

Necə təsəvvür edirəm o kitabı?

Xatırlatdığım kimi, 1998-ci ildə Məclis-i Məbusanın stenoqramları həm Azərbaycan, həm rus dillərində, qüsurlu da olsa, nəşr edilib. Düşüncəmə görə, oradakı əsas nöqsan yalnız mətnin bərpası əsnasında buraxılmış ayrı-ayrı səhvlər deyil, həm də tərtib prinsiplərindəki xətalardır. Həmin nəşrdə azərbaycanca cilddə yalnız ana dilində olan çıxışlar verilib, rusca nəşrdə isə rus dilində edilən çıxışlar yer alıb. Deməli, o da, bu da natamamdır. Mənsə akademik nəşrdə ana dilində olan mətnlərin arasında rusca olan mətnlərin də dilimizə çevrilərək verilməsini, amma orijinaldakının da cildlərin sonunda, şərhlərlə göstərilməsini məqbul sayıram. Eləcə də həmin akademik nəşrin şərhlər və izahlar, lüğət bölməsi Şirməmməd Hüseynovun kitablarındakı qəzet hesabatları, müxtəlif tamamlayıcı başqa "Azərbaycan" dərcləri, eləcə də ustadın o yazılara verdiyi yozumlar, dəqiqləşdirmələr, aydınlatmalarını artırmaqla mükəmməlləşdirilə, daha artıq elmiləşdirilə bilər. Beləcə, biz, nəhayət ki, ilk dəfə olaraq ilk milli parlamentimizin keçdiyi enişli-yoxuşlu, mübarizəli yolun qənaətbəxş mənzərəsini aydınlığı ilə izləmək, öyrənmək fürsəti əldə edirik.

Şirməmməd müəllim qiymətli bir insandır və Allah da bizdən daha əvvəl və daha yaxşı bilir nə qədər qiymətlidir o!

Allah Şirməmməd müəllimin millət üçün gərəkliyini, tarix üçün faydalığını dəqiq bildiyindən, ona millət körpüsü olmaq vəzifəsini həvalə etdiyindən bu millət üçün onu yaşadır.

Sağlam yaşadır, gümrah yaşadır, düşüncəsini aydın, ruhunu təmiz yaşadır. Elə yaşadır ki, bu gün də, doxsanını arxada qoyandan sonra da əli qələmlidir, bu gün də iş başındadır, universitetə gedərək dərsini deyir, bu gün də masasının üstündə yeni tədqiqlər var, millətə təqdim eləyəcəyi yeni işlər sıra gözləyir.

Tarix, talе və Tanrı Şirməmməd Hüseynov kimi sərvəti millətimizə çox görməsin!

18
4 noyabr 2017-ci il, şənbə

PORTRET

525-ci qəzet

Millət yaddaşının keşikçisi

Dəyərli "525"çilər!

Milli yaddaşımızın ən ardıcıl və dürüst qoruyucularından olan qiymətli alimimiz professor Şirməmməd Hüseynova qəzetinizdə çoxdan bəri hər həftə səxavətlə ayırdığınız yer, mahiyyəti ilə, vətənə xidmətdir. Vətənin daşını hər kəs qaldıra bilməz, amma belə bacarığı olana maneçilik deyil, dəstək göstərməyin özü də nəciblikdir, yurda və xalqa yararlı olmaq nümunəsidir. Uzun həftələr və aylar boyunca əziz Şirməmməd müəllimin qəzetinizin sütunlarından xalqa çatdırdığı qiymətli yazılar istiqlal tariximizin unudulmamalı səhifələridir.

Təqdim etdiyim bu yazıyla bu şənbə ustadın guşəsinə qonaq olmaq istəyirəm.

4 ay öncə Şirməmməd Hüseynovun "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 - aprel 1920)" adlı kitabının III cildinin təqdimat mərasimi keçirilirdi. Həmin toplantıda mən də çıxış etmişdim. Şirməmməd müəllim ötənaykı görüşlərimizdən birində mənə həmin mərasimin videoyazısını hədiyyə etdi. Mən də qərara aldım, o gün söylədiklərimi kağıza da köçürüm ki, Şirməmməd müəllim və onun əsəri haqda düşüncələrim daha çox insana yetişsin.

Bu qədər mühüm, çətin əməklərə qatlaşan, millətəxeyir bəhrələr doğuran ustada ən azı sağolumuzu, sayğımızı, sevgimizi dilə və qələmə gətirməyi əsirgəməyək ki, şərəfli işini davam etdirmək yolunda ilhamı və eşqi bir qədər də artsın.

Hörmətlə, Rafael Hüseynov

Beynəlxalq Mətbuat Mərkəzində Bakı Dövlət Universitetinin professoru, görkəmli tədqiqatçı Şirməmməd Hüseynovun "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 - aprel 1920)" adlı kitabının III cildinin 2017-ci il iyunun 8-də keçirilmiş təqdimat mərasimində Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynovun çıxışı

Əziz Şirməmməd müəllim, hörmətli dostlar, xanımlar və cənablar!

Biz bu anlarda müasir gerçəkliyimizdə, Azərbaycanın düşüncə həyatında son dərəcə əlamətdar olan, həyəcan və qürur doğuran bir hadisənin qeydetmə mərasimindəyik.

Haqlıdır Şirməmməd müəllim, Azərbaycan tarixinin elə hadisələri var ki, onları biz hər zaman anmalı, onlar barəsində daim minnətdarlıqla düşünməliyik. XX yüzilin başlanğıcındakı Azərbaycan tarixində iki oxşar məqam var ki, ikisinin də əvvəlində göz yaşı dayanır.

1918-ci il may ayının 28-də Tiflisdə sabiq Qafqaz canişinliyinin iqamətgahında Həsən bəy Ağayev Azərbaycanın İstiqlal Bəyannaməsini elan edirdi.

O, İstiqlal Bəyannaməsinin mətnini oxuyurdu, müstəqil dövlətimizin yarandığını elan edirdi və həmin yığıncağın protokolunda o qəbil sənədlər üçün çox da səciyyəvi olmayan qeydlər də əksini tapıb ki, Həsən bəy Ağayev ağlayırdı, Xəlil bəy Xasməmmədov ağlayırdı, Nəsib bəy Yusifbəyli ağlayırdı, Xudadat bəy Məlikaslanov ağlayırdı...

O insanlar ki bu istiqlalı elan edirdilər, onlar bu möhtəşəm anların fövqəladə mənasını, millət tarixindəki yerinin ali siqlətini bütövlüyü ilə anlayırdılar, bunun bir millət üçün nə qədər müstəsna bəxtiyarlıq olduğunu dərk edirdilər, ona görə kövrəlirdilər.

Və 1920-ci il aprel ayının 27-si Azərbaycan Parlamentinin - Məclis-i Məbusanın son iclası. Məhəmməd Əmin Rəsulzadə söz alaraq iclasın başlanğıcında deyir ki, biz bu yığıncağımızı qapalı keçirməyək. Qapıları açaq, millət gəlsin və görsün ki, taleyimizdə nə baş verir. Millətin müqəddəratı həll olunur və insanlarımız bundan bixəbər qalmamalıdır.

Məhəmməd Əmin Rəsulzadə qəlb ağrısı ilə belə deyirdi. Çünki Azərbaycanın müstəqilliyi əldən gedirdi, hakimiyyət, istiqlal bolşeviklərə təslim edilirdi.

Bu sənəddə də belə protokollar

üçün heç də xas olmayan belə bir cümlə var. Mötərizədə yazılıb ki, "Azərbaycan" qəzetinin baş redaktoru Şəfi bəy Rüstəmbəyov ağlayır.

O əvvəlki göz yaşı - Həsən bəy Ağayevgilin 1918-ci ilin mayındakı göz yaşı - fərəhin, böyük səadətin, iftixarın gətirdiyi göz yaşı idi, ikinci göz yaşı müdhiş faciənin, millətin tarixində dərin yaralar açan bir acının doğurduğu göz yaşı.

Və Şirməmməd müəllimə bu şərəfli tarixin salnaməsi olan bir əsəri millətimizə təqdim etmək məsudluğu nəsib olub.

Əlbəttə ki, bu kitabların yaranması millət tarixinin çox önəmli bir hadisəsidir.

Hər bir istedadlı insan, hər bir güclü yaradıcı ömür möhləti boyu hansısa şah əsərini yaradır. Bu, onun gənclik illərində də baş verə bilər, ahıllığında da, ixtiyar sinnində də.

Zəka, ilham sahibinin yaradıcılıq yolu uzun da çəkə, onun şah əsərinin ortaya çıxması həyatının erkən çağına da, yolun ortasına da təsadüf edə bilər, yaxud arzulanan şah əsərin ömrün sonlarına doğru, təcrübələrin yekunu kimi meydana gəlməsi də mümkündür.

Şirməmməd müəllim şərəfli ömür yaşayıb, çox layiqli bir alim, xoşbəxt bir müəllim həyatı sürüb və onun yetirmələri, tələbələri Azərbaycan boyuncadır.

Şirməmməd müəllim örnək sayılası ailə başçısı ömrü yaşayıb, Azərbaycana çox dəyərli balalar bağışlayıb.

Və ilk gəncliyindən ali qələmli olub, usanmadan işləyib, bolluca məqalələr, dissertasiyalar, kitablar yazıb. Amma Şirməmməd müəllimin ömrünün, düşünürəm ki, şah əsəri bu üç kitabdır. Hərçənd, Şirməmməd müəllimin doğurduğu və sanbalına, çəkisinə, dəyərinə görə elə bu üçcildliyə bərabər tutulası Məhəmməd Əmin Rəsulzadənin əsərlərindən ibarət cildlər də var. Amma bu üçcildliyin sanbalı, məna yükü, mahiyyəti tamam başqadır.

Uzaq 1918-20-ci illərdə "Azərbaycan" qəzetində dərc edilmiş parlament hesabatlarını günümüzə çatdıran bu cildlər sırası qiymətəsığmaz salnamədir.

Azərbaycanın tarixində iki əvəzsiz əsər var ki, tariximizdən bəhs edərkən, salnaməçiliyimizdən söz düşəndə hər zaman onları hökmən xatırlamaq zərurəti yaranır. XIII yüzildə Fəzlullah Rəşidəddin Təbrizdə Rəşidiyyə mədrəsəsini qurdu, ilk universitet təhsilimizin təməlini qoydu və "Cami ət-təvarix" adlı elmi əsaslara dayanan ilk misilsiz salnaməmizi yaratdı.

Bu "Tarixlər toplusu"ndan sonra çoxlu oxşar salnamələr, tarixi məcmuələr yaranıb, fəqət bir örnək olaraq bütün orta əsrlər içərisində ən uca mərtəbədə qərar tutan zirvə əsər "Cami ət-təvarix"dir. Və XIX yüzildə Abbasqulu Ağa Bakıxanov "Gülüstan-i İrəm"i qələmə aldı. Bu da salnamə idi, amma artıq həm də bir peşəkar tarixçi alimin əsəri idi ki, incə təhlillər, müxtəlif mənbələri tutuşdurmaq əsasında elmi tarixçiliyin yeni dövrdə şəkillənən bir sıra ümdə xüsusiyyətləri nəzərə alınaraq ərsəyə gətirilmişdi. Bu iki əsər arasındakı altı əsrlik zaman kəsiyində, həmin iki kitabdan bir az əvvəli və bir qədər sonranı da nəzərə alsaq, 7-8 əsrlik iri tarix parçası ərzində çox salnamələr yaranıb. Amma bu iki müəllifin adı və əsəri, düşünürəm ki, hər zaman üstün tutularaq yaşayacaq və sayğılarla yad ediləcək.

Artıq bizim dövrdə - XX əsrdə və XXI yüzilin ilk onillərində Şirməmməd Hüseynov və Qulam Məmmədli salnaməçiliyin yeni tipini yaratmaq hünəri ilə ziyalı mühitimizi heyrətləndirə bildilər. Onlar salnaməçiliyin Azərbaycanda bu çağacan ortada olmayan nümunəsini yaratdılar. Qulam Məmmədli Azərbaycan teatrının salnaməsini vücuda gətirdi, "günbəgün" adlandıra biləcək janr xəlq elədi, Hüseyn Cavidin, Abbas Mirzə Şərifzadənin, Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun, Nəriman Nərimanovun, Mirzə Cəlilin, Üzeyir bəy Hacıbəylinin ömür yollarını əks etdirən tayı-bərabəri olmayan qiymətli salnamələr yaratdı və salnaməçiliyin tamam yeni çeşidi və tərzini Azərbaycan xalqına bəxş etdi. İlk Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, adı vətənimizin adı ilə eyni olan "Azərbaycan" qəzeti bəlli idi, ictimai-siyasi gerçəkliyimizdə, mətbuat tarixində izini qoyub getmişdi.

Dövlət müstəqilliyimizin bərpasından az sonra, 1998-ci ildə ilk Azərbaycan Parlamentinin iclaslarının stenoqramları çapa hazırlanaraq nəşr edildi. Sanki boşluq doldurulmuşdu, onillərcə hətta arxivlərdə belə gizli saxlanmış, yalnız xüsusi hallarda və məxsusi icazə ilə istifadəsinə icazə verilmiş bu mətnlər hamınınkılaşmışdı.

Lakin nə yaxşı ki, müdrik alim və mətbuatşünas Şirməmməd Hüseynov həmin dövrə bir də nəzər salmağı vacib hesab etdi. Onun təqdimatındakı "Azərbaycan" qəzetində dərc edilən parlament hesabatları və bu hesabatlarla bağlı yazılar, onların qovuşmasından törəyən üç sanballı cild xüsusi hadisə - məlumdan yaranan büsbütün yeni naməlum idi. O mənada ki, bu nə "Azərbaycan" qəzetində Xalq Cümhuriyyəti dövründə buraxılmış qəzetdə çıxmış protokolların sadəcə əski əlifbadan latın qrafikasına köçürülməsi idi, nə də, 1998-ci ildəki kimi, bəlli protokolların cüzi redaktə ilə nəşri. Şirməmməd müəllim ömrü boyu topladığı təcrübə və biliklərə qəlbindəki coşqun millət və yurd sevgisini də artıraraq arxada qalmış şanlı, mübarizəli, qəmli və nigaran tarixi, əslində, yenidən canlandırdı.

Bişkin alim usta qələmi ilə bəlli protokolları zəruri izah və şərhlər, yeri düşdükcə sözə söykək duran əlavə materiallarla zənginləşdirdi.

Buradaca bir-iki önəmli cəhətə diqqət yönəltməyə ehtiyac var.

Əvvələn, "Azərbaycan" qəzetinin nəşrindən 9 onillikdən də artıq böyük zaman sovuşmuşdu, yeni nəsillər o nüsxələrdən bixəbər idi. İkincisi isə, həmin nüsxələrlə indi kitabxanalarda, arxivlərdə açıq istifadə imkanı olsa da, yeni nəsillərçün əlifba maneəsi, ərəb-fars tərkiblərinin yaratdığı müşküllər bəlli idi. 1998-ci ildə buraxılmış parlament protokolları isə xeyli şəkildə tələsik hazırlanmışdı, yanlışlar, kobud xətalarla ləbələb idi və heç bir tutarlı şərh və izahla müşayiət edilmirdi.

Şirməmməd Hüseynov - bu böyük alimimiz, bu böyük müəllimimiz, bu böyük ziyalımız üçcildlik əsərini zahirən qısa bir zaman içərisində hazırlayıb. Bu yazıları kitablaşdıraraq xalqa təqdim edənəcən ard-arda mətbuatda dərc də elətdirib və bu minvalla cildlərin yaranma gedişatını müşahidə etmək hər birimizə nəsib olub. Amma bilənlər bilir ki, bu kitabları hazırlamaq üçün Şirməmməd müəllim 50 illik yol gəlib. Ömrü uzunu bu barədə düşünüb, ömrü boyu bu hadisələri və adamları içərisində yaşadıb. Və bu, öz etirafıdır ki, ilk gənclik illərindən, Moskvadakı aspirantura dövründən, orada qapalı arxivlərdə işlədiyi çağlardan, bu qəbil materialları nəinki üzə çıxarmağa, hətta oxumağa belə yasaq qoyulduğu zamanlardan gizli bir ümid və inamla tariximizin bu dövrü ilə əlaqədar materialları toplayırmış, qeydlərini edirmiş, haçansa belə işlərin də vaxtı yetişəcəyi, bağlı qapısının açılacağı arzusu ilə usanmadan təhlillərini aparırmış.

50 ildən artıq müddətdə qəlbdə bəslənmiş, kimsəyə görünməmiş Şirməmməd müəllimin yazı masasının gözündə qalmış həmin ilkin hazırlıq yazıları indi "Azərbaycan" qəzetindəki parlament hesabatlarına qovuşaraq bizə qayıdır, unudulmamalı şərəfli keçmişimizi bizə qaytarır.

Bunları dinlədikcə, daha doğrusu, oxuduqca heyrətə gəlməyə bilmirsən.

Bir tərəfdə heyranlıq və heyrət doğuran istiqlalçı, qurucu babalarımızın pak amal uğrunda fədakar mübarizələri, mətinliyi, mərdanəliyi, təlatümlü əyyamlarda söylədikləri köhnəlməz sözləri və çağırışlarıdırsa, digər tərəfdə ikiqat heyranlıq və ikiqat heyrət oyadan Şirməmməd müəllimin, illərcə valideynlərinə borcunu qaytarmaq üçün münasib girəvə gözləmiş fərasətli, sadiq bir övladın məhəbbəti və canıyananlığı ilə bu irsi belə ali peşəkarlıqla canlandırmasıdır. Mən yanılaraq əvvəlcə "oxuduqca" yerinə "dinlədikcə" söylədim. Əslində, elə bu, "dil çaşıb düzünü söylər" məsəlinin düzrüstlüyünə əlavə sübutdur.

Şirməmməd müəllimin təqdimatındakı bu yazıları oxuduqca bixtiyar tarixə dalırıq və həmin qərib illərin araxarındakı səsləri aydınlığı ilə eşidirik. Parlament iclaslarının salnaməsindən Həsən bəy Ağayevin, Əhməd bəy Ağaoğlunun, Məhəmməd Əmin Rəsulzadənin, Üzeyir bəy Hacıbəylinin, Əhməd Cavadın səsini, onlara əleyhdar olanların sədalarını eşidirik.

Əliheydər Qarayevin də səsi gəlir ordan, Məhəmməd Əmin Rəsulzadənin də.

O səsləri indi - XXI əsrdə eşidirsən və anlayırsan ki, hansı girdablardan, hansı yarğanlardan adlamışıq, ayrıntıları ilə dərk edirsən ki, millətin tarixində millətin, yurdun taleyinə münasibətdə necə tam əks qütblərdə qərar tutmuş insanlar yaşayıb, istiqlal yolumuzda hansı toqquşmalar, çarpışmalar, hansı təzadlı baxışlar olub.

Şahid kəsilirik ki, Azərbaycanın bugünkü istiqbalının, təzədən qayıtmış bu müstəqilliyinin təməlində hansı barışmaz mübarizələr dayanır, bu səadətə gələn yolun başlanğıcında hansı dramatik aylar, günlər, saatlar, dəqiqələr yaşanıb.

Və bu kitablar silsiləsinin ortaya qoyduğu mühüm bir öyüd, vacib bir dərs var.

Bu nəsihət, bu ibrət də ondan ibarətdir ki, o pak insanlara, o qurucu babalara əbədi borcluyuq, onlara hər zaman minnətdar olmalıyıq.

Onlar olmasaydı, bu dövlət olmazdı, onlar mürəkkəbdən-mürəkkəb tarix dönəmində Azərbaycan istiqlalını elan edib 23 ay yaşayacaq müstəqil dövlətimizi qurmasaydılar, sonra 70 il ömür sürəcək Sovet İttifaqının içərisində də Azərbaycan Respublikası olmayacaqdı və 1991-ci ilin 18 oktyabrında biz dövlət müstəqilliyimizi yenidən elan edə bilməyəcəkdik.

Sovet İttifaqı dağılanda onun içərisindən bizim müstəqil dövlət kimi çıxmaq imkanımız oldu. Ona görə ki, daha əvvəl cümhuriyyətimiz olmuşdu, cümhuriyyətimizdən sonra Sovet İttifaqı içərisində Azərbaycan Respublikası olmuşdu. Sovetin Konstitusiyası isə sözdə, yalandan da olsa, hər halda Əsas Qanununda məhz respublikalara İttifaqdan çıxmaq ixtiyarını rəsmən verirdi.

Bu gün müstəqil dövlətimiz varsa, buna görə biz o qurucu insanlara hər açılan səhərimizlə, müstəqil yaşadığımız hər yeni günümüzlə, başlanan hər yeni azad, asılılıqdan uzaq sabahımızla borcluyuq.

Bu kitabların bünövrəsində, nüvəsində dayanan ən birinci amil eşqdir. Qurucu babalarımızın öz yoluna, əqidəsinə, xəttinə sonsuz inamı, imanı və sevgisi, eləcə də Şirməmməd Hüseynovun Azərbaycan tarixinə, Azərbaycan millətinə, istiqlalımıza olan məhəbbəti, o böyük şəxsiyyətlərimizin ruhuna olan sədaqəti, ehtiramı, etibarı!

Məhəbbət yoxsa, dəryacə ağılın olsa da, bəhrəndə işıq çatmaz, rənglər solğun alınar, təqdim etdiyin məhsulla ürəklərə qığılcım ötürə bilməzsən.

Bu üçcildlik tarixi nəşr ilk növbədə nadir mətnşünaslıq abidəsidir. Nəyə görə mətnşünaslıq abidəsi? Mətnşünaslıq elmin alın təri, fəhlə zəhməti tələb edən ciddi sahəsidir. Təəssüflər olsun ki, artıq bu istiqamətin yaşamalı olan bir çox ənənələrini itirmişik, ya itirməkdəyik. Azərbaycanda 1950-60-70-ci illərdə Əbdülkərim Əlizadə, Məmmədağa Sultanov, Tahir Məhərrəmov, Əbülfəz Rəhimov, Nəsrəddin Qarayev, Əziz Mirəhmədov, Turan Həsənzadə və bir sıra başqaları çox mükəmməl mətnşünaslıq məktəbi yaratmışdılar. Təəssüf ki, o insanlar getdilər, həmin üstün mətnşünaslıq məktəbi, o məktəbin iş üsulları, vərdişləri də səngiməyə başladı.

1990-cı illərin ortalarında mən Məclis-i Məbusanımızın - ilk parlamentimizin birinci rəhbəri Həsən bəy Ağayevin ömür yolunu araşdırırdım. Əslində, milli parlamentimizin ilk sədri Əlimərdan bəy Topçubaşov idi. Lakin Əlimərdan bəy Topçubaşov əvvəlcə İstanbulda ezamiyyətdə idi, sonra isə Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getdi və iki dəfə parlament sədri seçilsə də, bir gün belə həmin kürsüdə əyləşmədi, məclisi Həsən bəy idarə etdi. Əlimərdan bəyin parlamentin sədri olaraq xaricdəki fəaliyyətlərinin başlıca hədəfi ondan ibarət idi ki, Azərbaycan dövlətinin başçısı kimi rəsmi statusa və səlahiyyətlərə malik olsun, Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə rəsmən tanınmasını təmin etmək üçün orada danışıqlar aparsın.

Həsən bəy Ağayevin faciəli ömür yolunu araşdırarkən məsləkinə candan bağlı bu millət fədaisi haqqında "Yaxşıların yaxşısı" adlı kitabımı yazarkən əski parlament materiallarını da qaldırmalı olurdum və o zaman həmin protokollar nəşr edilməmişdi - hələ 1990-cı illərin başlanğıcı idi. Parlament iclaslarının əlyazmalarını oxuduqca qürur hissi keçirirdim.

Hər vərəqin arxasında tarix durur. Yəni hətta mətninə nüfuz etməzdən əvvəl bu kağızların, xətlərin özü belə ayrıca tarixdir axı! Təsəvvür edin, stenoqramları kimlər tərtib edir, kimlər qələmə alırmış - onlardan biri hələ xeyli gənc olan, az sonra Azərbaycanın ən parlaq ədibi kimi şöhrətlənəcək Cəfər Cabbarlı idi. Dı gəl, protokollarla tanış oduqca, stenoqramların əlyazmalarını oxuduqca görürdüm ki, hətta Cəfər Cabbarlı kimi istedadlı, bilikli, dərin düşüncəli, yeri düşdükcə danışanların buraxdığı müəyyən üslubi səhvləri də əlüstü islah edən stenoqrafistin - təzyazarın da yazılarında yanlışlıqlar az deyil. Təbii, bu, ilk növbədə vaxt qıtlığı, tələskənlikdən yaranmış qüsurlar idi.

Müstəqilliyimizin bərpasından 7 il keçərkən həmin sənədlər Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyası və Baş Arxiv İdarəsi tərəfindən 5 kitabda nəşr edildi ki, onların 2 cildi parlament hesabatlarıdır. 1998-ci il nəşrinə materialları əlyazmalardan Bakı Dövlət Universitetinin müəllimi, çox dəyərli insan və cümhuriyyət tariximizə, bir vaxtlar dərs aldığı Cavida Müşfiqə coşqun məhəbbətlər bəsləyən Səfər İbrahimov hazırlamışdı. Onun əsas işi mətnləri ərəb əlifbasından kirilə köçürmək olmuşdu. Lakin o, sadəcə ərəb əlifbasını bilirdi, klassik ədəbiyyata və üsluba az-çox bələd idi, amma tarixçi, mətnşünas deyildi. Doğrudur, o zaman əslən Cənubdan olan və orta əsrlər tarixi üzrə yaxşı mütəxəssis sayılan professor Seyidağa Onullahi də redaktor kimi bu işə cəlb edilmişdi. Amma oxuduqca və orijinallarla tutuşdurduqca görürsən ki, həmin stenoqramlarda nə qədər kobud qüsurlar var. Ehtimal yaranır ki, hətta həmin materialların çoxunu heç Seyidağa Onullahi görməyib. Çünki nəşrdə elə səhvlərə təsadüf edilir ki, bunlar heç vəchlə Seyidağa müəllimin nəzərindən qaça bilməzdi.

(Ardı 23-cü səh.)

19
4 noyabr 2017-ci il, şənbə

10 16 dekabr 2017-ci il

Sovet hökuməti qəribə hökumət idi.

Hər yerdə pulsuz məktəblər, institut və universitetlər açaraq xalqı kütləvi surətdə savadlandırırdı. Amma ziyalını "sevmirdi". 37-ci ildə bütün müttəfiq respublikaların ziyalıları şərlənərək həbs və sürgün olundu, güllələndi...

Mətbuatı "milyonların tribunası" adlandırır, özünü "ən demokratik quruluş" sayırdı. Amma qəzet, jurnal, radio və televiziyaya "qlavlit" və "partiya nəzarəti" formasında ikiqat senzura tətbiq edirdi.

SSRİ-nin "qardaş xalqların könüllü ittifaqı" olduğundan hər zaman, ağızdolusu danışılırdı. Amma bu 15 qardaşdan 14-nün bir vaxtlar müstəqil dövlət olduğunun xatırlanmasına yol verilmirdi, bütün millətlərin xoşbəxtliyinin məhz bu ittifaqda - "qırmızı imperiya"da olduğu daim "sübuta yetirilirdi".

Azərbaycanın 23 ay müstəqil dövlət kimi yaşadığı da hamıdan gizlədilir, bu barədə ictimai şəkildə danışılmasına qətiyyən yol verilmirdi. "Geridə qalmış, ucqar, kütləvi savadsızlığın" hökm sürdüyü bu ölkənin yalnız sovet hakimiyyətinin qələbəsindən sonra "xoşbəxtliy"ə, "ağ günlər"ə çıxdığı hamının beyninə yeridilirdi.

* * *

Başdan-başa "savadsızların yaşadığı ucqar və geridə qalmış bir ölkə" müstəqil dövlətini quraraq sərbəst şəkildə yaşaya bilərdimi? - Sanki bu sualdan o boyda superdövlət qorxurdu. Odur ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, onu quranlar, idarə edənlər, yaşadanlar barədəki bütün həqiqətlər arxivlərin qaranlıq küncündə, rəflərdə "məxfi" qrifi ilə gizlədilirdi.

Həmin dövrün salnaməsi və Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzeti də yasaq edilənlər cərgəsində idi. Hətta BDU-nun Jurnalistika fakültəsində "Rus jurnalistikası tarixi", "Kommunist partiyaları və fəhlə hərəkatı mətbuatı tarixi" adlı bir neçə semestri əhatə edən xüsusi fənlər keçirilsə belə, "Azərbaycan mətbuatı tarixi" fənnində bu qəzet barədə bir 45 dəqiqə də olsa söhbət açılmırdı!

Sanki nə müstəqil dövlətimiz olub, nə də onun rəsmi mətbu orqanı...

müəllim münasibətləri yaxınlığı, səmimiyyəti ilə diqqət çəkib. Jurnalistika fakültəsi bütün dövrlərdə kasıb, eyni zamanda təmiz fakültə sayılıb.

Tələbələr Şirməmməd müəllimdən həm çəkiniblər ("qorxublar" ifadəsini qəsdən işlətmirəm), həm də hörmət ediblər.

Çəkiniblər - çünki tələbkardır, güzəştə gedən deyil və danlamaq imkanını heç zaman əldən buraxmır!

Hörmət ediblər - savadına və dünyagörüşünə, ədalət və prinsipiallığına, mövqeyinə və sözü üzə şax demək xasiyyətinə görə!

"AZƏRBAYCAN" - 100

Şirməmməd müəllim təkcə fənni üzrə bilik verməklə kifayətlənmir. Vətəndaş və vətənpərvər yetişdirməyə, dünyagörüşü verməyə, gənclərə təmizlik və düzlük aşılamağa çalışır.

Çünki bütün bunların hamısı özündə var. Sovet hökuməti böyük əksəriyyətini dəyişdi, hətta çoxunu ikiüzlü, rüşvətxor və karyerist etdi! Amma Şirməmməd müəllimə bata, onu dəyişə bilmədi!

Nə pul axtardı, nə vəzifə, nə də şan-şöhrət! Amma müəllim və alim adını yüksəltməyi, özünə və başqalarına qarşı güzəştsiz, mənən təmiz olmağı bacardı.

* * *

SSRİ-nin güclü nəzarət və cəza sistemi var idi! N.Xruşşovun ittifaqa rəhbərliyindən sonra bir qədər yumşalma müşahidə olunsa da, bütövlükdə ictimai şəkildə, mətbuatda və televiziyada kommunizm ideologiyasına uyğun gəlməyən sözlər danışmaq, fikirlər səsləndirmək yenə təhlükəli sayılırdı və ciddi cəzalandırılırdı. Mətbuat və ədəbiyyat yalnız "sətiraltı ifadələr"lə bəzi fikirləri insanlara çatdırmağa çalışırdı. Lakin bunu da hər jurnalist, hər şair və yazıçı bacarmırdı. Üstəlik belə bir niyyət "odla oynamağı" xatırladırdı. Amma quruluş çat verirdi: iqtisadiyyat dağılır, xalqın vəziyyəti ağırlaşır, dövlətdə korrupsiya, rüşvətxorluq həddən artır, müttəfiq respublikalar arasında ayrı-seçkilik güclənirdi. SSRİ ölkə daxilində vətəndaşlarına "sülh göyərçini" qiyafəsində təqdim edilsə də, əslində "inqilab ixracı" ilə məşğul olur, Vyetnam və Əfqanıstan müharibəsində tərəf kimi iştirak edir, dövlətin sərvəti bu kimi lüzumsuz işlərə sərf olunurdu. Əsl həqiqətlər isə xalqdan gizlədilir, yaxud başqa cür təqdim olunurdu. AzTV-nin yeganə kanal olduğu həmin illərdə beynəlxalq məsələlərdən bəhs edən xüsusi veriliş vardı və orada tanınmış insanlar "siyasi icmalçı" kimi çıxış edərək SSRİ-nin beynəlxalq sahədə gördüyü işlərdən danışardılar. Məqsəd dünyada baş verənləri SSRİ-nin mövqeyindən şərh etmək, kapitalizmi pisləmək, "kommunizmin ümumdünya qələbəsi"nə inam yaratmaq idi. Siyasi icmalçılar xüsusi bülletenlər oxuyur, əsl həqiqətlərdən xəbərdar olurdular. Ancaq onlar sovet quruluşuna sərf edənləri, yaxud bütün hadisələri kommunizmin mədhinə yönəltməklə danışmalı idilər. Bu proqramın tamaşaçıları da çox idi. Şirməmməd müəllimin apancısı olduğu verilişlər daha maraqlı olardı. Çünki o, rəngarəng faktlar təqdim etməklə həm tamaşaçıları ələ almağı bacarırdı, həm də müəyyən həqiqətləri sızdırırdı.

Düz sözü söyləmək çətin olan zamanlarda da Şirməmməd müəllim doğru danışmağı bacarırdı!

* * *

Şəki yumoru, Şəki hazırcavablığı hamıya bəllidir (Hətta qabrovolulara da). Şəkinin baməzə adamları ən ciddi məqamlarda belə yumorla danışmağı, duzlu-məzəli zarafatlar etməyi bacarırlar. Şirməmməd müəllim də elinə-obasına bağlı insandır...

..."Proletarların dahi rəhbəri V.İ.Lenin"in anadan olduğu gün SSRİ miqyasında bir ənənə kimi "qırmızı iməcilik"lə qeyd olunurdu. Tədbir ədəti üzrə qeyri-iş gününə salındığından insanlar üzdə danışmasalar da, ürəkdə narazı qalırdılar. Həm də hər iməcilikdən sonra işləyənlərin bir günlük əməkhaqqı tutularaq "Ümumittifaq fondu"na köçürülürdü. Bu da heç kimin xoşuna gəlmirdi.

Hamımız Şirməmməd müəllimin əslində nə dediyini dəqiq anlamışdıq.

* * *

Bu, Şirməmməd müəllimin mövcud quruluşa yumorla ilk "qiyməti" deyildi. Bəzən ehtiyatla da olsa daha kəskin formada danışar, baş verənlərə ayıq nəzərlərlə baxmağımızı istərdi.

Adətən Jurnalistika fakültəsinin məzunlarına iş yerinə göndərişi Mərkəzi Komitənin Təbliğat və təşviqat şöbəsinin mətbuat sektoru verirdi. Beşinci kurs tələbələri hələ noyabr ayında sənədlərini hazırlayaraq dekanlığa təqdim edir, oradan isə MK-ya göndərirdilər.

Növbəti ilin mart ayında kimin harada işləyəcəyi məlum olurdu və dövlət imtahanını verib diplom müdafiəsindən sonra hərə öz iş yerinə yollanırdı.

Şirməmməd müəllim məni yanına çağırdı. Əlində bir vərəq vardı. Onu nəzərdən keçirib üzümə baxdı:

- Sizin təyinatdır. Baxıram, mərkəzi orqanlardakı boş yerlərə kiminsə adı yazılıb (O zaman belə təyinatlara - yerlərdən göndərilən "adlı təyinat"lara icazə verilirdi - **B.S.**). Sənlik bir şey yoxdur! Gərək özün başına çarə qılasan!

Vəziyyətin belə olacağını irəlicədən bilirdim. Amma yenə xoşagəlməz xəbər oldu. Tutuldum. Qəflətən Şirməmməd müəllim mənə məsələyə dəxli olmayan sual verdi:

- Heç Sabunçu vağzalında olmusan?

Təəccüblə üzünə baxdım. Bir şey anlamadım. Ehtiyatla cavab verdim:

- Bəli.

- Ordakı hambalları görmüsən?

Çaşıb bir qədər də ehtiyatlandım: "Xeyir ola, bu nə sualdı?"

- Bəli, görmüşəm.

Əlini ağzına bir şey atırmış kimi hərəkətlər edərək dedi:

"Pis kişi" olmaqdan qorxmayan kişi

- O hambalların heç bir perspektivləri yoxdur. Odur ki, əllərinə nə düşürsə, ağızlarına atırlar. Bu gün yuxarıda oturanların bir qismi həmin hambalların günündədir. Gərək inciməyəsən...

Hələ 1973-cü il idi. Heç bir dekan öz tələbəsi ilə belə açıq danışmazdı...

* * *

Artıq arxivlərə "gün işığı" düşüb. Müstəqil Azərbaycan AXC-ni öz sələfi sayaraq yüz yaşını qeyd etməyə hazırlaşır. Dövlətimiz və xalqımız tarixi keçmişinə qürurla, qədirbilənliklə baxır, hörmətlə yanaşır. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" fərmanında tarix elmi qarşısında qoyduğu yeni vəzifələrə uyğun olaraq tariximiz olduğu kimi, "ağ ləkələr"dən təmizlənmiş şəkildə yenidən yazılır. Özümüzdə itbata salındığından dünyanın hər yerindən yeni arxiv sənədləri gətirilir, bir vaxtlar beynimizə yeridilən "həqiqətlər"in puçluğu sübuta yetirilir!

"Günün tarixi"ni yazan qəzetlər illərdən sonra "illərin salnaməsi"nə çevrilir...

Bu mənada hər dövrün "ictimai arxivi" olan qəzetlər həmin dövrün hadisələrini, görülən işləri və şəxsiyyətlərini öyrənmək baxımından qiymətli mənbədir. Təəssüf ki, bu gün bu mənbələr də bütün xalq üçün əlçatmazdır. Sovet dövründə iki dəfə dəyişdirilən əlifbamız əslində həm də tariximizdən ayrı salınmağımıza və saxlanılmamağımıza xidmət edib. Bu gün XIX və XX əsrin əvvəllərində (ərəb əlifbası dəyişdirilənə qədər) nəşr olunan qəzetlər kütlə üçün "qapalıdır"! Ərəb hürufatını bilməyənlər həmin qəzetləri oxuya bilmirlər. Yalnız ayrı-ayrı alimlər, mətbuat tədqiqatçıları, "köhnə əlifba"nı müstəqil şəkildə öyrənənlər bu imkandan bəhrələnirlər.

* * *

Belə bir məqamda "Azərbaycan" qəzetini hamı üçün əlçatan edən tədqiqatçı-alimlərdən biri də, əslində elə birincisi də professor Şirməmməd Hüseynovdur.

Şirməmməd müəllim (onu belə çağırmağa adət etmişik) nadir təbiətli və xarakterli insanlardandır.

Onu sevməyənlərin sayı bəlkə də sevənlərin...

Ötən əsrin sonlarında Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazandı. Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan ulu öndər Heydər Əliyev müstəqilliyimizi əbədi və dönməz etdi, AXC-nin aqibətinin təkrarlanmasına yol vermədi. Prezident İlham Əliyev 16 may 2017-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" xüsusi sərəncam imzalayıb. Bu əlamətdar tarixə xalqımız böyük həvəslə hazırlaşır. Alim və tarixçilərimiz Azərbaycan Xalq Cümhuriyyəti dövrünün araşdırılması, tarixi hadisələrin olduğu kimi qələmə alınaraq xalqa çatdırılması sahəsində səmərəli iş aparırlar. Həmin dövrün tədqiqatçılarından biri kimi professor Şirməmməd Hüseynov müntəzəm surətdə mətbuatda maraqlı yazılarla çıxış edir, bir sıra mühüm sənədləri və qəzet məqalələrini arxivlərdən çıxararaq geniş ictimaiyyətə təqdim edir. Onun hazırladığı "Azərbaycan" qəzetində parlament hesabatları və şərhləri" adlı üçcildlik kitab böyük maraqla qarşılanmış, AXC-nin rəsmi qəzeti "Azərbaycan"ın Məclisi-Məbusanla bağlı fəaliyyətinin bir qisminə işıq salmışdır. Tarixçi və mətbuat tədqiqatçısı kimi dövrün hadisələrinə, AXC-nin liderlərinin fəaliyyətinə yaxından bələd olan professor Şirməmməd Hüseynov onların müstəqil dövlət quruculuğu sahəsində gördükləri işləri obyektiv və səriştəli şəkildə işıqlandırmağa çalışır. O, həmin dövr mətbuatının dil və üslubuna, müasir oxuculara tanış olmayan sözlərin mənasına, ictimai-siyasi həyatdakı fikir çarpışmalarının mahiyyət və mənasına dərindən bələd olduğundan izah və şərhləri də daha dolğun və əhatəlidir.

Şirməmməd müəllim bu işə ürəyinin hökmü ilə girişib. Ona ad-san, mükafat lazım deyil! Sağ olsun Prezidentimiz, Şirməmməd müəllimə "Şərəf" ordeni də verib, Prezident təqaüdü də! Amma o, Prezident təqaüdünü neyləyir? Dövlətdən alır, kitaba çevirir, yenidən xalqa qaytarır!

Hər şeydən öncə əqidəsi var! Şirməmməd

---

(30)

görüş

Yol 3 N 13(22) 10.04.2015

Görkəmli tədqiqatçı alim, BDU-nun jurnalistika fakültəsinin professoru Şirməmməd Hüseynov Tərcümə Mərkəzində olub. Aprelin 7-də Mərkəzin direktoru Afaq Məsud və mərkəzin əməkdaşları Yaşar Əliyev, Mahir Qarayev, İlqar Əlfioğlu, Fərid Hüseyn və Feyziyyə Sultanmuradova professor, görkəmli tətqiqatçı Şirməmməd Hüseynovla görüşüb.

Şirməmməd Hüseynov Tərcümə Mərkəzində

A.Məsud qonağı salamlayaraq, Mərkəzin yarandığı gündən Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində gördüyü işlərdən danışıb: «Mərkəz, Qarabağ həqiqətləri, erməni vəhşilikləri, ermənilər tərəfindən törədilən tarixi qətliamlarla bağlı sənədli məlumatları, oçerk və məqalələri həftəlik mətbu orqanı olan "Aydın yol" qəzeti, həmçinin, 8 dildə yayımlanan rəsmi saytı vasitəsilə ictimailəşdirilməsi istiqamətində mühüm işlər görür. Bununla yanaşı, Mərkəzdə Azərbaycanın tarixi ərazilərı, etnogenezi, Qarabağın tarixi, erməni qəsbkarlığı ilə bağlı bu vaxta qədər işıq üzü görməyən mükəmməl məlumatlı mətn və materialların, tarixi sənədlərin toplanması, kitab, toplu şəklində dünya dillərinə tərcümə olunması prosesinə hazırlıq işləri də gedir. Yəni artıq əlimizdə olan materiallar arxivləşdirilir, tərcümə mərhələsinə çatdırılır».

A.Məsud, həmçinin bu sahədə ölkə ictimaiyyəti, ayrı-ayrı alimlər və tarixçilər tərəfindən kifayət qədər işlər görülsə də, problemlə bağlı dünya ictimaiyyətindən gözlənilən nəticənin hələ də əldə olunmadığı barədə danışaraq, bu istiqamətdə daha təsirli və işlək vasitələrin aranıb-axtarılmasının vacibliyini vurğulayıb.

Şirməmməd Hüseynov öz növbəsinə ən dəqiq tarixi həqiqətlərin hansı mənbələrdə aranıb-axtarılması, bu mənbələrlə necə işləmək barədə geniş məlumat verərək, min bir çətinliklə əldə olunan mənbələrin də, həm tərcümə edilərkən, həm ana dilində nəşr olunarkən kitablarda tərtib olunduğu barədə danışıb: "Əvvələ bundan başlayaq ki, Azərbaycanda olan məlum mənbələrin çoxu səhv tədqiq olunur. Bunun da əsas səbəbi odur ki, tədqiqatçılar tərəfindən yol verilən yanlışlıqlar redaktorlar tərəfindən düzəldilmir və buna görə də təhriflər qaçınılmaz olur. Rəsulzadə deyirdi ki, türklər tarix yaradırlar, ancaq yazmırlar. Bizim tariximizi isə həmişə düşmənlərimiz yazıb. Türklərin qəhrəmanlığını vəhşilik kimi, öz vəhşiliklərini qəhrəmanlıq kimi göstəriblər. Tarixi faktların araşdırılması zamanı mənbələrlə iş zamanı olduqca həssas və diqqətli davranmaq lazımdır.

Sovet illərində Üzeyir bəyin 1905-ci ildə "Həyat"dan başlayıb, 1915-ci il oktyabrına qədər yazdığı əsərlər çap olunub. 1915-ci ildən sonrakı əsərlərini çap etmirdilər, çünki artıq Müsavat dövrü başlayırdı. 1920-ci ilin aprelində Rus Ordusu gələndə Hacıbəyov bir neçə məqalə yazıb, amma öz imzasıyla dərc etdirməyib. Yazının sərlövhəsində "Sorah", sonunda isə "ç" yazıb. Cümhuriyyət haqda müstəqillik illərində çap olunan kitablarda yazırlar ki, Hacıbəyovun gizli imzalarından biri də "ç" olub. "Ç" imza ola bilməz, sadəcə Üzeyir bəy başlıqdakı sözün şəkilçisini aşağıda yazıb. Sorançı yəni, soruşan adam mənasında işlədib. Buna görə də Cümhuriyyət tarixi ilə bağlı yazdığım kitabda bütün mənbələr göstərilib, kitab orijinal sənədlərlə birlikdə çap olunacaq".

Tərcümə Mərkəzinin isə bütün bu işləri mükəmməl şəkildə, təhrifsiz, səhvsiz görməyə gücü və intellektual potensialı var deyən professor məsələnin qoyuluşundan və işin gedişatından razı olduğunu deyib: "Məsələni düzgün qoyursunuz. Bu işlərə nədən başlamaq çox önəmlidir. İlk növbədə mütləq əsas mənbələri tapmaq və onlarla işləmək lazımdır. Azərbaycanla bağlı həqiqətlər, real tarixi faktlarla zəngin mənbələr var. Biz o qiymətli mənbələri – o dəyərli inciləri tapa bilərik və onları, ermənilərə havadarlıq edən dövlətlərin dilinə tərcümə edib yaya bilərik. Bundan başqa, rus və ya başqa dillərdə olan mənbələr də Azərbaycan dilinə çevrilməlidir. Lakin Azərbaycan həqiqətlərini dünyaya çatdırmazdan əvvəl, dediyiniz həmin güclü təbliğat işi Azərbaycanın özündə aparılmalıdır. Rəsulzadə yazırdı ki, "Biz istiqlaliyyətimizi, dövlətçiliyimizi əvvəl daxildə bərqərar etməliyik, sonra xaricdə". Vətəndaş həmrəyliyi, vətən və vətəndaşlıq hissi xalqa aşılanmalıdır.

Rəsulzadənin sözləriylə desək, İslamı yaradan ərəblər, ən yaxşı təbliğatçısı farslar olub. Çünki fars ədəbiyyatı, fəlsəfəsi, tarixi olduqca zəngin və qədimdir. İslamı ən yaxşı qoruyan isə türklərdir. Təsadüfi deyil ki, doqquz Səlib yürüşünün qarşısını məhz türklər alıb. Erməni məsələsinin kökləri olduqca dərinlərə gedib, onu unutmaq olmaz. Beynəlxalq güclər həmişə Türkiyəni zəifləmək, aradan beşaqlamaq üçün erməni faktorundan istifadə ediblər. İngilislər daşnakların qulağına oxuyublar ki, siz Osmanlını daxildən dağıdın, biz də sizə "Böyük Ermənistan" yaratmaqda kömək edək. Birinci Dünya müharibəsi zamanı da ermənilər türklərə qarşı vuruşur, ölkəni daxildən dağıtmağa çalışırdılar.

Bilirsiniz, biz planlı işləməyi sevmirik. Gündəlikdə yaşayırıq və gələcəyimizi təminat altına almaq barədə düşünmürük. Amma biz özümüzdə bu məsuliyyət hissini yaratmalı, planlı işləməyi bacarmalıyıq. Çünki hər addımda qarşımızda həmişə bu sual dayanır - "nə etmeli?" və "nədən başlamalı?". Biz dünya ölkələrinin, xüsusilə də Qarabağ münaqişəsinin həllində iştirak edən dünya dövlətlərinin bu məsələyə hansı aspektdən yanaşdığını öyrənməliyik. Hamıya yaxşı məlumdur ki, erməni məsələsi ermənilərin məsələsi deyil. Ermənilər böyük dövlətlərin əlində sadəcə bir vasitədir. İngilis-erməni, ingilis-fransız, ingilis-Amerika-fransız münasibətlərinin, dostluğunun tarixini araşdırmadan bu düyünü açmaq qeyri-mümkündür. Böyük Britaniya ensiklopediyasındakı materiallar əsasında erməni məsələsi öyrənilməli, Fransız mənbələrində, rus müəlliflərin kitablarındakı faktlar ortaya qoyulmalıdır.", -deyə professor vurğulayıb.

Ermənilərin bu məsələdə daha həssas olduğunu deyən Şirməmməd Hüseynov bir neçə mühüm tarixi faktları sadalayıb: "1857-ci ildə ermənilər bir alman səyyahını Qafqaza çağırıblar ki, onlar haqda kitab yazsın. Qonağı yaxşıca gəzdirib, yedirdib-içirdib yola salıblar. Səyyah da ölkəsinə qayıdandan sonra Ermənistan haqda bir kitab yazıb. İndi o kitabı müxtəlif dillərə tərcümə edir, tarixi fakt kimi ortaya qoyurlar. Ermənilər əsrlərdir ki, bu müharibəyə hazırlaşırlar. Ömər Faiq Nemanzadə yazır ki, beş əsrdir 25 yaşına çatan hər bir erməni erməni kilsəsinə millət vergisi verir. Buna görə də 1990-cı ildə ermənilər Ermənistanda və Azərbaycanda 140 min adamı silahlandırmışdılar. 1 milyon adamı qovmaq üçün bu qədər mütəşəkkil qoşun yaratmışdılar. Bu silahlar erməni kilsəsinə yığılan pullar hesabına alınmışdı.

1872-ci il ermənilər səyriyyə cəmiyyətlərinin ayırdığı vəsait hesabına "Meşaq" qəzetini nəşr edirdi. Zərdabi araşdırıb ki, qəzetin nəşri üçün ən çox pul Şuşadan və Qarabağdan gəlib. Həsən bəy da bir səyriyyə cəmiyyəti yaradıb, yollanıb Qarabağa. Böyük məclis qurulub, bütün bəylər yığışıblar. Elə ki, Zərdabi dəftəri çıxardıb, "O olmazın, bu, olsun"dakı hamam səhnəsi kimi hərə qaçıb bir tərəfə. 1906-cı ildə "Əkinçi"nin 30 illiyindən sonra yazdığı məqalədə Həsən bəy daha bir maraqlı hadisəni xatırlayıb. Deyir ki, 1870-ci illərdə Mkrtıç adlı bir erməni İsa bulağından su gətirib satırmış. Günlərin bir günü ailəsi uşağı olmayan bu qoca gəlir "Meşaq" qəzetinin redaktoru Aruştuninin yanına və ona 997 manat rus pulu verir. Deyir ki, mən bu gün-sabah öləcəm. Düzdür övladım yoxdur, amma erməni uşaqlarının hamısı mənim övladımdır. Zərdabi yazırdı ki, bir erməni suçusunda olan qeyrət bütün Qarabağ bəylərində yoxdur".

Görüşün sonunda Şirməmməd Hüseynov uzun illər araşdırdığı, əski əlifbadan çevirib tərtib etdiyi M.Ə. Rəsulzadənin əsərlərindən ibarət beşcildliyi Mərkəzin kitabxanasına hədiyyə edib.

L.ƏLİYEVA

ÖMRÜN GİZLİ SƏHİFƏLƏRİ

"AZƏRBAYCAN MÜ
14 mart

Şirməmməd Hüseynovun Bəxtiya Vahabzadə ilə bağlı xatirələri

Rüfanə GÜNƏŞ,
"Azərbaycan müəllimi"
r.gunesh@mail.ru

Bu dəfə rubrikamızda Azərbaycan xalq şairi Bəxtiyar Vahabzadə ilə bağlı xatirələrini sizinlə bölüşəcəyik.

– Bəxtiyar müəllimlə tanışlığınız nə vaxta təsadüf edir?

– Mən Bəxtiyarla 1945-ci ildə tanış olmuşam. Bakıya oxumağa gələndə. Hər ikimiz Şəkidən olsaq da orada tanışlığımız olmayıb. Universitetə Bəxtiyar məndən 3 il qabaq daxil olmuşdu, jurnalistika ixtisası da filologiya fakültəsinin nəzdində idi. O zaman fakültədə "Odabəyat" dərnəyi var idi. Bir dəfə dərnək üzvləri, gedək Yançılar İmfaqma. Hara yazdığı bir şeiri oxudu, elə Bəxtiyar da. Sonrad Vurğun onu saxladı, dedi, o şeiri bir də oxu. Oxudu. Dedi, ay arıq bala (çox arıq idi) yaxşı yazmısan. Bəxtiyarı o zamandan tanıdım.

– Hər ikiniz şəkili olmuz, sonra Bakıda tanış olmusunuz?

– Bəli. Onun doğma anası ilə mənim anam bir yerdə Şəkidəki 3 nömrəli ipək fabrikində işləyiblər. Amma tanışlığımız olmayıb. Bəxtiyar Vahabzadənin tərcümeyi-halını hələ daqiq yazan çox azdır. Bir zaman Bəxtiyara böhtan kampaniyası başladılmışdı. 1952-ci ildə bir şeir yazmışdı, sözün mənasını belə idi ki, onsuz çəkir kitabxanaya deyər ki, sizdə Şirvanzadənin romanı var? Aleksandr Şirvanzadənin "Sabir" adlı məşhur romanı var. Vahabzadənin cinayətlər içində yazıçı Aleksandr Şirvanzadənin romanına heyab edir. Nizamı sözləri dərsəq içində yazmadığı üçün ona təhqir yaxdılar. "Kirpi" jurnalı onun kəskin əleyhinə verdi... Hətta 5-6 il bundan əvvəl də bizim bəzi qələmlər onunla bağlı böhtan kampaniyasını üçüncü formada davam etdirdilər. O zaman mən mətbuatda çıxış edim və ona qarşı olan hücumlara təxirli cavablar verdim. Bəxtiyarı yaxından tanıyan adam kimi, onunla bağlı yazıları bəzi qərəzli məqamlara da aydınlıq gətirdim.

– Bəxtiyar müəllim özü yazır ki, onun bir çox əsərlərinə bir ideya verəmmişəm...

– 1971-ci ildə "Ulduz" qəzetində "Körpü çaydan uzaq düşüb" məqaləsinə əsaslanaraq "Körpü çaydan yenə uzaq düşüb" adlı bir yazı yazdım. Bəxtiyar mənə zəng elədi ki, o nadir yarmasın, yerli elə. Mən də ona izah etdim. Gecə saat 4-ün yarısında ev telefonuna zəng gəldi. Açdım telefonu, dedi ki, əl gəldi. Bu səhərə şeir yazmışdı. Səhər gördüm "Kommunist" qəzetində də dərc olunub. "Dostum Şirməmməd Hüseynova "Körpü çaydan uzaq düşüb". Bəzən mən ideya verirdim, amma sonra o yazırdı. Məsələn, gedib Şəkidə oturardıq. Görüldük ki, biri gedir: "Bəxtiyar müəllim, mənə çörəkpulu ver" Bu da pulları paylayırdı. Dedim, gördün, onların nəfəsini kəsməyəm. Sofiyə dedim ki, 20 dənə çörək al, qoy otaq, üstünü ört. Kim gəlirdi çörəkpulu üçün, bir çörək verib yola salırdıq. Onunla zarafat edirdim ki, dəqiqə pulundan ora qoy, şəxsi xasiyyətləri var. Deyirdi, onların nümayəndəsi sənsən?

– Bir az da 90-cı illərdə xalqın ümidi gedən Bəxtiyar Vahabzadədən danışaq. O zaman Milli Məclisdə ümumxalq hüququ Heydər Əliyevə böhtan atanlara Bəxtiyar Vahabzadənin məqalə və şeirləri bir cavab çuxu olmuşdu. Görüşlərdə bu barədə danışmaq istəyir. Heydər Əliyev Bəxtiyarın yubileyini təbrik etdi. Dedi ki, sənə "Sosial nəşarə" ordenini təqdim etməşəm, verəcəm. Təbrik edirəm.

– Onun türk dünyasında da böyük hörmətə var idi...

– Olbəttə. Tanınmış alim ki, Çingiz Aytmatov, Oljas Süleymenov Bəxtiyarı ərsin şairi, türk dünyasının böyük şairi adlandırırdı. Azı Bəxtiyar da tapşırıb dünyada qədər türk idi.

– Sizin onu bu qədər köməkliyiniz dəvil, dəfələrlə ona dərdən qurtarmusuz. Onun necə sizə köməkliyi olubmu?

– Mən ki, Bəxtiyarla dərsə-otaqıdım, onun ətrafı geniş idi. O zaman yaxşı xatırlayıram, Sadıq Martuzayev Şəki Rayon Partiya Komitəsinin birinci katibi idi. Bəxtiyarı ev tikmək üçün yer verəndə, mənə də verdi. Mənim otağımı genişləndirən Bəxtiyar idi. Biz Bəxtiyarla məktəb dostu idik, yeməkə yox.

– Necə dost idi?

– Dahi adamlar hər şeydə istedadlı olur. Məsələn, bizim heç bir zaman boş silahlarımız olmayıb. Məni görən kimi dünyada nə var, nə yoxla maraqlanırdı. Moskvada hansı qəzet çıxırdısa və bizim tərcümeyi, mədəniyyətimizi sahəyə edən yalançı publisvanların hamısına Bəxtiyarla birlikdə cavab yazırdıq. Böyük istedadlarda maqnit var, eyni oğulara bölüşdükləri adamları özlərinə cəlb edirlər. Mən Bəxtiyarın şəxsiyyətindən daha çox aqidəsinə aşiqiyəm. İndi də bəzi məsələlərdə mövqelərimiz düz gəlmir. Hərəmiz bir cəbhədəyik. Amma bizi birləşdirən bu torpağa, bu vətənə, onun istiqlalına olan məhəbbətdir.

Mən Bəxtiyarın şəxsiyyətindən daha çox aqidəsinin aşiqiyəm. İndi də bəzi məsələlərdə mövqelərimiz düz gəlmir. Hərəmiz bir cəbhədəyik. Amma bizi birləşdirən bu torpağa, bu vətənə, onun istiqlalına olan məhəbbətdir.

1975-ci ildə Şəkidə idik. Bəxtiyarın 50 illik yubileyi idi. Mərkəzi Komitədən Heydər Əliyevin köməkçisi zəng etdi ki, Bəxtiyar müəllim, Heydər Əliyev sizinlə danışmaq istəyir.

Çingiz Aytmatov, Oljas Süleymenov Bəxtiyarı ərsin şairi, türk dünyasının böyük şairi adlandırırdı.

Normal iş və istirahət rejiminə əməl etmirdi. Gecə saat 12-dən səhər saat 6-ya qədər işləyirdi. Gərək o yazanda, yanında heç kim olmayaydı.

Sonuncu gün Dilarə xanım mənə zəng etdi ki, Şirməmməd müəllim, Bəxtiyar getdi, gəl.

"Mənim rejimə qarşı yazdığım bir sıra əsərlərin, o cümlədən "Bağışlayın, səhv olub", "Mərziyə", "Layaqət", "Dan yeri" və s.-in yazılmasının səbəbkarı Şirməmməd müəllim olub. Daha doğrusu, mövzunu o seçib".

Bəxtiyar Vahabzadə, "İstiqlal" kitabı, 1999-cu il

B.Vahabzadə, Ş.Hüseynov (Bakı şəhəri, Dağüstü park, 1975)

Toy şənliyində (Bakı şəhəri, 30.12.1965)

ABŞ-ın Azərbaycandakı ilk səfiri ilə Şəkidə (Kən

Çünki ötə də yazırdı "Qeyrət dünən altına, alim Bəxtiyar yaz Bəxtiyar". Bəxtiyar müəllimlikdən başqa heç bir yerdə işləməyib. 1947-ci ildən müəllim idi. Öz işdən çıxanı qədər heç kim ona dəmərmişdi ki, çıx.

– Amma onun universitetdən uzaqlaşdırılmasının bəzədə məlumatlar var idi...

– Bəxtiyar bir gün də onun universitetdən uzaqlaşdırılmayıb. Mən fakültənin fakültəsinin partiya komitəsinin katibi olanda, 70-ci illərin əvvəllərində iki professor açıq imtahan Mərkəzi Komitəyə 9 nəsildən ibarət məktub göndərmişdi ki, onu universitetdən uzaqlaşdırmaq lazımdır. Mərkəzi Komitədən də məktubu tədbir görülməsi üçün bizə göndərdilər. Görüldük ki, biri gedir: "Bəxtiyar müəllim, mənə çörəkpulu ver" Bu da pulları paylayırdı. Dedim, gördün, onların nəfəsini kəsməyəm. Sofiyə dedim ki, 20 dənə çörək al, qoy otaq, üstünü ört. Kim gəlirdi çörəkpulu üçün, bir çörək verib yola salırdıq. Onunla zarafat edirdim ki, dəqiqə pulundan ora qoy, şəxsi xasiyyətləri var. Deyirdi, onların nümayəndəsi sənsən?

– Bir az da 90-cı illərdə xalqın ümidi gedən Bəxtiyar Vahabzadədən danışaq. O zaman Milli Məclisdə ümumxalq hüququ Heydər Əliyevə böhtan atanlara Bəxtiyar Vahabzadənin məqalə və şeirləri bir cavab çuxu olmuşdu. Görüşlərdə bu barədə danışmaq istəyir. Heydər Əliyev Bəxtiyarın yubileyini təbrik etdi. Dedi ki, sənə "Sosial nəşarə" ordenini təqdim etməşəm, verəcəm. Təbrik edirəm.

– Onun türk dünyasında da böyük hörmətə var idi...

– Olbəttə. Tanınmış alim ki, Çingiz Aytmatov, Oljas Süleymenov Bəxtiyarı ərsin şairi, türk dünyasının böyük şairi adlandırırdı. Azı Bəxtiyar da tapşırıb dünyada qədər türk idi.

– Sizin onu bu qədər köməkliyiniz dəvil, dəfələrlə ona dərdən qurtarmusuz. Onun necə sizə köməkliyi olubmu?

– Mən ki, Bəxtiyarla dərsə-otaqıdım, onun ətrafı geniş idi. O zaman yaxşı xatırlayıram, Sadıq Martuzayev Şəki Rayon Partiya Komitəsinin birinci katibi idi. Bəxtiyarı ev tikmək üçün yer verəndə, mənə də verdi. Mənim otağımı genişləndirən Bəxtiyar idi. Biz Bəxtiyarla məktəb dostu idik, yeməkə yox.

– Necə dost idi?

– Dahi adamlar hər şeydə istedadlı olur. Məsələn, bizim heç bir zaman boş silahlarımız olmayıb. Məni görən kimi dünyada nə var, nə yoxla maraqlanırdı. Moskvada hansı qəzet çıxırdısa və bizim tərcümeyi, mədəniyyətimizi sahəyə edən yalançı publisvanların hamısına Bəxtiyarla birlikdə cavab yazırdıq. Böyük istedadlarda maqnit var, eyni oğulara bölüşdükləri adamları özlərinə cəlb edirlər. Mən Bəxtiyarın şəxsiyyətindən daha çox aqidəsinə aşiqiyəm. İndi də bəzi məsələlərdə mövqelərimiz düz gəlmir. Hərəmiz bir cəbhədəyik. Amma bizi birləşdirən bu torpağa, bu vətənə, onun istiqlalına olan məhəbbətdir.

– İncidiyiniz zamanlar olub?

– Qədəyə sadiq adamdan incimək olmaz. Həm də Bəxtiyar heç kimin sözünü bacarırdı mənim başqa.

– Onunla kardaşa-qardaş olmusunuz?

– Ağdam və Şəkidə olmuşuq. Özü-kə yaxındır yox.

– Onun bir müsahibəsini oxumuşdum. Deyirdi ki, "Füzuli" jurnalı yenidən dərc olunanda ağlamışdı...

– Yox, qanın, ağlamayıb. Burda ağlamaq nə var ki? Amma Bəxtiyarın ağlamaq xasiyyəti var idi. Onu 4-5 dəfə ağlayan görmüşəm. Şairlər bizə, alimlər zəka adamıdır. Ağlamaq hisslə bağlıdır.

– Bəxtiyar müəllimin son günlərini necə xatırlayırsınız?

– Xəstəlik həyatla mübarizədir. Şairlərdə mübarizə uludağlıq olur. Məsələn, təqaüdə çıxmırdı. Deyirdi ki, şair gərək təqaüdə çıxa bi, şeir yaza. Təqaüdə çıxdı, ciyəni xarçəng oldu. Normal iş və istirahət rejiminə əməl etmirdi. Gecə saat 12-dən səhər saat 6-ya qədər işləyirdi. Gərək o yazanda, yanında heç kim olmayaydı. Sonuncu gün Dilarə xanım mənə zəng etdi ki, Şirməmməd müəllim, Bəxtiyar getdi, gəl.

www.bakupost.az
06.04.2013, №24 (76)
Bizim BakuPost pulsuz

Yaxşını görmək bacarığı



Şirməmməd Hüseynov: "Bu gün qəzetlərin əksəriyyəti kommersiya xarakterlidir, ona görə də maarifçiliyə, dürüstlüyə, dövlətçiliyə, həqiqətə xidmət edən qəzetə ehtiyac böyükdür"

YAQUT TAPDIQQIZI

Pedaqoq, professor, mətbuat tədqiqatçısı Şirməmməd Hüseynov bugünkü mətbuatı əməliyyatə bənzədir. Ömrünü Bakı Dövlət Universitetinin yetişən jurnalist nəsli arasında keçirən qocaman tədqiqatçı ölkədə mövcud jurnalist məktəbindən o qədər də razı deyil. "New Bakı Post"a müsahibəsində o belə deyib:

– "New Baku Post" qəzetinin işıq üzü görməsindən 1 il ötür. Son 1 ildə Azərbaycan mətbuatında hansı dəyişikliklər var?

– Azərbaycan mətbuatında müsbət və mənfi xətarmaq çətin əhvalatdır. Çünki əməliyyat nəcə-dirsə, mətbuat da eləbir. Mətbuatın xarakteri əməliyyatın xarakterinə bənzəyir.

Azərbaycanda 1 il ərzində iqtisadi baxımdan nüfuz qazanmaq, əhatədən böyük işlər görülüb. Birisiniz ki, Avropada, dünyanın bir çox ölkələrində iqtisadi böhran var. Amma bizdə iqtisadi, mədəni inkişaf tempi yüksəkdir. Bu hamımıza sevindirir. Mətbuatın bu işdə rolu az deyil. Əməliyyatda hansı siyasi qüvvələr varsa, onların da mətbuatı var. Bunların da respublikada fəaliyyət edən hadisələrə münasibəti müxtəlifdir. Bu, demokratiyanın tələbidir.

Bizim üçün əsas məsələ budur ki, müstəqil dövlətimiz var, bu dövlət yaşayır, inkişaf edir, beynəlxalq nüfuzu artır, hətta 193 dövlət içərisində BMT-nin Təhlükəsizlik Şurasına müəyyən müddətdə bəşçilıq edir. Bununla fəxr eləmək lazımdır.

Vaxtilə Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Azərbaycanın çox böyük keçmişi var". İndi biz deyə bilərik ki, bu böyük keçmişlə parlaq gələcək arasındakı keçid dövründə çətinliklərin olması təbiidir. Amma bilmək lazımdır ki, bu millətin həm də parlaq gələcəyi var. İndi o gələcəyi görmək və reallaşdırmaq məsələsi var.

Hesab edirəm ki, jurnalistlərin, mətbuatın, hər birimizin əsas məqsədi və qayəsi o parlaq gələcəyi yaxınlaşdırmaqdır.

– İnternet jurnalistikasının məkanı genişləndikcə qəzet jurnalistikası haqqında bədbin fikirlər çoxalır. Reallığı necə qiymətləndirirsiniz? Fikirlər təsdiqini tapır, yoxsa yox?

– Dünyanın ən yüksək inkişaf etmiş ölkəsi Yaponiyadır. Ginnesin Rekordlar kitabına düşən, dünyanın ən çox tirajlı qəzeti də Yaponiyanın "Iamori sinbun" qəzetidir. Tirajı 14 milyondur. 5 milyonu şəhər, 5 milyonu günorta, 4 milyonu axşam çıxır. İnternet və elektron mətbuat qəzeti sıxışdırır məsələsi düzgün yanaşma deyil.

Şirməmməd Hüseynov: "Ölkəmizdə inkişafın müsbət meyillərini görmək lazımdır, yaxşını görmək pisi görməkdən çətindir"

Avropanın ən inkişaf etmiş ölkələrində, əhalisi bizdən 2 dəfə az olan yerlərdə gündəlik qəzetlər 100 000 tirajla çıxır. Amma bizdə ən çox tirajlı qəzet "New Bakı Post" qəzetidir ki, 20 000 tirajla çıxır. Sizin qəzet respublika mətbuatı içərisində birinciliyi əldə saxlayıb. Bu təsadüfdür?

"New Bakı Post" qəzeti analoqu olmayan mətbuat orqanıdır. İllüstrasiyalı, rəngli qəzet satılmır və oxucuların pulsuz paylanılır. Azərbaycanda belə bir təsisçi və jurnalist kollektivi varsa, bu təqdirəlayiqdir.

Bu gün qəzetlərin əksəriyyəti kommersiya xarakterlidir, ona görə də maarifçiliyə, dürüstlüyə, dövlətçiliyə, həqiqətə xidmət edən qəzetə ehtiyac böyükdür.

– Azərbaycan jurnalist məktəbi sizi qane edirmi?

– Biz hamımız, yaşlı jurnalistlər sovet məktəbi keçmişik. Nə qədər çalışsaq da, sözün geniş mənasında demokratik mətbuata, dünyagörüşünə keçmək işi o qədər də asan deyil. Ona görə də müstəqillik dövrü öz jurnalistikasını yetişdirməlidir. Bu 10 illin, 50 illin işi deyil. Bunu başa düşmək lazımdır. Gələcəyin jurnalistikası indidən yetişdirilməlidir.

XX əsrin əvvəllərində Azərbaycanda bir ali məktəb belə yox idi. Amma jurnalistika ilə məşğul olanların savadı yüksək idi. Həsən bəy Zərdabi Moskva universitetini bitirmişdi. Məhəmməd ağa Şahtaxtinski Almaniyada Leypsiq universitetini bitirmişdi. Hərəsi 6-7 dil bilirdi. Əhməd bəy Ağayev Parisin Sarbonna universitetində təhsil almışdı və 9 dil bilirdi. Ən əsası yazmağı bilirdilər. Əlibəy Hüseynzadə, Üzeyir Hacıbəyov, Əlimərdanbəy Topçubaşov dünya səviyyəsində olan insanlar idi.

XX əsrin əvvəllərində yazarlar, publisistlər Şərq mədəniyyətini, islam mədəniyyətini bilirdilər, sonra Avropanı öyrənirdilər. İndiki ziyalılar, jurnalistlər Şərq jurnalistika tarixini, fəlsəfəsini, mədəniyyətini bilmirlər, Qərbə da hələ sözün həqiqi mənasında yiyələnməyiblər. Bu məsələlərə fikir vermək lazımdır.

4-cü hakimiyyət özündən əvvəlki 3 hakimiyyət üzərində nəzarətçidir və günün tələbini yazandır, ictimai fəaliyyəti həyata keçirəndir. Nöqsanları görmək üçün mətbuat nümayəndəsinin dünyagörüşü, savadı olmalıdır.

– Arxada qoyduğumuz il ictimai-siyasi proseslərlə dolu olsa da, qarşıda daha əhəmiyyətli, vacib hadisələr, kampaniyalar bizi gözləyir. Onların işıqlandırılmasında daha çox nəyi vacib sayıb, diqqəti artırmaq lazımdır?

– Jurnalistlərin tariximizlə ortaq vəzifələri də var. Tarixçilər 10 illiklərin, 100 illiklərin tarixini yazar. Jurnalistlər hər günün tarixini. Ölkəmizdə inkişafın müsbət meyillərini görmək lazımdır, yaxşını görmək pisi görməkdən çətindir.

Təmiz, gözəl paltarın içərisində qara ləkəni görmək asandır. Mən arzu edirəm ki, mətbuat yaxşını görsün. İlk növbədə yaxşını təbliğ etməyi bacarsın. Nöqsanları da tənqid etsin ki, onlar da aradan qalxsın. Jurnalistlər bu məsələ qulluq etməlidir.

– "New Baku Post" qəzetinin 1 illik fəaliyyətini necə qiymətləndirirsiniz?

– Bu gün "New Bakı Post"un 1 yaşı tamam olur. Düz 107 il əvvəl aprelin 7-si "Molla Nəsrəddin" jurnalı işıq üzü görüb. 130 il əvvəl aprelin 10-u Bakıçasarayda "Tərəqqi" qəzetinin ilk sayı çap olunub. Yəni 1 yaşlı qəzetə 107, 130 ildən sonra verilacək qiymətli qəzet kollektivi indidən fikirləşməlidir. Elə qəzet çıxartmaq lazımdır ki, o bizim tariximizlə ayaqlaşsın.

Tariximizi öyrənənlərə yardım elasin.

"New Bakı Post"un 10-15-2 illiyi qeyd olunsun, mətbuatda 1 yiqli yer tutsun. İnanıram olacaq "New Bakı Post"a istəkdir, qəbul yatlı, vətənini sevan, qeyrətli insanlar toplaşıb. 75 nömrə çıxıb. 1 yaş da olduğundan ondan çox şeyi t: etmək də olmaz. Yaşayarıq görə

№ 3-5, (58-60) mart-may 2020 Mədəniyyət

Vətənin daşını ürəyində daşıyan vətəndaş

Vətənin daşını çiynində yox, ürəkdə daşıyarlar! Vətənin daşını çoxa bilmək üçün ilk növbədə böyük hərflərlə VƏTƏNDAŞ olmağın vacibdir.

Şirməmməd Hüseynov

Şirməmməd Hüseynov Beynəlxalq Mətbuat Mərkəzində çıxış edərkən

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Hasan bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məmmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Celil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəsla çatdırılmasında tədqiqatçılıq xidmətlər göstərmişdir. Alimin Azərbaycan Xalq Cümhuriyyəti quruculunun fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti vardır.

Şirməmməd Hüseynov və gənc jurnalist Rastan Rəhimov

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir mərtəbə səviyyəsinə yüksəltmişdir. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olmuşdur. Azərbaycanda müasir elmin elmi kadrların yetişdirilməsində xüsusi əhəmiyyəti vardır.

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir mərtəbə səviyyəsinə yüksəltmişdir. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olmuşdur. Azərbaycanda müasir elmin elmi kadrların yetişdirilməsində xüsusi əhəmiyyəti vardır.

Görkəmli alim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar jurnalist, Bakı Dövlət Universiteti Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru, sağlığında həmişəyaşarlığı qazanmış böyük ziyalımız Şirməmməd Ağamməmməd oğlu Hüseynov 2019-cu il iyunun 24-də, ömrünün 95-ci ilində dünyasını dəyişib və Bakı şəhərində, II Fəxri xiyabanda dəfn olunmuşdur.

Yusif Rəhimov

525-ci qəzet Söz

Canlı əfsanə

Mənim nəzərimdə yaxın tariximizin canlı əfsanələrindən biri-jurnalistikamızın ağsaqqallarından olan görkəmli alim, pedaqoq, mətnşünas, araşdırıcı, BDU-nun professoru Şirməmməd Hüseynovdur. Şirməmməd müəllimə böyük sayğı və ehtiramımın hardan başlandığını düşünəndə marağlı bir hadisə düşür yadıma. Universitetin filologiya fakültəsinin əlaçı və fəal tələbələrindən olduğuma görə dekan müavini Şirməmməd müəllimlə səmimi münasibətlərimiz vardı.

Ədəbiyyat dərnəklərindən tanıdığım, orda coşqun çıxışlar edən Abbas adlı bir yoldaş bir gün mənə yaxınlaşıb "Sənə bir işim düşüb" dedi. Abbas jurnalistikada oxuyurdu, arada ciddi bir yaxınlığımız da yoxdu, nə işi düşə bilərdi mənə? "Buyurl" dedim. Onun xahişi məni təəccübləndirdi. "Şirməmməd müəllim mənə qiymət vermir, heç kimi də eşitmir. Şərtin xətrini istəyir, bəlkə mənim üçün xahiş edəsən. Tələbələrə qarşı daha diqqətlidir, səni eşidər!" "Müəllimləri da eşitmirsə, mənim demeyimin nə faydası?" deyib boyun qaçırmağa çalışdım. Abbas əl çəkmədi.

Axırda macəra edib, utana-utana Şirməmməd müəllimdən Abbasa qiymət yazmasını xahiş etdim.

Mənim bu ərkim və cəsarətimdən əsəbiləşmədi, ancaq söhbətə xitam verən bir şəkilə "O mümkün deyil!" dedi.

Mən də əl çəkmədim: "Niyə?" deyə soruşdum və Şirməmməd müəllimə Abbasa niyə müsbitə etməyimin səbəblərini izah etməyə çalışdım! "Dərnəkdən tanıyıram, millətini sevən, qeyrətli oğlandır".

Şirməmməd müəllim: "Sənin öz yoldaşın xatirinə alınıram, ancaq pis baxmıram. Ancaq öyrənməsə qiymət vermiyəcəyəm. Yaddaşda saxla, nə qədər qeyrətli olur-olsun, savadı, biliyi yoxsa, bir gün biqeyrət olacaq. Qeyrətini göstərmək üçün qərək ağıl, biliyi olsun, yoxsa hər yerdə bumundan vurub oturdacaqlar yerinə gəlir, yavaş-yavaş olacaq gözüqıpıq, biqeyrət".

O qədər dəqiq bir yanaşma idi ki, heç nə deyə bilmədim. Təşəkkür edib ayrıldım. Şirməmməd müəllim bir neçə sözlə biliyin, elmin əhəmiyyətini necə gözəl anlatmışdısa, o sözlər həmişəlik həkk olunduğu yaddaşıma. Aradan uzun illər keçsə də, onun sözünü unutmamışam və dəfələrlə misal çəkmişəm. Boş "mən qeyrətliyəm, vətənimi sevirəm" deməklə düşmən qabağına çıxmaq olmaz. Cəbhənin öz silahı var, dialoqun, masa arxasında, küçədə apardan fikir savaşının öz silahı. Ağıl və bilik silahı!

O söhbətdə mən Şirməmməd müəllimi özüm üçün kəşf etdim və mənə dərs demək də, həmişə müəllim ehtiramı göstərdim ona.

Biliram ki, aramızdakı bu söhbəti o da unutmayıb.

Universitetin IV kursundan "Ədəbiyyat və incəsənət" qazetində işləməyə başladım. Dünənki müəllimlərimin bir çoxunu ayrı mövqedə – kimi görüşün, auditoriyada böyük görünənlərin fərqinə varmadan araşdırmaçı və müəllif kimi cılızlığına təəccübləndim, münasibətlərdə çox yaxınlaşmalar-uzaqlaşmalar oldu. Bəzi müəllimləri mi unuttum, ancaq Şirməmməd müəllim daim öz ucalığında, obyektivliyində qaldı. Universitet müəllimi layoqatini daim qoruda və tələbələrin sevimlisi olmaq statusunu illər uzunu, bu günə qədər qoruya bildi. Cəsarətli vətəndaşlıq mövqeyinə, sözünü hər yerdə mərdi-mərdanə demək bacarığına, şəxsiyyət bütövlüyünə görə sevdiyim insanlardan birinə çevrildi.

Sonra qafildən bizim arzuladığımız günlər gəldi; haminin gözünün qabağında SSRİ, "Titanik" gəmisi kimi, göz görə-görə suyun dibinə getməkdəydi. Lakin hər bir ağıllı adamın gördüyü bu labüd sonluq da bir qoxlarını aylıda bilməmişdi; "bu boyda imperiya dağıla bilmaz, sus, birdən XII Qızıl Ordu gələr, nəslimizi kəsər" psixologiyasıyla yaşayan və düşünənlər çox idi.

Real vaziyyəti görən, sonucun na olacağını düşünməkdən haqiqəti deyən az ziyalı vardı ortada; onlardan biri də Şirməmməd Hüseynov idi.

1989-cu ildə mənim bərpa etdiyim və əsrin sonunda Azərbaycan milli, demokratik mətbuatının ilk qəzetxanqşu olan "Azərbaycan" qəzeti o illərdə bir mahak daşıydı. Bir çoxları qorxularından qəzeta yaxın düşmürdü, ürvanıma yüzlərlə alıqış dolu məktubla yanaşı ölüm hədələri da gəlirdi; bela vaxtda Şirməmməd müəllim bizim ən ürəkli və ardıcıl müəllifimizdəndi. O mətbuat tarixi, Məmməd Əmin Rəsulzadənin fəaliyyəti, 1930-cu illərin qanlı repressiyaları ilə bağlı çox dəyərli yazılar yazır, böyük milli əhəmiyyəti olan sənədləri ortaya çıxarırdı.

Qədim ədəbiyyatımız bir yana, XIX-XX yüzillərin mətbuatını diqqətlə oxuyub inceləyən alimlərimizin, mətnşünasların sayı get-gedə azalır.

Bela bir dönəmdə Şirməmməd müəllim bütün enerjisini Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) və ona qədər kı, demokratik mətbuatın araşdırılmasına, mətnlərin bərpasına və çapına verdi. Xüsusən milli ideologiyamızın liderlərindən, Cümhuriyyətin qurucularından biri olan Məmməd Əmin Rəsulzadənin bir çox əsəri mahz onun qeyrəti, inadkarlığı ilə aşkarlanıb mətbuat sahələrinə çıxarıldı.

Məmməd Əmin Rəsulzadə irsi çox zəngin və çoxtərəflidir. Onun toplanması və nəşri bir elmi institutun işidir. Lakin Şirməmməd Hüseynov bu işlə on illər boyu təkbaşına məşğul olmuşdur.

Rəsulzadənin Türkiyə mətbuatındakı əsərlərini toplayan əziz dostumuz Əli Yavuz Akpınarla Şirməmməd müəllimin bu sahədəki xidmətləri əsl alim qəhrəmanlığıdır.

Şirməmməd müəllim sadiq dost və gözəl insandır. Bu baxımdan onun unudulmaz Xalq şairimiz Bəxtiyar Vahabzadə ilə dostluğu sözümün təsdiqidir. Bəxtiyar müəllimin Bakıdakı və Şəkidəki evlərində ən çox və ardıcıl görüşüyüm ürək sirdaşlarından biri Şirməmməd müəllim idi. Bütün söhbətlərinin başında da Vətən, Millət, Azadlıq, Ədalət, milli problemlərimizin həlli və s. dayanırdı.

Şirməmməd müəllimi heç vaxt, heç yerdə soyuq, biqanə, üreksiz, cəsarətsiz danışan görmədim. Həmişə ən vacib, ən yaxşı bildiyi şeylərdən, ən əsası millətin tale məsələlərindən danışır. Buna görə də yüksək səsla və cəsarətlə danışır.

Mənca onun uzun və şərəfli yaşamağının bir səbəbi də budur.

Səbir RÜSTƏMXANLI
Xalq şairi, millət vəkili

6 dekabr 2013-cü il Azərbaycan müəllimi 3

Qeyri rəsmi

"Prezidentlə görüşmək hər adama nəsib olmur"

Bakı Dövlət Universitetinin professoru, Prezident təqaüdçüsü, əməkdar müəllim Şirməmməd Hüseynovla söhbət

АЗӘРБАЈЧАН МҮӘЛЛИМИ — 3 ЈАНВАР 1992-чи ИЛ.

Али мәктәб мүәллимләримиз

ЧӘДВӘЛӘ ДҮШМӘЈӘН ДӘРС

Тејмур ХӘЛИЛОВ.

525-ci qəzet — Yubiley — 15
29 noyabr 2014-cü il, şənbə

Dörd qoşa saat və bütöv ömür

Rəşad MƏCİD,
"525-ci qəzet"in baş redaktoru,
Mətbuat Şurasının İdarə Heyətinin üzvü

Şirməmməd müəllimlə bağlı yazacağım yazını düşünəndə Mətbuat Şurasının sədri Əflatun Amaşovun bu yaxınlarda mənə yazdığı yubiley təbrikindən bir məqamı xatırladım.

"Mətbuat Şurasının ofisi adi iş axarında idi. Baş redaktorlar, ictimai xadimlər Şuraya toplaşmışdılar. Rəşad da gəlib çıxdı və kabinetə girəcəkdə gördüyü şəxs həmkarımı ənənəvi olaraq hamı ilə görüşmək fikrindən bir anlığa daşındırdı. Birbaşa ona doğru yön aldı. Qarşısında dayandı, əyilərək əlindən öpdü. Azərbaycan jurnalistikasının canlı əfsanəsi Şirməmməd Hüseynov... sözün yaxşı mənasında çaşqınlıq içərisindəydi. Sonradan Rəşad "mən millətimizə, xalqımıza xidmət edən dəyərli insanların əllərindən öpməkdən heç vaxt çəkinmədim. Otağıma gələndə ayağa sıçradım, qabaqlarına yüyürdüm..." yazacaqdı..."

Sonra yadıma düşdü ki, düz on beş il qabaq – 1999-cu ildə professor Şirməmməd Hüseynovun 75 yaşı tamam olanda "525"də onun haqqında kiçik bir təbrik yazısı yazmışdım. Qəzetin cildləyib saxladığımız köhnə nüsxələri içərisindən o yazını tapıb bir də baxdım:

"Dörd qoşa saat və yaxud haçansa yazılacaq məqalə haqqında anons

BDU-nun keçmiş Kommunist küçəsində yerləşən korpusunda Jurnalistika fakültəsində təhsil aldığım vaxtlar yadımda qalan çoxlu hadisələr var. Amma ən yadımda qalanı professor Şirməmməd Hüseynovun bizim qrupa dörd qoşa saat dediyi mühazirələriydi ki, elə o mühazirələrə qulaq asa-asa haçansa Şirməmməd müəllim haqqında mütləq yazacağımı qət eləmişdim. Və həmin o yazının adını da dəqiqləşdirmişdim: "Dörd qoşa saat".

Hələ məşhur yenidənqurmanın başlanğıcında dörd qoşa saat "Burjua jurnalistika"sının mahiyyətini anladan Şirməmməd müəllim həm də bir az ezop diliylə, bir az sətiraltı sözlərlə, bir az mimikayla Sovet mətbuatıyla burjua mətbuatı arasındakı fərqi bizə çox aydınca başa salmışdı. Və bu sətirlərin müəllifinin dünyagörüşündə ilk dəyişik çalarlar, demokratik cücərtilər də, deyəsən, elə o vaxt oyanmağa başlamışdı.

... Sonra 88-ci il gəldi. Burulğanlardan, təlatümlərdən ədləyə-ədləyə keçdiyimiz hər ilin müəyyən məqamlarında mən o yazını yazmağa ehtiyac duydum və elə o təlatümlər də düşündüklərimi kağıza köçürməyə imkan vermədi.

Dünən isə Şirməmməd müəllimin 75-i haqladığını eşitdim.

Təbrik edirəm, bütün tələbələri adından Şirməmməd müəllimi bağrıma basıram, böyük xidmətlərinə görə çox sağ olun deyirəm.

P.S. "Dörd qoşa saat"ı isə mütləq yazacağam".

Xatırladığım üçüncü məqam isə istedadlı, iti müşahidə qabiliyyətinə malik gənc jurnalistimizin dedikləri oldu: "İlk dəfə mən hələ 2010-cu ildə sizin Şirməmməd müəllimlə danışığınıza heyrətlənmişdim. Sonsuz sayğıyla, ehtiramla, ən adi sözü belə möhkəm deməkdən ehtiyatlanaraq, sözlərə nəvaziş qataraq, yumşaq, qayğıkeş danışırdınız".

İndi oturub düşünürəm, nədi axı, 30 il məni bu insana, müəllimə, jurnalistə, şəxsiyyətə qarşı belə sayğıda saxlayan bu hiss?

Şirməmməd müəllimin haqqında hələ özünü görməzdən, dörd qoşa saat mühazirəsini dinləməzdən öncə eşitmişdim; adı gələndə çayxanalarda, jurnalist dairələrində mif kimi, əfsanə kimi, işlədiyim "Elm və həyat" jurnalında isə canlı, doğma, həmının ehtiramla adını çəkdiyi bir insan kimi danışılırdı.

Səksəninci illərdə "Elm və həyat" jurnalında korrektor kimi işə başlamışdım, tanınmış, səmimi iş yoldaşlarım içərisində Ülkər xanım Hüseynova da vardı. Ülkər xanım jurnalın Elm şöbəsinə rəhbərlik edirdi, ciddi, qəliz, çətin mövzulardan yazırdı, fərqli insanlar barədə danışırdı. Mən indi hamımızın qürur duyduğu, məşhur həmyerlimizin – Lütfi Zadənin adını da ilk dəfə Ülkər xanımdan eşitmişdim. Cavan jurnalistlərin dilindən ciddiliyi, sərtliyi barədə müxtəlif hadisələr eşitdiyim Şirməmməd müəllimin adı Ülkər xanımın dilində sadəcə, "Şirməmməd" deyə səslənirdi. Ülkər xanım Şirməmməd müəllimin həyat yoldaşı idi və əlçatmaz müəllimimizin həm də real bir insan olduğunu bizə xatırladırdı. Ülkər xanım dilində indi bütün ölkədə tanınan, musiqimizə, mədəniyyətimizə böyük xidmətlər göstərən Lalə Hüseynovanın, Fərəh Əliyevanın adları da sadəcə, "Lalə", "Fərəh" kimi deyilirdi. Belə müraciət bu insanları da "Elm və həyat" ailəsinin doğma üzvlərinə çevirmişdi.

Bugünlərdə Şəkidə Mətbuat Şurasının təşəbbüsü ilə Azərbaycanın ilk xanım redaktoru Xədicə xanım Əlibəyova ilə bağlı çəkilən filmə baxdıq. Mən Ülkər xanımın Xədicə xanım barədə, onun Şəkidə gördüyü işlər haqqında söhbətinə baxıb yenə "Elm və həyat" ailəsini xatırladım.

Gərək ki, Şirməmməd müəllimin özü ilə ilk dəfə, əslən Şəkidən olan, görkəmli türkoloq alim Aydın Məmmədovla birlikdə oturmuşduq. Mən uzaqdan ehtiram bəslədiyim müəllimimlə birinci dəfə yaxından görüşür, söhbətlərini dinləyirdim.

Sonralar Şirməmməd müəllimlə tez-tez görüşmək imkanımız oldu – Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində, "525"in redaksiyasında, mətbuatla bağlı tədbirlərdə.

Şirməmməd müəllim Məhəmməd Əmin Rəsulzadəni, Üzeyir Hacıbəyovu "525"in müəlliflərinə çevirdi, "Həyat"ın, "İrşad"ın ilk sayları, "Azərbaycan" qəzetinin Cümhuriyyətin 1 yaşına aid sayı latın qrafikasıyla, "525"ə əlavə kimi çap olundu. Cümhuriyyət tariximizlə, mətbuat tariximizlə bağlı ən ciddi məsələlərə Şirməmməd müəllimin münasibətini, tapdığı yeni faktları, üzə çıxardığı yazıları məmnuniyyətlə çap etdik.

Şirməmməd müəllim bizim üçün, bizdən sonrakı nəsillər üçün diqqətin, məsuliyyətin, dəqiqliyin, gördüyü işə hədsiz sevginin simvoludu. Dəfələrlə olub ki, ya özünün təqdim etdiyi, ya da qəzetdə çıxan başqa materiallarda yalnız onun diqqətini çəkə biləcək, yalnız onun sezəcəyi hansısa rəqəmlərə, faktlara aid qeydlərini, düzəlişlərini dərhal telefonla çatdırıb. Əksəriyyətimizə çox xırda, əhəmiyyətsiz görünə biləcək həmin məqamlara son dərəcə həssas münasibəti əslində ona Ustad adı qazandıran müstəsna cəhət, nadir keyfiyyətdir.

Son illər bir neçə dəfə Şirməmməd müəllim qəfildən redaksiyamıza qonaq gəlib. Mən də, redaksiyanın əksər əməkdaşları da onun – Müəllimimizin hüzurunda sayğıyla dayanmışıq. Şirməmməd müəllimlə birlikdə çəkdirdiyimiz şəkillərimizi sosial şəbəkələrdə paylaşmaq fürsətini də fövtə verməmişik.

Təxminən on il qabaq, yaşlı nəslin nümayəndələri hələ yeni texnologiyalara müqavimət göstərdiyi bir vaxtda Jurnalistika fakültəsində, Mətbuat tarixi kafedrasında Şirməmməd müəllim, Cahangir müəllim və mən – üçümüz söhbət edirdik. Birdən cib telefonu zəng çaldı. Mən, ilk ehtimal kimi, Cahangir müəllimə baxdım. Qımıldanmadı. Şirməmməd müəllim əlini pencəyinin cibinə atıb telefona cavab verdi. Güldüm və zövq aldım. Yaşıdları içərisində mobil telefonla ən tez dostlaşanlardan biri olduğuna heyrətlənib sevinmişdim.

İki il öncə Bəstəkarlar İttifaqında Lalə xanımın kitabının təqdimatı keçirilirdi. Tədbirin sonunda Şirməmməd müəllimlə söhbət edirdik. Birdən qayıtdı ki, Rəşad, mən bu səhnədə 1938-ci ildə Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin qarşısında çıxış etmişdim. Tədbir sonunun qələbəliyinə, hay-küyünə görə deyilən fikri tam anlaya bilməmişdim. Bir an duruxandan sonra təəccüblə "Neçənci ildə?" deyə soruşdum. Hadisəni danışdı: "Bugünlərdə Milli Kitabxananın direktoru Kərim müəllim 1938-ci ilin "Bakraboçi"qəzetindən bir məlumatın surətini çıxarıb göndərib mənə. Yazılıb ki, tədbirdə 14 yaşlı Şəki məktəblisi Ş.Hüseynov çıxış edib. O məktəbli mən idim. Onda bura Pionerlər eviydi. Mən də böyük bəstəkarların münsif olduğu müsabiqədə muğam oxumuşdum".

Hərdən bu epizodları dostlara danışır, Şirməmməd müəllimin bizim üçün örnək olmalı bir çox keyfiyyətlərindən söz açıram. O bizim üçün bir Nümunə, gerçək Əfsanə, həm də gözümüzün qarşısında olan canlı Tarixdi!

Belə adamların hüzurunda sayğıyla dayanmaq, əllərindən öpmək isə ümumən mətbuatımıza, tarixi şəxsiyyətlərimizə, müəllimimizə sayğı və hörmətdi!

Əflatun Amaşovun yazının başlanğıcında verdiyim müşahidəsi isə dəqiq və məncə, hamımızın edə biləcəyi, etməli olduğu hərəkətdi!

Elə böyük Müəllimimizin 90 yaşına ehtiramın və minnətdarlığın ifadəsi olan bu yazı da məhz bu sözlərlə bitməlidi – Əllərinizdən öpürəm, Şirməmməd müəllim!..

KASPI — DÜŞÜNCƏ — WWW.KASPI.AZ — 11
29 oktyabr 2019

Biz onu necə sevirdik?!

■ Flora XƏLİLZADƏ, əməkdar jurnalist

Düzlüyün, mərdliyin, böyüklüyün, əsil müəllimliyin simvolu kimi... Mən bu yazımda o unudulmaz şəxsiyyətin nə yaradıcılığından, nə də elmi fəaliyyətindən danışmaq istəyirəm. Qoy bu barədə həmkarları, mütəxəssislər sözlərini desinlər. Əslində alim olmağa nə var, insan olmaq çətindir. Mən bu ali insanın qeyri-adi məziyyətlərini yada salmağa üstünlük verirəm. Həmişə tələbəlik illərini xatırlayanda sevinc və qürurla deyirəm ki, bizim çox yaxşı, cəsarətli müəllimlərimiz olub, bizə məhz kitablarda, dərsliklərdə olmayanları, pünhan saxlanılan mətləblərdən danışıblar. Adlarını da qürurla çəkirəm...

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi bizim çoxumuz üçün ən doğma, müqəddəs məkan, arzularımızın ünvanı sayılır. İndi mətbuatda çalışan peşəkar jurnalistlərin əksəriyyəti məhz bu fakültənin məzunlarıdır. Harada işləməyimizdən, hansı vəzifəni tutmağımızdan, yaşımızdan, eləcə də sosial durumumuzdan asılı olmayaraq bu fakültənin adı çəkiləndə varlığımıza xoş hisslər yayılır, üz-gözümüzə təbəssüm qonar. Çünki bu fakültə jurnalist kimi yetişməyimizdə, formalaşmağımızda və nəhayət, mətbuat aləminə peşəkarlıqla qədəm qoymağımızda mühüm rol oynayıb. Beş ildə bizə dərs deyən müəllimlərimizin qəlbimizdə yaşatdığımız adlarını xatırladıram: Qulu Xəlilov, Mir Cəlal, Nurəddin Babayev, Əzizə Cəfərzadə, Nasir İmanquliyev, Famil Mehdi, Tofiq Rüstəmov, Nəriman Zeynalov, Şamil Qurbanov... Təbii ki, mən məhz sevdiklərimizin adlarını çəkirəm. O gözəl kollektivdən yadigar qalan (Allah ömür versin) Cahangir Məmmədli, Akif Rüstəmov, Mahmud Mahmudov... Və bizim oxuduğumuz dövrdə bu gözəl heyətlə birlikdə qəlbimizə hakim kəsilmiş, sevdiyimiz, həm də qorxduğumuz, çəkindiyimiz dekanımız Şirməmməd Hüseynov. Etiraf edim ki, onun dekan olduğu dövrdə jurnalistika fakültəsi bütün fakültələrdən seçilirdi. Təkcə gözəl kollektivinə, nüfuzuna görə yox, burada ədalət, düzlük hökm sürürdü. Məkkə-Mədinə müqəddəsliyində idi. Tələbə-müəllim arasında elə doğmalıq, səmimi ünsiyyət var idi. Biz buranı bitirib gedəndə çox kədərlənmişdik ki, əzizlərimizdən ayrılırıq. Təbii ki, bu isti münasibətin yaradıcısı Şirməmməd Hüseynov idi.





Ülkər xanım ilə...

Yadımdadır ali məktəbə qəbul olduqdan sonra yuxarı kurs tələbələri bizə müəyyən məsləhətlər vermişdilər. Mühazirələrini dinləmədiyimiz müəllimlərin çoxunu tanıtmışdılar. Hətta onu da başa salmışdılar ki, nəbada filan müəllimə bilə ki, tanınmış qohumunuz, kimsəniz var, sizi mütləq incidəcək ki, ona ağız açdırasınız. Nəhayət, bu hal baş verdi. Növbə mənə çatanda "nəslimizdə yeganə adamam ki, bu fakültədə oxuyuram" dedim. Bir qədər üzümə müəmmalı baxıb "yaxşı" dedi. Bizə Azərbaycan dilindən mühazirələr oxuyurdu. Seminar müəllimimiz ayrı pedaqoq idi. Əməlli-başlı bizi öyrədirdi. O, isə əsasən gecikən "məhəbbət"lə bağlı şeirlər deyirdi. Haqqında da yaxşı fikirlər səslənmirdi. Günlərin birində filologiya fakültəsində təhsil alan qohumum qapını döyüb ondan icazə alaraq mənimlə çox vacib işi olduğunu söylədi. "Flora sənin nəyindi?" sualına aldığı cavabın bombasını yay imtahan sessiyasında başımda çatlatdı: "sən özünə bu qədər arxayınsan, tapşırılmamış imtahana girmisən?" Seminar müəllimim nə qədər məni tərifləsə də, əhəmiyyəti olmadı. Axırda onun tənələrinə dözməyib: "Qeyri-kafi yazın, gedim" dedim. "Yox, sənin qohumlarını yandıracam, bilsinlər, adamı saymamaq nə deməkdir." Qiymət kitabçama kafi yazaraq məni əlaçılıqdan saldı. Dəhlizə çıxanda artıq məni şiddətli ağlamaq tutmuşdu. Haqsızlıq ürəyimi partladırdı. Qəflətən Şirməmməd müəllimlə rastlaşdım. "Nə olub, qızım" deyərək qolumdan tutdu. Dilim kilidləndi. Məni iş otağına apardı, su gətizdirdi. Hardan-hana müəllimənin əməllərindən danışdım. Ağlıma da gəlməzdi ki, Şirməmməd müəllim də nitqində nəsə kobud səslənə bilən ifadə işlədər. Amma "xanım"ın əsil adını dedi və növbəti sessiyada artıq o müəlliməni fakültəyə qoymadı.

Bir hadisəni də heç unutmuram. Deyəsən IV kursda idik, bizə Avakyan adlı birisi "Xaricdə erməni mətbuatı"ndan mühazirələr oxuyurdu. Özümü elə pis hiss edirdim ki, qətiyyən ona qulaq asmaq istəmirdim. Rəfiqələrimi də sövq edirdim ki, bu dərs bizə lazım deyil. Əməlli-başlı mühazirəni pozmaq istəyirdim. Şuluq salırdım, açıqca özünə deyirdim ki, biz səni eşitmək istəmirik. Nəhayət məni dekanlığa çağırdılar. Şirməmməd Hüseynov "Nə olub, niyə nadinclik edirsən?" soruşdu. Çəkinə-çəkinə dedim:

- Nadinclik yox, etiraz edirəm.
- Nəyə?
- "Xaricdə erməni mətbuatı" adlı mühazirələri dinləməyə.
- Nəyi pisdir, gələcəkdə jurnalist olacaqsan, bilməlisən.
- Onda xaricdə Azərbaycan mətbuatını da öyrətsinlər. Türk mətbuatından danışsınlar, Cənub mətbuatından...

Sözümü kəsərək "Qızım, mən səni yaxşı anlayıram, amma sən... O arzuların da çin olar, indi sakit ol, hər şeyin öz zamanı gələcək. Mühazirəyə sakitcə qulaq as, demirəm, sən haqsızsan, amma belə etmə. Mən özüm də bəzi məsələləri düşünürəm. Çalışacam onun ayağını bu fakültədən kəsim. İndi get,d ərsinlə məşğul ol, bir də səndən şikayət gəlməsin". Görünür, erməni nəsə deyibmiş. Həqiqətən sonrakı illərdə o ermənini bir daha fakültəmizdə görmədik.

Tələbəlik illərimdə ali məktəbdə bizə dərs deyən bütün müəllimlərim haqqında xüsusi dəftərçədə öz fikirlərimi qələmə almışam. İndi bu balaca bloknot mənə elə əzizdir ki, çünki düzü düz, əyrini əyri yazmışam. Ən maraqlısı da odur ki sonda çox sevdiyim 5 müəllimin də adını xüsusi qeyd etmişəm və bu siyahıda Şirməmməd Hüseynov da var. Əlbəttə, gənc bir tələbənin düşüncələridir. Onunla bağlı olan qeydlərim mənə də maraqlı gəldi: "Şirməmməd Hüseynov. Dekanımız. Mən indi bildim ki, niyə dekan kəsilən tələbələrin qənimi imiş. Niyə onları haqlı-haqsız incidir, danlayır, hətta qovur. Sən demə, özü zır savadsızların qənimiymiş deyin. "kəsilmiş"lər haqqında pis fikirdə olurmuş. Bu, səhv fikirdir. Bəzən elə yaxşı, savadlı tələbələr haqsızlığa məruz qalırlar ki... Şirməmməd Hüseynov həm də beynəlxalq icmalçıdır. Xarici ölkə mətbuatından dərs deyirdi. Savadlı, məlumatlı, bilikli, olduqca məntiqli insandır. Danışığı da əsil şəkili ləhcəsi...Di gəl belə dərsdə darıx. Heç yorulmazdıq. Əksinə vaxt bitəndə heyifsilənərdik..."

Sonuncu kursda idik Famil Mehdi mənə dedi ki, gəl get bu kafini düzəlt, təzədən imtahan ver, sən qırmızı diplom ala bilərsən. Mən etiraz etdim. Söhbətimizə Şirməmməd Hüseynov da qoşuldu. "Sən narahat olma, biz sənə kömək edəcəyik ki, səndən fərq imtahanını başqa müəllim götürsün, sən o ifritənin üzünü də görməyəcəksən". "Yox, Şirməmməd müəllim, istəmirəm". - dedim. "Yaxşı, qızım, onsuz da yaxşı jurnalist olmaq üçün diplomun hansı rəngdə olması fərq etməz. Mən sənin bacarıqlı jurnalist olacağına inanıram" söyləyərək mənə yeni həyat üçün ilk xeyir-duasını verdi. Ömrüm boyu onun etimadını doğrultmağa çalışdım.

Təyinatla "Azərbaycan müəllimi" qəzetində işləyirdim. Artıq ailə də qurmuşdum. Elnur adlı bir oğlum da var idi. Bir gün onu özümlə işə gətirmişdim. 3-4 yaşı olardı. Şirməmməd Hüseynov redaksiyamıza gəlmişdi. "Dəyirmi masa" ətrafında söhbətimiz var idi. Sonra iş otağımıza gəldi, Elnuru görəndə "bu kimdir, təzə jurnalistdir?" - deyə zarafatla soruşdu. Mən utandığımdan dinmədim. Şöbə müdirimiz şair Cavad Cavadlı şən halda " tələbənizin - Flora xanımın oğludur" dedi. Üzündə qəribə bir təbəssüm yarandı və dərhal da söylədi "Demən ki, nəvəmdir". Bir qəribəliyi də unutmuram ki, o, Elnuru öpərək çox uzaqgörənliklə dedi: "Sən də anan kimi jurnalist olarsan, indidən bu qələmdaşların arasındasan." Xoşbəxtliyə bax ki, bu şəkil də o görüşdən yadigar qaldı və həqiqətən də sonralar Şirməmməd müəllim Elnurun da müəllimi oldu.

2015-ci ildə Bakı Dövlət Universitetində Şirməmməd Hüseynovun 90 illik yubileyi keçirildi. Çalışdığım İctimai televiziyanın adından sevimli müəllimimizi təbrik etməyə məhz mən getməli oldum. Gözəl, yadda qalan bir mərasim idi. Bütün çıxış edənlər çox səmimiyyət və ehtiramla yubilyarı təbrik edir və xoş sözlər deyirdilər. Mən özümü çox xoşbəxt sanırdım. Bilirsinizmi niyə? Çünki həmişə çəkindiyim, sözünün önündə söz deməyə cəsarət etmədiyim bir şəxsin önündə və eləcə də yüzlərlə insanın qarşısında istəkli müəllimimin üzünə baxaraq ürəyimi boşaldaraq, ehtiramımı, məhəbbətimi, diləklərimi bildirəcəkdim. O gün yadıma düşəndə çox kövrəlirəm. Bu unudulmaz şəxsiyyətin indi 95 yaşı tamamlanacaq. Gücüm ötənləri vərəqləməyə çatdı. Bir təsəllim də var ki, bu ali şəxsiyyətin ömür-gün dostu Ülkər xanım Hüseynova mükəmməl bir jurnalist və xeyirxah insan, sədaqətli dost, mehriban anadır. Məktəbdə heç bir saat da müəllim işləməyib. Bu yaşımda onu özümə müəllim və ana bilirəm. Hər dəfə onunla söhbət edəndən sonra özümü qəlbən elə rahat hiss edirəm ki... Yadımdadır, mətbuatla bağlı bir tədbirə getmişdim. Onları qoşa gördüm, dərhal yaxınlaşdım və Ülkər xanımı qucaqladım. Şirməmməd müəllim həmişəki kimi atmacasından qalmadı : "ay bala, sənin müəllimin mənəm, bir mənə sən də bax..." Hələ də anlamıram ki, niyə belə dedim: " İncimıəyin, Şirməmməd müəllim, mən Ülkər xanımı daha çox istəyirəm". Mənalı-mənalı gülümsədi. Hətta evlərinə zəng edəndə də təsadüfən telefonu özü götürəndə səsimi eşidən kimi deyərdi: "hə, bilirəm, Ülkəri istəyirsən..." Bir dəfə onu "Yadigarlar" verilişinə dəvət etdim. Xeyli üzümə baxdı və dedi: " Flora, məni sağlığımda ölənləri yad etməyə çağırma. Onlardan danışan çox olacaq. Məni elə şəxsiyyətləri anmağa dəvət et ki, tamamilə unudulublar..." Əvvəl təəccübləndim, sonra isə bu tövsiyənin mənasını anladım, bəli, Şirməmməd Hüseyov yenə də mənə öz müəllimlik missiyasını xatırlatdı. Unudulmuş unudulmazları yad etməliyik. Unutmayaq ki, bizi də unutmasınlar.

Nə hər müəllim tələbə qəlbinə iz sala bilir, nə də hər tələbə müəlliminin yadında qalır. Sizi bütün tələbələriniz sevirdi, Şirməmməd Hüseynov. Yoxluğunuzla barışa bilmirik. Biz əslində fədakar bir öncülümüzü, müdrik müəllimimizi, örnəyimizi itirdik. Amma... Amması budur ki, sizi sevənlərin hər birinin ürəyində Şirməmməd Hüseynov adlı əbədi bir abidə var. Görün neçə evdə, məktəbdə, redaksiyada, radioda, televiziyada... sizdən dərs alanlar cəmləşib. Bu yaşamaqdı, bu əbədiləşməkdi.

«Azərbaycan» 23/XII/2014 2

Elmə, təhsilə və mətbuata həsr olunan ömür

Dekabrın 22-də Bakı Dövlət Universitetində (BDU) bu ali məktəbin professoru, görkəmli alim və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü Şirməmməd Hüseynovun 90 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

Müvafiq qurumların nümayəndələrinin, Milli Məclis deputatlarının, tanınmış alim və mütəxəssislərin iştirak etdikləri tədbirdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov, jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Şamil Vəliyev professor Şirməmməd Hüseynovun mənalı ömür yolundan, səmərəli elmi və pedaqoji fəaliyyətindən, qazandığı uğurlardan danışıblar.

Prezident İlham Əliyevin 2014-cü il 16 dekabr tarixli sərəncamına əsasən professor Şirməmməd Hüseynovun "Şərəf" ordeni ilə təltif olunduğunu bildirən natiqlər alimi təbrik edib, ona yeni nailiyyətlər arzulayıblar.

Qeyd olunub ki, görkəmli mətbuatşünas, professor Ş.Hüseynov çoxşaxəli elmi yaradıcılığa, zəngin həyat təcrübəsinə malik alimdir.

Ş.Hüseynov 1924-cü ildə Şəkidə anadan olub. 1940-cı ildə Şəki şəhərindəki 2 nömrəli orta məktəbi bitirib, Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxuyub. 1943-cü ildən 1944-cü ilədək Zaqatalada və Şəkidə orta məktəblərdə müəllim işləyib. 1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin (ADU, indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alıb. Bir müddət "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri vəzifəsində işləyib. 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) jurnalistika fakültəsinin aspiranturasında təhsil alıb. 1954-cü ildə MDU-nun jurnalistika fakültəsinin Elmi Şurasında namizədlik dissertasiyasını müdafiə edib.

Daha sonra Ş.Hüseynov ADU-da müxtəlif vəzifələrdə çalışıb, 1970-1976-cı illərdə jurnalistika fakültəsinin dekanı olub. Alim Bakı Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətini uğurla davam etdirir.

Professor Ş.Hüseynov "Həqiqət və ədalət carçısı", "M.Ə.Rəsulzadə", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr" və digər dəyərli kitabların, əsərlərin, məqalələrin, həmçinin çoxsaylı dərslik və dərs vəsaitinin müəllifidir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının irsinin araşdırılmasında alimin xüsusi rolu var.

Ş.Hüseynov daim həqiqətin, haqqın, ədalətin, azad sözün tərəfdarı olub. Alim böyük millət, Vətən təəssübkeşidir. Buna görə də onun üçün ümummilli dəyəri və elmi-tarixi statusu olan sözün və doğruluğun qiyməti çox böyükdür. Ş.Hüseynov elmi axtarış və yaradıcılıq fəaliyyətində tarixin dərslərinə ardıcıl maraq göstərib, ayrı-ayrı fakt, hadisə, problem və şəxsiyyətin barəsində məhz doğruların ortaya qoyulmasına, ictimaiyyətə çatdırılmasına üstünlük verib. Onun çoxsaylı və müxtəlif janrlı əsərləri bu fikirləri təsdiqləyir.

Tədbirdə professor Cahangir Məmmədlinin "Professor Şirməmməd Hüseynovun publisistik fəaliyyəti" mövzusunda məruzəsi dinlənilib.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Tofiq Hacıyev professor Ş.Hüseynovun elmi nailiyyətlərindən, cəmiyyətdə qazandığı böyük nüfuzundan bəhs edib.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov alimin Azərbaycan mətbuatının, jurnalistikasının inkişafındakı mühüm rolundan danışıb.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov professor Ş.Hüseynovun elmə, təhsilə verdiyi töhfələri, yüksək ixtisaslı kadrların hazırlanmasındakı xidmətlərini qeyd edib.

Milli Məclisin deputatı Fazil Qəzənfəroğlu, xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi və başqaları professor Şirməmməd Hüseynovun elm və təhsil sahəsində əldə etdiyi uğurlardan söz açıb, yubilyara xoş arzularını çatdırıblar.

Sonda professor Şirməmməd Hüseynov çıxış edərək Vətən, torpaq sevgisinin müqəddəsliyini vurğulayıb, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

AzərTAc

MÜNDƏRİCAT

Ülkər Hüseynova: Universitetdə keçən ömür ... 5
Bəxtiyar Vahabzadə: Ləyaqət mücəssəməsi ... 12
Rafael Hüseynov: Millət yaddaşının keşikçisi ... 14
Rafael Hüseynov: Millət çayının körpüsalanı ... 23
Rafael Hüseynov: İşlənməmiş 30 qələm ... 36
Rafael Hüseynov: Mənim qədər bilmirsiniz, biz kimi itirmişik! ... 54
Nizami Cəfərov, Cahangir Məmmədli: Müəllimimizin vətən sevgisi yeni təqdimatda ... 57
Əflatun Amaşov: Milli mətbuatımızın unudulmaz patriarxı ... 62
Asif Rüstəmov: Cümhuriyyət adamı ... 65
Bəxtiyar Sadıqov: "Pis kişi" olmaqdan qorxmayan kişi ... 71
Abid Tahirli: Həmişə yaşarlılığın şərti və sirri. Biz hara gedirik ... 78
Abid Tahirli: Müəllim adının ucalığında ... 82
Solmaz Rüstəmova-Tohidi: Əlvida əziz müəllimim ... 83
Qulu Məhərrəmli: Böyük bir epoxa sona yetir ... 84
Solmaz Rüstəmova-Tohidi: Böyük kişilərin əməlləri və ruhları qarşısında təzimlə... ... 85
Teymur Xəlilov: Cədvələ düşməyən dərs ... 91
Cahangir Məmmədli: Ömrümüzün Şirməmməd Hüseynov təsəllisi ... 95
Yunis Oğuz: Ustad getdi ... 101
Aqil Abbas: "Şirməmməd Hüseynovun çox yaşamasının sirri" ... 102
Yusif Rzayev: Müəllim ... 103
Sevda Sabirqızı: Mətbuata xərclənən ömür ... 105
Seyfəddin: Professorun yubileyi M.Ə.Rəsulzadənin ildönümünə təsadüf etdi ... 107
Hikmət Sabiroğlu: Şirməmməd müəllimin dərsləri ... 109
Bəxtiyar Qaraca: Hamımızın müəllimi ... 113
Mirşahin: "Şirməmməd müəllimin mirzəsi" ... 119
Elşad Paşasoy: Şirməmməd Hüseynov adlı "yüksələn bayraq" – ölümündən 1 il keçdi ... 120
Fazil Mustafa: Aydın görünən aydınlar ... 124
Əflatun Amaşov: Şirməmməd müəllimin "şinel"i ... 126
Tofiq Abbasov: Zamanın və sənətin yaradıcısı, təbliğatçısı və qoruyucusu ... 129
Vəsilə Usubova: Sizdən bir də olmayacaq ... 132
Günel: Şirməmməd müəllimin oxşarı yoxdur ... 135
"Şəkinin səsi": "İşığımız sönməyəcəkdir" ... 141

Afaq: "İşıqlı sabaha" addımlayarkən... ... 142
Afaq Məsud: Böyük müəllim ... 144
Vüqar İsgəndərov (deputat): "Şirməmməd Hüseynov milli yaddaşımızın daşıyıcısı idi" ... 146
Hacı Hacıyev: Mücadilənin başlanğıcı. M.Ə.Rəsulzadənin əsərlərinin I cildi ... 148
Ülkər Hüseynova: "Əsri"də bir məzar var ... 151
Sevda İsmayıllı: Tələbənin 40 il qorxduğu professor... ... 154
Tofiq Yusifov: Azərbaycan jurnalistlərinin müəllimi ... 156
Dəvətnamə: Şirməmməd Hüseynov–80 ... 161
Professor Şirməmməd Hüseynovun 80 illik yubileyində (18 dekabr 2004): BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, prof. **Abel Məhərrəmovun** giriş sözü ... 165
Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin dekanı, dosent **Y.Əlizadənin** çıxışı ... 167
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, dosent **C.Məmmədlinin** çıxışı ... 170
Azərbaycan Mətbuat Şurasının sədri **Əflatun Amaşovun** çıxışı ... 171
Sabir Rüstəmxanlı, Xalq şairi, millət vəkili: Şərəfli yaşamağın sirri ... 172
Ülviyyə Əsədzadə: Bizim həyat idealımız ... 175
Bəxtiyar Vahabzadə: 17 dekabr ... 178
İsa Həbibbəyli: Şir Məmməd müəllim ... 179
Nəriman Həsənzadə: Yanar ürək *(ustadın xatirəsinə)* ... 180
Dəmir Gədəbəyli: Alimlər ustadı *(85 yaşlı ustad Şirməmməd müəllimə)* ... 181
Həsən Təhməzli: Babam ... 182
Valeh Nəsibov: Professor Şir Məmməd müəllimin 90 illik yubileyinə ... 184
Aşıq Əhliman Şirvanlı: Şirməmməd müəllimdən sorun ... 185
Şamil Əsgərov: Halaldı, halal! ... 186
Elşad Paşasoy: Şirməmməd Hüseynov: "Ölkəmizdə iqtisadi inkişaf mədəni inkişafı üstələyir" ... 187
Azər Turan: Nura qovuşan ... 191
Pərvanə Məmmədli: Ulusal hafizəmizin daşıyıcısı, Ulusal sevdalısı olan Hocalar Hocası ... 194
Üzeyir Hacıbəylinin ikicildliyinin təqdimatı keçirilmişdir ... 197
Sevinc: Ali media mükafatının qalibləri ... 198
Elşad Paşasoy: Şirməmməd Hüseynovun 87 yaşı tamam oldu ... 199
Elşad Paşasoy: Şirməmməd Hüseynov 88 yaşını iş başında qeyd etdi ... 200

Elşad Paşasoy: "Mən 100 illiyi bayram eləməyə başlamışam" 201
Ellada Umudlu: "Müəllim özü nümunə olmaqla tələbəsini tərbiyələndirə bilər" 204
Yaqut Tapdıqqızı: Qəzet öz dövrü barədə danışmalıdır 209
Mehparə Axundova: Dövrümüzün Zərdabisi 211
Şirməmməd Hüseynov: Rəsulzadə haqqında 4-cü kitabı çap etdirdi 215
Məsaim Abdullayev: Milli dəyərə çevrilmiş böyük ziyalı 216
Tarixin ibrət səhifələri
Ömər Faiq Nemanzadə: Nə etməliyik? 219
Yaqut Tapdıqqızı: Yaxşını görmək bacarığı 222
Ellada Umudlu: "Prezidentlə görüşmək hər adama nəsib olmur" 225
Cavanşir Feyziyev: Şirməmməd Hüseynov zirvəsi 231
Akif Rüstəmov: Açıq sözlü, həyat nəfəsli müəllim 234
Elşad Paşasoy: "NKVD"-nin "tam məxfi" materialında Rəsulzadə kimdir? 237
183 yaşlı məktəbdə görüş 241
AzərTAC "Azərbaycan" qəzeti: Elmə, təhsilə və mətbuata həsr olunan ömür 243
AzərTAC "Xalq" qəzeti: Elmə, təhsilə və mətbuata həsr olunan ömür 245
Rəşad Məcid: Dörd qoşa saat və bütöv ömür yolu 246
Könül Niftəliyeva: Klassik publisistikamızın yeni tədqiqat faktı 250
Elşad Paşasoy: "Daş heykəlləri zamanın küləyi apara bilər, mənəvi heykəllər isə millətin qanına, ruhuna işləyir" 253
Fazil Mustafa: Təqaüdünü millətinə xərcləyən kişi... ..... *258*
Rüfanə Günəş: Şirməmməd Hüseynovun Bəxtiyar Vahabzadə ilə bağlı xatirələri 260
Z.Əliyeva: Şirməmməd Hüseynov Tərcümə Mərkəzində 264
Zülfüqar Hüseynzadə: Şirməmməd Hüseynovdan Bəxtiyar Vahabzadə ilə bağlı ilginc açıqlamalar... 267
Bakı Dövlət Universitetində Şirməmməd Hüseynovun 90 illik yubileyi qeyd olundu 282
Maral Poladova: "Narahat olmayın, o, babanın bizə yadigarıdır..." 284
Flora Xəlilzadə: Biz onu necə sevirdik? 296
Çingiz Ənvəroğlu: Mənəvi atamız 291
Ülkər Hüseynova: Nəslin davam edəcək 294
Flora Xəlilzadə: Ucalığa qovuşan illər 296
Yusif Rəhimov: Vətənin daşını ürəyində daşıyan vətəndaş 299

Ellada Umudlu: Şirməmməd Hüseynov: "Araq içən deyiləm, papiros çəkən deyiləm, rüşvət alan deyiləm!" 301
İzolda Heydərova: Şirməmməd Hüseynov Rəsulzadənin əsərlərinin növbəti cildini cap etdirdi 307
Vüqar Əhməd: Böyük ömrün və parlaq zəkanın misilsiz bəhrələri: Şirməmməd Hüseynov 308
Azad Şərif: Bakıda jurnalistlər sülaləsi 312
ŞİRMƏMMƏD MÜƏLLİMİN 95 İLLİYİNİ TƏLƏBƏLƏRİ QEYRİ-ƏNƏNƏVİ YOLLA QEYD ETDİLƏR 315
"525-ci qəzet"in dekabrın 17-də Şirməmməd Hüseynova həsr olunmuş xüsusi nömrəsini buraxdılar.
Mətbuat tariximizdə belə analoqlar nadir olduğundan "525-ci qəzet"in həmin nömrəsini bütünlüklə veririk.
Ustad. "525-ci qəzet". Xüsusi buraxılış.
Professor Şirməmməd Hüseynovun 95 illiyinə həsr olunur 317
Elçin Babayev: Ləyaqət və həqiqət simvolu: Şirməmməd Hüseynov 318
Alxan Bayramoğlu: Riyaziyyatçı jurnalist 320
Könül Niftəliyeva: Milli tariximizin istiqlal səhifələri 322
Aygün Əzimova: Milli yaddaşın və milli ruhun simvolu: Şirməmməd Hüseynov 324
Vüqar Zifəroğlu, Zamir Xalidoğlu: Böyük jurnalist və yorulmaz tədqiqatçı-alim 326
Azərbaycan ziyalıları Şirməmməd Hüseynov haqqında 329
Şirməmməd Hüseynovun tədqiqatları 338
Şirməmməd Hüseynov haqqında kitablar 343
Şirməmməd Hüseynov jurnalistlərin xatirələrində 345
Şirməmməd Hüseynov iş yoldaşlarının xatirələrində 355
Aslan Aslanov: Şirməmməd Hüseynov məktəbinin məzunu olmaq böyük fəxarətdir 364
Günel Mehdizadə: Şirməmməd müəllim Real Tv-də 365
Yusif Hüseynov: Haqqın öz səsi 367
İlk cümhuriyyətimiz: olmuşlar və düşüncələr.
"Odlu yurd" çıxarkən 370
"Qafqasya dağlıları" 373
Diqqət ediləcək bir ixtifal (mərasim) 375
Onuncu ildə!... *(Azərbaycan "Çeka"sının ildönümü münasibətilə)* 376
"Müsavatçı" komsomollar 377
Milli bayrağımıza! 379
Əli Yusif: Cavad 380

Günel Mehdizadə: "Gözümdən silinməyən xatirələr" 381
Rafiq Rəhimli: O, çox elmli və cəsarətli müəllim idi!!! 385
Dilqəm Əhməd: Redaktordan 390
Cümhuriyyətin mühafizi vəfat etdi 391

ŞİRMƏMMƏD HÜSEYNOVUN ARXİVİNDƏN 393

50 il əvvəl. Ali təhsilli jurnalistlərin ilk buraxılışı 394
Şirməmməd Hüseynov: Cəfər müəllim haqqında qəzetdə yazdıqlarımız, yaddaşımda qalanlar 397
Şirməmməd Hüseynov: Bir xatirəyə dair kiçik bir xatirə (2003) 402
Şirməmməd Hüseynov: Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Süleyman Tatlıyev yoldaşa (1986) 403
Azərinform "Həyat" qəzeti (1991):
Zərdabi mükafatının ilk laureatları 404
İsmail Çauşev: Bolqarıstanın paytaxtı Sofiyadan Ş.Hüseynova və jurnalistlər fakültəsinə məktub 405
Şirməmməd Hüseynov: İki məktub, dostluq düşüncələri, əziz xatirələr (07.VII.2000) 406
Ən çətin yazılan məktub 408
Гусейнов Ш.А.: В редакцию газеты "Правда" (1985) 410
Б.Вагабзаде, член-корреспондент АН Азерб. ССР; Гусейнов Ш.А., кандидат исторических наук, доцент:
В редакцию газеты "Правда" (1987) 411
Гусейнов Ш.А.: В редакцию газеты "Правда" (1988) 413
Гусейнов Ш.А., Б.Вагабзаде: Нельзя упрощать! (январь 1988) 415
Гусейнов Ш.А, Б.Вагабзаде: Москва. Съезд народных депутатов депутатской группе Азербайджана тов. Везирову (1988) 418
Şirməmməd Hüseynov: II Dünya müharibəsi və M.Ə.Rəsulzadənin mövqeyi 419
Şirməmməd Hüseynov: Stalinin Rəsulzadə təşvişi 421
Şirməmməd Hüseynov: Многоуважаемый тов. Демирчян! (1984) 423
Əlirza Xələfli, "Kredo" qəzetinin baş redaktoru: Ustad haqqında nəğmə, Ədəbiyyat qarşısında düşüncələr 424

HAQQINDA YAZILAN KİTABLAR 431

UZUN ÖMRÜN QISA ANLARI 441

QEYD

QEYD

Ülkər Hüseynova

CÜMHURİYYƏT ADAMI

Bakı–2021

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Dizayner – Məhiyəddin SEYİDOV
Kompüter yığımı – Rəşid KƏRİMLİ
Cildçi – Gövhər NURULLAYEVA
Çapçı – Oqtay YUSİFOV

Kitab "AFPoliqrAF" mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.

afpoliqraf@mail.ru | Tel.: +994 (12) 510 96 74
afpoliqraf@gmail.com | Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 16.08.2021
Çapa imzalanmışdır: 10.11.2021
Qarnitura: Times New Roman, Palatino Linotype
Şərti çap vərəqi: 33
Formatı: 70x100 1/16
Tiraj: 100

Az 2021
3076



Şirməmməd ustadın yaşı bir əsri
haqlayır və bu uzunluqda
ömür boyunca daim millət eşqi ilə,
yurda fayda verməklə yaşamış,
həmişə göründüyü kimi olub
olduğu kimi də görünmüş daha neçə
həmvətənimiz var?

akademik
Rafael Hüseynov

9 789952 541458